Azərbaycan Turizm və Menecment Universiteti



“Müasir dövrdə effektiv idarəetmənin problemləri”

mövzusunda

Respublika elmi-praktiki konfransının

MATERİALLARI

30 noyabr



Bakı 2018

Azərbaycan Turizm və Menecment Universiteti

“Müasir dövrdə effektiv idarəetmənin problemləri”

mövzusunda

Respublika elmi-praktiki konfransının

MATERİALLARI

30 noyabr

Məhərrəm ZÜLFÜQARLI

Azərbaycan Turizm və Menecment Universiteti

mzulfuqarli@gmail.com

Sovet dövründə mədəniyyətin idarə edilməsinin xüsusiyyətləri

(XX əsrin 50- 60-cı illərinin tarixşünaslığı)

Особенности управления культурой в советское время

(Историография 50-60 годов XX века)

Characteristics of culture management in the Soviet era

(Historiography of 50-60th centuries of XX century)

Açar sözlər: sovet rejimi, tarixin saxtalaşdırılması, tarixşünaslıq.

Key words: Soviet regime, regional conflicts historiography.

Ключевые слова: Советский режим, фальсификация истории, историография

Sovet dövründə mədəniyyətin idarə olunmasında hakim kommunist partiyası həledici rola malik idi. Mədəniyyət inzibati amirlik sistemi ilə idarə olunur, mədəniyyət sahəsində çalışanlar yuxarıların göstərişi əsasında fəaliyyət göstərirdilər. Kommunist partiyası digər sahələr kimi mədəniyyət və incəsənət sahəsini də öz inhisarına alaraq onu sovet rejiminin təbliğat alətinə çevirirdi. Mədəniyyət sahəsində yaradılan "Bəstəkarlar İttifaqı", "Rəssamlar İttifaqı", "Yazıcılar İttifaqı" və digər birliklər məhz bu inhisarın bariz nümunəsi idi. "Sovet mədəniyyətinin formaca milli, məzmunca sosialist" mahiyyəti kəsb etməsi haqqında fikirlər isə reallığı əks etdirmir, tarix saxtalaşdırılırdı.

Sovet dövründə mədəniyyətin idarə edilməsinin bu xüsusiyyətlərini o dövrün tarixşünaslığının təhlili vasitəsilə açıq-aydın görmək olur. Sovet dövrü 70 illik bir dövrü əhatə etdiyindən bu məqalədə biz yalnız XX əsrin 50- 60-cı illərinin tarixşünaslığının təhlili ilə kifayətlənməyi lazım bildik.

XX əsrin 50-60-cı illərində Ş.Mirzəyeva, M.Qurbanovun, M. Mehdizadə, H.Həsənov və başqa müəlliflərin kitablarında (4,8,11) A. Atakişiyevin dissertasiyasında sovet mədəniyyətin idarə olunmasının xüsusiyyətlərini açıq, aydın görmək olar.

M.Q.Qurbanovun rus dilində çap olunmuş “Sovet Azərbaycanın mədəniyyəti” adlı kitabında Azərbaycanda sovet hakimiyyəti illərində mədəniyyətin müxtəlif sahələrinin inkişafı tədqiq edilib. Müəllif digər sovet müəllifləri kimi sovet hakimiyyətinə qədər Azərbaycan xalqının mədəni cəhətdə geri qaldığını, məhz sovet hakimiyyəti sayəsində xalqın mədəni səviyyəsinin yüksəldiyini faktlarla sübut etməyə çalışıb. Müəllif həmçinin sovet mədəniyyətinin burjua mədəniyyətindən fərqli xüsusiyyətə malik olduğunu, onun sinfiliyini, partiyalılığını, xəlqiliyini müsbət cəhət kimi təqdim edib.

H.Həsənovun 1960-cı ildə çapdan çıxmış “Azərbaycan Kommunist Partiyasının mədəni quruculuğu genişləndirmək uğrunda mübarizə tarixindən” kitabında kommunist partiyasının rəhbərliyi ilə mədəniyyət sahəsində həyata keçirilmiş bütün tədbirlərin yalnız müsbət cəhətləri işıqlandırılıb. Müəllif Azərbaycanın sovet hakimiyyətinə qədər mədəni sahədə həddindən artıq geri qaldığını, sovet hakimiyyətinin xalqa xoşbəxlik bəxş etdiyini faktlarla sübut etməyə çalışıb. Adından göründüyü kimi kitabda tədqiqat birtərəfli aparıldığından mədəniyyət sahəsində yol verilmiş nöqsanlar, mədəni inqilab dövründə xalqın mədəniyyətinə, mənəviyyatına vurulan yaralar, dağıdılan mədəni abidələr haqqında məlumat verilməyib. Sovet hakimiyyəti illərində mədəniyyət sahəsində buraxılmış bu cür səhvlərin kitabda öz əksini tapmaması tədqiqatın elmi dəyərini aşağı salır.

A.M.Atakişiyevin 1970-ci ildə “Geniş kommunizm quruculuğu dövründə Azərbaycan SSR-in mədəniyyəti (1959-1969-cu illər)” mövzusunda yazdığı doktorluq dissertasiyası 60-cı illər Azərbaycan mədəniyyətinə aid yazılmış tədqiqat işləri arasında həcminə və faktiki materialların zənginliyinə görə fərqlənir. Müəllif sovet tarixşünaslığı ənənələrinə sadiq qalaraq formaca milli, məzmunca sosialist mədəniyyətinin üstünlüklərini ön plana çəkərək yerli faktlar əsasında Azərbaycan mədəniyyətinin 10 illik bir dövrdəki vəziyyətini tədqiq edib. Müəllif mədəniyyət sahəsində sovet cəmiyyətinin üstünlüklərinin təbliğini əsas məqsəd kimi qarşıya qoyaraq mədəniyyətin, incəsənətin, ədəbiyyatın partiyalığını, sinfiliyini yüksək qiymətləndirib.

Lakin ədalət naminə demək lazımdır ki, sovet idarəçiliyinin inzibati amirliyinə, qadağalarına, sərt senzurasına baxmayaraq bir sıra müəlliflər mədəniyyət aid bir çox əsərlər yazmışdılar ki, həmin əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Bunlardan M.Məmmədov, C.Məmmədov, N.Həbibov, F.Şuşinski və

başqa tədqiqatçıların Azərbaycan mədəniyyəti, maarifi, incəsənətinə aid yazdıqları kitab və məqalələri göstərmək olar (3,5,6,7,10). Bundan başqa A.M.Şərifzadə H.Ərəblinski, C.Qaryağdıoğlu, C. Cahangirov, və başqa incəsənət xadimlərinin həyat və yaradıcılığına aid də kitablar nəşr olunub (1, 2, 9,10).

Yekun olaraq qeyd etmək lazımdır ki, sovet dövründə mövcud olmuş totalitar idarə sistemi digər sahələrdə olduğu kimi mədəniyyətin də inkişafına mane olmuşdur. Bu sistem yaradıcı insanların sərbəst fəaliyyətinə imkan verməmiş, onların istedadından öz məqsədləri üçün istifadə etmişdir. Lakin bütün bunlara baxmayaraq Azərbaycan xalqı sovet dövründə də digər sahələrdə olduğu kimi mədəniyyət sahəsində də çoxlu istedadlar yetirmişdir. Bu da Azərbaycan xalqının dərin mədəni köklərə malik xalq olduğunu bir daha sübut edir.

Ədəbiyyat siyahısı:

1. Cahangir Cahangirovun həyat və yaradıcılığı haqqında sənədlər.Bakı,Azərnəşr 1967,46 s.
2. H.Ərəblinski. Aktyorun həyat və fəaliyyətinə dair sənədlər məcmuəsi. Bakı, Azərbaycan SSR Azərbaycan Teatr Cəmiyyəti,1967,104 s.
3. Həbibov N. Azərbaycan Sovet rəssamlığı. Bakı,Azərnəşr,1966,188 s.
4. Mehdizadə M. Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, Azərnəşr,1958, 328 s.
5. Məmmədov C. Azərbaycan SSR xalq artisti Ələsgər Ələkbərov. Bakı 1960, 68 s.
6. Məmmədov M. Hüseyn Ərəblinski : Həyat və yaradıcılığı. Bakı, Azərnəşr, 1968, 60 s.
7. Məmmədov C.Azərbaycan SSR xalq artisti Ələsgər Ələkbərov. Bakı, 1960, 68s.
8. Mirzəyeva Ş. Ədəbiyyat və incəsənətin Lenin partiyalığı prinsipi. Bakı, Azərbaycan SSR EA,1965, 338 s.
9. Şərifzadə A.M. haqqında xatirələr.Bakı, Azərbaycan Teatr Cəm.,1963, 171 s.
10. Şuşinski F. Cabbar Qaryağdıoğlu.Bakı, Azərnəşr, 1964, 101 s.

Rus dilində

11. Курбанов М.К. Культура Советского Азербайджана. Баку 1959, 132 с.

Elmira QOCAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
qocayeva-e@rambler.ru
İlahə ƏLİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
i.aliyeva@atmu.edu.az

Azərbaycanda Ümumdünya Ticarət Təşkilatının xarici iqtisadi fəaliyyətinin stimullaşdırılması

Стимуляция внешнеэкономической деятельности Азербайджана Всемирной торговой организацией

Promoting Foreign Economic Activity of the World Trade Organization in Azerbaijan

İnkişaf etmiş ölkələrin, eləcə də son zamanlarda özünün iqtisadi inkişaf səviyyəsini hiss edilə biləcək dərəcədə yüksəldilməsinə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, xarici ticarətin tənzimlənməsi bütöv, effektiv və dinamik, eləcə də dünya təsərrüfat əlaqələrinə bərabər hüquqlu əsaslarla daxil edilmiş milli iqtisadiyyatın yaradılmasına istiqamətləndirilmiş kompleksli iqtisadi strategiyanı tərkib hissəsi olmalıdır.

Ümumdünya ticarət təşkilatının bir çox digər sazişləri buna istiqamətlənirdi ki, investisiya fəaliyyəti və ticarət həyata keçirildiyi çərçivələrdə şərtlərin öncədən proqnozlaşdırılması və müəyyənləşdirilməsi səviyyəsini yüksəltmək mümkün olsun, bunun oyun qaydalarını əsassız surətdə, özbaşına dəyişmək imkanları nöqteyi-nəzərdən üzv-dövlətlərin hökumətlərinə əhəmiyyətli çətinliklərin yaradılmasını təmin edən qaydaların tətbiq edilməsi vasitəsilə həyata keçirilməsi nəzərdə tutulurdu. Ticarət məsələləri ilə təmasda olan, praktiki cəhətdən, bütün sahələrdə üzv-dövlətlər tərəfindən razılaşdırılmamış, diskriminasiya xarakteri daşıyan və proteksionist tədbirləri həyata keçirmək imkanları Ümumdünya ticarət təşkilatı çərçivəsində dövlətlərin öz üzərinə götürdükləri öhdəliklərlə məhdudlaşdırılır [2, səh. 26].

Özünün dövlət müstəqilliyinin 1991-ci ilin sonunda bərpası günündən başlayaraq Azərbaycan son dərəcə mürəkkəb bir yol qət etmişdir. Bura həm Ermənistanın birbaşa hərbi təcavüzü aiddir ki, bunun nəticəsində hal-hazıra qədər ölkə ərazisinin 20 faizi erməni hərbi birləşmələrin işğalı altında qalmaqda davam edir, bir milyon yaxın Azərbaycanlı isə öz doğma torpaqlarında, öz vətənində qaçqın və məcburi köçkün olmuşdur; həm ənənəvi təsərrüfat subyektləri ilə inteqrasiyalı və korporativ əlaqələrin pozulması daxildir.

Azərbaycanın ümumdünya ticarət təşkilatında və, beləliklə, tektsil məmulatları və geyim üzrə sazişdə tamhüquqlu əsaslarla iştirakı yerli əmtəə istehsalçılarına bu məhsulların ticarət olunduğu bazarlara daha açıq və sərbəst girişini təmin edəcək, tekstil məmulatları və geyimin ticarət edilməsinin ədalətli və bərabərhüquqlu şəratin bərqərar olunmasına yardımçı olacaq, xarici partnyorlar tərəfindən Azərbaycan məhsullarının diskriminasiyasına imkan verməyəcək.

Tekstil məmulatların ticarətinin birtərəfli kvota və məhdudiyyətlər əsasında deyil, məhz çoxtərəfli əsasda razılaşdırılmış qaydaların köməyi ilə tənzimlənməsi bu sahədə ölkənin malik olduğu ixrac potensialını daha geniş surətdə istifdə etməyə imkan verəcəkdir.

ÜTT-nin tələbləri kontekstində Azərbaycanın xarici iqtisadi fəaliyyətinin stimullaşdırılması. Xarici ticarətdə dövlət inhisarının 1997-ci ildə ləğv edilməsi və qiymətlərin liberallaşdırılması ticarət siyasətini xarici ticarətin inkişafının ən effektiv alətlərindən birinə çevirmişdir. Yuxarıda deyildiyi kimi, həmin ildə Azərbaycan ÜTT-yə üzv olmaq məqsədilə həmin təşkilata müraciət etmişdir. Niyyətlərinə uyğun olaraq, Azərbaycan öz xarici iqtisadi fəaliyyətini yenidən qurmağa başlamışdır.

Hal-hazırda kənd təsərrüfatı ixracına dair ixrac subsidiyaları tətbiq edilmir. Ancaq Azərbaycan hökuməti yerli istehsalın stimullaşdırılması və ixracın təşviqi məqsədilə ən yaxın gələcəkdə ixrac subsidiyaların tətbiq edilmə mümkünlüyünü nəzərdən keçirir (bu məsələ Azərbaycanın Ümumdünya ticarət təşkilatına daxil olması üzrə danışıqların aparılması zamanı müzakirə olunacaq) [1, səh. 632].

Xarici ticarət dövriyyəsi (mlyn.ABŞ dolları)

	2012	2013	2014	2015	2016
İdxal	9652,9	10712,5	9187,7	9216,7	8532,4
İxrac	34160,6	32841,6	30219,8	16592,3	13118,4
Dövriyyə	43813,5	43554,1	39407,5	25809,0	21650,8
Saldo	24507,7	22129,1	21032,1	7375,6	4586,0

Mənbə: DSK 2018, səh. 632

Toxumlar, gübrələr, furaj, kənd təsərrüfatı təyinatlı maşın və avadanlıqlar, əlavə dəyərin istehsalında istifadə olunan ehtiyyat hissələri və komplektləşdirici hissə və detallar idxal rüsumlarından azaddır.

Eyni zamanda, pambıq (yaxın zamanlara qədər valyuta daxilolmaların əsas mənbəyi), üzüm, çay, tütün kimi əsas ənənəvi ixrac məhsullarının istehsalı və ixracı əhəmiyyətli dərəcədə azalmışdır. Belə ki, ümumi ixrac həcmində kənd təsərrüfatı məhsulunun xüsusi çəkisi 2003-cü ildə cəmi 3,9 faiz təşkil etmişdir [1, səh. 502].

Cədvəl 1.

Kənd təsərrüfatı məhsullarının ümumi yıgımı və məhsuldarlıgı, min ton

Məhsullar	2010	2013	2014	2015	2016
Pambıq	38,2	45,2	41,0	35,2	89,4
Çay	0,54	0,57	0,47	0,58	1,02
Tütün	3,2	3,5	2,9	3,5	3,6
Üzüm	129,5	148,5	147,7	157,1	136,5

Mənbə: DSK 2018, səh. 502

Aqrar sektorda xarici iqtisadi fəaliyyətin stimullaşdırılması məqsədilə kənd təsərrüfatı sektorunda istehsal edilən məhsulun emalı ilə məşğul olan sahələri daha sürətli templərlə inkişaf etdirmək lazımdır. Bununla paralel olaraq, kənd təsərtüfatı məhsulunun təhlükəsizlik səviyyəsinin yüksəldilməsi də böyük əhəmiyyət kəsb etməyə başlayır. Bu iki tədbir kənd təsərrüfatı üzrə ÜTT-nin sazişinə tam uyğun gəlməlidir. Həmin saziş, məlum olduğu kimi, subsidiyaların ləğv edilməsi və bütün qeyri-maliyyə maneələrin tarifikasiyası yolu ilə aqrar sektorunun ixrac imkanlarının genişləndirilməsi məqsədini güdür. Bu zaman, həm daxili istehlak, həm də ixrac olunması üçün kənd təsərrüfatı məhsulu ilə bazarın təmin edilməsinə yönəlmiş bütün stimullaşdırıcı tədbirlər tam şəkildə Ümumdünya ticarət təşkilatının normaları və tələbləri çərçivəsində olmalıdır [3, səh.55].

1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın milli iqtisadiyyatında əldə edilmiş sabitlik sonradan güclü makroiqtisadi inkişafın təməli rolunda çıxış etmişdir. Ölkəyə daxili investisiyaların cəlb edilməsi, xarici iqtisadi əlaqələrin yaradılması, maliyyə sabitliyin təmin edilməsi və bu kiimi digər amillər, son nəticədə, 1997-ci ildən etibarən başlıca makroiqtisadi göstərici kimi dəyərləndirilən Ümumi Daxili Məhsulda özünü tam açıqlığı ilə göstərmişdir. Neft sektorunda əldə olunmuş nailiyyətlər, həmin sektordan qazanılan gəlirlər hesabına iri investisiya layihələrin həyata keçirilməsi, son bir neçə il ərzində dövlət büdcəsinin gəlirlərində 2 dəfəyə qədər artımın baş verməsi, xarici iqtisadi əlaqələrin genişlənməsi, regionların inkişafına hökumət tərəfindən daha ciddi diqqət və qayğının göstərilməsi, bir sıra dövlət proqramlarının həyata keçirilməsinə başlanılması və bir çox digər buna oxşaq amillər Azərbaycanın sürətli iqtisadi inkişafının təməlinə çevrilmişdir. Aparılmış təhlillər göstərir ki, milli iqtisadiyyatımızda inkişaf proseslərinin sürətlənməsi həmçinin iqtisadiyyatın sahələrinin ixrac potensialının istifadəsi imkanlarını da artırmışdır. Ancaq bununla yanaşı bir sıra strateji sahələrin ixrac potensialının tənzimlənməsi zərurəti də meydana gəlmişdir [1, səh. 38 – 39].

Cədvəl 2.

Azərbaycan Respublikasında 2012-2016-cı illərdə ÜDM-in artımının dinamikası, mlyn. man.

Göstəricilər	2012	2013	2014	2015	2016
ÜDM	54743,7	58182,0	59014,1	54380,0	60393,6

Mənbə: DSK 2018, səh. 38 – 39.

Biz belə düşünürük ki, iqtisadi inkişafı stimullaşdırmağa, ixrac potensialının istifadəsinin artırılmasına imkan verəcək səviyyədə gömrük tariflərinin tənzimlənməsinin təkmilləşdirilməsi bugünkü günün ən aktual tələblərindən biridir. Xarici ticarətdə ixrac potensialının daha dolğun şəkildə əks olunması məqsədilə bu məsələyə diqqətin yetirilməsi vacibdir.

Beləliklə, dünya iqtisadi böhran şəraitində ixrac potensialının tənzimlənməsinin xüsusiyyətləri Beynəlxalq iqtisadi inteqrasiyanın sürətləndirilməsi, qloballaşma proseslərin baş verməsi şəraitində dünya iqtisadiyyatı, habelə dünya təsərrüfat sistemi vahid sistem formasının qəbul edilməsi istiqamətində inkişaf edir. Bu nöqteyi-nəzərdən milli iqtisadiyyat daha həssas olmağa başlayır, dünyanın hər hansı regionunda baş verən iqtisadi proseslərə daha tez bir surətdə reaksiya verməyə başlayır. Dünyanın müxtəlif regionlarına, ölkələrinə dünya iqtisadi böhranının yayılma sürəti 40-50-dən də çox il bundan əvvəlki dövrü ilə müqayisədə hazırki dövrün analoji göstəricilərindən kifayət qədər kəskin fərqlənir. İnformasiya texnologiyaların sürətlə inkişaf etməsi, fond birjalarının inkişaf səviyyəsi, coğrafi nöqteyi-nəzərdən xarici ticarət əlaqələrin sürətlə genişlənməsi və bu kimi digər amillər qlobal böhranların yayılma sürətini əhəmiyyətli dərəcədə artırmışdır. Çağdaş dövrümüzdə cəmi bir neçə saat kifayət edə bilər ki, misal üçün, Amerika qitəsində başlamış böhran Asiya qitəsinin ölkələrinə təsir göstərsin, yaxud əksinə.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Dövlət Statistika Komitəsi, Bakı -2017, 814 səh.
2. Arif Şəkərəliyev// Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. //Bakı, 2009, 347 səh.
3. Vüqar Bayramov//Azərbaycanın ÜTT-ə Üzvlük Prosesinin Qiymətləndirilməsi üzrə Siyasət Sənədi//Bakı, 2010, 125 səh.
4. Vaqif Rüstəmov, Faiq Camalov, Rəşad Dayıyev//Ümumdünya Ticarət Təşkilatı terminlərinin izahlı lüğəti//Bakı, 2008, 197 səh.

Əzizə ƏLİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
azizaaliyerva@gmail.com

İXRAC POTENSIALININ SƏMƏRƏLİ İSTİFADƏSİNDƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFI VƏ ONUN İQTİSADİ ƏHƏMİYYƏTİ

THE DEVELOPMENT OF THE NATIONAL ECONOMY AND ITS ECONOMIC SIGNIFICANCE IN THE EFFICIENT USE OF EXPORT POTENTIAL

РАЗВИТИЕ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ И ЕЕ ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ В ЭФФЕКТИВНОМ ИСПОЛЬЗОВАНИИ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА

Xülasə: Müəllif qeyd edir ki, inkişaf etmiş iqtisadiyyata malik digər ölkələrdə olduğu kimi, Azərbaycanda da ticarətdə geniş miqyaslı islahatların həyata keçirilməsi dayanıqlı iqtisadi artımın əldə olunması nöqteyi-nəzərdən olduqca böyük əhəmiyyətə malikdir. Beləliklə, ticarət iqtisadiyyatın inkişafının, məhsulun və xidmətlərin istehsalının artırılmasının, investisiyaların çoxalmasının mühüm rıçaqıdır. Hal-hazırda Azərbaycan dünyanın bir çox ölkələri ilə birbaşa ticarət əlaqələri qurmağa nail olmuşdur, MDB dövlətlərinin, Qara dəniz iqtisadi əməkdaşlığın azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısıdır.

Açar sözlər: ticarət, ticarət zonası, iqtisadi əməkdaşlıq, ixrac, beynəlxalq iqtisadiyyat.

Abstract: The author notes that in Azerbaijan also is important realising the large-scale reforms in trade for achieving sustainable economic growth as well as in other dveloped countries. Thus, trade is an important factor in the development of the economy, increasing the production of goods and services, and the growth of investments. At present, Azerbaijan has been able to establish direct trade relations with many countries around the world, and is a member of the Treaty on the establishment of a free trade area of the Black Sea Economic Cooperation and CIS countries.

Keywords: trade, trade zone, economic cooperation, export, international economy.

Резюме:Автор отмечает, что в Азербайджане также важна реализация масштабных реформ в торговле для достижения устойчивого экономического роста, как и в других развитых странах. Таким образом, торговля является важным фактором развития экономики, увеличения производства товаров и

услуг, роста инвестиций. В настоящее время Азербайджан сумел наладить прямые торговые отношения со многими странами мира, является участником Договора о создании зоны свободной торговли Черноморского экономического сотрудничества и странами СНГ.

Ключевые слова: торговля, торговая зона, экономическое сотрудничество, экспорт, Международная экономика.

İqtisadi inkişafda xarici ticarət əlaqələrin oynadığı mühüm rolu ilə bağlı mütəlif nəzəriyyələr hələ qədim zamanlarda meydana gəlmişdir. Daha sonra onların bir çoxu beynəlxalq ticarətin klassik nəzəriyyələri kimi iqtiadi nəzəriyyəyə daxil edilmişdir. Hal-hazırda da adıçəkilən nəzəriyyələr ölkənin xarici ticarət əlaqələrinin tənzimlənməsində, ixrac strategiyasının müəyyənləşdirilməsində, habelə beynəlxalq ticarətin müasir nəzəriyyələrinin yaradılmasında həlledici rol oynayır.

XVI-XVII əsrlərdə yaranmış merkantelizm nəzəriyyəsi, demək olar ki, bu cür baxışların başlanğıcı olmuşdur. Həmin nəzəri məktəbin V.Stoffor, T.Man, H.Skaruffi, A.Monkretyen kimi məşhur nümayəndələri ticarətin milli iqtisadiyyatda oynadığı rolu ilk dəfə əsaslandırmış monumental əsərlər yaratmışlar. Hələ o zamanlarda merkantelistlər bəyan edirdilər ki, İngiltərə, Fransa və İtaliya kimi dövlətlər arici ticarətə himayədarlıq etməli, idxal və ixrac üzərində güclü nəzarəti həyata keçirməlidir. Maraqlıdır ki, idxal-ixrac əməliyyatları, gömrük siyasət ilə bağlı merkantelistlər tərəfindən hələ beş əsrə yaxın bundan əvvəl irəli sürülmüş ideyalar çağdaş dövrümüzdə də ölkənin arici iqtisadi əlaqələr strategiyasında özünü aşkar surətdə büruzə verir. A.Monkretyen tərəfindən əsası qoyulmuş həmin nəzəriyyəyə görə hər bir dövlətin xəzinəsində qiymətli metallar toplanılmalıdır, müasir tərzdə ifadə etsək, hər bir dövlətin qızıl ehtiyyatı formalaşdırılmalıdır. Onlar hesab edirlər ki, zənginliyin yeganə mənbəyi xarici ticarətdir. Lakin merkantelistlər əsaslandıra bilməmişdilər ki, hansı ölkələrlə və hansı formada bu və ya digər ölkələr öz xarici ticarətini həyata keçirməli, onlar hansı əmtəələrin satışına üstünlk verməli, hansıları isə daha çox özləri almlıdır. Bu nöqteyi-nəzərdən klassik nəzəriyyəçi Adam Smitin "Mütləq üstünlüklər nəzəriyyəsi", David Rikardonun yaratdığı "Müqayisəli üstünlüklər nəzəriyyəsi" kimi elmi nəzəriyyələr malik olduqları mükəmməlliyi ilə get-gedə daha çox diqqət cəlb edir.

Monkretyen idxal olunan məhsullara yüksək gömrük rüsumlarının tətbiq edilməsi iləbağlı təkliflə çıxış edirdi və bunu belə bir formada əsaslandırmışdır ki, əgər xarici ölkələrdən gətirilən əmtəələr daha baha başa gələcəksə, onda yerli sahibkarlar həmin məhsulu öz ölkələrinin daxilində istehsal etməyə məcbur

olacaqlar. Nəticədə ölkə daxilində sənayeçilərin, kommersantların, torpaq mülkiyyətçilərinin azad və sərbəst inkişafı üçün lazımi şəraitlər yaradılmış olacaq.

Müəllif olduğu məşhur "Görünməz əl" nəzəriyyəsinə əsaslanan A.Smit merkantelistlər tərəfindən sərgilənən yanaşmaların əksinə olaraq qeyd edirdi ki, xarici ticarət azad olmalıdır, dövlət bu prosesə qarışmamalıdır. Şotlandiyalı iqtisadçının mülahizələrinə görə, idxal-ixrac əməliyyatlarına sərbəstliyin verilməsi milli iqtisadiyyatın inkişafını stimullaşdırır. Dünya iqtisadiyyatının inkişafı həmçinin arici ticarətin azadlığından da asılıdır.

Bu kimi eyni sayda misallar gətirən və təhlillər həyata keçirən A.Smit buna əsaslanırdı ki, beynəlxalq ticarətdə, dünya iqtisadiyyatında ixtisaslaşma qaçılmazdır, bundan əlavə o, həmçinin faydalıdır. Ölkələr öz idxal və ixrac əməliyyatlarını ixtisaslaşma ilə uzlaşdırdıqları təqdirdə onların kifayət qədər böyük qazanc əldə etmək imkanı yaranır. İndi belə bir sual əmələ gələ bilər: bizim üçün, apardığımız tədqıqatın mövzusu üçün A.Smitin müəllif olduğu həmin nəzəriyyənin faydası və əhəmiyyəti nədən ibarətdir? İqtisadçı bu ideyaları XVIII əsrdə irəli sürmüşdür. Dünya təsərrüfat sistemində, beynəlxalq ticarətdə həmin dövrlə müqayisədə hansı dəyişikliklərin baş verdiyini şərh etməyə ehtiyyac yoxdur. Biz yalnız bir məqamı xüsusilə qeyd edə bilərik – dünya ticarətində ixtisaslaşma hədsiz-hüdudsuz dərinləşib, həmin proses beynəlxalq təşkilatlar, ölkələr qrupları, iqtisadi ittifaqlar şəklində bu gün də davam edir. Dövlətlər dünya iqtisadiyyatının inkişafını ixtisaslaşmanın dərinləşməsində, xarici iqtisadi əlaqələrin genişləndirilməsində, ümumilikdə qloballaşmada örür və onu dəstəkləyir. Təkcə son 50 il ərzində dünnya iqtisadiyyatında baş verən prosesləri nəzərə alaraq deyə bilərik ki, A.Smitin bu ideyaları təcrübədə özünü doğruldub. Onun müəllif olduğu nəzəriyyənin təsiri bu gün də danılmazdır. Hal-hazırda bir çox iqtisadçılar bəyan edirlər ki, hər bir ölkə ixtisaslaşdığı məhsulun istehsalı üzrə ixrac potensialını artırmğa, həmin potensialdan effektiv surətdə istifadə etməyə çalışmalıdır. Bu isə, demək olar ki, A.Smit tərəfindən XVIII əsrdə söylənilmiş fikirdir. Bu prizmadan yanaşaraq Azərbaycanda karbohidrogen ixracının səmərəli şəkildə istifadəsinə diqqətin yetirilməsi aktual məsələ kimi dəyərləndirilməlidir. Daha sonra qeyri-neft sektoru üzrə prioritet təşkiil edən istiqamət qismində kənd təsərrüfatı məhsulunun ixracı göstərilməlidir.

İnkişaf etmiş iqtisadiyyata malik digər ölkələrdə olduğu kimi, Azərbaycanda da ticarətdə geniş miqyaslı islahatların həyata keçirilməsi dayanıqlı iqtisadi artımın əldə olunması nöqteyi-nəzərdən olduqca böyük əhəmiyyətə malikdir. Ticarət iqtisadiyyatın inkişafının, məhsulun və xidmətlərin istehsalının artırılmasının, investisiyaların çoxalmasının mühüm rıçaqıdır. Hal-hazırda Azərbaycan dünyanın

bir çox ölkələri ilə birbaşa ticarət əlaqələri qurmağa nail olmuşdur, MDB dövlətlərinin, Qara dəniz iqtisadi əməkdaşlığın azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısıdır, MDB ölkələrinin böyük əksəriyyəti və uzaq xaricin 15-dən artıq ölkəsi ilə azad ticarət haqqında və ticarət-iqtisadi münasibətlər sahəsində ikitərəfli sazişlər imzalanıb.

Ədəbiyyat siyahısı:

1. İsrafilov H.A. Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri. Bakı: Elm, 2010. 476 s.
2. Kərimli İ.A. Beynəlxalq İqtisadi Münasibətlərin müasir problemləri. Bakı: Çaşıoğlu, 2006, 304 s.
3. Sabiroğlu Natiq. Qloballaşma və xarici investisiyalar. Bakı: 2006, 288 s.
4. Səmədzadə Z.Ə. Dцnya iqtisadiyyatı: Çin «iqtisadi möcцzəsi». Bakı: Gənclik, 2001, 323 s.

İlahə ƏLİYEVA

Azərbaycan Turizm və Menecment Universiteti

İlaha.92.Aliyeva@gmail.ru

Ərzaq mallarının keyfiyyəti haqqında anlayış

Концепция качества продуктов питания

The concept of food quality

Xülasə: Nəticə etibarı ilə cəmiyyətin tələbatını daha dolğun ödəmək üçün, yüksək keyfiyyətli ərzaq məhsulu istehsal etmək xammala və maddi ehtiyyatlara qənaət etmək lazımdır. İqtisadiyyatın inkişafı üçün zəruri tələblərdən biri məhsulların keyfiyyətinin daimi yüksəldilməsi hesab edilir. Məhsul keyfiyyətin yüksəldilməsində əsas şərtlərdən biri onun keyfiyyətinin düzgün idarə olunmasıdır. Ərzaq mallarının keyfiyyətinin idarə olunması ilə keyfiyyətə daimi nəzarət edilməsini və onun səviyyəsinin vaxtaşırı qiymətləndirilməsini tələb edir.

Açar sözlər: ərzaq, mal, keyfiyyət, əmtəəşünas, keyfiyyətin yüksəldilməsi.

Abstract: Consequently, to meet the needs of society in a fuller way, it is important to produce high quality food products and save on material resources. One of the essential requirements for the development of the economy is the continuous improvement of the quality of products. One of the main conditions for improving product quality is its proper quality management. Food quality control requires constant quality control and periodic assessment of its level.

Key words: Food, prices, the quality, manager, quality improvement.

Резюме: В конечном итоге, высококачественной продовольственной продукции и материального запасные экономии необходимо производить сырья для более полного удовлетворения потребностей общества. Постоянное повышение качества продукции, считается одним из требований необходимых для развития экономики. Одним из основных условий является управление качеством продукции, повышении качества его правильно. Управление качеством его vaxtaşırı оценку уровня требует постоянного контроля качества продовольственных товаров.

Ключевые слова: Продовольствия, товары, качества, товаровед, повышение качества.

Keyfiyyətin idarə edilməsi − elmin, texnikanın, xalq təsərrüfatı sahələrinin və əhalinin tələbatının yüksək səviyyədə ödənilməsi məqsədi ilə istehsalın inkişafına və məhsulun keyfiyyətinin yüksəldilməsinə və bu sahədə aparılan işlərin səmərəliliyinin artırılmasına xidmət edən faydalı fəaliyyət prosesidir. Bu proses bir tərəfdən keyfiyyət haqqında anlayışların özlərinin yaranmasına və formalaşmasına, digər tərəfdən isə ayrı-ayrı obyektlərdə, hadisə və fəaliyyət sahələrində “keyfiyyət” anlayışları ətrafında formalaşmış təfəkkür istiqamətində dəyişiklikləri istiqamətləndirən təsir formalarının məcmusunu özündə birləşdirir. Keyfiyyətin idarə edilməsi prosesi özünün mənasını və müasirliyini ancaq və ancaq keyfiyyət

anlayışları əsasında təmin edir və bu sahəyə aid daha yeni həyatı mülahizələrin, qanunauyğunluqların aşkar edilməsinə və tətbiqinə səbəb olur.

«Keyfiyyət» termini xassəni və xüsusiyyəti bildirir. Bu zaman hansı xassələrdən və xüsusiyyətlərdən bəhs olunduğu məlum olur. Ona görə də «keyfiyyət» anlayışının düzgün tərifi, məhsulun keyfiyyətinin yüksəldilməsi və onun ifadə olunması problemlərinin həlli üçün əsas amildir.

Məhsulun keyfiyyətinin texniki-iqtisadi təbiətinin öyrənilməsi üzrə aparılan tədqiqatlar nəticəsində QOST 15469-79-a uyğun olaraq keyfiyyətə aşağıdakı tərif verilmişdir: **«Məhsulun keyfiyyəti onun təyinatına uyğun olaraq müəyyən tələbatı ödəmək qabiliyyətini əsaslandıran yararlıq xassələrinin məcmusundan ibarətdir»**. Bu təyinatdan aydındır ki, məhsulun heç də bütün xassələri keyfiyyət anlayışına daxil deyildir. Buraya elə xassələr aiddir ki, onlar məmulatın təyinatına uyğun olaraq insanların ona tələbatını təmin edir.

Ərzaq mallarının keyfiyyəti əmtəəşünas ekspertlər tərəfindən yoxlanılmaqla təyin olunur. Xaricdən idxal olunan mallar gömrükdən keçdikdə, mal göndərənlərdən malı ticarət təşkilatına qəbul etdikdə əmtəəşünas ekspertlər tərəfindən yoxlanılır. Məhsulun keyfiyyəti miqdarca və keyfiyyətcə nəzarətdən keçirilir. Ərzaq məhsullarının keyfiyyəti müvafiq üsullarla qiymətləndirilir. Keyfiyyət göstəriciləri fərdi və kompleks göstəricilərə ayrılır.

Ərzaq mallarının keyfiyyətini qiymətləndirmək üçün onların dəqiq göstəricilər sistemi və üsulları olmalıdır. Məhsulların keyfiyyətinin miqdarca qiymətləndirilməsinin nəzəri əsaslarını və metodlarını işləyib hazırlayan praktiki və elmi fəaliyyət sahəsinə kvalimetriya deyilir. **Kvalimetriya** latın sözü «qualis» (keyfiyyətcə necədir) və yunan sözü «metrio» (ölçürəm) sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Ticarət şəbəkəsində ərzaq məhsullarının keyfiyyəti dedikdə, normativ –texniki sənədlərin (əsasən standartların) bütün tələblərinə uyğun gəlməsi başa düşülür. Əmtəəşünaslıqda ərzaq məhsullarının keyfiyyəti dedikdə, insanın ərzaq və tamlı mallara olan tələbini ödəyə bilən və birini digərindən ayıran xassələrin cəmi başa düşülür.

Ərzaq mallarının keyfiyyəti ona xas olan fiziki, kimyəvi, biokimyəvi, fizioloji və digər xassələrin kompleksindən, həmçinin insanın müəyyən istehlak tələbini ödəmək baxımından malın təyinat, saxlanılmağa davamlılıq, gigiyenik, estetik, antropometrik, psixofizioloji tələblərə müvafiq olmasından asılıdır.

Ərzaq mallarının vacib keyfiyyətlilik əlamətlərinə onların texniki, istehlak və istismar xassələri aid edilir. Ərzaq mallarının xassələri onların istehsalı və istehlakı

prosesində təzahür olunan obyektiv xüsusiyyətlərdən ibarətdir. Ərzaq mallarının xassələri şərti olaraq sadə və mürəkkəb xassələrə ayrılır.

Sadə xassələr elə xassələrdir ki, onlar məhsulun keyfiyyətinin səviyyəsi qiymətləndirilərkən daha xırda xassələrə ayrıla bilmir. Məsələn, çörəyin nəmliyi, turşuluğu, məsaməliliyi və s. sadə xassələrdir.

Mürəkkəb xassələr elə xassələrdir ki, onlar sadə xassələrə ayrıla bilir. Məsələn, məhsulun xarici görünüşü mürəkkəb xassədir. Bu göstərici forma, rəng, səthinin vəziyyəti kimi sadə xassələri birləşdirilir. Ərzaq mallarının keyfiyyəti qiymətləndirilərkən bütün xassələr deyil, ancaq həmin məhsulun yararlılığı ilə əlaqəsi olan xassələr nəzərə alınır.

Ərzaq mallarının keyfiyyətinin xarakteristikası üçün daha çox istifadə olunan göstəricilər aşağıdakılardır:

- **təyinat göstəriciləri**. Ərzaq mallarının keyfiyyətinin qiymətləndirilməsində belə göstəricilər əsas rol oynayır. Onlar məhsulun ayrı-ayrı xassələrini və ya istehlak üçün səmərəli olmasını müəyyən edən xassələri xarakterizə edir. Təyinat göstəriciləri standartlarda və texniki şərtlərdə verilir. Ərzaq malları üçün təyinat göstəriciləri, malın kimyəvi tərkibini və enerjivermə qabiliyyətini xarakterizə edən göstəricilərdir.

- **saxlanılmağa davamlılıq göstəriciləri** – malın saxlanılması və daşınması dövründə onun xassələrinin dəyişilməzliyini xarakterizə edir. Məhsulda olan fermentlərin və mühitin xarici amillərinin təsiri alıtnda ərzaq mallarında mürəkkəb fiziki-kimyəvi (quruma, köhnəlmə və s.) proseslər baş verir və bunların nəticəsində keyfiyyət aşağı düşür. Məhz buna görə də yeyinti sənayesi müəssisələrindən ticarət şəbəkəsinə daxil olan hər bir partiya ərzaq malı, onun keyfiyyətliliyini sübut edən müvafiq sənədlə müşayət edilməlidir. Bu sənəddə (sertifikat, keyfiyyət vəsiqəsi, texniki pasport, texniki qəbul aktı) müəssisə-istehsalçının yerləşdiyi yer, onun tabeçiliyi, məmulatın adı və sortu, netto kütləsi, istehsal tarixi, standart nömrəsi, satış müddəti və s. göstərilir. Istehsalçı-müəssisə malın saxlanılmasının təminatlı müddətində öz məhsulunun mövcud standartların tələblərinə uyğun olmasına məsuliyyət daşıyır.

- **erqonomik** göstəricilərə gigiyenik, antropometrik, fizioloji, psixofizioloji və psixoloji göstəricilər aiddir.

Ərzaq mallarının müəyyən sanitar-gigiyenik normalara uyğun olmasının müəyyənləşdirilməsində istifadə edilir. Məsələn, məlumdur ki, 10 ml-də ən azı 0,05 q duz olan məhlul duzlu, həmin həcmdə 0,4 q şəkər olan məhlul isə şirin dad verir.

Əksəriyyət hallarda alıcı şəffaflaşdırılmış meyvə şirələrinə üstünlük verir, ancaq fizioloji baxımdan lətli şirələrin qidalılıq dəyəri daha yüksək olur.

- **estetik göstəricilər**, malın estetik xassələrini xarakterizə edir. Belə göstəricilər təsirliliyi, formanın səmərəliliyini, kompozisiyanın tamlığını, məhsul istehsalının təkmilləşdirilməsini və onun mal görünüşünün sabitliyini xarakterizə edir. Ərzaq malları estetik xassələrinə görə insanın estetik tələblərini ödəyir.

Malın xarici görünüşü – onun vacib göstəricisidir. Mal qəşəng görünüşlü olmalı, alıcıda yaxşı təəssürat yaratmalı və ticarət zalında alıcını özünə cəlb etməlidir. Ərzaq mallarının qablaşdırılması üçün hazırlanan bükücü materialların tərtibində onların rəngi, bəzəyi, firma nişanı, reklam mətni və malın ad şrifti nəzərə alınmalıdır.

Ərzaq mallarının ayrı-ayrı növlərinin seçilməsində etiket və firma işarələrinin rolu böyükdür. Etiketin əsas təyinatı istehlakçıya estetik cəhətdən təsir etməkdən ibarətdir. Etiketin bədii motivinin və onun stilinin yaradılması, bu və ya digər qida məhsulunun reklamlaşdırılmasının xüsusi vəzifəsi hesab olunur.

Ərzaq mallarının keyfiyyətinin yüksəldilməsi onların insan orqanizmi üçün fizioloji əhəmiyyətini artırır, xammal və materiallara qənaət etməyə, əhali tələbinin daha dolğun ödənilməsinə və eyni zamanda istehsal olunan məhsulların dünya bazarına çıxarılmasına müsbət təsir göstərir.

Əhalinin maddi səviyyəsinin yüksəldilməsi və texniki tərəqqinin təkmilləşdirilməsi ilə əlaqədar olaraq ərzaq mallarının keyfiyyətinə tələbat arası kəsilmədən artır. Müasir dövrdə əhali daha çox keyfiyyətli, yüksək qidalı və ekoloji cəhətdən zərərsiz və nöqsansız ərzaq məhsulları istehlak etməyə üstünlük verir.

Yüksək keyfiyyətli ərzaq məhsulu istehsal etmək xammala və maddi ehtiyyatlara qənaət etmək, nəticə etibarı ilə cəmiyyətin tələbatını daha dolğun ödəmək deməkdir. Məhsulların keyfiyyətinin daimi yüksəldilməsi iqtisadiyyatın inkişafı üçün zəruri tələblərdən biri hesab edilir.

Məhsul keyfiyyətin yüksəldilməsində əsas şərtlərdən biri onun keyfiyyətinin düzgün idarə olunmasıdır. Ərzaq mallarının keyfiyyətinin idarə olunması ilə keyfiyyətə daimi nəzarət edilməsini və onun səviyyəsinin vaxtaşırı qiymətləndirilməsini tələb edir.

Ədəbiyyat siyahısı:

1. Musayev N.X. «Ərzaq malları əmtəəşünaslığının nəzəri əsasları». Dərslik. Bakı, «Çaşıoğlu» nəşriyyatı, 2003 – 368 səh.s.205-209

2. Məmmədova E.H., Mirheydərova A.İ. Keyfiyyətə nəzarət. Ali məktəblər üçün dərslik. Bakı – 2017 s.
3. Əhmədov Ə.I. Ərzaq malları əmtəəşünaslığı. Ali məкtəblər üçün dərsliк. Yenidən işlənmiş və tamamlanmış ikinci nəşr. Bakı: «Iqtisad Universiteti» nəşriyyatı, 2006 – 480 səh.

Firuzə SADIQOVA
Azərbaycan Turizm və Menecment Universiteti
firuza.sadiqova@gmail.com

Qeyri-neft sektorunun inkişafı milli iqtisadiyyatın aspekti kimi

Развитие ненефтяного сектора как аспект национальной экономики

The development of the non-oil sector as the aspect of the national economy

Xülasə: Müəllif məqalədə Azərbaycan iqtisadiyyatının artımına səbəb olan strateji xəttin uğurla həyata keçirilməsində 2009-cu ildə qeydə alınan iqtisadi artım dinamikası və təbii resursların hasilatı və ixracının artması ilə inkişafını, qlobal iqtisadi böhran şəraitində belə mövcud vəziyyətin irəliləməsini qeyd etmişdir.Beləliklə ,2016-cı ildə ticari - iqtisadi əlaqələr sürətli inkişaf etmişdir. Azərbaycan Respublikası üçün ticarət saldosu müsbət nəticə kimi - 610,9 milyon

ABŞ dolları civarında dəyərləndirillmişdir. İkitərəfli ticarət və iqtisadi əlaqələrin strukturu şaxələnmişdir.

Açar sözlər: Qeyri-neft sektoru, milli iqtisadiyyat, idxal-ixrac əməliyyatları, ticarət, iqtisadi əlaqələr

Abstract: The dynamics of economic growth, which received a new impetus with an increase in the extraction and export of natural resources, noted in 2009, even in the conditions of the global economic crisis, the growth of the Azerbaijani economy is evidence of the successful implementation of the chosen strategic course. In 2016, trade and economic relations developed dynamically. The trade balance for the Republic of Azerbaijan was a positive value - 610.9 million dollars. USA. The structure of bilateral trade and economic relations continues to be fairly diversified

Keywords: non-oil sector, national economy, import-export operations, trade, economic relations

Резюме:Динамика экономического роста, получившая новый импульс с увеличением добычи и экспорта природных ресурсов, отмеченный в 2009 году, даже в условиях глобального экономического кризиса рост азербайджанской экономики являются свидетельством успешного осуществления избранного стратегического курса. В 2016 году торгово-экономические связи развивались динамично. Торговое сальдо для Азербайджанской Республики составило положительное значение – 610,9 млн.долл. США. Структура двусторонних торгово-экономических связей продолжает оставаться достаточно диверсифицированной.

Ключевые слова: Ненефтяной сектор, национальная экономика, импортно-экспортные операции, торговля, экономические отношения

Ötən əsrin 90-cı illərinin ortalarından ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafı tədricən canlamağa başlamış və dövrün gətirdiyi problemlərin həlli istiqamətində inamlı addımlar atılmışdır. İlk növbədə, əldə edilmiş müstəqilliyin sabitliyi təmin edilmiş və ölkə daxilində siyasi sabitlik bərpa edilmişdir. Həmçinin, makroiqtisadi tarazlığın yaradılması və vaxtilə yaşanan hiperinflyasiyanın qarşısının alınması, sosial problemlərin həlli üçün önəmli qərarlar qəbul edilmişdir. 2000-ci illərdə ölkəmizdə genişmiqyaslı islahatların daha da dərinləşməsi, sürətli inkişafa, cəmiyyətin sosial-iqtisadi tərəqqinin daha yüksək pilləsinə yüksəlməsinə əlverişli imkanlar yaratmışdır. Ölkədə investisiya mühitinin yaxşılaşdırılması üçün mühüm addımlar atılmış, hökumət müasir meyarlara uyğun

şəkildə yenidən qurulmuşdur. 2009-cu ildə qeydə alınan iqtisadi artım dinamikası təbii resursların hasilatı və ixracının artması ilə yeni təkan almış, hətta qlobal iqtisadi böhran şəraitində belə Azərbaycan iqtisadiyyatının artımına səbəb olan strateji xəttin uğurla həyata keçirilməsinin təzahürü olmuşdur. Bununla yanaşı, neft gəlirlərinin qeyri-neft sahəsinə istiqamətləndirilməsi, bu sahənin inkişafında da ciddi uğurlara gətirib çıxarmışdır. Son 10 ildə qeyri-neft sektorunun orta illik artım sürəti təxminən 11 faiz təşkil etmişdir. Bunların sırasında yeni istehsal sahələrinin açılması və qeyri-neft sektorunda yeni iş yerlərinin yaradılması, istehsalın, nəqliyyatın və bələdiyyə infrastrukturunun inkişafının artım miqyası, müasir sosial infrastruktur müəssisələrinin yaradılması, o cümlədən yeni təhsil, səhiyyə, idman obyektlərinin tikintisi qeyd olunmuş ərəfədə bütövlükdə ölkəmizin dinamik və davamlı inkişafının əsasını təşkil edir. İllər üzrə rəsmi statistik göstəricilərə uyğun olaraq neft sektorunun inkişafı əhəmiyyətli dərəcədə diqqət cəlb etsə də, son illərdə qeyr-neft sektorunun inkişafında da xeyli artım müşahidə olunmuşdur. 2016-cı ildə ticari - iqtisadi əlaqələr sürətli inkişaf etmişdir. Azərbaycan Respublikası üçün ticarət saldosu müsbət nəticə kimi - 610,9 milyon ABŞ dolları civarında dəyərləndirillmişdir. İkitərəfli ticarət və iqtisadi əlaqələrin strukturu şaxələnmişdir. Eyni zamanda, Azərbaycan Respublikasında aksizli malların ixracatçıları üçün Azərbaycan tərəfinin fərqli aksiz dərəcələrinin tətbiqi, yerli istehsal olunan analoji mallar üçün ümumi problemə çevrilmişdir.Nəticə etibarı ilə tətbiq olunan aksiz dərəcələri əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 noyabr tarixli 209 nömrəli «Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında» və 25 yanvar 2007-ci il tarixli “Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” 14 nömrəli qərarı ilə, Rusiya istehsallı məsullar da(yaxtalar, idman və istirahət üçün üzgüçülük vasitələri , habelə spirtli içkilər) daxil olmaqla artan aksiz vergisi dərəcələri tətbiq olunur. Qeyd olunan tədbirlərin tətbiqi azad ticarət haqqında Sazişin 2-ci maddəsində qarşılıqlı ticarətdə milli rejim prinsipini müəyyən qədər pozur və həmin müqavilənin 7-ci maddəsində nəzərdə tutulan yerli və idxal məhsullarının azad rəqabətini məhdudlaşdırır. Ticari siyasət tədbirləri və tətbiqi təcrübəsi, ixrac tənzimlənməsi Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydalarına əsasən Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılhması haqqında" 609 nömrəli fərmanı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 may tarixli “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi

qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 260 nömrəli sərəncamına əsasən mal idxalı zamanı şəxslər gömrük orqanlarına aşağıdakı sənədləri təqdim etməlidir:

- tərəflər arasında bağlanmış müqavilə;
-gömrük yük bəyannaməsi;
-invoys- idxal olunan malların əmtəə dəyərini müəyyən edən sənəd;
- yol nəqliyyat sənədləri;
- malların mənşəyini təsdiq edən sənəd;
-malların fitosanitar sertifikatı;
- malların uyğunluq sertifikatı;
-malların baytarlıq sertifikatı;
- malların gigiyenik sertifikatı (qida məhsulları);
- bu Qaydalarda nəzərdə tutulmuş hallarda, Nazirlər Kabinetinin əmri və ya müvafiq dövlət orqanı arasında bağlanılmış müqavilə ;
- bu Qaydalarda nəzərdə tutulmuş hallarda İqtisadi İnkişaf

Nazirliyində qeydiyyatdan keçən dövlət müəssisəsi və ya əmlakın ümumi payının 50 faizindən artıq hissəsi olan digər müəssisə tərəfindən bağlanmış müqaviləni təsdiq edən sənəd. 1997-ci ildə Azərbaycan Dünya Ticarət Təşkilatı üzvlük üçün müraciət etmişdir.2007-ci ildə ikitərəfli danışıqların başa çatması ilə Türkiyə, 2008-ci ilin may ayında - Oman və BƏƏ , 2010-cu ilin mayında – Gürcüstanla ikitərəfli razılaşma protokolu imzalanmışdır.Yaxın zamanlarda Moldova və Qırğızıstan ilə danışıqların reallaşdırılması məqsədilə protokolların imzalanması planlaşdırılır. 2003-cü ildən etibarən Azərbaycan Beynəlxalq standartlaşdırma təşkilatının (İSO) tam üzv kimi, 2010-cu ilin yanvar ayının 1-dən isə Avropa standartlaşdırma təşkilatında (CEN) müşahidəçi qismində təmsil olunmuşdur. 2011-ci il yanvar ayının 1-dən etibarən Azərbaycan Dünya Ticarət Təşkilatı Standartların, Texniki Qaydaların və Normaların İnkişafı, Hazırlanması və Təsdiqlənməsi Qaydaları üzrə koedksinin tətbiqinə başlamışdır.Azərbaycanda dövlət proqramlarının tətbiqi regionların inkişafı, yol və nəqliyyat infrastrukturunun modernləşdirilməsi, yanacaq-energetika və neft-kimya komplekslərinin, İKT və digər sənaye sahələrinin yenidən qurulması, azad iqtisadi zonaların yaradılması avtomobil və yol tikinti texnikası, dəmir yolu keçidləri, müxtəlif maşınlar, mexanizmlər və texnoloji avadanlıqlar, metal, polad, tikinti materialları və s. idxalında Azərbaycan ehtiyaclarının artması ilə müşayiət edilmişdir. Bundan əlavə, Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə dövlət proqramını həyata keçirməsi xarici təchizatçılara kənd təsərrüfatı texnikası,

gübrə, yüksək məhsuldar toxum və heyvandarlıq məhsulları üçün əlavə imkanlar açır. Azərbaycan meyvə və tərəvəz, şərab brendi və ənənəvi ixracın digər məhsullarını artırmağa davam edə bilərdi. 2016-cı ildə Azərbaycan ixracatının strukturu 6504517,3 min dollar həcmində xam neft, 1142066,5 min dollarlıq təbii qaz, 113195,4 min dollar həcmində tərəvəz və s. Olmuşdur. (648 saylı Dövlət Statistika Komitəsi) Azərbaycan Respublikasının hesabat dövrü xarici iqtisadi əlaqələri aktiv şəkildə inkişaf etdirməyə davam edir. 2016-cı ilədək xarici ticarət dövriyyəsi 610,9 milyon ABŞ dolları təşkil etmişdir.

Cədvəl 1.

Ölkələrin 2017-ci il üzrə idxal və ixracının xarici ticarət dövriyyəsi

	Ölkələr	**Ölkələr üzrə xarici ticarət dövriyyəsi**	**Ölkələr üzrə ixrac**	**Ölkələr üzrə idxal**
1.	Tacikistan	2045,8	1998,4	47,4
2.	Almaniya	894119,4	450462	443657,4
3.	Avstriya	199917,7	137552,9	62364,8
4.	Fransa	492093,1	337371,1	154722
5.	Hindistan	462549,2	365516,4	97032,8
6.	Gürcüstan	545497,5	471349,2	74148,3
7.	İndoneziya	514422,4	465126,4	49296
8.	Xorvatiya	175697,2	174262,9	1434,3
9.	İsrail	671612,3	638938,4	32673,9
10.	İsveçrə	239882,9	183013,7	56869,2
11	İtaliya	4725094,7	4406425,2	318669,5
12	Kanada	549920	534279.2	15640.8
13	Portuqaliya	457120,6	446343.3	10777.3

Cədvəl 1-dən aydın olur ki, xalis ixrac üzrə xarici ticarət dövriyyəsi daha çox İsrail (606264,5 ABŞ dolları), İtaliya (408775,57 ABŞ dolları),Gürcüstan (397200,9 ABŞ dolları) və digər ölkələrin payına düşür. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2017-ci ilin yanvar-sentyabr aylarında xarici ticarət dövriyyəsi 17221,7 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 11044,1 milyon dollar, idxalın dəyəri 6177,6 milyon dollar təşkil

etmiş, nəticədə 4866,5 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2016-cı ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 9,2 faiz artmış, real ifadədə isə 11,9 faiz, o cümlədən ixrac 8,3 faiz, idxal 17,6 faiz azalmışdır. Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən ixracın dəyərinin 22,2 faizi İtaliyaya, 13,1 faizi Türkiyəyə, 5,4 faizi Çinə, 4,8 faizi Rusiyaya, 4,6 faizi İsrailə, hər biri 4,3 faiz olmaqla Gürcüstan və Çexiyaya, 4,2 faizi Portuqaliyaya, 4,1 faizi Almaniyaya, 3,7 faizi Kanadaya, hər biri 3,3 faiz olmaqla Hindistan və Tayvana (Çinin əyaləti), qalan 22,7 faizi isə digər ölkələrə göndərilmiş məhsullar əsasında formalaşmışdır. İdxal olunmuş məhsulların dəyərinin 16,9 faizi Rusiyanın, 14,5 faizi Türkiyənin, 9,9 faizi ABŞ-ın, 9,7 faizi Çinin, 5,1 faizi Ukraynanın, 4,6 faizi Almaniyanın, 3,7 faizi İtaliyanın, hər biri 2,8 faiz olmaqla Birləşmiş Krallıq və İranın, 2,6 faizi Braziliyanın, 2,0 faizi Norveçin, 1,6 faizi Fransanın, 23,8 faizi isə digər ölkələrin payına düşmüşdür. 2017-ci ilin yanvar-sentyabr aylarında 1069,4 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2016-cı ilin yanvar-sentyabr aylarına nisbətən faktiki qiymətlərlə 26,9 faiz, real ifadədə isə 24,4 faiz çoxdur. 2016-cı ilin üç rübü ilə müqayisədə 2017-ci ilin yanvar-sentyabr aylarında təzə meyvə idxalı 5,6 faiz, çay – 10,8 faiz, quş əti və onun əlavə məhsulları – 40,9 faiz, mal əti – 99,4 faiz, polad prokatı – 10,2 faiz, minik avtomobilləri – 70,6 faiz, hesablama maşınları, blok və qurğuları – 62,0 faiz, qara metallardan çubuqlar – 22,5 faiz, mebel – 2,3 dəfə, rezin şinlər – 32,4 faiz, mineral gübrələr – 2,1 dəfə, məişət kondisionerləri – 23,5 faiz, qara metallardan künclüklər – 34,0 faiz, paltaryuyan maşınlar – 69,0 faiz, yük avtomobilləri – 76,8 faiz, avtobuslar – 2,3 dəfə artmış, buğda idxalı isə 33,4 faiz, xam şəkər və şəkər – 16,4 faiz, bitki yağları – 5,3 faiz, kərə yağı, digər süd yağları və pastaları – 3,8 faiz, kartof – 5,5 faiz, təzə tərəvəz – 44,3 faiz, qara metallardan borular – 58,6 faiz, polietilen – 17,4 faiz, sement və sement klinkerləri – 93,5 faiz, məişət soyuducuları – 23,8 faiz azalmışdır.2017-ci ilin ilk üç rübündə Azərbaycan dünyanın 180 ölkəsi ilə xarici ticarət əlaqələrini həyata keçirdi.112 ölkəyə məhsul ixrac olunmuş, 179 ölkədən idxal olunmuşdur. Qeyd olunanları nəzərə alaraq böhrandan sonrakı dövrdə Azərbaycanın daha da sürətli və davamlı inkişafı üçün ölkənin ixracatının və büdcə balansının neft qiymətlərindən asılılığının aradan qaldırılması lazımdır. Azərbaycanın milli iqtisadiyyatını şaxələndirmək, biznes üçün şəraitin yaxşılaşdırılması, vergi bazasının genişləndirilməsi, qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi, bank sisteminin gücləndirilməsi ölkənin inkişafı üçün prioritet sahələr olaraq qalır.

Ədəbiyyat siyahısı:

1 Valyuta tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Qanunu. - Bakı, 1994. – 18 s.

2. Abbasov C. Azərbaycanın iqtisadiyyatı qloballaşma yolları. -B .: Elm, 2007.- 384 s.

3. Suetin A.A. Mövcud maliyyə böhranının səbəbləri haqqında // İqtisadiyyat məsələləri. - 2009. - №1. - ilə. S. 40-51 s.

4. Beynəlxalq İslam təşkilatları // Daxili Qeydlər. - 2003. - № 5 (14).

5. Xələfov X. Beynəlxalq iqtisadi tənzimləmə sistemində beynəlxalq iqtisadi təşkilatlar / Xələfov X. - Bakı, 2005.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 noyabr tarixli 209 nömrəli «Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında»

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 yanvar 2007-ci il tarixli 16 nömrəli “ Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” qərarı

8.Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli 609 nömrəli "Azərbaycan “Respublikasında xarici ticarətin daha da liberallaşdırılhması haqqında" fərmanı

9. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 may tarixli 260 nömrəli “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” sərəncamı.

10.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 16.11.2017. Xarici ticarət əlaqələri haqqında (https://www.stat.gov.az/news/index.php?id=3680)

Azad HƏMZƏYEV

Azərbaycan Turizm və Menecment Universiteti

azad-h@mail.ru

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının siyasətində yeri

The place of Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict in the policy of the Republic of Azerbaijan

Место Армяно-Азербайджанского, нагорно-карабахского конфликта

в политике Азербайджанской Республики

Xülasə: Əsasən, XX əsrin əvvələrindən başlayaraq erməni şovinistlərinin Azərbaycannın tarixi torpaqlarına olan haqsız iddiasından qaynaqlanan, xüsusən də Qarabağ ətrafında gedən proseslər nəticəsində ilk olaraq Azərbaycan xalqının ağrılı probleminə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi 100 ildən çoxdur ki, xalqımızın taleyində və baxışlarında dərin izlər buraxmış və həmçinin onu təmsil edən dövlətlərin ən vacib problemlərindən birinə çevrilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsi, Azərbaycan xalqının mədəni inkişaf səviyyəsinin və milli təfəkürünün məntiqi yekunu olaraq ortaya çıxan Azərbaycan Xalq Cümhuruiyyətinin və məntiqi baxımdan Çar rusiyasının imperialist siyasətinin davamı olan, SSR-nin tərkibində 70 il olan Azərbaycan Sovet Sosialist Respublikasının da ən aktual problemlərindən biri olmuşdur. Və bu problem, Azərbaycan xalqının yenidən milli müstəqillik uğrunda mübarizəsi və SSRİ-ni dağılması nəticəsində müstəqilliyə nail olan Azərbaycan Respublikasının ən ağrılı və bü günə kimi nəticə baxımından həll edilməmiş olaraq qalan tale yüklü problemidir.

Bu məqalə vasitəsilə Azərbaycan müstəqillik əldə etdikdən sonra Dağlıq Qarabağ problemi ilə bağlı dövlətin bu sahədə həyata keçirdiyi daxili və xarici siyasəti analiz edilməyə çalışılır. Məqalə vasitəsilə əsasən müstəqillikdən bəri Azərbaycanda iqtidarda olmuş prezidentlərin bu sahədə həyata keçirdikləri siyasi və diplomatik cəhdlərinə nəzər yetirilir.

Açar sözlər: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Minsk qrupu, müharibə, atəşkəs, soyqırım, faciə, qaçqın və məcburi köçkünlər və s.

Резюме: Начиная в основном с XX века уже более 100 лет Нагорно-Карабахский конфликт, в первую очередь превратившийся в болезненную проблему азербайджанского народа в результате исходящих от несправедливых претензий армянских шовинистов на земли, исторически являющиеся Азербайджанскими, в частности процессов, происходящих вокруг Карабаха, оставил глубокий след в судьбе и взглядах нашего народа, а также в одну их важнейших проблем государств, представлявших его.

Армяно-Азербайджанский, Нагорно-Карабахский конфликт, являясь логическим итогом уровня культурного развития и национального мышления, возникающий из Азербайджанской Демократической Республики и с

логической точки зрения продолжавшейся империалистической политики царской России, стал одной из самых актуальных проблем Азербайджанской Советской Социалистической Республики, входившей в течение 70 лет в состав СССР, и эта проблема вновь является самой болезненной и обременяющей судьбу, как результат остающейся нерешенной на сегодняшний день проблемой Азербайджанской Республики, добившейся независимости в результате борьбы за национальную независимость азербайджанского народа и распада СССР.

Посредством данной статьи после завоевания независимости Азербайджаном производится попытка анализировать внутреннюю и внешнюю политику, проводимой государством в этой сфере, связанной с проблемой Нагорного Карабаха. Посредством статьи обращается внимание на политические и дипломатические попытки, осуществляемые в этой сфере в основном начиная с независимости, способными на это в Азербайджане президентами.

Ключевые слова: Армения-Азербайджан, нагорно-карабахский конфликт, Минская группа ОБСЕ, война, огнь, геноцид и трагедия, беженцы и внутренне перемещенные лица и других.

Abstract: In fact, since the beginning of the twentieth century, as a result of the unfavorable action of the Armenian chauvinists against the historical territories of Azerbaijan, especially around the Nagorno-Karabakh process, it first turned into the problem of the Azerbaijani people's suffering and the Nagorno-Karabakh conflict has been a problem for over 100 years and has left deep traces in the fate and gaze of our people and has become one of the most important problems of the states that represent it.

Azerbaijan, the Nagorno-Karabakh issue, Azerbaijani peoples’ cultural development and logical terms which is the logical result of Azerbaijan Democratic Republic and the logical result of the imperialist policy of Tsarist Russia USSR as Azerbaijani Soviet Socialist Republic, it was one of the most current problems. And this problem that Azerbaijani people are struggling for the sake of national independence andindependence of Azerbaijan Republic with the disintegration of the USSR is the most painful and presently unsettled tale.

Through this article, are being analyzedafter winning the Azerbaijani independence, the internal and external politics of the Nagorno-Karabakh conflict,

which the state implements in this area. Through the article,were brought to the fore the political and diplomatic initiatives realized by the President of Azerbaijan in power since independence.

Key words: Armenia-Azerbaijan, Nagorno Karabakh conflict, the OSCE Minsk Group, war, fire, genocide and tragedy, refugees and internally displaced persons and others.

XX əsrdə Ermənistan və Azərbaycan xalqını təmsil edən, demək olar ki, bütün dövlət quruluşlarının və siyasi iqtdarların antoqonist müzakirə və mübhisə mövzusu olmuşdur. XX əsrin 80 – ci illərin sonunda və 90 – cı illərin əvvəllərində baş verən labüd siyasi proseslərin nəticəsində SSR-nin süquta uğraması ilə yenidən milli müstəqilliyə nail olan Azərbaycan Respublkasının taleyi, son əsrdə azərbaycan xalqının tale yüklü probleminə çevrilən Dağlıq Qarabağ problemi ilə paralellik təşkil etmişdir. Bir sözlə Azərbaycanın yenidən müstəqilliyə qovuşması Dağlıq Qarabağ münaqişəsi ətrafında gedən proseslərlə sıx bağlı olmuşdur və bü gündə Azərbaycan Respublikasının rəsmi dövlət siyasətində ən prioritet məsələ olaraq qalır. Azərbaycan tarixinə baxıldıqda Qarabağ onun qəlbi olmuş və istər mədəni, istər siyasi olaraq Azərbaycana böyük qatqısı olmuşdur . [8,səh 367]

Müstəqilliyə qovuşduqdan sonra Azərbaycanda hakimiyyətdə olan bütün siyasi iqtidarların həyata keçirdikləri dövlət siyasətinin əsas məğzini Dağlıq Qarabağ problemi təşkil etmiş, əsas siyasi fəaliyyətləri Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və öz doğma yurdundan məcburən qovulmuş ermənilərin etnik təmizləmə qurbanlarının vətənlərinə dönməsinin təmini olmuşdur. Müstəqilliyin ilk dövründən başlayaraq Qarabağ probleminin həllində Rusiyanın roluna üstünlük verilmiş, Ermənistanda iqtidara gəlmiş milli qüvvələrlə Qorbaçov və ona yaxın olan qüvvələr arasında olan neqativ münasibətlərdən istifadə edərək məsələni azərbaycanın xeyrinə həll etməyə cəhd göstərmiş, lakin buna konkret nəticə olaraq nail olmamışdır. Mütəllibovun böyük ümüdlər bağladığı Rusiya ikili davranaraq ermənilərə dəstək vermiş və hətta erməni işğallarına rus hərbi qüvvələrinin birbaşa iştirakının böyük təsiri olmuşdur. [9,səh 102] Rusiya hökümətinin bu siyasətindən xəyal qırıqlığına uğrayan Mütəllibov münaqişənin həllində İranın vasitəçiliyinə ümüd bağlasa da, bundan konkret nəticə görməyəndə 92 – ci ilin əvvəllərindən etibarən Qərb qrumlarına və ölkələrinə müraciət etmək məcburiyyətində qalmışdır. Mütəllibovun xarici siyasətində yeni həmləsi uğurlu olmuş və o günə qədər dünya ictimayyəti tərəfindən çoxda bilinməyən Qarabağ problemi bir anda BMT-nin, bütün dünyanın gündəminə çıxarılmışdır. [8,səh 371] Problem əsasən ATƏM səviyyəsinə

çıxarılaraq intensiv müzakirələr aparılmış, ATƏT-in Mins konfransına hazırlıqlar həyata keçirilmişdir. Bu fəaliyyətlər Mütəllibovun xarici siyasətində yeni bir zəfər kimi görünsə də erməni işğalının davam etməsi, Xocalı, Şuşa və Laçının işğalı qarşısında ölkə ictimayyətinin və əsasən siyasi rəqiblərinin sərt basqısı nəticəsində [8,səh 371] iqtidardan uzaqlaşdırılmışdır.

Sovet sonrası dövrdə Azərbaycanın ilk demokratik seçimlərini qazanaraq iqtidara gələn E.Elçibəyin qarşısında duran ən önəmli problemlərdən biri Qarabağ münaqişəsi olmuşdur. [8, səh 371] Elçibəy hökuməti həm Xalq Cəbhəsi Partiyasının, həm də hökümətin proqramının mərkəzinə Qarabağı yerləşdirmişdi. [14,səh 80] Xarici siyasəti Qərb yönlü olduğundan Qarabağ problemini Mütəllibov iqtidarı dövründə yarımçıq qalmış ATƏM-in gündəliyinə yenidən daşımışdır. Xüsusən ATƏM-in Helsinki toplantısında Qarabağ məsələsini müzakirəyə çıxarılmağa cəhdlər edilmişdir. Həmin dövr Minsk qrupunun münaqişəni həll etmək məqsədilə Minsk konfransının çağrılması məqsədilə tərəflərin razılığa gəlməsi üçün Qarabağın statusu məsələsində ilkin razılığa gəlməsi yolunda real addımlar atmış, lakin Qarabağın stastusu məsələsində tərəflərin ortaq fikrə gəlinməməsi ucbatından heç bir nəticə əldə edilməmişdir.

Rusiya ilə münasibətlərə soyuq baxan Elçibəy iqtidarı münaqişənin həllində Rusiya ilə də danışıqlar aparmışdır. 1992-ci ilin 27 avqustunda Rusiyaya yaxınlığı ilə seçilən “Qazaxıstan dövlət başçısı Nazarbayevin sədrliyində bir araya gələn tərəflər atəşkəs və sülh görüşmələri məqsədilə Alma-Ata bəyəmnaməsini imzalamışdır”, [8,səh 373] lakin bunun heç bir nəticəsi olmamışdır. Bu uğursuzluğun ardından Rusiya birbaşa tərəflərlə əlaqədə olmuş və tərəfləri 19 sentyabr 1992-ci ildə Soçidə bir araya gətirmişdir. Keçici sürətlə bir atəşkəs imzalanmasına, bölgəyə müşhidəçilərin göndərilməsi ilə əlaqəli sənəd imzalanmışdır”. [8,səh 373] Lakin erməni silahlı dəstələrinin Naxçıvana və Qarabağda apardığı əməliyyatlar nəticəsində bu imzalanmış sənədin heç bir qüvvəsi qalmamışdır. Bundan sonra Elçibəy iqtidarının Rusiya vasitəsilə münaqişənin həllinə olan ümüdlər tamamilə itmiş, üzünü birdəfəlik Qərbə çevirmiş ATƏT-in fəaliyyətinə ümüd bağlamışdır.

Lakin Azərbaycanda baş verən siyasi çəkişmələrdən, iqtidardaxili problemlərdən, diplomatik münasibətlərdə antirus, antiiran mövqeli iqtidarın həmin ölkələrlə açıq mənfi münasibətindən istifadə edən ermənilər Rusiyanın hərbi dəstəyinə arxalanaraq 1993-cü ilin aprelində Kəlbəcəri işğal etdilər və xalqın Qarabağ probleminin həllində böyük ümüdlər bəslədiyi, iqtidarının ilk dövrlərində Qarabağda uğurlu hərbi əməliyyatlara nail olmuş, Elçibəy iqtidarına olan ümüdlərdə

xəyal qırıqlığı yaşandı və beləliklə Elçibəy İqtidarının Qarabağı qaytarmaq siyasəti iflasa uğradı. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyə qayıtmasından sonra Azərbaycanın xarici siyasət strategiyasında, xüsusilə Qarabağla bağlı strateji siyasətində ciddi dəyişikliklər oldu. "Bu məqsədlə Heydər Əliyev, Azərbaycan və yeni dünya düzəninin maraqlarını diqqətə alaraq yeni və realist bir xarici siyasətə, praqmatik fəaliyyətə yönlənmişdir.[12] İlk növbədə daxili sabitliyə nail olmaq üçün tədbirlər görmüş, Rusiya ilə münasibətləri normallaşdırmağa çalışmış vahid mərkəzləşmiş ordu quruculuğuna nail olmağa çalışmış və Azərbaycanın neft potensialından istifadə edərək həm ölkəni iqtisadi böhrandan çıxarmağa çalışmış, həm də neft faktorundan istifadə ederək böyük güclərin diqqətini və köməkliyini Dağlıq Qarabağ probleminə çəkmək yönlü fəaliyyətlər göstərmişdir. "Əsrin müqaviləsini" imzalamaqla "əlaqəli neft şirktlərinin hamisi olan altı ölkə Dağlıq Qarabağ problemliylə daha yaxından maraqlanmağa başlamışdır. [8,səh 376]

Həmçinin, hakimiyyətin ilk günlərindən başlayaraq Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların roluna xüsusi diqqət vermiş, "Dağlıq Qarabağ probleminin həllinə dair konseptual baxışını dünya ictimaiyyətinə və bütün beynalxalq təşkilatlara bəyan etmişdir". [11,səh 6] 12 may 1994-də cəbhədə atəşəsin imzalanmasına nail olan Əliyev münaqişənin həllində sülh vasitələrinə əl atmış bu məsələdə ATƏT, Rusiya və digər beynəlxalq güclərlə işbirliyinə getmişdir. Bu planda əsas mövqeyində "Azərbaycan və Ermənistan arasındakı anlaşılmazlığa son verilməsi, Qarabağa maksimum muxtariyyət verilməsi, Qarabağlı erməni və azərbaycanlıların həyat təhlükəsizliyini təmin edilməsi kimi təməl ünsürləri yer almışdır." [8,səh 378] Heydər Əliyevin Dağlıq Qarabağla bağlı xüsusi xidmətlərindən biri münaqişəni ATƏT-in Lissabon sammitinə xüsusi olaraq çıxararaq münaqişənin həqiqi reallıqlarını iştirakçıların nəzərinə çatdırmış, Azərbaycanın ərazi bütövlüyünü tanıyan sənədin qəbuluna nail olmuşdur. Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mühüm xidmətlərində biri "Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin mahiyyətinin aydın və konkret ifadəsini müəyyənləşdirməsi oldu." [9,səh 5] Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini nəzərə alaraq münaqişənin adını mahiyyətinə uyğun olaraq –Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi terminlə ifadə etməyi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmış və buna münaqişə ilə əlaqəli sənəd və görüşlərdə yer almasına ciddi mövge sərgiləmişdir.

Bu terminin ortaya mövqe olaraq qoyulması ilə bağlı Milli Məclisdə Dağlıq Qarabağla bağlı keçirilən müzakirələrdə demişdir: “Biz deyirik-bu formulu insanların beyninə mən yeritmişəm-Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: Amma qalanları nə deyir-Dağlıq Qarabağ münaqişəsi çünki, hami hesab edir ki, bu münaqişəsi iki ölkə arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadır.Mən dəfələrlə demişəm, əgər belədirsə, qoy Ermənistan kənara çəkilsin. Biz Dağlıq Qarabağla nə danışıqlar aparırıq, nə edə bilərik, öz işimizdir. Biz bunu çox tez Müddətdə həll edə bilərik. Ancaq indi Dağlıq Qarabağ, Ermanistan bir ölkədir. Atıq 11 ildir bunlar bir ölkədir. Amma bu həqiqəti heç kim tanımaq istəmir.” [11, səh 67]. Hedər Əliyev xarici ölkələrə, xüsusəndə dünya siyasətinə təsir gücü olan dövlətlərə etdiyi məqsədyönlü səfərlərində Dağlıq Qarabağ münaqişəsi bütün görüşlərin əsas müzakirə mövzusuna çevirmişdir. Heydər Əliyevin 22 iyul-1 avqust 1997-ci il tarixli rəsmi ziyarəti iki ölkə münasibətlərinin inkişafında, həmdə Dağlıq Qarabağ münaqişəsində ABŞ-ın daha aktiv rol almasında böyük təsiri olmuşdur. [8,səh 378] Xüsusəndə həmin görüşdə münaqişə ilə əlaqəli olan 907 saylı düzəlişlə bağlı müzakirələr aparmış, əsl həqiqətləri ortaya qoymuşdur. Əliyev-Klinton görüşməsi nəticəsində imzalanan ortaq bəyənnamədə: Dağlıq Qarabağ münaqişəsinin il sonunda qədər həll edilməsinə aid bir maddə də yer olmuşdur. [12,səh 379]

Həmçinin Heydər Əliyevin 1998-ci ildə İngiltərəyə etdiyi ikinci rəmsi səfərdə Qarabağ problemi görüşmələrdə önəmli yer tutmuşdur.Toni Bleyer Azərbaycanın torpaq bütövlüyünü tanıdıqlarını dilə gətirmiş, “tərəflər arasında imzalanan Dosluq və Əməkdaşlıq protokolunun 3-cü maddəsi bu məsələyə həsr edilmişdir [8,səh 380]. Qərb dövlətlərinin, xüsusən ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə münaqişənin sülh yolu ilə həllinə nail olmaq məqsədilə həyata keçirilməyə çalışılan 1997-ci il “Paket” və “Mərhələli” həll variantları və 1998-ci il “Ümum dövlət həll variantı” təklifləri iflasa uğradıqdan sonra, ölkə prezidentlərinin birbaşa görüşləri keçirildi. Bununla əlaqədər olaraq prezident Heydər Əliyev və Robert Koçaryan aprelin 24-də Vaşıngtonda, avqustun 16 və 22-də Cenevrədə , sentyabrın 10-da isə Ukraynanın Yalta şəhərində görüşdülər. [4,səh 241-243] Bu görüşlər ABŞ başda olmaqla ATƏT-in Minsk qrupunun ciddi səyi oldu. Heydər Əliyev və Robert Köçaryan arasında son görüş 1999-cu il oktyabrın 11-də Naxçıvan ilə Ermənistan arasında sərhəddə, Azərbaycanın Sədərək şəhərində baş tutdu. [4,səh 242] Artıq həm beynəlxalq ictimaiyyətdə, həm də hər iki ölkənin əhalisinin fikrində münaqişənin sülh yolu ilə həllinə inam yaranmışdı ki, bu sülh razılaşması qarşıda

gələn ATƏT Sammitində-1999-cu il İstanbul sammitində yekunlaçacaq. ABŞ dövlət katibi Madlen Olbrayt 26-27 oktyabr tarixində Heydər Əliyev və Robert Koçaryanla görüşmüş, dövlət katibinin müavini Strabo Talbott münaqişə tərəflərinin paytaxt şəhələrində səfər edərək onların danışqların yekun mərhələsinə təşviq etmişdi. [4,səh 243] 1999-cu il oktyabrın 27-də ermənistan parlamentində məlum terror hadisəsi bu ümüdləri puç etdi. Bu günə kimi rəsmi olaraq qapalı olan bu siyasi terror hadisəsində danışıqlara ciddi mənfi təsir etməsi səbəbindən həm ABŞ-ın vasitəçiliyi ilə münaqişənin həll edilməsinə ciddi maneə olması və Rusiyanın strateji maraqlarına zidd olan, İstanbul sammitində imzalanacaq Bakı-Tiblisi-Ceyhun neft kəməri müqaviləsinə qarşı olan təxribat kimi dəyərləndirilərək Rusiya faktorunu ortaya çıxardır. Bununla bağlı Böyük Britaniyada siyasi mühacir kimi yaşayan Rusiya Federasiyasının Təhlükəsizlik Xidmətinin keçmiş əməkdaşı polkovnik Aleksand Litvinenko 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentindəki terror hadisəsəinin Rusiyanın xüsusi xidmət orqanı tərəfindən təşkil olunduğunu bildirmişdi. [4,səh 243]

Bu ümüdlərin puça çıxmasından sonra münaqişə ilə bağlı danışıqlar bir müddət səngidi, lakin danışıqlar prosesi 2001-ci ilin aprelində Key-Vestdə yenidən davam etdirlidi. Rusiyanın təyziqi ilə Ermənistan tərəfinin yekun razılıqdan çəkilməsi nəticəsində Key-Vest danışıqları heç bir nəticə vermədi. Lakin "əvvəlki görüşlərdən fərqli olaraq, bu görüşün əhəmiyyəti Minsk qrupunun həmsədrlərinin məsələni ilk dəfə, olaraq iki ölkə prezidenti ilə eyni yerdə müzakirə etmələri idi." [4,səh 245]

Onun qeyd etmək lazımdır ki, Heydər Əliyevin Dağlıq Qarabağla birbaşa əlaqəsi olan, 907-ci düzəlişin dayandırılması ilə bağlı etdiyi uğurlu diplomatik səylər, məlum 2001-ci il 11 sentyabr terrorundan sonra ABŞ-ın yaratdığı antiterror koolisiyasına daxil olmasından sonra 2002-ci ildə Corc Buşun qərarı ilə dayandırılması Azərbaycanın böyük diplamatik uğurudur. Heydər Əliyev Dağlıq Qarabağ probleminin diplomatik yollarla həll edilməsi ilə yanaşı onda paralel olaraq istər daxildə və istər xaricdə erməni şovinistlərinin Azərbaycan xalqının XX əsr boyu başına gətirdikləri bəla və müsibətləri, etnik təmizləmə siyasətlərini aşkara çıxarmaq və onu azərbaycan xalqının milli yaddaşına həkk etdirmək kimi misilsiz xidmətlər etmişdir. O,çıxışlarının birində bu barədə qeyd etmişdir: Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün

dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq onu ağır nəticələrinin aradan qaldırmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. [5]

Məhz Heydər Əliyevin Azərbaycan prezidenti seçilməsindən qısa müddət sonra onun təşbbüsu ilə 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Erməni şovinistlərinin azərbaycan xalqına qarşı 1918-ci ildə törətdikləri etnik soyqırımla əlaqədər olaraq onun birbaşa təşbbüsü və fərmanı ilə, 1998-ci ilin martın 26-da imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan olunmuşdur. Həmçinin, ümummilli liderin "1948-1953-cü illərdə azərbaycnlıların Ermənistan SSR ərazisindəki tarixi-etmnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında 1997-ci il 18 dekabr tarixli fərmanı" [16] ermənilərin etnik təmizləmə siyasətinin dünya ictimaiyyətinə çatdırılması, tarixi həqqətlərin araşdırılması xalqın milli özünüdərki baxımından əhəmiyyətlidir.

31 mart-Azərbaycanlıların soyqımı gününun xüsusi dövlət fərman ilə təsis edilməsi siyasi terminə və anlayışa çevrildi. "Azərbaycanlıların soyqırımı" anlayışı siyasi çevrədə Heydər Əliyev tərəfindən gərçəkləşdirilmişdir [8,səh 367]. 2003-cü ildə prezidentlik fəaliyyətinə başlayan İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasını Azərbaycanın ərazi bütövlüyü Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi təşkil etmişdir. İlham Əliyev sıfırdan başlama yerinə Heydər Əliyevin nail olduğu nöqtəni əsas almış, sadədən çətinə doğru irəliləmə, bütün tərəflərin çıxarlarını diqqətə alaraq nəticəyə mərhələ-mərhələ çatma yöntəmini seçmişdir [10] Hələ, 2003-cü il oktyabrın 31-də, andiçmə mərasimindəki nitqində münaqişə ilə bağlı gələcək mövqeyini və fəaliyyətini bildirmişdir. Azərbaycan torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağınuza baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlaını nəyin bahasına olursa-olsun azad edəcəkdir. Prezident İlham Əliyevin Qarabağ münaqişə ilə bağlı fəaliyyətinə baxsaq görərik ki, o bütün diplomatik səylərini ilk andiçmə nitqindəki prinsiplər üzərində qurub.

Onun Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində, özünündə çıxışlarında dəfələrlə qeyd etdiyi mərhələli həll variantı mövqeyi bu günə kimi dəyişilməz qalıb. Prezidentliyinin ilk 5 illiyi mərhələsində, 2003-2007-ci illərdə bu problem ilə əlaqədar olaraq "Ermənistan prezidenti ilə 8 dəfə, ATƏT-in MİNsk qrupunun sədrləri ilə 22 dəfə görüş keçirib" [4,səh 275] və Azərbaycanın dəyişilməz mövqeyini bütün görüşlərdə sərgiləyib. O, BMT-kimi beynəlxalq təşkilatda daxil

olmaqla bütün görüşlərdə mərhələli həll varintına əsaslanaraq “erməni qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, məcburi köçünlər öz evlərinə qayıtmalı, icmalar arasında etimad yaratmaq üçün rabitə və iqtisadi münasibətlər qurulmalıdır. Bu addımlar atıldlqdan sonra məsələnin həlli prosesində son mərhələ kimi Dağlıq Qarabağın bütün icmalarının iştirakı ilə Dağlıq Qarabağın statusunun müzakirə etmək olar... Biz Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibində statusunun yekunlaşdırılması üçün xoş məramla danışıqları davam etdirməyə hazırıq.” [2]

Dağlıq Qarabağın statusu ilə bağlı məsələyə Azərbaycanın suveren sərhədləri daxilində ən yüksək muxtariyyət verilməsinin tərəfdarı olduğunu dəfələrlə bildirilmişdir. O,bu barədə hələ 2003-cü ildə, prezident olmamışdan qabaq, Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü olan zaman qeyd etmişdir: Muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır...Muxtar qurumların beynəlxalq aləmdə tanınmış sərhədləri pozmağa hüququ yoxdur . [6]

ATƏT-in Minsk qrupumunvasitəçiliyi ilə 2002-ci ildən başladılan, əsasən prezdientlərin şəxsi nümayəndərinin və xarici işlər Nazirlərinin iştirak etdiyi Praqa prosesində sülh nail olmağa ciddi cəhdlər olsada, bir cox məsələlərdə tərəflər razılığa gəlsələrdə “tərəflər Dağlıq Qarabağın yekun statusu haqqında razılığa gələ, bilmədilər. [4,səh 252] Daha sonra Helsinki Yekun aktının baza prinsiplərinə uyğun gələn, mərhələli həll variantına əsaslanan, 2007-ci ilin noyabrında başladılan Madrid prinsipləri adlanan və 2009-cu ilin iyulunda bəri müddüəlarına dəyişiklik edilmiş yenilənmiş Madrid prinsipləri adlanan danışıqlar mərhələsində yenə də, bu günə kimi bütün razılaşmalarda tərəflər ümümi razılığa gəlsələr də, yenə erməni tərəfinin qeyri-konsturuktiv mövqeyi sayəsində, Dağlıq Qarabağın yekun statusu məsələsində razılaşmanın olmaması səbəbindən danışıqlar uzanır və konkret yekun nəticə yoxdur. Bu danışıqlardada tərəflərin əsas toqquşan mövqeyi Dağlıq Qarabağın yekun statusudur. Erməni tərəfi açıq aşkar beynəlxalq hüquq normaları pozaraq Dağlıq Qarabağın Azərbaycanın sərhədləri daxilində qalması ilə razılaşmır. Başda Azərbaycan prezidenti olmaqla Azərbaycanın qəti mövqeyi münaqişənin həlli Dağlıq Qarabağ veriləcək istənilən status yalnız Azərbaycanın ərazi bütövlüyünü pozmamalıdır.

Azərbaycanın bu mövqeyini prezident İ.Əliyev iştirak etdiyi beynəlxalq tədbir və görüşlərdə, ölkədaxili bayram və tədbirlərdə dəfələrlə həm xarici nümayəndələrə və xalqa müraciətində dəfələrlə və israrla bildirmişdir. Biz öz ərazi

bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. [7]

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Republikasının Dağlıq Qarabağla bu günə kimi həyata keçirdiyi dövlət siyasətində bir çox ugurlara imza atmışdır.

2008-ci ilin 2 noyabırda Rusiynın vasitəşiliyi ilə Moskvda keçirilən iki ölkə prezidentlərinin görüşündə imzalanmış Moskva bəyənnaməsi ilə Azərbaycan bir daha Ermənistana təsdiq etdiki münaqişə tərəfi Dağlıq Qarabağ icması deyil, məhz bu muharibə fəlakətlərini yaşadan Ermənistan Respublikasıdır. Bu baxımdan, Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan bildirimişdir ki, bu bəyannamə ilə Dağlıq Qarabağ həmişəlik olaraq münaqişə tərəfi olmaq şansını itirmişdir. [4,səh 266]

Həmçinin, bu diplomatik ugurlara BMT Baş Assombleyasının 2008-ci il martın 14-də keçirilən 62-ci sesiyasında qəbul olunmuş 62/243 saylı " Azərbaycanın işğalolunmuş ərazilərində vəziyyət" adlı qətnaməsi və Avropa Parlamentinin 20 may 2010-cu il tarixli "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına olan ehtiyac" adlı qətnaməsini göstərmək olar.

BMT Baş Assambleyasının 62/243 saylı qətnaməsində "xüsusi diqqət "erməni qüvvələri" və "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu" ifadələrinə verilməlidir, bununla BMT Baş Assambleyası Ermənistanı Azərbaycan ərazilərini işğal edən təcavüzkar dövlət edən kimi qəbul etdiyini və Dağlıq Qarabağı Azərbaycan Respublikasının bir hissəsi kimi qəbul etdiyini göstərir." [4,səh 267-268]

Avropa Parlamentinin qəbul etdiyi 20 may 2010-cu il tarixli qətnaməsi ilə Helsinki yekun Aktının suveren dövlətlərin ərazi bütövlüyü prinsipinə toxunan Avropa İttifaq üzv ölkələri bir daha Azərbaycanın ərazi bütövlüyünü tanımışlar.

İ.Əliyevin prezidentliyi müddətinə nəzər saldıqda diqqəti çəkən məqamlardan biri də "on il öncəni düşündükdə Azərbaycanı dəstəkləyən, onun mövqeyini qəbul edən dövlətlərin sayı artmışdır" [8,səh 382] və bunun nəticəsidir ki, beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağla əlaqəli Azərbaycan lehinə qərarlar qəbul edilmişdir.

Son illər isə Ermənistanla sülh danışıqlarının nəticə verməməsi Ermənistanın Azərbaycannın ərazi bütövlüyünü təhdid edən mövqeydən çıxış etməsi, "qondarma Dağlıq Qarabağ Respublikasının" həyata keçirdiyi beynəlxalq hüquqa zidd kimi hərəkətlərinə qarşı Azerbaycan tərəfdən "Qarabağla bağlı siyasətdə hiss ediləcək dərəcədə sərtləşmə meydana gəlmiş və lazım olarsa müharibəyə gedilə biləcəyinə dair mesajlar verilmişdir". [15] O, münaqişənin yenidən qeyri-müəyyən müddətə uzadılacağı halda Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün güc tətbiq olunacağını da istisna etmir. [4,səh 276] Prezident İlham Əliyev bu fikrini 2010-cu il 02 fevralda, Euronews telekanlına verdiyi müsahibədə qeyd etmişdir.

2013-cü ilin 26-da, Azərbaycan silahlı qüvələrinin 95 illiyi münasibətilə Bakıda keçirilən hərbi paradda Ali Baş Komandan İ.Əliyev çıxış edərək bildirmişdir ki, "Azərbaycan müharibə şəraitində yaşayır. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatmışdır. Bizim Ordumuz hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü istənilən yolla bərpa etsin... Əfsuslar olsun ki, danışqlar nəticə vermir. Belə olan halda əlbəttə ki, ordu quruculuğuna böyük ehtiyac var". [3]

Son illərdə, Dağlıq Qarabağ problemi ilə əlaqəli görüşmə və çıxışlarda diqqət çəkici məqam ölkə Prezidentinin, həmçinin ümumilikdə görünüşdə "Azərbaycan hakimiyyətinin artan çəkidə müharibə təhdidində mövqe sərgiləməsidir." [8,səh 389]

Artıq ölkə rəhbərliyi danışıqların nəticəsiz qalacağı təqdirdə münaqişənin həllində güc yoluna əl atacaqlarını açıq şəkildə bildirir. 2016-cı ilin aprel ayında baş verən hadisələr bu mövqeyin ciddiliyini bir daha göstərdi. Erməni tərəfinin cəbhə bölgəsində etdiyi təxribata Azerbaycan tərəfi ciddi reksiya verərək ərazi bütövlüyünün bərpasında alternativliyi nümayiş etdirdi.

Aprel döyüşləri mövcud reallıqları ortaya çıxardı. Bu döyüşlər, Azərbaycan ordusunun yüksək taktiki strateji hazırlıq səviyyəsini və işğal altında olan torpaqları azad etmək əzmini, ordunun yüksək mənəvi-psixoloji səviyyəsini, Azərbaycan rəhbərliyinin sonacan siyasi iradə nümayiş etdirməsini, münaqişədə marağı olan ölkələrin Azərbaycanın xeyrinə mövqe nümayiş etdirməsini, xalq və siyasi hakimiyyət birliyini, Azərbaycan xalqının hər an torpaqların müharibə yolu ilə işğal altından azad olunmasına çevik səfərbərlik göstərməsini ortaya qoydu. Ermənistan tərəfi isə əksinə, zəif hərbi güc potensialı ilə yanaşı, illərdir Dağlıq Qarabağ kimi ucuz və qeyri həqiqi piara əsaslanaraq öz siyasi iqtidarlarını sürdürən rejimlə erməni xalqı arasında uçurumu ortaya qoydu.

Həmçinin, aprel döyüşləri ilə Azərbaycan tərəfi beynəlxalq ictimaiyyətə və bu münaqişənin sülh yolu ilə tənzimlənməsində vasitəçiliyi həyata keçirən təşkilat və dövlətlərə məsələnin ciddiliyi mesajını verdi.

Son olaraq, ölkə prezidenti aprel qələbəsinin ildönümü ilə əladədar keçirilən tədbirdə mövcud reallığı və dövlətin bu sahədə siyasətini belə qeyd etmişdir: Aprel döyüşləri bizim şanlı qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Fizuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edcəkdir... Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir. [13]

Beləliklə, Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlət siyasətindəki prioritetliyini son olaraq, ölkə Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədər bir qrup hərbiçilərlə görüşü zamanı çıxışı zamanı səsləndirdiyi "Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir" ifadəsi ilə prinsipcə müəyyənləşdirmək olur.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 65- ci sessiyasında çıxış nitqi, "Xalq qəzeti"- 2010- 23 sentyabr, N 209, səh. 1-2
2. Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi münasibəti ilə keçirilən hərbi paradda, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi, Xalq qəzeti, 2013, 28 iyun № 138, səh. 1-2
3. Dədəyev B. , Mahmudlu C, Əbilov Ş, Qarabağ 99 sualda, Bakı, 2014
4. Əhmədov Elçin, Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika, (1987-2011), Ensklopedik nəşr, Bakı, 2012, səh. 1
5. Əliyev İ.H., ASPA-da çıxışı, Dirçəliş- XXI əsr, 2003, № 71, səh. 15-28
6. İlham Əliyevin Dünya Azərbaycanlılarının həmrəyliyi günü və yeni il münasibətilə Azərbaycan xalqını təbriki (2007- ci il 31 dekabr), Azərbaycan qəzeti, 3 yanvar 2008
7. Qarabağ bildiklərimiz və bilmədiklərimiz, Qafqaz Universiteti 2010, səh. 241-275

8. Qasımov Musa, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995), Bakı, Gənclik, 1996, səh.102
9. Mehdiyev Ramiz, Azərbaycan: Qloballaşma dövrünün tələbləri Bakı, 2005, səh. 233
10. Məmmədova Həvva, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycan Respublikasının Xarici siyasətində dissertasiya işi, Bakı, 2011, səh. 6-27
11. Məmmədyarov Elmar, "Kəndir üzərində yeriş: Dəyişən mühitdə Azərbaycanın Xarici siyasət strategiyası", Azərbaycan Fokus, № 1(1), 2009, səh. 17
12. Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbiçilərlə görüşündəki çıxışı, Xalq qəzeti 2017, 1 aprel, № 66 səh. 1
13. Cafersoy Nazim. Elçibəy Dönemi Azərbaycan Dış Politikası, Ankara, yayınları, 2001, səh. 80
14. Memmedyarov Elmar, Hazar Regionu için Yeni Yol Türk siyasəti Toplusu, cilt 6, №3 Sonbahar 2007, səh.6
15. www.e-qanun.az/framework/4099 (12.04.2017)

Murad HACIYEV

Azərbaycan Turizm və Menecment Universiteti

m.hacibeyli@gmail.com

Dəyişən Neft Qiymətlərinin Azərbaycanda Makroiqtisadi Göstəricilər Üzərindəki Təsirləri

Влияние Изменения Цен на Нефть на Макроэкономические Показатели В Азербайджане

The Effects of Changing Oil Prices on Macroeconomic İndicators in Azerbaijan

Xülasə: 2014-cü ilin sonu etibarilə neft qiymətlərində ciddi azalma gözlənildiyi kimi Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəricilərinə çox ciddi təsir göstərdi. Ucuz enerji idxal edən Avropa ölkələri iqtisadiyyatlarının böyüməyəsinə hərəkətverici qüvvə kimi köməklik etsə də, ölkəmiz üçün əks durum

yaşandı. Araşdırmanın məqsədi neftin qiymətlərindəki düşüşün Azərbaycan iqtisadiyyatına təsirini analiz etmək məqsədi daşıyır. Məqalədə ümumi daxili məhsul (ÜDM), işsizlik, inflyasiya, tədiyyə balansı kimi əsas makroiqtisadi göstəricilərin vəziyyəti araşdırılmışdır.

Açar sözlər: İnflyasiya, işsizlik, tədiyyə balansı, investisiya, büdcə, pul siyasəti və s.

Резюме: Значительное снижение цен на нефть в конце 2014 года оказало значительное влияние на макроэкономические показатели экономики Азербайджана. Хотя импорт дешевой энергии помог европейским экономикам стать движущей силой, они создали для нашей страны другую ситуацию. Цель исследования - проанализировать влияние цен на нефть на экономику Азербайджана. В статье рассматриваются состояние ключевых макроэкономических показателей, таких как валовой внутренний продукт (ВВП), безработица, инфляция и платежный баланс.

Ключевые слова: Инфляция, безработица, платежный баланс, инвестиции, бюджет, денежно-кредитная политика и т. д.

Abstract: A significant decline in oil prices at the end of 2014 had a significant impact on the macroeconomic indicators of the Azerbaijani economy. While importing cheap energy has helped the European economies grow as a driving force, they have created a different situation for our country. The objective of this study was to determine, occurring a shock in oil prices its impact on the basic macroeconomic indicators such as the current account deficit as, industrial production index, inflation and external terms of trade.

Keywords: İnflation, unemployment, balance of payments, investment, budget, monetary policy, etc.

Dünyada yenilənməyən enerji mənbələrinin ən əhəmiyyətlisi neftdir. Neft dünya iqtisadiyyatında sadəcə xammal olaraq deyil eyni zamanda əsasən toxuculuq, müdafiə sənayesi və nəqliyyat sahələrində ara məhsul və son məhsul olaraq istifadə olunur. Buna görə də, neft qiymətlərdəki dəyişikliklər dünya iqtisadiyyatı üçün çox böyük əhəmiyyətə malikdir. Neft qiymətlərindəki dəyişiklik xüsusilə neftdən asılı olan ölkələrə böyük təsir göstərir. Dalğalanmalar neft ixrac edən və idxal edən ölkələrin iqtisadiyyatlarını fərqli təsir edir. Neft ixrac edən ölkə iqtisadiyyatları idxal edən ölkələrin əksinə olaraq neftin qiyməti yüksələn zaman ixracat gəlirləri ilə real gəlirlərini yüksəldirlər. Neft idxal edən ölkələrdə bu, inflyasiyaya, cari ticarət açığına


(mənfi saldo) və büdcə kəsirlərinə gətirib çıxarır. Lakin neftə tələbatın qiymət elastikliyinin aşağı olması neftə olan tələbatın azalmasına yol açmır. Yəni neftin qiymətinin yüksəlməsi və azalması çox zaman ona olan tələbi dəyişmir. Ev təsərrüfatları barədə düşünəndə isə neft qiymətlərinin artması real gəlirləri azaldacaq bir faktdır. Buna görə də, real gəlirin azalması daxili tələbatın azalması ilə nəticələnir və iqtisadi artıma mənfi təsir göstərir. Neft qiymətlərinin artması ixracatçı ölkələrə hər nə qədər müsbət təsir göstərsə də, uzun müddətli dövrdə bu ölkələrə mənfi təsiri mütləq ortaya çıxır. Neft qiymətlərinin artması nəticəsində bu cür ölkələrdə inflyasiya yaranır və eyni zamanda yüksək neft qiymətləri alternativ enerji qaynaqlarına sahib olan ölkələrin neft idxalını azaldır və beləliklə neft ixrac edən ölkələrin gəlirləri də azaldaraq milli valyutası da dəyərsizləşir. İqtisadiyyatında demək olar ki, hər bir sektorunun neftdən asılı olduğu və ixracatının 90 -95%-i xam neft və neft məhsulları olan Azərbaycanda neft qiymətlərindəki dəyişikliklər bir-biri ilə zəncirvari əlaqəli olan bütün sahələrə öz mənfi təsirini göstərdi.

Yüksək neft qiymətləri ixracatçı ölkələrin birbaşa ixrac gəlirlərini artırır və milli gəlirə təsir edir. Bu ölkələr neftin aşağı qiymətlərində iqtisadiyyatları enerji sektorundan asılı olduqları üçün çox zərər çəkdiklərini etiraf edirlər. Bəzən neft istehsal edən ölkələr istehlakçı ölkələr tərəfindən neft məhsullarına tətbiq edilən ağır vergilərdən şikayət edirlər və neft qiymətlərindəki dalğalanmaları bu vergilərdən qaynaqlandığını iddia edirlər. Nəticədə yüksək neft qiymətləri neft idxal edən ölkələrdən neft ixrac edən ölkələrə kapital axınlarının yaranmasına gətirib çıxarır və bu da ölkələr arasında gəlir tarazlığının pozulmasına səbəb olur.

Dünya neft qiymətlərinə təsir edən amillər hər nə qədər tələb və təklifdən aslı olsa da, fərqli faktorlar da ən azı tələb-təklif qədər təsir edən amillərdəndir [Australian Institute of Petroleum (AIP), “Facts About the International Fuels Market & Prices”, www.aip.com.au 21.07.2016.]. Qısa və uzun müddətli dövrdə regional və qlobal təchizat (təklif) balanslarında dəyişikliklər, təbii fəlakətlər, müharibələr və ya sosial qarşıqlıqlardan yaranan təklif dəyişikliyi, neft hasilatına və ya emal gücünə olan yeni investisiyalar, mövsümi tələb dəyişiklikləri, yeni ehtiyatların kəşfi, tədarükün (ehtiyyat) idarə edilməsi, qlobal təklif, tədarük və tələb miqradı balansının gələcəyi, nəqliyyatın uyğunluğu və nəqliyyat xərcləri, qlobal iqtisadi artım, bazarda ticarət əməliyyatlarının həcmi, neft hasilatı və onun emal xərcləri, neft istehsal edən ölkələrin qısa müddətli qərarları, elmi-texniki inkişaf, neft istehsal edən ölkələrin və neft şirkətlərinin uzunmüddətli siyasəti, alternativ enerji mənbələrinə yatırımlar, əhali artımı, qaydalar və dövlət siyasəti.

Azərbaycan xarici ticarət və büdcə tarazlığı baxımından neft qiymətlərinə həssasdır. Yüksək neft qiymətləri dövründə "petro-dollar" deyə adlandırılan və neft satışından asılı olan ölkəyə dollar axını yaşanmışdır. Ölkənin iqtisadiyyatı bu mənbə sayəsində milli valyuta dollarla müqayisədə dəyər qazanarkən, mərkəzi bank ciddi valyuta ehtiyatları yığa bilmişdir. Neft qiymətlərindəki azalma ilə ölkə qaynaq çatışmazlığı halına düşdü. İlkin olaraq öz ehtiyatlarını istifadə edərək valyutasını müdafiə etməyə çalışsa da nəticədə milli valyutanı devalvasiya etməyə məcbur oldu və onu aşağı neft qiyməti konyukturasına uyğunlaşdırırdı. Eyni zamanda dövlət xərcləmələrini də yeni konyuktura görə dəyişdirməyə məcbur qaldı.

Bareli 125 dollardan 28 dollara düşən neft, Azərbaycana sərt bir devalvasiyaya gətirib çıxardı. 2008-2009-cu illərdə də qlobal maliyyə böhranı baş verəndə də manat devalvasiya riski ilə üzləşmişdi. Həmin dövrdə kəskin ucuzlaşan neftin qısa müddətdə bahalaşması ölkəni təhlükədən sovuşdurmuşdu. Neft hasilatının və dünya bazarında qiymətinin azalması ilə əlaqədar Azərbaycan 2015 və 2016-cı illər üzrə xarici ticarət balansında kəsir yaratı. ÜDM-in həcmi 3.1% azaldı.



Qaynaq: ***Bloomberg www.bloomberg.com***

Devalvasiyadan öncəki 2013-cü ildə ÜDM 5.8% artdığı halda, neftin qiymətinin kəskin azaldığı 2015-ci ildə artım tempi zəifləyərək 1.1% təşkil edib. İnflyasiya 2015-ci ildə 4%-ə, 2016-cı ildə isə 12.4%-ə yüksəlmişdi [Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi https://www.stat.gov.az]. 2015-ci ildən başlayaraq iqtisadiyyatda çox hadisələr - manat dəyərini itirməsi, qiymətlər bahalaşması, bankların bir hissəsinin bağlanması, əmanət və kredit qoyuluşlarında azalma, bəzi yerli və xarici şirkətlər bazarı tərk etməsi və s. kimi hadisələr ard-arda yaşandı.

2018-ci il dövlət büdcəsi hazırlanarkən neftin qiyməti 45 dollar olaraq nəzərə alındı. 2016-2017-ci illərdə bu göstərici uyğun olaraq 25 və 40 dollar olmuşdur. Yüksək neft qiymətləri dövründə Azərbaycan büdcəsinin gəlirlərinin yarıdan çoxu neft dən əldə edilən gəlirlər hesabına təmin edilmişdir. Neft qiymətlərinin düşməsi nəticəsində yaranan büdcə kəsiri infrastruktur yatırımlarının təxirə salınması və ya ləğv edilməsinə səbəb oldu. Neft və təbii qaz ixracından gəlirlərin azalması ilə əlaqədar Azərbaycan büdcə gəlirlərinin artırılması üçün qida sektorunun vergi yükünü artırmağı qərara aldı. Bəzi kiçik istisnalar olmaqla (Azərbaycan faktiki olaraq, meyvə-tərəvəzdən savayı, heç nə ixrac edə bilmir) Azərbaycan ixracının 95%-i neft-qaz gəlirlərində asılı olması makroiqtisadi göstəriciləri hər zaman yüksək təzyiq altında saxlayır. Ölkənin tədiyyə balansına diqqət yetirsək, görərik ki, müsbət saldo həmişə neft ixracı hesabına formalaşıb. Bilindiyi kimi, tədiyyə balansı il ərzində ölkəyə gələn və ölkədən çıxan xarici valyuta arasında fərqi göstərir, yəni əmtəələrlə yanaşı xidmət və kapital axınlarını, gəlir və remitans axınlarını da əks etdirir. Onun müsbət olması milli valyutanın güvənliyini artırır. Bir tərəfdən ölkəyə neftin ucuzlaşması fonunda gələn dolların kəskin azalması, digər tərəfdən müxtəlif səbələrdən ölkədən kapital axını manata təzyiqi gücləndirdi. Təsadüfi deyil ki, Mərkəzi Bank manatı qorumaq üçün 2015-ci ilin sonuna qədər ehtiyatından 10 milyard dollar xərclədi. Ehtiyatların həcmi bu müddətdə 15 milyard dollardan 4.2 milyarda qədər azaldı. Hətta Dövlət Neft Fondundan dollar alıb satmaqla Mərkəzi Bank rezervlərini qorumağa çalışdı. Bu durum artıq manatın kursunu sabit saxlamaq imkanlarını sıfıra endirdi. Bir il ərzində manat avro və dollar qarşısında məzənnəsini 2 dəfədən çox itirərək 0.78 AZN-dən öncə 1.55 AZN-ə, ikinci devalvasiyadan sonra dollar hətta 1,90 manata qədər bahalaşsa da, sonradan nisbətən ucuzlaşdı və 1.70 AZN-də qərarlaşaraq müvəqqəti də olsa nisbi sabitlik yarandı. Devalvasiya ölkənin əsas maliyyə sənədi olan dövlət büdcəsinin xərclərinə də təsir edərək 2013-cü ildə özünün rekord həddində (19143 milyon AZN) çatan dövlət büdcəsi sonrakı neftin ucuzlaşması ilə azalmağa başladı [Hesablama Palatası http://sai.gov.az/1/rey/29]. Azərbaycan maliyyə sektorunun xarici streslərə nə qədər dayanıqlı olduğunu ortaya çıxdı. İqtisadiyyatın dollarlaşması prosesi sürətləndi. İqtisadiyyatın pulla təminatı səviyyəsində kəskin azalma oldu. Bu göstərici devalvasiyadan öncə 25.2-29.4% intervalında qərarlaşdığı halda, son 2015-2016-cı illərdə əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. 2015-ci ildə iqtisadiyyatln monetizasiya əmsalı 16%, 2016-cı ildə isə 19.3% təşkil etmişdir [İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi http://www.sei.az/news-1183.html]. Ölkədəki bankların təxminən 1/3-i, bank olmayan kredit təşkilatlarının 8,3%-i bağlanaraq bazarı tərk etdi. Xarici valyuta alışı

da məhdudlaşdırıldı. Xarici valyutanı ölkədən çıxarılmasını məhdudlaşdırılaraq ildə 50 min dollardan çox valyuta çıxartmaq istəyən şəxs dövlətə 20% vergi ödəmə məcburiyyəti gətirildi. Azərbaycanda 21 dekabr 2016-cı il tarixində üzən (dalğalı) məzənnə rejiminə keçdiyini elan etdikdən sonra manat dollarla müqayisədə 47,63% dəyərində itkiyə məruz qalmışdır. Büdcə kəsirini bağlamaq üçün özəlləşdirmə yönündə addımlar atılmağa başlandı. 2015-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanın tədiyyə balansı 9,14 mlrd. dollarlıq kəsirlə tamamlamışdır. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu göstərici 2016-ci ilin analoji dövrü ilə müqayisədə təxminən 9 dəfə çoxdur [Azərbaycan Respublikası Mərkəzi Bankı https://www.cbar.az].

Yüksək inflyasiya və iş yerlərinin bağlanması fonunda işsizliyin artması sosial vəziyyəti pisləşdirdi. İllər boyu məzənnəsi sabit olan milli valyutanın qısa müddət ərzində qəfldən ucuzlaşması ümumilikdə makroiqtisadi sabitliyə mənfi təsir göstərdi. Manatın dəyərsizləşməsi, əhalinin gəlirlərinin azalması, alıcılıq qabiliyyətinin zəfləməsi və nəticəsində qiymətlərin bahalaşması mal və xidmətlərə olan tələbatı kəskin şəkildə azaldaraq biznesin də çökməsinə səbəb oldu. Yüksək inflyasiya əhalinin sosial vəziyyətinin pisləşməsinə, onların real gəlirlərinin azalmasına gətirib çıxartdı. Qiymətlərin artması əhalinin xərclərinin artmasına, digər tərəfdən də iqtisadi aktivliyin aşağı düşməsi əhalinin gəlirlərinin azalmasına səbəb oldu. Ümumilikdə nominal gəlirlər artsa da, inflyasiya səviyyəsinin yüksək olması əhalinin real gəlirlərini üstələdi. Əhalinin adambaşına düşən real gəlirlərinin 2012-ci ildə 10,74%-lik artdığı görsənsə də, 2016-cı ildə 10%-lik azalma ilə əvəz olunduğu müşahidə edilmişdir.

Makroiqtisadi sabitliyin dayaqlarından olan invesitisiyaların da artımında mənfi tendensiya müşahidə edilmişdir. Əsas kapitala investisiya qoyuluşu 2015-ci ildə 11.1%, 2016-cı ildə isə 28% azaldığı görsənir.

Ümumiyyətlə devalvasiya prosesi həmişə xarici valyutada olan dövlət borclarının qaytarılmasını imkanlarını çətinləşdirir. 2014-cü ildə xarici dövlət borcunun ÜDM-də payı 8,62% olduğu halda, 2016-cı ilin sonuna 20,4%-ə yüksəlib [Xarici borc sindromu http://www.budget.az/main?content=1173].

Ölkənin iqtisadi sabitliyinin davam etdirilməsi üçün ilk vəzifə iqtisadi sabitliyin qarşısını alan faktorları ortadan qaldırma və düzgün bir zəmin yaratmaqdır. İqtisadi sabitlik iqtisadiyyatda sabit iqtisadi mühitin yaranmasıdır ki, bu da ölkə iqtisadiyyatında mövcud olan resursları və imkanları səmərəli istifadəsi və daim dəyişən ehtiyaclara cavab vermək üçün daxili və xarici amillərin resurslara

və imkanlara təsirini minimuma endirməkdən keçir. Bir ölkənin iqtisadi sabitliyini təmin etmək üçün iqtisadi artım (istehsal, xidmət) artırmaq, qiymət sabitliyini təmin etmək, gəlirin bölgüsünü təmin etmək, ödəmələri balanslaşdırmaq və normal işsizliyə nail olmaq lazımdır.

Son illərdə Azərbaycan beynəlxalq müstəqil risklərin qiymətləndirilməsi şirkətlərinin qiymətləndirmələrində riskli ölkələr arasındadır. Bu risk, əsasən, neft qiymətlərinin aşağı olması səbəbindəndir. Azərbaycan iqtisadiyyatında neft gəlirlərinin azalması ilə əlaqədar əhəmiyyətli şokla bank sektorunda, iqtisadiyyatda və iqtisadiyyatda maliyyə vəziyyətini pisləşdirən bir şəkildə ifadə edilir. Qeyri-neft sahələrinə investisiyaların artmasına baxmayaraq ölkədəki biznes sektoru enerji sektoru ilə müqayisədə hələ də olduqca çoxdur zəif görünür. Xüsusilə, zəif hüquqi sistem, azad rəqabətin önündəki əngəllər və maliyyə sistemindəki əskikliklər qeyri-neft sahələrinin inkişafı qarşısında ən əhəmiyyətli problemlər kimi qeyd olunur.

Dünyada maliyyə bazarlarında dolların bahalaşması, xüsusən də İran, Rusiya və Türkiyə valyutasının, hətta Qazaxıstan təngəsi ucuzlaşmasının Azərbaycan manatı üzərində yaratdığı psixoloji təsirlər valyuta bazarında çox vaxt gərginlik yaradır. Azərbaycanın iqtisadiyyatının bu yüksək həssaslığı Azərbaycan iqtisadiyyatının Rusiya və Türkiyədən böyük asılılığından (təsir) irəli gəlir. Əsas təsir əmtəə və xidmət ticarətinə görədir. Statistika Komitəsinin göstəricilərinə görə 2017-ci ildə Azərbaycanın ümumi ixracının 16 faizi, idxalının isə 30 faizi Rusiya və Türkiyənin payına düşüb. Azərbaycanın idxalatdan asılılığı xeyli yüksək olsa da, ümumi ixracda pay elə də yüksək deyil. Qeyri-neft ixracının daha fərqli coğrafiyaya yönəlməsi çox önəmlidir. Hazırda bu sektorun Rusiya və Türkiyədən asılılıq əmsalı həddən artıq yüksəkdir və 2017-ci ildə təxminən 1.5 milyard dollarlıq qeyri-neft ixracının 53 faizi (810 milyon dollar) məhz 2 qonşu ölkənin payına düşüb [https://www.stat.gov.az]. Gərginliyi yaradan əsas tərəflər dollar alışında maraqlı olan əhali və banklardır. Belə hallarda bankların aktivliyinin atması onların Mərkəzi Bankın hərraclarına olan maraqlarını azaldır. Mərkəzi Bank hərrac vasitəsilə dövriyyədə olan pul kütləsinin bir qismini dövriyyədən çıxarıb valyuta bazarına olan təzyiqləri nisbətən azalda bilsə də, bunu davamlı olaraq sabit saxlamaq gücündə deyil. Bu sabitlik kövrəkdir. Çünki istənilən psixoloji amillər, o cümlədən tam həllini tapmayan kapital axını bu hərracları bankalar üçün maraqsız edə bilər [Samir Əliyev , http://marja.az/news/29263?title=valyuta-bazarinda-gerginlik-yeniden-berpa-edile-biler]. Həmçinin kredit vermək çətinliyi ucbatından banklarda yaranmış yüksək likvidlik onlar üçün valyuta bazarının cazibəliyini getdikcə artırır. Belə vəziyyətdə

xarici bazarlarda və ölkərdə baş vermiş hadisələrin yaratdığı psixoloji amillər və manatın hər hansı məzənnə dəyişikliyi bazarda gərginliyi yenidən bərpa edə bilər. Neftin qiymətlərinin Azərbaycan üçün münasib olması manata kənar təzyiqlərin azalmasına səbəb olur. Eyni zamanda, tədiyyə balansının cari vəziyyəti də qənaətbəxş olmaqla manatın ucuzlaşmasının qarşısını alır. İxracda müşahidə edilən müsbət saldo ölkədə valyuta bazarında gərginliklıərin yaranmasının qarşısını alır. Qeyd olunan iqtisadi amillər manatın taleyi ilə bağlı narahatlıqları aradan qaldırmış olur. Ancaq Azərbaycanın qeyri-neft ixrac gəlirlərinin azalma ehtimalı da yüksəkdir. Ona görə ki, neft ticarətindən fərqli olaraq qeyri-neft ticarətində idxal-ixrac müqavilələri üzrə hesablaşmalar xarici valyuta ilə həyata keçirilməsinə baxmayaraq, ixrac məhsulları daxili bazarda yerli valyuta ilə gerçəkləşir. İdxalda vəziyyət isə fərqlidir. Yerli valyutaları dəyərdən düşən ölkələrdə xarici tərəfdaşlarla müqayisədə pulun real məzənnəsi daha sürətlə ucuzlaşdığı üçün onlarda idxal da ucuzlaşır.

Azərbaycanda iqtisadiyyatın böyük bir hissəsi hələ də dövlət tərəfindən idarə olunmaqdadır. Bir çox dövlət müəssisəsi öz sahəsində təkəldir. Bu cür biznes yüksək qiymətlər diktə edir və qoruyur, məhsulların çeşidliliyini və təklif xüsusiyyətlərini məhdudlaşdırır və məhsul və xidmətlərin alınmasında onlar çox zaman əhəmiyyətli bir paya sahibdirlər.

Economist Intelligence Unit (EIU) hesablamalarına görə, neft qiymətləri inflyasiyaya görə real gəlirləri aşağı salır 2016-cı ildə Azərbaycan iqtisadiyyatının 2,8% azalacağı, neft qiymətlərinin artması ilə iqtisadi artmın 2017-ci ildə təkrar artacağını proqnozlaşdırmışdı [The Economist İntelligence Unit (EIU) https://www.eiu.com/home.aspx].

Atılması vacib olan bir sıra addımlar vaxt itirilmədən atılmalıdır. Fikrimizcə bunlardan biri də iqtisadiyyatın liberallaşdırılması məsələsidir. Liberallaşdırılma müxtəlif sahələri əhatə etməlidir. İlk növbədə gömrük sistemi tam asanlaşdırılmalıdır. Bununla bağlı təşəbbüslər irəli sürülsə də, fikirlər səslənsə də, hələ ki vəziyyət olduğu kimidir. Həmçinin Azərbaycanın Ümumdünya Ticarət əşkilatına üzv olmaq üçün götürdüyü öhtəliklərə əməl olunmalıdır. Burada söhbət əhəmiyyətli dərəcədə asanlaşdırılmadan gedir ki, inflyasiyanın təsirini minimuma endirə bilsin. İnstitusional islahatlar aparılmalıdır, bir sıra dövlət qurumları birləşdirilməsi prosesi sürətlənməlidir. Ümumiyyətlə, büdcə konsolidasiyasına getməli , yəni büdcədən subsidiya ayrılan sektorlar var ki, oraya özəl sektoru cəlb etməklə büdcə yükünü azaldılmalıdr. Məsələn, kommunal sektorun idarə

edilməsində özəl sektor yardımçı ola bilər. Bu, həm də yeni iş yerlərinin yaradılmasına, xidmətin keyfiyyətinin artmasına da kömək edəcək.

Ölkəmiz tədiyyə balansının 2018-ci ildə nisbətən yaxşılaşma müşahidə edilməsinə səbəb, əlbəttə neftin qiymətnin bir qədər bahalaşması olmuşdur. Hər nə qədər idxalatın məhdudlaşdırılması ciddi müzakirə mövzusu olsa da idxalın məhdudlaşdırılması da ölkədən kapital axınını azaltmışdır. Neftin dünya bazarında gələcəkdə olası yenidən bir ucuzlaşma və ölkədən kapital axının davam etməsi balansda durumu yenidən ağırlaşdıra bilər. İnflyasiya basqısını azaltmaq üçün pul kütləsinin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması sahibkarlar vəsaitsiz qoymuşdur. Bu durum iqtisadiyyatı getdikcə daraltmış, əmtəə-və xidmət bazarını kiçildərək dövriyyəni azaltmışdır. Proses belə uzun müddət davam etməsi normal deyildir. Sərt pul-kredit siyasəti həyata keçirilməsinə baxmayaraq inflyasiyanı tam cilovlamaq mümkün olmayıb, zamana yayılan (il boyu müşahidə olunan zəif, ancaq dinamik artış) qiymət artımı müşahidə edilməkdə və görünən odur ki, inflyasiya hələ ki, ikirəqəmli olaraq qalmaqdadır. Dövlətin xərcləri artırdıqda insanların gəlirinə artırıcı təsir etdiyi kimi, yığdığı vergilərlə də gəlirlərin azalması kimi bir təsirə malikdir. Həmşə iqtisadiyyatda genişlənən maliyyə və pul siyasəti bir problem yaradır, daraldıcı (məhdudlaşdırıcı) maliyyə və pul siyasəti isə başqa problemlər.

Qeyd: *Dövlət verginin yükünü azaldaraq öz xərclərini artırıb milli iqtisadiyyatdakı ümumi istehlak səviyyəsini artırmaq yönündəki siyasətinə* ***genişlənən, öz*** *xərclərini azaldıb vergiləri artıraraq ümumi istehlak xərclərini azaltmaq yönündə həyata keçirdiyi siyasətə isə* ***məhdudlaşdırıcı (daraldıcı)*** *maliyyə siyasəti deyilir.*

Ölkə əhalisinin manata, bank sektoruna olan güvənini bərpa etmək dövlətin qarşısında duran ən vacib məsələlərdən biridir. Əhali əlində olan artıq pulu dollara çevirib "yastıq altına" yönəltməməsi, bu pulların iqtisadiyyatda dövr etməsini təmin etmək üçün mümkün olan hər şeyi etmək məcburiyyətindədir. Azərbaycanda inflyasiyaya göstəricilərinə həm daxili, həm də xarici amillərin təsiri böyükdür. Məsələn, dövlət büdcəsində kəsirin yaranması, mikro və makro səviyyədə tarazlığın pozulması, xarici ticarət sahəsində inhisar hallarının çoxluğu, daxili bazarın əksər hallarda iri şirkətlərin inhisarında olması, yüksək bank kredit faizlərini və s. göstərmək mümkündür. Xarici amillərə gəldikdə isə xarici tcarət gəlirlərinin azalması, həm xarici ticarət, həm də tədiyyə balansında kəsirin mövcudluğu, ölkəyə idxal olunan mallarının xarici bazarlarda bahalaşması və s. daxildir. Müşahidələrimizə əsasən deyə bilərik ki, Azərbaycanda iqtisadi sabitliyə nail

olunmasının və manatın sabit olmasının həlledici şərti ölkəyə kapital axınının miqyasından asılı olacaqdır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi rəsmi internet səhifəsi https://www.stat.gov.az
2. Azərbaycan Respublikası Hesablama Palatasının rəsmi internet səhifəsi http://www.sai.gov.az
3. Azərbaycan Respublikası Mərkəzi Bankı rəsmi internet səhifəsi https://www.cbar.az
4. Samir Əliyev , “Valyuta bazarında gərginlik yenidən bərpa edilə bilər” http://marja.az/news/29263?title=valyuta-bazarinda-gerginlik-yeniden-berpa-edile-biler
5. Məhəmməd Talıblı, “Xarici borc sindromu” http://www.budget.az/main?content=1173%20X
6. Blomberg jurnalı www.bloomberg.com/
7. The Economist İntelligence Unit (EIU) https://www.eiu.com/home.aspx

Anar VƏLİYEV

Azərbaycan Dövlət İqtisad Universiteti

anarvaliyev@mail.ru.

Turizm şirkətlərində korporativ idarəetmənin səmərəliliyinin yüksəldilməsi

Xülasə: Araşdırılmış olan məqalədə hazırda Azərbaycan fəaliyyət göstərən turizm şirkətlərinin potensial vəziyyəti qiymətləndirilmişdir. Turizm şirkətlərinin korporativ idarəetmədən istifadə edilməsi dəyərləndirilmişdir. Turizm məhsulları haqqında informasiyalara məqalədə yer verilmişdir. Turizmdə istifadə olunan əmək vasitələri və onun maddı-texniki bazası haqqında araşdırmalar edilmişdir. Ixtisaslaşmış turizm sənayesinin inkişafına dair məsələlərdə öz əksini tapmışdır.

Açar sözləri: turizm sahəsi, şirkət, korporativ idarəetmə, turagent, turizm məhsulu, turoperator.

Qloballaşma dünya iqtisadiyyatında Azərbaycanın yeri hər zaman aktuallığı ilə fərqlənir. Bu onunla əlaqədardır ki, Azərbaycan iqtisadiyyatının əsas göstəriciləri enerji potensialı (neft və qaz) və coğrafı əlverişli şəraitin olmasıdır. Müstəqillik dövründə Azərbaycanda müxtəlif sektorlarda o0lan şirkətlər yaranaraq inkişaf

etməkdə davam edir. Bunlardan biri də turizm sektorunun inkişafıdır. Hal-hazırda turizm şirkətləri inkişaf etməkdədir və bunu isə rəqabətqabiliyyətliliyin yüksəldilməsi ilə nail olurlar.

Müasir şəraitdə turizmin inkişaf problemləri, onun qloballaşma xüsusiyyətləri və resurs potensialının struktur dəyişmələri, onun inkişafının aktuallığını yaradır. Turizmin sosial-iqtisadi rolu və sahə-ərazi resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsi xususiyyətləri - onun idarə olunmasının xüsusiyyətlərini yaradır. Turizm sahə, funksional iqtisadi və sosial vəzifələri olmaqla müasir islahatlar proqramının tərkib hissəsidir. Turizmin ərazi və sahə quruluşu, turizm tələbatına və olkə iqtisadiyyatının struktur dəyişmələrinə uyğun aparılır. Turizmin inkişafında kənd təsərrüfatı və kəndin inkişafına şərait yaratmaqla muasir dovrdə iqtisadiyyatın ərazi strukturunun təkmilləşməsinə nail olmaq olur. Turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında öz əksini tapmışdır. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildi. 27 iyul 1999-cu ildə Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzaladı. Bu qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yonəlmiş dovlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını muəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Mövcud potensial və imkanlardan səmərəli istifadə etməklə yanaşı Azərbaycan 2025-ci ilədək təkcə regionda yox, həmçinin digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcək. 2025-ci ildən sonrakı müddət üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirmək, mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimuma çatdırılmasını təmin etməkdir. Bu, "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapıb.[9]

Yol Xəritəsində bu sahə üzrə uzunmüddətli perspektivə nail olunması üçün 2020-ci ilədək olan müddət üçün dövlət üzrə turizm sahəsində dörd vacib hədəf müəyyən edilib. İlkin hədəf Bakının turizm potensialından tam istifadə olunması, ikinci hədəf milli səviyyədə daha da yaxşı idarəetmənin təşkil edilməsi, rekreasiya və turizm zonalarının yaradılması, mövsümiliyin aradan götürülməsi üçün regional səviyyədə turizm infrastrukturunun inkişaf etdirilməsi, hava əlaqələrinin yaxşılaşdırılması, viza prosedurlarının daha da sadələşdirilməsi də daxil olmaqla, yanaşı turizm sahəsinin inkişaf etdirilməsi üçün ölkə üzrə olduqca əlverişli mühitin

formalaşdırılmasıdır. Üçüncü hədəf isə regional turizm təşəbbüslərini reallaşdırmaqla Azərbaycanda turizmi inkişafı, sonuncu hədəf turizm sektorunda təhsil proqramlarına investisiya qoyuluşunu reallaşdırmaq və həmçinin turistlərin məmnunluğunu yüksəltmək üçün sertifikatlaşdırma və standartlaşdırma sistemini təkmilləşdirməkdir.

Təbii şəraitlər və faktorlar turizmin və istirahət fəaliyyətlərinin çoxunda yerliləşdirmənin bütün faktorlarınınn ən vacibidir - xüsusilə də bir müddətlik üçün bir yerdə qalmağı öngörən formalar üçün. Biz hər hansı ərazini istirahət məqsədi ilə istifadə etməyi nəzərdə tutduğumuz zaman bu zəminlər başlıca funksiyaları və fərqləri müəyyən edir.

Azərbaycanın tur-operatorları – peşəkar turizm agentlikləridir. Onlar turizm sahəsində fəaliyyət göstərən milli və xarici şirkətlər, təşkilatlarla əməkdaşlıq edirlər: aviaşirkətlər, sığorta şirkətləri, səfirliklər və mehmanxanalarla əməkdaşlıq edirlər. İnkişaf etmiş tərəfdaş şəbəkəsi sayəsində onlar müştərilərə turizm səyahətlərinin təşkili və bütün səyahət boyunca turistlərin müşayiət olunmasına dair tam kompleks xidmətlər göstərirlər: viza dəstəyindən tutmuş, transfer və bələdçi xidmətlərinə qədər.

Turizm şirkətləri öz fəaliyyətlərini daimi etmək üçün turizm məhsulunun xüsusiyyətləri ilə bərabər müxtəlif əmək vasitələrinə də mailk olmalıdırlar. Turizmdə istifadə olunan əmək vasitələrinin məcmusu onun maddi-texniki bazasının əsasını təşkil edir. Turizmin maddi-texniki bazasına əsasən daxildir:

-turizm tikililəri (binalar),

- onların texniki təchizatı (avadanlıq),

- nəqliyyat vasitələri,

- digər əsas fondlar.

Maddi-texniki baza mütəşəkkil turizmin inkişafının əsasını təşkil edir. Belə ki, turistlərə tam kompleks xidmət göstərilməsi (yerləşdirmə, qidalanma, daşınma, müalicə, ekskursiya və s.) üçün bütün zəruri şəraiti yaradır. Turizmin maddi-texniki bazasının tərkibinə-turizm firmaları (turoperatorlar və turagentlər), mehmanxanalar, turist bazaları, iaşə, ticarət, avtonəqliyyat müəssisələri, turist ləvazimatı və avadanlığının kirayə məntəqələri, turist yollayışının (putyovka) satış büroları, nəzarət-xilasetmə xidmətləri, turist klubları və s. daxildir.Xidmət növlərinə görə turizm müəssislərinin aşağıdakı tipləri mövcuddur:

1. Turistləri bütün xidmət kompleksi ilə təmin edən müəssisələr- öz mehmanxanaları olan turist müəssisələri.

2. Turizmin təşkili məqsədi ilə təsis edilən müəssisələr- turagentliklər, səyahət və ekskursiya, yollayış satışı, turist qəbulu büroları.

3. Turistlərin yerləşdirilməsi, daha doğrusu yaşaması və gecələməsi məqsədi ilə təsis edilən müəssisələr- mehmanxanalar, turbazalar və s.

4. Yeyinti, ərzaq müəssisələri -restoranlar, barlar , kafelər və s.

5. Nəqliyyat xidməti müəssisələri- dəmiryolu , hava , avtomobil və su nəqliyyatı.

6. Turistlərə mədəni xidmət obyektləri və ekskursiya xidmətlərini təmin edən müəssisələr- teatrlar, konsert zalları, ekskursiya büroları və s.

Hər bir turizm şirkəti hazırladığı məhsulu satmaq, satışını artırmaq, sahib olduğu məhsul barədə ölkədaxili və xarici ölkələrdən olan ziyarətçilərə, turşirkətlərə məlumat çatdırmaq məqsədilə müxtəlif yollardan istifadə edir.Bunlara misal olaraq agentliklərlə fəaliyyət , reklam, gəlirin stimullaşdırılması , sərgilər və s misal göstərə bilərik .Ümumiyyətlə turun hərəkətə gətirilməsi müxtəlif metod və vasitələrin köməyi ilə tur məhsulun turizm bazarına çıxarılmasıdır.Bu isə agentərin və alıcıların ticarət markasına istiqamətlənərək turizm məhsulunun satışını stimullaşdırır.Turizm məhsulunun hərəkətə gətirilməsinin məqsədləri aşağıdakılardır:

- Turizm bazarının subyektlərinə və onun potensial istifadəçilərinə tur və onun imkanları haqqında informasiya çatdırmaq .
- Turizm bazarının xərclərinin artırılması və yeni istifadəçi seqmentlərinin ələ keçirilməsi.
- İstifadəçilərin bazara çıxarılan turizm məhsulunu əldə etməyə və agentlikləri uzun müddətli fəaliyyətə sövq etməyə çalışmaq .


Turizm məhsulunun satışını həyata keçirmək məqsədi ilə turoperatorlar və turagentliklər birgə fəaliyyət göstərməlidirlər.Müasir dövrdə turist agentlikləri ilə fəaliyyət istənilən turoperatorun mövcud və strateji fəaliyyinin əsas istiqamətlərindən biri hesab olunur.Turist agentliyi – elə bir hüquqi və ya fiziki şəxs və ya müəssisədir ki , turoperatorun hazırladığı turpaketi istifadəçiyə çatdırır və onun reklamı ilə məşğul olur.Agentliklərə tələbat aşağıdakı səbəblərdən yarana bilər:

- Turoperatorun hazırladığı turların regionlarda hərəkətinin mühümlüyü- hər turoperatorun hər bir perspektivli regionda öz müəssisə və filialını açmaq üçün lazımı qədər imkanı yoxdur.Çünki regional turagentliklərin birgə fəaliyyətə cəlb olunması turoperatora imkan yaradır ki , onun öz ərazisindən kənarda da turizm məhsulunun hərəkətinə əlverişli şərait olsun .

➢ Turların müştəriyə çatdırılması- hər bir müştərinin tur əldə etməsi üçün bir yerdən başqa yerə 10 və ya 100 km-lərlə yol getmək istəyi yoxdur.Ona görə də müştəri üçün turpaketi elə öz doğma şəhərində turoperatorlarla fəaliyyət göstərən turagentlərdən almaq daha səmərəlidir.Çünki, bu yolla turoperator yalnız özünün yerləşdiyi şəhərin əhalisini yox , başqa şəhərlərin əhalisini də tur məhsulu ilə təmin edə bilir.

Turizm məhsulun satışı həmçinin turizm məhsulu haqqında dəqiqi informasiya və onun çatdırılmaslndan olduqca asılıdır.Müştəri turagentin ofisinə müraciət etdikdə , turagent ona mövcud olan tur haqqında informasiya verməlidir.Bununla belə tur haqqında olan informasiya hərtərəfli olmalıdır və buna görə də turagentdən yüksək professionalıq və tur haqqında ətraflı məlumatlar tələb olunur.Turagentin tur yaratma funksiyası onun müxtəlif turoperatorlardan ayrı- ayrı xidmətləri əldə etməsi və onlardan turist paketi formalaşdırılmasını özündə birləşdirir.Bu funksiya daha çox sifariş olunan qrup turlarının və individual turların təşkili üçün uyğundur.

Turizm şirkətin daxili mühitinin situasiyalı təhlilini apararкən əsasən şirkətin bazar mövqeyi, heyətin ixtisası və peşəкarlığı, eləcə də marкetinq кompleксinin əsas elementləri – məhsullar və təкlif olunan xidmətlər, qiymət və qiymətqoyma siyasəti, кommuniкasiya sistemi, reкlam və satışın həvəsləndirilməsi, bölüşdürmə və satış кanalları tədqiq olunmalıdır.



Şəкil 1.1. Turizm şirkətlərində daxili situasiyalı təhlilin əsas istiqamətləri

Xarici mühitin təhlili isə əsas maкromühit amillərinin təhlili ilə əlaqədardır (siyasi-hüquqi, sosial-demoqrafiк, iqtisadi, elmi-texnoloji, mədəni, təbii mühit amilləri).

Turizm şirkətin əsas məqsədləri:

-müəssisənin rəhbərliyi tərəfindən bazarın təhlili əsasında formalaşdırılmalıdır;

-ətraf mühitdə baş verən dəyişiklikləri nəzərə alaraq, onlara vaxtında reaksiya verməlidir;

-sosial-iqtisadi inkişafın ümumi təmayüllərinə uyğun olmalıdır;

-müəssisənin büdcə imkanları ilə uzlaşmalıdır.

Məqsədlərə qoyulan əsas tələblər:

-məqsədlər əldə edilə bilən olmalıdır;

-çevik olmalıdır;

-ölçülən olmalıdır;

-konkret olmalıdır;

-biri - birinə uyğun olmalıdır;

-əsas təsir subyektləri üçün və məqsədlərə nail olmağa çalışanlar üçün münasib olmalıdır.

Cədvəl 1.1

Turizm şirkətlərinin məqsədlərinin növləri

Qısamüddətli məqsədlər	*Uzunmüddətli məqsədlər*
1 il müddətinə nəzərdə tutulur	2-3 il müddətinə nəzərdə tutulur
Məsələlərin konkretləşməsi və detallaşması xarakterikdir	Məsələlər perspektivdir və müəssisənin uzunmüddətli inkişafının istiqamətini müəyyənləşdirir

Azərbaycanda turizm şirkətlərinin korporativ idarəetmənin səmərəliliyinin yüksəldilməsi üçün müxtəlif layihələrin həyata keçirilməsi zərurəti yaranmışdır. Bunlardan biridə ölkəmizdə fəaliyyət göstərən Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin dəstəyi ilə reallaşmışdır. Layihənin əsas məqsədi səhmdar cəmiyyətlərində, o cümlədən, kommersiya banklarında korporativ idarəetmə təcrübəsini təkmilləşdirməkdən ibarət idi. Bu məqsədə çatmaq üçün Layihə dörd sahədə fəaliyyət göstərməyə başlamışdır: səhmdar cəmiyyətləri ilə iş; hökumət strukturları ilə iş; təhsil müəssisələri ilə əməkdaşlıq və ictimaiyyətin məlumatlandırılması.

Korporativ idarəetmənin səmərəliliyini artırmaq məqsədilə Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycan korporativ idarəetmə layihəsi əsasında aşağıdakıları təklif edir[3, s. 81]:

- qapalı səhmdar cəmiyyəti biznesin forması kimi ləğv edilməsi;
- qanunvericilikdə səhmdarların səhmləri almaqda üstünlük hüquqlarının verilməsi;
- qanunvericilikdə səhmdarların öz səhmlərini şirkətə qaytarmaq hüququnun təsbit olunması;
- minaritar səhmdarlara təqib etmək hüqunun verilməsi;
- qanunvericilikdə yalnız adlı səhmlərin buraxılmasına icazə verilməsi;
- nominal dəyərindən asılı olmayaraq bütün səhmdarların səsvermə hüququnun eyni olması;
- dividentlərin elan edilməsi və ödənilməsinin konkret müddətinin göstərilməsi;
- şirkətin əsas kapitalında pul olmayan əmlakın həcminə məhdudiyyət qoyulması.

Fikrimizcə, göstərilən təkliflərin yalnız birincisi ilə razılaşmaq olmaz. Çünki bu yeni yaranan və möhkəmlənməmiş kiçik şirkətin tez bir zamanda qovuşmasına və udulmasına gətirib çıxaracaqdır. Həm də azərbaycanlıların həyat tərzində ailə sahibkarlığına üstünlük verilir. [3, s.82]. Onuda qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə iri korporativ qurumların holdinq formasının təsiri azalır.

Beləliklə, turizm şirkətləri hər hansı bir turizm məhsulunu yaratmaq üçün birgə işləməlidirlər. Burada məhsulun hazırlanmasında iştirak edən bütün şirkətlər sanki bir zəncir kimi çıxış edir. Hər hansı bir şirkətin kiçik bir nüansı gözdən qaçırtması ümmumiyyətlə məhsulun inkişafına və satışına əngəllər yarada bilər. şirkətləri turistin ehtiyacını təkbaşına qarşılaya bilməzlər. Bir otel, bir qatar və ya bir təyyarə təklikdə turizm məhsulu yarada bilməz. Bu səbəbdən turizmin marketinqi müxtəlif ünsürləri bir yerə gətirərək turizm məhsulu yaratmalıdır.

Ədəbiyyat siyahısı.

1. B.Ə. Bilalov Turizmin Menecmenti. Bakı-2005.
2. B.Ə. Bilalaov “Turizm Fəaliyyətinin Tənzimlənməsi”. Bakı -2006.
3. H.S. Həsənov İri sahibkarlıq strukturları . Bakı-2007.
4. H.B.Soltanova, Ş.H.Hüseynova, Turizmin əsasları. Bakı-2007
5. İ.Hüseynov, N.Əfəndiyeva, Turizmin əsasları. Bakı-2007
6. F.İ.Qurbanov, Azərbaycanda Turizmin inkişaf problemləri. Bakı-2007

7. Ozan Bahar, Metin Kozak, Turizm Ekonomisi . Ankara-2006.
8. Nazmi Kozak, Turizm Pazarlaması. Ankara-2006,
9. www.president.az

Doctorate of Azerbaijan State Economic University (UNEC)
"Management" head teacher p.h.d A.Dj.Valiyev
anarvaliyev@mail.ru.

Tourism companies improve the efficiency of corporate governance.

Summary

The article explored the potential of tourism companies are currently operating in Azerbaijan assessed the situation. Tourism companies' corporate governance has been assessed. Information on tourism products is provided in the article. Used in tourism and its material-technical base of labor have been studies about. It has been reflected in the development of the specialized tourism industry.

Key words: tourism industry, company, corporate governance, touragent, tourist product, tour operator.

Akbar Huseynov

Scientist of Institute of ` Economics, ANAS

Teacher of Azerbaijan Tourism and Management University

akbar-huseynov@mail.ru

THE ROLE OF STATE ACCOUNTING IN THE MANAGEMENT OF GOVERNMENT BUDGET

Abstract: Various information systems are used in order to manage the effective, efficient, rational and successful administration of public administrations, whose duties, powers and responsibilities are increasing day by day. One of these

information systems is the state accounting information system. In order to be able to manage and discipline its income and expenses in a planned manner, the state needs documents, in other words, the state budget, at the beginning of each year. The basic data of the state budget system to be created and implemented shall be provided by the government accounting information system. Therefore, the budget system and the state accounting information system constitute an inseparable whole.

Keywords: goverment accounting, budgetary system, state information system, government budget, financial data, economic stability, budget management

Introduction

The government determines the resources allocated for the public sector with the budget document every year. Where, how and how much the public resources are used is known by this document. The basic data of the prepared, implemented and supervised state budget are provided from the government accounting information system. Therefore, there is a close relationship between the budget system and the state accounting information system. In this study, the relationship between the state budget and government accounting is evaluated and the benefits of the state accounting information system to state budget management are examined.

The main functions of the public financial management system and budget management are to ensure efficiency and efficiency in the use of public resources, to increase the accountability of public officials who are authorized to use these resources and to fulfill the fiscal transparency in the activities related to the budget. The state accounting information system has become an important tool for strengthening the accountability of public accountability and transparency policy in determining public sources and where and how these resources are used [1]. In addition, the state accounting information system; from budget preparation to implementation and supervision. In this study, the relationship between the state accounting information system and the state budget is examined and the benefits provided by the state accounting information system to the state budget management.

Definition and scope of state accounting

Accounting is an important source of financial data to be obtained and presented to those in need of information. Accounting from a broad perspective; is an information system that explains the formation of the resources of an organization, how these resources are used, the increase or decrease of these resources as a result of the operations of the organization and the financial situation of the organization,

produces the information and communicates them to the related persons and organizations[2]. Government accounting is similar to the general accounting concept, but it also differs in terms of the areas and processes it covers. State accounting is an information system that collects, records, classifies, analyzes and interprets the financial transactions of the state, and reports to related persons and institutions. From this definition of state accounting, it is understood that it is important for the institutions and organizations to be applied when applied. Therefore, government accounting covers the issue in a way that covers the general services of the public. Considering the concept of government accounting as broadly as possible, considering the accounting of all public institutions and organizations using public resources is considered as an accounting in order to see the general account.

Definition and scope of the state budget

The state budget is one of the most basic tools to help economic stability and sustainability by contributing to the economic and social development of countries. As countries are now facing the problem of balancing infinite needs with scarce resources, they use the budget as a tool to balance the needs and resources [3].

The state has to find the resources necessary to fulfill the social needs, prioritize the needs and compensate them with the resources. Ordering of requirements and balancing are realized with budget. In the activities of public institutions and organizations, it is the budget of the vehicle that enables the better selection of targets and the efficient use of the resources to realize them. As a requirement of living together, state and other public administrations have to show their income and expenses in a document in order to realize public services [4]. The budget is an important document that stands out in this respect.

The budget, which is important for economic, social and political importance, has a feature that should be emphasized in terms of the prediction of public revenues and expenditures, the functions and implementation of the state. It is known that the principles such as providing fiscal discipline, classifying the resources in order of priority and effective use of public services and fulfilling them in an effective and effective way are in the foreground.

Local control aims of government budget

Local control aims of government budget are [5]:

• Management of public revenues, expenditures, assets and liabilities in an effective, economic and efficient manner,

• Acting in accordance with laws and other regulations of public administrations,

• Prevention of irregularities and corruption in all kinds of financial decisions and transactions,

• Ensuring regular, timely and reliable reports and information for decision-making and monitoring,

• Preventing misuse and wastage of assets and ensuring that they are protected against losses.

• To coordinate the preparation of the strategic plan and performance program of the administration and to carry out the activities of consolidating the results.

• Preparing the administrative budget, including the budget estimates of the following two years, in accordance with the strategic plan and annual performance program and monitoring and evaluating the compliance of the administrative activities with them.

• To prepare a detailed expenditure program within the framework of the principles and principles of the budget to be determined in accordance with the legislation and to ensure that the appropriation is sent to the relevant units by taking into account the service requirements.

• Keeping budget records, collecting and evaluating data on budget implementation results, and preparing budgetary accounts and financial statistics.

• To accrue administrative revenues within the framework of the relevant legislation, to carry out the follow-up and collection of revenues and receivables.

• Carry out accounting services in the administrations outside the general budget.

• Preparing the activity report of the administration on the basis of the unit activity reports prepared by the spending units.

• Arrange ruling charts related to movable and immovable property in the ownership or use of the administration.

• Coordinating the preparation of the investment program of the administration, monitoring the implementation results and preparing the annual investment evaluation report.

• To execute and finalize the financial affairs and transactions of the administration to be followed by other administrations.

• Providing the necessary information to the top manager and spending authorities on the implementation of other legislation related to financial laws and to provide consultancy.

• Carry out preliminary financial control activity.

• Establishing internal control systems, implementing and developing standards.

• To perform other duties assigned by the top manager in financial matters.

Conclusion

In order to be able to manage the public institutions and organizations, whose duties and powers have been increasing gradually, it has become mandatory to use some management information and techniques. This management information and techniques are at the beginning of accounting information system. The accounting information system undertakes different functions in public administration units according to the functions expected from it. In some management units, it undertakes the task of producing and reporting information that will meet the needs, while monitoring the assets and liabilities in some management units. In this case it is understood that the accounting information system has an important position in public administration.

While accounting records are needed to prepare, implement and supervise the budget; For the emergence of data, a document called budget is needed. Therefore, there is a close relationship between budget and accounting concepts. Accurately and reliably recording, analyzing, and presenting the data needed by the public sector to the public financial managers in a timely manner; It is essential for the functioning of a healthy public financial management. Government accounting is needed to carry out all these transactions. State accounting system; It has a holistic and comprehending structure since it has a structure that follows, records and reports all activities, assets and liabilities of the state.

Government accounting facilitates reporting of where and how the public resources are used during the implementation of the budget. In this context, it provides the necessary records and records to check whether the public expenditures made from the state budget are carried out within the legal limits, the appropriations are

exceeded in the expenditures, and the revenues are collected according to the legal rules. Since the final account draft law is prepared by taking into account the accounting records, the final status related to budget revenues and expenses can be clearly seen through accounting records. With the help of the financial statements such as balance sheet, net financial balance table, cash flow statement, which will be prepared for public accounting and general government sector, basic financial statements such as balance sheet, net financial balance table and cash flow table can be collected. In addition, financial transparency and accountability can be achieved by accessing information about the state's cash needs.

Literature:

1.Salvatore Schiavo-Campo - Government Budgeting and Expenditure Management. 1st Edition // ISBN-13: 978-1138183414 // 2012. Page 74-86

2.Gerald J. Miller - Government Budgeting and Financial Management in Practice: Logics to Make Sense of Ambiguity // ISBN 9781574447538 // 2011. Page 39-45

3.Jerry McCaffery - Public Budgeting and Financial Management in the Federal Government. // ISBN10 1931576130 // 2001. Page 211-212

4.Jinping Sun, Thomas D. Lynch - Government Budget Forecasting: Theory and Practice //ISBN 9781420045826 // 2008. Page 113-116

5.George Leland Bach - Making Monetary and Fiscal Policy // ISBN 10: 0815707401 // 2th edition 2017. Page 40-44

Albina HƏŞİMOVA

Azərbaycan Dövlət İqtisad Universiteti

Albina-hesimova@mail.ru

Azərbaycan Respublikasının rabitə sisteminin inkişafı məsələləri

Вопросы развития системы связи Азербайджанской Республики

Issues of development of the communication system of the Republic of Azerbaijan

Xülasə: Məqalədə, müasir şəraitdə Azərbaycanda rabitə sahəsinin inkişaf problemləri nəzərdən keçirilir. Rabitə sahəsundə dövlət tənzimlənməsinin məqsədləri, vəzifə və prioritetlərinin xarakteristikası verilir. Rabitənin əsas seqmentlərinin inkişafına dair dövlət proqramları kompeksinin hazırlanması zərurətinə xüsusi diqqət yetirilir, respublikada rabitə sahəsinin inkişaf problemlərinin tədqiqinə və rabitənin tənzimlənməsinin mexanizm və alətlərinin səmərəliliyinin artirilmasına dair tövsiyələr verilir.

Açar sözlər: rabitə sahəsi, tənzimləmə mexanizmi, strategiya, prioritet, universal xidmət.

Резюме:В статье рассматриваются проблемы развития отрасли связи Азербайджана в современных условиях. Дана характеристика целей, задач и приоритетов государственного регулирования в отрасли связи. Особое внимание уделено необходимости разработки комплекса государственных программ развития основных сегментов отрасли связи. Сформулирован комплекс мер по совершенствованию механизмов и инструментов регулирования связи в республике.

Ключевые слова: отрасль связи, механизм регулирования, стратегия, приоритет, универсальное обслуживание.

Abstract: The article deals with the problems of the development of the communications industry of Azerbaijan in modern conditions. The characteristics of the goals, objectives and priorities of state regulation in the communications industry are given. Particular attention is paid to the need to develop a set of government programs for the development of key segments of the communications industry. A set of measures has been formulated to improve the mechanisms and instruments for regulating communication in the republic.The purpose of the article is to study the main problems of the telecommunications industry development and develop recommendations on improving the effectiveness of communication regulation mechanisms and instruments in the republic.

Key words: communication industry, regulatory mechanism, strategy, priority, universal service

Rabitə iqtisadiyyatın mühüm sektorlarından biri kimi, bütün dövlət və

təsərrüfat orqanlarının fəaliyyətinə və uzlaşdırılmış şəkildə çalışmasına xidmət edir. Bu, ən gəlirli və dinamik inkişaf edən bazarlarından biridir. Həmçinin, o, iqtisadi inkişafın ən mühüm elementi olaraq, Azərbaycan Respublikasının dünya iqtisadı və informasiya məkanına daxil olmasının əsasını təşkil edir. İstehsalın strukturu və masştablarında qlobal dəyişikliklər, ETT-nin sürətlənməsi, cəmiyyətin işgüzar fəallığının artması, əhalinin təhsil və mədəni səviyyəsinin yüksəlməsi, milli və beynəlxalq səviyyələrdə rabitə əlaqələrinin genişlənməsi nəticəsində rabitə sahəsinin əhəmiyyəti xeyli artır. Son zamanlarda rabitə sahəsini ölkənin milli sərvətinin tərkib hissəsinə daxil olan resurslardan biri kimi nəzərdən keçirirlər. Ölkə iqtisadiyyatında rabitə bazarı xüsusi rola malikdir, çünki bu sahənin əsas funksiyası cəmiyyətin informasiyanın ötürülməsi ilə bağlı tələbatını təmin etməkdir.

2012-ci ildə "Elektron Azərbaycan" Dövlət Proqramının reallaşdırılması zamanı İKT-nin geniş tətbiqi əsasında dövlət orqanları fəaliyyətinin səmərəliliyi yüksəldilmiş, əhali, biznes və idarələr arasında əlaqələr sadələşdirilmiş, şəffaflıq və informasiya tələbatı tam olaraq təmin olundu[1,s 17].

2016-cı ildə Beynəlxalq Elektrorabitənin (ITU) dərc olunmuş hesabatına görə (The State of Broadband) Azərbaycan hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə reytinq cədvəlində 63-cü yerdən 36-cı yerə yüksəlmişdir.

Həyata keçirilmiş tədbirlər ölkə əhalisi üçün yeni imkanlar yaratdı, 2017-ci ildə geniş zolaqlı mobil internet istifadəçilərinin sayı 5,5 milyon nəfər olmuşdur. Azərbaycanda hər 100 nəfərə 19,76 nəfər geniş zolaqlı rabitə istifadəçisi düşür. Bu göstəriciyə görə ölkə reytinq cədvəlində 53 yerə yüksəlmişdir. Deyilənlərlə yanaşı, Azərbaycan geniş zolaqlı mobil internet abonentlərinin sayına görə dünya ölkələrinin reytinqində 68-ci pillədən 60-cı pilləyə yüksəlmişdir[2,s 108]..

İnternet abonentlərinin sayı 32,7 min nəfər artaraq, 1836,6 min nəfərə qədər yüksəlmişdir. Son 10 ildə beynəlxalq internet kanallarının ümumi həcmi 100 dəfə artaraq 2017-ci ildə 580 Hb/saniyə olmuşdur.

İnternet tarifləri 80 dəfə aşağı salınmışdır. İlbəil internetə qoşulmuş ev təsərrüfatlarının, təhsil və səhiyyə müəssisələrinin sayı artır. Ölkə əhalisinin 78,2%-i internet istifadəçiləridir. İnkişafda olan dövlətlər içərisində Azərbaycan bu göstərici üzrə 145 ölkə içərisində 11-ci yerdə, ev təsərrüfatlarının internetə qoşulması göstəricisinə görə 13-cü yerdə qərarlaşmışdır.

Ölkənin internet istifadəçiləri sosial şəbəkələrdən istifadə edirlər. Təkcə Facebook istifadəçilərinin sayı 1,4 milyon nəfərdən çoxdur. İnternet-radio,

televiziya, elektron qəzet və jurnallar geniş yayılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişinə əsasən turizmin inkişaf etdirilməsi məqsədləri ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu istiqamətdə irimiqyaslı layihələr həyata keçirməyə başladı. 2017-ci ildə martın 19-dan başlayaraq yerli turizmin inkişafına bir töhfə kimi, Bakı şəhərinin əsas parklarında əhalinin və paytaxtın qonaqlarının istirahəti və asudə vaxtlarının təşkil olunması üçün pulsuz Wi-Fi xidməti fəaliyyət göstərir. Bütünlükdə 2017-ci ilin 10 ayı ərzində xidmətə qoşulanların sayı 1,5 milyondan çox olmuşdur. Bakı şəhəri ərazisində 300 belə guşə (Access Point) yaradılmışdır.

Son illərdə yeni texnologiya və xidmətlərin tətbiqi "İnternet əşya"-dan (Machine-to-Machine, M2M) istifadə imkanlarını artırmışdır. Hal-hazırda M2M qurğusundan "ağıllı ev", avtoparkların idarə olunmasında, daşınan ödəniş terminallarında, enerji məsrəfləri sayğaclarında, mühafizə vasitələrində, ATM ödəniş məntəqələrində və kassalarda istifadə olunur. M2M qurğusunun istifadə olunmasnın artması "ağıllı şəhər" sisteminin tətbiq edilməsi imkanlarını artırır[3,s 87]..

Respublikada daimi olaraq şəhərlərarası və beynəlxalq səsli rabitə xidmətlərinin keyfiyyəti yüksəlir, coğrafi baxımdan alternativ xidmətlərlə təminat yaxşılaşdırılır. Ölkədə təhlükəsiz, davamlı sabit rabitə xidmətinin təşkil olunması üçün sahədə alternativ imkanlar artırılaraq beynəlxalq avtomat stansiyaların işinin kəmiyyət və keyfiyyət göstəriciləri yüksəldilmişdir. Əgər 2016-cı ildə Azərbaycanda beynəlxalq telefon danışıqları üçün ancaq bir stansiya fəaliyyət göstərirdisə, hal-hazırda belə stansiyaların sayı 4-ə çatmışdır. Bu stansiyaların hər hansı birində qəza olarsa daxil olan və çıxan zənglər digər 3 alternativ stansiyalar vasitəsi ilə həyata keçiriləcəkdir. Qeyd etmək lazımdır ki, 4 stansiya paralel avtomatlaşdırılmış rejimdə işləyir.

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirliyinin yeni layihələrindən biri "Şəbəkə" layihəsidir. 2017-ci ilin əvvəllərindən "Şəbəkənin" xidmət mərkəzlərində ənənəvi poçt xidmətləri, bütün telekommunikasiya xidmətləri, elektron imzanın vətəndaşlara satışı, beynəlxalq və lokal ödəniş kartlarının verilməsi, icbari sığorta polisləri, mobil qurğuların qeydiyyatı, Dövlət ipoteka fonduna ödənişlər, avia biletlərin satışı və s. həyata keçirilir. Hal-hazırda respublikada "Şəbəkənin" 6 xidmət mərkəzi mövcuddur, bütün respublika ərazisini həmin müəssisənin bölmələrinin xidmətləri ilə təmin olunması

istiqamətində müvafiq işlər görülür.

Azərbaycan Respublikasında mobil rabitə texnologiyalarının sürətlə yayılması 5G texnologiyalarının dünya təcrübəsinə uyğun tətbiqi üçün hazırlıq işlərinin görülməsini şərtləndirir. Qeyd edilən istiqamətdə müvafiq işlər görülür.

Heydər Əliyev Fondunun dəstəyi ilə Nəqliyyat, Rabitə, Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya-Hesablama Mərkəzi gözdən əlillər üçün "Danışan Kitabxana" layihəsini hazırladı.

Azərbaycan Respublikasında informasiya cəmiyyəti və informasiya iqtisadiyyatının formalaşması prosesində elektron hökumət institutu mühüm rol oynayır, həmin institut vasitəsi ilə təqdim edilən dövlət xidmətləri avtomatlaşdırılmışdır. "Elektron hökumət" portalı elektron xidmətlərin vahid platforması kimi rəqamsal mexanizminin mərkəzində dayanır, vətəndaşlara, sahibkarlara, qeyri-rezident olanlara bütün dövlət strukturlarının xidmətlərini vahid məkanda təqdim edir[4,s 32]..

2012-ci ildən fəaliyyət göstərən portalda 89 təşkilatın, o cümlədən 45 dövlət strukturunun 460 xidmətinin göstərilməsi aktivləşdirilmişdir. Portal dövlət strukturları arasında informasiya mübadiləsini həyata keçirir, dövlət orqanları ilə sahibkarlar arasında şəffaf münasibətlərin yaradılmasına xidmət edir.

Adı çəkilən institutun geniş reallaşdırılması üçün ölkədə milli brend "Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi" (ingilis dilində — Azerbaijan Service and Assessment Network) - «ASAN xidmət»yaradılmışdır. ASAN xidməti dövlət orqanları tərəfindən vətəndaşlara elektron resurslar vasitəsi ilə xidmət göstərməsini təmin edir. İndiki dövrdə bu xidmətlərin sayı 461 çatmışdır (Avropa İttifaqı tərəfindən təklif olunmuş standartda əhalinin istifadə etdiyi 265 xidmətin elektronlaşdırılması nəzərdə tutulur).

Belə bir kontekstdə qeyd etmək lazımdır ki, indiki dövrdə elektron formada dövlət xidmətlərinin 30%-i təklif olunur, vətəndaşların elektron xidmətlərindən istifadə imkanları - 80%-dir. Azərbaycan hökuməti bu vəzifənin həll edilməsi istiqamətində 2020-ci ildə göstəricilərin 100%-ə çatdırılmasını nəzərdə tutmuşdur. Belə bir strateji məqsədə nail olunmasında başlıca vəzifə 2020-ci ilə qədər elektron xidmətlərindən istifadə edən bütün vətəndaşların xüsusi çəkisinin 20%-dən 80%-ə qədər yüksəldilməsi nəzərdə tutulur.

Azərbaycanda informasiya iqtisadiyyatının formalaşması və informasiya

cəmiyyətinə keçidlə bağlı əldə edilən uğurlar beynəlxalq reytinq təşkilatları vasitəsi ilə yüksək qiymətləndirilir. Azərbaycan Respublikasında İKT sektorunun sürətli inkişafı fonunda ölkəmiz hər il beynəlxalq təşkilatların hesabat materiallarında öz mövqeyini gücləndirir. 2015-ci ildə Azərbaycan Ümumdünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları 2015" Hesabatında "Şəbəkə hazırlığı İndeksinə" görə 143 ölkə içərisində 57-ci yerdə, "Qlobal Rəqabətqabiliyyətlilik" İndeksinə görə 140 ölkə içərisində 40-cı yerə yüksəlmişdir. Azərbaycan həmçinin Beynəlxalq Elektrorabitə İttifaqının " İnformasiya cəmiyyətinin ölçülməsi 2016" Hesabatında "İKT-nin inkişafı İndeksi" üzrə 2016-cı ildə 166 ölkə içərisində 67-ci yerdə qərarlaşmışdır[5,s 417]..

Azərbaycanda «Delta Telecom» şirkəti peyk internet-rabitəsi xidmətlərini təklif edən iri provayderdir. EUTELSAT beynəlxalq peyk operatorunun rəsmi distributoru kimi "Delta Telecom" peyk kanallarının icarəyə verilməsini idarə edir, həmin kanalları Qafqaz regionunda icarəyə verir. Azərbaycan dövlət şirkəti Azərkosmos ASC-nin rəhbərliyi ilə peyk proqramına külli miqdarda investisiya yatırmışdır. İlk regional peyk Azərspace-1 2013-cü ildə fevralın 7-də kosmik fəzaya buraxılmışdır.

Azərspace-1 Avrasiya və MDB hüdudlarında telekommunikasiyanın keyfiyyətinin yüksəldilməsini məqsəd kimi təsbit edərək, rele stansiyası üzrə əsas mövqe tutaraq Avropa və Asiya arasında siqnalların ötürülməsində güclü mövqe qazanmışdır. Peykin əhatə dairəsi Şərqi Avropanı, Mərkəzi Asiya və Afrikanı əhatə edir[6,s 203]..

Beləliklə, təhlil göstərir ki, Azərbaycan telekommunikasiya bazarı indiki dövrdə rəqabət mübarizəsi şəraitində mənfəətli və sürətlə inkişaf edən ən dinamik bazarlardandır.

Ədəbiyyat siyahısı:

1. "Azərbaycan respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strateqiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"

2. Əhmədov M.Ə., Hüseyn A.C. Dövlətin iqtisadi siyasəti. «İqtisad Universitetı» Nəşriyyatı, Bakı: 2011.-220s

3. Əliyev Ə.B. Xidmət sahələrinin iqtisadiyyatı. Dərs vəsaiti. Bakı, “Təhsil”, 2017,136s.

4. Rəhmanov F.P. Respublikada sosial siyasətin təkmilləşdirilməsi problemləri. Azerbaycan Dovlət İqtisad Universitetinin Elmi xəbərləri, cild 5, aprel- iyun 2017

5. Каграманзаде А. Г. Этапы развития Телекоммуникации Азербай-джана. Баку. «Элм». 2011. 726 с.

6. Aras O.N., Süleymanov E. Azərbaycan İqtisadiyyatı. “Şərq-Qərb” mətbəəsi, Bakı. 2016,412 s.

Quliyev Zakir Qəşəm oğlu

i.ü.f.d., Bakı Biznes Universiteti

“Mühasibat uçotu və audit kafedrası”

AZ 1122. Bakı ş., H. Zərdabi 88a.

Tel: 050-311-64-35 zakirquliyev@inbox.ru

Aqrar sahədə, dövlət büdcəsini və iqtisadi səmərəliliyin yüksəldilməsində idarəetmə uçotunun təkmilləşdirilməsi

Açar sözlər: aqrar sektor, ərzaq təhlükəsizliyi, kredit güzəştləri, sığorta güzəştləri, vergi güzəştləri, bazar konyukturasının təkmilləşdirilməsi, topdan və pərakəndə satış, gəlir və mənfəət, idarəetmə uçotu, idarəetmə mühasibatlığı.

Ключевые слова: аграрный сектор, продовольственная безопасность, кредитные льготы, страховые льготы, нологвые льготы, усовершенствование рыночной конюктуры, оптовая и розничная продажа, прибыль и выгода, управление учетом, управление бухгальтерия.

Keywords: agrarian sector, food security, loan discounts, insurance exemptions, tax exemptions, improving market conjuncture, wholesale and retail sales, income and profits, account management, management accounting.

“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili əsasında Strateji Yol Xəritəsinin hazırlanması üzrə müvafiq tapşırıqlar verilmişdir. Buna uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi sahələrində mövcud vəziyyət müvafiq dövlət orqanlarının, tədqiqat mərkəzlərinin və müstəqil ekspertlərin iştirakı ilə sistemli və əhatəli şəkildə təhlil olunmaqla, silsilə müzakirələr keçirilmiş və müvafiq qiymətləndirmələr aparılmış, bunun əsasında “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” (bundan sonra–Strateji Yol Xəritəsi) hazırlanmışdır.

Strateji Yol Xəritəsinin 2016–2020-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması üçün 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulur. Bu strateji hədəflər ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılması, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi və məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsi, bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması, təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirilməsi və kənd yerlərində rifahın yüksəldilməsi məsələlərini əhatə edir **[1]** .

Azərbaycan iqtisadiyatının qeyri-neft sektorunda əsas prioritet sahələrdən biri kənd təsərrüfatı hesab edilir. Ölkənin əhalisinin 48 faizə qədəri kənd yerlərində yaşayır ki, bu da məşğul əhalinin 38,8 faizini təşkil edir. Azərbaycan Statistika Komitəsinin məlumatına görə 2018-ci iin yanvar-fevral və mart ayları üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının dəyəri 823.6 milyon manat olmuşdur ki, bu da 2017-ci ilin birinci rübü üzrə 104.2 faiz və 2016-cı ilin birinci rübündə isə 103.5 faizi çox olmuşdur **[8]**.

Ölkədə ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə aqrar sektorun inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması, istehsalçıların ixrac yönümlü fəaliyyətinin stimullaşdırılması emal və yeyinti

sənayesinin xammala, əhalinin ərzaq məhsullarına olan tələbatını yerli məhsullar hesabına ödənilməsi üçün büdcə vasitəsilə bu sahəyə dövlətin maliyyə yardımının daha da gücləndirilməsi zəruridir **[2]**.

Dövlət kənd təsərrüfatı məhsullarının, xammal və ərzaqın istehsalına, emalı və satışına, eləcədə aqrar sənaye istehsalına, istehsala texniki xidmət göstərilməsinə və maddi-texniki təminatına əhmiyyətli təsir göstərməklə, aqrar sektorun dövlət tənzimlənməsinə və onun davamlı inkişafını təmin edir.

Dövlət tənzimlənməsinin vəzifələri aşağıdakılardan ibarətdir.

-aqrar sektorun stabilləşdirilməsi.

-ölkənin ərzaq təhlükəsiziliyinin təmin edilməsi.

-əhalinin ərzaq təminatının yaxşılaşdırılması.

-ölkənin kənd təsərrüfatı ilə digər təsərrüfat sahələri arasında tarazlı nisbətinin (paritetin) təmin edilməsi.

-aqrar sfera və sənaye işçilərinin gəlirləri arasında fərqin azaldılması, başqa sözlə aqrar və sənaye işçilərinin gəlirləri səviyyəsinin yaxşılaşdırılması.

-daxili bazarın qorunması.

Aqrar sektorun dövlət tənzimlənməsi aşağıdakı istiqamətlərdə həyata keçirilməklə, aşağıdakılara diqqətin daha da artırılması vacibdir.

-kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarının formalaşması və inkişafı;

-kənd təsərrüfatının maliyyələşdirilməsi, kreditləşdirilməsi, sığortası və vergi güzəştlərinin verilməsi;

-xarici iqtisadi əlaqələrin təşkili zamanı ölkənin əmtəə istehsalçılarının mənafeyinin qorunması;

-aqrar sektorda elmin inkişafı və elmi tədqiqatların aparılması;

-kəndin sosial sferasının inkişaf etdirilməsi;

-qiymət mexanizminin təkmilləşdirilməsi, dövlət tənzimləmə qiymətləri ilə bazar qiymətlərinin əlaqələndirilməsi.

Nəzərə almaq lazımdır ki, tələb və təklifin təsiri altında əmələ gələn bazar qiymətləri kənd təsərrüfatı istehsalçılarının digər subyektlərlə qarşılıqlı iqtisadi münasibətlərinin əsas formasıdır.

Dövlətin ehtiyaclarının ödənilməsi üçün kənd təsərrüfatı məhsullarının, xammal və ərzağın alınmasını təmin etmək məqsədi ilə tətbiq edilən dövlət mexanizmində müsabiqə üzrə sifarişlərin verilməsi mühüm əhmiyyət kəsb edir. Ərzaq bazarının sabitləşdirilməsi məqsədilə dövlətin müdaxiləsi alış qiymətləri və əmtəə kütləsi vasitəsilə həyata keçrilməsi daha məqsədəuyğun olar.

Dövlətin bazara (alqı) müdaxiləsi bazarın tələb-təklifindən artıq olan məhsulun dövlət tərəfindən alınması. Bazar konyukturasının təkmilləşdirilməsi, rəqabət şəraitinin təmin edilməsi, kənd təsərrüfatı istehsalçılarının gəlirlik səviyyəsinin təmin edilməsi məqsədilə həyata keçirilməlidir.

Dövlətin ərzaq müdaxiləsi ölkədə iqtisadi konyukturanın sabitləşdirilməsi, əmtəə çatışmazlığının aradan qaldırılması və qiymət səviyyəsinin aşağı salınması məqsədilə dövlət fondlarından kənd təsərrüfatı məhsullarının və ərzağın ucuz qiymətlərlə satışının təşkili formasında həyata keçirilir **[4]** .

Kənd təsərrüfatı istehsalının tənzimlənməsi və dəstəklənməsi istiqamətində dövlət tərəfindən aşağıdakı tədbirlərin həyata keçrilməsi məqsədəuyğun olardı:

-məqsədli və təminatlı qiymət sistemindən istifadə etməklə sahələrarası münasibətlərin təkmilləşdirilməsi;

-daxili bazarda idxalın artmasında (idxal ekspansiyasından) ölkənin əmtəə istehsalçılarının qorunmasının təmin edilməsi;

-sərbəst (azad) bazarda satılmamış kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən münasib qiymətlərlə alışının təşkil edilməsi;

-kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına yönəldilmiş məqsədli və səmərəli proqramların həyata keçrilməsini təmin edən maliyyə- kredit sisteminin yaxşılaşdırılması;

-dövlətin maliyyə dəstəyi ilə kənd təsərrüfatına lizinq əsasında texniki və avadanlıq göndərilməsini genişləndirmək;

-kənd təsərrüfatı məhsullarının, ərzaq və xammalın istehsal yerindən əsas satış (istehlak) bazarlarınan daşınmasının ucuzlaşdırılmasının təmin edilməsi və bu məqsədlə qanunvericilik bazasının yaradılması;

-bazar infrastrukturunun sürətli inkişafı üçün maliyyə və təşkilati yardımın gücləndirilməsi, topdansatış ərzaq bazarlarının və yerli bazarların, əmtəə birjalarının yaradılması, xüsusilə, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün topdan satış və pərakəndə satış bazarlarının genişləndirilməsi üzrə tədbirlər sisteminin həyata keçrilməsi;

-ölkədə istehsal olunmuş kənd təsərrüfatı məhsullarının xarici ölkə bazarlarında satışına yardım göstərilməsi və rəqabət qabiliyyətli məhsul istehsalı və satışının genişləndirilməsi və s**.[5]** .

Bazar münasibətlərinin formalaşdığı şəraitdə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsində regional iqtisadi inkişaf həlledici rol oynayır. Regional iqtisadi inkişafın uğurla həyata keçirilməsi regional siyasətin düzgün formalaşmasından, onun normativ- hüquqi əsaslarının bazar münasibətlərinin tələblərinə uyğun qurulmasından asılıdır. Ölkəmizdə bu istiqamətdə samballı tədbirlərin həyata keçrilməsi və xüsusilə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının qəbul edilməsi və onların yerinə yetirilməsi son illər respublikanın sosial-iqtisadi inkişafına, o cümlədən aqrar sahədə səmərəliliyin yüksəldilməsinə şərait yaratmışdır.

Məlum olduğu kimi, aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq formalarının istehsal-iqtisadi göstəricilərinin yüksəldilməsi birbaşa istehsalın iqtisadi səmərəliliyindən asılıdır. İqtisadi səmərəliliyə nail olmadan və tələb olunan səviyyədə mənfəət olmadan sahibkarlıq formalarının maddi-texniki bazasının möhkəmləndirmək, geniş təkrar istehsalın inkişafını sürətləndirmək və işçilərin həyat səviyyəsini yaxşılaşdırmaq qeyri mümkündür.

Aqrar sahibkarlıq formalarında iqtisadi səmərəlilik sosial-iqtisadi inkişafın başlıca amili olmaqla mürəkkəb ictimai-iqtisadi prosesdir. İqtisadi səmərəlilik geniş təkrar istehsalın inkişafının, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasının, sosial problemlərin həllinin başlıca şərti, ehtiyyat mənbəyi və maliyyə vəsaitinin mövcud olmasıdır. Aqrar sahibkarlığın maliyyələşməsinin başlıca mənbəyi onların öz vəsaiti, yəni əldə etdiyi gəlir və mənfəətdir. Ona görədə aqrar sahibkarların gəlirlərinin artması, onların bölgüsünün və xüsusilə istifadəsinin səmərəli həyata keçrilməsi qarşıda duran başlıca problemlərdən biridir.

Müasir dövrdə aqrar sahibkarlıq formalarında istehsal olunan məhsulların çoxaldılmasının, keyfiyyətin yaxşılaşdırılmasının, itkilərin qarşısının alınmasının, məhsul vahidi hesabına əmək və vəsait sərfinin aşağı salınmasının və iqtisadi səmərəliliyin yüksəldilməsinin başlıca istiqaməti intensiv inkişafın təmin edilməsi,

iqtisadi əlaqə və mənafeylərin səmərəli təşkili, istehsalın stimullaşdırılmasının düzgün həyata keçirilməsidir.

Azərbaycan Respublikasında aqrar sahibkarlığın formalaşmasına və səmərəli fəaliyyət göstərməsinə dair həyata keçirilən siyasi, iqtisadi, texniki-texnoloji, təşkilati tədbirlər, onların fəaliyyətinin tənzimlənməsi və idarə olunmasına dair qəbul edilmiş qanunlar, təsdiq olunmuş proqramlar, fərman və sərəncamlar aqrar sahədə məhsul istehsalının dinamik olaraq artırılmasına və iqtisadi səmərəliliyin yüksəldilməsinə real imkanlar açmış və şərait yaratmışdır. Bununla birlikdə onu da qeyd etmək lazımdır ki, aqrar sahədə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün bütün regionlarda ehtiyyat mənbəyi və istifadə olunmayan ehtiyatlar çoxdur. Hələlik bəzi regionlarda mövcud əmək və vəsait ehtiyatından, torpaq sahələrindən səmərəli istifadə olunmur.

Aqrar sahədə istehsalın iqtisadi səmərəliliyi istehsal olunan məhsulların həcmindən və keyfiyyətindən istehsal xərcindən, məhsulların satış qiymətindən, əldə edilən gəlirdən, mənfəətdən və s. asılıdır. Məhsul istehsalı artdıqca, xərclər azaldılır, qiymət yüksəldikcə alınan gəlir çoxalır, geniş təkrar istehsalın inkişaf etdirilməsinə daha şox vəsait ayrılır, sosial problemlərin həllinə nail olunur. Ümumiyyətlə aqrar sahibkarıq formalarında istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün elmi-texniki tərəqqinin nailiyyətlərindən, qabaqcıl təcürbədən geniş istifadə olunmalı, əməyin və istehsalın elmi əsaslarla təşkili həyata keçrilməlidir. Bunlarla yanaşı iqtisadi mexanizmin ardıcıl olaraq təkmilləşdirilməlidir.

Müxtəlif regionlarda fəaliyyət göstərən qabaqcıl aqrar sahibkarlıq formalarının təcrübəsi göstərir ki, mütərəqqi üsullara əsaslanan, müasir texnika və texnolojiya tətbiq edən, maddi maraq və istehsalın stimullaşdırılması düzgün qurulan, idarəetmə elmi əsaslarla təşkil edilən istehsal qanunlarında yüksək istehsal-iqtisadi nəticələrə nail olunur **[3].**

Yeni iqtisadi münasibətlər dövründə aqrar sahə yeni məzmunlu, mühüm sosial-iqtisadi şəraitdə fəaliyyət göstərməsi ilə xarakterizə edilir. Belə ki, iqtisadiyyatın bazar münasibətləri əsasında inkişafı, kənddə aqrar islahatların həyata keçirilməsi, ənənəvi təsərrüfatçılıq, idarəçilik formaları sovxoz və kolxozlara məxsus torpaq, əmlak və mal-qaranın özəlləşdirilməsi, kənd təsərrüfatı istehsalı sahəsində mərkəzi planlaşdırma sistemi və məhsul üzrə dövlət sifarişlərinin ləğv edilməsi, məhsulun alış qiymətlərinin sərbəstləşdirilməsi və s. bu kimi məsələlər köklü idarəçilik strukturlarına da ciddi təsir göstərilmişdir.

Bazar münasibətlərinin tələblərinə uyğun olaraq aqrar sahibkarlıq subyektlərində idarəetmə uçotunun təşkili ilə əlaqədar qarşıda duran başlıca vəzifələrə məsrəflər haqqında informasiyanın alınmasının qeyri-ənənəvi sistemlərinin yaranmasına və mənimsənilməsinə, maya dəyərinin kalkulyasiya edilməsinə, maliyyə nəticələrinin hesablanmasına, nəzarətə və bunların əsasında idarəetmə qərarlarının qəbul edilməsinə nail olmaq daxildir.

Aqrar sahibkarlıq formalarında idarəetmə uçotu subyektin rəhbərliyinin məlumat ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulmuşdur. Burada əsas məsələ sahibkarlıq subyektinin məsrəflər, maliyyə nəticələri və gəlirlər haqqında vaxtında ətraflı və dəqiq məlumatların alınmasıdır. İdarəetmə uçotunun məlumatları əsasında operativ, faktiki və strateji qərarlar qəbul edilir. Həm tam və həm də qısaldılmış marjinal maya dəyəri əsasında məhsulun həcmi, məsrəflər və qiymətlər nizamlanır.

Aqrar sahibkarlıq subyektlərində idarəetmə uçotu sisteminin tətbiqi uçot siyasətinin təşkili, onun istifadə etdiyi metodlar, uçotun aparılması texnikası ilə əlaqədar məsələlərin ətraflı işlənilməsini tələb edir. Uçot siyasəti sahibkarlıq tərəfindən maliyyə hesabatının hazırlanması və təqdim edilməsi üçün qəbul edilmiş prinsiplər, əsaslar, həcmlər, qaydalar və prosedurların məcmusudur.

Bazar münasibətlərinin formalaşdığı müasir dövrdə mühasibat uçotunun maliyyə və idarəetmə hissələrinə ayrılması uçot siyasətində ayrıca maliyyə və idarəetmə mühasibatlığının formalaşmasını obyektiv zərurətə çevirmişdir. Bizim fikrimizcə bununla əlaqədar tələb olunan ilkin şərtlər mövcuddur. Belə ki, iqtisadi şərt ölkəmizdə bazar iqtisadiyyatı formalaşmış və hazırda inkişafa malikdir; nəzəri şərt ölkəmizdə və xarici ölkələrdə iqtisad elmi, xüsusilə idarəetmə, iqtisadi əlaqə və münasibətlər, beynəlxalq təcürbənin geniş tətbiqi, elmi-texniki tərəqqinin yüksəlişinə nail olunur; qanunvericilik baza ölkəmizdə mükəmməl və müasir dövrün tələbləri səviyyəsində inkişafa malikdir.

Uçot siyasəti işlənib hazırlanarkən nəzərə alınmalıdır ki, idarəetmə uçotunun təşkilinin başlıca ilkin şərti metodologiya, texnika, uçotun təşkili məsələləri üzrə müxtəlif qərarların qəbul edilməsi imkanlarının olmasıdır. İdarəetmə mühasibatlığında hesabat ili üçün uçot siyasətinin seçilməsi və əsaslandırılması vaxtı təşkilat yalnız maya dəyərini idarə etməklə deyil, həm də onların hesablanmasının bu və ya digər variantını seçməklə öz maliyyə nəticələrinə təsir edə bilər. Buradan belə nəticə çıxır ki, uçot siyasətinin elementi kimi variantlıq hal-hazırda müasir

təşkilatlarda idarəetmə uçotunun təşəkkül tapmasının ilkin dövrlərinin əsasını təşkil edir.

Aqrar sahibkarlıq subyektində uçot siyasətinin formalaşmasının müasir vəziyyətinin təhlili göstərir ki, sahibkarların əksəriyyəti bu prosesə formal yanaşırlar. Belə ki, aqrar sahibkarlıq formalarının əksəriyyətində uçot siyasəti onun idarəetmə sisteminin tərkib hissəsinə çevrilməmişdir. Uçot siyasəti yalnız metodoloji aspekt çərçivəsində formalaşır **[6]** .

Aqrar-sənaye istehsalında dövlət tənzimlənməsinin vəzifələri hesab olunur:

-aqrar-sənaye istehsalının inkişafının sabitləşdirilməsi;

-ərzaq təhlükəsizliyin təmin edilməsi;

-əhalinin ərzaq təminatının yaxşılaşdırılması; kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasında iqtisadi üstünlüyün qorunub saxlanması;

-kənd təsərrüfatı işçilərinin gəlirlərinin səviyyəsinin, sənaye işçilərinin gəlirlərinə yaxınlaşdırılması;

-aqrar-sənaye istehsalında yerli istehsalçıların müdafiə olunması.

Aqrar-sənaye istehsalında dövlət tənzimlənməsinin əsas istiqamətləri:

-kənd təsərrüfatı məhsullarının, xammalının və ərzağının bazarının formalaşdırılması və fəaliyyət göstərməsi;

-maliyyələşdirilməsi, kreditləşdirilməsi, sığortalanması;

-güzəştli vergitutması; xarici iqtisadi fəaliyyət zamanı yerli istehsalçıların maraqlarının müdafiəsi;

-aqrar-sənaye istehsalında elmin və elmi fəaliyyətin inkişaf etdirilməsi; və s. hesab olunur.

Təcürbə göstərir ki, aqrar sahibkarlıq subyektində uçot siyasəti formalaşarkən yalnız təşkilatı və texniki aspektlər nəzərə alınır. Ayrı-ayrı sahibkarlıq subyektlərində işçi hesablar planı fəaliyyət göstərir. Lakin onun tərkib hissəsinin təhlilindən görünür ki, onun formalaşmasına formal yanaşılır və standart hesablar planı olduğu kimi təkrar olunur.

Təcürbə göstərir ki, aqrar sahibkarlıq subyektlərində idarəetmə uçotu siyasətinin seçilməsinə hər şeydən çox aşağıdakı amillər təsir edir:

-sahibkarın hüquqi və təşkilati-iqtisadi statusu;

-sahibkrlığın cari və uzunmüddətli məqsədləri;

-maliyyə-istehsal, kommersiya və idarəetmə fəaliyyəti, kadr təminatı;

-təsərrüfatın istehsal şəraiti s.

Ona görə də hər bir aqrar sahibkarlıq subyektində idarəetmə uçotu siyasəti müəyyən edilərkən bu amillər nəzərə alınmalıdır **[7]** .

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı
2. İbrahimov İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı, 2005, 360 səh.
3. "Alıyev İ.H. "Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi, Bakı, "Elm" 2003. səh. 27-38
4. Alıyev İ.H. "Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri", Bakı 2006

6. Səbzəliyev S.M. Mühasibat (maliyyə) hesabatı, Bakı: "XKB və poliqrafiya", 2003-cü il, 170 s.

7. Аудит. Краткий курс. Учебное пособие. – М.: Окей-книга, 2014. – 126 с. – ISBN 978-5-409-00586-3.

8. www stat.qov.az

Quliyev Z.Q.i.f.d.

Bakı Biznes Universiteti

Aqrar sahədə, dövlət büdcəsini və iqtisadi səmərəliliyin yüksəldilməsində idarəetmə uçotunun təkmilləşdirilməsi

Məqalədə, büdcə vasitəsilə bu sahəyə dövlətin maliyyə yardımının daha da gücləndirilməsi zəruriliyi əks etdirilmişdir. Aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq formalarının istehsal-iqtisadi göstəricilərinin yaxşılaşması,, mövcud resurslardan, torpaq sahələrindən, əsas fondlardan, əmək ehtiyyatlarından səmərəli istifadəyə nail olunması və istehsalın iqtisadi səmərəliliyinin yüksəlməsi yolları göstərilmişdir. Belə ki, aqrar sahibkarlıq formalarının əksəriyyətində uçot siyasəti

onun idarəetmə sisteminin tərkib hissəsinə çevrilməsi və uçot siyasətinin yalnız metodoloji aspekt çərçivəsində formalaşmasına nail olunmuşdur. Bütün bunlar maliyyə və idarəetmə mühasibatlığının elmi əsaslarla inkişafı üçün real imkanlar açır.

Гулиев З.Г. д.ф.э.н.

Вакинский Университет Бизнеса

РЕЗЮМЕ

Особенно небходимо усилить улучшения, показателей производительности и экономики владельцев

Показан путь повышению экономического производства, добиться рационального изпользования трудовых резервов, существующих ресурсов, земельных участков, основных фондов. И так в основном форма учетной политики управления системой превращает в его компонент, и добились управления учетной политики только в рамках методического аспекта. Все это для финансового и бухгалтерского управления открывает реальный возможности, на основании научного развития.

Guliyev Z.G. E.P.H.D

Baku Business University

SUMMARY

Improvement of management accounting in agrarian sector of state budget and economic efficiency

In the article the necessity of further strengthening of state financial assistance to this area by budget is reflected. Improvement of production-economic indicators of entrepreneurial forms operating in agrarian sphere, ways to achieve effective utilization of available resources, land plots, fixed assets, labor need and productivity are shown. So, in the majority of agrarian forms of entrepreneurship accounting policy, its transforming into an integral part of its management system and

accounting policy only within the framework of the methodological aspect have been achieved. All of these are opening real facilities for the development of financial and managerial accounting by scientific basis.

Murtəza Həsənov
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının *"Dövlət qulluğu və kadr siyasəti"* kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru

Azərbaycan Respublikasının dövlət qulluğu beynəlxalq təcrübə kontekstində

Giriş: Azərbaycan Respublikasında dövlət qulluğu sistemində həyata keçirilən islahatların səciyyəvi xüsusiyyəti onların innovativ xarakterli olmasından ibarətdir.Azərbaycan suverenlik əldə etdikdən, müstəqilliyin bərpasından sonra yeni iqtisadi şəraitdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna müvafiq keçid dövründə dövlət aparatının, dövlət idarəetmə sisteminin yenidən qurulması və dövlət qulluğunun formalaşması mərhələsinə başlanılır. İslahatların həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Lider Heydər Əliyevin «Hüquqi islahatlar komissiyasının yaradılması haqqında» Sərəncamının (1996) və «Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında» Fərmanının (1998) müstəsna rolu olmuşdur. Respublikada hakimiyyət institutlarının islahatları ilə yanaşı eyni zamanda, dövlət qulluğu sisteminin islahatları həyata keçirilir ki, buna da dövlət idarəetmə sisteminin vacib elementi kimi baxılır. Dövlət qulluğunun ictimai məsuliyyəti və şəffaflığı islahatların keçirilməsinin zəruri şərti olub son nəticədə dövlət idarəetmə sisteminin səmərəliliyinə zəmanət verir. Peşəkar, səriştəli və stabil dövlət qulluğu yaradılmadan səmərəli dövlət idarəetmə sistemini təşkil etmək mümkün deyildir. Peşəkar dövlət qulluğunun yaradılması prosesində ilk addım isə ixtisasın və peşəkar səriştənin təkmilləşdirilməsindən, etik normalara əməl olunmasından ibarətdir [6].Dövlət qulluğunun təşkil edilməsi, tənzimlənməsi və idarə olunması idarəetmə sistemi vasitəsilə həyata keçirilir. Qlobal inkişafın müasir meylləri yeni modellərə zərurət yaradır, yeni metod və funksiyalar cəmiyyətin tələbatına uyğun formalaşdırılır. Dövlət orqanlarının işinin təkmilləşdirilməsi, vətəndaşların rifahının artırılması və məmununluq səviyyələrinin yüksəldilməsi üçün dövlət qulluğunun

modernizasiyası prosesi aparılır. Dövlət qulluğunun ənənəvi qaydalarına beynəlxalq təcrübələrə əsaslanan innovativ qaydalar tətbiq olunur.

Azərbaycanda dövlət qulluğu sistemi Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi dövlət qulluğu sahəsində də əsaslı islahatlar aparılmışdır. Bu sahədə fəaliyyətin səmərəliliyini artırmaq, həmçinin qulluğa layiqli şəxslərin qəbul ola bilmə imkanlarını genişləndirmək üçün bir sıra normativ hüquqi aktlar qəbul olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 19-cu bəndinə əsasən dövlət qulluğu məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar arasındadır. Dövlət qulluğu haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən edən digər qanunvericilik aktlarından ibarətdir. 2001-ci ildə qəbul olunan "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunu dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir [3]. Dövlət qulluqçularının etik davranış qaydalarının tənzimlənməsi ümumilikdə dövlət qulluğunun əsas hissəsini təşkil edir. Bu məqsədlə dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən etmək üçün 31 may 2007-ci ildə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur [2]. Konstitusiyanın 55-ci maddəsi olan Dövlətin idarə olunmasında iştirak etmək hüququna əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır və Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər [1]. Respublikamızda dövlət qulluğuna qəbul "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunu ilə tənzimləndiyi məlumdur. Bu qanunun 27.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququ vardır. Dövlət qulluğuna qəbul müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanından və müsahibədən

ibarətdir. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq inzibati vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir. Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən sertifikatı qüvvədə olan şəxs müsahibədə iştirak edə bilər. Müsahibədə iştirak etmək istəyən şəxs müsahibənin keçirilməsi elan edildiyi gündən 30 gün müddətində dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edir. Müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir [3]. Sosial, iqtisadi, siyasi və hüquqi dəyişikliklər bu prinsipləri gün dövlət qulluqçularından və rəhbərlərindən demokratik idarəçiliyə uyğun yeni keyfiyyətlər və vərdişlər tələb edir. Onlar dövlət təşkilatlarında dəyişikliklər aparılmasının müasir metodlarım və vasitələrini mənimsəməli, innovasiya proseslərinin idarəedilməsi qabiliyyətlərinə malik olmalıdırlar. Dövlət idarəçiliyində çalışan yeni nəsil özünün qulluq fəaliyyətində demokratik dəyərləri və mənəviyyat normalarmı formalaşdırmalı, dövlət idarəçiliyinin bütün səviyyələrində, bütövlükdə cəmiyyətin maraqlarına uyğun olaraq işin səmərəliyini artırmalıdır. Buna görə də keçid dövründə müasir tələbləri nəzərə almaqla yeni demokratik idarəetmə prinsipləri əsasmda kadr hazırlığının və ixtisas artırılmasının xüsusi sisteminin yaradılması zərurəti meydana gəldi. Bu zərurəti görən ümummilli lider Heydər Əliyev 1999-cu il yanvarın 3-də xüsusi fərmanla Azərbaycan Respublikasınm Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını yaratdı. Artıq öz işlərini dünya standartlarına və demokratik idarəetmənin yüksək inkişaf etdiyi ölkələrdə aparılan təcrübə mübadiləsi əsasında quran Dövlət İdarəçilik Akademiyası uğurlu addımlarını atmağa başlamışdır[4]. **Beynəlxalq təcrübənin tətbiqi ilə Azərbaycan dövlət qulluğu sistemi** Qloballaşma prosesi ilə əlaqədar beynəlxalq dövlət qulluğunun yaranması və beynəlxalq təşkilatların (BMT, Aİ, NATO, ASEAN, MDB kimi təşkilatların) bürokratik aparatının formalaşdırılması, müxtəlif beynəlxalq təşkilatlarla qarşılıqlı münasibələrə görə cavabdeh olan təşkilati strukturların yaranması, milli qanunvericiliyin beynəlxalq müqavilələri nəzərə almaqla dəyişdirilməsi kimi yeni məqamları qeyd etmək lazımdır. Avropa İttifaqının həm hazırkı, həm də potensial üzvlərinin dövlət strukturlarının fəaliyyətini yaxınlaşdırmaq və unifikasiya etmək məqsədilə Avropa inzibati məkanının yaradılmasına başlanılmışdır. Nəticədə ümumavroapa problemləri dövlət qulluqçularının gündəlik işinin bir hissəsinə çevrilir ki, bu da onlardan beynəlxalq və milli qanunvericiliyi, xarici dilləri, informatikanı, mədəniyyətlərarası ünsiyyətin əsaslarını və s. bilmək tələb edir. Aİ-nın yeni üzvləri üçün inzibati islahatların

meyarları işlənib hazırlanmış və strategiyası təklif edilmişdir ki, bu da dövlət quruluşunun ümumi prinsiplərinin müəyyənləşdirilməsi, qanunvericiliyin dəyişdirilməsi proqramının, dövlət institutlarının formalaşdırılması planının işlənib hazırlanması kimi mərhələləri özündə əks etdirir [5]. 1991-ci ildən 2006-cı ilədək Aİ-nin Azərbaycana yardımları MDB ölkələrinə texniki əməkdaşlıq (TACİS) proqramı çərçivəsində həyata keçirilmişdir. TACİS institusional, hüquqi və inzibati islahatların aparılması, bazar iqtisadiyyatına keçid dövrünün sosial nəticələrinin aradan qaldırılması, yoxsulluğun azaldılması məqsədlərinə yönəldilmişdir [7].

Avropa İttifaqının dəstəyi ilə Dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə TACİS layihəsi çərçivəsində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı tərəfindən hazırlanmış və nəşri Avropa İttifaqı tərəfindən maliyyələşdirilmiş "Dövlət qulluğu məsələlərinə dair normativ hüquqi aktlar" məcmuəsi çap olunmuşdur.

Dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə Avropa İttifaqının TACİS layihəsinin baş eksperti professor Diter Şimankenin yazdığı icmalda isə respublikada indiyədək dövlət qulluğu haqqında qəbul edilmiş aktların hazırlanması üçün həmin layihə çərçivəsində görülmüş işlər qeyd olunmuş, habelə bu aktların Avropa və dünya standartlarına nə dərəcədə uyğun olması, həmin aktlarda çatışmayan bəzi cəhətlər, gələcəkdə dövlət qulluğu sahəsində ölkəmizdə görüləcək işlərin perspektivləri açıqlanmışdır [6].

2002-ci ilin sonunda TACİS layihəsi öz diqqətini "Dövlət qulluğu haqqında" Qanunun icrasına yönəltmək tapşırığı almışdır. Layihənin Texniki Tapşırığında irəli sürülən inzibati islahatlar mövzusunda dəyirmi masa müzakirələrinin keçirilməsi tələbi İlkin Hesabatdan çıxarılmış, lakin dövlət idarəetməsi sahəsində islahatlar strategiyası layihəsinə olan istinad saxlanılmışdır [5].

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən Avropa İttifaqının Tvinninq aləti çərçivəsində "Azərbaycan dövlət qulluğu sistemində islahatların davam etdirilməsinə dəstək Layihəsi" (AZ/15/ENP/OT/40) həyata keçirilir.

Tvinninq Avropa İttifaqının (Aİ) institusional quruculuq aləti olaraq dövlət idarəçiliyi sahəsində təcrübə mübadiləsi və yardım göstərilməsi, habelə milli qanunvericiliyin Aİ standartlarına uyğunlaşdırılmasını nəzərdə tutur. Bu, Aİ üzvü dövlətlərinin dövlət qurumları ilə benefisiar, yaxud tərəfdaş ölkələr arasında institusional əməkdaşlıq üzrə Aİ alətidir. Avropa Komissiyasının təşəbbüsü olan Tvinninq aləti 1998-ci ildə namizəd ölkələrin Avropa İttifaqına inteqrasiya prosesini dəstəkləmək məqsədilə başlanmışdır. Tvinninq Avropa Qonşuluq və Əməkdaşlıq Aləti kimi Azərbaycanda 2006-cı ildən həyata

keçirilir və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi məqsədilə Avropa İttifaqına üzv ölkələrin və benefisiar ölkənin dövlət sektoru təcrübəsini bir araya gətirir.

Layihə dövlət qulluğu vəzifələrinin funksiyalarının məzmununa görə sahələr üzrə qruplaşdırılmasını, həmçinin, yeni qruplaşdırma sisteminin dövlət qulluğuna qəbulda, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində və onların əməyinin ödənilməsində tətbiqinə dair təkliflərin verilməsini nəzərdə tutur.

Layihə üzv ölkə qismində Litva Respublikasının müvafiq qurumları ilə birgə həyata keçirilir:

- Litva Respublikasının Dövlət Katibliyi
- Litva Respublikasının Dövlət Qulluğu Departamenti
- Avropa Sosial Fond Agentliyi

Layihə Azərbaycanda peşəkar və dayanıqlı dövlət qulluğu sisteminin daha da inkişaf etməsinə dəstək verir.

Layihə 4 komponent üzrə nəticələr əldə etməyi hədəfləyir:

- vəzifələrin qruplaşdırılması sistemi;
- dövlət qulluğuna qəbul;
- fəaliyyətin qiymətləndirilməsi;
- dövlət qulluğu vəzifələrinin yeni təsnifatına uyğun ödəniş sistemi

Layihənin sonunda ümumi məqsədə uyğun olaraq, hər komponent üzrə müəyyən nəticələr əldə ediləcək. Layihə çərçivəsində fəaliyyət mövcud çatışmazlıqları və onların aradan qaldırılması üçün qanunvericiliyə edilməsi zəruri olan dəyişiklikləri müəyyən etməyə, qanunvericiliyin Avropa İnzibati Məkanına və Aİ qabaqcıl təcrübəsinə uyğunlaşdırılmasına yardım edəcək.

Layihə əsas nəticələrinə (qanunvericilik aktlarının layihələndirilməsi, dövlət qulluğu vəzifələrinin qruplaşdırılması, dövlət qulluğuna qəbul və əməyin ödənilməsi sisteminin təkmilləşdirilməsi) təlimlər, seminarlar, ekspert missiyaları, təlim səfərləri keçirməklə, habelə müxtəlif dövlət orqanlarının nümayəndələri ilə görüşlər və təcrübə mübadiləsi yolu ilə nail olacaqdır.

Layihə müddətində aşağıdakılar nəzərdə tutulur:

- Üzv ölkənin 20-dən çox mütəxəssisinin vaxtaşırı DİM-ə səfəri;
- 20 iştirakçını əhatə edən 4 təlim səfəri (Latviya/Litva; Avstriya/Macarıstan; Portuqaliya/İspaniya; Fransa/Belçika)
- 100 nəfərin iştirak etdiyi 4 təlim və iştirakçılar arasından bir qrup təlimçinin seçilməsi;
- 8 Avropa ölkəsinin qabaqcıl təcrübəsinin öyrənilməsi.

Layihə Aİ tərəfindən maliyyələşdirilir və büdcəsi 1,2 milyon avro təşkil edir. Layihənin müddəti iki ildir. Layihə 2016-cı ilin noyabrın 17-də Rezident Tvinninq Müşavirinin ölkəmizə gəlişi ilə rəsmi şəkildə başlamışdır. 14 fevral tarixində Layihənin rəsmi təqdimatı keçirilmişdir [8].

Nəticə

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi dövlət qulluğu sahəsində də əsaslı islahatlar aparılmışdır. Bu sahədə fəaliyyətin səmərəliliyini artırmaq, həmçinin qulluğa layiqli şəxslərin qəbul ola bilmə imkanlarını genişləndirmək üçün bir sıra normativ hüquqi aktlar qəbul olunmuşdur.

Konstitusiyanın qəbulundan sonra "Dövlət qulluğu haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunları və s. normativ aktlar qəbul olunmuşdur.

2001-ci ildə Azərbaycan Respublikasında dövlət qulluğu məsələlərini tənzimləyən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi. Beynəlxalq standartlara cavab verən bu qanun dövlət qulluğu sahəsində mühim bir irəliləyiş kimi qeyd edilə bilər.

Eyni zamanda "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu da dünya təcrübəsinə uyğun bir şəkildə hazırlanmışdır.

Bundan başqa Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən proqram və layihələr də namizəd ölkələrin Avropa İttifaqına inteqrasiya prosesini dəstəkləmək məqsədilə başlanmışdır. Belə layihələrə TACİS və hal-hazırda da davam edən Tvinninqi misal göstərmək olar.

TACİS layihəsi 2002-ci ilin sonunda öz diqqətini "Dövlət qulluğu haqqında" Qanunun icrasına yönəltmək tapşırığı almışdır və dövlət qulluğu sahəsində mühim addımlar atılmışdır.

Azərbaycan kontekstində Tvinninq Aİ qanunvericiliyinin müəyyən hissələrinin və qabaqcıl təcrübəsinin mənimsənilməsi üçün səmərəli şərait yaratdığı və qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsində hökumətə köməklik göstərdiyi üçün strateji əhəmiyyətə malikdir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu
3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunu
4. R. Mehdiyev -Yeni siyasət: inkişafa doğru: məcmuə, I cild, Bakı, 2008.

5. R. Yanq və E. Azadov - Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər, Bakı, 2005.
6. https://azertag.az/xeber/dovlat_qullugu_masalalarina_dair_normativ_huquqi_aktlarin_ilk_nasri-301657
7. http://brussels.mfa.gov.az/content/38
8. http://dim.gov.az/center/partners/tvinninq

Tural ƏBDÜLHƏSƏNOV

Azərbaycan Dövlət İqtisad Universiteti

tural.abdulhasanov@gmail.com

Kənd təsərrüfatı məhsuldarlığının artırılmasında kapital qoyuluşlarının rolu

Role of intensive agriculture development in raising economic efficiency

Роль привлечения капиталовложений в повышении производительности сельского хозяйства

Xülasə: Məqalədə qeyd edilir ki, son vaxtlarda kənd təsərrüfatına yararlı torpaq sahələrinin genişləndirilməsi və əkin sahələrindən istifadənin yaxşılaşdırılması olduqca vacib məsələlərdəndir. Lakin çox zaman buna nail olmaq mümkünsüz olur. Əsas səbəb isə torpaq fondunun azlığı və ya investisiya çatışmazlığıdır. Çıxış yolu kimiməhsul istehsalının və sahədən məhsuldarlığın artırılması əsas məqsəd kimi qarşıya qoyulur.

Açar sözlər: aqrar sahə, intensivləşdirmə, investisiya siyasəti, məhsuldarlıq, ixtisaslaşma.

Summary: The article notes that recently, enlarging of agricultural land plots and improving the use of planting areas are among the most important issues. But often it is impossible to achieve it. The main reason is the lack of land fund or investment deficit. As a solution, increasing production of goods and increasing productivity from the field is the main goal.

Keywords: agrarian field, intensification, investment policy, productivity, specialization.

Резюме:В статье отмечается, что недавнее расширение сельскохозяйственных угодий и улучшение использования посевных площадей являются решающим вопросом. Но часто этого достичь невозможно.

Основной причиной является отсутствие земельного фонда или дефицит инвестиций. Основная цель в качестве выхода - повысить производительность на местах.

Ключевые слова: аграрный сектор, интенсификация, инвестиционная политика, производительность, специализация.

İntensivləşdirmənin ilkin maddi şərtləri qismində cəmiyyətin elmi-texniki tərəqqisi və istehsal qüvvələrin inkişafı çıxış edir. Sonuncu heç də az əhəmiyyət kəsb etmir və gerçəkdə həm yeni torpaqların mənimsənilməsinə, həm də artıq mənimsənilmiş torpaqların istifadəsinin yaxşılaşdırılmasına xidmət edir. Doğrudur, belə bir məqam yetişir ki, təkcə sahələrin genişləndirilməsi düşüncəsi çətin məsələyə deyil, lakin mümkünsüz bir prosesdir. Burada əsas səbəb qismində boş torpaqların olmaması, yaxud böyük əsaslı xərclər səbəbindən onların istifadəsinin əlverişsizliyi qeyd edilə bilər. Odur ki, yeganə çıxış yolu kimi məhsul istehsalının və sahədən məhsuldarlığın artırılması əsas məqsəd kimi qarşıya qoyulur. Bu halda intensivləşdirilmə obyektiv zərurət olur və kənd təsərrüfatı inkişafının qanunauyğunluğuna çevrilir.

Torpağın iqtisadi məhsuldarlığının artırılmasında mühüm mənbə kənd təsərrüfatı bitkisinin özüdür. Ayrı-ayrı bitkilər və onların növləri torpaqdan istifadə baxımından müxtəlifliyə malikdirlər. Bioloji xüsusiyyətlər səbəbindən onlar torpaq-iqlim şəraitinə fərqli reaksiya göstərir, gübrə və arqotexniki qulluğa müxtəlif dərəcədə cavab verirlər. Odur ki, bitkilərin, onların növlərinin becərilməsinin seçimini və sələflərinindüzgün müəyyən olunması çox vacib məsələlərdəndir. İntensivləşdirilmənin sürətləndirilməsi kənd təsərrüfatının istənilən sahəsində, istənilən bitkinin becərilməsində, hətta ən yüksək intensivliyi ilə seçilən bitkinin istehsalında belə müşahidə oluna bilər.

Statistik məlumatlarına nəzər saldıqda görə bilərik ki, 2012-ci illə müqayisədə 2017-ci ildə kənd təsərrüfatına yararlı torpaqların sahəsi 18,1 min hektar, əkin sahələri isə 11,6 min hektar artmışdır. Ölkədə kənd təsərrüfatının perspektiv inkişafı üçün mövcud ehtiyatlar hələ tükənməmişdir. Torpaq-iqlim şəraiti Azərbaycanda suvarılan torpaq sahəsini 3,0-3,5 mln. hektara qədər artırmağa imkan verir. Lakin su ehtiyatlarının çatışmazlığı bunun həyata keçirilməsinə yol vermir.

Təcrübədə və iqtisadi ədəbiyyatlarda istehsalın ixtisaslaşmasını və təmərküzləşməsini intensivləşdirmənin mühüm amilləri qismində nəzərdən keçirirlər. İxtisaslaşma təbii-iqtisadi şərait nəzərə alınmaqla, əhəmiyyətli xərclər sərf

edilmədən ümumi məhsulun artırılmasına istiqamətləndirilir. Lakin o, heç də bütün hallarda kənd təsərrüfatının intensivliyini yüksəltmək iqtidarında deyil.

İntensivləşdirmə kənd təsərrüfatı istehsalının təmərküzləşmə formalarından biridir, belə ki, eyni becərilən sahədə istehsal həcminin artması baş verir.Bu hal əmək məhsuldarlığının artımı və məhsulun maya dəyərinin azaldılması amili kimi ardıcıl intensivləşdirmənin mümkünlüyünü özündə əks etdirir.

Eyni zamanda, kənd təsərrüfatında intensivləşdirmənin tərkib hissəsi olan kimyalaşdırma bitkilərin mühafizəsi üçün kimyəvi vasitələrin tətbiqinə əlavə xərclərin sərf olunmasını tələb edir. Lakin bu o demək deyil ki, məsrəflərin istənilən artımı iqtisadi baxımından sərfəlidir. Kimyalaşdırma xərclərini artıran zaman aşağıdakı şərtlər gözlənilməlidir:

1. Gübrələrə daha həssas olan bitkilər üçün prioritetlər müəyyənləşdirərək istehsal olunan məhsul vahidinə məsrəflərin azaldılması;

2. Kimyəvi vasitələrin təsərrüfatlara, tarlalara və fermalara çatdirilması, eləcə də saxlanılması zamanı itkilərin minimuma endirilməsi, yaxud tamamilə aradan qaldırılması;

3. Kimyəvi vasitələrin aqrotexniki cəhətdən düzgün normalarının təyin edilməsi, növlərinə və çeşidlərinə görə onların daha yaxşı seçilməsi və qarışmasının təmin olunması, gübrələrin tətbiqinin optimal müddətinə və üsullarına riayət edilməsi.

Sadalanmış tədbirlərə əməl edilməklə vəsaitlərin qənaətinə və becərilən bitkilərin məhsuldarlığının yüksəldilməsinə nail olmaq mümkündür.

Suvarılan əkinçiliyin inkişafı və yüksək nəmliyə malik torpaqların qurudulması böyük miqdarda maddi vəsait və əmək sərfi tələb edir. Ancaq bu sahədə də eyni əraziyə xərcləri artırdıqda istehsal olunan məhsul vahidinə düşən məsrəflərə aşağıdakı yollarla qənaət etmək mümkündür:

- İrriqasiya və meliorasiya sistemlərinin qurulması zamanı daha qənaətcil layihələrin seçimi;

- Daha qiymətli və məhsuldar bitki və növlərinin seçilməsi;

- Sistemli şəkildə irriqasiya-quruducu sistemlərin işə yararlı vəziyyətdə saxlanılması;

- Suvarılan və qurudulmuş torpaqların bataqlaşmasının qarşısının alınması;

- Gübrələrin tam normada verilməsi və mütərəqqi aqrar texnikasının tətbiqi hesabına əkinçilik mədəniyyətinin yüksəldilməsi.

Azərbaycanda kənd təsərrüfatında mineral gübrələrdən istifadə səviyyəsi cədvəl 1-də verilmişdir.

Cədvəl 1

Kənd təsərrüfatında əkinlərə mineral gübrələrin verilməsi 100 % qidalı maddə hesabı ilə

İllər	Cəmi1000 t	hərhektarəkinə, kq	Ondan								Gübrə-lənmiş sahənin ümumi əkində xüsusi çəkisi, %
			taxıla	pambığa	tütünə	kartofa	tərəvəzvəbostana	Yembitki-lərinə	Bağ-lara	Üzüm-lüklərə	
2011	20,4	12	15	30	34	10	19	2	9	6	54
2012	28,1	16	20	31	65	28	20	5	11	6	61
2013	29,3	16	20	30	66	28	24	4	12	7	68
2014	34,1	19	23	33	71	31	30	4	15	7	46
2015	40,6	23	21	35	72	26	28	9	17	8	58
2016	80,7	44	51	101	120	34	53	14	43	43	70
2017	118,7	63	62	144	114	41	62	18	52	60	72

Məndə: Cədvəl stat.gov.az, Azərbaycanın kənd təsərrüfatı, DSK – nin məlumatları.

Statistik məlumatlardan göründüyü kimi əkin sahələrinə mineral gübrələrin verilməsi aqro-texniki normalardan dəfələrlə aşağıdır ki, məhsuldarlığın potensial məhsuldarlıqdan aşağı olmasına səbəd olur. Məsələn bir hektar əkin sahəsindən 30 sentner taxıl əldə etmək üçün hektara 300 kq azot, 300 kq fosfor və 100 kq kalium gübrəsi tələb olunur. Lakin mövcud şəraitdə kiçik təsərrüfatlarda mineral gübrələrin verilməsində bu şərtlər ödənilmir.

Kənd təsərrüfatının intensivləşdirilməsində ikinci mühüm amil onun mexanikləşmə səviyyəsinin yüksəldilməsidir. Qeyd etmək lazımdır ki, kompleks mexanikləşdirmə material xərclərin elə bir hissəsini təşkil edir ki, o, becərilən torpağa bərabər bölüşdürdükdə ümumi istehsal xərclərinin məbləğini həmişə artırır.

İstehsal xərcləri o halda aşağı düşə bilər ki, canlı əmək məsrəflərinə qənaətin həcmi tətbiq edilən texnikanın amortizasiya xərclərinin artması ilə müqayisədə daha çoxdur.

Bununla birgə, kənd təsərrüfatının texniki silahlanması uzunmüddətli kapital qoyuluşlarının artırılmasını tələb edir. Belə olan halda kompleks mexanikləşmənin tətbiq edilməsi kənd təsərrüfatı işlərinin vaxtlı-vaxtında aparılmasını və onların keyfiyyətinin yüksəldilməsini təmin etmiş olacaq ki, bu da torpağın iqtisadi münbitliyinin yüksəldilməsinə xidmət edəcək.

Azərbaycan Respublikası Prezidentinin 06 dekab 2016 – cı il tarixli Fərmanı“Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə hədəf 7.3.3-də qeyd edilir ki, son illər ərzində ölkədə aqrar sahəyə qoyulan investisiyaların ümumi həcminin artmasına baxmayaraq, ümumilikdə bu sahəyə investisiya qoyuluşları iqtisadiyyatın digər sahələri ilə müqayisədə çox aşağıdır. Son on ildə iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturuna nəzər saldıqda, kənd təsərrüfatına yönəldilmiş investisiyaların payının orta hesabla cəmi 3,05 faiz olduğunu görmək olar.3 İqtisadiyyata qoyulan birbaşa xarici investisiyaların həcminin son illərdə bir neçə dəfə artmasına baxmayaraq, ölkədə aqrar sahəyə birbaşa xarici investisiya, demək olar ki, qoyulmur (1. Strateji Yol Xəritəsi, 2016, səh 86). “Strateji Yol Xəritəsi”nin qəbul edilməsindən xeyli müddət keçməsinə baxmayaraq bu nisbət dəyişməmişdir. İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın dinamikası cədvəl 2 –də verilmişdir.

Cədvəl 2.

İqtisasdiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya

İllər	**Cəmi**	**O cümlədən**					
		Sənaye	**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq**	**Tikinti**	**Nəqliyyat və anbar təsərrüfatı**	**Informasiya və rabitə**	**Digər sahələr**
Milyon manat							
2012	15407,3	6039,9	648,8	499,0	2621,1	329,5	5269,0

2013	17850,8	7499,6	574,3	707,8	3570,0	200,7	5298,4
2014	17618,6	7639,5	363,9	2221,7	2440,6	157,5	4795,4
2015	15957,0	8499,9	355,4	2123,5	2199,9	335,3	2443,0
2016	16772,8	9949,8	325,1	2831,8	1392,3	199,4	1074,4
2017	17430,3	10610,1	617,8	2746,0	1777,7	171,9	1506,8
Faizlə							
2012	100	39,2	4,2	3,2	17,0	2,1	34,3
2013	100	42,0	3,2	4,0	20,0	1,1	29,7
2014	100	43,4	2,1	12,6	13,9	0,9	27,1
2015	100	53,3	2,2	13,3	13,8	2,1	15,3
2016	100	63,1	2,1	17,9	8,8	1,3	6,8
2017	100	60,9	3,5	15,8	10,2	1,0	8,6

Məndə: Cədvəl stat.gov.az, Azərbaycanın kənd təsərrüfatı, DSK – nin məlumatları

Statistik məlumatların təhlili göstərir ki, son illərdə kənd təsərrüfatı prioritet sahə kimi qəbul edilsədə bu sahəyə yönəldilən invesisiya sənaye, tikinti, nəqliyyat və anbar təsərrüfatından dəfələrlə aşağıdır. Əsas səbəb isə sahənin riskli olması və qoyulan investisiyanın geri qayıtmasının uzun dövrü əhatə etməsidir. Bu əsasən çoxillik əkmələrdə özünü göstərir.

Qeyd edək ki, davamlı intensivləşdirmənin zəruriliyi ondan ibarətdir ki, əkinçilik mədəniyyətinin və kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının, məhsulun keyfiyyətinin, əmək məhsuldarlığının artırılması və məhsulun maya dəyərinin aşağı salınmasına səbəb olan bütün tədbirlər müəyyən ardıcıllıqla yerinə yetirilir.

İntensivləşdirmə həmçinin səmərəli əkinçilik sistemlərinə keçidin reallaşdırılması deməkdir. Əkinçilik sistemi deyəndə biz şumlanmış yerlərdən istifadənin xarakterini və torpağın məhsuldarlığının bərpasını, qorunub saxlanılması və yüksəldilməsi üsullarını nəzərdə tuturuq.

Qeyd edək ki, elm və çoxəsrlik təcrübə məhsuldarlığın yüksəldilməsi nöqteyi-nəzərdən növbəli əkinin iqtisadi səmərəliliyini sübuta yetirmişdir. Növbəli əkinlərin səmərəliliyini elmi-tədqiqat müəssisələrinin, eləcə də qabaqcıl təsərrüfatlarda növbəli əkinlərin mənimsənilməsinə dair materiallardan müəyyən etmək olar (Чекалин В. С., 2009).

Aqrar sənaye kompleksində mülkiyyət xüsusi, kollektiv, dövlət, bələdiyyə və qarışıq formalarda çıxış edir. Eyni formalar torpağa da sirayət edir. Xüsusi mülkiyyət kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarlar, ailə kəndli, ev təsərrüfatlarınada xasdır**.**

İstənilən dövlətin iqtisadi siyasəti ictimai istehsalın artımının stimullaşdırılmasına və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəlir. Burada investisiyaların böyük rolu vardır. Hazırda kənd təsərrüfatının və onunla sıx əlaqəli olan emal sənaye sahələrinin inkişafı investisiya siyasətinin və əsas fondların vəziyyətindən birbaşa asılıdır. Azərbaycan Respublikasında "İnvestisiya fəaliyyəti haqqında" qanun və bir sıra digər qanunlar qəbul olunub ki, bazar iştirakçılarının investisiya fəaliyyəti onlara uyğun olaraq həyata keçirilir.

Beləliklə, intensivləşdirilmə əlavə vəsaitlərin yatırılmasını tələb edir, bunun üçün isə müəyyən miqdarda yığımlara malik olmaq lazımdır. Hər bir təsərrüfatda yığımlara doğru aparan yol əmək məhsuldarlığının yüksəldilməsindən və mənfəətin daha böyük kütləsinin əldə olunmasından keçir. Aydındır ki, müxtəlif mülkiyyət formalı təsərrüfatlarda istehlak və yığım fondları arasında düzgün nisbətlər təyin edilməlidir. Kənd təsərrüfatının intensivləşdirilməsinin öz hüdudu var. İstehsal məsrəflərin ödənilməsi dəyişikliksiz qaldığı halda o, iqtisadi cəhətdən özünü doğrultmuş hesab edilir. Müəyyən hüdudlarda kənd təsərrüfatının intensivləşdirilməsi əlavə xərclər hesabına məhsul istehsalının artımına onların istehsal normalarının aşağı salınması yolu ilə nail olunur. Odur ki, istehsal fəaliyyətinin uğuru çox vaxt burada məşğul olan insanların maddi maraqlarından, əmək ehtiyatlarından düzgün və səmərəli istifadədən asılıdır.

Ədəbiyyat siyahısı:

1. "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 06 dekab 2016 – cı il tarixli Fərmanı.
2. http://www.agro.gov.az

3. Чекалин В.С. Методические проблемы оценки конкурентоспособности сельскохозяйственной продукции // Методология исследований аграрного рынка. - Материалы научно-практической конференции. - М.: Гриф и К, 2009.

Əkbər Dadaşov
Azərbaycan Turizm və Menecment Universiteti
Magistr

Azərbaycanda turizmin inkişafında Qafqaz otellər şəbəkəsinin rolu

Xülasə: Məqalədə Qafqaz otellər şəbəkəsinin əsas yerləşmə müəssisələrinin ərazi təşkili, fəaliyyət istiqamətləri, xidmət servisi, turist qəbulu imkanları göstərilmiş, brendin ölkədəki turizm sənayesinin inkişafında rolu təhlili edilmişdir.

Açar sözlər: mehmanxana, Qafqaz otelləri, SPA, müalicəvi turizm, otel şəbəkəsi, resort.

Absract: Hotel accommodation facilities and activities of the territorial organization of service of tourists in the development of the tourism industry in the country, indicated the possibility of major Caucasus chain in the article, the role of brands, had been analysis.

Key words: hotels, Caucasus hotels, SPA, health tourism, hotel chain, resort.

Azərbaycanda mehmanxana sənayesinin inkişafnda Qafqaz otellər şəbəkəsi xüsusi yer tutur. Bildiyimiz kimi ölkəmizdə fəaliyyət göstərən Qafqaz otellər şəbəkəsi “Gilan Turizm” firmasına məxsusdur. «Gilan Turizm» hal hazırda Azərbaycanın iqtisadi inkişafına öz töhfələrini verən “GİLAN” MMC-yə məxsus turizm şirkətidir. Bildiyimiz kimi Azərbaycanın gözəl təbiəti, xoş iqlimi, insanlarının qonaqpərvərliyi dünyanın bir cox ölkələrindən turistləri məhz bu məkanda istirahət etməyə cəlb edir.

“Gilan Turizm” Azərbaycanda turizmin inkişafı sahəsində böyük imkanlara malikdir. Şirkət Turizm sahəsinə küllü miqdarda sərmayə qoymağa və yüksək səviyyəli kadrlar hazırlamaq imkanına malikdir. “Gilan Turizm”in həyata keçirdiyi yeni layihələr, Azərbaycan gənclərinin turizm sahəsində profesional təhsil alaraq yeni turizmçi və idarəedici kadrları kimi yetişməsinə kömək olmaqdadır. “Gilan Turizm”

yeni investisiyalarından faydalanan onlarca müxtəlif sektorlara dəstək olmaqdadır və bu da ölkəmizin iqtisadiyyatının inkişafı üçün önəmli bir faktdır. Şirkət səyahət agentliyi, hotel və olimpiya komplekslərindən ibarətdir. «Gilan Turizm» Səyahət agentliyi, daxili turizm və xarici turizm fəaliyyətləri yerli və xarici turistlərə keyfiyyətli istirahət keçirməyə imkan təqdim etməkdədir.

"Gilan Turizm" şirkətinin ölkədə 22 otel, 1 İstisu sanatoriyası fəaliyyət göstərir. Beynəlxalq standartlara cavab verən, həm ekonomik, həm də yüksək komfortlu istirahət təklif edən Qafqaz Hotel & Resort Otellər qrupu üç və beş ulduzlu otelləri ilə 1400-dən çox qonaq qəbul etmə iqtidarındadır. Hal-hazırda Bakı (Qafqaz Baku City Hotel & Residence, Qafqaz Baku Sport City Hotel, Qafqaz Park City Hotel, Qafqaz Point Boutique Hotel), Qəbələ **(** Qafqaz Tufandag Mountain Resort Hotel, Qafqaz Qabala City Hotel, Qafqaz Sport Resort Hotel, Qafqaz Resort Hotel, Qafqaz Karvansaray Boutique Hotel, Qafqaz Thermal & Spa Resort Hotel, Qafqaz Riverside Resort Hotel, Qafqaz Yeddi Gozel Resort), Lənkəran (Qafqaz Sahil Resort Hotel)və digər şəhərlərdə otel məhsulları inkişaf mərhələsindədir və qrupda 4000-dən çox işçi çalışır. Şəhər mehmanxanaları, Butik və Kurort otellər qrupu tərəfindən qonaqlara təqdim olunur[9]. Bu gün Qafqaz mehmanxanaları və kurortları müasir qonaqpərvərliyi və xidmətlərin bütün aspektlərini əhatə edir və qonaqlar Qafqaz regionuna xas olan qayğı və qonaqpərvərlik kimi hissləri yaşadır.

Qafqaz Baku City Hotel & Residence Bakının mərkəzində yerləşən dəbdəbəli dördulduzlu otel kompleksi olub 325 müasir və dəbli otaq (Standart A: 52 Standart B: 73 Superior Otaq: 115, **Junior Suite:** 62, **Executive:** 13**, Royal Suite: 1**) , 9 yüksək komfortlu mənzil, habelə əlillər üçün nəzərdə tutulan 2 otaqdan ibarətdir.2012-ci ildə açılan "Qafqaz Baku City Hotel & Residences" mehmanxanası və 27 noyabr 2013-cü il tarixində Azərbaycan Konqreslər Bürosuna üzv olmuşdur.Hal-hazırda Azərbaycan Konqreslər Bürosunun 11 üzvü var: "Fairmont Baku", "Four Seasons Hotel Baku", "Hilton Baku", "Hyatt Regency Baku", "Jumeirah Bilgah Beach Hotel", "JW Marriott Absheron Hotel", "Kempinski Hotel Badamdar", "Ramada Hotel & Suites Baku" kimi 8 beynəlxalq brend mehmanxana; 2 turizm şirkəti – "ENC Tours", "Millennium Tourism & Congress DMC", və yeni üzv olan "Qafqaz Baku City Hotel & Residences" mehmanxanası[8].

Bakının əsas görməli yerlərinə ən yaxın məsafədə yerləşən bu müasir kompleks 19 mərtəbədən ibarətdir və yüksəklikdə yerləşən otaqlarından qonaqlar Bakının möhtəşəm panoramasından həzz almaq imaknı əldə edirlər.Azərbaycana işgüzar məqsədlərlə və ya istirahət etmək üçün gələn qonaqların zövqünə uyğun ideal məkandır. Otelin əsas üstünlüyü ondan ibarətdir ki, bütün otaqlarda və ictimai yerlərdə

yüksək sürətli İnternet rabitəsi, təhlükəsiz dayanacaq xidməti, 24 saat mühafizə xidməti, restoranlar, barlar, gimnastika zalları, Star Light və Spa mərkəzi, konfrans otaqları və ticarət mərkəzi mövcuddur. Belə ki otel qonaqlara zəngin boz çalarlarla dekorasiya edilmiş klassik otaqlar, minibar və həm yerli həm də xarici təamları ilə zəngin Metropol restoranı, müxtəlif içkiləri ilə zəngin lobbi barı, 16-cı mərtəbədə asudə vaxt üçün fitness studiosu, sauna, Türk hamamı kimi xidmətləri ilə hər zövqə uyğun qonaqları məmnun etmək iqtidarındadır.Otel Bakı dəmiryolu vağzalından 4km və Xəzər dənizi sahilindən 3.2 km məsafədə yerləşməklə "İçəri şəhər"dən 15 dəqiqəlik məsafədə yerləşir.

Qafqaz Baku Sport Hotel. Bakının məhşur Ağ Şəhər ərazisində yerləşir. Otelin restoran və otaqlarından Xəzərin gözəl mənzərəsini seyr etmək olar.Yerləşdiyi yerə görə QafqaZ Baku Hotel hər cür qonaq üçün - həm turistlər həm də iş adamları üçün ideal bir oteldir.Paytaxtın mərkəzindən 4 kilometr, Heydər Əliyev Beynəlxalq Aeroportundan isə 21 kilometr məsafədə yerləşən otel 5 iyun 2015-ci il tarixindən etibarən istifadəyə verilmişdir. Otelin 17-ci mərtəbəsindəki 110 nəfərlik restoranda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunur.Burada, həmçinin Xəzər dənizinə və Bakı bulvarına açılan gözəl mənzərəni seyr etmək mümkündür.Otelin 60 nəfərlik barında da qonaqların zövqünə uyğun hər növ içkilərin xidməti göstərilir.Müxtəlif kateqoriyadan olan nömrələr (otaqların sayı: 103, Superior: 89, Junior Suite: 11, Executive: 1, Suite: 2) ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir[8].

Qafqaz Park City Hotel. Bakının mərkəzinə yaxın ərazidə yerləşən dördulduzlu 49 otaqdan (Otaqların sayı: 49 Standart: 39 Junior Suite: 2 Superior: 8) ibarət kiçik oteldir. Bütün otaqlarda kondisioner, yüksək sürətli İnternet rabitəsi, kiçik bar, telefon, və LCD televizorlar mövcuddur. Yerləşdiyi yer uyğun seçildiyinə görə həm hava limanına həm də şəhərin mərkəzinə yaxındır[8]. Otel imkanlarına həm yerli, həm də dünya mətbəxinin çeşidli menyusunu təklif edən Qafqaz restoranı; biznes toplantıları, təqdimatlar və banketlər təşkil etmək üçün ən son texnologiya ilə təchiz olunmuş 10-60 nəfərlik yığıncaq və konfrans otaqları; yarı-Olimpik üzgüçülük hovuzu, sauna, türk hamamı və masaj mərkəzi daxildir.

Qafqaz Point Boutique Hotel. Bakıda yerləşən həm işgüzar, həm də istirahət məqsədilə gələn qonaqlar üçün nəzərdə tutulmuş yeddimərtəbəli böyük otaqlardan, kiçik süitalardan, lüks süitalardan və standart otaqlardan ibarət ümumilikdə 74 otaq təklif edən ən yeni otellərdən biridir. Otel müasir və dəbli otaqları (Otaqların sayı: 74 Standart: 44 Superior: 26 Junior Suite: 3 Deluxe: 1) ilə rahat istirahət təklif edir[10]. Otel çox əlverişli bir yerdə yerləşdiyinə görə şəhərin mərkəzinə və bütün əhəmiyyətli

obyektlərə çox yaxındır.Yemək qəbul edən zaman otelin restoranından gözəl mənzərəni seyr etmək olar.İşgüzar görüşlər üçün müştəri və qonaqlara xüsusi zal istifadəyə verilir.Otelə konfrans zalı, iki restoran, iki bar və sağlamlıq klubu daxildir.

Qafqaz Tufandag Mountain Resort Hotel. 50 müasir və dəbli otaqlı (Junior Suite: 14 Superior Otaq: 26 Family Suite: 12 King Suite: 60) möhtəşəm bir dağ otelidir[11]. Qafqaz Tufandag Mountain Resort Hotel öz cazibədar təbiəti, şərqə məxsus qonaqpırvərliyi, xoş mühiti ilə qonaqların möhtəşəm istirahəti üçün hər bir imaknı təqdim edir.Otel Böyük Qafqaz sıra dağlarının ətəyində, Dəmiraparan çayının sahilində yerləşir.Yaşıl meşələri və başı qarlı əzəmətli dağlarıyla göz qamaşdıran təbiətin qoynunda 5 ulduzlu otel Bakı şəhər mərkəzindən 225 km, Qəbələ beynəlxalq hava limanından 20 km məsafədədir.

Qafqaz Qebele City Hotel. Qəbələ şəhərinin mərkəzində yerləşən üçulduzlu, 80 otaqlı (standart: 53, Junior Suite: 28) otel Bakının mərkəzindən 210 km məsafədə yerləşir.Otel qonaqların rahatlığı üçün bütün imkanlara malik olub, kabelsiz internet, 24 saat otaq xidməti, faks-kserkos, açıq dayanacaq, həm yerli, həm də xarici təamları ilə zəngin restoran və bar kimi xidmətlər göstərir.

Qafqaz Sport Hotel. Qafqaz dağlarının yamacında yerləşən həm istirahət və dincəlmə, həm də açıq hava fəaliyyətləri üçün möhtəşəm bir yerdə tikilmiş, 5 ulduzlu otel şəhər mərkəzindən bir neçə dəqiqəlik məsafədə, müxtəlif idman obyektlərinin cəmləşdiyi ərazidə yerləşir.Bakı şəhərindən 215 km, Qəbələ Aeroportundan isə 25 km məsafədədir.Çağdaş və klassik memarlıq nümunələrini özündə cəmləşdirən "Qafqaz Sport Hotel" bütün müasir standardlara cavab verən 21 ədəd kotec və otel binasında yerləşən 96 ədəd nömrədən ibarətdir[9]. Burada həm yerli mətbəxə aid dadlı yeməklər, həm də dünya mətbəxindən çeşidlər təklif edən üç restoran mövcuddur. Otel kompleksinə idman mərkəzi və gimnastika zalı, spa və sağlamlıq mərkəzi, konfrans mərkəzi, açıq havada idman fəaliyyətləri üçün nəzərdə tutulmuş sahə daxildir.

Q**afqaz Resort Hotel.** Qafqaz dağlarının yamacında, Qəbələ rayonunda yerləşən standart otaqlar, kiçik süitalar, kral süitaları, prezident süitaları, ailə süitalardan ibarət 98 dəbdəbəli otaq və əlavə olaraq 20 fərdi villadan mövcud otel kompleksi olub qonaqlarına Dəmiraparan çayının sularında və Büyük Qafqaz dağlarının zümrüd yaşılı meşələrində istirahət etmək imkanı yaradan rezort oteldir.Otel üç restoran, dörd bar, bir gecə klubu, və bir konfrans zalından ibarətdir.Qəbələnin mərkəzi - "Heydər Əliyev" adına hava limanından 211 km məsafədə yerləşən mehmanxananın altımərtəbəli korpusunda 60 nömrə var, bunlardan 36 -standart, 23 -lyuks və 1 -kral nömrədir[11]. Burada restoran, kafe və barlarda Azərbaycan və dünya mətbəxinin gözəl nemətləri xidmət olunur. Bundan başqa otel müxtəlif - peyntbol, atda gəzinti, safari, alpinism

kimi əyləncələri təşkil edir.

Qafqaz Karvansaray Hotel. Qəbələdə yerləşən butik tipli beşulduzlu oteldir. Otel Qafqaz dağlarının ətəyində şəhər mərkəzinə yaxın, Qebele Beynəlxalq Hava Limanına 22km məsafədə yerləşir. Karvansaray oteli qonaqların istirahəti üçün 159 otaq, Sağlamlıq və Spa mərkəzi, 2 sauna, 2 buxar hamamı, 2 türk hamamı və açıq hovuz təqdim edir[8]. Otelin daxilində yerləşən restoran Qəbələ mətbəxinin gözəl neymətlərini qonaqlara təqdim edir. İstirahətin daha da gözəl olması üçün otel tərəfindən xüsusi dizayna məxsus olan otel ərazisi qonaqların istifadəsinə verilib.


Qafqaz Thermal & Spa Hotel. Qəbələ şəhərində yerləşən dördulduzlu otel olub 23sentyabr 2014-cü ildən etibarən qonaqlara xidmət göstərməyə başlayıb. Qəbələnin Yengicə kəndi ərazisində yerləşən otel kompleksi 9 hektar sahədə inşa edilib[9]. Müxtəlif çeşidli yüksək xidmətlərin göstərildiyi altımərtəbəli otel kompleksi gözəl memarlıq üslubunda tikilib.Oteldəki 61 nömrədə qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılıb.Oteldə xidmət göstərən heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir.Otel kompleksində müxtəlif toplantı və konfransların keçirilməsi üçün geniş imkanları olan zal, müasir restoranlar şəbəkəsi də fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunur.Həmçinin müxtəlif kateqoriyalı otel nömrələri ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir.Oteldə uşaqların da istirahətinin təşkili üçün lazımi şərait yaradılıb.Oteldə qonaqların vaxtlarını səmərəli keçirmələri üçün xüsusi idman zalları da var.Burada qonaqlara təqdim olunan xidmətlər çox çeşidliliyi ilə fərqlənir. Qəbələ rayonunun Yengicə kəndində yerləşən mineral su mənbəyi qədim zamanlardan yerli əhali tərəfindən müalicə məqsədilə istifadə olunur. Buna əlavə olaraq oteldə Naftalan nefti ilə müalicə prosedurları mövcuddur.Otel Qafqaz Yengicə Hotel Naftalan neftinin mineral suyun şəfaverici xüsusiyyətlərivə müasir standartlara əsaslanan otelçilik ənənələri ilə istənilən növ qonağın razılığını almaq imkanındadır.

Qafqaz Riverside Resort. Qəbələ şəhərində dağların əhatəsində yerləşən möhtəşəm beşulduzlu oteldir.Otel rayonunun səfalı yerində, Dəmiraparan çayının yanında, dağ zirvələrinə və yaşıl meşələrə açılan gözəl mənzərəli bir məkanda tikilib və Bakının mərkəzindən 220 km məsafədə yerləşir. Oteldə böyük süitalar, kiçik süitalar, lüks süitalar və kral süitalardan ibarət 123 otaq mövcuddur[8]. Otel kompleksinə iki restoran, altı bar, konfrans zalları, oyun otaqları, sağlamlıq klubu, tibbi imkanlar, gözəllik salonu və VIP müştərilər üçün istirahət otağı daxildir.Həmçinin ailəvi istirahət üçün otelin ərazisində yerləşən koteclər ideal bir seçim ola bilər.

Qafqaz Yeddi Gozel Hotel. Qəbələdə yerləşən üçulduzlu oteldir. Otelin

yerləşdiyi yer Nohur gölü və Yeddi Gözəl şəlaləsinə çox yaxındır. Otelin təqdim etdiyi otaq və koteclər ailə və dostarla istirahət üçün çox əlverişlidir. Yeddi Gözəl otelində qonaqların sifarişi əsasında toy, nişan və şirkət tədbirləri də təşkil oluna bilər. Otelin restoranında qonaqlar Azərbaycan mətbəxinin ləziz neymətlərini dada bilərlər.

Qafqaz Sahil Resort Hotel. 2008-ci ildən fəaliyyətə başlayan, 42 otaq təklif edən, üçulduzlu ən yeni otellərdən biridir.Otel müasir və dəbli otaqları ilə təklif edir: yüksək sürətli simsiz internet, açıq hava və yeraltı dayanacaq, 24 saat mühafizə xidməti, avtomobil üçün dayanacaq.Cənnəti xatırladan ərazidə tikilmiş Qafqaz Sahil Oteli Xəzər dənizinin Lənkəran sahilində yerləşir.Bu nadir məkan özünün təbii sərvətləri, milli parklara yaxınlığı və valehedici təbiəti ilə ziyarətçiləri arasında populyarlıq qazanmışdır.Oteldə standart otaqlar, kiçik süitalar və kral süitalardan ibarət 24(Mərtəbələrin sayı: 3 Otaqların sayı: 42 Əlillər üçün otaqların sayı: 0 Single sayı: 6 Double sayı: 13)otaq mövcuddur.Kompleksdə, eyni zamanda 18 fərdi villa da qonaqların istifadəsinə verilmişdir[8]. Gilan Otel kompleksində restoran, bar və sağlamlıq klubu da fəaliyyət göstərir.




Şəkil 1.Qafqaz şəbəkə hotellərində xidmət göstərilən turistlərin sayı (min nəfərlə)[8]

Şəkildən göründüyü kimi Qafqaz hotellər şəbəkəsindən istifadə edənlər arasında istirahət və turizm məqsədilə gələnlər üstünlük təşkil edir. Son illər turizm məqsədilə gələnlərin çox olmasının səbəbi əyləncə və asudə vaxtın səmərəli təşkili baxımından xidmətlərin artması və əlavə xidmətlərin təşkil olunmasıdır. Son illər Qəbələ rayonunda yeni əyləncə və istirahət mərkəzlərinin artması da gələn turistlərin sayının artmasına səbəb olmuşdur.

Qafqaz otellərində əyləncə, istirahət üçün müxtəlif yerlərin olması, asudə vaxtın səmərəli təşkili imkanlarının mövcudluğu gələn turistlərin sayına müsbət təsir

edir. Qafqaz hotellərindən istifadə edənlərin sayı statistik məlumatlar göstərir ki, dinamik olaraq artır.



Şəkil 2. Qafqaz hotellər şəbəkəsinin dolma səviyyəsi (%-lə)[8].

Şəkildən göründüyü kimi Qafqaz hotellərindən istifadə edənlərin sayı əsasən yay mövsümünə daha çox olur. Bu da bölgəyə gələnlərin daha çox may-avqust aylarına təsadüf etməsidir. Bununla yanaşı bayram günləri hotellərdən istifadə edənlərin sayının artması tətil günlərinin uzun olması (3-5 gün) ilə bağlıdır. Xüsusilə novruz və yeni il bayramalrında hoteldə müştərilərin sayı maksimuma çata bilir. Həftə sonu istirahət etmək istəyənlər üçündə müvafiq qiymətlərin və şəraitin yaradılması da turistlərin sayının artırılmasına səbəb olur. Qafqaz hotellərdə mövsümülük problemin həll etmək üçün qış turizm mərkəzinin yaradılması bu mövsümdə gələnlərinin sayının artmasına səbəb olur.

Ümumilikdə Qafqaz otellərindən istifadə edənlərin sayı il ərzində 160-165 min nəfər təşkil edir ki, bununda əsas hissəsi qısa müddətli gecələmələrdən ibarətdir. Onu da qeyd edək ki, ölkədə daxili turizminə qatılanların 10-12%, gəlmə turizmdə isə 19-21% Qafqaz otellərindən istifadə edirlər. bu göstəricilər hər il dinamik olaraq artmaqdadır ki, bununda əsas səbəbi qeyd olunan brendin göstərdiyi xidmətlərin yüksək kefiyyətli olması ilə bağlıdır.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Turizm statistikası Bakı 2017. 112 s. www.stat.qov.az
2. Ağakərimov M.M. Otel. Bakı: ” R.N.Novruzov-94”, 2008, 327 s.
3. Ağakərimov M.M. Otel menecmenti. Bakı “Mürtəcim”, 2016, 312 s.

4. Soltanova H.B Otelçilik fəaliyyətinin əsasları. Monoqrafiya. Bakı: Az-TU-nun mətbəəsi, 2013, 410 s
5. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı., Monoqrafiya. Az.TU-nun mətbəəsi., 2015, 475 s.
6. Vugar Dargahov, Habiba Soltanova, Rovshan Karimov., Problem of sustainable development ofhospitality industry in Azerbaijan and its regions, National Science Review, Issue 4 (2), (December), Volume 4. Oxford University Press, 2017.1192-1203p.
7. http:// //www. Stat.gov.az
8. http:// //www.qafqaz hotel markerinq.pdf
9. http:// www.qafqaz hotel.qov.az
10. www.**qafqazpoint**hotel.com
11. www.**qafqazresort**hotel.com
12. www.**gilan**holding.az

ƏLİ PİRİYEV
Azərbaycan Turizm və Menecment Universiteti
Prev96@mail.ru

Dünyada şərabçılıq

Winemaking in the world

Виноделие в мире

Xülasə: Şərabın yaranma tarixi eramızın I əsrinə aid edilir ki, bu da imperator Probusun dövrünə təsadüf edir. Həmin vaxt kəndçilər müasir Fransanın ərazisinə üzüm gətirdilər və onu becərməyə başladılar. Üzüm sahələri olduqca genişləndi və isti iqlimlə əlaqədar daha çox məhsul verməyə başladı. İndiyə kimi müasir dövrümüzdə olan şərabın hansı vəziyyətdə və necə düzəldildiyi məlum deyildir. Bütün içkilərə qismən aid edilən içki növlərinə aid bir çox əfsanələr vardır. Bunlardan biri destillə (qaynatmaqla, qızdırmaqla maddələrin tərkib hissələrinə ayrılması) edilmiş Chevalier de la Croix – dır. Bir dəfə qorxulu yuxusundan ayılan zadəgan qərara alır ki, iki stəkan güclü təsirə malik olan şərab spirti qəbul etsin. Bu

proses şərabın keyfiyyətinin yüksəldilməsində də əvəzsiz rol oynadı. Bu növdə olan iki çəllək şərabın hazırlanmışdı və bunlardanm biri tam içilmiş, digər çəllək isə bayramlardan biri üçün xüsusən ayrılmışdı. 15 – dən artıq yaşı olmayan zadəgan çəlləyi açdı və həmin dəqiqə də çox təəccübləndi. Çünki onun gördüyü dad və xüsusi qoxu mühüm əhəmiyyətə malik idi.

Açar sözlər : *şərab, şərablar. şərabçılıq, alkoqol, üzüm, üzümçülük, şeri, vermut, Fransız şərabı, İspaniya şərabı*

Key words : *wine, wine industry, alchogol, grape, grape industry, sherry, vermut, red vermut, rosso, France, Spain*

Ключевые слова: *вино, виноделие, виноград, шерри, вермут, красный вермут, россо, Франция, Испания*

Dünyada ən çox içilən alkoqollu içki hazırda şərablar hesab edilir. Üzüm istehsalının yüksək səviyyədə olduğu ölkələrdə həmin ölkədə şərab istehsalı ilə məşğul olan şərab zavodları da çoxdur. Dünyada külli miqdarda şərab növü hazırlanır, bazara çıxarılır. Şərab istehsalının texnoloji sxeminə nəzər salaq :

Cədvəl 1.


1.	Üzümün əzilməsi və üstündəki şırımlarının ayrılması
2.	Üzümün şirəsinin süzülməsi
3.	Üzümün lətinin preslənməsi
4.	Üzüm şirəsinin durulması, qıcqırdılması
5.	Şərabın mayasının çöküntüsündən təmizlənməsi
6.	Şərabın emalı, keyfiyyətini yaxşılaşdırmaq üçün onun uzun müddət saxlanılması

Şərablar istehsal formasına görə iki cür olur : Mülayim şərablar və Köpüklənən şərablar.

Üzüm spirti qatılmış bərk şərablar	***Üzüm şərabları***
Tünd şərablar	Ağ şərab
Ətirli (aromatlı) şərablar	Qırmızı şərab
Desert şərabları	

Vaxt etibarilə hazırlanmasına görə də şərablar fərqləndirilir : təzə şərablar, az saxlanmış şərablar (süfrə şərabları), köhnə şərablar və kolleksion şərablar. Təzə şərablar – ümumi qəbul edilmiş texnologiyalara görə, müxtəlif üzüm sortlarından ya da onların qarışığından alınmış, həmçinin hər gələn ilin yanvar ayının biri, məhsul yığımına qədər olan dövrdə realizə olunmuş təbii üzüm şərablarıdır. Az saxlanmış şərablar – təzə şərabların hazırlanma qaydasında hazırlanır, lakin bir fərqli cəhət ondadır ki, gələn ilin yanvar ayının birindən sonrakı dövr ərzində realizə edilir.Könhə şərablar – keyfiyyəti yaxşılaşdırılmış şərablardır. Bu şərablar üzümün müxtəlif sortlarından ya da onların qarışığından alınmaqla yanaşı, şüşə butulkalara doldurulmamışdan 6 ay qabaq mütləq saxlanılmalıdır. Kolleksion şərablar – yüksək keyfiyyətli şərablardır. Stasionar çənlərdə saxlanıldıqdan sonra əlavə olaraq 3 ildən az olmamaq şərtilə, şüşə butulkalarda saxlanılmalıdır. Bütün bu qeyd olunan məlumatlara uyğun olaraq, əsasən şərabçılıqda dünya ölkələri arasında örnək göstərilə biləcək qabaqçıl ölkə Fransa hesab edilir. Fransa ən son şərabçılıq təsərrüfatı texnologiyalara malik olan, çox inkişaf etmiş, mükəmməlləşmiş, çox keyfiyyətli şərabların istehsalı ilə tanınan ölkədir. Fransanın şərabçılıq üzrə ixtisaslaşmış və məhz bununla məhşurlaşan 6 əsas şərba bölgəsinə nəzər salaq :

Şəkil 1.



Bu adı çəkilən bölgələr də ayrı-ayrı bölgələrə və bağlara ayrılmışdır. Bunların arasında Bordo (Bordeaux) bölgəsi bütün dünyada çox məhşurdur. Dünyanın, həmçinin Fransanın ən yüksək keyfiyyətli 5 şərab nümunəsi vardır : Şato Lafit, Şato

Latur, Şato Marqo, Şato Obrion, Şato Diqem. Bu sadalanan şərabların ilk dördü qırmızı, sonuncusu isə ağ şərabdır. Bütün bu şərablar, dünya bazarında baha qiymətlə satılmaqla yanaşı, çox az hasil olunur. Digər məhşur şərablardan isə ispan şərablarını, Vermut, Porto, Madera, Tokay, Kaqor və s. şərabları misal göstərmək olar.


Fransanın şərablarından bəhs etdikdən sonra, İspaniyanın Şerisindən də mütləq danışmaq lazımdır. Şeri alkoqolu gücləndirilmiş şərab növüdür, adı isə Ağ dəniz sahillərində yerləşən qəsəbənin adından (Yerez) götürülmüşdür. Yalnız sözügedən qəsəbənin ətrafında yetişdirilən üzümdən hazırlanan aperitiv şərablar məhz bu cür adlandırılır. Bu bölgə üzümlərindən alınmış şərablardan başqa heç bir şərabın belə adlandırılmasına icazə yoxdur,ancaq bir halda buna icazə verilir ki, istehsal olunan ölkənin adı da bu sözün qarşısına əlavə edilsin, məsələn Kipr şerisi. Əks halda, bu məsələ beynəlxalq ticarət qayda-qanunlarına qarşı hesan olunur ki, bu da hökümətlərarası narazıçılığa gətirib çıxara bilər.

Cədvəl 2.

Bu şərabların hazırlanma texnologiyasına nəzər salaq :
Avqust və iyul aylarında yığımına başlanılan üzümlər, günəş şüaları altına səpilir ;
Burada yaxşı şəkərləndikdən sonra toplanan üzümlər sıxılır ;
Mayalanma (yəni şəkərin maya vasitəsilə alkoqola çevrilməsi) aparılır ;
Mayalanmadan sonra “bodeqas” deyilən çəlləklərə süzülür ;

“Sherry” şərabının keyfiyyət davamlılığı və xarakteri məhz bu yuxarıda göstərilən prosesdən asılıdır. Bu cür əldə olunan şeri saxlanılır, növləri müəyyən edilir, sonra isə şüşə butulkalara doldurulur.

Şəkil 2.



“Fino” – çox açıq rəngli, tünd, xəfif hazırlanan, təzə rahiyəli bir “Sherry” növüdür. İngiliscə bu şərab “Dry Sherry” kimi adlanır ; “Amontillado” kəhrəba rəngində olur, orta tünd dərəcəsindədir, daha yumşaq içilir və çəlləklərdə uzun müddət saxlanılan növdür. İngiliscə “Medium Sherry” adlanır ; “Olorso” tünd rəngli, daha dadlı və ağır yapılan bir şeri növüdür. Bu növ çeşidli şerilərə “cream” şeri deyilir. İngiliscə “Sweet sherry” adlanır ;“Manzanilla” “Fino” kimi çox açıq rəngli, tünd və dəniz qoxusuna bənzər, xoş rahiyəli bir şeri növüdür.“Vermut” (Vermouth) şərabından danışaq. Vormvud, almanca “Vermut” bitkilərindən alan bu içki, əslində alkoqolla gücləndirilmiş bir şərabdır. Bütün vermutların əsas şərabıdır. Ümumilikdə götürsək, bu şərab özünəməxsusluğu olmayan, çox ucuz bir ağ şərabdır, ancaq vermutun hazırlanmasında, bir çox digər içkilərdə də olduğu kimi çoxsaylı aromatik, rahiyəli otlardan istifadə olunur. Pelin otu, Sandal ağacı qabığı, zufa otu, kinə, ada çayı, kiçik hindistan cövüzü və s. əsas istifadə olunan bitkilərdi

Vermutun hazırlanması digər bir çox içkilərdə də olduğu kimi, çətin, mürəkkəb, incə ustalıq tələb edən bir işdir. Qeyd etmək lazımdır ki, vermut istehsal edən firmaların, hər birinin gizli saxladıqları öz formulları vardır. İlk vermutun hazırlandığı ölkə isə İtaliyadır. Vermutun tarixi XVI əsrdən başlayır. Əsasən iki tip vermut mövcuddur : İtalyansayağı və Fransızsayağı. Tarixən italyanlar qırmızı və şirin vermut istehsal etmişlər. Fransızlar isə ağ və quru vermut şərablarının istehsalçısı olmuşlar. Hazırda isə hər iki ölkə hər iki növdən istehsal edirlər.

İtalyanların “Martini” və “Cinzano”, Fransızların isə “Chamberry” növlü tünd vermutları ilə birlikdə, Voli pra vermut firması ən çox tanınanlardandır.

Vermut şərabının 5 əsas növü vardır : Tünd vermut, qırmızı və ya dadlı vermut, Biyenko, Roze vermut, Meyvə rayihəli vermutlar. Tünd vermut - ağ və duru, xəfif və ya sarımtıl rəngdə olur və vermutların ən tündüdür. Bu növ vermutlara fransız vermutu deyilir. İngiliscə dry və ya french vermut kimi səslənir.

Qırmızı və ya dadlı vermut - tünd vermutun tam əksidir. Bu növ həm dadlı, həm də qırmızı rəngdədir. Rəngləndirilməsini karamellə həyata keçirirlər. İngiliscə red vermut adlandırılır. İtalyanlar isə bu şəraba Rosso deyirlər. Rosso italyanca qırmızı deməkdir. Biyenko (Bianco) - italyanca ağ deməkdir. Biyenko vermut növü kimi, ən dadlı sayıla bilər. Sarı saman rəngində bir görünüşü vardır. Bəzi vermut firmaları, qırmızı vermutlara nisbətən Biyenkonu az hazırlasalar da, ümumiyyətlə bütün vermut növlərindən ən dadlı olanı da elə məhz bu şərabdır. Roze vermut – Roze şərablardan hazırlanan yeni bir vermut növüdür. Digər adıçəkilən vermutlarla müqayisədə daha xəfif, həssasdır. İlk vermut İtaliyada qırmızı növdə hazırlanıldığı üçün, bəzən bu növ vermutlar italyan vermutu, tünd olanı isə fransızlar tərəfindən hazırlanıb tanıdıldığı üçün fransız vermutu adlandırılsa da hazırda bütün firmalar bütün növ vermutları hazırlayırlar. Meyvə rayihəli vermutlar – Ümumiyyətlə meyvə rayihəli vermutlardan ən çox sevilənləri çiyələkli və portağallı vermutlardır. Vermut əla aperitiv içkisidir.

Ədəbiyyat siyahısı:

1. İ.M. Musayev., “Müasir restoranlarda ofisiant və barmen işinin təşkili”, Bakı, 2009
2. T.M. Pənahov, V.S. Səlimov, Ə.M. Zari., “Azərbaycanda üzümçülük”, Bakı, 2010
3. Ronald S. Jackson,“Wine Science” – Principles and Applications, Third Edition
4. Keith Grainger, “Wine Quality” – Tasting and Selection, 2009

Əliyev Rəşad Əmirşah oğlu

AMEA-nınİqtisadiyyat İnstitutunun dissertantı

qarabala82@mail.ru

Neftsektorunayönəldilən xarici investisiyaların idarə olunmasının makroiqtisadi aspektləri

Hər hansı bir ölkəyə xaricdən maliyyə axını investorun və ya ölkənin maraqlarına uyğun olaraq reallaşdığından həmin ölkədə müsbət və mənfi təsirlər buraxa bilər. Elə bunun nəticəsidir ki, bəzi ölkələrə geniş həcmdə investisiyalar qoyulmağına baxmayaraq, ölkə inkişafdan geri qalır və hətta iqtisadi və sosial vəziyyət kəskinləşməyə başlayır. Bəzi ölkələrdə isə əksinə, yəni investisiyaların axını ölkəni ciddi şəkildə inkişaf etdirir. Azərbaycan iqtisadiyyatına, xüsusilə enerji sektoruna yönəldilən xarici investisiyaların müsbət və mənfi təsirinin idarəedilməsi həm elmi cəhətdən, həm də praktiki cəhətdən vacibdir. Belə qiymətləndirmə investorun və ölkənin maraqları arasında müəyyən paritet tapmağa kömək edərək investisiyaların mənfi təsirini maksimum azaltmağa imkan yaradar.

Qeyd edək ki, ölkənin öz valyuta ehtiyatlarının çox olması hələ xarici investisiyalara ehtiyacın olmaması demək deyil. Çünki xarici investisiyalar təkcə maliyyə resurslarının axını demək deyil, həmçinin yeni bilik və bacarıqların, texnoloji yeniliklərin və effektiv idarəetmə sisteminin ölkəyə axınıdır. Transmilli şirkətlər texnoloji və idarəetmə cəhətdən yüksək inkişafa malik olduqlarından onların ölkəyə daxil olması iqtisadiyyatda yeni stimul yaradır.

Xarici investisiyaların ölkə iqtisadiyyatına təsirini birbaşa və dolayı təsirlər kimi iki qrupa bölmək olar. Xarici investisiyaların *birbaşa təsiri* dedikdə, onların iqtisadiyyatın makroiqtisadi göstəricilərinə, o cümlədən 1) ÜDM, 2) ÜMM, 3) ÜMG, 4) Sərəncamda olan məcmu gəlirə, 5) Son istehlaka, 6) Məcmu yığıma, 7) Təmiz kreditləşmə və borclanmaya, 8) Xarici ticarət saldosuna və sairə olan təsirlər nəzərdə tutulur. Dolayı iqtisadi təsirlər dedikdə isə, iqtisadiyyatın texnoloji cəhətdən inkişafına, ölkədə biznes mühitinin dəyişməsinə, məhsuldarlığa olan təsirlər və sair nəzərdə tutulur. Xarici investisiyaların sosial-iqtisadi təsirləri də, məsələn, yoxsulluğun azalmasına, əmək bazarına, demoqrafik vəziyyətə, təhsilin və səhiyyənin inkişafına təsirləri də dolayı təsirlər hesab oluna bilər.

Dolayı təsirlər birbaşa təsirlərin nəticəsi olduğundan zaman baxımından bir qədər sonra özünü göstərir. Lakin bəzi dolayı təsirlər var ki, onlar xarici investisiyalarla qarşılıqlı əlaqədə olur. Məsələn, ölkədə biznes mühitinin inkişafı investisiyaları stimullaşdıraraq, həm də özü təkmilləşir və inkişaf edir. Amma texnoloji cəhətdən inkişaf, ölkə iqtisadiyyatında bilik və bacarıqların yüksəlməsi və sair təsirlər investisiyaların reallaşması prosesində tədricən baş verir. Məsələn, hazırda Azərbaycanın neft sənayesində tətbiq edilən texnologiya ilə keçən əsrin 90-cı illərindəki texnologiyanı və ya idarəetmə sistemini müqayisədə edəndə ciddi fərqləri görmək mümkündür.


Xariciinvestisiyalarınmakroiqtisaditəsirləri

Xarici investisiyaların ölkə iqtisadiyyatına əsas təsir mexanizmi ondan ibarətdir ki, onların ölkəyə axını ölkənin hər hansı təsərrüfat subyektinin əsas kapitalını artırır. Belə təsərrüfat subyektlərinin əsas kapitalının artması isə mikro səviyyədə müəyyən təsirlərə, daha sonra isə makro səviyyədə iqtisadi təsirlərə səbəb olur. Makro səviyyədə təsirlər isə cəmiyyətdə sosial-iqtisadi dəyişikliklərə səbəb olur. Heç şübhəsiz ki, makroiqtisadi dəyişikliklərlə sosial-iqtisadi inkişaf arasında ciddi qarşılıqlı əlaqə mövcuddur. Məsələn, hər hansı şirkətə xarici investisiyanın daxil olması o şirkətin istehsal imkanlarını artırır və orda çalışanların sayına, əmək haqqının miqdarına müsbət təsir göstərir. Hər hansı şirkət çərçivəsində istehsal imkanlarının artması isə ÜDM-in həcminə və ödənilən vergilərin miqdarına müəyyən təsir göstərir. Həmçinin, istehsal prosesində xammala olan ehtiyac və hazır məhsulların satışı idxal və ixrac əməliyyatlarına da təsir göstərə bilər.

Xarici investisiyaların ölkəyə axını həm də texnoloji yeniliklərin ölkəyə daxil olmasına stimul yaradır. Çünki, investisiya gətirən şirkət həm də yeni texnologiyaların tətbiqində maraqlıdır. Yeni texnologiyaların ölkə iqtisadiyyatına daxil olması həmin texnoloji avadanlıqlarla işləməyi bacaran yüksək ixtisaslı kadrların yetişdirilməsinə zərurət yaradır. Beləliklə, xarici investisiya axını bir-birini stimullaşdıran və bir-biri ilə əlaqədə, qarşılıqlı təsirdə olan istehsal, elm və təhsil sisteminin formalaşmasına təkan verə bilər.

1995-ci ildən sonrakı dövrü iqtisadiyyatda inkişaf dövrü hesab etmək olar. 1995-ci ilə nisbətən 2017-ci ildə ÜDM 30 dəfə artıb. Bu dövrdə adambaşına ÜDM-in miqdarı isə 25 dəfə artıb. Bu artımda, heç şübhəsiz ki, Azərbaycana iqtisadiyyatına yönəldilən xarici investisiyaların, xüsusilə neft sektoruna qoyulan investisiyaların xüsusi rolu oldu. Bunu ÜDM ilə neft sektoruna qoyulan investisiyalar arasındakı korrelyasiya əlaqəsi də sübut edir.

Azərbaycanın neft sektoruna qoyulan xarici investisiya ilə ÜDM arasında korrelyasiya əlaqəsi. *Diaqram 1*




Qeyd: Diaqram müəllif tərəfindən tərtib edilmişdir.

1-ci diaqramdan göründüyü kimi Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiya ilə ÜDM arasında korrelyasiya əlaqəsi xeyli böyükdür və korrelyasiya əmsalı R=0,966-ya bərabərdir.

Xarici investisiyaların təsir göstərdiyi əsas makroiqtisadi göstəricilərdən biri də əhalinin istehlak xərclərinin həcmidir. Əhalinin istehlak xərclərinin həcmi də son 25 ildə ciddi şəkildə dəyişib. 1990-2013-cü illər ərzində əhalinin gəlirləri 8,15 dəfə artaraq 1990-cı ildəki 4,6 milyard dollar səviyyəsindən 2013-cü ildə 37,5 milyard dollar səviyyəsinədək yüksəlib. 1990-1995-ci illər arası Azərbaycanda iqtisadi tənəzzül əhalinin gəlir və xərclərində də özünü biruzə verdi. Xüsusilə, bu illərdə baş verən inflyasiya əhalinin gəlirlərinə ciddi təsir göstərirdi. 1995-ci ildən başlayaraq iqtisadiyyatın digər sahələrində olduğu kimi əhalinin gəlirlərində də müəyyən dəyişmələr hiss edildi. Xüsusilə, 2000-ci ildən başlayaraq gəlirlər sürətlə artmağa başladı. Azərbaycan iqtisadiyyatına, xüsusilə neft sektoruna qoyulan investisiyaların iqtisadi təsirləri əhalinin gəlir və xərclərinin dinamikasında da hiss olunmağa başladı. Azərbaycan iqtisadiyyatına, xüsusilə neft sektoruna qoyulan investisiya ilə əhalinin gəlirləri və istehlak xərcləri arasındakı korrelyasiya əlaqəsinin yüksək olması qoyulan investisiyaların müsbət təsirinin olduğunu sübut edir.

Azərbaycanda neft sektoruna qoyulan xarici investisiya ilə istehlak xərclərinin həcmi arasındakı korrelyasiya əlaqəsi. *Diaqram 2*




Qeyd: Diaqram müəllif tərəfindən tərtib edilmişdir.

2-ci diaqramdan göründüyü kimi Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiya ilə istehlak xərclərinin həcmi arasında korrelyasiya əlaqəsi xeyli böyükdür və korrelyasiya əmsalı R=0,947-yə bərabərdir.

Xarici investisiyaların ölkə iqtisadiyyatına birbaşa təsiri ölkənin ixrac potensialının artmasında daha aydın hiss edilir. Çünki, xarici investisiyaların ölkə iqtisadiyyatına yönəlməsi ölkənin dünya iqtisadiyyatına inteqrasiya prosesinin tərkib hissəsidir və qloballaşma prosesinin əsas alətlərindən biridir. Bu həm də dünya təsərrüfat sistemində əmək bölgüsünün reallaşmasına səbəb olur. Təcrübə göstərir ki, hər hansı ölkənin iqtisadiyyatına xarici investisiyaları yönəldən transmilli şirkətlər və ya maliyyə institutları hər şeydən əvvəl öz iqtisadi mənfəətlərini nəzərə aldıqlarından istehsal olunan mal və xidmətlərin, əksər hallarda hasil edilən xammalın ölkədən ixrac edilməsində maraqlı olurlar. Azərbaycan iqtisadiyyatının 1995-ci ildən 2013-cü ilədək olan dövrdə ixrac potensialının kəskin artması da Azərbaycanda istehsal edilən mal və xidmətlərin həcminin artması ilə birbaşa əlaqəlidir. Bu dövrdə Azərbaycan iqtisadiyyatına yönələn xarici investisiyalar, xüsusilə enerji sektoruna yönələn investisiyalar ixrac potensialının genişlənməsində müstəsna rol oynayıb. Belə ki, 1990-cı ildən 1995-ci ilədək olan dövrdə Azərbaycanın xarici iqtisadi əlaqələri, xüsusilə ixrac edilən mal və xidmətlərin həcmi o qədər az idi ki, hətta belə əlaqələrin olması hiss edilmirdi. Məsələn, 1990-cı ildən 1995-cü ilədək olan iqtisadi tənəzzül dövründə Azərbaycanda ixrac həcmi 2,1 milyard ABŞ dollarından 0,6 milyard dollara qədər azalmışdı. Yalnız 1997-ci ildən başlayaraq Azərbaycanda ixrac mallarının həcmi artmağa başladı. 2013-cü ildə Azərbaycanda mal və xidmətlərin ixrac həcmi təqribən 33 milyard ABŞ dolları qədər olub. Beləliklə, son 18 ildə ixrac həcmi 55 dəfədən çox artıb. Bu heç şübhəsiz ki, neft sektoruna yönələn investisiyaların birbaşa təsiri ilə bağlıdır. Çünki ixrac mallarının strukturunda da neft məhsulları əsas yer tutur. Neft sektoruna yönələn

investisiyaların həcmi ilə ixrac potensialının həcmi arasındakı korrelyasiya əlaqəsinin yüksək olması da bunu sübut edir.

Azərbaycanda neft sektoruna qoyulan xarici investisiya ilə ixrac həcmi arasındakı korrelyasiya əlaqəsi. *Diaqram 3*



Qeyd: Diaqram müəllif tərəfindən tərtib edilmişdir.

3-cü diaqramdan göründüyü kimi Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiya ilə ixrac həcmi arasındakı korrelyasiya əlaqəsi xeyli böyükdür və korrelyasiya əmsalı R=0,847-yə bərabərdir.

Digər makroiqtisadi göstəricilər kimi Azərbaycanda idxal həcmi də son 20 ildə xeyli artıb. Əlbəttə idxalın həcminin kəskin artması, xüsusilə onun strukturunda gündəlik tələbat mallarının çəkisinin artması iqtisadi təhlükəsizlik baxımından təqdir olunan hal deyil. Lakin idxalın strukturunda elmtutumlu məhsulların çəkisinin ilbəil artması, texnika və texnologiyanın idxalının çoxalması Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun gələcəkdə inkişafı üçün müəyyən stimullar yarada bilər. Bütün hallarda təkzib olunmayan fakt bundan ibarətdir ki, xarici investisiyaların həcminin artması ilə Azərbaycanın xarici ticarət əlaqələrində idxalın da həcmi kəskin artıb.

Neft sektoruna yönəldilən xarici investisiyaların idarə olunmasının makroiqtisadi aspektləri

Xülasə

Təqdim olunmuş məruzədə son 20 ildə neft sektoruna qoyulan xarici investisiyaların

qiymətləndirilməsi və idarəedilməsi məsələləri araşdırılır. əsas diqqət makroiqtisadi spektlərə yönəldilir. Qeyd edilir ki, xarici investisiyalar ölkə iqtisadiyyatına birbaşa və dolayı təsirgücünə malikdir. Bu təsirlərin idarə edilməsində əsas məqsəd biznes mühitinin inkişaf etməsi və sosial iqtisadi inkişafın sürətlənməsidi. Bu aspektdə məruzədə xarici investisiyaların əsas makroiqtisadi göstəricilərlə asılılığı qrafik olaraq verilmişdir.

Açar sözlər: neft sektoru, investisiya, makroiqtisadi, idarəetmə, idxal, ixrac və s.

Macroeconomic aspects of foreign investment management in the oil sector

Summary

Foreign investment in the oil sector over the past 20 years was presented in the presentationassessment and management issues. Focusing on macroeconomic aspects. It is noted that foreign investments have direct and indirect influence on the economy of the country. The main purpose of managing these impacts is to promote business environment and accelerate social and economic development. In this aspect, the report provides graphically the dependence of foreign investment on major macroeconomic indicators.

Key words: oil sector, investment, macroeconomic, management, import, export, etc.

Elmira HACIYEVA

Azərbaycan Turizm və Menecment Universiteti

qocayeva-e@rambler.ru

Azərbaycanın UNESCO ümumdünya mədəni irs siyahısına daxil edilmiş abidələrinin dünyaya tanıdılmasında sosial medianın təsiri və əhəmiyyəti

The impact and significance of social media in promoting of monuments of Azerbaijan included in the UNESCO World Heritage List

Влияние и значение социальных медиа в продвижении памятников Азербайджана, включенных в Список всемирного наследия ЮНЕСКО

Summary: Rapid development of technology stimulates social media to become a part of our daily life. In addition to traditional media, social media is also used for promotional purposes. Social media has gained superiority compared to traditional media, enabling more potential tourists at less cost. The daily increase in the number of social network users and the fact that this communication tool has promptly deployed information, pictures, videos, edits, and errors have led to the promotion tool. Considering these reasons, it is advisable to use social media in promoting of monuments of Azerbaijan ühich are included in the UNESCO World Heritage List.

Keywords: social media, promotion, cultural heritage, UNESCO World Heritage List, monuments of Azerbaijan.

Резюме: Быстрое развитие технологий стимулирует социальные медиа стать частью нашей повседневной жизни. В дополнение к традиционным медиа, социальные медиа также используются в рекламных целях. Социальные медиа завоевали превосходство по сравнению с традиционными СМИ, что позволило привлечь больше потенциальных туристов за меньшую плату. Ежедневное увеличение числа пользователей социальных сетей и тот факт, что этот инструмент связи быстро развернул информацию, изображения, видео, изменения и ошибки, привели к продвижению инструмента. Учитывая эти причины, целесообразно использовать социальные медиа в продвижении памятников Азербайджана, которые включены в Список всемирного наследия ЮНЕСКО.

Ключевые слова: социальные медиа, продвижение, культурное наследие, список всемирного наследия ЮНЕСКО, памятники Азербайджана.

Turizm və təbliğat-təşviqat anlayışları bir-biri ilə əlaqəlidir. Belə ki, ölkənin turizm sektorunda söz sahibi olması məhz təbliğat-təşviqatın doğru şəkildə aparılması ilə bağlıdır. Beləliklə, turizm sənayesində təbliğat-təşviqat ölkənin təbiət,

mədəniyyət, tarix, arxeoloji, dəniz, günəş kimi əsas xüsusiyyətlərini və təşviq üsullarından istifadə edərək potensial turistlərə məlumat vermək və ölkənin turizm dəyərləri haqqında müsbət təsəvvür yaratmağa yönəlmiş fəaliyyətlərdir. Turizmdə təşviqatın məqsədi və nəticələri aşağıdakı kimidir:

- ✓ Ölkədə turizm sektorunda artım varsa, bu, artım sürətini artıra bilər;
- ✓ Təbliğat-təşviqat məlumatın ötürülməsi ilə adların, hadisələrin, yerlərin yaddaşlarda qalmasına kömək edir;
- ✓ Ölkəyə uzunmüddətli turizm axınını təmin edir.

Son on il ərzində biznes və sosial kommunikasiya əhəmiyyətli dərəcədə dəyişdi. Bu dəyişikliklər aşağıdakılardan ibarətdir:

1. Hədəf auditoriyasına yeni qruplar daxil olmuşdur;
2. Ənənəvi hədəf auditoriyasının davranışı və mediadan istifadəsi dəyişdi;
3. Yeni kommunikasiya vasitələri hazırlanmış və geniş istifadə edilmişdir;
4. Yeni kommunikasiya vasitələrinin geniş istifadəsi ilə əlaqədar olaraq hədəf auditoriyaya çatmaq üçün yeni vasitələr yaranmışdır;
5. Beləliklə, müxtəlif müraciətlər, mətnlər və kommunikasiya sürəti meydana gəlmişdir.

Müasir dövrümüz sosial media dünyasıdır. Sosial şəbəkə dövründə yaşamağımız digər ölkələr haqqında məlumatlı olmağı asanlaşdırır. Sosial media ölkə hüdudlarında yaşayan digər ölkələrin mədəniyyətini anlamaq üçün ən yaxşı vasitədir. Bu, bəzi ölkələrin açıqlanmayan faktlarını bilmək və anlamaq üçün bir yoldur. Sosial media, həmçinin, bütün dünyada milli mədəniyyəti təbliğ etmək üçün istifadə edilə bilər. Bunun üçün də Facebook, Twitter, VK, Youtube, Google kimi müxtəlif sosial şəbəkələrdən istifadə edilir. Sürətlə inkişaf edən sosial media möcüzələri sayəsində mədəni və sosial məsafələr qısaldılmışdır. Sosial media müəyyən ölkələrdə mövcud olan musiqi, rəqs, şeir, milli mətbəx, oyun və idmanlar, dini və milli hadisə və tədbirlər kimi mədəniyyətlərə aid materialların yükləndiyi platformadır. İnsanların sosial şəbəkələrə rahat şəkildə giriş imkanlarının olması dünyanın istənilən yerindən ölkələrin yuxarıda qeyd etdiyimiz mədəniyyət nümunələri ilə maneəsiz tanış olmağa imkan yaradır. Sosial media müxtəlif onlayn vasitələrlə dəstəklənən ən inkişaf etmiş media növüdür. Sosial media istifadəçilərin sayı zaman keçdikcə artır [1]. Qeyd etmək lazımdır ki, təkcə Facebook istifadəçilərin sayı 1,87 milyarda çatmışdır. Müxtəlif sosial media istifadəçiləri fərqli məqsədlərə görə sosial şəbəkələrdən istifadə edirlər. Ona görə də bu yeni media vasitəsi dünyanın bir çox ölkələrinə fiziki olaraq ziyarət etmədən bütün mədəniyyətlərin

yayılmasına üçün ən yaxşı vasitədir. Sosial media fərqli dinlərdən, etnik mənsubiyyətdən, rənglərdən, irqlərdən, müxtəlif mühitlərdən, fiziki xüsusiyyətlərdən, iqlimdən və müxtəlif qitələrdən olan müxtəlif ölkələrdən olan insanlar arasındakı əlaqədir. İnsanlar sosial media vasitəsilə fərqli yaşayış tərzi və gündəlik fəaliyyətləri barədə məlumatları beynəlxalq yoldaşları ilə bölüşürlər. Beləliklə, fərqli ölkələrdən olan insanlar adət-ənənələr, dəyərlər, normalar və yaşayış tərzləri ilə ölkələr arasındakı sərhədləri aşmaqla tanış olurlar. Bununla da sosial media bütün dünyada milli mədəniyyətin təbliğinə kömək edir. Sosial media mədəniyyət və turizmin təbliğində istifadə edilə bilinəcək ən yeni vasitələrdən biridir. Bu vasitə sosial şəbəkələr, multimedia paylaşımları, peşəkar şəbəkələr, bloqlar, forumlar, şikayət və təkliflər paylaşım mühitləri, elektron poçt qrupları və s. özündə birləşdirir.

Sosial media öz istifadəçilərini yüzlərlə müxtəlif mədəniyyətə malik olan ölkələrdən olan insanlarla qarşılıqlı əlaqə yaratmağı təmin edir [2].

Sosial medianın gücünün interaktivlik və internet aşağıda sadalanan iki səbəbdən mədəni irsin təbliğat-təşviqində istifadə edilən ən effektiv inteqrasiya olunmuş marketinq kommunikasiyası vasitəsidir:

1. Birincisi, sosial media çap medianın müəyyən sərhədlərini aşaraq daha geniş istehlakçı kütləsinə çatır.
2. İkincisi, internet real vaxt kommunikasiyasına imkan verir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, sosial media vasitəsilə təbliğat-təşviqatın edilməsinin aşağıdakı kimi üstünlükləri var:

- “Ağızdan-ağıza marketinq”;
- Hədəf kütləsinə yüksək sürətlə çatmaq;
- Geniş hədəf kütləsi ilə real vaxt, ucuz və fərdi kommunikasiya yaratmaq;
- Kontakt auditoriyasının üzvləri müraciətləri və şəkilləri “bəyənə”, “paylaşa” və onlara rəy yaza bilərlər;
- Kontakt auditoriyasını mədəni irslə əlaqəli tikinti və abadlıq işi layihələri ilə bağlı yenilənmiş məlumatlarla təmin olunurlar;
- Mədəni irs obyektləri ilə əlaqəli təcrübə və təəssüratları bölüşmək;
- Kontakt auditoriyası ilə sosial dinləmələr və onlarla söhbət etmək, onların əhvalını ölçmək;
- Əks əlaqə kanalları vasitəsilə sorğuların qəbul edilməsi və cavablandırılması;
- Mədəni irs obyektinin təbliğat-təşviqatının həyata keçirilməsi və markalandırılması;

– Hədəf kütləsinin innovativ ideyalarını daha yaxşı mövcud olan xidmətlərə çevirmək və ya yeni xidmətlər yaratmağa yönəltmək.

Sosial media sayəsində turizm və səyahət şirkətlərinin 69%-i Facebook vasitəsilə bütün nəqliyyat axınını təmin edir, 46%-i Twitter istifadə edir. Bütün sosial şəbəkə istifadəçilərinin 72% -i səyahət zamanı gündəlik olaraq sosial şəbəkələrdən istifadə edirlər. Sosial şəbəkələrdən istifadə edərkən turistlər öz təcrübə və təəsüratlarını digər turistlərlə bölüşürlər. Sosial media vasitəsilə edilən şərhlər və bu şərhlərə verilən cavab reaksiyaları turizm destinasiyası seçiminə birbaşa təsir göstərir.

Yuxarıda qeyd etdiklərimizə əsasən, deyə bilərik ki, sosial media inteqrasiya olunmuş marketinq kommunikasiyası yeni vaistəsi kimi turizm destinasiyalarının, o cümlədən, ölkə mədəniyyəti, tarixi, tarixi-memarlıq abidələrinin və s. dünyaya tanıdılmasında olduqca böyük əhəmiyyətli rol oynayır. Bunu nəzərə alaraq, mədəniyyətlərin qovşağında yerləşən, zəngin tarixə malik ölkəmizin UNESCO ümumdünya mədəni irs siyahısına daxil edilmiş abidələrinin dünyaya tanıdılmasında sosial mediadan istifadə edilməsi artıq zərurətə çevrilib [4].

Azərbaaycanın qədim tarixini özündə əks etdirən İçəri şəhər, Şirvanşahlar saray kompleksi, Qız qalası və Qobustan dövlət tarixi-bədii qoruğu müvafiq olaraq 2000 və 2007-ci ildə UNESCO-nun ümümdünya mədəni irs siyahısına daxil edilmişdir. Bu da, öz növbəsində, milli mədəni irsimizi, tariximizi dünyaya tanıdılmasında, eləcə də, həmin abidələrin beynəlxalq səviyyədə mühafizəsi və gələcək nəsillər üçün qorunub saxlanılmasında əhəmiyyətli rol oynaıyır.

UNESCO-nun ümümdünya mədəni irs siyahısına daxil edilmiş, qədim tarixə malik olan abidələrimizin dünyaya tanıdılması məqsədilə inteqrasiya olunmuş marketinq kommunikasiyalarının alətlərindən, o cümlədən müasir kommunikasiya vasitəsi olan sosial mediadan istifadə edilməsi məqsədəuyğundur. Bu məqsədlə İçəri şəhər, Şirvanşahlar saray kompleksi, Qız qalası və Qobustan dövlət tarixi-bədii qoruğunun Facebook, Twitter, İnstagram və Youtube kimi sosial şəbəkələrdə müvafiq olaraq səhifələrin və kanalların yaradılması zəruridir. Belə ki, turistlər Facebook sosial şəbəkəsində qeyd olunan abidələrin səhifəsinə daxil olaraq, abidələrin tarixi, təşkil olunan turlar, qiymətlər, eləcə də bu əraziləri ziyarət etmiş turistlərin rəyləri, təəsüratları barədə məlumatlar alırlar və müzakirə forumlarında fikir mübadiləsi aparırlar. Qeyd etmək lazımdır ki, sosial şəbəkələr üzrə fəal istifadəçilərin sayı günü-gündən artmaqda davam edir və bu say 3 milyarddan çoxdur. Beləliklə də, bu şəbəkələrdə səhifələrin yaradılması ilə geniş potensial turist kontigentinə çox xərc çəkmədən çatmaq mümkündür. Fəal istifadəçilərin sayına görə

2 milyard fəal istifadəçi ilə birinci yerdə Facebook, 1.5 milyard istifadəçi ilə ikinci yerdə Youtube video platforması durur.

Sosial medianın alətlərindən olan bloqların da təbliğat-təşviqatdakı rolunu qeyd etmək lazımdır. Turizm və səyahət sahəsində oxucusu, eləcə də izləyici sayı çox olan yerli, o cümlədən əcnəbi məşhur bloqqer və video bloqqerlərin yazılarında və videolarında qeyd etdiyimiz abidələr barədə yazıların və video çarxların hazırlanması, bu yazı və fikilərin, videoların oxucu və izləyicilərin diqqətinə çatdırılması abidələrin dünyaya tanıdılmasında çox böyük rol oynayacaq [5].

Texnologiyanın sürətli inkişafı ilə sosial media həyatın əvəzsiz bir hissəsi oldu. Ənənəvi kütləvi informasiya vasitələrindən əlavə sosial mediadan da tanıtım məqsədilə istifadə olunur. Sosial media az xərclə daha potensial turistləri cəlb etmək imkanını təmin etməklə ənənvi media ilə müqayisədə üstünlük qazanmışdır. Sosial şəbəkə istifadəçilərinin sayının günbəgün artması və bu kommunikasiya vasitəsi informasiyaların, şəkillərin, videoların operativ surətdə yerləşdirilməsi, dəyişikliklərin edilməsi, səhvlərin düzəldilməsi təbliğat-təşviqatın edilməsinin bu vasitəsinə müraciət edilməsinə səbəb olmuşdur. Qeyd edilən bu səbəblərə görə, Azərbaycanın UNESCO-nun ümumdünya mədəni irs siyahısına daxil edilmiş abidələrinin dünyaya tanıdılmasında sosial mediadan istifadə edilməsi məqsədəuyğundur.

Ədəbiyyat siyahısı:

1. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Monoqrafiya. Bakı,. Az TU-nun mətbəəsi, 2015, 475 s.
2. Hacıyeva L.A. Xidmət sahələrinin marketinqi. Bakı, Bakı Biznes Universiteti, 2013, 275 s.
3. Бутко И.И., Ситников В.А., Ситников Е.А. Маркетинг в туризме. Москва, Дашков и Ко, 2013, 412 стр.
4. Batman O., Türkay O., Ulama Ş. Turizmde politika ve stratejiler. İstanbul, Değişim yayınlar, 2018, 392 s.
5. Kotler P., Bowen J.T., Makens J.C. Marketing for Hospitality and Tourism. Pearson, 2013, 714 p

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat
kafedrasının baş müəllimi
mamedovaelnara80@gmail.com

Məhsuldar qüvvələrin inkişaf etdirilməsində, istehsalın təşkili səviyyəsinin yüksəldilməsində elmi-texniki tərəqqi mühüm yer tutur. Əlbəttə, burada texnologiyaların rolunu kiçiltmək olmaz. Elmi-texniki tərəqqinin təsiri nəticəsində sənayedə ixtisaslaşma dərinləşir, sənaye kombinələşir, mərkəzləşir və sənayenin ölkənin bütün ərazisi üzrə yerləşməsi imkanı yaranır.

Uzun illərin təcrübəsi sübut etmişdir ki, elmi-texniki tərəqqinin istiqamətlərini üç yerə ayırmaq onun nailiyyətlərinin istehsala tətbiqini sürətləndirir. Birinci qrupa ümumi istiqamətlər daxildir. Belə istiqamətlərə istehsalın elektrikləşdirilməsi, mexanikləşdirilməsi, avtomatlaşdırılması və kimyalaşdırılması aid edilir. Göründüyü kimi bu istiqamətlər sənayenin bütün sahələrinə aid ola bilər. Elə buna görə də onlar texniki tərəqqinin ümumi istiqamətləri adlanır. İkinci qrupa müəyyən dövr üçün həlledici sayılan istiqamətlər aid edilməlidir. Texniki tərəqqinin bu istiqamətləri yuxarıda göstərdiyimiz ümumi istiqamətlərlə əlaqədar olsalar da konkret bir dövr üçün prioritet istiqamət sayılır və istehsalda inqilabi dəyişikliklərə səbəb olur. Bu istiqamətlərə hazırkı dövrdə prinsipcə yeni texnikanın və texnologiyanın yaradılması və istehsala tətbiqi, istehsalın elektronlaşdırılması, kompüterləşdirilməsi, yeni materialların yaradılması və istehsala tətbiq edilməsi və s. daxildir. Elmi-texniki tərəqqinin üçüncü qrupa daxil olan istiqamətləri sahəvi xarakter daşıyır. Başqa sözlə desək, bura elə istiqamətlər daxil edilməlidir ki, onlar əsasən konkret sənaye sahəsinə aid olsun [3, səh. 143].

Elektrikləşdirmə texniki tərəqqinin bir istiqaməti olmaq etibarilə ictimai əmək sərfinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır. Sənaye istehsalının elektrikləşdirilməsi, hər şeydən əvvəl, gücə əsaslanan texnoloji proseslərin, kompleks mexanikləşdirmə və avtomatlaşdırmanın, idarəetmə üçün texniki vasitələrin və nəzarət-ölçü cihazlarının işini, dispetçer fəaliyyətinin həyata keçirilməsində həlledici rol oynayır. Elektrikləşdirmə dedikdə, mərkəzləşdirilmiş qaydada güclü elektrik stansiyalarında hasil edilən və yüksəkvoltlu şəbəkələri ilə energetika sistemlərində birləşdirilən elektrik enerjisinin xalq təsərrüfatında və məişətdə geniş tətbiq edilməsini başa düşürlər. Elektrik enerjisi praktik olaraq bütün növ yanacaqdan, axar suların gücündən, günəş enerjisindən istifadə etməklə istilik və mexaniki enerjinin elektrik enerjisinə çevrilməsi yolu ilə hasil edilə bilər. Elektrik enerjisinin əsas istehlakçıları qara və əlvan metallurgiya, maşınqayırma və metal

emalı, kimya və neft-kimya sənaye sahələri olduqlarından, həmin istehsalların elektrikləşdirilməsi hər birinin ayrılıqda və bütünlükdə sənayenin iqtisadiyyatının səmərəliliyini yüksəldir, əmək şəraitini yaxşılaşdırmaqla sosial tərəqqini təmin edir [1, səh. 105].

Qeyd edək ki, Azərbaycanda son illər bir çox elektrik stansiyaları istifadəyə verilmişdir ki, onların da gücü ildən ilə artırılmaqdadır. Statistik məlumatlara diqqət yetirsək, bunu daha aydın görə bilərik. Belə ki, əgər respublikada 2010-cu ildə ilin axırına olan elektrik stansiyalarının gücü 6396 MVt təşkil etmişdir ki, bunun da 5401 MVt-ı və yaxud 84,4%-i istilik elektrik stansiyalarının, 995 MVt-ı və yaxud 15,6 %-i su elektrik stansiyalarının payına düşmüşdür. 2016-cı ildə isə ilin axırına olan elektrik stansiyalarının gücü 7869 MVt təşkil etmişdir ki, bunun da 6764 MVt-ı və yaxud 86,0 %-i istilik elektrik stansiyalarının, 1105 MVt-ı və yaxud 14,0 %-i su elektrik stansiyalarının payına düşmüşdür. 2016-cı ildə ilin axırına olan elektrik stansiyalarının gücü 2010-cu illə müqayisədə 1473 MVt və yaxud 23,0 % artmışdır. O cümlədən istilik elektrik stansiyalarının gücü 1363 MVt və yaxud 25,2 %, su elektrik stansiyalarının gücü 110 MVt və yaxud 11,1 % artmışdır. Bütün bunlar ölkənin elektrikləşdirilməsi səviyyəsinin yüksəldilməsinin əyani sübutudur.

Cədvəl 1

Elektrik stansiyalarının gücü

İllər	İlin axırına elektrik stansiyalarının gücü, MVt	ondan:	
		İES gücü	SES gücü
2010	6396	5401	995
2011	6350	5352	998
2012	6420	5397	1023
2013	7310	6227	1083
2014	7348	6270	1078
2015	7793	6690	1103
2016	7869	6764	1105

Mənbə: [6]

Respublika sənaye məhsulunun istehsalında energetikanın aparıcı sahəsi olan energetika sənayesi müəssisələrinin işinin əsas göstəricilərini (2010-2016-cı illər üçün) aşağıdakı rəqəmlər xarakterizə edir.

Cədvəl 2

Energetika sənayesi müəssisələrinin işinin əsas göstəriciləri

	2012	2013	2014	2015	2016

Fəaliyyət göstərən müəssisələrin sayı – cəmi	305	331	343	360	362
İstehsal olunmuş məhsulun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin cari qiymətləri ilə, milyon manat	29573	28747	26554	20581	25438
İstehsal olunmuş məhsulun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə	96,8	101,5	97,7	102,0	99,9
İstehsal olunmuş sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi, faizlə	85,6	84,8	82,7	78,1	78,7
İşləyənlərin orta siyahı sayı:					
Min nəfər	66,9	68,1	66,8	62,1	61,3
əvvəlki ilə nisbətən, faizlə	101,5	101,8	98,1	93,0	98,0
Bir işçinin orta aylıq əmək haqqı, manat	991,6	1 067,0	1 192,1	1470,9	1807,8
İlin sonuna əsas fondların mövcudluğu:					
milyon manat	40697,3	46621,9	53306,5	63002,0	73948,0
əvvəlki ilə nisbətən, faizlə	113,4	114,9	115,5	118,2	117,0

Mənbə: [6]

Cədvəl 2-dən göründüyü kimi, 2016-cı il ərzində respublikada energetika sənayesi üzrə fəaliyyət göstərən müəssisələrin sayı 362 olmuşdur ki, bu da 2012-ci illə müqayisə 18,7 % çoxdur.

Həmin sənaye müəssisələri üzrə elektrik enerjisinin istehsalı, 2016-cı ildə 24 952,9 mlyn.kVt.saat təşkil etmişdir ki, bu da 2012-ci illə müqayisədə 1964,9 mlyn.kVt.saat və yaxud 8,5 % çoxdur.

Cədvəl 3

Elektrik enerjisinin istehsalı

İllər	Elektrik enerjisinin istehsalı, mlyn.kVt. Saat	ondan:					
		İES-lərin istehsalı	SES-lərin istehsalı	Qeyri-enerji müəssi-sələrinin	Genera-torlar vasitəsilə	Külək enerjisi	Günəş fotoelektrik enerjisi

2010	18710	15003	3446	259,7	-	0,5	-
2011	20294	17317	2676	301	-	-	-
2012	22988	19537	1821	1630	-	-	-
2013	23354	20065	1489	1798	-	0,8	0,8
2014	24728	21401	1300	2022	-	2,3	2,9
2015	24688	20905	1637	2137	-	4,6	4,6
2016	24952,9	20699,0	1959,3	2236,5	-	22,8	35,3

Mənbə: [6]

Sənaye istehsalının elektrikləşdirilməsi maddi istehsalın həmin sahəsində mexanikləşdirmə və avtomatlaşdırmanın enerji ilə qidalandırıcı bir növ lokomotivi rolunu oynayır, daha mütərəqqi elektrotexnoloji istehsal üsullarının tətbiqinə imkan və şərait yaradır. Buna misal olaraq yalnız maşınqayırmada elektrofiziki, elektrokimyəvi, elektron-şüa, lazer şüası və s. prosesləri göstərmək olar. İstehsalın elektrikləşdirilməsi sənayenin metal emalına əsaslanan sahələrində xüsusi əhəmiyyət kəsb edir. Elektrosintez və elektroliz kimi proseslərə əsaslanan metalın elektrofiziki və elektrokimyəvi metodları vasitəsilə işlənməsi geniş imkanlara malik olur və böyük iqtisadi səmərə verirlər.

Sənaye energetikasının əhəmiyyəti onun ümumi istehsal xərclərində xüsusi çəkisinin yüksək olması ilə müəyyənləşir. Cədvəl 4-ün təhlilinə diqqət yetirsək, bunu daha aydın görmək olar.

Cədvəl 4

2010-2016-cı illər üzrə enerji səmərəliliyi göstəriciləri

	2010	2013	2014	2015	2016
1 kq istehsal olunan enerji məhsulunun ÜDM-ə dəyəri	2,1	2,0	2,0	1,9	1,9
Yanacaq və enerji xərclərinin ümumi istehsal xərclərində xüsusi çəkisi, faizlə	5,9	3,7	5,8	5,8	4,5

Elektrik enerjisinin xərclərinin ümumi istehsal xərclərində xüsusi çəkisi, faizlə	1,8	0,9	1,3	1,2	0,9
Enerji asılılığı, faizlə	-416,2	-306,7	-295,6	-287,8	-286,1
Bərpa olunan enerji mənbələrindən alınan elektrik enerjisinin ümumi elektrik enerjisi istehsalında xüsusi çəkisi, faizlə	18,4	7,0	6,0	7,4	8,8
Bərpa olunan mənbələrdən enerji təchizatının ümumi enerji təchizatında payı, %-lə	3,1	2,0	1,8	1,9	1,8
Elektrik və istilik enerjisinin istehsalı zamanı yanacağın istifadə səmərəliliyi, faizlə	35,5	36,4	37,5	37,3	38,3

Mənbə: [6]

Elmi – texniki tərəqqinin ən mühüm istiqamətlərindən biri də istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılmasıdır. Mexanikləşdirilmə və avtomatlaşdırılma istehsalda əl əməyinin azaldılmasına təsir edən ən mühüm, ən başlıca amildir. İstehsalın mexanikləşdirilməsi bir neçə mərhələdən, pillədən ibarətdir. Mexanikləşdirmənin birinci mərhələsində əl əməyi mexanikləşdirilmiş alətlərlə - vurucu çəkiclərlə, elektrik qurğuları ilə, elektrik maşınları və s. ilə əvəz olunur. İkinci mərhələdə əl əməyi maşınlarla əvəz olunur. Bu mərhələdə maşınlar, aqreqatlar, dəzgahlar, axın xəttləri istehsala tətbiq olunur. Üçüncü mərhələ kompleks mexanikləşdirmədir. Bu mərhələdə istehsal prosesinin əsas və köməkçi hissələri mexanikləşdirilir, başqa cür desək, əl əməyi tamamilə həm əsas, həm də köməkçi işlərdə maşın və mexanizmlərlə əvəz olunur. Kompleks mexanikləşdirmə mexanikləşdirmənin dördüncü mərhələsi sayılan avtomatlaşdırmanın tətbiqi üçün əsasdır. Bu, son mərhələdə maşınların hərəkəti də maşınlar vasitəsilə həyata keçirilir; fəhlələr hər cür fiziki əməkdən azad olurlar, yalnız maşın və mexanizmlərin işlədiyi dövrdə, onların üzərində nəzarət edirlər, lazım olduqda isə xırda təmir işləri aparır, qəzalar, dayanmalar zamanı aşkara çıxan texniki nöqsanları aradan qaldırırlar [1, səh. 129].

Maşınlı texnikanın inkişafı ilə əlaqədar olaraq insanın fiziki və əqli imkanları, qabiliyyəti arasında böyük fərqlər əmələ gəlir. Bununla əlaqədar olaraq istehsalın özünü avtomatlaşdırılmış maşınlar vasitəsilə idarə etmək zərurəti irəli çıxır. Avtomat maşınlar öz növbəsində idarəedici, hesablayıcı və "düşünən" maşınlara bölünür ki, bunların məcmuu avtomatik maşınlar sistemini əmələ gətirir və maşınlı texnikanın

əsasını təşkil edir. Kompleks mexanikləşdirmədən fərqli olaraq avtomatlaşdırma fəhlələri yalnız mexaniki əməliyyatlardan deyil, həm də bir çox nəzarət və tənzimedici əməliyyatlardan azad edir. Avtomatlaşdırma, habelə insanın bilavasitə təsir göstərə bilmədiyi kimyəvi prosesləri, atom və istilik nüvə proseslərini də idarə etməyə imkan verir [3, səh. 166].

İstehsalın avtomatlaşdırılması - müxtəlif texniki vasitələrin, tərtibat və nəzarət, ölçü cihazlarının tətbiqilə fəhlənin yalnız əvvəlcədən nizamlanmış iş rejiminə nəzarət, müayinə təmiri, baş verə biləcək qəzaların aradan qaldırılması işlərini icra etməklə, maşın və aqreqatların idarə olunması formalarından da azad olunmasıdır.

İstehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması prosesi uzunmüddətli təkamül yolu keçmiş, bəzən texniki inqilablarla müşayiət olunmuş, nəticə etibarilə, avadanlıqların texniki cəhətdən mütəmadi olaraq təkmilləşdirilməsi əsasında mümkün olmuşdur.

Elmi-texniki tərəqqinin ən mühüm istiqamətlərindən biri də kimyalaşdırmadır. İstehsalın kimyalaşdırılması dedikdə, kimyəvi üsul və texnologiyanın xalq təsərrüfatının bütün sahələrində geniş tətbiqi nəzərdə tutulur. Kimyalaşdırma istehsalın intensiv inkişafına, sənayenin əlavə xammal bazasının yaradılmasına, ictimai əməyə qənaət edilməsinə, istehsal olunan məhsulların material tutumunun azalmasına müsbət təsir göstərir. Kimyalaşdırma istehsalın intensivləşdirilməsi məqsədilə kimyəvi - texnoloji istehsal üsullarının tətbiqinə, kimyəvi xammal və materialla istehsal və qeyri-istehsal sahələrinə, əhalinin ehtiyaclarını təmin etmək üçün müxtəlif təyinatlı məmulatlar istehsalına əsas yaradan elmi-texniki tərəqqinin mühüm istiqamətlərindəndir [4, səh. 217].

Buradan belə nəticəyə gəlmək olar ki, kimyalaşdırma istehsalın maddi ünsürlərindən yalnız biri ilə - əmək predmetləri ilə təmasda olur, ya onları kimyəvi üsullarla emal edir, ya da onları təbiətdən alınan xammalla müqayisədə tamamilə yeni xassələrə malik olan xammal və materiallarla əvəz edir. Bu baxımdan elmi-texniki tərəqqinin digər bir istiqaməti olan mexanikləşdirmə və avtomatlaşdırma istehsalın başqa bir maddi ünsürü - əmək alətləri ilə təmasda olur, onların təkmilləşdirilməsi proseslərini özündə əks etdirir. Sənayenin kimyalaşdırılması təkcə kimya istehsallarında oxşar natural məhsulların az vaxt və əmək sərf edilməsi ilə alındığına görə deyil, həm də kimyəvi məhsullar daha yüksək keyfiyyətə malik olduğu, bəzən hətta natural xammaldan hazırlanan həmin məhsulların xeyli miqdarını əvəz edə bildiyi üçün onun xammal bazasını genişləndirir.

Sənayenin bir sıra istehsallarında texnoloji proseslərin arasıkəsilməməzliyinin təmin edilməsi elmi-texniki tərəqqinin sahəvi istiqaməti rolunu oynayır.

Maşınqayırmada, metallurgiyada, meşə və yüngül sənayelərdə proseslərin arasıkəsilməməzliyi istehsala getdikcə daha çox və geniş miqyasda fasiləsiz işləyən aqreqatların, kompleks texnoloji xətlərin tətbiqi nəticəsində təmin edilir ki, bu da onların məhsuldarlığının yüksəldilməsinə, məhsulun keyfiyyətinin yaxışlaşdırılmasına və ən başlıcası isə elmi-texniki tərəqqinin ümumi istiqaməti olan, avtomatlaşdırmanın inkişaf etdirilməsinə səbəb olur [2, səh. 286].

Elmi-texniki tərəqqinin ictimai istehsalın səmərəliliyini yüksəldən mühüm sahəvi istiqamətlərindən biri istehsal proseslərinin intensivləşdirilməsidir. Hazırda istehsalın intensivləşdirilməsinin maşınqayırmada böyük əhəmiyyəti vardır. Lakin təcrübə göstərir ki, planlaşdırma və idarəetmədə elmi-texniki tərəqqinin bu sahəvi istiqamətinə zəif inkişaf etmiş ölkələrdə az fikir verilir. Buna görə də istehsalın avtomatlaşdırılması, kimyalaşdırılması, elektrikləşdirilməsindən əldə edilən iqtisadi səmərə istehsal proseslərinin müvafiq səviyyədə intensivləşdirilməməsi nəticəsində azala bilər. Metallurgiyada da məhsulun keyfiyyətini yüksəltmək üçün ilk növbədə bu məsələnin həllinə yönələn texniki tərəqqinin sahəvi istiqamətlərindən geniş istifadə edilməlidir. Belə istiqamətlərə metalların termiki emalının təkmilləşdirilməsi, növlərinin, profillərinin nomenklatura və çeşidlərinin çoxaldılması, yüksək keyfiyyətli, nazik təbəqəli metalın xüsusi çəkisinin artırılması daxildir. Texniki tərəqqinin metallurgiyaya məxsus olan bu cür istiqamətləri çoxlu miqdarda material-enerji və əmək resurslarına qənaət etməyə imkan verir. Məhsulun keyfiyyətinin yüksəldilməsi maşınqayırmada mühüm əhəmiyyət kəsb edir. Bu həm maşınqayırmanın özü üçün və həm də bütövlükdə ictimai istehsalın səmərəliliyini yüksəltmək üçün başlıca şərtdir. Maşınqayırmanın istehsal etdiyi məhsullar sənayenin və iqtisadiyyatının bütün sahələrində əmək aləti kimi istifadə edilir. Buna görə də maşınqayırma məhsulunun davamlılığı, etibarlılığı, uzunömürlülüyü, qənaətcilliyi, məhsuldarlığı ictimai istehsalın bütün sahələrində səmərəliliyə ciddi şəkildə təsir göstərir. Buna görə də maşınqayırmada elmi-texniki tərəqqinin sahəvi istiqamətlərinə maşın və mexanizmlərin məhsuldarlığının yüksəldilməsi, etibarlılığının artırılması, avtomatlılıq səviyyəsinin yüksəldilməsi və s. bu kimi məsələlərin həllinə yönələn tədbirlər daxildir [2, səh. 284].

Tədqiqat göstərdi ki, elmi-texniki tərəqqinin sahəvi istiqamətləri onun ümumi istiqamətləri olan avtomatlaşdırma, mexanikləşdirmə, kimyalaşdırma və elektrikləşdirmədən heç də az iqtisadi səmərə vermir. Onlar ictimai tələbatların ödənilməsində mühüm rol oynayırlar.

Elmi-texniki tərəqqinin ümumi istiqamətləri olan elektrikləşdirmə, mexanikləşdirmə, avtomatlaşdırma və kimyalaşdırma yüksək səviyyədə inkişaf

etdirilsə belə, əgər istehsalın dinamikliyi təmin edilməyibsə, rəqabətə dözümlü sənaye məhsulu istehsal oluna bilməz. Bu onu deməyə əsas verir ki, elmi-texniki tərəqqinin ümumi və müasir istiqamətləri ilə yanaşı konkret istehsal üçün spesifik xarakterə malik sahəvi istiqamətlərinə də diqqət artırılmalıdır. Hər bir sənaye sahəsində elmi-texniki tərəqqinin sahəvi istiqamətlərini üzə çıxarıb onları məqsədyönlü şəkildə inkişaf etdirmək onun ümumi və ən müasir istiqamətlərinin inkişafına kömək edir və bütövlükdə elmi-texniki tərəqqinin sürətləndirilməsinə səbəb olur. Əgər elmi-texniki tərəqqinin ümumi istiqamətləri onun sahəvi istiqamətlərinin inkişafı ilə paralel aparılmırsa, onda istehsalın səmərəliliyi mümkün olan yüksək səviyyəyə çatmır. Elmi-texniki tərəqqinin ümumi istiqamətlərinin inkişaf etdirilməsi nəticəsində əldə edilən səmərə, onun sahəvi istiqamətlərinin zəif inkişafının təsiri nəticəsində azalır. Belə bir mühüm nəticə çıxarmaq olar ki, elmi-texniki tərəqqinin sahəvi istiqamətləri onun digər istiqamətlərinə güclü təsir göstərir. Elə buna görə də elmi-texniki tərəqqinin ümumi istiqamətləri məqsədyönlü inkişaf etdirilməlidir.

Ədəbiyyat siyahısı

1. Dadaşov. İ.Ş. Elmi-texniki tərəqqinin istiqamətləri və onların səmərəliliyi. Bakı, 1992. 236 səh.

2. Əliyev A.Ə., Şəkərəliyev A.Ş., Dadaşov İ.Ş. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. (Monoqrafiya). Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2003. 455 səh.

3. Hüseynov T.Ə. Müəssisənin iqtisadiyyatı. Bakı, Azərnəşr, 2005. 560 səh.

4.Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı. Bakı, Bakı Biznes Universitetinin nəşriyyatı, 2-13. 304 səh

5.İsayev A.S. Neft və qaz sənayesində istehsalın təşkili, planlaşdırılması və idarə edilməsi. Dərs vəsaiti. Bakı, Azərnəşr, 2005.

6. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron səhifəsi.

XÜLASƏ

Elnarə Şəmsi qızı Məmmədova

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının baş müəllimi

mamedovaelnara80@gmail.com

ELMİ-TEXNİKİ TƏRƏQQİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Real həyatda elmi-texniki tərəqqi öz əksini əmək alətlərində və əmək cismində baş verən dərin və çoxcəhətli dəyişikliklərdə tapır. İstehsalın iqtisadi səmərəliliyini

yüksəltmək üçün bu nailiyyətləri gecikmədən istehsala tətbiq etmək lazımdır. Son nəticədə işçi kollektivin sosial-iqtisadi inkişafı bu prosesin intensivliyindən bilavasitə asılı olur. Elmi-texniki tərəqqinin nailiyyətlərini istehsala daha tez tətbiq edənlər yüksək səmərəlilik əldə edirlər. Odur ki, müasir şəraitdə elmi-texniki tərəqqinin istiqamətlərini təyin etməyin zəruriliyi artmışdır.

***Açar sözlər**: elektrotexnoloji, mexanikləşdirilmə, avtomatlaşdırılma, elmi-texniki tərəqqi, intensivləşdirmə*

ABSTRAKT

E.Ş.Mammadova

Sumgayit State University, Head of Economics Department, senior teacher

THE MAİN DİRECTİONS OF SCİENTİFİC AND TECHNİCAL PROGRESS

In real life, scientific and technological progress reflected in changes in body tools and labor finds deep and multifaceted. These achievements should be used for immediate production to increase economic efficiency of production. In the end, the intensity of this process is directly dependent on the socio-economic development of the personnel. Scientific and technical progress quickly get used to produce high efficiency. Therefore, modern directions of scientific and technical progress in the necessity of the appointment.

***Key words**: mechanization and automation, process intensification, technological progress, elektrotechnoloji*

UOT 338.48

Teacher, Elnura M.Khudaverdieva

Teacher, Aynur M. Kerimova

Ganja State University, Khatai street, 187

elnura_israfilova@mail.ru

ECONOMIC IMPORTANCE OF RESORT BUSINESS

Summary: Tourism is a very multifaceted branch of the economy, one of the main components of income in some countries, influencing the development of their economy and global cooperation. However, if improperly managed, the development of resorts can cause significant harm: lead to environmental degradation while

strengthening tourist flows, a number of social costs for the local population of resort regions, resulting in reduced quality and standard of living, resulting in employment fluctuations, etc. In addition to the economic possible negative impact of resort business in other areas. In order for the sanatorium-resort tourism of the region to develop successfully, it is necessary to have in its territory tourist resources and, mainly, recreational resources.

Key words: tourism, spa business, tourism resources, economic effect.

Tourism is a complex socio-cultural, economic and psychological phenomenon, the diversity of which is characterized by the presence of a large number of definitions. In the most general form, tourism can be defined from two sides: first, it is a type of socio-cultural and leisure activities within the framework of the entire free movement of people from their place of residence and work to another region (within a given country or abroad); secondly, it is an industry that produces services necessary to meet the needs arising during travel. As an economic and socio-cultural phenomenon, tourism has a multifunctional nature.

Under the sanatorium-resort tourism it is proposed to understand a special type of tourism that performs recreational and therapeutic and recreational functions in various combinations - satisfying the needs of the population in restoring physical and mental strength, focused on tourism and recreation, entertainment, entertainment and other programs, as well as healing natural remedies that affect the human body (including balneotherapy, mud therapy, etc.)

The most urgent tasks of the sanatorium-resort business are: improving the quality of medical care and the effectiveness of spa treatment; preventive orientation and rehabilitation; unification of scientific forces to improve the theoretical foundations of balneology and the introduction of modern science achievements into practice; improving the professionalism of personnel; approach of resort assistance to the place of permanent residence of patients; the development of legal norms, supported by economic measures in the field of environmental management, and the transformation of resorts and health-improving areas into protected areas protected by the state [1].

The growing economic importance of resort business, the role it plays in the development of social production as Azerbaijan transitions to the market, suggests

that by now the resort business has emerged as a completely independent sector of the national economy with all the main industry attributes:

** a set of organizations, enterprises and institutions that offer certain social services aimed at improving the population and ensuring the rational organization of free time and rest and promoting the full development of the personality;

** using specific natural and anthropogenic resources that are objects of resort activities;

** availability of technology, technology and organization of work;

** certain material and technical base;

** specific working conditions defined by the system of indicators of accounting and reporting;

** the presence of the organizational structure of management.

The development of resort business brings considerable direct and indirect (due to related industries) economic effect. Special studies show that the indirect impact of the resort-tourist industry on the economy is almost equal to the direct results of economic activities in this area. The resort business provides the creation of new jobs and employment, attraction of significant capital investments and their relatively quick payback. In addition to purely economic resort business has significant social and cultural benefits. It is about the impact of resort business on the improvement of the population, the growth of its cultural and general education, the growth of mutual understanding between people, etc. [2].

The subjects of management are the various structures that can be divided into three levels:

1) the highest;

2) the average;

3) micro level.

The highest level is represented by state governing bodies of the sanatorium complex.

The functions of government bodies include:

** development of legislation and regulations in the field of resort business, as well as rules and norms of standardization and licensing;

** maintaining the state register;

** determination of the industry development strategy, development and coordination of the resorts development programs;

** organization of scientific research in order to expand the resort fund and increase the efficiency of its use and training and retraining of personnel in the field of resort business, the formation of vocational education and training programs, and the management of relevant educational institutions;

** improvement and control over the implementation of legislation on the protection and use of natural medicinal resources, medical and recreational areas and resorts;

** protection of the rights and interests of citizens during the period when they implement sanatorium-resort treatment and stay at the resort, ensuring their safety;

**implementation of state marketing policy and implementation of programs for the promotion of an aggregate resort product, including on the international market.

State support of the sanatorium-resort system can be carried out by:

** formation of an adequate legal framework accelerating the transition to market relations;

** provision of subsidies to individual resorts and their associations;

** introduction of preferential financial and credit mechanisms;

** organization of special ecological and recreational zones;

** development of integrated programs for the development of individual resorts, with the selection of the most socially significant types of treatment and rest, including children's and youth types.

The main task of the regional level is to conduct a state resort policy within its territorial units. Their main functions are;

- development of regional resort programs mandatory certification and licensing;
- coordination of activities of sanatorium and resort organizations and tourism;

- promotion of entrepreneurship in this area compliance with legislation on the protection of resorts and ecology and the development within this framework of its own environmental protection programs, regulation of training for resorts;

- promotion of a regional resort product, the formation of consolidated advertising budgets.

In addition to the economic possible negative impact of resort business in other areas. In order for the sanatorium-resort tourism of the region to develop successfully, it is necessary to have in its territory tourist resources and, mainly, recreational resources.

Micro level is represented by manufacturers of sanatorium-resort services, i.e. sanatorium-resort institutions (sanatoriums and boarding houses with treatment, boarding houses, rest homes, children's camps, mineral water bottling plants, manufacturers of therapeutic mud, etc.). The functions of managers of this link include all activities to ensure the sustainable development of their organizations. This level is also represented by infrastructure enterprises and organizations - marketing intermediaries (sanatorium-resort associations, travel companies, etc.) [3].

Several levels of management can be distinguished in the corporate management of sanatorium-resort organizations.

For commercial health resorts, the federal level is most often absent; they are managed directly by the representatives of the owners (through the board and the board of directors). However, centralized services for the management of departmental medicine and sanatorium-resort organizations are being created in commercial structures.

Any organization, including a resort, should define its strategic goals and ways to achieve them, ie, have a strategic plan. If this plan is specified as a set of activities over the years, then this is a long-term (long-term) development plan for a sanatorium for a certain period (for example , for five years) Domestic practice of the period of market reforms has shown all the complexity of long-term planning. The experience of market-developed countries shows that 90% of firms that left the market did not have clear targets [3].

F. Kotler defines the marketing mix as a set of controllable variable marketing factors, the totality of which the firm uses in an effort to bring about the desired response from the target market.

Most of the researchers involved in marketing in the service sector, consider it possible to consider three more elements in addition to the classical ones:

** staff (people);

** physical evidence; and the way services are offered (process). They explain this approach by the specific features of the service sector (the continuity of the production of services from their consumption, quality variability, intangibility and non-persistence) that distinguish them from material production.

In our opinion, for spa marketing, only the fifth element, staff, is justified, since the role of well-trained and motivated personnel is extremely important in the provision of resort services. As for the material evidence, which include the condition of the interiors, the appearance of the building and territory, furniture, equipment, and the way services are offered (different service options), they are, in our opinion, an integral and integral part of the sanatorium-resort product.

Thus, the resort marketing complex consists of five basic elements (product, price, promotion, location, personnel), which are formed after conducting marketing research and analyzing the information received. Based on this, they develop a marketing program, determine the position of the recreational product in the market and the direction of impact on a particular market segment.

Therefore, any resort organization should have clearly defined goals (including the mission - the main system-organizing goal) for several years in advance and the main directions for their achievement, indicating the resources attracted. For budgetary resorts such a prospective plan must necessarily be

coordinated with the higher level of management. In this case, the plan usually includes investments in the material base (construction of new bedrooms, infrastructure development), personnel training, activities for the development of medical activities, service units and management.

To achieve the goals of tourism policy, an official structure is required that will allow tourism to apply the measures necessary for development. In this connection, either already existing authorities are used, or, if necessary, special subsidiary bodies are created. In addition to the executive authorities in the region, there may be public tourism organizations or advisory commissions consisting of specialists in various fields related to travel - transport, health care, social insurance, etc.

In order for the sanatorium-resort tourism of the region to develop successfully, it is necessary to have in its territory tourist resources and, mainly, recreational resources.

The priorities, principles, goals and objectives of the regional tourism policy, as well as the conditions for their implementation should be defined in the concept and the regional tourism development program. In the process of developing a regional program, the entire set of internal and external factors determining the priorities and prospects for the development of tourism in a given territory is subject to accounting.

References

1. Акимова ТА. Теория организации учебное пособие для вузов М : ЮНИТИ -ДАНА, 2003

2. А.М. Ветитнев, Л.Б. Журавлева. КУРОРТНОЕ ДЕЛО. Учебное пособие

3. Scientific library of dissertations and abstracts disserCat http://www.dissercat.com/content/razvitie-sanatorno-kurortnogo-turizma-v-sisteme-regionalnogo-kurortno-rekreatsionnogo-komple#ixzz5VtiAIVRT

Müəllim, Elnura Misir qızı Xudaverdieva

Müəllim, Aynur Müşfiq qızı Kerimova

Gəncə Dövlət Universiteti, Xətai küçəsi, 187

KURORT BIZNESININ IQTISADI ƏHƏMİYYƏTI

Xülasə: Turizm qlobal əməkdaşlığa təsir edən, bir çox ölkələrdə gəlirlərin əsas komponentlərindən biri sayılan, iqtisadiyyatın ən geniş sahələrindəndir. Bununla yanaşı, kurortların inkişafı düzgün idarə edilmədikdə, əhəmiyyətli dərəcədə zərər verə bilər: turist axını gücləndirildikdə ətraf mühitin tənəzzülünə səbəb ola, istirahət yerlərində yerli əhali üçün bir sıra sosial xərclər çoxalar, keyfiyyət və yaşayış səviyyəsi enər və s., nəticədə isə məşğulluğun səviyyəsi aşağı düşər. Düzgün idarə olunmadıqda kurort biznesi iqtisadi sahədən əlavə digər sahələrə də mənfi təsir göstərə bilər. Regionun sanatoriya-kurort turizminin uğurla inkişaf etdirilməsi üçün onun ərazisində turizm resursları və əsasən də rekreasiya resurslarının olması vacibdir.

Açar sözlər: turizm, kurort biznesi, turizm resursları, iqtisadi effekt.

ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ КУРОРТНОГО БИЗНЕСА

Резюме: Туризм - очень многогранная отрасль экономики, одна из основных составляющих доходов в некоторых странах, влияющая на развитие их экономики и глобального сотрудничества. Однако при ненадлежащем управлении развитие курортов может нанести значительный вред: привести к ухудшению состояния окружающей среды при одновременном укреплении туристических потоков, ряду социальных издержек для местного населения курортных регионов, что приводит к снижению качества и уровня жизни, что приводит к колебаниям занятости и т. д. Помимо экономического возможного негативного воздействия курортного бизнеса в других областях. Для успешного развития санаторно-курортного туризма региона необходимо иметь на своей территории туристические ресурсы и, в основном, рекреационные ресурсы.

Ключевые слова: туризм, курортный бизнес, туристические ресурсы, экономический эффект.

Maliyyə siyasətində maliyyə tənzim normalarının tətbiqi mkanları

Elvin ƏlirzayevVahidoğlu, BakıMühəndislikUniversiteti, baş müəllim, i.ü.f.d.

eelirzayev@beu.edu.az
İlfan Osmanov İlham oğlu, Bakı Mühəndislik Universiteti,magistrant
osmanli.ilfan@gmail.com

Xülasə: Dövlətin borc stokunun artması, siyasətçilərin əlində olan maliyyə siyasətinin iqtisadi artım və inkişafı istənilən ölçüdə artırmaması, fiskal tənzim metodlarının tətbiqini artırmışdır. Bu baxımdan, fiskal qaydalar və o cümlədən qızıl qaydanın tətbiqi inkişaf etmiş və etməkdə olan ölkələrdə sürətlə artmış və bu, dövləti büdcə kəsiri və borc yığımından çəkindirmişdir. Bu çalışmada, nəzəriyyə və praktikada fiskal qaydaların tətbiq imkanları müzakirə edilmişdir.

Açar sözlər: maliyyə siyasəti, fiskal qayda.

Abstract: Growth in government debt stock, results in economic growth less than potential level by fiscal policy which in hands of politicians, has increased the practice of fiscal adjustment methods. Thus, application of fiscal rules and golden rule have been rising rapidly in developed and emerging economies, and this has deprived the state from accumulation of budget deficit and debt. In this study, the theory and practice of fiscal rules have been discussed.

Keywords: fiscal policy, fiscal rule.

1970-ci illərdə Bretton Vudssistemini nçökməsiylədövlətiniqtis adiyyatdapay ınınartmasıdaha çoxm üzakirəedilmişdir. Digər tərəfdən, dövlətin gücününartmasıyla, dövlətgəlirlərinindö vlətxərcl əriqədərar tmamasınəticəd əbüdcəkəsirləriniartırmışdır. 1980-ci illərdahaçox, İnkişafda Olan Ölkələr dəborcstoku nunsürətləartıb, böhranlarınartdığıdönəmolmuşdur. Fiskalqaydal arıngeni ştətbiqidəelə 1990-cı illərdənb aşlanmışdır.

Fiskalqay dalarınt arixiniüçdövr əbölmə kolar. İlk öncə ABŞ-da federal dövlətinştatlar averd iyisərbəstqaydal artətbiqet məim kanınıq eyd etmək olar. 19-cu əsrinsonlarında ABŞ-da və 1920-ci illərdəİsveçrədəbəziəyalətlər "qızılqayda" kimi tanınan*büdcə balansı* qaydasınıistifadəetməyəbaşlamışdırvəbel əcəi nvestisiya xərclərininmaliyyələş məsiasanl aşmışdır. İkincidövr, İkinciDünyaMüharibəsin dən sonraAlmaniya, İtaliyavəYa poniyakimibirçoxsənaye ləşmişölkəistiqra rproqramlar ınıdəstəkləm əkməqsədiyləp ulsiyasətiüçünbüdcəbala nsınıntəmine dilməsiüçünqaydal artət biqetmişdir. Üçüncüdövrisə, YeniZelandiyada 1994-cü ildətətbiqedilən "MaliyyəMəsuli yyətiQanunu" ilebaşlayandönəmdir. Bu vaxt, inflyasiyahədəfləməsitətbiqinəkeçilməsindənsonra, nəğd (kassa) əsaslımetoddanborc (əməliyyat) əsaslımuhasibatlaşmağakeçilm işdirvəfiskalq aydalardangözlənilə nhədəflərmuhasibmetodl arınınyardımıyl

ahəyatakeçirilmişdir[5:4-5].1930-40-cı illərdə Almaniyada Freiburg Məktəbitərəfindən, iqtisadiyyatınqaydavəi nstitutlartərə findəntənzimlənməsivə bununstrukturalrasionalizmçərç ivəsindəedi lməsifikriirəlisürülmüşdür[1].

CeymsBukananagörə,Keynsçiiqtisadidüşüncədə, dövlətlərbüdcəsiyasətiiləi qtisadiyya tıtənzimləyərək tam məşğulluğuəldəedəbilərlər. Bu çərçivədə, hökümətəvergivəxərclərbaxımındangətirilənbirsərhəd, iqtisadieffektivliyiazaldacaqdır. Bununla da, 1960-cı illərdənbuyanakəskinbüdcək əsirininneq ativtərəfinigörmədilərvəbucürsiyasətidəstəklədilər. Həmçinin, vergilərəvə zinəx ərcsiyasətinins eçilməsivəborclarıngələcək nəsillərəmənfitə siretmə yəcəyifikrisiyasətç ilərifiskalqaydaprinsiplərind ənuzaqlaşdırmışdı.Key nsəqəd ərbal ansbüdc əprinsipimüdafiəolunurkən, Keynsdüşün cədənsonra, büdcəkəsirvəsaldos un uniqtisa distabilliküçünistifadəe diləcəyifikriyayılmı şdır.

1929-cu ilBöyükBöhranıvə arxasınd anbüdcəkəsirinədayana raqxərcsiyasəti nitətbiqe dənKe ynçiyan aşma, ABŞ-da federal b üdcəkəs irininartm asınagətirmişdir. üha ribəsisonrası da bukəsirlərdavametmişdir. Büdcəkəsirləri, 1950-1974 illərdə ÜDM-nin 0.7%-iqədərikən, 1975-1979 dönəmdəartaraq 3%-a çıxmışdır. 1974-cü ildəKonqrestərəfindənqəbuledilən "BüdcəvəMüsadirəQanunu" (Budget and Impoundment Act) büdcəkəsirləriniçoxazaldabilməmişdir. Reyqanhakimiyyətininvergiendirimləriiləartanbüdcəkəsirləri 1983-cü ildə ÜDM-nin 6.3%-ihəddinəçatmışdır. [8:13-14].

Fiskalqaydalarıntəbiətiölkələrəgörədəyişir. İsveçrədəbüdcəbalansıkonstitusiyailətəsdiqlənsədə, BraziliyavəÇilidəbüdcəsaldosuhədəflənir. Başqasözlə, Çilidə ÜDM-nin 1%-iqədərbüdcəprofisidiplanlanır. Braziliyada, birincidərəcəlibalansəsasgötürülür. [7:47].

ABŞ-ın dördüncüprezidentiolan James Madisonagörə, "əgərinsanlarmələkolsaydı, dövlətəgərəkqalmazdı; dövlətimələkləridarəetsəydi, o zaman dövlətinəzarətetməyəvəməhdudlaşdırmağagərəkqalmazdı". Buradangörəbilərikki, dövlətlər, iqtidaragələnsiyasətçilərinəlindəözdüşüncələrinihəyatakeçirməküçünbirvasitədirki, bubəzənnövbətisiyasipartiyayaböyükborcyüküşəklindəötürüləbilər.

VudfordveSimsinçalışmalarıylaortayaçıxan*qiymətsəviyyəsininmaliyyənəzəriyəsinə* (fiscal theory of the price level) görə, uzundönəmdəqiymətlərinümumisəviyyəsinimüəyyənedənpulmiqdarıdeyil, büdcəkəsirlərivəbununyolaçdığıdövlətinborcstokudur. PulsiyasətivəMərkəzi Bank, inflyasiyanınəzarətaltındasaxlamaqüçünyetərlideyildir. Bununüçünisə,

bunəzəriyyəyəgörə, faizsiyasətininönəmli, lakinbunun da gerçəkləşməsindəmaliyyətarazlığınınönəmliolduğuqəbuledilir. Bu səbəblədə, başda Aİ olmaqla, birçoxölkəbüdcəkəsirlərivəborclanmaüzərinəqanunimədudiyyətlərgətirmişdi [10:11].

1990-cı illərdənbuyanagörsənənborcvəbüdcəkəsirindəkisürətliartışlarmaliyyəintizamınıntəşkiliniçətinləşdirmişdir. AvropaKomissiyasının 2005-ci ilraportunagörədayanıqsızbüdcəvəziyyətlərimakroiqtiadisabitliyitəhdidedənönəmlib irproblemdir. 1990-cı illərəqədərbəziAvropaölkələrindətətbiqediləngenişləndiricimaliyyəsiyasətitəcrübəsi göstərdiki, yüksəkbüdcəkəsirlərivəborcsəviyyəsininartması, iqtisadiartımvəstabilliyəneqativtəsiredirdi. yüksəkbüdcəkəsirlərivəborcsəviyyəsihəmdəqiymətlərivəfaizhədlərіniartıraraq, resurslarınbölgüsünüpozurvəiqtisadiyyatınistehalhəcminəmənfitəsiredirdi[2:72].

2008 QlobalMaliyyəBöhranıiləölkələrinbüdcəkəsirivəborcyüklәriartmışdır. Böhranaqarşıalınantədbirlərlə, dövlətlərinborcstokuinkişafetməkdəolan G-20 ölklərində 40%, inkişafetmiş G-20 ölkələrindəisə 100%- aşmışdır. Bu da, fiskalqaydalarınsərtşəkildətətbiqininvacibliyinigöstərmişdir[9].

Lakinbəzi İOÖ, iqtisadiartımvəinkişafüçünkəsirbüdcəsiyasətininyüksəkölçüdətətbiqetməsi, dövlətiniqtisadivə social sferadarolununyenidənqiymətləndirilməsimövzusunugündəməgətirmişdir. Son dövrlərdəyeniarayışlar, ortamüddətlimaliyyəkonsolidasiyasındandahaçox, fiskalqaydalarıntətbiqinəyönəlmişdir [5: 4].

Elmitədqiqatçılarvəidarəedicilərtərəfindənqəbuledilirki, fiskalqaydalarbüdcəgöstəricilәriüzərindəintizamqurmalıvəmakroiqtisadidalğalanmalarıazaltmalıvə fiscal dayanıqlılığıartırmalıdır. Eynizamanda, dəqiq, əlçatanvəbaşadüşülənolmalıdır. Balansbüdcəqaydası, praktikadaənməşhurfiskalqaydasıdır. Bununəsassəbəbiisə, həmsadəolması, həmdəcəmiyyəttərəfindənasanbaşadüşülməsidir[3].Empiriktədqiqatlar da fiskalqaydalarınçoxeffektivolduğunuvəmaliyyəstabilliyiüçünuğurlufaktorsayılır. Misalüçün, Almaniyadaborcqaydası, büdcəkəsirinimədudlaşdırır [11].

1997-ci ildənİngiltərədətətbiqedilən “Qızılqayda” fiskalprinsipinəəsasən, hökümətsadəcəinvestisiyalarüçünborclanabilər. Bu da carixərclərüçünborcalmağınqarşısınıalır. Digərdayanıqlıinvestisiyafiskalqaydasıisə,

dövlətinxalisborclarının ÜDM-dənisbətininkonyekturamüddətindəmünasibsəviyyədə (ənçox ÜDM-nin 40%-i) dəyişmədən, sabittutulmasıidi. [4:3].2002-ci ildənAlmaniyadatətbiqedilən "Qızılqayda" fiskalprinsipinəgörəisə, federal hökümətinbüdcəkəsirləri, federal investisiyaxərcləriniaşmamalıdır. [6:132-134].

Ədəbiyyat siyahısı

1. C. C.Aktan, (2004), "KamuTercihiTeorisiveAnayasalPolitikİktisat", iç. *AnayasalİktisatI*, SiyasalKitabevi, 3-34.

2. EC(2005), *Public Finance in EMU 2005*, Directorate-General for Economic and Financial Affairs, European Commission, Brussels.

3. A. GünayBekar,; (2009), "Kamu Mali DengesininSağlanmasında Mali KurallarveÖnemi", KüreselleşmeveKamuMaliyesindeYaşananDönüşüm, T.C. M.B., Ankara.

4. Michael Kell, (2001), "An Assessments of Fiscal Rules in the United Kingdom",*IMF Working Paper*, WP/01/91, 1-36.

5. G. Kopits, (2001), "Fiscal Rules: Useful Policy Framework or Unnecessary Ornament", *IMF Working Paper*, WP/01/145, 1-24.

6. OECD (2002), Economic Outlook, No. 72, Paris.

7. A. Özker, NiyaziveMine Biniş,; (2009), "Mali KurallarveBirVergiAnayasasıYaklaşımı", HukukveİktisatAraştırmalarıDergisi,Cilt 1, No: 1, s. 39-61.

8. J. M. Poterba, (1996), "Do Budget Rules Work", *NBER* Working Paper 5550, 1-61.

9. TCKKGM (2010), Mali KuralKanunTasarısı, T.C. BaşbakanlıkKanunlarveKararlarGenelMüdürlüğü.

10. E.Uygur, (2001), "Enflasyon, Para ve Mali Baskı: İktisatPolitikasında Geri Kalmışlık", *İktisat, İşletmeveFinans*, 16 (189), 7-23.

11. ZEW (2015) "Fiscal Rules and Compliance Expectations-Evidence for the German Debt Brake", Centre for European Economic Research

Quliyev Emin Ənvər oğlu

Povoljski Dövlət Texnologiya Universitetinin aspirantı.

eminquliyev.1977@mail.ru

Kiçik və orta sahibkarlığın və sahibkarlıq təhsilinin iqtisadi inkişafa təsiri

The effect of small and medium entrepreneurship and entrepreneurship education to the economic development

Влияние малых и средних предприятий и предпринимательского образования на экономическое развитие

Xülasə: Məqalədə Bazar iqtisadiyyatının hərəkətliyini və dinamikliyini təmin edən azad rəqabətin formalaşması və inkişafında kiçik və orta sahibkarlığın yeri və rolu araşdırılmışdır. Bununla yanaşı, kiçik və orta sahibkarlığın səmərəli fəaliyyətinin təmin edilməsi üçün dövlətin starteji siyasətinin davamlı olması, düzgün müəyyənləşdirilməsi, təsərrüfat fəaliyyəti ilə məşğul olan sahibkarlar arasında baş verə biləcək inhisarçılıq meyillərinin bazar prinsipləri əsasında aradan qaldırılması, haqsız rəqabətin qarşısının alınması və aradan qaldrırılması ön plana çəkilmişdir.

Eyni zamanda gələcək iqtisadi inkişafda insan kapitalının və sahibkarlıq təhsilinin önəmi analiz edilmişdir.

Açar sözlər: Bazar iqtisadiyyatı, kiçik və orta sahibkarlıq, inkişaf, sahibkarlıq təhsili

Abstract: The role and importance of small and medium entrepreneurship in the formation and development of free competition, which ensures the mobility and dynamics of the market economy, was studied in this paper. Additionally, the strategic policy of the state to ensure the effective functioning of small and medium-sized businesses, the correct identification and removal of the monopoly tendencies that may occur among entrepreneurs engaged in economic activity based on market principles, prevention and elimination of unfair competition are highlighted. At the same time, the importance of human capital and entrepreneurship education at future economic development was analyzed.

Key words: Market economy, small and medium entrepreneurship, development, entrepreneurship education

Резюме: В статье исследуется формирование свободной конкуренции, а также место и роль малого и среднего предпринимательства, обеспечивающие подвижность и динамику рыночной экономики. Вместе с тем, для обеспечения плодотворной деятельности малых и средних предприятий на передний план

выносятся вопросы правильного определения, обеспечения устойчивой государственной стратегической политики, устранение на основе рыночных принципов зачатков монополизма, который может возникнуть между предпринимателями, занимающимися хозяйственной деятельностью, предотвращение и устранение недобросовестной конкуренции.В то же время, проводится анализ значимости человеческого капитала и предпринимательского образования для развития экономики в будущем.

Ключевые слова: рыночная экономика, малое и среднее предпринимательство, развитие, предпринимательское образование.

Kiçik və Orta sahibkarlığın inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabət-qabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyətə malik olan bir fəaliyyət sahəsi hesab edilir. İnkişaf etmiş ölkələrdə Kiçik və Orta sahibkarlığın ÜDM (ümumi daxili məhsulun) və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Bazar iqtisadiyyatının hərəkətliyini və dinamikliyini təmin edən azad rəqabətin formalaşması və inkişafında kiçik və orta sahibkarlığın özünəməxsus yeri var və onun əsas ünsürlərindən biri hesab edilir. D.Rikardo «Siyasi iqtisadın və vergiyə cəlb olunmanın başlanğıcı» adlı əsərində sahibkarın rolu haqqındakı mülahizələrində sahibkarlıq fəaliyyətini kapitalizmdə abstrakt, sonsuz və təbii istehsal üsulu, sahibkarlıq fəaliyyətini isə effektiv təsərrüfatçılığın vacib elementi hesab edirdi. [1]

Sonralar istehsal amillərinin koordinasiyası ideyası A.Marşall (1842-1924) tərəfindən inkişaf etdirildi. O, istehsalın üç əsas amilinə dördüncü amili – sahibkarlıq fəaliyyətini əlavə etmiş, sahibkarlıq fəaliyyətinin cəmiyyətin həyatında mühüm rol oynadığını, iqtisadi prosesləri sürətləndirdiyini və təkmilləşdirdiyini xüsusi vurğulamışdır. [2]

Bazar iqtisadiyyatının yaradılması ilk növbədə bazar mühitini formalaşdıran kiçik və orta sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. Real iqtisadiyyatda ictimai tələbatların dəyişməsinə dinamik və tez reaksiya zəruridir. Kiçik və orta müəssisələr fəaliyyətdə çeviklik və operativliyə, az xərclə yerli şəraitə uyğunlaşmağa malikdir. İri müəssisələrin praktiki olaraq mövcud olmadığı, müflisləşmə elan edildiyi, milyonlarla borclu olduğu şəraitdə kiçik və orta sahibkarlıq müəssisələrinin bütün bu

xüsusiyyətləri yeni iş yerlərinin yaradılmasına, məcmu tələb və təklifin artırılmasına, iqtisadi böhranın aradan qaldırılmasına imkan verir.

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" (bundan sonra – Strateji Yol Xəritəsi) ölkə iqtisadiyyatında rəqabətqabiliyyətliliyin, inklüzivliyin və dayanıqlılığın təmin olunması istiqamətində bütün ölkə üzrə həyata keçirilən tədbirlərin bir hissəsi olaraq hazırlanmışdır. Bu tədbirlər ölkə iqtisadiyyatının on bir müxtəlif sektorunu, eləcə də hər bir sektor üzrə ümumi mövzuları əhatə edən Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə strateji yol xəritələrini özündə əks etdirir. Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə, ümumilikdə, 12 strateji yol xəritəsi Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamının icrası məqsədilə hazırlanmışdır.

Kiçik və orta sahibkarlıq iş yerləri yaradan ictimai zəruri və qanunauyğun iqtisadi hadisədir. İnsanlar öz sahibkarlıq qabiliyyətlərindən istifadə edərək yeni iş yerləri yaradır və eyni zamanda məcmu tələb və təklifi artırır. Kiçik və orta sahibkarlıq üçün xarakterik olan aşağıdakı qanunauyğunluqları müəyyən etmək olar:

- rəqabət münasibətlərinin formalaşması;
- məhsulun keyfiyyətinin yüksəldilməsi və çeşidinin genişləndirilməsi;
- iqtisadiyyatın sturukturunun dəyişməsinə təsir göstərməsi;
- mülkiyyətçi sosial təbəqələrin formalaşması;
- iri istehsalın məhdudiyyət qoyduğu əhalinin ayrı-ayrı qruplarının (ev təsərrüfatlar, pensiya alanlar) əmək fəaliyyətinə cəlb edilməsi;
- yerli xammal mənbələrinin mənimsənilməsi və istifadəsi;
- komplektləşdirici məlumatların hazırlanması və təchizi yolu ilə iri müəssisələrə təsir göstərməsi və s.

Bununla yanaşı, kiçik və orta sahibkarlığın səmərəli fəaliyyətinin təmin edilməsi üçün dövlətin starteji siyasəti davamlı olmalı, düzgün müəyyənləşdirilməli, təsərrüfat fəaliyyəti ilə məşğul olan sahibkarlar arasında baş verə biləcək inhisarçılıq meyilləri bazar prinsipləri əsasında aradan qaldırılmalı, haqsız rəqabətin qarşısının alınması və aradan qaldrırılması tədbirləri ön plana çəkilməlidir.

Cəmiyyətin iqtisadi inkişafının başlıca amillərindən biri kimi sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi onun dövlət tərəfindən hansı səviyyədə və formada dəstəklənməsi ilə birbaşa bağlıdır. Başqa sözlə desək, kiçik və orta biznesin tənzimlənməsi, onun inkişafına əlverişli və səmərəli şəraitin yaradılması bazar

iqtisadiyyatı şəraitində dövlətin mühüm vəzifələrindən biri kimi çıxış edir. Kiçik və orta sahibkarlığın dövlət tənzimlənməsinin, onun dəstəklənməsinin səmərəli sisteminin formalaşdırılmasının nəinki kiçik və orta müəssisələr üçün, həm də bütövlükdə ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyəti vardır.

Kicik və orta sahibkarlıq əhalinin geniş təbəqələrinin həyat səviyyəsinin yüksəldilməsi üçün şəraiti təmin edir, yeni iş yerləri yaradaraq cəmiyyət üçün zəruri mallar və xidmətlər istehsal edir, eyni zamanda müxtəlif məhsulların istehlakçısı kimi çıxış edərək ölkənin və onun regionlarının iqtisadi inkişafına mühüm təsir göstərir.[3]

Azərbaycan Respublikasında Kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar hazırlanmış Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək istiqamətində aşağıdakı strateji hədəflər müəyyənləşdirilmişdir (bax: [10])

- uzunmüddətli perspektivdə KOS-un Azərbaycanın ÜDM-inə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;
- KOS subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;
- ölkənin valyuta ehtiyatlarının artırılması və ölkədə istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə KOS-un fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması;
- ixtisaslı işçi qüvvəsinin hazırlanmasına və KOS subyektlərinin bacarıqlarının inkişafına xüsusi diqqət ayırmaqla, regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması;
- KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi, bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi.

Bu sənəddə müəyyənləşdirilmiş prioritetlərin qısamüddətli dövrdə effektiv icrası orta və uzunmüddətli dövrdə həyata keçirilməsi nəzərdə tutulan növbəti addımların əsasını təşkil edəcək və bununla da icra prosesinin səmərəliliyi təmin ediləcəkdir. Strateji Yol Xəritəsinin icrası qeyri-hökumət təşkilatları, yerli və beynəlxalq özəl sektor tərəfdaşları ilə kommunikasiya və əməkdaşlıq şəraitində təmin edilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasında dövlətin kiçik və orta sahibkarlığa göstərdiyi dəstəyin və bu sahədə dinamik inkişafın artım tempini biz aşağıdakı cədvəldə görə bilərik.

	Müəssisə və təşkilatların sayı	Fərdi sahibkarların sayı	Yeni yaradılmış müəssisə və təşkilatların sayı	Kiçik müəssisələrin sayı
2014	94563	519860	9130	75119
2015	100325	576906	6266	79037
2016	107358	685406	8012	86514
2017	118594	794441	11934	96684

Kiçik və orta sahibkarlıq müxtəlif dövlətlərin iqtisadi çiçəklənməsinə səbəb olan və istehsalın canlanmasına və əhalinin iqtisadi fəallığının yüksəldilməsinə güclü stimul verən mühüm amildir. Kiçik və orta sahibkarlıq iqtisadiyyatın ən çevik və nəticəli sektorlarından biridir, habelə ÜDM-in xeyli hissəsinin yaradılması onun payına düşür, iqtisadi fəal əhalinin xeyli hissəsi onda işləyir. İş yerinin yaradılmasından başqa, rəqabət qabiliyyətli, dinamik və diversifikasiyalı iqtisadiyyatın yaradılmasında da kiçik və orta sahibkarlığın mühüm rolu vardır. Bazar münasibətlərinin formalaşması və inkişafı müxtəlif mülkiyyət formalı təsərrüfat subyektlərinin fəaliyyətini tələb edir. Çox sayda kiçik və orta mülkiyyətçilər təbəqəsi kimi çıxış edən kiçik və orta sahibkarlıq əhəmiyyətli şəkildə ölkənin sosial-iqtisadi inkişaf səviyyəsini müəyyən edir.

Təsadüfü deyil ki, Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək istiqamətində strateji hədəf kimi aşağıdakılar müəyyənləşdirilmişdir:

Qərb ölkələrinin iqtisadiyyatının sturukturunda kiçik və orta müəssisələrin xüsusi çəkisinin fəal artımı 70 – ci illərin ortalarından və 90 – cı illərin əvvələrindən başlamışdır. Bu gün inkişaf etmiş qərb ölkələrində kiçik və orta firmalar müəssisələrin ümumi sayının 70-90% ni təşkil edir. Məsələn, ABŞ – da əhalinin 53%, Yaponiyada 71.7% -i kiçik və orta sahibkarliqla məşğul olur. Bu faktlar həmin ölkələrin iqtisadiyyatı üçün kiçik və orta sahibkarlıq müəssisələrinin ciddi əhəmiyyətə malik olduğunu göstərir [4]

Kiçik və orta sahibkarlığın inkişafı köhnə irimiqyaslı müəssislərə həyat verməklə, həm özləri, həm də bütövlükdə bazar iqtisadiyyatı əhəmiyyətli fayda əldə edir. ABŞ – da xalis gəlirin 34.9% - i, Yaponiyada isə emal sənayesi məhsulunun 56.6% kiçik və orta sahibkarlığın payına düşür. BMT – nin məlumatlarına görə müasir dövrdə ümumdünya milli məhsulun 33-66% - i kiçik və orta sahibkarlıq sektorunun payına düşür, əmək qabliyyətli əhalinin təxminən yarısı bu sektorda çalışır. İnkişaf etmiş ölkələrdə satışın həcminin 50% - i, işləyənlərin 80% - i kiçik və orta sahibkarlığın payına düşür. Bu sektor Yaponiyanin, İngiltərinin və ABŞ – nin ixracının müvafiq olaraq 35%, 17%, və 20% i təmin edir. 1 saylı cədvəlin məlumatları inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın iqtisadiyyatda əhəmiyyətli rol oynadığını qeyd etməyə imkan verir. (cədvəl 1.1).

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kiçik və orta müəssisələrin fəaliyyətinin əsas göstəriciləri

Ölkələr	Kiçik və orta müəssisələrin sayı, min vahid	Əhalinin 1000 nəfərinə düşən kiçik və orta müəssisələ-rin sayı	Kiçik və orta müəssisə-lərdə çalışanların sayı, mln. nəfər	Məşğul olanla-rın ümumi sayında xüsusi çəkisi, %	ÜDM-da xüsusi çəkisi, %
Böyük Britaniya	2930	46	13.6	49.0	50-53
Almaniya	2290	37	18.5	46	50-54
İtaliya	3920	68	16.8	73	57-60
Fransa	1980	35	15.2	54	55-62

ABŞ	19300	74.2	70.2	54.0	50-52
Yaponiya	6450	49.6	39.5	78	52-55

Qeyd etdiyimiz bütün amillər və iqtisadi unkişaf insan faktoru ilə əlaqədardır. İnsan kapitalı inkşafın əsasıdır. Xüsusilədə davamlı və dayanıqlı inkişafın təmin olunmasında biznes və sahibkarlıq təhsili heç vaxt indiki qədər vacib olmayıb. Gənc əhalinin sayının artması, bir çox ölkədə gənclər arasında artan işsizliklə birlikdə iş yerlərinin yaradılması və sahibkarlığa xas davranışı daha çox gündəmə gətirir. Texnoloji inkişaflar iş yerlərini yenidən formalaşdırır, sahibkarlığın idarə edilmə tərzlərini dəyişir, biznesin qlobal xarakter daşıması daha çox gəncin müxtəlif materik və sektorlarda iş sahibi ola bilməsi deməkdir. Odur ki, gələcək nəsli hələ haqqında heç nə bilmədiyimiz iş dünyasına daxil olmaları üçün tələb olunacaq bacarıq və düşüncə tərzləri ilə təmin etmək vacibdir.

Hər bir ölkənin sərvəti insandır. İnsanın maddi, intellektual və mənəvi imkanlarının, insan kapitalının inkişafı dövlətin mühüm vəzifəsinə çevrilir. İnsan kapitalının formalaşması üçün təhsil mühüm alətdir. Təhsil insanların həyat keyfiyyətinin yüksəldilməsinə və onların öz vətəndaş hüquqlarının və öhdəliklərinin həyata keçirilməsinə kömək edir. Təhsilli insanlar daha məhsuldar olur. Onlar meydana çıxan problemlərin və çətinliklərin aradan qaldırılmasında daha geniş imkanlara malikdirlər, öz işlərini daha səmərəli yerinə yetirmək iqtidarındadırlar. İnsan kapitalının təhsil və peşə hazırlığı vasitəsilə formalaşması investisiyaların cəlb edilməsinə kömək edir, yeni texnologiyaların işlənib hazırlanmasını və tətbiqini fəallaşdırır və məhsuldarlığı yüksəldir.

Bazar münasibətlərinin güclü inkişafı gənclərin gələcəkdə işlə təminatının tədris və təlimin dəyişən ehtiyaclara necə reaksiya verməsindən asılıdır. Tələbələrdən daim inkişaf edən əmək bazarına daxil olmaq üçün yenilikçi, bazar mühitinə uyğunlaşan, möhkəm iradə və dəyişə bilən olmaq tələbinin yerinə yetirilməsi tələb olunacaq. Onlarda bu xarakterlərin formalaşması isə təbii ki, aldıqları təhsilin və verilən təlimlərin səviyyəsindən və keyfiyyətindən bilavasitə asılıdır.

Müasir iqtisadi mühitdə sahibkarlıq düşüncə tərzinin təhsil və təlim ilə birləşdirilməsi tələbələrin gələcəkdə işlə təmin olunmasını dəstəkləmək üçün mükəmməl yanaşmsdır. Sahibkarlıq təhsili gənclərin işlə təmin olunması ehtimalını artırmaqla onların sosial, dövlət və özəl sektorlarda mövcud olan qurumlarlar çərçivəsində öz işlərinə daha çox sahibkarlıq nöqteyi-nəzərindən yanaşmasına səbəb olacaq.

Son illər ərzində Birləşmiş Krallıq və başqa ölkələrdə milli təhsil siyasətlərindəki dəyişikliklər nəticəsində biznes təhsili əhəmiyyətli dərəcədə inkişaf edib. Sahibkarlıq təhsilinin texniki və peşə təhsili və təliminə daxil edilməsi tələbələrin təhsildən sonrakı həyata hazırlaşmasını təmin etmək üçün mühüm vasitəyə çevrilib.
Sahibkarlıq düşüncə tərzinin peşə təhsili və təlimi ilə birləşdirilməsi tələbələrin gələcəkdə işlə təmin olunmasını dəstəkləmək üçün mükəmməl üsuldur. Sahibkarlıq təhsili gənclərin işlə təmin olunması ehtimalını artıracaq və onların sosial, dövlət və özəl sektorlarda mövcud olan təşkilatlar çərçivəsində öz işlərinə daha çox sahibkarlıq nöqteyi-nəzərindən yanaşmasına səbəb olacaq.

Gələcəkdə iş yerlərinin saxlanması və yaradılması tələbələr və hökumətlər üçün prioritet məsələyə çevrildiyindən, yeni nəslin sahibkarlıq yönümlü düşüncəyə sahib olması və təşəbbüskarlığı dünyada iqtisadiyyatın inkişafına təkan verəcək. Avropa Komissiyasının məlumatına əsasən, sahibkarlıq təhsili yerli əmək bazarlarına və iqtisadiyyatlara müsbət təsir göstərə bilər. Sahibkarlıq təhsilinə investisiya qoymaq Avropada ən yüksək mənfəətli investisiyalardan biridir. Bu faktın təsbit edildiyi araşdırmaya əsasən, biznes təhsili almış tələbələrin gələcəkdə öz bizneslərinə start vermə ehtimalı digərləri ilə müqayisədə üç-altı dəfə çoxdur. İnkişaf etmiş ölkələrin iqtisadiyyatında universitetlər aparıcı mövqeyə malikdir. Bu kontekstdə dünya təhsil xidmətləri bazarında rəqabətqabiliyyətli ali təhsil ocaqlarında yüksəkixtisaslı mütəxəssis hazırlığı prioritet istiqamətlərindəndir.

Gələcəyimiz gələcək nəsillərdən asılıdır və sahibkarlıq təhsilini əhatə edən yüksək keyfiyyətli tədris onların müvəffəqiyyətlərinin əsas hissəsini təşkil edəcək. Gələcəyin fəal beyinləri bu gün imkanlar aləmini onlar üçün açacaq müəllimlərin təlimat və dəstəyindən asılıdır.

Tələbələr tədris prosesinin əsasını təşkil edir və sahibkarlıq təhsili onları sahibkarlıq yönümlü düşüncə tərzi ilə təmin edə bilər. Bu cür düşüncə tərzini isə əsas daha çox bilik qazanmaq və onlarla daha çox maraqlanmaqla əldə etmək olar. Gerçək həyatdakı misallar daxil edildikdə və insanlara öz müvəffəqiyyətlərinə sahib olmaq imkanı verildikdə təlim daha xoşagələn ola bilər.

Tələbələr sahibkarlıq məşğələləri vasitəsilə tənqidi düşünmə, problem həll etmə, ünsiyyət, risk etmə və komanda işi kimi əsas sahibkarlıq bacarıqlarına yiyələnə bilərlər. Sahibkarlıq daha böyük iqtisadi və sosial inkişafı dəstəkləyərkən gənclərin bacarıqlarını, işə götürülmə imkanlarını və həyatdakı şanslarını təkmilləşdirməklə onlara alternativ yollar təklif edə bilər.

Gələcəyimizin gənclərdən və gələcək nəsillərdən asılı olduğunu nəzərə alsaq, sahibkarlıq təhsilini əhatə edən yüksək keyfiyyətli tədris onların müvəffəqiyyətlərinin əsas hissəsini təşkil edəcək. Gələcəyin fəal beyinləri bu gün imkanlar aləmini onlar üçün açacaq müəllimlərin təlimat və dəstəyindən asılıdır.

Effektiv sahibkarlıq təhsili həm müəllimlərdən, həm də tədris müəssisələrinin fəaliyyət istiqamətindən və mədəni dəyərlərindən asılıdır. Sahibkarlıq təhsilini müvəffəqiyyətlə təhsil planına daxil etmək üçün əvvəlcə bu istiqamətdə fəaliyyət göstərəcək müəllimləri bir çox bacarığa sahib olmaq və riskin dəstəkləndiyi, təlimin işə götürülmə ilə nəticələnməsinin prioritet məsələ olduğu təhsil mühitini bütün bu bacarıqları dəstəkləyə hazırlamaq lazımdır. Sahibkarlığın öyrədilməsi cavabları təmin etmir, lakin tələbələrin düzgün sualları müəyyən etməsinə təkan verir.

Ədəbiyyat siyahısı

1. .“Biznesin təşkili və idarə edilməsi. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı-2011
2. A.B.Abbasov “ Biznesin əsasları”, Bakı, 2005
3. .Hüseynli İ.Q. Quliyev R., Xəlilov H.,Abbasov və b. Azərbaycan iqtisaiyyatında kiçik və orta sahibkarlıq: nəticələr, problemlər və perspektivlər,”Səda” nəşriyyatı,2001]
4. Hüseynli İ.Q.Azərbaycanda kiçik biznesin inkişafının cari vəziyyəti və perspektivləri, Bakı, 2009]
5. Ə.Ş.İmanov. Kiçik sahibkarlıq. Bakı 2009
6. İ.H.İbrahimov, E.R.İbrahimov “Sahibkarlıq fəaliyyətinin iqtisadi, hüquqi mexanizmi” , Bakı, 2004
7. Q.N.Manafov. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi aspektləri, Bakı, 2000
8. M.Əhmədov,A.Hüseyn,İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, Bakı2011
9. http:// erc-az.org- İqtisadi Tədqiqatlar Mərkəzi
10. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

Əliyev Əsgər İmaməli
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
"İqtisadiyyat və idarəetmə" kafedrasının dosenti, i.ü.f.d.
AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181
e-poçt: if@aesma.edu.az

Məmmədova Sevda Muxtar
Bakı Biznes Universiteti
"İqtisadi nəzəryyə" kafedrasının dosenti,i.ü.f.d.,
AZ 1122, Bakı şəhəri, H.Zərdabi küç., 88a
e-mail: relation@bbu.edu.az

ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATINDA "CƏNUB QAZ DƏHLİZİ"NİN ROLU

Acar sozlər:enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi, investisiya qoyuluşu, qaz layıhəsi, ixrac boru kəməri.

Key words:: energy security, energy diversification, investment, gas project, export pipeline.

Azərbaycan müstəqillik qazandığdan sonra ölkəmizin iqtisadi və siyasi həyatında yanacaq enerji kompleksi çox mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Belə ki, əsrlər boyu bəşəriyyətin inkişafında mühüm rol oynamış enerji amillərinin bazar iqtisadiyyatı şəraitində dahada artan əhəmiyyəti dünya ölkələrinin enerji təhlükəsizliyinin təminatı problemini müasir dövrün əsas məsələlərindən birinə çevirmişdir. Belə bir məsələ enerji istehlakçısı olan ölkələrlə yanaşı, istehsalçı ölkələrində real müstəqilliyinin və dayanıqlı inkişafının başlıca şərtlərindən biri kimi daim diqqət mərkəzində duran problemlərdən biridir. Bu baxımdan enerji təhlükəsizliyi probleminin mövcudluğumüasir şəraitdəenerji resursları ilə yanaşı siyasi, iqtisadi və ekoloji amillər də daxil olmaqla enerji təminatına çox şaxəliyanaşma ilə bərabər bu sahədə səmərəli istifadə və idarəçiliyin təmin olunmasının yeni üsul və formalarını özündə əks etdirməlidir. Bazar iqtisadiyyatı şəraitində enerjiyə olan tələbatın daxili resurslar hesabına təmin olunması məqsədilə tərtib olunmuş qlobal enerji layihələri istiqamətində beynəlxalq miqyasda yüksək

nüfuz qazanmasi ilə fərqlənən Azərbaycanın energetika bölməsi aktual strateji məsələlərlə xarakterizə olunur.

Bazar iqtisadiyyatı şəraitində mühüm əhəmiyyət kəsb edən qlobal layihələrdən biri kimi enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi layihələri müasir dövrün aktual problemlərdən biri kimi diqqəti cəlb edir.

Məlum olduğu kimi 2014-cü ildə Azərbaycanın enerji siyasətində yeni dövrün başlanğıcı qoyulmuşdur.Beləki, 2014-cü ilin senytabrın 20-də "Əsrin müqaviləsi"nin 20 illik yubileyində müxtəlif dövlət və hökümət başçılarının və nüfuzlu şirkət rəhbərlərinin iştirakı ilə nəhəng transmilli layihə olan "Cənub qaz dəhlizi"nin təməlqoyma mərasiminin keçirilməsi bu günkü gündə öz müsbət nəticələrini verir.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində Azərbaycan dövlətinin təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" ölkəmizin iqtisadi inkişafı ilə yanaşı, Avropa ölkələri üçün də prioritet enerji layihələrindən biridir. "Cənub qaz dəhlizi" ümumiyyətlə 100 il Azərbaycana xidmət edəcək və ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərən mühüm amillərdən biri kimi fəaliyyət göstərəcəkdir. Bu layihənin həyata keçirilməsi həm ölkəmizin və həm də avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox böyük əhəmiyyət kəsb edəcəkdir. "Cənub qaz dəhlizi" layihəsi Azərbaycan iqtisadiyyatını gələcəkdə daha da inkişaf etdirməyə əsas verən enerji strategiyasının əsas tərkib elementlərindən biridir.

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsindən sonra Azərbaycan qazı Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başlamışdır. Bu isə öz növbəsində "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsinə təkan verməklə "Cənub qaz dəhlizi" layihəsi üçün əlverişli şərait yaratmışdır. Nəzərdə tutulan bu məsələlərin həyata keçirilməsi ölkəmizin tarixində mühüm mərhələ olmuşdur.

1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması kimi mühüm bir hadisənin baş verməsi Azərbaycanı dünya iqtisadiyyatına təqdim etməklə ölkəmizdə neft və qaz sektoruna külli miqdarda investisiyaların qoyulmasına gətirib çıxarması öz aktuallığı ilə diqqəti cəlb edən məsələlərdəndir. 1996-cı ildə "Şahdəniz" qaz kondensatı layihəsi üzrə müqavilə imzalanması "Şahdəniz" yatağının "Cənub qaz dəhlizi" üçün yeganə resurs mənbəyi olması xüsusi əhəmiyyət kəsb edir. Belə bir mühüm addımın atılması Azərbaycan iqtisadiyyatına milyardlarla investisiya qoyuluşu cəlb etməyə imkan yaratmışdır. Bu isə, öz növbəsində, ölkəmizin neft istehsal və ixrac edən ölkədən qaz istehsal və ixrac edən ölkəyə çevrilməsinə şərait yaratmışdır. Göründüyü kimi, "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsi regional əməkdaşlıqla bağlı

məsələlərdə mühüm rol oynamaqla yanaşı, müxtəlif regionları və qitələri birləşdirən əsas kəmər infrastrukturunun tikintisinin stimullaşdırılmasında həlledici vasitələrdən biri olmuşdur.

"Cənub qaz dəhlizi" enerji təhlükəsizliyi layihəsi olmaqla yanaşı, həm də enerji şaxələndirilməsi layihəsidir. Ölkəmizdə mövcud olan əvvəlki layihələrlə bərabər "Cənub qaz dəhlizi" layihəsi Azərbaycan iqtisadiyyatına yeni faydalar verməklə yanaşı iqtisadiyyatın şaxələndirilməsi, insan kapitalına investisiya yatırılması və iqtisadiyyatın tamamilə dəyişdirilməsi üçün enerji ehtiyatlarından səmərəli istifadə olunmasını qarşıya bir məqsəd kimi qoymuşdur.

Avropanın enerji təhlükəsizliyi üçün"Cənub qaz dəhlizi" layihəsinin təşkilinin əhəmiyyəti çox vacib olmaqla bu əhəmiyyət gələcəkdə daha da artacaqdır. Ona görə ki, hazırda Avropa ittifaqı istehlak etdiyi enerjinin yarıdan çoxunu, yəni təbii qazın 69-70%-ni, neftin isə 89%-ni Rusiya, Norveç və Əlcəzairdən idxal edir.

2018-ci ilin fevral ayının 15-də Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin dördüncü toplantısında göstərildiyi kimi hazırkı şəraitdə Azərbaycanın gerçəkləşdirdiyi iki əsas enerji layihəsi, yəni "Azəri- Çıraq-Günəşli" və "Cənub qaz dəhlizi" reqional əməkdaşlıqla bağlı məsələlərdə mühüm rol oynamaqla yanaşı Avropada enerji təchizatının şaxələndirilməsinə xüsusi köməklik göstərəcəkdir.

Tarixi hadisə kimi 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikilib istifadəyə verilməsindən sonra Azərbaycan dünya miqyasında qaz ölkəsi kimi tanınmışdır. "Cənub qaz dəhlizi"nin birinci hissəsinin 2007-ci ildə istifadəyə verilməsindən sonra ölkəmizdə böyük layihə üzərində lazımi işlər aparılır. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında danışıqlar nəticəsində Transanadolu kəmərinin tikintisi ilə əlaqədar razılıq əldə olunması da mühüm bir hadisədir. Bu günkü gündə "TANAP" layihəsinin dəqiqləşdirilməsindən sonra "Cənub qaz dəhlizi"nin gələcək perspektivləri nəzərə çarpır. Burada bir məsələyə də xüsusi diqqət yeritmək lazımdır ki, 2013-cü ildə "TAP" layihəsi Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi nəzərdə tutulması ölkəmizə əlavə dividentlərin gətirilməsinə səbəb olacaqdır.

Göründüyü kimi Azərbaycan təbii qazı 2018-ci il may ayının 29-da Səngəçal terminalından "Cənub qaz dəhlizi" sisteminə qoşulmuşdur.İyun ayının 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP (Transanadolu) Qaz Boru Kəməri istifadəyə verilmişdir. 2020-ci ildə Azərbaycan qazının Avropaya çatdırılması nəzərdə tutulur.

2018-ci ilin oktyabr ayına qədər Transanadolu(TANAP) boru kəməri vasitəsilə Türkiyəyə 400 milyon kubmetrə qədər Azərbaycan qazı nəql olunmuşdur. Bu həcm

2019-cu ilin əvvəlinə qədər 1 milyard kubmetrə çatacaqdır. Ümumiyyətlə 2019-cu il ərzində Türkiyəyə TANAP-la 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə 6 milyard kubmetr həcmində Azərbaycan qazı daşınacaqdır.

Araşdırmalar göstərir ki, "Cənub qaz dəhlizi" yalnız infrastruktur deyildir. Bu layihə öz-özlüyündə gələcəyə olan bir baxışdır. Bu baxış artıq demək olar ki, reallığa çevrilmişdir. Bu layihə nəticəsində Avropa ilə Asiya demək olar ki, birləşir. Enerji təminatı və enerji təhlükəsizliyi baxımından bu layihənin gerçəkləşməsi gələcək illər ərzində müxtəlif dövlətlər və xalqlar arasında davamlı əməkdaşlığın təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir. Bu əməkdaşlığın yaranmasında rəqabət qabiliyyətli qiymətlərin təklif olunması, əlavə inkişaf və ətraf mühitin qorunması məsələləri daim diqqət mərkəzində duran problemlərdən biri olacaqdır. Ümumiyyətlə TAP və TANAP layihələri "Cənub qaz dəhlizi"nin tərkib hissəsidir.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev layihənin uğurla irəlilədiyini vurğuluyaraq demişdir: "Cənub qaz dəhlizi"nin reallaşmasında da çox böyük addımlar atılıb. May ayında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuşdur və bu, tarixi hadisədir. İyun ayında isə TANAP -ın rəsmi açılışı oldu. Beləliklə, "Cənub qaz dəhlizi"nin dörd layihəsindən üçü artıq reallaşıb- "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri və TANAP layihəsi. Dördüncü layihə- TAP qrafik üzrə icra edilir"[2] .

Araşdırmalar göstərir ki,TANAP-ın ikinci fazası üzrə aparılan tikinti işlərinin 97%-i tamamilə başa çatmışdır . TANAP boru kəməri 2019-cu ilin birinci yarısında "Transadriatik" (TAP) qaz boru kəmərinə birləşmək üçün hazır vəziyyətdə olacaqdır.

Hal-hazırda "Cənub qaz dəhlizi"nin tamamilə başa çatıb reallaşmasında yeddi ölkə, yəni Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya dövlətləri iştirak edirlər. Bununla yanaşı onu qeyd etmək lazımdır ki, Bosniya, Hersoqovina, Xorvatiya və Monteneqranın da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənilir. Deməli bu qlobal xarakterli layihə öz-özlüyündə möhkəm beynəlxalq əməkdaşlıq təməli üzərində qərar tutmuşdur.

Ümumiyyətlə TANAP vasitəsilə kommersiya məqsədli qazın nəqli "Cənub qaz dəhlizi"nin reallaşmasında mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Belə ki, bu kəmər gələcəkdə Türkiyənin mühüm qitələrarası düyününə çevrilməsində müstəsna rol oynayacaqdır. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) bu layihədə böyük iştirak payına malik olduğuna görə TANAP ölkəmiz üçün də böyük önəm daşıyan layihələrdən biridir.

“Cənub qaz dəhlizi”nin çox böyük hissəsi TANAP-ın üzərinə düşdüyünə görə bu layihəni onun onurğa sütunu adlandırırlar. TANAP-ın ümumi uzunluğu 1850 kilometr olacaqdır.

Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarını əks etdirən iclasında “Cənub qaz dəhlizi” ilə nəql olunan mavi yanacağın artacağını vurğulayan Prezident İlham Əliyev iclasdakı giriş nitqində demişdir: ““Cənub qaz dəhlizi” layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq “Şahdəniz-2”dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni, biz tam hədəfə çatmaq üçün bütün işləri görürük”[3].

“Cənub qaz dəhlizi”nin sonuncu seqmenti olan Transadriatik Qaz Boru Kəməri (TAP) də strateji əhəmiyyətli layihələrdən biridir. Bu layihə Avropanın enerji təhlükəsizliyinə ciddi şəkildə dəstək verməklə karbohidrogen ehtiyatlarına olan tələbatın tamamilə ödənilməsini təmin edəcəkdir.

Məlum olduğu kimi transadriatik Qaz Boru Kəmərinin (TAP) təməli 2016-cı il may ayının 17-də Yunanıstanın Saloniki şəhərində qoyulmuşdur. Bu layihənin ümumi dəyəri 4,5 milyard avro təşkil edir. Bu boru kəmərinin uzunluğu təxminən 878 kilometr olan boru xəttindən ibarət olacaqdır. Bu kəmərin 550 kilometri Yunanıstanın , 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçərək sonuncu bir hissəsi İtaliya torpağında quru sahəyə çıxacaqdır. Hazırda TAP-ın tikinti işlərinin 78%-ə qədəri tamamlanmışdır. 2020-ci ildə bu kəmərlə Azərbaycan qazının Avropaya nəqli nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3500 kilometr uzunluğundakı “Cənub qaz dəhlizinin” tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, “Şahdəniz-2”-dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur və iyul ayının sonuna TAP-a 3,1 milyard avro sərf olunub.

TAP layihəsi Azərbaycan qazının İtaliya, Almaniya , Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün geniş imkanlar yaradır. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TAP-ın layihəsində:SOCAR (20%), BP(20%), Snam S.p.A (20%),Fluxys (19%), Enaqas(16%) və Axpo(5%) şirkətləri iştirak edirlər .

2019-cu ilin birinci yarısında TANAP Transadriatik Qaz Boru Kəmərinə (TAP) birləşdiriləcəkdir. TAP "Cənub qaz dəhlizi"nin sonuncu hissəsi olacaqdır.

Məlum olduğu kimi "Şahdəniz-2" layihəsi çərçivəsində il ərzində hasil olunacaq 16 milyard kubmetr qazın 6 milyard kubmetri Türkiyə, 10 milyard kubmetri isə Avropaya çatdırılacaqdır. Göründüyü kimi "Cənub qaz dəhlizi"nin əsas resurs mənbəyi olan "Şahdəniz-2" yatağının ehtiyatlarının həcmi 1 trilyon kubmetrdən çox qaz və 2 milyard barel kondensat təşkil edir. İndiyədək bu yataqdan 94 milyard kubmetrdən çox təbii qaz və 24 milyon ton kondensat hasil olunmuşdur.

Bütün bu qeyd olunanlar onu deməyə əsas verir ki, Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan qazından istifadənin aktuallığına xüsusi diqqət yetirilməlidir.

Ümumiyyətlə "Cənub qaz dəhlizi" layihəsi Avropa İttifaqının qaz təchizatında çox mühüm və əhəmiyyətli layihələrdən biri olacaqdır və bu layihənin reallaşması yaxın vaxtlarda başa çatacaqdır.

"Cənub qaz dəhlizi" layihəsi üzrə nəzərdə tutulan bütün işlərin vaxtında yerinə yetirilməsi Azərbaycana külli miqdarda gəlir gətirilməsinə şərait yaradacaqdır. Bu isə, öz növbəsində, ölkəmizdə iqtisadiyyatın inkişafı istiqamətində görülən işlərin lazımi səviyyədə aparılmasına müvafiq şərait yaratmaqla qeyri-neft sektorunun inkişafına və bunun da nəticəsində ölkə əhalisinin yaşayış səviyyəsinin daha da yüksəldilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan bütün tədbirlərin yüksək səviyyədə aparılmasına müsbət təsir göstərəcəkdir.

Əliyev Əsgər,Məmmədova Sevda

Enerji təhlükəsizliyinin təminatinda "Cənub qaz dəhlizi"nin rolu

XÜLASƏ

Bazar münasibətləri şəraitində Azərbaycanda iqtisadiyyatın inkişafı sahəsində çox böyük iqtisadi nəticələr əldə olunmuşdur. Bu iqtisadi göstəricilərin belə yüksək səviyyəyə yüksəldilməsi son dövrlərdə ölkəmizdə xarici neft şirkətləri ilə birlikdə neft hasilatının artırılması ilə bağlıdır. Bütün bunlarla yanaşı perspektivdə Azərbaycanda neft hasilatı ilə yanaşı qaz hasilatının da artırılması nəzərdə tutulur. Bu baxımdan yazılmış tezisdə Azərbaycanda qaz hasilatının daha da artırılması və bunun da nəticəsində Avropa ölkələrinin qazla təchisi məsələsinə xüsusi diqqət yetirilmişdir. Burada hər şeydən əvvəl "Cənub qaz dəhlizi" vasitəsi ilə TAP və

TANAP boru kəmərlərinin üstünlüklərindən və qazın həmin boru kəmərləri vasitəsilə Avropa ölkələrinə nəqlindən bəhs edilir.

Bazar münasibətləri şəraitində qaz layihələrinin işlənib həyata kecirilməsi ilə əlaqədar yeni təkliflərin meydana çıxması Azərbaycan qazının ixrac boru kəməri vasitəsilə Avropa ölkələrinə çatdırılmasında çox mühüm rol oynayacaqdır.

Aliyev Asker, Mammadova Sevda

The role of the "Southgas passageway" in ensuring energy security

SUMMARY

Azerbaijan achieved very high results under the condition of the market relations in the sphere of economic development. Such an achievement in economy is connected with the grows of oil level together with the foreign oil companies. At the same time it is planned to increase the production of gas as well as production of the oil in Azerbaijan. From this point of view this article focuses on the furthest increase of gas production in Azerbaijan and as the result of this provides gas European countries.Here first of all we are talking about the privilege of the transportation of gas through "South gas corridor" to the European countries through pipeline TAP and TANAP.

New proposals related to the development of the implementation of the market relations of gas projects will play important role in delivering of Azerbaijan gas to the European countries through expert pipeline. Political importance of "Southern gas corridor" is that the countries implementing the subject perspective increasing economical relationship.

ƏDƏBİYYAT

1. İlham Əliyev. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfransının materialları. "Azərbaycan" qəzeti.№ 25, 6 fevral 2014-cü il.
2. İlham Əliyev. Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası. "Azərbaycan" qəzeti №150, 10 iyul 2018-ci il.

3. İlham Əliyev. Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclas. “Azərbaycan” qəzeti № 227, 10 oktyabr 2018-ci il.
4. Bakıda “Əsrin müqaviləsi”nin 20 illiyinə və “Cənub qaz dəhlizi”nin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim.“Azərbaycan”qəzeti.№ 206, 21 sentyabr 2014-cü il.
5. Bakıda “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin görüşü. “Azərbaycan” qəzeti. 12 fevral 2015-ci il (mənbə 14 fevral 2015-ci 35).
6. Bakıda “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı. Azərbaycan” qəzeti. 29 fevral 2016-cı il.(mənbə “Xalq” qazeti№ 47 1 mart 2016-cı il
7. Bakıda “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı. “Azərbaycan” qazeti №15,16,17,18 fevral 2018-ci il.
8. Qüdrət Kərimov. “Əsrin müqaviləsi” ilə başlayan dinamik inkişaf yolu. “Azərbaycan” qəzeti № 205, 20 sentyabr 2014-cü il.
9. “Azərbaycan” qazeti. № 35-37, 210, 221-223, 228 sentyabr, oktyabr 2018-ci il.

Esmira Kazımova, Azərbaycan Universiteti ,baş müəllim,

email:k.esmira@gmail.com,mob.0554703023

MÜASİR MENECMENTİN PROBLEMLƏRİ VƏ QEYRİ- STABİL XARİCİ MÜHİT ŞƏRAİTİNDƏ ONUN HƏLLİ KİMİ SƏMƏRƏLİ RƏHBƏRİN ROLU

Bu məqalədə müasir menecmentin problemləri, xüsusilə də onun inkişafının innovasiya şərtlərində həyata keçirilməsi xüsusiyyətləri nəzərdən keçiriiir.Müəllif

tərərfindən müəssisələrdə səmərəli idarəetmənin əsas maneələri göstərilir, mümkün problemlərin təhlili keçirilir və müasir mərhələdə menecmentin daimi inkişafının mexanizmi təklif edilir.

Açar sözlər : menecment, müasir idarəetmə, menecmentin problemləri, müəssisənin innovasiya inkişafı,səmərəli rəhbər

Müasir mərhələdə menecment dünyası öz müxtəlifliyi ilə xarakterizə edilir və onun qarşısında duran məsələ və faktorların çoxluğuna tabedir. Menecerlərdən bir çox bacarıq və vərdişlər tələb edilir, belə ki, müasir dövr bu gün menecmentin innovasiya metodlarının tətbiqini tələb edir. Sözsüz ki, menecment müəssisənin fəaliyyətinin koordinatoru, səmərəliliyin əsaslandırıcı mexanizmi və fəaliyyətin nəticəsi kimi çıxış edir, lakin cəmiyyətin və iqtisadiyyatın innovativ inkişafı şəraitində menecmentdə bir çox problemlər mövcuddur ki,bununla öz professional fəaliyyətlərinin həyata keçirilməsində bütün menecerlər üzləşirlər.

Qərb dünyası ilə müqayisədə, həm qonşu Rusiyanın, həm də Azərbaycanın idarəetmə təcrübəsi müasir mərhələdə bazar şəraitində menecmentin çox böyük olmayan praktikasına malikdirlər.Bu təcrübə xarici praktikanın yerli mentalit və iqtisadi strukturun xüsusiyyətlərinə baxışda sintezi və interpretasiyasına əsaslanır. İqtisadi qanunlar insanların davranışından,hökmündən,qəbul etdikləri qərarların düzgünlüyündən asılı olduğu üçün, müasir menecmentdə problemlər, düzgün qərar qəbulu bu gün ucun ən vacib məsələdir.

Odur ki, xarici təcrübəni " korkoranə" kopyalamaq deyil,daha uğurlu və perspektiv vərdişlərin bu günki menecmentin xüsusiyyətlərini nəzərə almaqla seçimi vacibdir.

Müasir dövrdə menecerin mövqeyi elə nəzərdən keçirilir ki,əgər insan istənilən səviyyədə rəhbər vəzifədədirsə,ona uğurlu və məhsuldar fəaliyyətində heyətin idarəedilməsi üzrə nəzəriyyə və metodologiya sahəsində baza biliklər vacibdir. Təşkilatda idarəetmə açar mövqeye malikdir, belə ki, bu tədbirlər olmadan müəssisə fəaliyyəti gələcəyə malik deyildir.

Müasir menecer menecmentin nəinki fundamental əsaslarına yiyələnməli, həmçinin müasir iqtisadiyyatda idarəetməni səmərəli həyata keçirməyə qadir olmalıdır. Məsələn, fəaliyyətdə menecmentin yeni modelinin tətbiqi nəinki menecerlərin özlərini fəaliyyətində ,həmçinin bütövlükdə personalən fəaliyyətində yeni imkanlar açır.Odur ki müasir idarəetmənin inkişafı prosesində qarşıda duran əsas problemlərdən biri universal menecer, səmərəli mütəxəssis problemidir.

İnnovativ inkişaf şəraitində menecemnetin yeni modelinə keçid

Klassik model	**Yeni model**	
Aktivlərin idarəedilməsi	Qabiliyyətin idarəedilməsi	
Rəqəmlərə fokuslanma	Dəyərlərin yaradılmasına fokuslanma	
Müstəqil funksiya	Adaptasiya olunma	
Rəhbərlik və nəzarət etmə	Səlahiyyətlərin bölüşdürülməsi	
Səmərəlilik və təhlil	İntuisiya və sistemli təhlil	
Risklərdən qaçış,uğursuzluqlara görə tənbeh etmə	Riskin qəbulu, inqilabi ideyaların və kreativliyin mükafatlandırılması	

Sözsüz ki, menecmentdə bir çox həllini gözləyən problemlər mövcuddur, bir məqalədə onlarə əhatə etmək çətindir, lakin bir neçə problemi gözfən keçirə bilərik ki onlarla öz fəaliyyətlərində menecerlər hər gün rastlaşırlar:

1.bütün müəsisiəyə və ya sahəyə aid olan ümumi problemlər;

2.ayrıca müəsisəyə aid olan, lakin ona tanış olmayan ümumi problemlər;

3.müəssisənin ilk dəfə rastlaşdığı nadir problemlər;

4.az nadir problemlər, yəni ki qeyri -adi görünür, lakin əslində ümumi problemin ilkin əıamətlərini daşıyır.

Müasir dövrdə həmçinin ən vacib problem kimi müəssisənin personalının idarəedilməsi,ixtisaslı kadrların çatışmaması problemi çıxış edir,bu da müəssisə qarşısında duran vəzifələrin səmərəli həyata keçirilməsinə və problemlərin həllinə mane olur.

Heyətin səmərəli menecmentini bu gün rəhbərin səlahiyyətinin dəqiq qurulmuş mexanizminin, tez bir zamanda yaranmış problemlərin sürətli monitorinqi olmadan tətbiqi olmadan təsəvvür etmək mümkün deyildir,bu da vaxtında iş prosesində yaranmış mürəkkəblikləri və fikir ayrılığını aradan qaldırmağa kömek edir.

Müasir idarəetmənin yüksəldilməsi metodlarından biri kimi təşkilatda kreativ menecmentin tətbiqi və həyata keçirilməsidir. Belə ki, kreativ idarəetmə öz qarşısına müəssisənin səmərəli fəaliyyətinin artırılması üçün müəyyən məqsədlər qoyur:

- insanın müəyyən biliklərlə təmini, onun aktual, müasir, həmçinin doğru informasiya ilə təminatı;

- insanın yaradıcı düşüncəyə, kreativliyə motivasiyası;

- əməkdaşın öz intelektual fəaliyyətinin nəticələrinə hüququnun zəmanəti;

-iqtisadi sistem kimi müəssisənin hüquq və maraqlarının təminatı, əməkdaşların kreativ idarəetmənin həyata keçiriılməsi üçün vacib ehtiyatlarla təminatı;

Səmərəli rəhbər – müasir cəmiyyətin mühüm resursu kimi

Əgər insanlar, məsələn müsiqiçi və ya rəssam istedadı ilə olduğu kimi ,səmərəli iş üzrə qabiliyyətlə doğulsaydılar, bizə çox cətin olardı.Cünki məlumdur ki, insanların çox az bir qismi bu və ya digər iş üzrə yüksək istedadla doğulurlar. Onda səmərəli iş üzrə böyük potensiala malik insanları körpəlikdən izləmək lazım gələr və daimi onların istedadlarını inkişaf etdirmək istəyi ilə təlimləndirmək və çalışdırmaq lazım gələrdi. Lakin bununla biz yəqin ki müasir cəmiyyətin böyük həcmdə rəhbərlərə olan ehtiyacını təmin edə bilməzdik. Deməli, işin səmərəliliyini öyrənmək olarsa, onda belə bir sual yaranır ki, o hansı elementləri özündə birləşdiri? Nəyi öyrənmək lazımdır? Səmərəlilik – sistemli formada insanın mənimsədiyi bilikləmi olur? Və yaxud bu elə bir vədrişdir ki, öyrənmə prosesində inkişaf edir?

Bu suallar müasir dövrdə artıq neçə illərdir ki qaşıda durur.Əslində hesab edirlər ki, “ səmərəli şəxsiyyət” anlayışı sadəcə mövcud deyildir. Bütün səmərəli işləyən rəhbərlər öz tempetamenti və qabiliyyəti, fəaliyyyət sferası və işləri yerinə yetirmək qabiliyyıti ilə bir birlərindən fərqlənirlər: onların müxtəlif xarakterləri, bilik səviyyəsi, maraqları vardır.Ümumiyyətlə onlar, praktiki olaraq şəxsiyyəti müəyyən edən hər şeydə fərqlənirdilər. Lakin onların hamısını düzgün hərəkət etmək bacarığı birləşdirir.

Səmərəli calışan rəhbərlər- həkim, məktəb müəllimi və ya skripkaçı kimi müxtəlifdirlər.Onlar qeyri - səmərəlilər kimi də müxtəlifdirlər. Tipinə, şəxsi xarakteristikalarına,istedadlarına görə səmərəli rəhbəri qeyri- səmərəli rəhbərdən fərqüləndirmək olmur.

Səmərəli rəhbərləri birləşdirən isə onların hər şeydə müsbət nəticə əldə etmək bacarığıdır. Xarkrerik odur ki, səmərəli rəhbərlərin məsələləri həll etmə manerası onların iş yerindən və fəaliyyət xarakterindən asılı deyildir. Sənaye müsəssisəsində,hökümət idarəsində, xəstəxanada və ya universitetdə onlar oxşar metodları tətbiq edirlər.Müşahidə edilir ki, bu ümumi metodlara əməl etməyən insanlar, səmərəlilikdə uduzurlar, baxmayaraq ki nadir şəxsi keyfiyyətlər, düşüncə və istedada malikdirlər. Digər sözlərlə, işdə səmərəlilik – bu vərdişdir. Müəyyən praktiki metodikaların kompleksidir. Və bu metodikanı öyrənmək və mənimsəmək olar. Onlar sadədir: hətta 7yaşlı uşaq belə ondan nə tələb edildiyini yaxşı anlayır. Lakin bu qaydaları yerinə yetirmək kifayət qədər mürəkkəbdir.

Bir dəfə bir müsiqi müəllimi şagirdinin bacarıqsızlığına hislənərək ona deyir: ”Sən hec vaxt Mosartı Artur Şnabel kimi(XX əsrin avstriyalı pianoçusu və bəstəkarı) çala bilməyəcəksən, amma sənin onun kimi notları calmamağın üçün heç bir səbəb yoxdur”. Sözsüz ki, müsiqi müəlliməsi bir sözü əlavə etməyi unutmuşdur ki, hətta ən məhşur pianoçular Mosart əsərlərinin ifasında o nəaliyyətlərə hər gün notlar üzərində çalışmasaydılar nail olmazdılar.

Deməli, hər bir insan əgər zəka inkişafında kənarlaşmaya malik deyilsə, iistənilən fəaliyyət sahəsində bacarıqlı ola bilər. Mümkündür ki, o super mütəxəssis olmasın - bunun üçün xüsusi istedad lazımdır, - lakin səmərəli fəaliyyət üçün kifayət edir. ”**Notlarla çalışmaq** “ lazımdır.

Rəhbərin səmərəli işləməsi üçün mövcud olan 5 əsas metodika işlənməlidir :

1.Səmərəli rəhbərlər bilirlər ki, onların vaxtı xərclənir.Onlar öz vaxtlarının həqiqətən idarə edə biləcəkləri o az bir hissəsinin idarəedilməsi üzrə sistematik olaraq çalışırlar.

2.Səmərəli rəhbərlər onların təşkilatlarının çərçivəsindən kənara çıxan nəaliyyətlər üzrə diqqətlərini cəmləşdirirlər. Onlar nəinki işlərin yerinə yetirilməsinə, həm də son nəticəyə istiqamətlənirlər.Bu və ya digər işin yerinə yetirilməsinə başlamazdan öncə səmərəli rəhbər özünə sual verir: “Məndən hansə nəticələri gözləyirlər?”

3.Səmərəli rəhbər – özlərinin, öz rəislərinin, iş yoldaşlarının, tabeçiliyində olanların güclü tərəfləri inkişaf etdirirlər.Mürəkkəb situasiyalarda onlar bu güclü tərəflərə ümid edirlər.Onlar həll edə bilməyəcəkləri məsələlərdən başlamırlar.

4.Səmərəli rəhbərlər bir neçə iri sahələrə cəmləşirlər ki, orda əla iş uğurlara gətirib çıxaracaq. Onlar özlərini qəbul edilmiş qərarlardan geri çəkilməməyə məcbur edirlər. Bilirlərki, onların başqa seçimi yoxdur, ilk öncə onlar birinci dərəcəli əhəmiyyət kəsb edən işlərlə məşğul olmalıdırlar, ikinci dərəcəlilərlə isə heç vaxt. Başka cür heç bir şey əldə edilə bilməzlər.

5.Nəhayət, səmərəli rəhbərlər səmərəli qərarlar qəbul edirlər. Onlar bilirlər ki, düzgün qərarlar- bu düzgün ardıcıllıqla düzgün addımlar sırasının sistemindən başqa bir şey deyildir. Onlara məlumdur ki, tez qəbul edilən qərar – bu səhv qərardır.Qərar az, lakin fundamental olmalıdır. İxtiraçı üsullar deyil, düzgün strategiya vacibdir.

Bütün bunlar rəhbərin səmərəli işinin tərkib elementləridir.

Biz başa düşməliyik ki, universallar,”bacarıqlı əllər ustaları” yetişdirməməliyik. Mütəxəssisə dar sahədə işləmək imkanı verilməlidir, bunun üçün o dəqiq şəkildə başa düşməlidir ki, onun fəaliyyətinin yekunlarını kim istifadə edəcək və o nə etməlidir ki, özünün əməyini məhsuldar etsin. Əgər insan səmərəli rəhbər

olmaq istəyirsə, öz əməyinin praktiki tətbiqi haqqında düşünməlidir. Səmərəli rəhbər öz təşkilatının işçilərinə müraciət edərkən hər zaman fikrində onlardan soruşur: ”Siz məndən təçkilatın uğurunu yüksəltmək üçün hansı payı gözləyirsiniz? Necə, nə zaman və hansı fotrmada bu sizə lazımdır?”

Səmərəli rəhbər hər şey edəcək ki, təşkilatın güclü tərəflərindən hər yerdə və hər zaman faydalanmaq olsun. Nəaliyyətlər qazanmaq üçün bütün mümkün güclü tərərflərdən istifadə etmək lazımdır. Tərəf müqabilləri, rəhbərləri və şəxsi. Bu güclü tərəflər elə real uğurlu imkanlardır ki, onun sərəncamındadır. Güclü tərəfləri maksimum məhsuldar etmək – bu istənilən təçkilatın əsl məqsədidir. Sözsüz ki, hər kəsdə və hamıda olan bütün zəif cəhətləri dəf etmək mümkün deyildir. Lakin bizim gücümüz yetər ki, onları gözə çarpmayan edək. Bizim məqsədimiz- hər bir işçinin səmərəli təşkilat tikintisi zamanı ” tikinti bloku” qismində güclü tərərflərinin istifadə edilməsidir.

İdarəetmədə yaranan bütün problemləri mütləq həll etmək lazımdır. Nadir olmayan problemlərdən başqa, ümumi qərarlar qəbul etmək lazımdır,məsələn, menecmentin ümumi qayda və metodlarınn tətbiqi. Problemlərin düzgün formalaşması və problemlərin həlli mexanizminin mövcudluğu şəraitində konkret problemə standart üsullarla qalib gəlmək olar.

Burdan belə nəticəyə gəlmək olar ki, menesment daxili sosial-psixoloji proqramın formasıdır,odur ki, ölkənin mentalitetinin, əsasən də regional səviyyədə, müəssisələrin səmərəli fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə bütün aspektlərini, uğurli idarəetmə siyasətini təhlil etmək vacibdir.

Ədəbiyyat :

1.Мычко С.Ю.Шаталов М.А «АУТСТАФФИНГ В СИСТЕМЕ ОПТИМИЗАЦИИ БИЗНЕС-ПРОЦЕССОВ ОРГАНИЗАЦИИ» ТЕРРИТОРИЯ НАУКИ. 2015. № 2. С. 121-124.

2. Мычко С.Ю.Шаталов М.А «ПРОБЛЕМЫ СОВРЕМЕННОГО МЕНЕДЖМЕНТА В УСЛОВИЯХ ИННОВАЦИОННОГО РАЗВИТИЯ РЕГИОНА» НАУКА. 2014. № 4-3. С. 481.

3. Шаталов М.А Смольянинова И.В. «ОБОСНОВАНИЕ СТРАТЕГИИ ДИВЕРСИФИКАЦИИ ПРЕДПРИНИМАТЕЛЬСКИХ СТРУКТУР В УСЛОВИЯХ НЕСТАБИЛЬНОСТИ ВНЕШНЕЙ СРЕДЫ» ГОСУДАРСТВЕННЫЙ СОВЕТНИК. 2015. № 3. С. 9-13.

4. Питер Дукер Эффективный руководитель изд.Манн, Иванов и

Фербер Москва 2012

THE ROLE OF AN EFFECTIVE LEADER AS A SOLUTION TO MODERN MANAGEMENT PROBLEMS and UNCERTAINTY in EXTERNAL ENVIRONMENT

Esmira Kazimova

Senior teacher, Azerbaijan University

This article deals with the problems of modern management, especially its implementation in terms of innovative development. The authors identified the main barriers to effective management of the enterprise, the analysis of existing problems and the mechanism of sustainability management at the present stage.

Keywords: management, modern management, problem management, innovative development of the enterprise.

FƏRDİ SAHİBKARLIQ FƏALİYYƏTİNİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN TƏHLİLİ

Fərid Xanbaba oğlu Xankişiyev

Lənkəran Dövlət Universiteti

ferid_khan@mail.ru

Fərdi sahibkarlığın maliyyə təminatının aşağıda göstərilən bir sıra spesifik prinsipləri vardır ki, onlara əməl etmədən maliyyələşmə işini düzgün qurmaq mümkün deyil:

1. sahibkarlığın sərbəstliyi prinsipi o deməkdir ki, hər bir müəssisənin sahibi (mülkiyyətçisi) istehsalın və xidmətlərin inkişaf istiqamətlərini müstəqil olaraq özü müəyyənləşdirir, istehsal etdiyi məhsuldan istədiyi kimi istifadə edə bilir, pul vəsaitlərini sərbəst surətdə bölüşdürür. Bu halda mülkiyyətçinin rəyi həlledici rol oynayır. Sərbəstlik prinsipi müxtəlif ölkələrdə müxtlif cür yerinə yetirilir.

2. Planlılıq və məqsədyönlülük prinsipi müəssisələrin əvvəlcədən müəyyən edilmiş istiqamtlər üzrə inkişafını və istehsalın planlı dinamikasına nəzarət olunmasını əks etdirir. Lakin bu planlılıq inzibatçılıq-amirlik sistemindəki planlılıqdan xeyli fərqlidir.Yeni yaradılmış müəssisələr müstəqil olaraq mütləq qaydada onların bütün fəaliyyət sahələrini əhatə edən uzunmüddətli texniki-iqtisadi əsaslandırma planı tərtib edir.Burada müəssisənin yaradılmasına çəkiləcək xərclərin həcmi, buraxılacaq məhsulların çesidləri və qiymətləri, istehsalın xarakteri, satış

bazarları, istehsalçının gəlirlərinin və mənfəətinin təxmini həcmi və digər göstəricilər dəqiq müəyyənləşdirilir.

Ən sadə kommersiya əməliyyatı həyata keçirilərkən də belə fərdi sahibkarlıq subyektləri planlara ehtiyac duyur.Müəssisələrdə onların gəlirlərini, xərclərini, vergiləri, bank ödəmələrini, müəssisə sahibinin və yaxud mülkiyyətçinin mənfəətini əks etdirən aylıq, rüblük, illik və s. maliyyə planları da olur, yeni bütün sahibkarlıq maliyyəsi planlılıq prinsipi əsasında qurulur.

3. Sərbəst sahibkarlığın dövlət qarşısında müəyyən öhdəlikləri götürməsi ilə çulğalaşması prinsipi. Bazar iqtisadiyyatı şəraitində belə öhdlikləri çox deyil və əsasən, vergilərin ödənilməsindən ibarət olur.Müssisə tam müstəqil qaydada fəaliyyət göstrsə də, dövlətin bütün müssisələr üçün eyni səviyyədə müyyənləşdirdiyi öhdəliklərin hamısını yerinə yetirməlidir.

4. Çeviklik prinsipi. Müssisələrin və təsərrüfat subyektlərinin fəaliyyəti planlaşdırılarkən onların uzunmüddətli strategiyası müyyənləşdirilir.Bununla belə, bazar iqtisadiyyatının öz xüsusiyyətləri var. Hər an gözlənilməz hadisələr baş verə bilr. Buna gör də müəssisələr belə hallardakı manevr imkanlarını əvvlcədən götür-qoy etməlidirlər.

5. Mənfəətin maksimallaşdırılması prinsipi. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın başlıca vəzifəsi mənfəət əldə etməkdir.Mənfəət sahibkarlığın və biznesmenliyin ana xəttidir. Bir çox hallarda mənfəət, hətta, milli maraqları da üstələyir. Mənfəət müxtəlif yollarla, məsələn, istehsalı və satışı genişləndirməklə, məsrəfləri azaltmaqla, yeni texnika və texnologiyalar tətbiq etməklə artırılır müvafiq olaraq maksimallıq təmin edilir. Bu prinsipdən istifadə həm bütün dünyada, həm də ayrı-ayrı ölkələrdə iqtisadiyyatın xeyli inkişaf etməsinə yardımçı olur. Bazar iqtisadiyyatına əsaslanan sistem şəraitində bu prinsiplərin sahibkarlığın təşkili üçün çox vacib olan təkamül prosesi bas verir. Sahibkarlıq maliyyəsi bu prinsiplər əsasında təşkil edilərkən hər bir ölkənin daxili xüsusiyyətləri nəzərə alınır və ya bu prinsiplər daxili xüsusiyyətlər uyğunlaşdırılaraq həyata keçirilir.

Fərdi sahibkarlıq fəaliyyəti subyektlərinin fasiləsiz olaraq yeni texnika və texnologiya ilə silahlandırılması, o cümlədən istehsalın genişləndirilməsi borc kapitalınının cəlb edilməsinin yeni formalarının yaranmasına səbəb olmuşdur ki, onlardan biri kimi də lizinqi qeyd edə bilərik. Lizinq-istehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya müəyyən müddət icarəyə vermək məqsədi ilə

həyata keçirilən xidmət növüdür.Dünyanın bir çox ölkələrində lizinq iqtisadiyyata investisiya qoyuluşu üsullarından birinə çevrilmisdir.Belə ki, dünyanın inkişaf etmiş ölkələrində iqtisadiyyata investisiya qoyuluşunun 25-30 faizi lizinq vasitəsilə həyata keçirilir, yeni növ məhsulların faiz qədəri lizinq yolu ilə alınmış avadanlıqlarda istehsal olunur.

Lizinq maliyyələşməsi üsulu fərdi sahibkarlıq fəaliyyətini inkişaf etdirmək üçün çox faydalıdır.Çünki kommersiya bankları və kredit təşkilatları fərdi sahibkarlıq subyektlərinin xüsusi kapitalının olmaması ilə əlaqədar olaraq onlara kredit verməkdən çox vaxt imtina edir və ya şərt şərtlər qoyurlar.Belə ki, kreditə görə faiz dərəcəsi yüksək olur, kredit qısa müddətə və az məbləğə verilir.Alınan kredit müəssisənin fəaliyyətini genişləndirmək və yüksək keyfiyyətli əmtəə (iş və xidmətlər) istehsalı üçün kifayət etmir. Lizinq maliyyələşməsi əmlakın girov qoyulması ilə bağlı bank riskindən azaddır. Lizinq maliyyələşməsinin üstün cəhətlərindən biri də ondan ibarətdir ki, lizinq haqqı lizinq yolu ilə alınmış avadanlıqda istehsal olunan məhsulun satışından əldə edilən gəlirdən hissə-hissə ödənilir. Lizinq xidmətindən istifadə kiçik müəssisələrə imkan verir ki, hətta nizamnamə kapitalı az olduqda belə,istehsal-təsərrüfat fəaliyyətini genişləndirsin, xüsusi investisiya cəlb etsin,sahibkarlığını aktivləşdirmək hesabına dövlət büdcəsinə daha çox vergi ödəsin.

Fərdi sahibkarlığın digər bir maliyyələşmə metodu qarşılıqlı kreditləşmə mexanizminin tətbiqidir. Qarşılıqlı kreditləşmə dedikdə, kredit ittifaqında toplanan pul vəsaiti hesabına üzvlərin təsərrüfat və sosial ehtiyaclarının ödənilməsi üçün verilən qısa və uzunmüddətli kreditlər başa düşülür.Kredit ittifaqları mənafe ümumiliyiəsasında könüllü birləşən fiziki şəxslərin və ya fərdi sahibkarlıq subyekti olan şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatıdır.

Fərdi sahibkarlığın maliyyə təminatının başqa bir metodu sahibkarlıq subyektlərinin fərdi sahibkarlığa yardım fondları tərəfindən maliyyə yardımının edilməsidir.Bu fondlar qeyri-kommersiya təşkilatları olub fərdi sahibkarlara dəstək ola biləcək və onun inkişafını təmin edə biləcək proyekt, proqram və tədbirləri maliyyələşdirmək məqsədi ilə yaradılır.Fərdi sahibkarlığa yardım fondaları hüquqi şəxslərdir.Bu fondların əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

- Dövlətin dəstəyi ilə bazar rəqabəti şəraitində fərdi sahibkarlığın inkişafına yönəldilən məqsədli proqram və layihələri reallaşdırmaq üçün vəsaitlər cəlb edir və onların effektiv istifadəsini təmin edir;

- Dövlət, regional, sahələrarası və munisipial biznes inkişaf və dəstək proqramlarının reallaşdırılmasında, iqtisadiyyatın monopoliyalaşmasının qarşısının alınmasında,bazar rəqabətinin yaranması və güclənməsində, məhsul bazarının təmin edilməsində, ekspertiza və konkursların işlənməsində və həyata keçirilməsində iştirak edir;

- Fərdi sahibkarlığa xidmət edən və onun inkişafını təmin edən bazar infrastrukturunun yaradılmasında iştirak edir;

- Sahibkarlıq strukturlarının innovasiyon fəaliyyətinin dəstəklənməsini, prinsipcə yeni növ və çesiddə məhsul istehsalını, yeni texnika və texnologiyaların tətbiqinin stimullaşdırılmasını təmin edir;

- Yaranmış rəqabət mühitində prioritet istiqamətdə fəaliyyət göstərmək və sahibkarlıq fəaliyyətini inkişaf etdirmək məqsədilə milli və xarici investisiyaların cəlb edilməsini təmin edir;

- Qanunvericilik aktlarının tətbiqi və vergilərlə bağlı olan sualların cavablandırılması məqsədilə konsultasiyalar təşkil edir.

2018-ci ilin aprel ayının 20-də Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında "Üçüncü şəxslər üçün mal idxal edən şəxslərin fəaliyyətinə nəzarət edilməsi haqqında" Razılaşma Protokolu imzalanıb.Bu Protokola əsasən üçüncü şəxslər üçün mal idxal edən şəxslərin idxal əməliyyatlarına nəzarət edilməsinin vergi öhdəliklərinin düzgün müəyyən edilməsi məqsədilə idxal olunmuş malların faktiki sahibləri barədə məlumatların əldə edilməsinin, o cümlədən vergitutma obyektərinin uçotunun şəffaflaşdırılması və vergi ödəyicilərinin gəlir və xərclərinin uçotunun təmin eidlməsinin vacibliyi bəyan edilib (6).

Respublikamızın sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdəözəl sektorun inkişaf etdirilməsi və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi davamlı iqtisadi inkişafın təmin edilməsində çox böyük əhəmiyyətə malikdir. Bu məqsədlə dövlətin maliyyə dəstəyini həyata keçirən Azərbaycan Respublikası İqtisadi İnkisaf Nazirliyinin nəzdində vaxtı ilə fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən güzəştli kreditlər

Azərbaycan Respublikası Prezidentinin fərmanı vəsərəncamlarında, məqsədli dövlət proqramlarında müəyyən edilmiş,ölkənin sosial iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq regionların tarazlı inkişafı, sahibkarlığın, o cümlədən fərdi sahibkarlığın dəstəklənməsi,yoxsulluğun azaldılması, məşğulluğun təmin edilməsi ilə bilavasitəəlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafın təmin edilməsinəyönəldilir. Sahibkarlığa Kömək Milli Fondu dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində yaxından iştirak etməklə, sahibkarlara güzəştli kreditlərlə maliyyədəstəyinin verilməsi,investisiya layihələrinin maliyyələşdirilməsi sahəsindəkonkret sahələrin təşviqi, regionlarda və Bakı qəsəbələrində sahibkarlığın inkişafına həsr olunmuş tədbirlərin keçirilməsi,sahibkarlara maarifləndirici treninqlərin təşkil edilməsi, sahibkarlığın informasiya təminatının gücləndirilməsi, müasir texnologiyaların tətbiqini, rəqabət qabiliyyətli, xüsusilə ixrac yönümlü vəidxaləvəzləyici məhsulların istehsalını və emalını nəzərdə tutan, eləcə də bu sahələrin inkişafını stimullaşdıran infrastruktur layihələrinin maliyyələşdirilməsi istiqamətində 2014-ci il ərzində uğurlu fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti 01 avqust 2018-ci il tarixdə "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədi ilə" Fərman imzalamışdır.Həmin Fərmanda qeyd edilir ki,

1. Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu ləğv edilsin.

2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs təsis edilsin.

3. "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

4. "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur) (5).

Yuxarıda qeyd edilənlərlə yanaşı mənim fikrimcə, ölkədə sahibkarlığın inkişafının maliyyə təminatında olan problemləri aradan qaldırmaq üçün maliyyələşdirmədə tətbiq olunan metodlar və üsullar daha da

təkmilləşdirilməlidir.Bu baxımdan da ölkəmizin dünyanın inkisaf etmiş ölkələrinin bu sahədəki təcrübəsindən, həmin ölkələrin sahibkarlığın maliyyələşdiril-məsində tətbiq etdikləri metodlardan istifadə etməsi zəruridir.

Açar sözlər: fərdi sahibkarlıq, maliyyə, prinsplər,vergi, kredit, beynəlxalq təcrübə.

Key words: individual entrepreneurship, finance, principles, tax, credit, international experience.

Ключевые слова: индивидуальное предпринимательство, финансы, принципы, налог, кредит, международный опыт,

XÜLASƏ

Bu məqalədə sahibkarlıq fəaliyyətinin inkişafı və bunun üçün onun inkişafındaən mühüm problemlərdən biri olan sahibkarlığın maliyyələşdirilməsi probleminin həlli hər bir ölkə üçün, o cümlədən Azərbaycan üçün önəmli əhəmiyyət kəsb etməsi qeyd edilmişdir. Sahibkarlığın inkişafında özəl sektor olduğu qədər də dövlət də maraqlı olmalıdır.Ən azından işsizliyin aradan qaldırılması baxımından dövlət sahibkarlıq, xüsusiləfərdi sahibkarlıq fəaliyyətinin inkişafı üçün normal iqtisadi mühitin yaradılmasına borcludur.Bunun üçün mühüm tədbirlər görülmüşdür.Lakin fərdi sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi mexanizminin lazım olan səviyyəyə çatması üçün beynəlxalq təcrübədən yaranlanmaqla daha da əlverişli metodların tətbiqi üzərində çalışmaq lazımdır.

SUMMARY

This article highlighted the importance of solving the problem of entrepreneurship financing, which is one of the most important problems in the development of entrepreneurial activity and its development, for each country, including Azerbaijan. The state should be interested in the development of entrepreneurship as well as the private sector.At least in terms of eliminating unemployment, state-owned enterprises are obliged to establish a normal economic environment for the development of individual entrepreneurship activities. Significant steps have been taken for this. However, it is necessary to work on the application of more favorable methods of international experience to achieve the required level of funding for the individual entrepreneurship activity.

РЕЗЮМЕ

В этой статье подчеркивается важность решения проблемы финансирования предпринимательства, которая является одной из важнейших проблем развития предпринимательской деятельности и ее развития для каждой страны, включая Азербайджан. Государство должно быть заинтересовано в развитии предпринимательства, а также частного сектора. По крайней мере, с точки зрения ликвидации безработицы государственные предприятия обязаны создавать нормальные экономические условия для развития индивидуальной предпринимательской деятельности. Для этого были сделаны важные шаги. Тем не менее, необходимо работать над применением более благоприятных методов международного опыта для достижения необходимого уровня финансирования индивидуальной предпринимательской деятельности.

ƏDƏBİYYAT SİYAHISI

1.A.B. Abbasov “Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri” Bakı -1998.

2.Q.N. Manafov “Sahibkarlığın nəzəri vəpraktiki məsələləri” Bakı -1997.

3.V.B. Musayev, İ.Z.Seyfullayev “Sahibkarlığın əsasları” Bakı – 2002.

4.V. Niftullayev “Sahibkarlıgın _sasları” – 2007.

İNTERNET SAYTLARI

5.https://president.az/articles/29606

6.https://sputnik.az/economy/20180420/414980764/vergiler-nazirliyi-ve-dovlet-gomruk-komitesi-arasinda-razilasma-protokolu-imzalanib.html

Xidmət sektorunda idarəetmənin problemləri

Fuad Fikrət oğlu Məmmədov

Azərbaycan Turizm və Menecment Universiteti; İqtisadiyyat kafedrası

Elektron poçt: fuad_mamedov_90@mail.ru

Xidmət-insanın hər hansı tələbatını ödəyən əmək fəaliyyətinin nəticəsi kimi xarakterizə edilir. O,alıcılarla müəssisənin xidmət edici heyəti arasında qarşılıqlı

əlaqələr nəticəsində baş verən proses kimi səciyyələndirirlir.Xidmətin növləri aşağıdakı kimi təsnifləşdirilir :

1) Nəqliyyat xidmətləri (hava,quru və.s)
2) Rabitə-poçt xidmətləri (karqo,poçt)
3) Maliyyə xidmətləri (banklar,bank olmayan kredit təşkilatları vəs.)
4) Təhsil xidmətləri (məktəblər,bağçalar,kolleclər,universitetlər)
5) Səhiyyə xidmətləri (xəstəxanalar ,tibbi laboratoriyalar)
6) Turizm və ictimai iaşə xidmətləri (otellər,restoranlar və.s)
7) Media xidmətləri (TV,radio)
8) Təmir xidmətləri və servis
9) Əmlak xidmətləri

Müasir dövrdə bu xidmət sahələrinin iqtisadiyyatda rolunun artması elmi-texniki tərəqqinin təsiri altında yeni fəaliyyət növlərinin meydana gəlməsi ,istehsalın mürəkkəbləşməsi ilə izah oluna bilər.

Xidmət sektoru-qeyri-istehsal sferası müəssisələrinin fəaliyyətinin nəticəsi olan xidmətlərin mübadilə sahəsidir.Hal-hazırki dövrdə xidmət sektoru iqtisadiyyatın inkişafı prosesində getdikcə vacib rol oynamaqdadır. XX əsrin 80-ci illərindən başlayaraq həm inkişaf etmiş,həm də inkişaf etməkdə olan ölkələrdə xidmət sektoru digər iki sektoru- sənaye və kənd təsərrüfatını geridə qoymağa başlamışdır.Məhz son illərdə qəbul edilən metodikaya görə bir ölkənin iqtisadi inkişaf səviyyəsini əks etdirən göstəricilərdən biri də xidmət sektorunda çalışan əhalinin miqdarı ilə xidmət sektorunun milli gəlirdəki payıdır. Təkcə bizim respublikamızda bu gün aparıcı xidmət sahəsi olan turizm sahəsində çalışanların sayı 40 min nəfərdən çoxdur.

Lakin, bütün bunlara baxmayaraq xidmət sektorunda müəyyən çətinliklər də mövcuddur. Belə ki ,xidmətin özünün abstrakt xarakter daşıması bu sektorda fəaliyyət göstərən müəssisələrin mahiyyətinin aydınlaşdırılması və dəyərləndirilməsində bir sıra çətinliklər yaratmışdır.Xidmət müəssisəsi bir qayda olaraq xidmət üzrə marketinq fəaliyyətinin həyata keçirildiyi yerdir. Burada marketinq dedikdə ilk növbədə xidmətin bazarlandığı yəni alqı-satqısının həyata keçirildiyi yer başa düşülür.Bu cür xidmət müəssisələri saf xidmət müəssisələri adlandırılır.Onlara banklar,hava limanları,hüquq büroları aid edilir.[1]

İdarəetmə dedikdə müəyyən tapşırıq və məqsədlərin həyata keçirilməsi üçün,bununla əlaqədar olaraq qərarların işlənib hazırlanması üçün dövlət

[1] L.Hacıyeva Xidmət sahələrinin marketinqi

orqanlarının və qeyri dövlət strukturlarının cəmiyyət üzvlərinə məqsədyönlü təsiretmə tədbirləri başa düşülür.Xidmət sektorunda idarəetməyə birinci növbədə sosial sferanın və onun ayrı-ayrı sahələri olan təhsil,səhiyyə,mədəniyyət xidmətlərinin idarə edilməsi aid edilir.Sosial sferanın və onun ayrı sahələrinin idarə edilməsində əsas məqsədə vətəndaşlarda şəxsiyyətin,insan yaradıcılıq qabiliyyətinin harmonik inkişafına və eləcədə digər ehtiyaclara olan tələbatının ödənilməsidir.

Sosial sfera sahələrinin idarə edilməsində səlahiyyətlər mərkəzi,regional və yerli bələdiyyə hakimiyyət orqanları arasında bölüşdürülür.Bunun üçün tələbatlar sistemləri müəyyənləşdirilir.

Təhsil sisteminin idarə olunmasında planlaşdırmanın mühüm əhəmiyyəti vardır.Təhsil sistemi üzrə planlaşdırma həyata keçirilərkən əhalinin ali təhsilə olan tələbatının artımı,eləcə də təhsilin maliyyələşdirilməsində əlavə maliyyələşmə mənbələrinin cəlb olunması mexanizimlərindən istifadə olunur.Bununla yanaşı təhsilin idarə olunması bir sıra vacib problemlərin həllini də nəzərdə tutur.Bu problemlərə təhsilin kütləviliyi sahəsində gerilik,kadr hazırlığının əmək bazarı tələbatını ödəməməsi,elmi tədqiqatların təhsilə inteqrasiyasında zəiflik ,həmçinin innovasiya potensialının zəruri inkişaf istiqamətlərinə səfərbər olunmaması aiddir.[2]

Səhiyyə sisteminin idarə olunmasında əsas məqsəd əhalinin sağlamlığa olan tələbatını ödəməkdir.Tibbi fəaliyyəti sosial-iqtisadi tələbatı ödəməyə yönəlir.Əhalinin xəstəxana xidmətləriylə təmin olunmasının təşkili,ali və orta ixtisas təhsilli tibb mütəxəssislərinə olan tələbinin müəyyənləşdirilməsi səhiyyə xidmətinin idarə olunmasının vacib məsələləridir.Həmçinin həkimlərin və tibb işçilərinin peşə - ixtisas səviyyəsinin daim artırılması,sertifikasiya sisteminin tətbiqi də bu sahədə mühüm görülmüş tədbirlərdir.Bütün bunlarla yanaşı bu sahənin idarə olunmasında bir sıra problemlər mövcuddur.Bu problemlərə müəyyən kateqoriya xəstələrə göstərilən tibbi xidmət səviyyəsinin yaxşılaşdırılması,ölüm hallarının sayının azladılması,eləcə də tibbi təhsil və kadr hazırlığının yaxşılaşdırılması istiqamətində tədbirlərdir.Respublikamızın səhiyyə sistemində bu səpkili problemlərin həlli

[2] Ə.Əlirzayev Sosial sferanın iqtisadiyyatı və idarəedilməsi

istiqmətində hökumətin dəstəyi ilə aidiyyatı qurumlar tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir.Prezident İlham Əliyev cənablarının göstərişi ilə 400- dən artıq tibbi müəssisəsi yeni tikilmiş və ya əsaslı təmirdən çıxmış,müasir avadanlıqlarla təmin olunmuşdur.Prezidentin Ehtiyat fondundan ayrılmış vəsait hesabına Bakı şəhər təcili və təxirə salınmaz tibbi yardım xidmətinin avtoparkı ən müasir avtomobillərlə təchiz olunmuşdur.

Mədəniyyət və incəsənət sahəsinin idarə edilməsində məqsəd cəmiyyətin yaradıcı potensialının inkişafının təmin edilməsinə,mədəniyyət və incəsənət müəssisələrinin xidmətlərindən əhalinin bütün təbəqələrinin istifadə etməsinə şərait yaratmaqdır.Bu sahənin idarə edilməsində mövcud problemlərə əhalinin hər min nəfərinə düşən kitab və jurnalların sayının azaldılması,ETT –nin tətbiq imkanlarının mədəniyyət sferasına tətbiq imkanlarının cüzi olmasıdır.Teatrların ziyanla işləməsi və onlar arasında rəqabət mühitinin zəifliyi də mədəniyyət və incəsənət sahəsinin idarə olunmasındakı mövcud problemlərə aid etmək olar.

Turizm sektorunun idarə edilməsi turistlərin motivasiyası üzərində qurulur. Bu baxımdan hər hansı turizm obyektində turistlərin rəyi,seçimi öyrənilir,onların özlərinin xarakteristikası ,hansı ölkədən gəldikləri,sosial statusu nəzərə alınır.Bütövlükdə turist idarəçiliyi turist agentliyi,turist operatorluğu və turizmin əsas sferalarında fəaliyyət gösətərən əhalinin sayını müəyyənləşdirməyə imkan verir.Turizm sahəsinin idarə edilməsi problemləri əsasən bir qayda olaraq ölkələrdəki iqtisadi şəraitə əsasən müəyyənləşdirilir. Belə ki, investisya mühiti,qida təhlükəsizliyi ,bütövlükdə təhlükəsizlik və sahibkarlıq mühiti ,qanunvericilik bazası ,turizmin region üzrə yerləşməsi , təbii coğrafi şəraitin üstünlüyü və ondan istifadənin zəruriliyi turizmin idarə edilməsinin makroiqtisadi problemlərinə aid edilir.

Mikro səviyyədə isə onun problemləri planlaşdırma,ələxsus marka planlaşdırılması ilə bağlıdır.Respublikamızda son illər turizmin inkişafı istiqamətində xeyli tədbirlər həyata keçirilmiş,2016-cı ildə yerli və xarici mütəxəssislər tərəfindən hazırlanmış”Milli iqtisadiyyatın və onun ayrı –ayrı sahələrinin inkişafına dair Strateji yol xəritəsi”-ndə turizm sektoru əsas prioritet sahələrdən biri elan edilmişdir.

Nəqliyyat sektorunda fəaliyyətin məqsədi əhalinin nəqliyyat xidmətlərinə olan tələbatını və yükdaşımaya olan tələbatını ödəməkdir. Bu sektorunun idarə olunması əhalinin və müxtəlif təyinatlı yüklərin daşınmasında nəqliyyat xərclərinin aşağı salınması,vaxt məsrəfinin minimallaşdırlması kimi problemlərin həllini nəzərdə tutur. İdarəetmə aparatının optimallaşdırlması , biznes strategiyasının müəyyənləşdirilməsi, təsərrüfat fəaliyyətinin təhlili ,ayrı-ayrı bölmələr arasında əlaqələndirmə nəqliyyat sektorunda həll olunmalı vacib problemlərdəndir.Rabitə sektorunun idarə olunmasında məqsəd mühüm informasiya axının ötürülməsini təmin etmək və cəmiyyətin informasiyaya olan ehtiyaclarını ödəməkdən ibarətdir.

Daşınmaz əmlak və mənzil-kommunal xidmətlərin idarə olunması əhalinin mənzilə olan tələbatını və mənzil şəraitinin yaxşılaşdırılması məqsədlərinin icrasını nəzərdə tutur.Bu xidmət sahəsinin əsas meyarı əhalinin mənzilə olan ehtiyacıdır..Mənzil-kommunal xidmətin planlaşdırılmasında aparıcı amil əhalinin sayı qəbul olunur.Bu xidmət sahəsinin idarə edilməsində əsas problemlərə daşınmaz əmlak və mənzil bazarında inhisarçılığın olması,ipoteka kreditlərinin şərtlərinin ağırlığı və.s dir.

Xidmət sahələrinin idarə olunması həm dövlət ,həm də qeyri dövlət strukturları tərəfindən həyata keçirilir.Xidmət sahələrinin dövlət tərəfindən idarə olunması və tənzimlənməsində məqsəd dövlət büdcəsi gəlir və xidmətlərinin formalaşmasında onun xüsusi çəkisini artırmaqdır.Xidmət sektorunun qeyri dövlət müəssisələri və ya ayrı özəl müəssisələr,tərəfindən idarə olunmasında isə başlıca məqsəd yüksək mənfəət əldə etməkdən ziyadə keyfiyyətli idarəetməyə nail olmaqdır.Keyfiyyətin idarə olunması problemi ayrı ayrı fərdi və özəl xidmət müəssisələrinin həll etməli olduğu vacib məsələlərdəndir.Xidmətin əlçatan olub-olmaması,onun məhsuldarlığı,hər hansı problemlə qarşılaşan zaman problemin həll edilməsində göstərilən xidmət səviyyəsi keyfiyyətin idarə olunmasının vacib məsələlərdəndir.Göstərilən xidmətin keyfiyyətinin ən vacib kirteriyalarından biri müştəri məmnuniyyətinin olub olmamasıdır. [3]

Bütövlükdə ayrı-ayrı xidmət müəssisələrində idarəetmənin ən vacib problemlərinə aşağıdakılar aid edilir :

1) Istehsalın idarə olunmasında çevikliyin olmaması;
2) İş vaxtının ayrı ayrı xidmət müəssisələrində həddən artıq çoxluğu;
3) Keyfiyyət və xidmətlərin miqdarını ölçmə imkanlarının məhdudluğu;
4) Maliyyə hesablamalarının aparılmasının çətinliyi ;

[3] S.Ayşe Öztürk Hizmet işletmelerinde kalite boyutları ve kalitenin artırılması

5) Hədəf bazarların müəyyən edilməsinin çətinliyi[4]

Ədəbiyyat siyahısı

1. Ə Əlirzayev " Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. İqtisad universiteti nəşriyyatı" .Bakı 2010

2. LHacıyeva " Xidmət sahələrinin marketinqi". Bakı Biznes Universiteti nəşriyyatı. .Bakı 2013

3. S.Ayşe Öztürk "Hizmet işletmlerinde kalite boyutlartı ve kalitenin artırılması" .Verimlilik dergisi Nisan 1996

4. Ö Baybars " Pazarlama :İlkeler,uygulamalar" .Mopak yayınları .İzmir 1995

Xülasə Müasir bazar mühiti şəraitində xidmət sektoru və onun ayrı sahələrinin idarə olunması problemlərinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. İqtisadiyyatın strukturunda dəyişikliklər, texnologiyanın sürətli inkişafı, insanların təfəkkürünün dəyişməsi və müştəri məmnuniyyətinin vacibliyi xidmət sektorunun idarə edilməsi sahəsində də müəyyən problemlər yaratmışdır. Məruzənin əsas məqsədi xidmət sektorunun idarə edilməsinin mövcud problemlərin aşkar edilməsi,onun dövlət və müəssisələr səviyyəsində təhlilidir.

Summary İt mentions the special importance of the research problems of service sector and its fields problems in modern market environment.The changes in the structure of economy,rapid growth of technology,changes of people's thought and the importance of customer satisification have caused some problems in the field of service sector management.

The main purposes of the speech are to find out current problems of service sector management,analysis at the goverment and company level .

Açar sözlər : Xidmət , Xidmət sektoru,Xidmət Müəssisələrində Marketinq, İdarəetmə, Keyfiyyətin idarə olunması,Müştəri məmnuniyyəti

Gülmira ABDULLAYEVA

Azərbaycan Turizm və Menecment Universiteti

elshad-18@bk.ru

[4] Ö .Baybars Pazarlama : Ilkeler,uygulamalar

Gəncə şəhərinin tarixi- mədəni abidələri

Historical and cultural monuments of Ganja city

Исторические и культурные памятники города Гянджа

Xülasə: Gəncə şəhəri Azərbaycanın ən qədim şəhərlərindən biridir. Şəhər tarix boyu müxtəlif dövlətlərin paytaxtı və siyasi, iqtisadi proseslərin qaynar mərkəzi olmuşdur. Bu özünü şəhərin mədəni həyatında da göstərir. 2016-cı ildə "Avropa Gənclər Paytaxtı" elan edilmişdir. Gəncənin mədəniyyət mərkəzləri, tarixi məkanları, qalereyaları və muzeyləri sakinlərin və turistlərin maraq dairəsinə daxildir. Mir Cəlal Paşayevin ev muzeyi, Gəncə tarix və diyarşünaslıq muzeyi Nizami Gəncəvinin və İsrafil Məmmədovun xatirə ev muzeyləri Gəncənin tarixi, görkəmli şəxsiyyətləri, müasir incəsənəti haqqında dolğun məlumatlar əldə etmək üçün zəngin eksponatlara malikdir. Bu muzeylər eyni zamanda mədəni turizmin də inkişafına şərait yaradır.

Açar sözlər: Gəncə muzeyləri, Qala qapıları, diyarşünaslıq muzeyi, mədəni mərkəz

Abstract: Ganja is one of the oldest cities in Azerbaijan. The city has been the capital of various states throughout the history and the hot and cold political process. It also shows itself in the cultural life of the city. In 2016, the "European Youth Capital" has been declared. Ganja's cultural centers, historical sites, galleries and museums are among the areas of interest for residents and tourists. Mir Jalal Pashayev's house museum, Ganja history and local history museum, Nizami Ganjavi and Israfil Mammadov's memorial house museums have rich exhibits to get the full information about Ganja's history, prominent personalities and contemporary art. These museums also contribute to the development of cultural tourism.

Key words: museums of Ganja, The gates of towns, Regional museum, cultural centre

Резюме: Гянджа является одним из старейших городов Азербайджана. Город был столицей разных государств на протяжении всей истории и был горячим и холодным политическим процессом. Он также показывает себя в

культурной жизни города. В 2016 году был объявлен Европейский молодежный капитал. Гянджские культурные центры, исторические памятники, галереи и музеи являются областями, представляющими интерес для жителей и туристов. Дом-музей Мир-Джалал Пашаев, Музей истории и местного наследия Гянджи, Музей Низами Гянджеви и Мемориальный музей Исрафила Мамедова - богатые экспонаты, чтобы получить подробную информацию о истории Гянджи, выдающихся личностях и современном искусстве. Эти музеи также способствуют развитию культурного туризма.

Ключевые слова: Музеи Гянджа, ворота городов, краеведческий музей, культурный центр

Bakıdan 363 km qərbdə Kiçik Qafqaz dağlarının şimal ətəklərində, Kür çayının sağ qolu olan Kür-Araz ovalığındakı Gəncə-Qazax düzənliyində, Gəncəçayının hər iki sahilində yerləşən Gəncə şəhəri Azərbycanın ən qədim şəhərlərindəndir. Şəhərin adı orta əsr ərəb mənbələrində Gənzə, fars mənbələrində Gəncə, bəzi mənbələrdə isə Qandzak şəklində işlənir. Şəhərin adı bəzi qaynaqlarda “gen yer” mənasında izah olunur. Rəvayətə görə şəhərin adının “xəzinə” kimi də izahı vardır. Bəzi alimlər şəhərin yaranmasını e.ə.VII əsr, əksəriyyəti isə orta əsrlərin başlanğıcına aid edirlər. Şəhərin tarixi haqqında danışarkən bu şəhərin sosial-iqtisadi və mədəniyyət mərkəzi olduğu şübhəsizdir. 730-cu ildə ərəb-xəzər döyüşlərində xəzərlərin keçdiyi şəhərlər içərisində Gəncənin də adı çəkilir [6, səh 20].

Müasir ərəb tarixşünasları "Gəncə" adının fars dilindəki "Cənzə" sözündən gəldiyini irəli sürür. Ərəb coğrafiyaşünası İbn Havqəl öz qeydlərində 977-ci ildə "Cənzə gözəl, varlı və qələbəlik şəhəridir. Buranın çoxsaylı əhalisi səxavətinə, mehribanlığına, elm adamlarına və mühacirlərə hörmətli münasibətlərinə görə fərqlənirlər" yazmışdır. Fərrux Əhmədov isə Gəncə şəhərinin adının türk mənşəli olduğunu bildirir və belə açıqlama verir ki, "Qaynaqlar inamla Kürboyu vilayətlərdə türklərin hökmranlığından xəbər verirlərsə, təbii ki, bu tayfaların hakiminin – xanının (xaqanının, kaqanının) iqamətgahı, baş kəndi olmamış deyildi və bu iqamətgahın məhz Gəncə olmasını inkar etmək üçün heç bir əsas yoxdur. Hesab edirik ki, əski çağlarda şəhər Gəncə yox, Qança (və ya Kançə) adlandırılmışdır. Bu sözün ilk komponenti «qan», «kan», «kaan», «xan» türk dillərində hakim, sərkərdə, başçı deməkdir. Sözün ikinci hissəsi olan – ca (-cə, -ça, -çə) tarixi Azərbaycanın ərazisində çox geniş yayılmaqla məkan, yer, yurd bildirir. Belə qənaətə gəlmək olar ki, «Gəncə», «Qanca», «Kancə» sözləri «xan yeri», «xan

məkanı», «xan yurdu», «xanın, xaqanın oturduğu yer» anlamını verir. Maraqlıdır ki, XX əsrin əvvəlinə kimi «Qanja» və «Xan yurt» adları yerli əhalinin dilində Gəncənin cənub hissəsindəki dağlıq yerlərdə saxlanmışdı"[5, səh 7-9].

X əsrdən (944 – cü ildən) Bərdənin paytaxt statusunu itirdiyi dövrdən etibarən onun yerini X əsrin II yarısında Arran vilayətinin mərkəzinə çevrilən Gəncə tutdu. Bərdə-Tiflis yolu üstündə yerləşən Gəncə bölgənin yalnız siyasi həyatında deyil, ticarətində də fəal iştirak etməyə başladı. Şəhəri əhatə edən qalınlığı orta hesabla iki metrə çatan üç cərgə qala divarları iri sənətkarlıq və gur ticarət mərkəzi kimi əhəmiyyəti günü-gündən artan gəncənin sürətli inkişafını təsdiq edir. Köhnə Gəncənin ərazisində qazıntı aparmış arxeoloqlar müəyyən etmişlər ki, üç cərgə divarların qalıqları ilə əhatə olunmuş şəhərgahın sahəsi təqribən 250 hektara, ümumi sahəsi 9-10 kvadrat kilometrə yaxın olmuşdur. Bununla yanaşı, şəhərgahda aşkara çıxarılmış maddi-mədəniyyət qalıqları onun yaranma tarixini mənbələrdə göstərildiyi kimi VI-IX əsrlərə deyil, daha dərin dövrlərə aid edir [3, səh 72].

Tarix boyu müxtəlif dövlətlərin paytaxtı və siyasi, iqtisadi proseslərin qaynar mərkəzi olması özünü şəhərin mədəni həyatında da göstərir. 2013-cü il noyabrın 21-də Avropada gənclər təşkilatlarının ən böyük platforması olan Avropa Gənclər Forumunun Baş Assambleyasında nüfuzlu beynəlxalq münsiflər heyətinin qərarı ilə Gəncə şəhəri "2016-cı il Avropa gənclər paytaxtı" elan edilmişdir. 2017-ci ildə Gəncə MDB-nin "Mədəniyyət Paytaxtı" seçilib. Gəncənin mədəni və tarixi turizm sahəsində istifadə üçün hazırda aşağıdakılar muzeylər əlverişlidir.

Nizami Gəncəvi adına Gəncə Tarix-Diyarşünaslıq Muzeyi : Gəncə şəhərində yerləşən ən böyük və qədim muzeydir. Əsası 1924-cü ildə qoyulmuş muzeydə, hazırda 30.000-dən çox eksponat saxlanılır.

Hazırda muzeyin yerləşdiyi bina XIX əsrdə tikilmişdir. Bu bina Cavad xanın nəticələri İsmayıl xan və Adil xan Ziyadxanovların şəxsi mülkü olmuşdur. Adil xan və İsmayıl xan Ziyadxanovlar Cavad xanın nəvəsi Əbülfət xan Ziyadxanovun oğulları idi. Adil xan ADRdövründə Azərbaycanın İrandakı səlahiyyətli nümayəndəsi olmuş, ADR-in süqutundan sonra isə Türkiyəyə mühacirət etmişdi. Gəncənin milis rəisi olan İsmayıl xan isə 1920-ci ildə istintaqsız, məhkəməsiz güllələnmişdir. Onların şəxsi mülkü olan bina da, zadəgan ailələrinə məxsus bir çox binalar kimi ictimailəşdirilmişdi. Sovet dövründə burada bir çox idarə və təşkilatlar yerləşib. 1972-ci ildən bina Gəncə Tarix-Diyarşünaslıq Muzeyinə verilmişdir. Muzeyin əsası 1924-cü ildə qoyulmuşdur. Muzeyin yaradılmasında Gəncə semnariyasının müəllim və tələbələrindən İ. Cəfərzadə, S. Seyidov, C.

Rəfibəyov, F. Məlikov və başqaları fəal iştirak etmişlər. İlk illər muzey 2 şöbədən ibarət olmuşdur: diyarşünaslıq və kənd təsərrüfatı, muzeyin 500-dən çox eksponatı olmuşdur [1, səh 52].

1927-ci ildə Xanlarda (indiki Göygöl rayonu) alman arxeoloq Y. İ. Hummel arxeoloji qazıntılar aparmışdır. O, tapılmış eksponatların bir hissəsini Xanlar diyarşünaslıq muzeyinə təhvil vermiş, digər bir hissəsini isə öz vətəninə göndərməyə nail olmuşdur. 1961-ci ildə Xanlarvə Gəncə muzeyləri birləşdirilmişdir.1954-cü ildə muzey, Gəncə şəhəri, Əzizbəyov 260 ünvanında yerləşən binaya köçürülmüşdür. Həmin vaxtlar muzey 7 böyük zaldan ibarət olmuş və 3 şöbəyə bölünmüşdü: Təbiətşünaslıq, İnqilabaqədərki dövr və Sovet dövrü tarixi. 1972-ci ildə muzey, indi yerləşdiyi Ziyadxanovlar mülkü binasına köçürülmüşdür. Muzeyin əsas fondunda 24785 eksponat vardır. Onlardan 4483 arxeologiya, 1648 ədədi etnoqrafiya, 392 rəssamlıq, 9 heykəltəraşlıq, 2753 fotoşəkil, 9259 sənəd, 3441 numizmatika sahələrinə aiddir. 972 kv. m. sahəsi olan muzey salonları hal-hazırda iki şöbədən ibarətdir: qədim dövr və müasir dövr şöbələri [3, səh 48].

Hal-hazırda muzeyin 30 mindən çox eksponatı vardır. Muzeyin ekspozisiyasında Gəncənin ən qədim dövrlərindən başlamış son zamanlara qədər olan tarixi, arxeoloji tapıntı nümunələri, maddi-mədəniyyət abidələri, etnoqrafik, epiqrafik, numizmatik nümunələri 18 salonda nümayiş etdirilir.

Qədim dövr şöbəsi Azərbaycanın ən qədim zamanlarından XIX əsrin sonlarınadək olan tarixini əks etdirir. Gəncə yaxınlığından tapılmış tunc təbərzin və onun düzəldilməsi üçün istifadə olunmuş daş qəlib muzeyin eksponatları sırasına daxildir. Həmçinin muzeyin ekspozisiyasında e. ə. II minilliyə aid boyu 2 m. 20 sm. olan qadın skleti və onunla bərabər basdırılmış bəzək və məişət əşyaları nümayiş olunur. Muzeydə VII əsrə aid olan Qafqaz Albaniyası hökmdarına məxsus qəbir üstü abidə saxlanılır.

Bunlardan başqa, muzeyin ekspozisiyasına Qafqaz Albaniyası dövrünə aid gümüş qadın tacı, Nizami Gəncəvinin qəbrindən aşkarlanmış çıraqlar, Gəncə xalçaçılıq məktəbinə məxsus xalça nümunələri, Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid sikkələr, zərgərlik nümunələri, müxtəlif dövrlərə aid saxsı nümunələri, metalişləmə nümunələri, Gəncə xanlığının bayrağı da daxildir.

Nizami Gəncəvi Muzeyi: Muzey 21 yanvar 2014-cü il tarixində açılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş muzeyin açılışında iştirak etmişdir. Dövlət başçısı muzeydə yaradılan şəraitlə tanış olmuşdur. Muzeydə Heydər Əliyev və Nizami Gəncəvi

guşələri yaradılıb, şairin həyat və yaradıcılığını əks etdirən monitor quraşdırılıb. Elmi tədqiqat şöbəsində elmi araşdırmalar üçün hər cür şərait var. Muzeydə dahi mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla zəngin elektron məlumat köşkü də quraşdırılıb. Nizami Gəncəvinin zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzeydə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpa edilməsi, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncam və qərarları sərgilənir. Burada dahi şairin 800, 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar da nümayiş olunur. Muzeydə elmi tədbirlər üçün nəzərdə tutulmuş konfrans zalı, qonaqlar və turistlər üçün istirahət guşələri yaradılıb [13, səh 30-35]

Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi: Gəncənin girişində Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə-Kompleksinə yaxınlaşarkən ecazkar bir aləmlə qarşılaşırsan. Əslində, bütün girişlər şəhərlərin ilk bələdçiləridir. Qısa bir vaxtda tikilib başa çatan bu möhtəşəm abidə şəhərin beş qapısından biri olan "Məqbərə qapısı" nın bərpa olunan variantıdır. Burada xronoloji ardıcıllıqla İran-Turan müharibəsinin əks olunduğu pannolarda türk sərkərdəsi Əfrasiyabın fars hökmdarı Keyxosrovu məğlub etməsi və romalıların Gəncəyə hücumu, usta Bəndərin rəhbərliyi ilə gəncəlilərin xarəzmlərə, Cavad xanın isə ruslara qarşı mübarizə səhnələri, sol cinahda Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Gəncəyə gəlişi, 1920-ci ilin mayında bolşevizmə qarşı tarixi Gəncə üsyanı və nəhayət, ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində Gəncədə vətəndaş müharibəsinin qarşısının alınması salnaməsi əks olunub [3, səh 37]. Kompleksin sol cinahında ulu öndər Heydər Əliyevin, sağ cinahda isə Prezident İlham Əliyevin Gəncə ilə bağlı fikirləri həkk edilib. Qalanın sağ hissəsindəki papiruslardan birində Gəncənin Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxt şəhəri olması, digərində isə Milli Qurtuluş hərəkatının Gəncədən başlanması göstərilib. Kompleksə xüsusi əzəmət verən dəmir darvazalar quraşdırılıb. Darvazalar 1063-cü ildə gəncəli usta İbrahim Osman oğlu tərəfindən düzəldilən Qədim Gəncə qapılarının eskizləri əsasında hazırlanıb. Həmin qapılar 1139-cu ildə zəlzələ nəticəsində Gəncə şəhəri dağılarkən gürcü çarı Demetre tərəfindən Gürcüstana aparılmış və Kutaisinin Helat monastırında saxlanılır [6, səh 41].

Qalanın hər iki tərəfindəki birinci mərtəbələrdə və yeraltı keçiddə dahi Azərbaycan şairi Nizami Gəncəvinin sələfləri və xələflərinin şəkillərindən ibarət qalereya yaradılıb. Burada Gəncənin 26 görkəmli şəxsiyyətinin abidəsi qoyulub. Muzeyin sağ tərəfində ikinci mərtəbədə Gəncənin hərb tarixi muzeyi yaradılıb.

Xronoloji ardıcıllıqla Gəncənin hərb tarixinin qədim vaxtlarından başlayaraq 1918-1920-ci illərədək olan dövrü əhatə edilib. “1918-1920-ci illərdə Gəncənin hərb tarixi” nə aid vitrində o dövrün silah-sursatı və 1919-cu il Gəncə qarnizonu döyüşçüsünün fotoşəkli nümayiş olunur. Ekspozisiyanın sonunda tərtib edilmiş rəmzi bölmədə Vətən uğrunda həlak olanların şərəfinə “Əbədi məşəl” və döyüşçülərin təsvirləri nümayiş etdirilir

Qalanın üçüncü mərtəbəsində Gəncə əhalisinin məişəti, mədəniyyəti, həyatı haqqında məlumat verən etnoqrafik muzey yaradılıb. Tarix boyu sənətkarlıq mərkəzi olmuş Gəncədə 30-dan çox sənət sahəsinin yüksək səviyyədə inkişaf etməsindən xəbər verən nümunələr öz nəfisliyi ilə göz oxşayır. Etnoqrafik muzeydə xalça məmulatları, Şərq süfrə mədəniyyətinə xas çay dəstgahı, dulusçuluq məhsulları, misgərlik sənəti nümunələri və digər etnoqrafik əşyalar təqdim olunur.

Qalanın dördüncü mərtəbəsində Gəncənin qədim və zəngin süfrə mədəniyyətini, qonaqpərvərlik ənənələrini yaşatmaq məqsədilə milli kulinariya mətbəxi yaradılmışdır. Muzeydə Gəncə şəhərində mövcud olmuş Azərbaycanda ilk dövlət əhəmiyyətli qədim tikililərin rəsm və fotoları da nümayiş etdirilir. Dördüncü mərtəbədən qalanın bürclərinə qalxmaq mümkündür. Buradan şəhərin mənzərəsi göz oxşayır. “Azərbaycan milli geyimləri” sərgisində ölkəmizin müxtəlif regionlarına məxsus geyimlər və bəzək əşyaları nümayiş olunur. Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında tərtib edilmiş “Azərbaycan – qədim sivilizasiya məkanı” sərgisində müxtəlif bölgələrə aid 120-dən artıq qiymətli arxeoloji eksponat sərgilənir. Muzeydə Azərbaycan xalqının formalaşdığı ərazinin kosmosdan görüntü xəritəsi, Dərbənd qalasının maketi və digər eksponatlar böyük maraq doğurur [9, səh 12-15].

Gəncəlilərin dəyərli məkan saydığı möhtəşəm Heydər Əliyev Mərkəzində bu qədim şəhərin ən böyük muzeyi fəaliyyət göstərir. Muzey ulu öndərin keçdiyi zəngin həyat yolu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirir. Muzeydə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi həyata keçirdiyi böyük işlər, Azərbaycan xalqının rifahı, ölkəmizin gözəl gələcəyi naminə apardığı düşünülmüş siyasət, hərtərəfli sosial-iqtisadi inkişafına yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrə dair maraqlı fotolar, müxtəlif sənədlər, o dövrlərə aid kitablar, qəzetlər və digər materiallara muzeydə geniş yer verilib.

Burada ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir. Muzeydə Gəncənin son illərdə keçdiyi əaslı sosial-iqtisadi inkişaf yolu, Prezident İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və qayğının bariz nümunələrinə də geniş yer ayrılıb. Ekspozisiyada informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da peşəkarlıqla istifadə olunması diqqəti cəlb edir.

Heydər Əliyev Mərkəzində oxu zalı, elektron kitabxana, xarici dil kursları, "IDEA" İctimai Birliyi resurs mərkəzi, videokonfrans salonu, hər cür təchizatı olan iclas və konfrans zalları var. Akt zalında şəhərin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək mümkündür. Xalçaçılıq tədris mərkəzi, rəqs dərnəyi və sərgi salonu da orijinal fəaliyyəti ilə seçilir. Park-kompleksdə yerləşən müasir incəsənət muzeyi adından da göründüyü kimi, müasirlərimizin bu günümüzlə bağlı əl işlərini dəyərli eksponat kimi təqdim edir. Görkəmi tamamilə dəyişdirilən və gecə də, gündüz də gözəlliyi göz oxşayan Nizami Gəncəvi məqbərəsinin yaxınlığında bənzərsizliyi ilə diqqəti cəlb edən bir muzey də var. Tikintisinə 2012-ci ildə başlanılan Nizami Gəncəvi muzeyi Prezident İlham Əliyevin Gəncəyə on ikinci səfəri zamanı açılmışdır [14].

Muzeyin Nizami Gəncəvi məqbərəsinin yaxınlığında tikilməsi buraya gələnlərə həm məqbərəni ziyarət etməyə, həm də dahi şairin həyat və yaradıcılığı haqda geniş məlumat almağa imkan yaradır. Muzeyin qarşısında Nizami Gəncəvinin büstü qoyulmuşdur. Burada ulu öndər Heydər Əliyev və Nizami Gəncəvi guşələri yaradılmış, şairin həyat və yaradıcılığını əks etdirən monitor quraşdırılmışdır. Muzeydə dahi mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla zəngin elektron məlumat köşkü var. Nizami Gəncəvinin zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpa edilməsi, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncam və qərarları sərgilənir. Burada dahi şairin 800, 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar nümayiş etdirilir.

Şairin 870 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan "Xəmsə" və monoqrafiyalar Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya milli kitabxanalarında, Misirin İsgəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-ın Metropol Muzeyində qorunan nadir "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır. Nizami Gəncəvinin irsinin öyrənilməsində muzeyin əhəmiyyəti olduqca böyükdür. Muzeydə

elmi tədbirlər üçün nəzərdə tutulmuş konfrans zalı da var. Buraya gələn qonaqlar və turistlər üçün istirahət guşələri də yaradılmışdır. Binada Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin yüksək zövqlə toxunmuş xalça portretləri diqqəti cəlb edir.

Muzeyin özəlliklərindən biri də Azərbaycanın Mərkəzi Bankı tərəfindən qızıldan hazırlanmış Nizami Gəncəvi mükafatına layiq görülmüş şəxslərin – Böyük Britaniyanın sabiq baş naziri Marqaret Tetcer, Türkiyə Cümhuriyyətinin sabiq prezidenti Süleyman Dəmirəl, ABŞ-ın sabiq prezidenti Bill Klinton, Latviyanın sabiq baş naziri Vaira Vike-Freyberqa, Niderlandın sabiq baş naziri Vim Kok, Oksford məktəbinin rəhbəri, Britaniya Kral Akademiyasının prezidenti Baronessa Süzan Grenfeld, UNESCO-nun xüsusi elçisi Valter Füst, Misirin İsgəndəriyyə Kitabxanasının rəhbəri doktor İsmail Seragəldin və Dalay-lama kimi görkəmli dövlət, elm və din xadimlərinin dahi mütəfəkkir haqqında söylədikləri dəyərli fikirləri öz əksini tapmasıdır.

Məhsəti Gəncəvi Mərkəzi: Burada şairənin yaradıcılığına həsr olunan rəsm qalereyası, tədqiqatçılar üçün oxu zalı və yardımçı otaqlar var. Mərkəz-muzeydə milli musiqi alətləri sərgisi yaradılmışdır. Burada Məhsəti Gəncəvinin həyat və yaradıcılığı ilə yanaşı, Azərbaycanın görkəmli şair və mütəfəkkirləri, musiqisi haqqında geniş elmi məlumatlar da əldə etmək mümkündür. Mərkəzin milli geyimlər sərgisində Məhsəti dövrü, xüsusilə də İntibah dönəmində xanımlara xas milli geyim nümunələri nümayiş olunur. Rəsm qalereyasında Məhsəti Gəncəviyə və rübailərinə həsr edilmiş müxtəlif tablolar, sənət nümunələri, monumental əsərlər yer alıb. Məhsəti otağında şairənin heykəli ucaldılmışdır. Burada proyektor vasitəsilə miniatür və rəsm əsərləri təqdim edilir. Mərkəzdə musiqi studiyası, not kitabxanası, muğam, fortepiano şöbələri və iclas zalı var.

M.C. Paşayevin Ev Muzeyi: Bu muzey 29 sentyabr 2007-ci il tarixində açılmışdır. Fəaliyyətə başladığı gündən şəhər əhalisinin, tələbə və şagirdlərin ziyarətgahına çevrilmişdir. Muzey əməkdaşlarının təşəbbüsü ilə 2009-cu ildən etibarən muzeydə ədəbiyyat dərsləri keçirilir. Bundan başqa tarixi və əlamətdar günlərdə müxtəlif tədbirlər qeyd olunur. Yazıçılarla görüşlər, kitab təqdimatları, muzeylər günü özünəməxsus şəkildə qeyd olunur [16].

İsrafil Məmmədovun Xatirə Ev Muzeyi: 1941-1945- ci illər Böyük Vətən Müharibəsində Sovet İttifaqı Qəhrəmanı adını alan ilk azərbaycanlı İsrafil Məmmədovun Xatirə Ev Muzeyi 1985-ci ildə ictimai əsaslarla yaranmışdır. 1990-cı ildə Dövlət muzeyi statusu almışdır. Muzeydə qəhrəmanın doğum və ölüm günlərində, 9 May Qələbə bayramı günündə, 26 İyun Milli Ordunun yaranması

günündə və digər tarixi bayramlar və əlamətdar günlərdə vətənpərvərlik mövzusunda müxtəlif tədbirlər keçirilir. Mənzil-muzeyin rəsmi açılışı 1985-ci il may ayının 6-da qələbənin qırx illiyi ilə əlaqədar olmuşdur. Nümayiş olunan eksponatlar arasında İsrafil Məmmədovun ov tüfəngi, çantası, xəncəri, çəkmələri, evinə aid stol və stulları, mətbəx avadanlıqları və digər maraqlı əşyalar var. Həmçinin Sovet İttifaqı qəhrəmanının anasına, ailəsinə yazdığı məktublar və anasının ona yazdığı məktublar da məktəblilər tərəfindən maraqla qarşılanıb. İsrafil Məmmədovun ev muzeyi 4 bölmədən ibarətdir və hər bölmədə müxtəlif eksponatlar nümayiş etdirilir. Muzeydə 285 adda eksponat və qəhrəmanın həyatını əks etdirən 161 ədəd foto şəkillərin saxlanır [17].

Gəncənin digər muzeyləri də sakinlərin və turistlərin maraq dairəsinə daxildir. Bu muzeylər Gəncənin qədim və müasir incəsənəti haqqında dolğun məlumatlar əldə etmək üçün zəngin eksponatlara malikdir. Dövlət qayğısı və ölkəmizdə mədəni turizmin inkişafına dəstək yeni muzeylərin yaradılmasına şərait yaradır

Yeni muzeylərin yaradılması, bu muzeylər üçün möhtəşəm və əlverişli muzey binalarının tikilib istifadəyə verilməsi Gəncənin gözəlliyini daha da artıracaqdır. Təqdirəlayiq haldır ki, hər yeni tikilidə qədim şəhərin milli memarlıq xüsusiyyətləri qorunub saxlanılır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan tarixi. Yeddi cilddə. 1-7-ci cildlər. Bakı, 1998-2003.
2. Azərbaycanın dünya əhəmiyyətli abidələri. Bakı, 2015. 177 s.
3. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, I cild, ASE-nin Baş Redaksiyası, Bakı 1976.
4. Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Tərcümə edəni S.Onullahi, Bakı: Azərnəşr, 1997, 92 s.
5. F.Əliyev Şimali Azərbaycan şəhərləri (XVIII əsrin ikinci yarısında). Bakı, 1960
6. V.Muradov Orta əsr Azərbaycan şəhərləri. Bakı, 1983.
7. Z.Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti (1136-1225). Bakı, 1985.
8. Qoş Mxitar. Alban salnaməsi. Müqədimə, tərcümə, qeyd və şərhlər Ziya Bünyadovundur. Bakı, 1993
9. Альтман М.М. Исторический очерк города Ганджи. Баку, 1949.

10. Ахмедов Г.М. Города Азербайджана эпохи Низами. Баку, 1991.

11. Баладзори. Книга заования стран/пер. П.К.Жузе. (Материалы по истории Азербайджана. Об-во по изучению Азерб.). Баку, 1927.

12. Джафарзаде И.М. Историко-аАрхеологические очерк старой Ганджи. Баку, 1949.
13. Йагут ал-Хамави. Муджам ад-булдан. (Сведения об Азербайджане). Пер. с арабского З.М.Бунтятова и П.К.Жузе. Баку, 1983
14. https://heydar-aliyev-foundation.org/az/content/view/73/3139/G%C9%99nc%C9%99d%C9%99-Nizami-G%C9%99nc%C9%99vi-Muzeyi-a%C3%A7%C4%B1l%C4%B1b
15. http://ganjanews.az/2017/08/29/m%C9%99d%C9%99niyy%C9%99t/q%C9%99dim-v%C9%99-m%C3%BCasir-g%C9%99nc%C9%99nin-muzeyl%C9%99ri-.html
16. ganjanews.az
17. az.wikipedia.org/wiki/İsrafil_Məmmədovun_Ev_Muzeyi

Gülnarə TURABOVA

Gəncə Dövlət Universiteti

turabova@mail.com

Elnurə XUDAVERDIYEVA

Gəncə Dövlət Universiteti

elnura_israfilova@mail.ru

Small and medium business insurance

Kiçik və orta biznesin sığortalanması

Страхование малого и среднего бизнеса

Xülasə: Məqalə müasir söğortalama analızından bəhs edir. Maddi maraqların qorunmasında və üçüncü şəxs tərəfindən hüquqi iddiaların təmin edilməsində sığorta ən mükəmməl mexanizmdir. Məhz sığorta bazar münasibətləri subyektlərinin əmlak maraqlarına dəyən ziyanın kompensasiyasında ən geniş zəmanətdir. Fikrimizcə, tamamilə aradan qaldırmaq və yaxud sahibkarlıq fəaliyyəti risklərini xeyli azaltmaq kiçik sahibkarlara dövlət dəstəyi ilə və kiçik biznes mühitinin daxili və xarici amillərinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması şəraitində mümkündür .

Açar sözlər: kiçik və orta müəssisələr, sığorta, dövlət dəstəyi, sığorta müqaviləsi.

Резюме: Статья посвящена анализу современного страхования. Наиболее совершенным механизмом защиты собственных материальных интересов и удовлетворения законных претензий со стороны третьих лиц является страхование. Именно страхование представляет собой наиболее полные гарантии компенсации ущерба имущественным интересам субъектов рыночных отношений. По нашему мнению, полностью устранить или существенно снизить риски предпринимательской деятельности можно с помощью государственной поддержки малого предпринимательства и страхования при условии значительного улучшения всех факторов внешней (и внутренней) среды малого бизнеса.

Ключевые слова: малые и средние предприятия, страхование, государственная поддержка, договор страхования.

Abstract: The article is devoted to the analysis of modern insurance in Azerbaijan. The processes of concentration, of integration and globalization, which are activated on the international insurancemarket, influencesignificantly the quality and quantity of development of insurance business. Prospects for the development of insurance in Azerbaijan depend on the possibility of more active participation of the state in the functioning of the insurance industry, for example, use of subsidy mechanisms and the development of regional programs. The article analyzes the dynamics and structure of the international insurance market, alsoproblems and prospects of development of the insurance market, business organizations in Azerbaijan and abroad are discussed. The main directions of improving the system of insurance in Azerbaijan.

Key words: small and medium enterprises, insurance, state support, insurance contract.

Insurance is a special kind of economic relations, which is designed to provide insurance protection for people and their businesses from various kinds of dangers.Insurance is a means of protection from financial loss. It is a form of risk management primarily used to hedge against the risk of a contingent, uncertain loss.

An entity which provides insurance is known as an insurer, insurance company, or insurance carrier. A person or entity who buys insurance is known as an insured or

policyholder. The insurance transaction involves the insured assuming a guaranteed and known relatively small loss in the form of payment to the insurer in exchange for the insurer's promise to compensate the insured in the event of a covered loss.

In most countries of the world, there are two types of insurance: life insurance and non-life insurance. The main subjects of the insurance market are insured-Buyers of insurance services and insurers-sellers of insurance services. Besides Addition, in insurance relations as consumers of insurance services can To take part the insured persons and beneficiaries. The infrastructure of the insurance market is made up of insurance intermediaries, reinsurers, Emergency commissioners, adjuster and surveyors.

The insurance contract is a contract between the insurer and the insured, the insurer undertakes to pay the insured or beneficiary a certain amount of money upon the occurrence of the insured event provided for by the contract in exchange for payment of the insurance premium by the insured.

Small and medium business insurance includes:

• business risk insurance;

• Insurance of currency risks;

• Insurance of investment risks;

• insurance of information risks;

• insurance of commercial risks;

• insurance of economic risks;

• insurance of bank risks, etc.

The most perfect mechanism for protecting one's own material interests and satisfying legitimate claims from third parties is insurance. Insurance is the most comprehensive guarantee of compensation for damage to the property interests of market entities (in this case, small businesses).

When creating and promoting insurance products for small businesses, most Western insurance companies take the following principles:

- A comprehensive insurance cover is offered for the main risks of enterprises; The scope of the insurer's liability for each individual risk is limited, or the franchise system (conditional and unconditional) is used;

- We offer separate insurance products, which are created taking into account the specifics of this particular enterprise.

The work of an insurer with a small business enterprise and an individual entrepreneur is built on the basis of mutual interests. Actually, provides protection of property interests of the insured of small business which will provide a minimum level of cost at covering of the most significant, key risks. Usually, before signing the insurance contract with the enterprise, the insurer conducts an audit of the company's activities (independently or uses the services of audit firms). Based on the audit, a conclusion is drawn up (list of risks facing the enterprise is given).

And also separately identified factors that make these risks heavier. [1]

According to the findings of the conclusion, the insurer invites the entrepreneur to carry out the necessary preventive measures, or lays the implementation of these measures in the insurance tariff. The calculation of the insurance premium and the sum insured is also made on the basis of the conclusion made.

Usually, when insuring small and medium-sized businesses, a standard package of insurance services is used - BOP (business owner's policy); with certain insurance tariffs, which are adjusted depending on the scope of the enterprise, the list of risks.

As a rule, the standard types of insurance for small businesses include the following types of insurance: insurance of property risks (from fire, flood, etc.), civil liability (responsibility of the producer and seller for the quality of the services provided), insurance against interruption in production and compulsory insurance against accidents at work. The introduction of franchises into individual risks is practiced. However, the franchise system is not used in the basic coverage of property risks (from fire, flood, hail, etc.), as well as civil liability. The fixed amount of the franchise is introduced for insurance against theft, insurance against a break in production. [2]

As the statistics show, not all managers of small businesses are limited to a standard insurance package, but they supplement insurance against theft, flooding, and liability for damage to the environment. They include payment of court costs in insurance coverage. İt is common to conclude separate insurance contracts that are related to the specifics of the enterprise's activities: insurance of freight traffic, insurance construction and assembly risks, professional liability insurance.

It is also practiced to gradually expand or change the insurance coverage after analyzing the work of the enterprise for a number of previous years. The practice of concluding an additional agreement is widespread, which makes it possible to increase the amount of insurance cover for certain risks (umbrella insurance). Quite often this is used to increase coverage under civil liability (before the creditors of the company, the responsibility of the manufacturer) or in the case of civil liability insurance for vehicle owners.

For the purpose of calculating the final insurance premium, the type of activity of the enterprise, the volumes of turnover, and the number of employees are taken into account. If the enterprise does not fit the general list of requirements, then it is denied the sale of a standard insurance policy.

As an alternative, insurers offer insurance products that cover certain aspects of the company's activities.

Namely:

1. Standard insurance program. It offers protection of property risks of a small enterprise and includes insurance:

- Buildings (owned by the enterprise or leased);

- Other property of the enterprise;

- Interruption in production;

2. Vehicle insurance program

3. A program that offers insurance protection in case of liability:

- Before third parties;

- Manufacturer and seller for the quality of the services provided;

- Leasing and leasing relations

4. The program of insurance against accidents at work:

- Coverage of medical costs. They are associated with treatment;

- Covering court costs that are related to claims.

Expenses for preventive measures that prevent possible occurrence of insured events, or individual insurance policies, which include the calculation of individual tariffs. To take the enterprise's risks for insurance and calculate the insurance

premium, insurance companies developed a standard questionnaire. In the questionnaire, the enterprise indicates the organizational form of the activity, the life of the enterprise, its own insurance history (the number of insured events, the amount of payments, the guilty party and other information), the amount of assumed liability limits for individual risks, etk. This questionnaire becomes more detailed if the company is going to purchase a non-standard insurance policy or additional types of insurance protection are required. [1]

It is insurance that represents the most complete guarantees of compensation for damage to the property interests of market entities. In our opinion, it is possible to completely eliminate or substantially reduce the risks of entrepreneurial activity with the help of state support for small business and insurance, provided that all factors of the external (and internal) environment of small business are significantly improved. Increase the quality of insurance services and insurance relations, of course, will contribute to the development of insurance education. New opportunities for qualified personnel in the insurance industry can be determined by such areas as formation target insurance groups in the leading training
institutions with training programs financial management, accounting and audit of insurance companies, marketing and sales management of insurance services; creation and development of training and certification centers for insurance agents and insurance intermediaries, etc. [3]

Even the most experienced analysts cannot fully predict certain factors that can significantly affect the business process. And if you do not insure the business in time, you can incur heavy losses, up to complete bankruptcy. Business insurance is quite common, especially in the west.

Prospects for the development of insurance in Azerbaijan depend on the possibility of more active participation of the state in the functioning of the insurance industry, for example, use of subsidy mechanisms and the development of regional programs.

Recently, many insurance companies have begun introducing some unusual for our market types of insurance. This was one of the consequences of increasing competition in the insurance market and the desire of corporate clients to purchase comprehensive insurance coverage. New comprehensive insurance, in addition to directly insurance products, makes it possible to reduce risks and increase the efficiency of the business as a whole.

Entrepreneurial activity is directly related to risks, and especially financial ones. Any business process can be influenced by external factors, such as the economic and political situation in the country, natural disasters, explosions, fires, flooding, and internal ones: working with contractors, customers, personnel errors. Therefore, for every entrepreneur, the question arises of how to properly carry out business insurance.

Bibliography:

1. What is insurance - 40 definitions of the term "insurance" of famous scientists
2. Gomellya V.B. Fundamentals of Insurance - M: Finance and Statistics, 2003
3. http: www. allbest.ru

Müəssisələrin idarə edilməsində kiçilmə strategiyaları rolu və yeri

Günay Elxan qızı Vahid-zadə

Bakı Mühəndislik Universiteti, doktorant

gunay.vahidzadeh@au.edu.az

Xülasə

Dəyişkən bazar şərtlərinə uyğunlaşmaq, rəqibləri arasında üstünlük əldə etmək və ya mövcud vəziyyətlərini qoruyub saxlamaq üçün şirkətlər müasir idarəetmə formalarından daha çox istifadə edirlər. Bu baxımdan təşkilati kiçilmə də geniş tətbiq edilən idarəetmə forması kimi diqqət çəkir. Bu böyük üstünlüklərlə bərabər eyni zamanda bəzi problemlər də yaradır. Düzgün planlanmamış kiçilmə strategiyası təşkilatın mövcud vəziyyətini daha kəskinləşdirə bilər. Bu tədqiqat işində kiçilmə strategiyası müasir idarəetmə forması kimi müəssisələrdəki yeri və rolu, onun tətbiqi zamanı yarana biləcək təhlükələr araşdırılmışdır. Həmçinin kiçilmə strategiyasının böhran zamanında istifadə edilməklə yanaşı, müəssisələrdə rəqabətdə üstünlük qazanmaq üçün istifadə edilən bir idarəetmə forması olduğuna diqqət edilmişdir.

Açar sözlər: müəssisələrin yenidən təşkili, müasir idarəetmə formaları, strategiya, kiçilmə strategiyası, rəqabət üstünlüyü.

Summary

Companies use modern forms of governance to adapt to changing market conditions, to gain superiority or maintain their current position. From this point of view, organizational downsizing is also widely used as a form of governance. It also creates some problems with these great advantages. Properly unplanned downsizing strategies can further aggravate the organization's current situation. In this research, the role and place in the enterprises such as the downsizing strategy as a modern management form, and the dangers that may arise during its implementation have been studied. It has also been emphasized that the downsizing strategy is a form of governance that is used to gain competitive advantage in enterprises not also being used during the crisis.

Key words: reorganization, modern forms of management, strategy, downsizing strategy, competitive advantage.

Müasir dövrdə rəqabət qabiliyyətinin yüksədilməsi üçün, tez-tez dəyişən xarici mühitə uyğunlaşmaq üçün müəssisə rəhbərliyi daim effektiv və səmərəli idarəetmə formaları, strategiyalar axtarır və istifadə etməyə çalışırlar. Müəssisə rəhbərləri günün tələbinə cavab verən struktur qurmağa, onu yenidən təşkili və fəaliyyəti istiqamətinin dəyişdirilməsi yolu ilə həyata keçirməyə çalışırlar. Ümumiyyətlə müəssisələrin yenidən təşkili birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə formasında həyata keçirilə bilər.

Birləşmə - eyni anda bir neçə müəssisənin fəaliyyətinin ləğv edilməsi və onların bazasında yeni müəssisənin yaradılmasıdır.

Qoşulma - eyni anda bir və ya bir neçə müəssisə (qoşulanın) fəaliyyətinə xitam verilməsi və onların digər (qoşulmaq istədiyi) müəssisəyə qoşulmasıdır. Bu zaman digər müəssisənin aktivləri, kapitalı və öhdəlikləri qoşulan müəssisənin aktivləri, kapitalı və öhdəlikləri qədər artır.

Bölünmə - eyni anda bir müəssisənin fəaliyyətinin ləğv edilməsi və onun bazasında iki və ya daha artıq yeni müəssisənin yaranmasıdır. Bu zaman bölünən

(parçalanan) müəssisənin hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış müəssisələrə keçir.

Ayrılma - eyni anda bir müəssisənin (ana) tərkibindən bir və ya bir neçə yeni müəssisənin yaradılması məqsədilə ayrılmasıdır.

Çevrilmə - eyni anda müəssisənin fəaliyyətinə xitam verilməsi və təşkilati-hüquqi formasını dəyişərək yeni müəssisə ilə əvəz olunmasıdır. Bu zaman müəssisə əvvəlki, həmçinin yeni fəaliyyətlə məşğul olmağa davam edə bilər.

Müəssisələrin təşkili və yenidən təşkili zamanı fərqli strategiyalardan istifadə edilir. Bunlardan biri də kiçilmə strategiyasıdır.

Kiçilmə sadəcə böhran zamanında deyil, həmçinin müəssisəyə davamlı rəqabət qabiliyyətinin artırılmasına istiqamətlənmiş bir strategiyadır. Bu baxımdan kiçilmə müəssisələrin sadəcə çətin vəziyyətlərdə olduqlarında tətbiq etdikləri strategiya deyil, həmiçinin yeni fürsətlər üçün istifadə edə biləcəkləri bir strategiyadır.

Ümumiyətlə kiçilmə dedikdə, müəssisədə sağlam olmayan bir mühit olduğu düşünülür. Bu baxımdan müəssisə rəhbərləri öz əməkdaşlarına bu strategiyanın niyə tətbiq etdiklərini izah etməlidirlər. Hədəflərə çatmaqda bu strategiyanın ən uyğun bir fəaliyyət olduğunu işçilərə inandırmaq və onlarda narahatlıq yaranmamasına çalışmalıdırlar. Çünki bu strategiyanın tətbiqi zamanı işdən azad edilənlər olacaq və bu digər qalıb işləyən işçilərdə nə vaxtsa onlara növbə çatacağı hissi yaradacaq və bu narahatlıqla işlərini davam etdiklərindən performanslarında, məhsuldarlıqlarında azalma yaranacaqdır.

1980-ci illərdən indiyədək bütün dünyada müəssisələrdə dəyişikliklər etmək üçün kiçilmə strategiyalarından istifadə edilir. Bu strategiyada əsas məqsəd səmərəli və məhsuldar fəaliyyətlərlə müəssisənin performansını, məhsuldarlığını inkişaf etdirməkdir. Kiçilmə müəssisənin strukturunu mövcud olandan ideal olana çevriməsi prosesidir.[Gümüştekin, 2004]

Kiçilmə strategiyasından aşağıdakı vəziyyətlərdə istifadə edilir: [Hayri və Kadri, 2007]

- Müəssisənin bazar payı və ya satışları kifayət qədər olmadıqda;
- Daha əlverişli investisiya imkanları olduqda;
- Yeni texnologiyalar üçün lazımi resurs olmadıqda;
- Birləşmədən sonra uyğun olmayan bölmələr və ya struktur vahidləri mövcud olduqda.

Müasir dövrdə dünyada müəssisələr arasında kiçilmə xərcləri azaltmaq üçün istifadə edilən proaktiv idaretmə strategiyasıdır. Burda məqsəd müştərinin istədiyi mal və ya xidməti istehsal edə bilən strukturu formalaşdırmaqla, müştəri

məmnuniyyətini artırmaqla hədəf və məqsədlərə çatmaqdır. Kiçilmə vasitəsiylə müəssisələr dəyişikliklərə daha tez cavab verə biləcək, fürsətlərdən ən qısa zamanda və resurslardan səmərəli və effektiv istifadə etməklə müştəriləri üçün dəyər yaradacaq və çətin vəziyyətlərdən rahatlıqla çıxa biləcəklər.[Lewin, Biemans, Wolfgang, 2010]

Müəssisələrdə kiçilmə strategiyasından istifadə etməyə səbəb olan faktorları daxili və xarici olmaqla iki yerə bölmək olar.

Xarici faktorlar bunlardır: rəqabətin artması, bazarların daralması, durğunluq, gəlirlərin və mənfəətin azalması, istehlakçıların məmnun olmaması, qanunlar, yeni texnologiyaların istifadəsi, artan işçi xərcləri və müştəri istəklərinə daha tez cavab vermə ehtiyacı.

Daxili faktorlar isə müəssisənin yaşı, uğurları, böyüklüyü, çeşidlilik və mərkəzləşmə nisbəti, yeni texnologiyanı tətbiq etmə faizi, mütəxəssis çatışmazlığı, maliyyə nəticələrin azalması, strategiya dəyişikliyi, yeniliyə və sahibkarlığa açıq olmaq istəyi və məhsuldarlığın aşağı olması aiddir. [Büte, 2005]

İşçi sayında artım və bununla əlaqədar rəhbər işçilərin də artması müəssisələrdə ierarxiyada lazım olandan çox təbəqələşməyə və təşkilati bürokratiyaya səbəb olur. Bu halda əsas təşkilati ehtiyaclar və məqsədlər kölgə altında qalaraq arxa plana keçir. Müəssisələrdə həddən artıq bürokratiya kiçilərək böyüməni yaradan başlıca səbəblərdəndir. [Bali, 2006]

Kiçilmənin tətbiqi zamanı əsas məqsədlər səmərəliliyi və məhsuldarlığı artıraraq müəssisənin mənfəətini və maliyyə vəziyyətinin yaxşılaşdırmaqdır. Kiçilmə vasitəsiylə bürokratiyanı azaltmaq, daha tez qərarvermək, qarşılıqlı əlaqələrdə rahatlıq yaratmaq, sahibkarlığı dəstəkləmək mümkündür. Kiçilmə daha çox orta təbəqə idarə edicilərinə təsir edir. [Lewin, 2009]

Bir müəssisənin kiçilməsi, idarəedicilərin planlı şəkildə verdikləri qərarlar və tətbiq etdikləri strategiyalar ilə işçi sayını, xərcləri və prosesləri azaltmaq mənasını ifadə edir. Bu baxımdan kiçilmənin məqsədləri aşağıdakılardır [Koçel, 1999]:

- Xərcləri azaltmaq;
- Qərarvermə prosesini sürətləndirmək;
- Rəqiblərin davranışlarına qısa zamanda cavab verə bilmək;
- Məlumatın çatdırılmasındakı maneələri azaltmaq;
- Nəticələrə istiqamətlənmək;
- Müştəri ehtiyaclarına istiqamətlənmək;
- Məhsuldarlığı artırmaq;
- Yeni fikirlərin qısa zamanda tətbiqini təmin etmək.

Kiçilmə strategiyasının tətbiqi zamanı əsas problemlərdən biri də işdən çıxarılan işçilərin sosial təminatı ilə bağlıdır. Bu zaman həm müəssisə, həm də dövlət müvafiq tədbirlər planı tətbiq etməlidir. Hər bir dövlət məşğuluq münasibətlərinə müdaxilə edərək işçilərin mənafelərini qorumaq və əhali üçün minimum yaşayış səviyyəsini təmin etmək üçün nəzərdə tutulmuş qanunlar sistemi yaradır. Dövlət biznes mühitinin azadlığını təmin etməklə sahibkarların mənafelərini, sosial müdafiəni təmin edərkən isə muzdlu işçilərin mənafelərini ifadə edir.

Bazar münasibətləri şəraitində işsizlikdən müdafiə sistemi sosial-iqtisadi məsələlərin həllinə, əmək hüquqlarının qorunmasına, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılmasına, sosial ədalətin, ictimai birliyin və sabitliyin təmin edilməsinə yönəlmiş dövlət siyasətinin əsas elementlərindən biridir. İşsizlikdən sığorta sistemi müxtəlif formada 72 ölkədə fəaliyyət göstərir. Bu ölkələrin hər birində işsizlikdən sığorta sistemi ölkənin iqtisadi və əmək bazarının vəziyyətindən, işsizliyin xüsusiyyətlərindən, aztəminatlı əhaliyə münasibətdə digər sosial proqramların mövcudluğu vəziyyətindən və s. hallardan asılı olaraq yaradılıb. İşsizlikdən sığorta sistemi işsiz vətəndaşları uzun müddət sığorta ödənişi almağa deyil, əksinə onların ixtisaslarını, təhsillərini, peşəkarlıqlarını artırmaqla, yenidən əmək bazarına qaytarılmasını stimullaşdırır. Ölkəmizdə də Dövlət Məşğulluq Strategiyasında işsizlikdən sığorta sisteminin yaradılması məsələsi öz əksini tapıb. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli qanunun təsdiq edilməsi və onun tətbiq ilə əlaqədar Fərmanın imzalanması ölkəmizdə əhalinin sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində aparılan dövlət siyasətinin uğurlu davamıdır.

Bu qanun müasir dünyada işsizlikdən sığorta sahəsində mövcud olan təcrübələr əsas götürülməklə, beynəlxalq ekspertlərin və aidiyyəti qurumların rəy və təklifləri nəzərə alınmaqla təkmil səviyyədə hazırlanıb. Burda əsas məqsəd işsizin iş yerini itirdiyi andan onun yeni iş yeri tapanadək olan dövrdə itirilmiş gəlirlərinin tam və ya qismən kompensasiya edilməsi və ona əmək bazarına təkrar qaytarılmasına kömək göstərilməsidir. Sistemin səmərəliliyi bu iki tərəfin qarşılıqlı və əlaqəli fəaliyyətindədir. Həmçinin Azərbaycanın əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əmək haqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə çalışılır.

Ədəbiyyat siyahısı:

1. Bali Mehmet, İşletmelerde Yeniden Yapılanma Yöntemi ile Küçülme ve Küçülmenin İnsan Kaynakları üzerindeki Etkilerinin İncelenmesi, Kütahya, 2006
2. Büte Mustafa, Örgütsel Küçülmenin Olumsuz Etkilerini Giderme Hizmetleri ve Bankacılık Sktöründe Bir uygulama, 2005
3. Gümüştekin G.E., Organizasyonlarda Ölçek küçültme ve Ölçek Küçültme Çalışmalarında Önem Taşıyan Unsular, Selçuk Üniversitesi,Sosyal Bilimler Enstitüsü Dergisi, Konya, 2004
4. Koçel Tamer, İşletmeYöneticiliyi, Beta yayınları, Istanbul, 1999
5. Lewin Jeffrey E., Business customers satisfaction: What happens when suppliers downsize?, Industrial Marketing Management, 2009
6. Lewin Jeffrey E., Biemans Wim, Ulaga Wolfgang, Firm downsizing and satisfaction among United States and European Customers, Journal of Business Research, 2010
7. Ülgen Hayri ve Mirze S.Kadri, İşletmelerde Stratejik Yönetim, arekan yayınları, İstanbul 2007
8. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu (http://www.e-qanun.az/framework/36310)
9. “İşsizlikdən sığorta haqqında” Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (http://www.e-qanun.az/framework/36311)
10. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanunu (http://www.e-qanun.az/framework/2808)

Məhsul istehsalı və satışının proqnozlaşdırılması: yeni yanaşmalar və gələcəyə baxış

i.f.d., Asif Abuzər oğlu Həsənov

doktorant, Vüqar Nüsrət oğlu Vəliyev

Azərbaycan Dövlət Aqrar Universiteti

asif_hasanov@rambler.ru

Dünyada iqtisadi münasibətlər dəyişərək öz növbəsində istehsal və satış münasibətlərinə də təsirsiz ötüşmür. Hazırda vərdişlər, biliklər, təcrübə və intuisiya kimi amillər önə çıxır. Gələcəyin xəritəsi- yeni trendlər üzərindən çəkilir. Gələcəyin necə olacağı hər halda bizim gözləntilərimiz kimi olmayacaqdır. Bu, gələcək haqqında xəritədir, həmin o gələcək ki, artıq mövcud olmaq ərəfəsindədir. Bu, həmin hadisə və tendensiyaları əks etdirir ki, iqtisadiyyatda, istehlakçı davranışlarında, biznes və marketinqdə mövcuddur və yaxın onillikdə mütləq nəzərə alınmalıdır.

Müasir biznesin qərarlar meydanı həll edilməzliklə, amillər qarışığının mövcudluğu ilə, amillərin gizliliyi ilə, həmçinin iki və daha artıq seçimin mövcudluğu ilə xarakterizə olunur. Bununla belə, qərarların dəyəti hər il artmaqdadır, bu da ki, "həyat risk altında" trendi ilə əlaqədardır[1].

Yeni yanaşmalar strateji qərarların qəbul edilməsində və şirkətin gələcəyi haqqında düşüncələrə uyğunlaşmağa imkan verir. Yeni fikirlər vermək, strateji fasilələri aydınlaşdırmağa və yeni imkanları açmaq kreativ innovasiyalar və uduşlu strategiyaları əsaslandırır. Bu əsaslanma şaquli müstəvidə yerləşən 5 əsas iqtisadi amilləri əks etdirir:

- Bazarlar/İqtisadiyyat;
- İstehlakçılar;
- Biznes;
- Marketinq;
- Uğurun açar amilləri.

Üfuqi müstəvidə isə əsas hərəkətverici mexanizmlər aşağıdakılardır:

-Texnologiyalaşma;

-Qloballaşma;

-Sürətlənmə;

-Böyük seçim;

-X insanlar;

-Risk altında həyat.

Dünyada və müasir bazarda baş verən, gələcəkdə iqtisadiyatın inkişafına təsir edən hadisələri, rəqabətqabiliyyətlilik, bazar tələbatını genişləndirmək və əldə saxlamaq qabiliyyətini nəzərə alaraq mühüm istiqamətlər əhatə olunmalıdır:

- Bazar startegiyasının formalaşdırılması və onun tətbiqi;
- Unikal mövqeləşdirmənin axtarılması;
- Brendin və bazar imkanlarının təhlili;
- Brendin gücləndirilməsi və gəncləşdirilməsi;

- Yeni brendin işlənib hazırlanması, inkişafı və irəlilədilməsi.

Texnologiyalaşma son onillliyin ən güclü hərəkətverici mexanizmlərindən biri hesab edilir. O , təmamilə hər şeyi dəyişmişdir: biznesi, insanları, medyanı, istehsalı, elmi, sosial institutları və s. O, zamanı sürətləndirmişdir və proqnozları yumşaq etmişdir və bazarlar hissələrə ayrılmışdır. Məsələn, əgər alimlər insan orqanlarının yetişdirilməsi texnologiyalarını genişmiqyaslı və əlçatan edə bilsələr və ya xəstəlikləri hüceyrə səviyyəsində aradan qaldıracaq nanitlər (nanorobotlar) hazırlasalar "sağlam qida" bazarı 20 ildən sonra necə olacaq?

Beləliklə, nanotexnologiyaların mənizmsənilməsinin artması ilə bazar dəyişikliklərin sürəti və dərinliyi artacaq; internet texnologiyaları ilə yeni distribyusiya modelləri yaradıllar, hansı ki :

1) Minimum xərcləri;

2) Spesifik və digər növ məhsullarla ticarət imkanını təmin edəcəkdir.

Virtual iqtisadiyyatın dövriyyəsi daim artacaqdır; Yeni materiallar, enerji mənbələri və texnologiyalar genişmiqyaslı xarakter daşıyacaqdır.

Bilik bazarı informasiyaya cəld çıxış bazarı ilə əvəzlənmişdir və bu iş davam etməkdədir. Online həyat, günün reallığına çevrilmişdir. İnternet ailədə əlaqələri və münasibətləri müəyyən edilməkdədir.

Videotexnologiyaların inkişafı istehlakçıların informasiyaların əldə olunması və mübadiləsi vərdişlərini müəyyən edir və şirkətlər üçün "şəxsi" kontaktlar prosesini asanlaşdırır. Möhtəşəm təəsüratların yaranması üçün yeni imkanlar açılır.

İstehlakçı bazarların və rəqabətqabiliyyətlilik amillərinin çevik şəkildə yeniliklərə əsaslanan dəyişikliklərə məruz qalmasını görür və hiss edir.

İstehlakçılar dünyanın hər bir yerində hər hansı bir məhsul haqqında fikirlər mübadiləsi etmək imkanına malikdirlər və bu müəyyən seçim etməyə ciddi təsir göstərir.

Hazırki dövrdə pul vəsaitlərinin elektron dövriyyəsi və internet-distirbyusiya xərclərin azladılmasının və müştərilərin dəyişkən tələbatlarının ödənilməsinin əlverişli həlləri kimi çıxış edir.

Bir sözlə idarəetmənin yeni alətləri, elastik qiymətlər, neyromarketinq və genişmiqyaslı marketinq simulyasiyaları kimi elementlər diqqəti cəlb edir.

Mobil əlaqə xəttli digər əlaqələri sıradan çıxarır. Aparılan sorğulara əsasən aydın olur ki, stasionar istifadəçilərin payı 30%-dən aşağı düşmüşdür, xəttsiz əlaqə istifadəçiləri operatora 40% gəlir gətirmişdir. Nəticə etibarilə nümunə olaraq virtual kazino Avstraliyanın ÜDM-nin 1,5%-ni təmin etmişdir.

S.Litci və M.Rot- corabların internet vasitəsilə satılması qərarına gəlmişdilər. İki cür corablar- qara rəngdə gödək və uzun. Şirkətin dövriyyəsi 1 000 000 frankı keçmişdir və s.

2020-ci ilə külət enerjisinin inkişafı dünyada enerji istifadəsinin 12%-ni təmin edə bilər və karbon qazlarının emissiyasının 10 mlrd. tonn azalda bilər. Günəş enerjisinin artımı ildə 50% proqnozlaşdırılır.

ABŞ-da nanokatalizatorların istifadəsi ÜDM-in 20 faizini təmin edir. Bəzi nano alətlərin faydalılıq əmsalı 98%-ə qədər çatır.

Yeni texnologiyaların əsasında ümumdünya maliyyə-iqtisadi ərazinin formalaşması prosesi davam etməkdədir. Qlobal iqtisadiyyat, kapital və texnologiyalarla sıx əlaqədə olaraq onu göstərir ki, xammal, təchizat və ilkin emal sənaye məhsulları hər hansı bir ölkəni onun iştirakçısı kimi xarakterizə edə bilməz. Qlobal iqtisadiyyatda ölkənin yeri, çəkisi yüksək texnologiyalı və informasiyayönümlü texnologiyalar və ya məhsullar ilə formalaşır, hansı ki, bazarda üstünlük təşkil edir və ya burada inhisarçı kimi çıxış edir.

Qloballaşma şirkətlərdə və cəmiyyətdə qlobal rəqabət şəraiti yaradır: bazarlar, şirkətlər, dillər və mədəniyyətlər artıq divarlarla, sərhədlərlə, məsafələr və dil məhdudiyyətləri ilə qorunmur. Məhsul və şirkətlər hədsiz dərəcədə daha az məşğul edilmiş bazarları ələ keçirməkdədirlər. Qloballaşma bütün dünya resurslarını əlçatan edir, təbii resurslardan tutmuş, texnoloji və intellektual resurslara kimi. Hansı ki, inkişafı bir neçə dəfə sürətləndirir və istənilən səviyyədə olan şirkətin imkanlarını artırır[2].

Araşdırmalar göstərir ki, biznesdə orta təbəqə aradan çıxır, ümumqalaktik və aşağı lokal şirkətlərin sahələndirilməsi baş verir.

Avropa Birliyinin 71% əhalisi hər il səyahət edir. Bu proses qlobal brendlərə münasibəti dəyişir, yeni tələbat formalaşdırır və stereotipləri aradan qaldırır.

Qloballaşma aşağı bazarlarda istehsal, yüksək bazarlarda satış strategiyasının reallaşmasına imkan yaradır.

Qlobal bazarlara aktiv daxilolma, şirkətləri öz brendləri üçün mədəniyyət və ərazidən asılı olmayaraq universal qlobal metaforalar axtarmağı məcbur edir. Bu gun insanlıq bir deyil, eyni anda iki dünyada yaşayır: gələcək və indiki dövrdə. Gələcək dövr indiki dövrü geyri-stabilləşdirir və indiki dövr gələcək dövrə qarşı çıxır. Əgər şirkət neft sənayesi sahəsində biznes fəaliyyəti ilə məşğul olursa, ən mühüm sual- gələcəkdə tələbatın olmamasına necə hazırlaşaq. Daxili yanacaq mexanizmi tələbatın əsas mənbəsi kimi 100 illik texnologiya əsasında hazırlanıb və ətraf mühiti çirkləndirir.

Müasir dünyada pul vəsaitini komputer mausunun 2 dəfə klinkləməsi ilə əldə etmək mümkündür. Bu gün biz 5 il əvvələ nisbətən 5 dəfə daha sürətli işləməliyik. 100 dəfə daha sürətli. Bu gün iş ritmi yeni texnologiyalar köməyi ilə ölçülə bilməyəcək dərəcədə sürətli inkişaf edir, buna görə də hər bir subyekt sürətin artırılmasına rəqabət qabiliyyətinin yüksəldilməsinə və intellektual kapitalın artırılmasına cəhd göstərməlidir. Müasir dünya, böyük seçimlər dünyasıdır. Ona görə yox ki, insan qarşısında imkanlar okeanı açılmışdır, həm də ona görə ki, onun qərarına bir çox siqnallar təsir edir. Dünya sadəcə qara və ağa bölünməyi dayandırmışdır, eyni zamanda düzgün seçim üçün 1 variantdan daha çox variant ola bilər. Qərarların qəbul edilməsi məsələləri ilə məşğul olan bir sıra elm və biznes sahələrin meydana gəlmişdir[3].

Dünya populyarlaşır, eyni zamanda düz və tərs mütənasib, bir-birlərini istisna edən tendensiyalar da inkişaf etməkdədir. Bazar qeyri- stabil koordinatlar sistemi ilə çoxşaxəli matrisi əks etdirir.

Mobil telefonlar bazarı miqrasiya edir, "bazarın tektonik dağılmaları" artmaqdadır.İstehlakçı dəyərləri miqrasiya edir, təkliflər, istehlakçı davranışlarının variantları və motivləri çoxluğunun arxasınca gedərək, inkişaf edir, hansı ki, bu məsələ şirkətlər tərəfindən daha dərin öyrənilir. Hər bir əmtəə qrupu daxilində bütöv əmtəə kontingentləri və mövqeləşdirmə yaranmaqdadır. Müşahidələr göstərir ki, biznesin və idarəetmənin bütün sahələrində ideya tapan və insanları ruhlandırmağı bacaran insanların rolu artacaqdır. Neotayfalar yaratmaqla, ideya ətrafında insanları toplamaq və ruhlandırmaq, gələcəkdə bazarda uğur qazanmağın əsas amillərindən hesab edilir. Şirkətlər bir çoxu sürətlə artan bazarlarla qarşılaşmalı olurlar və tez bir zamanda yetginlik (sürətli inkişaf) mərhələsinə çatırlar, belə olduğu halda isə pilotlaşmaya fəqli yanaşmalar tələb olunur, çunki artıq keçmiş qərarların müvəffəqiyyət gətirməyəcəyi bəlli olur. Bazarda qələbə mövqeyini formalaşdırmaq üçün hər hansısa bir anlayışın olmaması şirkəti kəskin dəyişikliklər uğrunda hərəkətlərə boşuna zaman ayırmağa məcbur edir. Komanda üzdən idarəetmə qərarları verir ki, bu da gündəngünə sıxlaşan bazarda hər hansısa bir üstünlük vermir[4]. Bazar dəyişir, istehlakçı dəyərləri ötürülür, şirkətlər yaşlanır və öz formasını itirir. Bazarın dalğasında qalmaq istəyən, potensial sahibi olub, bazardan maksimum mümkün imkan qazanmaq istəyənlər, bazara yeni baxışla baxmalı, biznesin mahiyyətini və artım faktorlarını yenidən nəzərdən keçirməli, məqsədlərə nail olmaq üçün yeni bir sistem qurmalı və komandanı yenidən birləşdirməli və ruhlandırmalıdılar.

Ədəbiyyat siyahısı:

1. A.T.Məmmədov, Marketinqin əsasları, Bakı, 2007
2. О.Уолкер-мл., Х.Бойд-мл., Ж.К.Ларше, Дж.Маллинз Маркетиговая стратегия, М. Вершина 2006
3. J.J.Lamben Bazar yönümlü menecment. Strareji və əməliyyat marketinqi, Bakı 2008
4. С.Г.Чувакова Стратегический маректинг, М., Дашков и К, 2010.

Xülasə

Məhsul istehsalı və satışının proqnozlaşdırılması: yeni yanaşmalar və gələcəyə baxış

i.f.d., Həsənov Asif Abuzər oğlu
doktorant, Vəliyev Vüqar Nüsrət oğlu
Azərbaycan Dövlət Aqrar Universiteti
asif_hasanov@rambler.ru

Açar sözlər: istehsal, proqnozlaşdırma, bazar, satış, elektron ticarət, istehlak.

Son onilliyin elmi və texniki kəşfləri bazarların da dəyişməsinə gətirib çıxarmışdır. Bir çox bazarlar meydana gəlmiş, bəziləri sıradan çıxmışdır. Nanotexnologiyaların mənimsənilməsinin artması ilə bazar dəyişikliklərin sürəti və dərinliyi artmışdır.

Videotexnologiyaların inkişafı istehlakçıların da informasiyaların əldə olunması və mübadiləsi vərdişlərini müəyyən etmiş və şirkətlər üçün "şəxsi" kontaktlar prosesini asanlaşdırmışdır.

Bütün yuxarıda qeyd olunan məsələlər həm istehsalın, həm də satışın proqnozlaşdırılmasında yeni yanaşmaların tətbiqini zəruri etmişdir.

Summary

Forecasting the production and sale of goods: new approaches and vision to the future

PhD in economic, Hasanov Asif Abuzar
doctorate, Veliyev Vuqar Nusrat
Azerbaijan State Agrarian University
asif_hasanov@rambler.ru

Key words: production, forecasting, market, sale, e-commerce, consumption.

The scientific and technical inventions the last decade have also led to the changing of markets. Many markets have emerged, and some of them have ceased to exist. With the developing of nanotechnology, the speed and depth of market changes have increased.

The progress of video technology has also determined the consumer's acquisition and sharing information and facilitated the “personal” contacts process for companies.

All of the above mentioned issues made necessary the introduction of new approaches to production and sales forecasting.

Azərbaycanda bələdçiliyin ümumi vəziyyəti

The overall situation of the guide in Azerbaijan

Общая ситуация руководства в Азербайджане

Müəllif: İbrahimli Şükür

Azərbaycan Turizm və Menecment Universiteti

Author: Ibrahimli Shukur

Azerbaijan Tourism and Management University

Автор: Шукюр Ибрагимли

Азербайджанский университет туризма именеджмента

E-mail adresi: sukur.hero@gmail.com

Xülasə:1907-ci ildə Rusiya turist cəmiyyətinin (RTC) tərkibində «Rusiya üzrə ekskursiya» təşkilatı yaradılması, SSRİ-də, o cümlədən Azərbaycanda turizmlə bağlı addımlardan biri olmuşdur. Məqalədə 1958-ci ildə yaradılmış Beynəlxalq gənclər turizm bürosu “Sputnik” haqqında da yer verilmişdir.Ölkəyə gələn turistlərin sayı artdıqca onlarla işləyəcək yüksək ixtisaslı kadrların - peşəkar bələdçi-tərcüməçilər və bələdçi-təlimatçılara tələbatın artdığını nəzərə alsaq, bu baxımdan turizm sahəsində problemlərin mövcud olduğu barədə məlumatlar öz əksini tapmışdır. Məhz sözügedən kadrların peşəkarlığı, dünyagörüşü, mükəmməl biliyi, insanlarla ünsiyyət qurmaq bacarığı nəticə etibarilə turizm məhsulunun keyfiyyətinə təsir edir. Azərbaycan Turizm Şirkətləri Assosiasiyası Mədəniyyət və Turizm Nazirliyi

və Azərbaycan Turizm İnstitutu (ATİ) ilə birlikdə bələdçi kurslarının açılması ilə bağlı xüsusi layihələr hazırlayır. Bu gün Azərbaycanda turizmin aktiv sahələrdən birinə çevrildiyi və yeni səviyyəyə çıxdığı bir zamanda, bələdçilərin və ekskursiya rəhbərlərinin peşəkarlığı vacibdir.Azərbaycan dünya tarixində böyük etnik mədəniyyət sayılır və onun qonaqlara savadlı təqdimi ölkənin imicinin yüksəldilməsi üzrə işin vacib hissələrindən biridir.

Açar sözlər:RTC", turizm, bələdçi, 'Sputnik", kadr, AzTA

Abstract: Establishment of the "Russia Excursion" organization within the Russian Tourist Society (RTC) in 1907 was one of the steps taken in the USSR, including tourism in Azerbaijan. The article also includes the International Youth Tourism Bureau "Sputnik", established in 1958. Given the increasing demand for qualified cadres - professional guide-translators and trainers, as the number of tourists arriving in the country increases, information on tourism problems is present in this respect. The professionalism, the outlook, the perfect knowledge, and the ability to communicate with the people, ultimately affect the quality of the tourism product. The Association of Tourism Companies of Azerbaijan together with the Ministry of Culture and Tourism and Azerbaijan Tourism Institute (ATI) develops special projects related to the opening of the guide courses. At present, when tourism is one of the most active areas in Azerbaijan, and at a new level, professionalism of guides and excursion managers is important. Azerbaijan is considered to be a great ethnic culture in the history of the world and its well-educated guests are one of the most important part of the work on raising the country's image.

Key words:RTC", tourism, guide, 'Sputnik", staff, AzTA

Рез*ю*ме:Одним из шагов, предпринятых в СССР, в том числе туризма в Азербайджане, стало создание в 1907 году организации «Русская экскурсия» в Российском туристском обществе (РТК). В эту статью также входит Международное бюро молодежного туризма «Спутник», созданное в 1958 году. Учитывая растущий спрос на квалифицированные кадры - профессиональных гидов-переводчиков и тренеров, по мере увеличения числа туристов, прибывающих в страну, в этом отношении присутствует информация о проблемах туризма. Профессионализм, мировоззрение,

совершенное знание и способность общаться с людьми в конечном итоге влияют на качество туристического продукта. Ассоциация туристических компаний Азербайджана совместно с Министерством культуры и туризма и Институтом туризма Азербайджана (ATI) разрабатывают специальные проекты, связанные с открытием учебных курсов. В настоящее время, когда туризм является одним из самых активных и быстро растущих отраслей в Азербайджане, то тогда очень важно профессионализм гидов и экскурсоводов. Азербайджан считается великой этнической культурой в истории мира, а его качественное представление для гостей-одна из важнейших частей работы по повышению имиджа страны.

Ключевые слова:“POT”, “Спутник”, кадры, Ассоциация туризма Азербайджана (AzTA)

XIX əsrdən məktəblərdə, ali təhsil ocaqlannda, səyahətlərdə ekskursiya təlimin bir formasr kimi istifadə olunur. Elmi-coğrafi ölkəşünaslıq haqda məlumatlar toplamaq üçün ekskursiyalar təşkil edilir.

Turizmin əsas məqsədi, ekskursiya və səyahətlər vasitəsilə əhalini maariftəndirmək idi.

İnkişaf etmiş ölkələrdə, artıq ekskursiyalar səyahətin əsas hissəsi olub məqsədli səciyyə daşıyır və bu da gəzmək, öyrənmək, tanış olmaq kimi ekskursiya turizminin yaranmasına səbəb olmuşdur.

Azərbaycanda turizm sektoru sürətlə inkişaf etməkdədir. Ölkəmiz artıq dünya turistləri üçün cəlbedici məkana çevrilir. Bunun arxasında isə son illər respublikamızda aparılan iqtisadi islahatlar, turizm sahəsində güclü infrastrukturun yaradılması yönündə görülən işlər dayanır. Məhz bu fəaliyyətin nəticəsidir ki, ildən-ilə ölkəyə gələn turistlərin sayında əhəmiyyətli artım müşahidə olunur.

Lakin inkişafda olan hər bir sahədə olduğu kimi, turizmdə də problemlər mövcuddur. Ölkəyə gələn turistlərin sayı artdıqca onlarla işləyəcək yüksək ixtisaslı kadrların - peşəkar bələdçi-tərcüməçilər və bələdçi-təlimatçılara tələbatın artdığını nəzərə alsaq, bu baxımdan turizm sahəsində problemlərin mövcud olduğunu xüsusilə qeyd etmək lazımdır. Məhz sözügedən kadrların peşəkarlığı, dünyagörüşü, mükəmməl biliyi, insanlarla ünsiyyət qurmaq bacarığı nəticə etibarilə turizm məhsulunun keyfiyyətinə təsir edir.

Turizmin inkişaf etdiyi ölkələrdə bu fakta xüsusi önəm verilir. Bələdçilərin fəaliyyəti bir neçə qurum tərəfindən tənzimlənir və müvafiq idarənin icazəsi olmadan hər hansı turizm müəssisəsi bələdçi xidmətindən istifadə edə bilmir. Üstəlik,

bələdçiliklə məşğul olmaq istəyən şəxsin mütləq lisenziyası olmalıdır. Ukraynada və Rusiyada turizm bələdçilərinin lisenziyasız fəaliyyətinə görə cərimələr nəzərdə tutulur. İtaliyada isə belə sənədi olmayan bələdçinin xidmətindən istifadə edən turistin hətta özünü də cərimə edirlər.

Bir çox ölkələrdə bu işə turizm təhsili verən müəssisələr və həmin ölkələrdə fəaliyyət göstərən turizm şirkətləri assosiasiyaları məsuldur. Maraqlıdır, bəs Azərbaycanda vəziyyət necədir? Öncə qeyd edək ki, ölkəmizdə bələdçi-tərcüməçilərin sayı barmaqla sayılacaq qədər azdır. Əksər turizm şirkətlərinin rəhbərləri də bu baxımdan çətinliklərlə qarşılaşırlar.

Sovetlər dönəmində xarici turistlərlə işləyən "İnturist" sistemində 90-a yaxın, daxili turizmlə məşğul olan Bakı Səyahətlər və Ekskursiyalar Bürosunda 150, gənclərin səyahətini təşkil edən "Sputnik"də isə 20-yə yaxın bələdçi, bələdçi-tərcüməçi və bələdçi-təlimatçı fəaliyyət göstərib. Bu insanlar müxtəlif ali məktəbləri qurtarsalar da, onlar müxtəlif seçim turlarından qalib çıxaraq, ən azı altı aylıq xüsusi hazırlıq keçdikdən sonra təcrübəli bələdçilərin nəzarəti ilə işə başlayırdılar. 90-cı illərin əvvəlində, bir çox sahələrdə olduğu kimi, turizm sahəsində də yaşanan böhran, ölkəyə gələn turistlərin sayının kəskin azalması ilə əlaqədar həmin peşəkar kadrların bir hissəsi ölkəni tərk etdi, digərləri isə turizmdən uzaq sahələrdə çalışmağa başladı. Nəticədə Azərbaycan turizmi bu sarıdan ciddi kadr çatışmazlığı ilə üzləşdi. Bu gün xarici, eləcə də daxili turistlərlə işləyən peşəkar bələdçilərin sayı çox azdır. (36)

Mütəxəsslərin fikrincə, bələdçi hazırlığına differensial yanaşma olmalıdır: Məsələn, macəra turizmi üzrə bələdçi velosiped sürməyi, aşpazlıq etməyi, həkimliyi bacarmalı, piyada səyahət üçün bələdçi fiziki hazırlıqılı şəxs, eləcə də maraqlı həmsöhbət olmalıdır.

Ötən əsrin 70-80-ci illərində respublikamızda ekskursiyaya çıxan bələdçilərə Bakı Səyahətlər və Ekskursiyalar Bürosu tərəfindən icazə verilirdi. Bələdçi-tərcüməçilərin hazırlanmasına bu qurumun tərkibində fəaliyyət göstərən Metodiki Şura cavabdeh idi. Büronun 150-yə yaxın bələdçisi vardı ki, onlardan yalnız 30-u idarənin işçisi idi. Qalanları isə ştatdankənar işləyirdi. Onlar bu peşəni sevən adamlar idilər və asudə vaxtlarında müəyyən marşrutlar üzrə bələdçilik edirdilər.

Bələdçinin turistə verdiyi məlumatlar, ilk növbədə, Milli Elmlər Akademiyasının müvafiq institutlarının rəyi əsasında hazırlanmalıdır. Bu qurum müəyyənləşdirməlidir ki, bələdçi ölkəyə gələn qonağa nəyi deyə bilər, nəyi yox. Hər xarici dil bilən şəxsdən bələdçi olmaz. Bu işin mütəxəssisi olmağın şərtləri var.

Yeri gəlmişkən, indiyədək Azərbaycan dilində bələdçinin məlumat kitabı nəşr olunmayıb. Belə vəsaitlərə rus dilində çox rast gəlmək olar. Azərbaycan dilində ümumilikdə isə bu sahəyə dair cəmi 2-3 ədəd kitab var.

Bu gün Azərbaycanda turizmin aktiv sahələrdən birinə çevrildiyi və yeni səviyyəyə çıxdığı bir zamanda, bələdçilərin və ekskursiya rəhbərlərinin peşəkarlığı məsələsi həyati vacib önəm qazanır. Axı ölkənin təqdimatı, onun görməli yerlərinin, tarixinin, mədəniyyətinin və dəyərlərinin tanıdılması missiyası onların öhdəsinə düşür. Azərbaycan dünya tarixində böyük etnik mədəniyyət sayılır və onun qonaqlara savadlı təqdimi ölkənin imicinin yüksəldilməsi üzrə işin vacib hissələrindən biridir.

Turizm və Menecment İnstitutunun yanında bələdçi ixtisası üzrə üçayılıq kurslar təşkil edilir. Bu kursları keçmiş müdavimlər imtahan verirlər və səriştələrinin səviyyəsi meyarı kimi sertifikat alırlar. Amma gerçəklikdə qeyri-peşəkar bələdçidən sığorta olunmaq elə də sadə iş deyil.Sertifikatı olmayan bələdçilərin fəaliyyəti qanunsuz sayılsa da, indiyə kimi ixtisassız və ya sertifikasız xidmətə görə hər hansısa məsuliyyəti nəzərdə tutan qanun qəbul edilməyib.

Azərbaycanın turizm üçün cəlbediciliyi mümkün olan hər yerdə bəyan edilir. Amma indi turizm agentliklərinin əksəriyyəti xarici turizmə, yəni bizim turistlərin xaricə getməsinə istiqamətləniblər. Daxili turlar əsasən yerli istehlakçıya hesablanıb, ingilis dilində Azərbaycan rayonlarının gözəlliyini vəsf edən buklet və ya flayer tapmaq çox çətindir.

2006-cı ildə Turizm İnstitutu fəaliyyətə başlayanda qarşıya qoyulan məqsədlərdən biri də bələdçi sahəsində olan boşluğu aradan qaldırmaq idi. Azərbaycan Turizm İnstitutunda tərcümə fakültəsində təhsil alan tələbələrdən gələcəyin bələdçiləri hazırlanır. Bu peşəyə özünü həsr etmək istəyən insanlar üçün xüsusi kurslar fəaliyyət göstərir. İstənilən şəxs həmin kurslarda iştirak edə bilər". Gələn qonaqlara ölkənin tanıdılmasında mühüm amillərdən biri bələdçinin keyfiyyətli xidmət göstərməsidir. Bələdçi məlumatları turistlərə kifayət qədər yaxşı çatdırmasa, onun fəaliyyəti artıq qonaqların ölkəmiz haqda müsbət düşüncələrinin yaranmasına səbəb olmayacaq. Azərbaycanda bir çox hallarda xüsusi peşəkarlar yox, ayrı-ayrı otellərin işçiləri məcburən bələdçilik edir. Ümumiyyətlə, turizm sahəsində konkret olaraq işçilər ixtisaslaşdırılmalıdır. Konkret işçilər olmalıdır ki, bu sahəni inkişaf etdirsinlər. Otel işçiləri yox, xüsusi peşəkar bələdçilər turistlərlə maraqlanmalıdırlar. Bu kimi məsələlər artıq ortaya qoyulmalı və məsələnin həlli üçün addımlar atılmalıdır. Ölkədə turizm inkişaf etdikcə bu məsələlər artıq geniş vüsət aldığından, həlli yolları axtarılır. İnşallah, gələcək dönəmdə nəticələr də

görəcəyik. Məsələn, əvvəllər Turizm İnstitutu yox idi. Onda vəziyyət daha acınacaqlı idi. Son illərdə Turizm İnstitutu yaradılıb və zamanla bu məsələlər öz həllini tapacaq. Hazırda, qismən də olsa, turizm sahəsində problemlər həll olunmağa başlayıb. Amma hələ də xidmət keyfiyyətli səviyyədə deyil.

Ümumiyyətlə, xarici ölkələrdə bütün istiqamətlərə uyğun kurs mərkəzləri var. Eləcə də turizm işçilərinin yetişdirilməsi üçün. Təəssüflər olsun ki, bizdə elə kurs mərkəzləri yoxdur. Yaxşı olar ki, bu təcrübə Azərbaycanda da tətbiq olunsun. Sırf otelçiliklə bağlı, bələdçilik və s. xidmətlər bu cür kurslarda təlim edilə bilər. Bizdə bir çox hallarda yeni-yeni otelləri peşəkar şəkildə idarə etmək üçün, xidmətləri həyata keçirmək üçün insanlar xarici ölkələrə üz tutur, orda təcrübə keçib bura qayıdırlar. Xaricdə təşkil olunan kurslar Azərbaycanda da təşkil olunsa, artıq bizdə də tələblərə cavab verən bələdçilər yetişə bilər. Yaxın gələcəkdə dövlət tərəfindən atılan addımlar sayəsində bu sahədə ciddi irəliləyişlər müşahidə olunacaq. İnkar eləmək olmaz ki, bizdə də tələblərə cavab verən peşəkar bələdçilər var. Amma onlar çox az saydadır. Bu sahədə kadr çatışmazlığı həm də onunla bağlıdır ki, həm turizm şirkətləri, həm də otellər bələdçilərə o qədər az məvacib verir ki, insanlar bu işdən uzaq düşür. Yəni əmək haqqının az olması ölkədə peşəkar bələdçilərin sayca az olmasının səbəblərindən ən mühümüdür. Düzdür, son dövrlərdə əmək haqlarının qaldırılması üçün dövlət tərəfindən müəyyən addımlar atılır. Ona görə də, gələcəkdə bu problemin də öz həllini tapacağı gözlənir.

Beləliklə, ilk növbədə xüsusi kurs mərkəzlərinin yaradılması, ikinci məsələ olaraq isə əmək haqlarının qaldırılması təklif edilir. Bələdçinin peşəkar fəaliyyəti lazımi şəkildə qiymətləndirilməlidir. İnsanları bu işə stimullaşdırmaq lazımdır. Mədəniyyət Və Turizm Nazirliyinin nəzdində yaradılmış Turizm assosiasiyasının rəhbərliyi ilə ölkədə bu kursların yaradılması nəzərdə tutulub. Kadr çatışmazlığının aradan qaldırılması üçün addımlar atılır və yaxın gələcəkdə nəticə əldə olunacağı gözlənir.

İstifadə olunun ədəbiyyat siyahısı

1. Ağakərimov M. M. *Ekskursiya və ekskursiya rəhbəri*. Bakı, Oskar NPM, 2006. 175 s.
2. Azərbaycan: Bələdçikitabı /Redaksiyaheyəti: Rafael Hümbətovvə b.Bakı: 2003. 256 s.
3. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Bakı, Mütercim, 2004. 312 s.
4. Turizmin əsasları: dərslik / müəllif kollektivi; dosent B.Ə.Bilalov və dosent Ç.G.Gülalıyevin redaktəsi ilə. Bakı, " QHT Nəşriyyatı", 2015. 496 s.

5. Azərbaycan turizm və menecment universiteti: http://atmu.edu.az/

ELMİ-TEXNİKİ TƏRƏQQİ VƏ İQTİSADİ İNKİŞAFDA ONUN ROLU

Kəmalə Vaqif qızı Əzizova

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının baş müəllimi

ilqarosmanov1975@mail.ru

Müasir dövrdə təbiətlə cəmiyyət arasında və eləcə də beynəlxalq aləmdə ölkələr arasında əmələ gələn ziddiyyətlərin həll edilməsi üçün elmi-texniki tərəqqinin mühüm rolu vardır. Elmi-texniki tərəqqi təkcə məhsuldar qüvvələrin yüksəldilməsindən ibarət olmayıb, o həm də cəmiyyətdə siyasi, iqtisadi, mədəni, təbii və s. proseslərlə bağlı köklü dəyişikliklərin baş verməsində həlledici rola malikdir.

Bəzən elmi-texniki tərəqqi (ETT) dedikdə, yalnız əmək vasitələrinin təkmilləşdirilməsini başa düşürlər. Əmək vasitələrinin təkmilləşdirilməsi ictimai əmək məhsuldarlığını artırmağın çox mühüm amilidir, deməli, texniki tərəqqinin də vacib ünsürüdür. Lakin, elmi-texniki tərəqqinin məzmunu bununla tamamlanmır. O, texnoloji proseslərin təkmilləşdirilməsini, istehsalın idarə edilməsini və təşkilini, xammal və köməkçi materialların keyfiyyətinin yaxşılaşdırılmasını, hazır məhsulun yüksək keyfiyyətdə olmasını, xam materialların və enerjinin yeni növlərinin yaradılmasını özündə birləşdirir. İri maşınlı sənaye şəraitində keyfiyyət, möhkəmlik, məhsuldarlıq, çəki, qabarit, güc və əmək alətlərinin başqa parametrləri onların hazırlanmasına gedən materialların xassələrindən asılıdır. Buna görə də maşınlar, avadanlıq, cihazlar, alətlər istehsalında istifadə edilən materialların təkmilləşdirilməsi və əmək predmetləri nomenklaturasının genişləndirilməsi sənaye istehsalında elmi-texniki tərəqqinin mühüm ünsürüdür.

Müasir dövrdə elmi-texniki tərəqqi vaxtaşırı baş verən elmi-texniki inqilablar şəraitində həyata keçirilməkdədir. Başqa sözlə, elmi-texniki tərəqqiyə xas olan cəhət onun elm və texnikanın həm təkamül və həm də inqilabi inkişafını özündə birləşdirməsindədir.

Miqyası nöqteyi nəzərindən elmi-texniki inqilabdan geniş olan elmi-texniki tərəqqi XX əsrin ikinci yarısından başlayaraq daha mütəhərrik olmuş, ictimai həyatın bütün tərəflərini əhatə etmiş və ictimai istehsalın inkişafının intensiv amillərinə geniş meydan açmışdır. Müasir dövrdə elm və texnikanın inkişafı əsasında ictimai

istehsalın maddi ünsürlərində baş verməkdə olan keyfiyyət dəyişmələri cəmiyyət tarixinin keçmiş dövrlərində baş vermiş müvafiq yeniliklərdən mahiyyətcə köklü surətdə fərqlənir. Belə ki, əvvəllər baş vermiş elmi və texniki çevrilişlər təbiət hadisələrini dərk etməyin miqyasını genişləndirmiş, bürünc əvəzində dəmirdən istifadəyə keçilmiş, əmək alətləri əvəzində maşınlar və habelə buxar enerjisi əvəzində elektrik enerjisinin tətbiqinə başlanılmışdır. Elm və texnikada əvvəllər baş vermiş inqilabi çevrilişlər vaxt etibarilə paralel baş vermiş olsalar da, vəhdət təşkil etməmiş, qarşılıqlı təsir və asılılıqda olmamış, hər biri öz-özlüyündə dəyişilmişdir [1, səh.457].

İstehsal aparatında baş verən bütün keyfiyyət dəyişmələri istehsal üsulunun məhsuldar qüvvələr cəhətini onun daha da inqilabiləşməsinə, öz inkişafı üçün geniş imkanlar tələb edən tərəfə çevrilir. Elmi-texniki inqilab dövrünün texnikası insanın əqli fəaliyyət sahəsinə geniş tətbiq edilir. Müxtəlif qəbildən olan kibernetika maşınları və qurğuları insanı bir sıra idarəetmə nəzarət və hesablama funksiyalarından azad edir ki, bu da ona istehsalın idarəedilməsi və təkmilləşdirilməsi aspektinə yaradıcı diqqət yetirməyə kömək edir. İstehsalın səmərəliliyini yüksəltməyin mühüm şərti olan idarəetmənin avtomatlaşdırılması həyata keçirilir.

Mütərəqqi texnika və texnologiya əmək məhsuldarlığının dönmədən artmasının əsasıdır. Ən yeni əmək alətlərinin tətbiqi əsas istehsal fondlarının aktiv hissəsinin artması ilə və deməli, əməyin fond təchizatı ilə yanaşı gedir. Lakin çalışmaq lazımdır ki, əməyin fondla təchizatının artım sürəti əmək məhsuldarlığının artım sürətindən az olsun. İstehsal texnikası müxtəlif formada: əmək alətləri; maşın, avtomat və cihaz formasında olur. Texnika maşın formasında olmaya bilər. Əvvəllər mövcud olan çəkiclər, toxucu dəzgahları və s. texnikanın sadə ünsürləri idilər. Müasir şəraitdə texnikadan bir-birindən təcrid olunmuş halda deyil, müəyyən texniki sistem halında istifadə olunur. Maşınlar sistemini yaratmaq üçün müəyyən texniki vasitələr lazımdır. Məsələn, iri sənaye müəssisələridə tornaçı dəzgahı maşınlar sisteminə daxildir, hər hansı təmir emalatxanasında isə bu yalnız fəhlələrin mürəkkəb aləti kimi çıxış edir. Maşınlar sistemini əmələ gətirmək üçün ən əvvəl mühərrik-maşın, ötürücü-maşın və işçi-maşını lazımdır [2, səh.114].

Texnikanın səmərəliliyi və səmərə bir-birilə əlaqədardır, lakin eyni anlayış deyildir. Belə ki, texnikanın səmərəliliyi nəticəsində müəyyən səmərə əldə edilir. Deməli, səmərəlilik səbəb, səmərə isə nəticədir. Texnikanın iqtisadi potensialı onun konstruktiv, texnoloji və istismar keyfiyətləri ilə müəyyən olunur ki, bu, özü də

ictimai əmək məhsuldarlığının yüksəldilməsi potensialını, imkanlığını müəyyənləşdirir. Texnikanın potensial imkanından maksimum istifadə edilməsi onun istismar rejiminə əməl edilməsi ilə bağlıdır.

ETT əqli əməklə fiziki əmək arasında, şəhərlə kənd arasındakı mühüm fərqlərin aradan qaldırılması üçün maddi zəmin yaradır. Yeni texnikanın inkişafından əmək şəraitini əsaslı surətdə yaxşılaşdırmaq və yüngülləşdirmək, ağır fiziki əməyi, sonra isə ixtisassız əməyi aradan qaldırmaq üçün istifadə olunur. ETT işçilərin ixtisaının artırılmasını və onların mədəni-texniki səviyyəsinin yüksəlməsini, yeni peşələrin əmələ gəlməsini və ağır, ixtisassız əməklə əlaqədar olan köhnə peşələrin yox olmasını müəyyən edir. Elektrikləşdirmə və avtomatlaşdırmaya əsaslanan mürəkkəb texnika ancaq yüksək ixtisaslı fəhlə tərəfindən idarə oluna bilər. Nəzərə almaq lazımdır ki, istehsal amillərindən səmərəli istifadəni təcəssüm etdirən ETT proses olaraq bir neçə istiqamətdə də cərəyan edir. Bu istiqamətlərdə başlıca özəllik ondan ibarətdir ki, qısa müddət ərzində maksimum iqtisadi və sosial effekt əldə olunsun. Ümumən götürdükdə ETT-nin istiqamətləri dövlət (ümumdövlət) və xüsusi (sahə) tərkibli olurlar. Dövlət tərkibli ETT-nin istiqaməti perspektivdə bir və ya bir neçə ölkələr üçün əhəmiyyət daşıyan xarakterli olur. Xüsusi (sahə) tərkibli ETT-nin istiqaməti özlüyündə iqtisadiyyatın və sənayenin hər hansısa bir sahəsi üçün zəruri və prioritet olan elementləri birləşdirir.

Məlumdur ki, istehsal amillərindən istifadənin yüksəldilməsi ETT üzrə yeni texnika və texnologiyaların tətbiqinə görə həyata keçirilir ki, bu da müəssisə səviyyəsində həmin texnika və texnologiyaların təhlilinin qiymətləndirilməsini zəruri etmişdir. Bu baxımdan hesab edirik ki, təhlil üç proses-kateqoriyası üzrə həyata keçirilməlidir:

1. Prinsipial olaraq analoqu dünyada olmayan yeni texnika və avadanlıqlar. Belə texnika və avadanlıqların əldə olunması böyük həcmdə maliyyə vəsaiti və daha çox vaxt (5-10 ilə qədər) tələb edir. Məlumdur ki, belə texnikalar əmək məhsuldarlığını dərhal yüksəldərək resursa qənaət funksiyasını yerinə yetirir. Onun əldə olunması müəssisələr üçün baha başa gəldiyindən ondan düzgün istifadə zamanı qısa müddətdə texnoloji sıçrayış baş verir və bu da öz növbəsində bazarda rəqiblər üzərində üstünlüyə malik olmanı şərtləndirir ki, nəticədə də xərclərin tez bir zamanda ödənilməsini təmin olunur.

2. Müasir elmi-texniki səviyyəyə uyğun və analoqu olmayan yeni texnika və texnologiyalar. Bu kateqoriyadan olan texnikalar məlumdur ki, digər sahələrdən və

ya ölkələrdən qarşılıqlı olaraq əldə olunmuşdur ki, dövrü olaraq da bu 3-4 istehsal ilini əhatə edərək dəyişilməyə hazır olan avadanlıqlar kimi çıxış edir.

3. İstehsal prosesinin modernizasiyası və səmərəliliyinin yüksəldilməsi məqsədi ilə tətbiq olunan yeni texnika və texnologiyalar. Bu kateqoriyadan olan avadanlıqların tətbiq olunması müəssisələr üçün az məsrəflə həyata keçirilir və vaxt olaraq 0,5-2 ilə qədər istehsal dövrünü əhatə edir [5, səh.91].

Elmi-texniki tərəqqinin ayrı-ayrı istiqamətlərini səciyyələndirən və bütövlükdə əməyin və istehsalın texniki təchizat səviyyəsi haqqında təsəvvür verə bilən göstəricilər sistemi lazımdır. Həmin göstəricilər sistemi əsasında elmi-texniki tərəqqi ayrı-ayrı sahələrdə tətbiq edilir.

Yeni texologiyanın tətbiqi ilə əlaqədar olaraq səmərəlilik göstəricisini xarakterizə edərkən müəyyən ümumiləşdirilmiş göstəricilər sistemindən istifadə edilir.

1. Konkret elmi-texniki tədbirləri xarakterizə edən və istehsalın səmərəliliyini göstərən ümumiləşdirilmiş iqtisadi səmərəlilik göstəriciləri:

- yeni texologiyanın tətbiqi ilə əlaqədar səmərəliliyin artım tempi və ya istehsal xərclərinin qeyd olunan proseslə əlaqədar aşağı düşməsi;

- yeni texnologiyanın səmərəli tətbiqi ilə əlaqədar xalis məhsul buraxılışının artımı;

- yeni texnologiyanın səmərəli tətbiqi ilə əlaqədar əmək sərfiyyatında qənaətin olunması və xərclərin aşağı düşməsi;

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar xərclərin aşağı düşməsi və gəlirin yüksəlməsi.

2. Yeni texnologiyanın tətbiq olunması ilə əməkdən istifadənin səmərəliliyinin göstəriciləri:

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar əmək məhsuldarlığının artım tempi;

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar olaraq işçilərin sayında olunmuş qənaət;

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar olaraq xalis, əmtəəlik məhsulun və gəlirin artımı;

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar olaraq əmək haqqı fondunda edilmiş qənaət.

3. Yeni texnologiyaların tətbiqi ilə əlaqədar olaraq əsas fondların işinin səmərəliliyinin yüksəlməsi göstəriciləri sistemi:

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar olaraq amortizasiya xərclərinə qənaətin olması;

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar qənaət olunmuş amortizasiya xərclərinə görə əmtəəlik məhsulun və gəlirin yüksəldilməsi.

4. Yeni texnologiyanın tətbiqi ilə əlaqədar olaraq maddi resurslardan istifadının yüksəldilməsini xarakterizə edən göstəricilər sistemi:

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar olaraq istehsal olunmuş konkret növ məhsulun materialverimi göstəricisinin yüksəldilməsi;

- yeni texnologiyanın tətbiqi ilə əlaqədar olaraq material xərclərinin aşağı düşməsi;

- yeni texnologiyaın tətbiqi ilə əlaqədar olaraq materialveriminin yüksəlməsi və material xərclərinin aşağı düşməsi hesabına xalis əmtəəlik məhsulun və gəlirin yüksəlməsi [4, səh.316].

Nəzərə almaq lazımdır ki, təqdim olunan göstəricilər sistemi müəssisənin yeni texnologiyanı tətbiq etməsi ilə əldə olunan səmərəliliyi tam şəkildə ifadə edir. Bundan başqa bu göstəricilər sistemi vasitəsi ilə də istehsalın səmərəliliyini müəyyən etməklə eyni zamanda yeni texnologiyanın əldə olunması üçün kapital qoyuluşunun səmərəliliyini də ifadə etmək olar.

Elmi-texniki tərəqqinin iqtisadi inkişafda rolunu nəzərə alsaq, ilk olaraq elmi-texniki potensialın formalaşması zəruridir. Müasir dövrdə elmi-texniki potensialı yığcam halda ifadə etsək qeyd edə bilərik ki, elmi-texniki potensial cəmiyyətdə elmi-texniki, sosial-iqtisadi inkişafa nail olunması üçün elmi-tədqiqat işlərinin aparılması, tədqiqi, təcrübədən keçirilməsi və s. proseslərdə bilavasitə iştirak edən resurslarla xarakterizə olunur.

Qeyd etmək lazımdır ki, dünyanın qabaqcıl ölkələri özlərinin elmi-texniki potensiallarını daim artırmaq qayğısına qalırlar və bu kəskin rəqabət mübarizəsində baş verir. Çünki, güclü elmi-texniki potensialı olmayan ölkə elmi-texniki tərəqqini sürətləndirə bilməz. Məhz buna görə də elmi-texniki tərəqqini sürətləndirmək üçün

elmi-texniki potensialın özündə kəmiyyət və keyfiyyət dəyişiklikləri aparılmalıdır. Elmi-texniki tərəqqi sürətləndikcə ölkənin elmi-texniki potensialı da kəmiyyətcə artır, keyfiyyətcə zənginləşir və bu proses elmi-texniki tərəqqini sürətləndirmək üçün yeni imkanlar açır [3, səh.55].

Yekun olaraq deyə bilərik ki, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsi, ölkə iqtisadiyyatının texniki cəhətdən yenidən qurulmasına, istehsalın səmərəliliyinin və məhsulun keyfiyyətinin yüksəldilməsinə, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına səbəb olur. İstehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması, yeni texnoloji istehsal üsullarının, daha səmərəli materialların, istehsalın və əməyin təşkilinin qabaqcıl formalarının tətbiq edilməsi və s. iş vaxtına, materiallara, enerjiyə qənaət olunmasına kömək edir, məhsul istehsalının həcmini artırır və bununla da məhsul vahidinə çəkilən xərcləri azaldır. Deməli, müasir dövrdə elmi-texniki tərəqqinin sürətləndirilməsinin ən mühüm vəzifəsi istehsalın intensivləşdirilməsini və onun səmərəliliyinin yüksəldilməsini təmin etməkdən ibarətdir.

ƏDƏBİYYAT SİYAHISI

1. H.B.Allahverdiyev, K.S.Qafarov, M.Ə.Əhmədov. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2006. 834 səh.

2. V.İ. Kuşlin. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2008, 811 səh.

3. A.N. Muradov. Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri. Bakı, 2005. 324 səh.

4. T.Ə. Quliyev. Menecmenti əsasları. Bakı, Qərənfil, 2006. 591 səh.

5. Е.Н. Лобачева. Научно-технический прогресс: Учобное пособие. Изд. Экзамен, 2004. 365 стр.

XÜLASƏ

Kəmalə Vaqif qızı Əzizova

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının baş müəllimi

ELMİ-TEXNİKİ TƏRƏQQİ VƏ İQTİSADİ İNKİŞAFDA ONUN ROLU

Məqalədə elmi-texniki tərəqqi çoxistiqamətli və çoxcəhətli kompleks bir proses olmaqla tədqiq edilmiş, ölkənin iqtisadi inkişafda rolu araşdırılmışdır. Eyni zamanda ellmi-texniki tərəqqinin əsas xüsusiyyətləri və əlamətləri

müəyyənləşdirilmişdir. Yeni texologiyanın tətbiqi ilə əlaqədar ümumiləşdirilmiş göstəricilər sistemi açıqlanmışdır.

Açar sözlər: *elmi-texniki tərəqqi, göstəricilər sistemi, texnologiya, maşın və avadanlıq səmərə, müəssisə*

ABSTRAKT

K.V.Azizova

Sumqait State University, teacher of Economic Department Development

SCIENTIFIC AND TECHNICAL PROGRESS AND ITS ROLE IN ECONOMIC DEVELOPMENT

In the article, scientific and technical progress is investigated as a multi-profile and multi-character integrated process, its role in the economic development of the country is considered. Also, the features and characteristics of the NTP are identified, and a system of generalized indicators related to the use of NTP is disclosed.

Key words: *scientific and technical progress, system of indicators, technology, machinery and equipment, efficiency, enterprise*

Könül QULİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
konul.guliyeva.atmu@mail.ru

İspaniyanın gəlmə turizm bazarı və onun inkişaf istiqamətləri

The tourist market of Spain and the direction of its development

Туристический рынок Испании и направления его развития

Xülasə: Tədqiqatın əsas məqsədi inkişafına görə beynəlxalq turizmdə aparıcı mövqedə qərarlaşan İspaniyanın turizm bazarı və onun inkişaf istiqamətlərinin təhlil olunmasıdır. Məlumdur ki, bu ölkə qəbul edilən turistlərin sayına və turizm fəaliyyətindən əldə olunan gəlirə görə uzun illərdir ki, dünya ölkələrinin ilk beşliyinə daxil olur. Günümüzdə turizm İspaniya iqtisadiyyatına böyük gəlir gətirən və ÜDM-

un formalaşmasında əhəmiyyətli təsiri olan bir sektordur. Ölkə bir çox turizm növlərini inkişaf etdirməyə imkan verən zəngin turizm-rekreasiya ehtiyatlarına və inkişaf etmiş nəqliyyat infrastrukturuna malikdir. Bu amillər, həmçinin xidmətlərin yüksək keyfiyyətdə təqdim olunması İspaniya turizminin uğuru hesab olunur.
Açar sözlər: turist, İspaniya, turizm bazarı, turizm məhsulu.


Abstract. The main aim of research is to analyze the tourist market of Spain, which has leading position in international tourism and also the direction of its development. It is obvious that for many years this country ranks in the fifth place among the world's countries according to the number of tourists visiting here and income made from tourism activity. Nowadays tourism has become a sector bringing a great income to Spanish economy and it also has crucial influence on the formation of GDP. The country has rich tourism recreation resources and modern transport infrastructure which give opportunity to develop many kind of tourism. All these and also high quality service can be considered the success of tourism in Spain.
Key words: tourist, Spain, tourism market, tourism product.

Резюме: Основная цель исследования - проанализировать туристический рынок Испании и его тенденцию развития, которая имеет лидирующую позицию в международном туризме. Известно, что эта страна много лет входит в пятерку стран мира по количеству туристов и доходов от туристической деятельности. Сегодня туризм - это сектор, который оказывает большое влияние на экономику Испании и значительное влияние на формирование ВВП. В стране богатые туристические и рекреационные ресурсы и развитая транспортная инфраструктура, позволяющая развивать многие виды туризма. Эти факторы, а также высокое качество услуг считается успехом испанского туризма.
Ключевые слова: туризм, Испания, рынок туризма, туристический продукт.

İspaniya turizm profilli ölkə kimi beynəlxalq arenada daima diqqət mərkəzindədir. Turizmə İspaniya iqtisadiyyatının yüksək gəlirli və intensiv inkişaf edən sahələrindən biri kimi baxılır. İspaniyada turizmin yüksək templə inkişafı, böyük həcmdə valyuta axını iqtisadiyyatın müxtəlif sahələrinə fəal təsir göstərir. 2016-cı ildə ÜDM-un 16%-i turizm sektorunun payına düşmüşdür. İspaniyanın turizm sektorunda birbaşa və dolayı yolla işləyənlərin sayı 2015-ci ildə işləyən əhalinin 13%-inə, yəni 2,5 milyon nəfərə bərabər olmuşdur. Ölkənin zəngin tarixi-mədəni irsi və təbii-iqlim şəraitinə əsaslanan turizm bazarında müxtəlif növ turizm

məhsullarının təqdim edilməsi nəticəsində İspaniya ötən əsrin ortalarından turizmdə aktiv şəkildə inkişaf etməyə başlamışdır. Əla çimərliklər, rahat otellər, yüksək səviyyəli xidmət və qonaqpərvərliyi ilə İspaniya turizm baxımından cəlbedici ölkə kimi şöhrət qazanmışdır.

1990-cı ildə İspaniyanın qəbul etdiyi turistlərin sayı 34,1 mln., 2000-ci ildə 46,4 mln., 2010-cu ildə 52,7 mln. nəfər olmuşdursa, 2017-ci ildə bu göstərici rekord həddə 81,786 mln. nəfərə çatmışdır [4, s. 220].



Şək. 1. İspaniyanın qəbul etdiyi turistlərin sayı, mln. nəfərlə

İspaniya ABŞ, Tailand, Çin və Fransa ilə birgə beynəlxalq turizmdən ən çox gəlir qazanan ölkələrin ilk 5-liyinə daxildir [7, s. 6].

1990-cı ildə İspaniyanın turizmdən əldə etdiyi gəlir 18,5 mlrd dollar, 2000-ci ildə 30 mlrd dollar, 2010-cu ildı 52,5 mlrd dollar, 2016-cı ildə isə 60 milyard dollara bərabər olmuşdur.

Cənubi Avropanın ən çox turist qəbul edən ölkəsi olan İspaniyanın coğrafi-mövqeyi bir sıra unikal xüsusiyyətləri ilə qitənin digər ölkələrindən fərqlənir. Belə ki, bu ölkə Avropanı Amerika və Afrika qitələri ilə birləşdirən ən mühüm transatlantik və Aralıq dənizi suları, həmçinin hava marşrutlarının kəsişməsindədir. 2012-cı ildə turistlərin 80%-i hava, 17,7% quru, 2,1% dəniz, 0,2% isə dəmir yolu nəqliyyatından istifadə etməklə ölkəyə səfər etmişdir [10] (Şək. 2).


Madrid-Barajas beynəlxalq hava limanı vasitəsilə 2016-cı ilin ilk 9 ayı ərzində ötən illə müqayisədə 8,4% artım olmuş və daşınan sərnişinlərin sayı 28,5 mln çatmışdır. Ən çox sərnişin iyul-avqust-sentyabr aylarında daşınmışdır ki, bu da İspaniya turizm bazarında yüksək mövsümün olduğu zamana uyğun gəlir. Bu statistik göstəricilər Madrid hava limanının turizmdə əsas nəqliyyat qovşağı olduğunu sübut edir.

Barselona hava limanı da turizm baxımından əhəmiyyətlidir. Bu hava limanı 2013-cü ildə 25 mln sərnişinə xidmət göstərmişdir.

İspaniyada istirahət edən hər beş şəxsdən biri Böyük Britaniya və ya Almaniyadan gəlmiş turistlərdir. Ümumiyyətlə, Böyük Britaniya, Almaniya, Fransa İspaniya turizmi üçün 3 ən mühüm bazar hesab olunur.

Cədvəl 1-də yuxarıda sadaladığımız ölkə sakinlərinin İspaniyaya səfərlərinin statistik göstəriciləri verilmişdir.

2011-ci ildə Böyük Britaniyadan gəlmiş turistlər digər iki Avropa ölkəsi ilə birgə İspaniya turizm bazarında 55%-lik paya sahib olmuşlar. Almaniya, Fransa, İtaliya, Böyük Britaniya və Hollandiyadan gələnlər 2012-ci ildə İspaniyaya səfər edən turistlərin 67%-ni təşkil etmişlər. Avropa turizm bazarının ənənəvi yüksək müştəri loyallığı gələn turistlərin tətil üçün növbəti dəfə də İspaniyanı seçmələrini təmin edir. Bu baxımdan, ölkəni ziyarət edən turistlərin 83,5%-nin əvvəllər də İspaniyaya gəldiklərini vurğulamalıyıq.



Şək. 2. 2012-ci ildə gələn turistlərin istifadə etdikləri nəqliyyat vasitəsinə görə bölgüsü

Environmental Profile of Spain 2012.

Böyük Britaniya və Almaniyadan olan turistləri İspaniyaya hər şeydən əvvəl iqlim amili və rahat nəqliyyat əlaqələrinin olması cəlb edir.

Özünəməxsus coğrafi mövqeyi, dağlıq ərazilər, cəlbedici Aralıq dənizi iqlimi, yüksək səviyyəli çimərliklər ölkənin sahib olduğu əsas təbii-rekreasiya resurslarıdır. İspaniya Avropanın ən isti ölkələrindən biridir. Yay aylarında bu ölkədə orta temperatur 25°-dən yüksək olur. 0°-dən aşağı temperatur yalnız mərkəz və şimal hissədə müşahidə edilir. Aralıq dəniz sahillərində günəşli günlərin sayı il ərzində 300-dən çox olur. Məhz bu, Şimali Avropa ölkələrinin insanlarını İspaniyaya səfər etməyə sövq edir. Həmçinin, İspaniya İtaliya, Yunanıstan, Türkiyə ilə paralel yüksək olmayan qiymətlərlə çimərlik turizmi xidmətlərini təklif edən əsas destinasiya kimi Şimali Avropalılar arasında məşhurdur [3, s. 404].

Almanlar, əsasən, tətil keçirmək məqsədilə İspaniyaya səyahət edirlər. Almanlar da şimallılar və britaniyalılar kimi öz səfərlərini hazır turpaketlərdən istifadə etməklə həyata keçirirlər. İspaniyaya gələn turistlərin 55%-dən çoxu otellərdə gecələyir. Onların da əksəriyyəti Şimali Avropalılar və almanlardır. Britaniyalıların isə 62%-i otel, yerdə qalan hissəsi isə digər yerləşdirmə vasitələrini seçir. Onlar istirahətlərini Kosta-del-sol və Kanar adalarında keçirməyi üstün tuturlar. Qiymətin ucuz olması, ərazi yaxınlığı Portuqaliya, oxşar dil və mətbəz Fransa, tarixi-mədəni bənzərliklər isə İtaliya sakinlərinin İspaniyaya səfərlərinin əsas xüsusiyyətləridir. ABŞ, Kanada, Yaponiya kimi uzaq ölkədən gələn turistlər isə Renessans dövrünün mədəni-tarixi zənginlikləri ilə tanış olmaq marağındadırlar. ABŞ vətəndaşları İspaniyanı ziyarət edən turistlərin ilk onluğuna daxildir. Belə ki, 2017-ci ildə bu ölkədən gəlmiş turistlərin sayı 2,65 mln. olmuşdur [9].

Cədvəl 1.

Böyük Britaniya, Almaniya və Fransadan
İspaniyaya gələn turistlərin sayı mln. nəfərlə

Ölkələr/İllər	2000	2005	2010	2015	2017
Böyük Briyaniya	12,57	16,09	12,44	15,72	18,78
Almaniya	10,54	9,92	8,81	10,26	11,89
Fransa	5,62	8,87	8,13	11,55	11,25

statista.com

Bundan əlavə, son illərdə İspaniya turizm bazarında Çin və Cənubi Koreyadan olan ziyarətçilərin sayının artmasına doğru tendensiyanın olduğunu qeyd etməliyik. Hollandiya, Almaniya, Fransa, Böyük Britaniya, Fransa vətəndaşları 1-2,

Braziliyalılar 4, Ruslar 5, Çinlilər isə 6-cı turizm destinasiyası kimi İspaniyanı seçdiklərini qeyd etmişlər.

İspaniya turizm bazarında boşanmış, subay və ya dul şəxslərin formalaşdırdığı tək səyahətçi qrupu yüksək turizm tələbi ilə seçilir. Bu kateqoriyaya aid olub İspaniyaya gəlmiş beynəlxalq turistlərin sayı 8 mln.-dur [11, s. 21].

2017-ci ildə İspaniya turizm bazarında turist axınlarının ən yüksək olduğu destinasiyalar Kataloniya, Kanar, Balear adaları, Əndəlüs olmuşdur (Cədvəl 2).

Avropanın cənub qurtaracağında yerləşən İspaniyada dəniz ticarətinin inkişafı liman şəhərlərinin böyüməsinə və sonradan məşhur kurortlara çevrilməsinə yol açmışdır [5, s. 88].

Cədvəl 2.

İspaniyanın qəbul etdiyi turistlərin
destinasiyalara görə bölgüsü

Turizm destinasiyaları	Say (mln. nəfərlə)
Kataloniya	19,047
Kanar adaları	14,214
Balear adaları	13,791
Əndəlüs	11,530
Valensiya	8,918
Madrid	6,695
Digər	7,592

statista.com

Günəş, qum və dənizdən ibarət olan turizm məhsulu İspaniya turizm bazarında xüsusilə əhəmiyyətlidir. Çimərliklər turizm nöqteyi-nəzərindən ölkənin iqtisadiyyatına kifayət qədər maliyyə vəsaitinin daxil olmasına zəmin yaradır. İsti hava, temperatur və günəş şüalarının davamlılığı çimərlik turizmi üçün təkanverici amil rolunu oynayır [2, s. 119]. Bu cəhətdən əla çimərlikləri olan İspaniya dünya turizm bazarında üstün mövqeyə malik destinasiya kimi seçilir. Bu, İspaniya çimərliklərinin göy bayraqların sayına görə hər il ilk pillədə qərarlaşmasının

səbəblərindən biridir. Göy bayraqlı çimərliklər Kosta Brava sahillərində daha çoxdur.

Kosta Brava Fransa sərhədindən Barselona şəhərinə qədər olan və azərbaycan dilində "Qayalıq sahil" adlanan bölgədir [1, s. 212]. Çimərlik mövsümü Kosta Bravada mayın sonu başlayır və oktyabra kimi davam edir. İllik orta temperatur +25-28° arasında dəyişir. Tossa-de Mar Kosta Bravanın incisi hesab olunur. Keçən əsrdə aristokrat və zəngin ailələrin sevimli istirahət yeri olmuşdur. Kosta Bravanın mərkəzi sayılan Jirona qolf turizminin inkişafında mühüm rola malikdir.

Kataloniya tətil və istirahət məqsədli səfərlərin həyata keçirildiyi əsas destinasiya kimi bütün dünyada məşhurdur. Kataloniya turizm mərkəzi kimi 1960-cı illərdən formalaşmağa başlamışdır. Amma təbii ki, bu ərazinin aparıcı turizm mərkəzinə çevrilməsində 1992-ci il Barselona Olimpiya oyunlarının müstəsna əhəmiyyəti olmuşdur. Oyunların Barselonada keçirilməsi bütün dünyanın diqqətini bu şəhərə yönəltdi. Bu möhtəşəm tədbir zamanı Barselona 1,3 mln turist qəbul etdi. Bu tədbirin vasitəsilə Barselonanın paytaxtı olduğu Kataloniya beynəlxalq turizm xəritəsində yer aldı [12].

Terror aktlarının olması Kataloniyaya olan turist axınlarının azalmasına səbəb olsa da, ötən illə müqayisədə ciddi fərqlər nəzərə çarpmadı.

İspaniyanın qəbul etdiyi turistlərin ¼-i Kataloniyaya üz tutur. Kataloniyaya gələnlərin sayının çox olmasına səbəb Barselona şəhərinin onun paytaxtı olmasıdır. Barselona ilboyu müxtəlif, geniş çeşiddə turizm xidmətləri təklif edən dinamik, rəngarəng şəhərdir. Barselonaya beynəlxalq turist axınlarının xüsusiyyətlərinə aid edilir:

-Bazarda fərqli turizm məhsullarının təqdim edilməsi;
-Turizm fəaliyyətinin il ərzində mümkünlüyü;
-Şəhərə təkrar səfər edənlərin sayının çoxluğu.

Mədəni, biznes, təhsil, istirahət məqsədilə Barselonanı ziyarət edənlərin sayı çoxdur. Barselona turizm bazarında tələbin 80%-ni xarici bazarlar hesabına formalaşdırır.

2012-ci ildə Barselona 24,5 mln. ziyarətçi qəbul etmişdir. Bunlardan 12 milyonu 1 günlük ziyarətçi, digər hissəsi isə turist olmuşdur. Onların əksəriyyəti tətil keçirmək üçün Barselonaya təşrif buyurmuşdur. Otellərdə qalanların 50% əvvəllər də bu şəhərdə olmuşdur. Qonaqların 28%-dən çoxunun isə şəhərə üçüncü səfəridir. 2013-cü ildə Barselonaya gəlmiş ziyarətçilər ortalama 2 gecə keçirmişlər. Beynəlxalq turistlərin 50,6% tətil, 30,8% işgüzar, 10,1% sərgi, konqresdə iştirak, 8,5% isə şəxsi məqsədlərlə Barselonaya səfər etmişlər (Şək. 3) [8, s. 32-33]. Şəhər

2014-cü ildə 6,26 mln turist qəbul etmişdir. Onlardan 4,14 mln.-u Avropa ölkələrinin sakinləri idi. Gələn turistlərin 20,5% ispan, 8,6% fransız, 8,2% amerikalı, 6,2% alman, 8,6% britaniyalılardan ibarət olmuşdur

Nəqliyyat infrastrukturunun və xidmət keyfiyyətinin yaxşılaşdırılmasının Barselona şəhərinə gələn beynəlxalq turistlərin sayına müsbət təsiri müşahidə olunmaqdadır.

Orta illik temperatur +20° olması Kanar arxipelağında ilboyu turizmin inkişafına imkan verir. Bu arxipelaq 14,2 mln. turist qəbul etmişdir (Cədvəl 2). Qeyd etmək lazımdır ki, Tenerife, Gran Kanaria və Lanzarote arxipelağın ən yüksək turizm tələbinin olduğu adalarıdır. Kanar arxipelağı Avropalıların, xüsusilə almanların tətil destinasiyası kimi çox məşhurdur.

Pireney yarımadasından 200 km aralıda yerləşən Balear adaları turizm üçün çox əlverişli şəraitə malikdir. Rahat, qumlu çimərliklər, mülayim iqlim, sıx yaşıllıq bu adalara hər il milyonlarla əcnəbi turisti cəlb edir. Ziyarətçilərin əksəriyyəti almanlar və britaniyalılardır.

Əndəlüs isə daha çox Şimali Avropalı turistlər və ingilislər arasında məşhurdur.


Xarici turistlərin üz tutduqları əsas destinasiyalardan biri Valensiyadır. Aralıq dəniz iqlimi hakim olduğu Valensiyada il ərzində 140-190 gün dənizdə çimmək mümkündür.

2015-ci ildə 51,3 mln turist sahilyanı turizm mərkəzlərinə üstünülük vermişdir. Ən az turist qəbul edən sahil 231.737 nəfərlə Asturia və 302.815 nəfərlə Cantabria olmuşdur.

Ölkənin paytaxtı olmasına baxmayaraq Madrid gəlmə turizmdə ən zəif nəticəyə malik ispan şəhərlərindən biridir. Amma turist xərclərinin yüksək olmasına görə seçilir. Şəhər Mansanare çayının üzərində yerləşir. Bildiyimiz kimi, Madrid XV əsrə kimi ərəblərin hakimiyyəti altında olmuşdur. 1561-ci ildə İspaniyanın paytaxtı elan olunduqdan sonra Madridin həyatında yeni mərhələ başladı.

Şəkil 1.

Barselonaya gələn turistlərin səfərin məqsədinə görə qruplaşdırılması



Madrid Avropanın 4-cü ən böyük şəhəridir. Ölkənin paytaxtı olmaqla yanaşı bu şəhər İspaniyanın maliyyə və işgüzar mərkəzidir. Qədim mədəniyyət, fəqli həyəcanverici atmosferə malik kafe və barlar, dadlı, növbənöv yeməklər təqdim edən restoranlar, canlı gecə həyatı İspaniya paytaxtını ziyarət etmənin səbəblərindəndir. 2015-ci ildə Madridə gələnlərin 49,87%, 50.13% isə beynəlxalq turistlər olmuşdur. Həmin il Madrid gəlmiş turistlərin əksəriyyəti ABŞ, Birləmiş Krallıq, İtaliya, Fransa, Almaniya, Portuqaliya, Meksika, Çin vətəndaşları olmuşdur. İspaniya paytaxtında ən çox pul xərcləyənlər sırasında ABŞ, Fransa, İtaliya, Almaniya və Böyük Britaniyadan gələn turistləri qeyd etmək olar. Madriddə turistin bir günlük xərci 2015-ci ildə orta hesabla 183,25 avro təşkil etmişdir. Yaponlar üçün isə bu rəqəm 349 avroya bərabər olmuşdur.

Qeyd etmək lazımdır ki, Madriddə yüksək turizm mövsümü aprel-iyun və sentyabr-oktyabr ayları, avqust, dekabr-fevral isə turistlərin tələbinin çox aşağı olduğu zamanlardır.

2016-cı ildə Madriddə Milli turizm bazarı 49,1% nəticə göstərmişdir. Madridə səfər edən beynəlxalq turistləri ölkələrə görə aşağıdakı kimi qruplaşdıra bilərik:

ABŞ, Kanada -6,9 %, Böyük Britaniya, İrlandiya-4,6 %, İtaliya-3,8 %, Fransa-3,5 %, Almaniya-2,8%, Portuqaliya-2%, Argentina-2%, Benilüks-1,9%.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində bir turist Madriddə 208,8 avro sərf etmişdir ki, bu nəticəyə görə paytaxt şəhər İspaniyada 1-cidir. Madrid üçün sürətlə böyüyən turizm bazarlarına Braziliya, Çin, Meksika, Rusiya nümunə göstərilə bilər.

İspaniyanın turizm bazarında təklif olunan turizm məhsulu dəniz, qum, günəş üçlüyü ilə məhdudlaşmır. Kurort və çimərlik turizm xidmətlərini yüksək səviyyədə

təqdim etməklə yanaşı, İspaniyanı mədəni turizmə öz töhfəsini verəcək bir ölkə kimi stimullaşdırmaq və təbliğ etmək mümkündür.

2011-ci ildə ölkəyə səfər edən turistlərin 17%, yəni 9,4 milyonu mədəni məqsədlə turizm səfərini həyata keçirmişdir. Gələnlərin 20,2% fransızlar, 14,3% britaniyalılar, 13% italyanlar, 6,6% almanlar, 5,1% isə hollandlardan ibarət olmuşdur. Mədəni məqsədlə ölkəni ziyarət edənlərin 58,3%-ni kişilər, 41,7%-ni isə qadınlar təşkil etmişdir. UNESCO-nun qeyri-maddi irs siyahısına daxil olan 44 obyektlə İspaniya İtaliyadan sonra mədəni turizm potensialı böyük olan ikinci ölkədir. Bu baxımdan Madrid və Barselona xüsusilə seçilir.

Madridin əsas görməli yeri Plaza Mayor arxitektur ansamblıdır. Tərcümədə əsas, baş meydan mənasını verir. Günboyu bu meydanda müxtəlif restoranlar, çoxsaylı kafe, bar və suvenir mağazaları fəaliyyət göstərir. Plaza Mayor məşhur Puerto del sol meydanından bir qədər aralıdadır. Madrid şəhərinin yaxşı cəhətlərindən biri gəzilib-görülməli məkanlarının bir-birinə yaxın yerləşməsidir. Madriddə insan fəaliyyətinin bütün növlərini əhatə edən 60-dan çox muzey var. Ən möhtəşəmi təbii ki, bütün dünyada tanınan Pradodur. Prado muzeyi paytaxtın ən çox ziyarət olunan turizm marşrutlarından biri Paslo-del-Arte-nin mirvarisi hesab olunur. Onun divarları ispan, italyan, holland rəssamlarının şah əsərləri ilə bəzədilmişdir. Kolleksiyaya 8600 rəsm əsəri və 700-dən çox heykəl daxildir. Muzey 2011-ci ildə 2,9 mln turist tərəfindən ziyarət olunmuşdur.

Prado muzeyinin yaxınlığında Madridin ən böyük parkı hesab olunan Buen Retiro yerləşir. Bura XIX əsrə kimi, ictimai park statusu alan zamanadək ispan monarxlarına məxsus olmuşdur.

“Ciutat Vella”, “Sagrada Familia”, “Park Güell”, Barselona Futbol Klubunun muzeyi Barselona şəhərinin ən sevilən məkanları hesab olunur. Roma və orta əsrlər, sənaye və kommersiya dövrünün ən unikal tikililərini Barselonada görmək mümkündür. Bu tikililərdən UNESCO-*nun* qeyri-maddi irs siyahısına daxil olanların sayı 9-dur.

2013-cü ildə Sagrada Familia 3 mln. qonaq sayı ilə Barselonada ən çox təşrif edilən məkan olmuşdur. İkinci yerdə 1,7 mln. nəfər ziyarətçi ilə Aquarium, üçüncü yerdə isə 1,5 mln. nəfərlə Barselona futbol klubunun muzeyi qərarlaşmışdır. Pikasso muzeyi isə siyahıda 4-cüdür.

İspaniya turizm bazarında işgüzar turizmin xüsusi çəkisi vardır. 2017-ci ildə 6 mln insan İspaniyaya işgüzar və professional məqsədlərlə ziyarət etmişdir. İCCA-ya görə İspaniya ABŞ, Almaniya, Böyük Britaniyadan sonra beynəlxalq tədbirlərin

keçirildiyi 4-cü əsas ölkədir. Barselona və Madrid dünyamiqyaslı konfrans, sərgi və digər bu qəbildən olan tədbirlərə ev sahibliyi edən şəhərlərin ilk beşliyinə daxildir.

Barselona üçün işgüzar turizm bazarı daim diqqətdə saxlanılmışdır. Bu şəhər işgüzar görüşlərin keçirilməsində böyük təcrübəyə malikdir. Belə ki, 1990-cı ildə Barselonda 373 tədbir keçirilmişdirsə, 2013-cü ildə onların sayı 2039-a çatmışdır.

MİCE turizmində Madridin uğur qazanmasının səbəblərindən biri də onun strateji mövqeyi ilə bağlıdır. LA, Afrika və Avropa ölkələrinin birgə təşkil etdikləri konfranslar Madriddə həyata keçirilir. Madriddə işgüzar turizmdən danışarkən İFEMA və FİTUR-u qeyd etməyə bilmərik. İFEMA Madridin əsasə sərgi mərkəzi hesab olunur. 200 000 kvadrat metrlik sərgi sahəsində il ərzində 80 tədbir təşkil olunur. Burada həyata keçirilən tədbirlərdə 4,5 mln insan iştirak edir. İFEMA bir il ərzində birbaşa dolayı yolla 40000 iş yeri təklif edir.

Brüssel, Milan, Parisdəki sərgilərlə bərabər Madriddəki FİTUR dünyanın ən aparıcı tədbirlərindən hesab olunur [6, s. 443]. FİTUR-2018-də 232.000 ziyarətçi qəbul olunub və 210 mlrd avro gəlir qazanılıb.

İspaniya turizm bazarına böyük təsiri olan turizm növləri arasında qastronomik, şoppinq, idman, xizək turizmini də qeyd etmək mümkündür.

İAGTO-nun (Qolf üzrə Turoperatorların Beynəlxalq Assosiasiyası) məlumatına görə bu turizm növü üzrə İspaniya 1 mln turist qəbul edir. Qolf turizmi üçün İspaniyada ən yaxşı zaman may-iyun və sentyabr-oktyabr aylarıdır.

Bununla yanaşı, Formula 1, Barcelona World Race kimi idman tədbirləri də il ərzində İspaniyaya çoxsaylı turistlərin gəlməsini təmin edir.

2015-2016-cı ildə xizək turizmi məqsədli 4,74 mln. turist gəlib.

İspaniya ZARA, MANGO kimi brendlərin yarandığı ölkədir. Şoppinq turizminə görə Avropada ikincidir.

Son illərdə İspaniyada müalicə turizmi inkişaf edir. Müalicə məqsədli səfərlərin həyata keçirilməsinə görə İspaniya Avropada 6-cı, dünyada isə 8-ci mövqedə durur. İspaniyada müalicə turizmi balneo və talossoterapeyaya əsaslanır.

Yazılanları ümumiləşdirsək qeyd etmək olar ki, İspaniyanın malik olduğu turizm resursları ölkənin turizm bazarında istehlakçılara çox müxtəlif və yüksək səviyyəli məhsullar təklif etməyə imkan verir. Gəlmə turizm bazarında tələbin böyük hissəsi Avropa ölkələrinin vətəndaşları tərəfindən formalaşdırılır. Çin, ABŞ, Kanada, Yaponiya kimi ölkələrdən daha çox turistin cəlb olunması və turist axınlarının ilboyu davam etməsi İspaniyanın gəlmə turizm bazarının əsas hədəflərindəndir.

Ədəbiyyat siyahısı:

1.Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H., "Beynəlxalq turizmin coğrafiyası" (dərs vəsaiti), Bakı: Mütərcim, 2002, s. 512

2. Səlimova Ş., Məzəmova L., Təbii turizm ehtiyatlarının turizmdə rolu. // "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalı, №2, Bakı: ARTIN-A MMC, 2017, s. 295

3.А. Ю. Александрова, "Международный туризм" (учебник для студентов вузов), Москва: Аспект Пресс, 2015, 460 с

4.В.И. Кружалин, Н.С. Мироненко, Н.В. Зигерн-Корн, Н.В. Шабалина, " География туризма" (учебник), Москва: Федеральное агентство по туризму, 2014, 336 с

5. В. Ю. Воскресенский, "Международный туризм" (учебное пособие для студентов вузов), Москва:ЮНИТИ, 2008, 463 с

6.Дурович А.П., "Маркетинг в туризме" (Учебное пособие), Минск: Новое знание, 2003, 496 с

7.UNWTO Tourism Highlights, 2017 Edition

8.Ajuntament de Barcelona & Barcelona Activa (2014) Barcelona's tourism activity development and management:27

9.www.ine.es/en/daco/daco42/frontur/frontur0717-en.pdf

10.http://www.mapama.gob.es/es/calidad-y-evaluacion-ambiental/publicaciones/perfil_2012_cap2(13)_ENG_tcm30-185266.pdf

11.http://www.blueroom.es/wp-content/uploads/2017/02/Spanish-Market-Overview_TBP-Consulting.pdf

12.https://ajuntament.barcelona.cat/turisme/sites/default/files/documents/the_catalunya_2020_vision_for_responsible_tourism_-_the_barcelona_declaration_eng.pdf

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ И ПРИОРИТЕТЫ ТОРГОВО-ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ

Халилова Куба Ильгар кызы

Магистр 1 – го курса Бакинского Государственного Университета

Факультет: «Международные экономические отношения»

kuba-1995@bk.ru

Одной из ведущих тенденций мирохозяйственного развития послевоенных десятилетий является последовательный переход многих стран

от замкнутых национальных хозяйств - автаркии, к экономике открытого типа, обращенной к внешнему миру. Каковы те основные факторы, оказывающие влияние на масштабы и характер интернационализации мирохозяйственных связей на повышение степени их открытости?

Прежде всего, заметную роль в формировании открытой экономики сыграло государство. Оно взяло на себя функции стимулирования экспортных производств, поощряя, вывоз товаров и услуг, содействуя кооперации с зарубежными фирмами, развитию внешнеэкономических связей.

Важнейшим фактором стал также прогресс во второй половине XX века транспортных коммуникаций, информационных средств связи, которые сыграли огромную стимулирующую роль в развитии открытости национальных экономик, увеличении мобильности населения [10].

Постепенно, шаг за шагом разрушались торгово-экономические, валютно-финансовые препятствия, в силу которых страны длительное время были отгорожены друг от друга. Либерализация международного обмена облегчила адаптацию национальных хозяйств к внешним условиям и воздействиям, способствовала все более активному их включению в международное разделение труда сотрудничеству. На правительственном уровне действует двусторонняя торгово-экономическая комиссия, сопредседателями которой с обеих сторон являются вице-премьеры. Сама по себе комиссия весьма представительна и в нее входят как представители госструктур, так предприниматели. Заключенные договора и соглашения охватывают весь спектр взаимоотношений двух стран. Ход выполнения программ и соглашений осуществляется именно межправительственной комиссией Азербайджана и Беларуси на совместных заседаниях, которые поочередно проводятся в столицах государств не реже одного раза в год. Первое такое заседание было проведено в г. Минске в феврале 2004 г., а второе уже в г. Баку осенью того же года. До сих пор проведено пять заседаний совместной межправительственной комиссии. Комиссия на своих заседаниях обсуждает оперативные вопросы межгосударственных отношений, договоров и соглашений к подписанию, подготавливает предложения, контролирует выполнение мероприятий со стороны отдельных государственных и негосударственных структур [9].

Также немаловажное значение имеют бизнес-форумы деловых кругов, проводимые во время визитов руководителей наших стран и выставки достижений национальных экономик Азербайджана и Беларуси.

На бизнес-форумах и выставках происходит налаживание контактов напрямую - между деловыми кругами, предпринимателями, хозяйственниками и специалистами, заключение прямых контрактов между субъектами предпринимательства, изучение взаимного опыта. Значительным событием стало проведение в мае 2007 г., а потом и в 2017 году в Баку Выставки Республики Беларусь.

Как видно принятие соглашения помимо общих направлений предусматривают также договоренности и по различным направлениям, отраслям и сферам. Нормативная база создана по различным отраслям и сферам экономики. Это нефтяная промышленность, машиностроение, нефтяное машиностроение, сельское хозяйство, транспорт, связь, банковское дело, туризм, оборонная промышленность, регулирование отношений собственности, социальной защиты населения и социального страхования и др. Наряду с этим взаимоотношения двух стран не ограничиваются только сферой экономики. Большая работа проделана и в области науки, культуры, здравоохранения, обороны, образования и др. Но несмотря на определенную работу, проведенную между двумя странами все еще существуют определенные трудности и недостатки [8]. Необходимо: доработать нормативно-правовую базу межгосударственных отношений; устранить дисбаланс в торговле наших стран; максимально использовать возможности взаимной торговли, которые находятся на явно недостаточном уровне; увеличить эффективность работы азербайджано-белорусской межправительственной комиссии по торгово-экономическому сотрудничеству; сделать акцент на проведение бизнес-форумов, выставок достижений двух стран; налаживать контакты между субъектами хозяйственной деятельности, повысив информированность сторон о достижениях друг друга и т.д. Все эти меры, на наш взгляд, помогут в увеличении и укреплении торгово-экономических связей наших стран [7].

Из Беларуси в Азербайджан поставляются, как было отмечено выше, в основном товары машиностроительной, электротехнической, деревообрабатывающей и фармацевтической отраслей. Это тракторы, автомобили, подъемники, лифты, трансформаторы, фанера, картон, бумага и

некоторые лекарственные средства [1].

В то же время потенциал торгово-экономического сотрудничества между Азербайджаном и Беларусью в полной мере не раскрыт. Поэтому «точки роста» взаимной торговли призвана наметить и работа специально созданной межправительственной белорусско-азербайджанской комиссии по торгово-экономическому сотрудничеству, которая поочередно в столицах двух стран провела 4 заседания.

На сегодняшний день наиболее перспективным, на наш взгляд, видится взаимодействие в электротехнической, деревообрабатывающей отрасли, легкой промышленности и в агропромышленной сфере. Помимо этого стоит особого внимания и рассмотрения высокий потенциал сотрудничества в нефтяной отрасли [6].

Необходимо отметить, что Азербайджан и Беларусь являются традиционными партнерами в социально-экономической сфере. Интересы обоих государств обусловлены высоким уровнем исторически сложившихся производственных, хозяйственных и технических связей в различных отраслях экономики. Но в то же время существует множество других направлений, по которым наши страны могли бы сотрудничать. Это туризм, транспорт, образование, культура, здравоохранение.

Нынешнее состояние торгово-экономического сотрудничества 2-х стран необходимо улучшать. Во внешнеторговом обороте Беларуси среди стран СНГ Азербайджан занимает 7-8 место. Беларусь - страна, ориентированная на экспорт, и также заинтересована в товарах из Азербайджана, т.к. товарообмен не должен быть однобоким [2].

Интересен белорусский опыт достижения положительных результатов по экспорту за последние годы в результате [5]:

- разработки отраслевых экспортных стратегий министерствами и ведомствами;
- организации собственных экспедиторских и логистических центров в странах поставки продукции предприятий;
- развития товаропроводящей сети (дилерские сети, магазины, сервисные центры, представительства и др.);
- создания сборочных производств и др.

Небезинтересны и новые подходы президента Беларуси в работе с руководителями белорусских дипломатических представительств, а правительства - с их советниками по торгово-экономическим вопросам, являющихся проводниками экономических идей страны. И в Азербайджане, через каждые 2 года, начиная с 2004 г., президент И. Алиев на совещаниях с послами страны в разных государствах, помимо основных политических проблем, нацеливает и на злободневные экономические вопросы, стоящие перед страной. В 2007 г. открыта Дипломатическая Академия Азербайджана.

Как известно, рост конкурентоспособности отечественных товаров и услуг является важнейшим условием устойчивого экономического развития. Белорусским правительством с целью укрепления имеющейся в стране производственной базы, установлены приоритетные сферы для использования иностранных инвестиций [4]. Среди них, в частности, машиностроение и приборостроение, нефтехимический комплекс, переработка сельскохозяйственной продукции, связь, лесная, деревообрабатывающая и целлюлозно-бумажная промышленность, а также туризм. Также известно, что государство готово поддерживать инвестиции в высокотехнологичное производство и создание новых рабочих мест. А среди отраслевых приоритетов для самих иностранных инвесторов и кредиторов наиболее привлекательными сферами в Беларуси являются в основном торговля, промышленность и связь [4].

Доходы такого уровня можно получить от создания технопарков и технозон, а в данном конкретном случае от создания в республике Региональной инновационной зоны (РИЗ). Проект РИЗ предусматривает:

- создание технологических парков для развития малого и среднего инновационного предпринимательства;
- региональной базы по производству и экспорту электронного оборудования и программных продуктов;
- подготовку и развитие человеческих ресурсов для формирующегося информационного общества;
- внедрение ИТ-технологий в других отраслях экономики;
- превращение республики в выгодный транзитный информационный центр [3].

Все эти мероприятия включены в программу «Электронный Азербайджан».

Поэтому, с учетом притока больших доходов в страну, руководством Азербайджана ставится задача всемерного развития ненефтяного сектора экономики, подъема экономики отсталых от развитого Баку - Апшеронского района, регионов республики по «Государственной программе развития регионов Азербайджана на 2004-2008, 2009 – 2013 гг., 2014 – 2018 гг.», поиска эффективных путей вложения инвестиций в сельское хозяйство, промышленность, инфраструктурные проекты, а также в ближнем и дальнем зарубежье.

Список использованной литературы:

1. Госкомстат Азербайджанской Республики, 2017 г.
2. Ахмедов М.А. Глобализация и формирование национальной экономики. Баку, 2003, 520с. (на азербайджанском языке).
3. Гафаров Ш.Ш. Современная экономическая система и глобализация. Баку, 2005, 631с. (на азербайджанском языке).
4. Симионов Ю.Ф. Мировая экономика и международные экономические отношения / Ю.Ф. Симонов, О.А. Лыкова. - Ростов н/Д : Феникс, 2006. - 504 с.
5. Международные экономические отношения: Учебник / А.И. Евдокимов и др. - М.: ТК Велби, 2003. - 552 с.
6. Мировая экономика: Учебник / Под ред. Проф. А.С. Булатова. - М.: Экономистъ, 2005. - 734 с.
7. Мировая экономика: Учебное пособие / Автор-составитель Гладков И.С. - М.: Изд-во УРАО, 1998. - 140 с.
8. Мировая экономика: Учеб. пособие / Под ред. проф. Николаевой И.П. - 2-е изд., перер. и доп. - М.: ЮНИТИ-ДАНА, 2000. - 575 с.
9. А.С. Булатов. Мировая экономика: Учебник – М.: 2001.
10. Ломакин В.К. Мировая экономика: Учебник для вузов. – М.: 1998.

Резюме

В статье, автором, указывается, что заметную роль в формировании открытой экономики сыграло государство. Оно взяло на себя функции стимулирования экспортных производств, поощряя, вывоз товаров и услуг,

содействуя кооперации с зарубежными фирмами, развитию внешнеэкономических связей.

Таким образом, с учетом притока больших доходов в страну, руководством Азербайджана ставится задача всемерного развития ненефтяного сектора экономики, подъема экономики отсталых от развитого Баку - Апшеронского района, регионов республики по «Государственной программе развития регионов Азербайджана на 2004-2008, 2009 – 2013 гг., 2014 – 2018 гг.», поиска эффективных путей вложения инвестиций в сельское хозяйство, промышленность, инфраструктурные проекты, а также в ближнем и дальнем зарубежье.

Ключевые слова: торговля, административно – правовые барьеры, ненефтяной сектор, внешнеэкономические связи, общественное разделение труда.

Summary

In the article, the author states that a significant role in the formation of an open economy was played by the state. It assumed the functions of stimulating export production, encouraging the export of goods and services, facilitating cooperation with foreign firms, and the development of foreign economic relations.

Thus, taking into account the influx of large incomes into the country, the leadership of Azerbaijan sets the task of comprehensive development of the non-oil sector of the economy, economic recovery of the backward from the developed Baku - Absheron region, regions of the republic according to the State Program for the Development of Regions of Azerbaijan for 2004-2008, 2009 - 2013. , 2014 - 2018 ”, the search for effective ways of investing in agriculture, industry, infrastructure projects, as well as in the near and far abroad.

Key words: trade, administrative and legal barriers, non-oil sector, foreign economic relations, social division of labor.

QLOBAL İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNDƏ ELMİ-TEXNİKİ TƏRƏQQİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN ROLU

Lalə Fəqail qızı Mahmudova

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının müdiri, i.e.n, dosent

İlqar Osman oğlu Osmanov

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının assistenti

ilqarosmanov1975@mail.ru

Müasir təcrübə göstərir ki, dünya təsərrüfat əlaqələrinin dinamik inkişafı milli çərçivələr hüdudlarında ölkələrin istifadə etdiyi resursların həcmini dəyişərək və onları maddi-əşyavi formaya çevirərək, təkrar istehsal prosesini xeyli yeniləşdirir. Xarici rəqabətin təsiri altında açıq bazar təsərrüfatlarında struktur yenidənqurması baş verir: həyat qabiliyyətli olmayan və ya düşkünlük vəziyyətində olan istehsallar yığışdırılır, qabaqcıl sahələr inkişaf edir. Eyni zamanda texniki yeniləşmə prosesi həyata keçirilir, təsərrüfat fəaliyyətinin yeni təşkili formaları tətbiq olunur, idarəetmə metodları təkmilləşdirilir. Ölkələrin beynəlxalq əmək bölgüsünə fəal cəlb olunması onları xərcləri azaltmağa, əmək məhsuldarlığını artırmağa, lazımi rəqabətqabiliyyətlilik səviyyəsini saxlamağa vadar edir. Təsərrüfat həyatının beynəlmiləlləşməsinin güclənməsi müasir məhsul növlərinin, texnologiyaların, istehsal prosesləri və sistemlərin, patentlərin, nou-hauların, marketinq və menecmentin beynəlxalq diffuziyası, başqa sözlə, postsənaye cəmiyyətinin iqtisadi, ekoloji və başqa standartlarının yer kürəşində yayılması üçün imkanlar yaradır.

Mükəmməl rəqabət və bərabər şəraitdə təsərrüfat fəaliyyətinin qloballaşması ayrı-ayrı ölkələrin və bütün dünya iqtisadiyyatının inkişafına müsbət təsir göstərir. Belə hesab olunur ki, bu proses nəticəsində dünya miqyasında istehsal prosesində qənaət əldə edilir, dünyada istehsal amilləri daha səmərəli yerləşdirilir, elm və texnikanın nailiyyətlərinə çıxış daha da asanlaşır.

Qloballaşmanın aparıcı qüvvəsi olan elmi-texniki tərəqqinin inkişafı və texnoloji innovasiyaların tərəqqisi nəqliyyat, rabitə, informasiya və telekommunikasiya sahələrində daha çox aydın hiss olunur və əmtəə, xidmət,

maliyyə vəsaitələri, ideya və informasiya məhsulların sərhəddən ucuz qiymətə keçirilməsi üçün əvvəllər mövcud olmayan imkanlar yaradır. Yeni informasiya və kommunikasiya texnologilarının meydana gəlməsi sürətlə əməliyyat apara bilən kompyüter texnikası, siqnalın ötürülməsi üçün optik-simli texnologiya, peyk və mobil telefon rabitəsi, kibernetika, şəbəkə texnologiyaları, rəqəmli kodlaşdırma texnologiyaları, yeni televiziya nəsli texnologiyaların, kompakt elektron qurğularının inkişafı, qlobal internet şəbəkəsinin yaradılması və digər texniki nailiyyətlərin əldə olunması ilə bağlıdır. İnformasiya və kommunikasiya texnologiyalar sferasında yeniliklər sayəsində əldə edilmiş prinsipial yeni imkanlar qloballaşma proseslərinin inkişafını stimullaşdırmışdır. [5, səh.9].

Elmi-texniki nailiyyətlərin qlobal iqtisadi problemlərin həllinə təsir göstərməsi şübhəsizdir. Elm və texnikanın vəhdətdə, qarşılıqlı əlaqədə və irəliləyən inkişafı insan cəmiyyətinin əsas hərəkətverici qüvvəsi qismində çıxış edir. Bu tərəqqi resursların məhdudiyyətini aradan qaldırmağa imkan verir.

Elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin və elmi-texniki tərəqqinin qlobal iqtisadi problemlərə təsiri şərtlər kompleksindən asılıdır. İlk növbədə, elmi-texniki tərəqqinin yönümü böyük rol oynayır və bu, onun qlobal iqtisadi problemlərə təsir göstərmə perspektivi nöqteyi-nəzərindən çox mühümdür. Müxtəlif sahələr qlobal iqtisadi problemlərə fərqli təsir göstərir və onların bəzisi güclü multiplikativ, ötürmə effektinə malik olmaqla, qlobal iqtisadi problemlərin həllinin lokomotivi qismində çıxış edir. Elmi-texniki tərəqqi bazarı genişləndirdikdə, təsərrüfatın strukturunu dəyişdirdikdə, iqtisadi artıma və onun templərinə daha güclü təsir göstərir. Bu cür təsirə ən parlaq nümunə kimi başqa sahələrin inkişafına səbəb olan elektrik enerjisinin, avtomobil, televizor, elektrik malları kimi uzun müddət istifadə edilən əmtəənin geniş yayılmasını və istehlakını göstərmək olar [2, səh. 119].

Başqa hallarda elmi-texniki tərəqqi yeni geniş istehlak malları yaratmadan, böyük multiplikativ effekti olmayan sahələrdə təzahür etməklə ənənəvi əmək alətlərinin və uzun müddət istifadə olunan istehlak mallarının texniki səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi ilə nəticələnir. Burada texniki tərəqqinin təsiri özünü dolayısı ilə ifadə edir və bazar istehsal xərclərinin azaldılması hesabına genişlənir.

Elmi-texniki tərəqqinin regional baxımdan qeyri-bərabər inkişafı qlobal iqtisadi problemlərin quruluşuna təsir göstərir. Elmi tədqiqatların və texniki yeniliklərin uzun müddət ərzində ayrı-ayrı ölkələrdə cəmləşməsi müxtəlif ölkələrin inkişaf səviyyələri arasındakı fərqlərin dərinləşməsinə səbəb olur. Elmi-texniki sahə məhsullarının

beynəlxalq bazarları yoxsul ölkələrin ehtiyaclarına uyğun gəlmir və inkişaf etmiş ölkələrin tələbatı əsasında formalaşır. Öz növbəsində, bəzi qiymətləndirmələrə görə, əhalinin hər nəfərinə düşən gəlirləri üzrə ölkələr arasındakı fərqlərin, demək olar ki, yarısı elmi-texniki nailiyyətlərdən istifadə olunması ilə əlaqədardır.

Elmi-texniki tərəqqi obyektiv iqtisadi qanunauyğunluqdur. O, müəssisələrin, birliklərin və bütün sahələrin texnika ilə yenidən təchiz edilməsində özünü göstərir. İstehsalın yenidən təchiz edilməsində yeni texnikanın tətbiqi mərkəzi yer tutur. Bu anlayış elmi-texniki tərəqqinin xarakterсə müxtəlif obyektlərini və istiqamətlərini əhatə edir: maşın, avadanlıq, aparat və cihazların yeni konstruksiyaları, materiallar və texnologiya, yanacaq və enerji, əməyin və istehsalın idarə edilməsinin təşkili. Elmi-texniki tərəqqi iqtisadi inkişafın xüsusi amilidir. Onun iqtisadi səmərəliliyi texnikanın inkişafının aşağıdakı mərhələləri yerinə yetirildikdən sonra üzə çıxır:

1. Maşının, cihazın və texnikanın başqa növlərinin fəaliyyətinin fiziki və texniki prinsiplərinin formalaşması.

2. Layihə-konstruktor işi və maşının sənaq-sənaye nümunəsinin yaradılması və istismar şəraitində onun yoxlanması.

3. Texnikanın sənaye istehsalının təşkili və onun xalq təsərrüfatı sahələrində yayılması [6, səh.47].

Texnikanın konstruksiya edilməsi – vaxta görə uzun bir prosesdir. Texnikanın yayılmış nümunəsi bir sıra illər ərzində hərtərəfli yoxlanılır və sınaqdan keçirilir. Sınaqların gedişində texnikanın müəyyən növünün xalq təsərrüfatında yayılmasının iqtisadi məqsədəuyğunluğu təsdiq edilir. Məsələn, 500-800 min kvt gücündə olan enerji avadanlığı onun elektrik energetikasında yayılması haqqında qərar qəbul etməzdən əvvəl istismar şəraitində uzunmüddətli yoxlanılır. Bu, yeni texnikanın yaradılması və tətbiqinin mürəkkəb proses olduğunu, iqtisadi inkişafın amili kimi elmi-texniki tərəqqidən istifadə zamanı, bir sıra problemlərin olduğunu göstərir. Onların içərisində aşağıdakıları qeyd etmək olar:

- elmi-texniki tərəqqini sürətləndirməklə ölkənin əsas sosial-iqtisadi vəzifələrinin həll edilməsi;

- elmi-texniki potensialın artırılması;

- elmi-texniki tərəqqinin idarə edilməsi;

- elmi-texniki tərəqqinin stimullaşdırılmasının gücləndirilməsi.

Bazar iqtisadiyyatı şəraitində respublikamızda istehsalın miqyası artır, istehsalın səmərəliliyi, əmək məhsuldarlığı və işin keyfiyyəti yüksəlir. Əsas məsələ elmi-texniki tərəqqini sürətləndirməklə sənaye müəssisələrinin inkişaf sürətlərini artırmaqdan ibarətdir. Bu halda yeni texnikanın yaradılması, texniki siyasətin hazırlanması və həyata keçirilməsi həlledici əhəmiyyət kəsb edir. Texnikanın mütərəqqi inkişafı güclü elmi-texniki potensial vasitəsilə təmin edilir ki, bu da müəssisə və birliklərin elmi-tədqiqat, layihə və texnoloji institutları, konstruktor büroları, elmi-texniki informasiya orqanları, elmi və mühəndis-texniki işçilərin sayı ilə xarakterizə edilir. Əsas problem elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edəcək elmi-texniki potensialın inkişafına səmərəli münasibətdən ibarətdir [3, səh. 78].

Elmi-texniki tərəqqinin əsas istiqamətlərinin yaranması və inkişafında müəssisənin özü, onun elmi-texniki potensialı mərkəzi yeri tutur. Xalq təsərrüfatı sahələrinin texnika ilə yenidən silahlandırılmasında sənaye müəssisələrinin xidməti aşağıdakı istiqamətlər hesabına təmin edilir:

- sənaye müəssisələrinin təkmilləşdirilməsi və onun iqtisadi səmərəliliyinin yüksəldilməsi;

- sənaye istehsalının təkmilləşdirilməsi və onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi [4, səh. 41].

Texnikanın inkişafı müxtəlif yollarla gedir. İqtisadi artımın perspektivləri baxımından sənayedə elmi-texniki tərəqqinin mühüm istiqaməti yeni hərəkət prinsiplərinə malik maşın konstruksiyalarının hazırlanmasıdır. Bu cür maşınların analoqu olmur, bir qayda olaraq yeni yaradılır. Bunun üçün axtarış xarakterli tədqiqatlar silsiləsi və sınaq-konstruktor işləri aparılmalıdır. Texnikanın yeni növləri, müxtəlif bilik sahələrindəki elmi fikirlərdən kompleks istifadə edilməsi nəticəsində meydana gəlir. Kimya elmi sahəsindəki nailiyyətlər, nisbətən yeni yanacaq növünün yaradılmasına gətirib çıxarır. Yeni yanacaqdan istifadə edəcək mühərrik və enerji qurğusunun yeni konstruksiyasını yaratmaq zərurəti irəli gəlir.

Texnikanın prinsipcə yeni növlərinin yaradılması elmi əsaslandırılmışdır, çünki, hazırda tətbiq olunan maşın və avadanlığın xeyli hissəsi texniki inkişafın yekun mərhələsindədir. Buraya metallurgiya, energetika aqreqatları, ənənəvi hərəkət prinsiplərinə əsaslanan başqa avadanlıq və maşınlar daxildir. Vaxt gələcəkdir ki, göstərdiyimiz istiqamətdə həmin maşınların daha da inkişafı iqtisadi cəhətdən səmərəli olmayacaqdır. Ona görə də yeni iş prinsiplərinə malik maşınlar və

texnologiya yaradılmalı, real istismar şəraitində sınaqdan keçirilməli və sənaye istehsalı üçün hazırlanmalıdır. Bu cür texnika artıq yaradılmaqdadır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, elm və texnikanın nailiyyətlərinin istehsala tətbiqi bilavasitə iş yerlərində də sosial inkişafa, tərəqqiyə səbəb olur. Bir tərəfdən müasir istehsal işçisinin peşənin tələb etdiyi nəzəri və emprik biliyə yiyələnmək zəruriliyi və digər tərəfdən istehsalın avtomatlaşdırılması nəticəsində əməyin yüngülləşməsi hesabına fəhlənin yaradıcılıq fəaliyyəti üçün vaxtı və imkanı çoxalır. Bununla istehsal işçisinin ixtiraçılıq və səmərələşdirmə, başqa sözlə, texniki tərəqqi işində özünün siyasi dünyagörüşünü, mədəni səviyyəni yüksəltmək işlərində fəallığı yüksəlir. Elmi-texniki tərəqqinin sosial nəticəsi kimi milli ideologiyaya sadiq, əsl vətənpərvər, mədəni-siyasi cəhətdən tərəddüdsüz, gələcəyə inam, sosial nikbinlik, bir sözlə, sivil həyat tərzi prinsiplərini rəhbər tutan şəxsiyyətin formalaşması prosesi gedir.

Dünya təsərrüfat sistemi inkişaf etdikcə elmi-texniki tərəqqinin sürətlənməsi ilə müasir texnologiyaları yeni nəsil standartları, başqa sözlə, innovasiya funksiyaları özünü göstərməkdədir. Dünya ölkələrində son 20 il ərzində innovasiya sisteminin formalaşması və tətbiqində nanotexnologiyaların gerçəkləşdirilməsində mühüm nəticələr əldə edilmişdir [1, səh.44].

İnnovasiya fəaliyyətinin nəticəsi olan elmi-texniki tərəqqi istehsalın büiün sahələrində kompleks şəkildə reallaşdırılan elmi-texniki tərəqqi hesab edilir. Müasir şəraitdə daxili və xarici bazarlarda möhkəmlənmək yeni məhsul və xidmət növünün istehsalını tələb edir. Bütün bunlar isə kifayət qədər mürəkkəb və çoxşaxəli bir prosesi özündə birləşdirməklə biliklərin toplanılması, əmək vasitələrinin və əmək predmetlərinin, istehsal texnologiyalarının və idarəetmə sistemlərinin təkmilləşdirilməsi, təbii ehtiyatlardan daha səmərəli istifadə edilməsi və bütövlükdə istehsalın nəticə göstəricilərinin keyfiyyətcə yaxşılaşması ilə səciyyələnir. Son nəticə isə iqtisadi artımı təmin etməyə və qlobal iqtisadi problemləri həll etməyə yönəlir.

Nəticə olaraq deyə bilərik ki, qlobal iqtisadi problemlərin hər birinin ayrılıqda və hamısının birlikdə bəşəriyyət üçün çox böyük əhəmiyyəti var və onların həll edilməsinin ləngidilməsi yer kürəsində insan cəmiyyətinin məhv olması ilə nəticələnə bilər. Qlobal iqtisadi problemlər elm və texnikanın sürətli inkişafı əsasında həll edilə bilər. Qloballaşmanın aparıcı qüvvələri və qloballaşma proseslərinə təsir edən, onları bilavasitə formalaşdıran amillərin araşdırılması qlobal iqtisadi problemlərin təhlil edilməsində əsas məntiqi mərhələ olmalıdır.

Qloballaşmanı stimullaşdıran və müasir qlobal iqtisadi problemlərə böyük təsir göstərən əsas qüvvə nəinki milli, həmçinin, dünya miqyasında mövcud olan elmi-texniki tərəqqidir. Elmi-texniki tərəqqinin iqtisadi səmərəliliyinin yüksəldilməsi qloballaşmanın "mühərrikinə" çevrilir. Belə ki, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsi, nəinki ölkə iqtisadiyyatının, həmçinin dünya iqtisadiyyatının texniki cəhətdən yenidən qurulmasına, istehsalın səmərəliliyinin və məhsulun keyfiyyətinin yüksəldilməsinə, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına səbəb olur.

Ədəbiyyat siyahısı

1. Ş.T. Əliyev İqtisadi diplomatiya, Bakı, Elm və təhsil, 2012. 196 s.

2. V. K. Lomakin Dünya iqtisadiyyatı. Rus dilindən tərcümə. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2013. 625 s.

3. D.Ə. Vəliyev Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, Adiloğlu nəşriyyatı, 2008. 428 s.

4. Ф.Г. Габибов Управление научно-техническими инновациями. Баку, 2003. 255 с.

5. М.Н.Осмова, В.Ф.Железова, Е.А. Касаткина Глобализация мирового хозяйства. ИНФРА-М. 2006. 427 с.

6. Е.Н. Лобачева Научно-технический прогресс: Учобное пособие. Изд. «Экзамен», 2004. 365 с.

Lalə Fəqail qızı Mahmudova

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının müdiri, dosent

İlqar Osman oğlu Osmanov

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının assistenti

QLOBAL İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNDƏ ELMİ-TEXNİKİ TƏRƏQQİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN ROLU

Məqalədə qloballaşma proseslərinin milli iqtisadiyyatın sahələrinə təsiri nəzərdən keçirilmişdir. Elmi-texniki tərəqqinin qlobal iqtisadi problemlərin həllində rolu tədqiq edilmişdir. Elmi-texniki tərəqqiyə iqtisadi inkişafın xüsusi amili kimibaxılmış, onun iqtisadi səmərəliliyi qiymətləndirilmişdir.

Açar sözlər: *elmi-texniki tərəqqi, qlobal iqtisadi problemlər, səmərəlilik, innovasiya, müəssisə, texnologiya*

ABSTRAKT

L.F.Mahmudova

Sumgayit State University, Head of Economics Department, Associate Professor

I.O.Osmanov

Sumgayit State University, assistant of economics department

THE ROLE OF INCREASING THE ECONOMIC EFFICIENCY OF SCIENTIFIC AND TECHNOLOGICAL PROGRESS IN SOLVING GLOBAL ECONOMIC PROBLEMS

The article considers the influence of global processes on the branches of the national economy. The role of scientific and technical progress in solving global economic problems is investigated. Scientific and technical progress is considered as a special factor of economic development, its economic efficiency is evaluated.

Key words: *scientific and technical progress, global economic problems, efficiency, innovation, enterprise, technology*

İNNOVASIYALI İNKİŞAF ETT-NİN XÜSUSİ MƏRHƏLƏSİ KİMİ

Lalə Müsəllim qızı
Vəliyeva
Sumqayıt Dövlət
Universiteti, i.ü.f.d, dosent
Laledu@mail.ru

İqtisadiyyatın inkişafının innovasiya mərhələsinin əsas hədəfi milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması), hər bir regionun malik olduğu

potensialdan tam və səmərəli istifadə olunması və onların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar. Azərbaycanın iqtisadi strategiyasında insan kapitalının formalaşdırılması prioritet məqsəd kimi, müasir bilik və nanotexnologiyalar isə innovasiyanın inkişaf vasitələri kimi müəyyən edilmiş, strategiyanın elmi cəhətdən təhlili və əsaslandırılması mövcud uğurların davamlılığının və effektivliyinin təminatı kimi qiymətləndirilir. Ölkənin hər hansı bir fəaliyyət sahəsində innovasiyanı tətbiq etməzdən əvvəl bu sahənin innovasiya potensialını müəyyən edirlər. İnnovasiya potensialı innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan maddi, maliyyə, intellektual, elmi-texniki və digər resursların məcmusudur [2, s. 20].

Qlobal və makrosəviyyədə innovasiyanın universal mənbəyi çox sürətlə artan tələbatla onların ödənilməsi imkanları arasındakı ziddiyyətdir. Məhdud resurslara malik olan cəmiyyət öz tələbatını ödəməyin bütün yeni və daha effektiv üsullarını ixtira etməyə məcburdur. İnsanların hər növbəti nəsli nail olduğu səviyyədən imtina edir və daha yüksək tələblər irəli sürürlər.

Müasir qloballaşma şəraitində texnologiya sahəsində baş verən yeniliklər firmalar, xüsusilə də kiçik müəssisələr üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. İnnovasiyanın səmərəliliyi xeyli dərəcədə bu sahədə çalışanların, o cümlədən firmaların, elmi-tədqiqat müəssisələrinin, universitetlərin peşəkarlıq fəaliyyətindən, onların yerli, milli və beynəlxalq səviyyədə əlaqələrindən asılıdır. Digər tərəfdən, innovasiya sisteminin səmərəliliyinə təsir edən amillər sırasına fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimlənmələrinin səmərəliliyi və s. aid olunur. Təsadüfi deyildir ki, prof. D. Ə. Vəliyev innovasiya prosesinin milli iqtisadiyyata müsbət təsir göstərə bilməsinin mühüm şərtlərindən biri kimi elmi-tədqiqat müəssisələri və universitetlər ilə sahibkarlar arasında qarşılıqlı əlaqələrin yaradılmasını və inkişaf etdirilməsini qeyd edir [3, s. 52]. Alim bu sahədə dövlətin vəzifələri sırasına innovasiya sisteminin gücləndirilməsini, innovasiya üçün zəruri şəraitin yaradılmasını, yeni texnologiyanın yayılmasını, şəbəkələşmə və təmərküzləşmənin tətbiqini daxil edir [3, s. 52-53].

İnnovasiya prosesini səciyyələndirən cəhətlər aşağıdakılardan ibarətdir:

- qarşıya qoyulan məqsədə çatmaq üçün çoxlu qeyri-müəyyən yolların və yüksək riskin mövcudluğu;
- dəqiq proqnoz qiymətləndirilməsinin aparılmasının qeyri - mümkünlüyü;
- iqtisadi münasibətlərin mövcud olduğu sferada gərginliyin aradan qaldırılması;

- innovasiya prosesinin bilavasitə iştirakçılarının mənafelərini qorumaq zərurəti [1, s. 43].

İnnovasiya prosesi dedikdə, müəssisənin hər bir həlqəsinin işinin rentabelliyinə nəzarət zamanı onun fəaliyyətinin müxtəlif sferalarının balanslaşdırılmasının təkmilləşdirilməsi başa düşülür. Bütün yeniliklər firmanın işinin müxtəlif tərəflərinin sistemli, kompleks təhlili əsasında aparılır ki, burada da ən başlıcası alınmış nəticələrin artıq əldə edilənlərlə deyil, bazarın həmin vaxtda malik odluğu potensiala (tutumluluqla) müqayisə etməkdən ibarətdir. İnnovasiya prosesi yeni növ məhsulun mənimsənilməsi və buraxılan məhsulun modernləşdirilməsini, yeni maşın, avadanlıq və materialların istehsalata tətbiqini, yeni texnologiyalardan və məhsulun istehsalı üsullarından istifadə edilməsini, habelə istehsalın təşkilinin və mütərəqqi idarəetmə metodlarının, vasitə və qaydalarının tətbiqini nəzərdə tutur. İnnovasiya prosesi müxtəlif yollarla həyata keçirilə bilər. Hər bir konkret halda daha səmərəli yolun seçilməsi texnologiyanın xarakteri, son məhsul bazarı, firmanın potensialı, iqtisadi iqlim, rəhbərliyin səriştəlilik dərəcəsi kimi şərt və amillərdən asılıdır. İstənilən halda müxtəlif qruplar tərəfindən həyata keçirilən çoxüzlü və çoxmərhələli proseslərin, bir çox insanlar, bölmə və təşkilatlar arasında dinamik qarşılıqlı təsirin rolu böyükdür. İnnovasiyalar təşəbbüssüz və inadsız, habelə istehsal, insan, təşkilati və sosial amillər sahəsində iri xərclər çəkmədən mümkün deyildir. İnnovasiyaların mahiyyəti həmişə eksperiment olmuş və olaraq da qalır. Planlar, tədqiqatlar, resursların düşünülmüş bölgüsü nə qədər vacib olsa da bazarın marketinqi bundan da vacibdir. İnnovasiya prosesi daxili ziddiyyətlərlə dolu bir prosesdir. İnnovasiya prosesini fundamental, tətbiqi tədqiqat, konstruktor işləmələri, marketinq, istehsal, nəhayət satış mərhələlərini keçən, ardıcıl olaraq ideyanı əmtəəyə çevirən proses kimi texnologiyanın kommersiyalaşdırılması prosesi kimi müəyyən etmək olar. İnnovasiya prosesinə müxtəlif mövqelərdən müxtəlif detallaşdırma dərəcəsi ilə baxıla bilər.

Birincisi, elmi-tədqiqat, elmi-texniki, innovasiya, istehsal fəaliyyətinin və marketinqin paralel-ardıcıl həyata keçirilməsi kimi nəzərdən keçirilə bilər.

İkincisi, ideyanın meydana çıxmasından onun işlənib hazırlanmasına qədər yeniliklərin həyat tsiklinin müvəqqəti mərhələləri kimi baxıla bilər.

Üçüncüsü, məhsul və ya xidmətlərin yeni növünün işlənib hazırlanması və yayılmasının maliyyələşdirilməsi və investisiyalaşdırılması prosesi kimi verilə bilər. Bu halda o, investisiya layihəsinin təsərrüfat təcrübəsində geniş yayılmış xüsusi halı kimi çıxış edir [2, s. 18].

Ümumi şəkildə innovasiya prosesi ixtiraların, yeni texnologiyanın, məhsul və xidmət növlərinin, istehsal, maliyyə, inzibati və s. xarakterli qərarların və intelektual fəaliyyətin digər nəticələrinin alınması və kommersiyalaşdırılmasından ibarətdir. Yeni texnikanın

yaradılması və mənimsənilməsi prosesi yeni elmi biliklərin alınmasına və daha mühüm qanunauyğunluqların aşkara çıxarılmasına yönəldilmiş fundamental tədqiqatlardan (FT) başlayır. FT-nin məqsədi hadisələr arasındakı yeni əlaqələri açmaqdan, onların konkret istifadəsinə rəğmən təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını dərk etməkdən ibarətdir. FT nəzəri və axtarış tədqiqatlarına bölünür. Nəzəri tədqiqatların nəticələri elmi kəşflərdə, yeni anlayış və təsəvvürlərin əsaslandırılmasında, yeni nəzəriyyələrin yaradılmasında meydana çıxır. Axtarış tədqiqatlarına vəzifəsi ideya və texnologiyaların yaradılmasının yeni prinsiplərinin kəşfi sayılan tədqiqatlar aiddir. Axtarış tədqiqatları ictimai tələbatın ödənilməsinin yeni metodlarının əsaslandırılması və təcrübi yoxlanması ilə başa çatır. Bütün axtarış FT akademik idarələrdə və ali təhsil müəssisələrində olduğu kimi sənayenin iri elmi-texniki təşkilatlarında da yüksək elmi ixtisaslaşma keçmiş heyətlə aparılır. İnnovasiya proseslərinin inkişafında fundamental elmin prioritet əhəmiyyəti onunla müəyyən edilir ki, bu elm ideyanın generatoru kimi çıxış edir və yeni bilik sahələrinə yollar açır. İnnovasiya prosesinin növbəti mərhələsi tətbiqi elmi-tədqiqat işləri sayılır. Onların yerinə yetirilməsi mənfi nəticələrin alınmasının yüksək ehtimalı ilə əlaqədardır. Vəsaitlərin tətbiqi ETİ-nin aparılmasına qoyulması zamanı itkilərin baş verməsi riski meydana çıxır. İnnovasiyaya investisiyalar riskli xarakter daşıdıqda onları risk investisiyaları adlandırırlar. Təcrübi-konstruktor və layihə-konstruktor işləri mərhələsi məhsulun yeni növünün işlənməsi ilə bağlıdır. Bu mərhələ aşağıdakıları özündə ehtiva edir: eskiz-texniki layihələndirmə, işçi konstruktor sənədləşməsinin buraxılışı, təcrübə nümunələrinin hazırlanması və sınağı. Təcrübi-konstruktor işləri (TKİ) adı altında tətbiqi tədqiqatın nəticələrinin yeni texnika, material, texnologiya nümunələrinin yaradılması (və ya modernizasiyası, təkmilləşdirilməsi) üçün tətbiqi başa düşülür. TKİ-elmi tədqiqatların yekun mərhələsidir, laboratoriya şəraitindən və eksperimental istehsaldan sənaye istehsalına özünəməxsus şəkildə keçiddir. TKİ-yə aşağıdakıları aid etmək olar:

- mühəndis obyektinin və ya texniki sistemin (konstruktor işlərinin) müəyyən konstruksiyasının işlənib hazırlanması;
- yeni obyektin ideya və variantlarının işlənib hazırlanması;
-texnoloji proseslərin işlənib hazırlanması, daha doğrusu, fiziki, kimyəvi, texnoloji və digər proseslərin əmək prosesi ilə bütöv sistemə birləşdirilməsi üsulları [3, s. 119].

İnnovasiya layihəsinin mürəkkəbliyindən asılı olaraq innovasiya fəaliyyətinin ilkin mərhələsində həll edilən vəzifələr kifayət qədər müxtəlif ola bilər. İlkin mərhələdə işlərin icraçıları ali təhsil müəssisələrinin, universitetlərin, AMEA-nın institutlarının, dövlət və elmi-texniki mərkəzlərin alim və mühəndis-texniki işçilərinin yaradıcı kollektivləri

sayılır. İnnovasiya fəaliyyətinin nəticələrinin praktiki reallaşması bazar mərhələsində həyata keçirilməklə özündə aşağıdakıları birləşdirir:

- bazara tətbiq,
- bazarın genişləndirilməsi,
- məhsulun yetkinliyi,
- məhsulun tənəzzülü.

Seriyadan əvvəlki istehsal mərhələsində təcrübi, eksperimental işlər yerinə yetirilir. Eksperimental işlər elmi tədqiqatların və işləmələrin həyata keçirilməsi üçün zəruri olan xüsusi avadanlığın hazırlanmasına, təmirinə və ona xidmət göstərilməsinə yönəldilmişdir. Sənaye istehsalının mərhələləri aşağıdakılardan ibarətdir. Yeni məhsulun məxsusi istehsalı və onun istehlakçılara reallaşması. İnnovasiya məhsullarının işlənib hazırlanması prosesində çox vaxt daha səmərəli variantların seçilməsi lazım gəlir ki, bu da onların müqayisəsini nəzərdə tutur. Tutuşdurulan variantların müqayisəyə gətirilməsi (texnologiya, avadanlıq və s.) istehsal olunan məhsul və xidmətlərin həcmi, istehsal resurslarına, məhsul və xidmətlərə qiymət və tariflərin səviyyəsi, vaxt amili üzrə təmin edilir. İnnovasiya məhsulları üzrə müqayisə olunan variantların təhlili imkan verir ki, onlardan hər birinin səmərəlilik səviyyəsi müəyyən olunsun. Belə informasiya təkcə məsələnin yekun həlli üçün deyil, həm də innovasiya məhsulunun bu və ya digər variantının tətbiqi üçün vacibdir. Elmi tədqiqat və təcrübi-konstruktor işləmələrinin nəticələri innovasiya məhsulları kimi çıxış edir. Ona görə də bu məhsullar yüksək yenilik dərəcəsi və elmtutumluluğunun adekvat səviyyəsi ilə seçilir. İnnovasiya məhsullarının siyahısı kifayət qədər geniş və müxtəlifdir. Buraya nəzəri və təcrübi biliklər, elmi-tədqiqat prosesinin nəticələri, yeni texnika və yaxud texnologiyanın işlənməsi nəticəsində hazırlanan elmi-texniki sənədləşmə, yeni əmək alətlərinin və materiallarının təcrübi nümunələri aiddir. İnnovasiya məhsullarının tərkibinə həm də elmi-texniki xidmət və məsləhətlər də daxildir. Dünyada innovasiya məhsullarına tələbat daimi artır. Çünki o, bir tərəfdən, mövcud istehsalın texniki səviyyəsini və iqtisadi səmərəliliyini yüksəltmək məqsədilə onun təkmilləşdirilməsi və inkişafına, digər tərəfdən isə buraxılan məhsulların yeniləşdirilməsinə, yeni rəqabət qabiliyyətli məmulatların istehsala daxil olmasına şərait yaradır. İnnovasiya məhsullarının işlənib hazırlanması və yaradılması ən çox istehsal müəssisələri (firmaları) arasında bağlanan müqavilələr çərçivəsində, habelə dövlət sifarişləri çərçivəsində həyata keçirildiyinə baxmayaraq, bu məhsulların daha çox həcmi xarici bazara göndərilir. İnnovasiya məhsulunu öz xarakterinə görə fərdi istehsalın məhsuluna aid etmək olar. Buna görə də onun satış bazarı xalis inhisarın əlamətlərinə uyğun gəlir və hər şeydən əvvəl satıcılar qiymətə əhəmiyyətli təsir göstərmək qabiliyyətinə malikdirlər. İnnovasiya planlarının işlənib hazırlanması və praktiki olaraq

reallaşdırılması bazar şəraitində Azərbaycan firmalarının zəruri həyat atributuna, başlıca salamatlıq amilinə çevrilməkdədir. Hazırda respublikamızda innovasiya prosesinin planlaşdırılması sferasında müəyyən qanunauyğunluqlar və meyllər müşaiyət olunur: Belə ki, innovasiya prosesinin formalaşmasında plan metodlarının istifadəsi firmanın fəaliyyətinin bütün tərəflərinin əsaslı surətdə yeniləşdirilməsinin mütləq şərti kimi çıxış edir. Müəssisənin fəaliyyətinin əsası sayılan planlaşdırma onun bütün sferalarına, bütün həlqələrinə, bölmələrinə aiddir. Biznesə planlı rəhbərliyin əsası onun təminatının maddi bazası əsasında inkişafının əsas məqsədlərinin, istiqamət və nisbətlərinin, bazarda vəziyyətin təhlilinin müəyyən edilməsindən ibarətdir. İnkişafın plan alətlərinin tətbiqində ən başlıcası daha radikal üsulla bütün mövcud resursların istifadə üçün səfərbər edilməsi sayılır ki, bu da firmanı istənilən bazar döngələrində öz mövqeyini qoruyub saxlamaq və artırmaq iqtidarında olmağa və planda nəzərdə tutulan mənfəəti almağa səbəb olur. Müəssisənin məcmu iş proseslərinin planlaşdırılmasını yalnız marketinq siyasəti və nəzarətin təşkili ilə üzvi vəhdətdə həyata keçirmək olar. İnnovasiya planlaşdırılmasının əsasını strateji perspektivlər, firmanın miqyasına əsaslanan plan proqramlar təşkil edir. Cari planlar strateji planlara əlavə kimi çıxış edir. Müəssisələrdə tez-tez həm strateji, həm də təşkilati strukturun bütün elementlərini əhatə edən cari proqramlar kimi xüsusi proqramlar yaradılır və reallaşdırılır [4].

İnnovasiya planları daha böyük son nəticəni təmin edən əsas yeniliklərin işlənib hazırlanması və tətbiqində bütün xidmət və bölmə əməkdaşlarının qüvvələrini birləşdirməyə imkan verir. İnnovasiyanın planlaşdırılması təkcə iri şirkətlər üçün səciyyəvi deyildir. O, həm də xeyli dərəcədə salamat qalmalarının əsas arqumenti kimi orta və xırda firmalara lazımdır. Bütün artan ölçülərdə firmanın fəaliyyətinin müxtəlif sferalarının təzələnməsi üçün plan metodlarının tətbiqi rəqabət mübarizəsində başlıca vasitə sayılır. İnnovasiyanın plan metodları daha yüksək nəticələrə nail olmuş və işlərin daim yaxşı səmtə yönəlməsinə çalışmış əməkdaşların bütün maddi və qeyri-maddi stimullaşdırılmasını dəqiq təşkil etməyə imkan verir. İnnovasiya prosesinin planlaşdırılması həyat tsikllərinin hər bir fazasında əmtəə və xidmətlərə toxunur. İnnovasiya prosesinin idarə edilməsi sahəsində mövcud olan qanunauyğunluqlar haqqında danışarkən qeyd etmək lazımdır ki, innovasiyanın işlənib hazırlanması və praktiki reallaşması prosesinin idarə edilməsi elmdə müstəqil istiqamətə çevrilir. İnnovasiya prosesinin daim inkişaf təmayülü müasir müəssisə üçün başlıca obyektiv zərurətə çevrilmişdir. Şirkətin fəaliyyətinin bütün funksional sferalarında yeniliklərin yaradılması və səmərəliliyin yüksəldilməsi prosesi planlaşdırmanın, elmi tədqiqatların, layihələrin işlənib hazırlanmasının, məhsul istehsalının, marketinqin, bir sözlə bazarda bütün salamatqalma prosesinin ayrılmaz sisteminə çevrilmişdir [4].

Müəssisələrin əksəriyyətində innovasiya tədbirlərinin tətbiq sferasının genişlənməsini və səmərəliliyin keyfiyyətinin yüksəldilməsini təmin edən xüsusi bölmələr, xidmətlər yaradılmalıdır. İnnovasiya sisteminə çox tez-tez, yeniliklərin yaradılması prosesinin idarə edilməsi, kollektivin yaradıcılıq potensialının daha yaxşı istifadə edilməsi daxil olunur. Əmtəə və xidmətlərin həyat tsiklinin ixtisar olunması ilə mövcud praktikanın yaxşılaşdırılması üzrə yeni ideya və təkliflərin ardıcıl axınına tələb daim artmaqda olan ölçülərdə yüksəlir. Artan həcmlərdə innovasiya işində iştirak müəssisənin işçilərinin əksəriyyətinin özünüdoğrultma, yeniləşmə forması kimi çıxış edir. İnnovasiyanın tətbiqi kadr hazırlığının yeni konsepsiyasını tələb edir ki, bunun da əsasında yaradıcı şəxsiyyətin formalaşması və inkişafı durur.

Azərbaycan iqtisadiyyatında rəqabətə davam gətirmək və hazırkı çətinlikləri aradan qaldırmaqla inkişafa can atmaq meylləri müəssisəni onun qarşısında duran problemlərin sürətli və məhsuldar həllinə kömək edən yeni idarəetmə alətlərinin axtarışına və fəal istifadəsinə məcbur edir. Bu günki şəraitdə antiinhisar menecmentinin daha səmərəli alətlərindən biri kimi məhz reinjinirinq özünü doğrultmaqdadır. Yeniliklər sahəsində uğurun qazanılması firmanın bütün fəaliyyətinin inteqrasiyası və əlaqələndirilməsi mexanizminin yaradılmasından, innovasiya fəaliyyətində onların funksionalarası qarşılıqlı təsirin tənzimlənməsindən asılıdır. Uğurla inkişaf edən müəssisələr kollektivdə yaradıcılıq axtarışı atmosferini yaratmağa, yeniliklərin sürətlə mənimsənilməsinə can atırlar. Əməkdaşların yaradıcı, qeyri-standart fəaliyyətini stimullaşdıran kompleks əsaslı sistemlər işlənib hazırlanır və istifadə edilir. Öz təşkilati strukturlarını təkmilləşdirərkən ilk növbədə firmalar innovasiya prosesinin məqsədindən çıxış edirlər.

İnnovasiyalı inkişafının əsas istiqamətləri kimi aşağıdakılar təklif edilə bilər:

- xarici texnologiyanın alınması və yeni məhsulun istehsalının təşkili;
- xüsusi elmi-tədqiqat və konstruksiya işlərinin aparılması;
- innovasiya layihələrinin reallaşdırılması üçün resursların cəlb edilməsi;
- innovasiya layihələrinin tətbiqi üçün kredit və güzəştlərin verilməsi;
- iri sahibkarlıq subyektlərinin yeniliyə, daima əlavə dəyər əldə etmək istəyi ilə uzlaşan innovasiya tipli istehsala olan marağını nəzərə alaraq iqtisadiyyatda iri sahibkarlıq strukturlarının yaradılmasına dövlət dəstəyinin formalaşdırılması;
- ölçüsündən asılı olmayaraq sahibkarlıq subyektlərinə yerli və xarici investisiyaların cəlb edilməsi;
- ixtisaslı mütəxəssislərin hazırlanması üçün imkanların artırılması;
- regionlarda innovasiya əsaslı müəssisələrin yaradılmasının stimullaşdırılması;
- milli innovasiya sisteminin yaradılması və onun strukturunun təkmilləşdirilməsi və s.

Ədəbiyyat siyahısı

1. A.B. Abbasov Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri. Bakı, 1998. 320 s.
2. A.Musayev İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması Bakı, 2014. 25 s
3. D.Ə. Vəliyev Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, "Adiloğlu", 2008, 428 s.
4. http://www.kitabxana.org. – "Far Centre" Elektron kitabxanası.

XÜLASƏ

Lalə Müsəllim qızı Vəliyeva
Sumqayıt Dövlət Universiteti,
i.ü.f.d, dosent

İNNOVASIYALI İNKİŞAF ETT-NİN XÜSUSİ MƏRHƏLƏSİ KİMİ

Dünya təcrübəsi göstərir ki, innovasiya texnologiyalarından, geniş istifadə olunması, ölkənin hərtərəfli, inkişafına xidmət edir. Bu texnologiyalar, əhalinin sosial-iqtisadi vəziyyətində,müşahidə,olunan problemlərin həlli, həmçinin yoxsulluq səviyyəsinin,azaldılması üçün tutarlı,vasitələrdəndir.

Açar sözlər: *innovasiya, texnologiya, maliyyə sistemi, istehsal fəaliyyəti, elmi texniki tərəqqi.*

ABSTRAKT

L.M.Valieva
Sumgayit State University,
docent

İNNOVATİVE DEVELOPMENT AS A SPECİAL PHASE OF SCİENTİFİC TECHNİCAL PROQRESS

The world experience shows that wide use of innovative technologies serves to the country's comprehensive development. These technologies are a consistent tool for solving the problems observed in the social-economical situation of the population, as well as reducing poverty.

Key words: *innovation, technology, financial system, production activity, scientific technical progress.*

AZƏRBAYCANDA İNNOVASİYA YÖNÜMLÜ İQTİSADİYYATIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Məhəmməd Ələddin oğlu Əhmədov

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının baş müəllimi

mehemmed.ehmedov.57@mail.ru

Ölkənin ümumi daxili məhsulunun xeyli hissəsi sənaye müəssisələrinin payına düşür. Milli iqtisadiyyatımızın əsas xüsusiyyətlərindən biri isə sənaye müəssisələrinin təsərrüfatçılıq fəaliyyətinin yaxşılaşdırılması, bu fəaliyyətin elmi əsaslar üzərində qurulmasıdır.

Bazar münasibətləri şəraitində hər bir sənaye müəssisəsinin sahibkarlıq fəaliyyətinin əsas məqsədi insan tələbatlarını ödəyə bilən maddi nemətlər və xidmətlər çoxluğu istehsal etməklə, onun satışından mümkün qədər yüksək gəlir əldə etməkdir. Bu strateji məqsədin reallaşdırılması bir sıra iqtisadi problemlərin həllini tələb edir. Belə iqtisadi problemlərdən biri müəssisənin dayanıqlılığını təmin etmək məqsədi ilə elmi-texniki nailiyyətləri istehsala tətbiq etmək yolu ilə yeni daha keyfiyyətli məhsul istehsal etmək, xidmətlər göstərməkdir. Bu isə müəssisələrdən, sahibkarlardan fəal innovasiya fəaliyyətinin aparılmasını tələb edir.

Müəssisənin innovasiya fəaliyyəti, hər şeydən əvvəl, yeni və yeniləşdirilmiş məhsul və ya xidmət növünü istehsal etmək məqsədi ilə müəssisənin elmi-texniki və intellektual potensialından istifadə olunması üzrə tədbirlər sistemidir. Sözsüz ki, elmi-texniki yeniləşmənin bu və ya digər forma və üsulunun seçilməsi bir sıra amillərdən asılıdır. Konkret şəraitdən asılı olaraq müəssisənin istehsal istiqamətini, onun maddi və elmi-texniki potensialını, bazar tələblərini, texnika və texnologiyanın həyat müddətini və s. göstərmək olar.

Təyinatından asılı olaraq innovasiyanın iki əsas növünü fərqləndirmək olar: məhsul və texnoloji innovasiya. Yeni məhsulun istehsalı tamamilə yeni texnologiyaların tətbiqini tələb edir. Mövcud məhsulun təkmilləşdirilərək yeniləşdirilməsi isə elə məhsul innovasiyasıdır ki, bu zaman mövcud məhsulun keyfiyyət və dəyər göstəriciləri dəyişdirilmiş olur [2, səh. 232].

Texnoloji innovasiya yeni və ya əsaslı surətdə təkmilləşdirilmiş texnoloji prosesin tətbiqini nəzərdə tutur.

Müəssisənin innovasiya fəaliyyəti innovasiyanın həyat müddəti anlayışının aydınlaşdırılmasını tələb edir. İnnovasiyanın həyat müddəti yeni məhsulun

yaradılması və istehsalı ilə əlaqədar bir sıra proses və mərhələləri özündə birləşdirir. Bu dövr yeni məhsulun yaradılması üzrə ideyanın meydana gəlməsindən başlayaraq onun istehsaldan çıxarılmasına qədər olan dövrü əhatə edir.

Hər hansı yeni bir məhsulun istehsal prosesini innovasiya nöqteyi-nəzərdən beş mərhələyə ayırmaq olar. Bu mərhələlər aşağıdakılardır:

1. Yeniliyin istehsala tətbiq edilməsi.
2. Yeni məhsulun sənaye istehsalının mənimsənilməsi.
3. Yeni məhsulun istehsal həcminin artırılması.
4. Yeni məhsulun istehsal həcminin tam istehsal gücünə çatdırılması.
5. İstehsalın tədricən məhdudlaşdırılması və dayandırılması.

Bu mərhələlər arasında birinci mərhələ həlledici əhəmiyyət kəsb edir. İnnovasiya prosesinin sonrakı mərhələlərinin əsası da burada müəyyən edilir. Yeniliyin istehsala tətbiq edilməsi mərhələsi həm yüksək əmək tutumluğuna, həm mürəkkəbliyinə, həm də demək olar ki, öz qeyri-müəyyənliyinə görə fərqlənir. Burada istehsalın təşkilinə çəkilən xərclər də kifayət qədər yüksəkdir. İnnovasiya prosesinin sonrakı mərhələlərinin səmərəliliyi birinci mərhələdə aparılan işlərin keyfiyyətindən asılıdır [1, səh. 97].

Yeni məhsul və ya xidmət növü üzrə müəssisənin innovasiya fəaliyyətinə daxil olan əməliyyat proseslərindən isə aşağıdakıları göstərmək olar:

- yeni məhsul və ya xidmət növünü istehsal etmək məqsədi ilə elmi-tədqiqat, konstruktor işlərinin təşkili;
- yeni məhsulun istehsalı üzrə zəruri xammal və material ehtiyatlarının aşkar edilməsi;
- yeni məhsulun istehsalı üzrə texnoloji prosesin işlənib hazırlanması;
- yeni məhsulun hazırlanması üzrə zəruri olan yeni texnikanın layihələndirilməsi, hazırlanması, sınaqdan keçirilməsi və mənimsənilməsi;
- yeniliyin həyata keçirilməsi istiqamətində təşkilati idarəetmə qərarlarının işlənib hazırlanması və tətbiqi;
- innovasiyanın zəruri informasiya resursları ilə təmin edilməsi;
- tələb olunan işçi heyətinin hazırlanması;
- yeniliyin sənədləşdirilməsi və patentləşdirilməsi üzrə işlərin təşkili;
- innovasiyanın hərəkəti üzrə marketinq tədqiqatlarının təşkili və s. [3, səh. 268].

Müəssisənin innovasiya fəaliyyəti arasıkəsilməz və daimi proses olmalıdır. Çünki, müəssisə bazar tələblərinə cavab verə bilən məhsullar və xidmətlər çoxluğu istehsal etməlidir.

Sənaye müəssisələrinin innovasiya fəaliyyətinin inkişaf etdirilməsi üçün onun elmi-texniki potensialının kəmiyyət və keyfiyyət göstəriciləri mühüm əhəmiyyət kəsb edir. Belə göstəricilərə daxildir:

- müəssisənin maddi-texniki göstəriciləri. Bu göstəricilər müəssisənin avadanlıqlarla, xammal və materiallarla, digər resurslarla təmin olunma səviyyəsini xarakterizə edir.

- müəssisənin əmək göstəriciləri. Bu göstəricilər müəssisənin elmi potensialı ilə əlaqədar olan işçi kadrların tərkibini, sayını, strukturunu, ixtisas səviyyəsini xarakterizə edir.

- müəssisənin elmi-nəzəri göstəriciləri. Bu göstəricilər fundamental nəzəri axtarışların nəticələrini əks etdirir;

- müəssisənin informasiya göstəriciləri. Bu göstəricilər müəssisənin informasiya resurslarının vəziyyətini əks etdirir.

- müəssisənin təşkilati-idarəetmə resursları. Bu göstəricilər innovasiya layihələrinin zəruri təşkili və idarə edilməsi metodlarını xarakterizə edir.

- innovasiya göstəriciləri. Bu göstəricilər yerinə yetirilən işlərin elmtutumluluğunu, yenilik səviyyəsini, eləcə də patent, lisenziya, səmərələşdirici təklifləri və s. əks etdirir.

- bazar göstəriciləri. Bu göstəricilər yeniliklərin rəqabətqabiliyyətlilik səviyyəsini, tələb və təklifin səviyyəsini, zəruri marketinq tədqiqatlarının səviyyəsini və s. xarakterizə edən göstəricilərdir.

- iqtisadi göstəricilər. Bu göstəricilər yeniliklərin iqtisadi səmərəlilik səviyyəsini, elmi tədqiqatlara çəkilən xərclərin miqdarını, intellektual məhsulun bazar qiymətlərini və s. ifadə edən göstəricilərdir.

- maliyyə göstəriciləri. Bu göstəricilər investisiyaya ayrılan maliyyə vəsaitlərini, qeyri-maddi aktivləri, maliyyə mənbələrini xarakterizə edən göstəricilərdir.

Sənaye müəssisələrinin təsərrüfatçılıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi göstərilən elmi-texniki potensial göstəricilərinin yaxşılaşdırılmasını, onların operativ idarə olunmasını tələb edir.

Azərbaycan Respublikasının milli iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması prosesi xalq təsərrüfatının bütün sahələrinin, o cümlədən, sənaye sahələrinin də innovasiya fəaliyyətinə cəlb olunmasını tələb edir. Müasir mərhələdə inkişaf etmiş ölkələrdə innovasiya iqtisadiyyatına sürətli keçid müşahidə olunur. Bu proses müxtəlif fəaliyyət sferalarında, yeni texnoloji qərarların işlənilməsi və tətbiqinin səmərəli sisteminə əsaslanır. Hazırda təbii resursların

mövcudluğunun mühüm rol oynadığı dövr sona çatır, texnoloji inkişafın sürətləndirilməsi məqsədi ilə onlardan maksimum səmərəli istifadə edilməsi qabiliyyəti həlledici əhəmiyyət kəsb etməyə başlayır. Ucuz, ixtisassız əməkdən istifadə olunmasına əsaslanan istehsal öz yerini başlıca resurs kimi innovasiyanı qəbul etmək və həyata keçirmək qabiliyyətinə malik olan insana verir.

Hazırda aparıcı dünya dövlətlərinin iqtisadi inkişafında mühüm rolun innovasiya fəaliyyətinə aid olduğu aydın görünür. Başqa sözlə, dünya iqtisadiyyatında özünün məkanını tapmağa və müəyyən sabit mövqe tutmağa cəhd edən hər bir dövlət üçün innovasiya fəaliyyəti prioritetlik kəsb edir.

Yüksək rəqabətin hökm sürdüyü müasir dünya şəraitində sabit iqtisadi inkişafın təmin edilməsi zəruriliyi ilə əlaqədar ölkəmizin həll edəcəyi problemlərin xarakteri həddsiz dərəcədə mürəkkəbləşir. Söhbət sadəcə olaraq iqtisadi artımdan deyil, iqtisadiyyatda rəqabət əsaslarının yaradılması məqsədi ilə onun keyfiyyətinin artırılmasından gedir.

Azərbaycan Respublikası üzrə 2010-2015-ci illərdə innovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclərin dinamikası aşağıdakı 1 saylı cədvəldə verilmişdir.

Cədvəl 1

İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər, min manat

	2010	2012	2013	2014	2015
Bütün sənaye	8139	9326	13877	21534	35179
Məhsul innovasiyaları	7952	5975	11899	13510	13684
Proses innovasiyaları	187,3	3351	1978	8024	21495
Mədənçıxarma sənayesi	4,8	778,4	8197	4133	2671
Məhsul innovasiyaları	4,8	778,4	8052	3987	2527
Proses innovasiyaları	-	-	144,5	145,6	143,5
Emal sənayesi	8128	8083	4066	17384	32493
Məhsul innovasiyaları	7941	5196	3847	9523	11157
Proses innovasiyaları	187,3	2887	219,3	7861	21336

Mənbə: [4]

Cədvəldə məlum olur ki, son illərdə Azərbaycan iqtisadiyyatı sabit artım nümayiş etdirir, lakin onun quruluşunda mühüm mütərəqqi dəyişikliklər baş vermir. Bütövlükdə son 15 ildə respublikada ÜDM fiziki həcmi 5 dəfədən çox artmışdır. Bu yüksək artım neft və qazın böyük həcmdə ixracına əsaslanmışdır. Bu artıma müsbət

təsir edən amillərdən biri də əvvəlki dövrlərdə həyata keçirilən investisiyalar olmuşdur. Son 10 ildə əsas kapital sayılan investisiyaların həcmi 12 dəfədən çox artmışdır.

Bununla belə hələ ki, respublikada əlverişli investisiya mühiti təmin olunmamışdır. Bu səbəbdən də innovasiyaların həyata keçirilməsi sahəsində ciddi çatışmazlıqlar mövcuddur. Digər tərəfdən, indi iqtisadi artımın əsas mühərriki hesab olunan "geniştətbiqli texnologiya"nın reallaşdırılması da düzgün innovasiya strategiyası ilə əlaqədardır.

Təhlil göstərir ki, Azərbaycan sənayesində və onun aparıcı sahələrində texnoloji innovasiyalara çəkilən xərclər 4 dəfədən çox, məhsul innovasiyalarına çəkilən xərclər 1,7 dəfədən artıq, proses innovasiyalarına xərclər 100 dəfədən çox artmışdır. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində vəziyyət daha acınacaqlı olmuşdur.

Azərbaycan Respublikasında fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər 2 saylı cədvəldə verilmişdir.

Cədvəl 2

Fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat

	2010	2012	2013	2014	2015
Bütün sənaye	8139	9326	13877	21534	35179
Müəssisələrin öz vəsaiti hesabına	3584	9174	12377	21133	34779
Dövlət büdcəsi	-	-	551.2	-	-
Büdcədən kənar fondlar	-	-	-	-	-
Sair	4555	151.8	949	400.6	399.9
Mədənçıxarma sənayesi	4,8	778,4	8197	4133	2671
Müəssisələrin öz vəsaiti hesabına	4,8	778,4	8197	4133	2671
Dövlət büdcəsi	-	-	-	-	-
Sair	-	-	-	-	-
Emal sənayesi	8128	8083	4066	17384	32493
Müəssisələrin öz vəsaiti hesabına	3573	7931	2566	16983	32093
Dövlət büdcəsi	-	-	551,2	-	-
Büdcədən kənar fondlar	-	-	-		-
Sair	4555	151,8	949,1	400,6	399,9
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	-	464,5	1614	17,0	15,1

Müəssisələrin öz vəsaiti hesabına	-	464,5	1614	17,0	15,1
Dövlət büdcəsi	-	-	-	-	-
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	5,7	-	-	-	-
Müəssisələrin öz vəsaiti hesabına	5,7	-	-	-	-

Mənbə: [1]

Cədvəldən məlum olur ki, bunu pozitiv hal kimi qiymətləndirsək də, qeyd etmək lazımdır ki, daha yüksək miqyaslı və səviyyəli innovasiyaların həyata keçirilməsinə dövlət tərəfindən ciddi maliyyə dəstəyi zəruridir.

Aparılan təhlil göstərir ki, sənaye müəssisələrində innovasiyalara mane olan amilləri öz xarakterinə görə iki qrupa bölmək olar: iqtisadi və istehsal amilləri. Son 6 ildə (2010-2015) yeniliklərin dəyərinin yüksək olmasını, yüksək iqtisadi riskin mövcudluğunu və təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətinin uzun olmasını qeyd etmək olar. İnnovasiyaya mane olan istehsal amillərindən isə satış bazarları haqqında zəruri informasiyanın çatışmamasını, ixtisaslı işçilərin azlığını və müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsini göstərmək olar.

Beləliklə, respublikamızın sənaye müəssisələrində innovasiyaya mane olan mühüm amillər qalmaqdadır ki, bunlardan da çəkilən xərclərin az olması halını xüsusi olaraq vurğulamaq olar. Başqa sözlə, Azərbaycan sənayesində innovasiya fəaliyyətinin gücləndirilməsi, onun əhatəlik səviyyəsinin yüksəldilməsi mühüm iqtisadi problemdir.

Müasir mərhələdə Azərbaycanda innovasiya fəallığının azalması innovasiya sahəsinin investisiyalaşdırılmasının böyük kommersiya riski ilə bağlı olması, böyük həcmdə investisiya resurslarının yatırımları zəruriliyi ilə onun qaytarılmasının uzunmüddətliliyi, elmi-texniki və innovasiya fəaliyyətinin hüquqi təminatının qeyri-mükəmməlliyi, daxili bazarın xüsusiyyəti ilə əlaqədardır.

Hazırda iqtisadiyyatda əsas problemlərdən biri elm və istehsalın səmərəli əlaqəsinin və elmi-texnoloji məhsulun əmtəə səviyyəsinədək çatdırılmasının təsiri mexanizmlərinin olmamasıdır.

Digər tərəfdən o da məlumdur ki, elmin, təhsilin və istehsalın qarşılıqlı fəaliyyətinin daha səmərəli modeli, innovasiya istehsalçıları və istehlakçıları, eləcə də elmi ideyalarla onun praktiki həyata keçirilməsi arasında əlaqələndirici halqa innovasiya infrastrukturlarıdır.

Bu vaxta qədər innovasiya infrastrukturları əsasən biznes-inkubatorlar, texnoparklar şəbəkəsinin aktiv formalaşdırılması yolu ilə yaradılmışdır. Lakin, qeyd etmək lazımdır ki, bu təşkilatların çoxusunun innovasiya strukturunun elementlərinə

aid edilməsi çətindir. Çünki, onlar yaranma mərhələsini keçirlər və öz fəaliyyət istiqamətlərini dəqiq təsəvvür edə bilmirlər. Onların fəaliyyətinin əsas sahəsi kimi, bir qayda olaraq, kiçik sahibkarlığın inkişafının müxtəlif istiqamətləri üstünlük təşkil edir, innovasiya müəssisələrinə xidmət isə kənarda qalır.

Beləliklə, innovasiya infrastrukturunun inkişafı səviyyəsindən, onun fəaliyyətinin keyfiyyətindən, iqtisadiyyatda innovasiya fəaliyyətinin yenidən qurmasının həyata keçirilməsinin sürəti, onların dəyəri və nəticəliliyi deyil, həm də hər bir innovasiya layihəsinin reallaşdırılması imkanları da asılıdır.

Yuxarıda göstərilənlərlə əlaqədar aşağıdakı nəticələri formalaşdırmaq olar:

- milli iqtisadiyyatın əsas vəzifələrindən biri sənaye müəssisələrimizin təsərrüfatçılıq fəaliyyətinin yaxşılaşdırılması, bu fəaliyyətin elmi əsaslar üzrə qurulmalıdır;

- milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiya olunması prosesi xalq təsərrüfatının bütün sahələrinin, o cümlədən, sənaye sahələrinində innovasiya fəaliyyətinə cəlb olunmasını tələb edir. Sənayenin xüsusi ilə iri müəssisələrində innovasiya yönümlü texnologiyalara üstünlük verilməlidir;

- sənaye müəssisələrinin təsərrüfatçılıq fəaliyyətinin səmərəliliyi yüksəldilməli, onların elmi-texniki potensial göstəriciləri yaxşılaşdırılmalı və operativ idarə edilməsi prosesi təkmilləşdirilməlidir;

- sənayedə texnoloji innovasiya xərcləri artırılmalıdır;

- ölkə iqtisadiyyatında son məqsədi innovasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin təmin edilməsi olan xüsusi təsərrüfat subyektlərinin innovasiya infrastrukturlarının yaradılması məqsədəuyğun olardı.

Ədəbiyyat

1. M.C. Atakişiyev, Q.S. Süleymanov. İnnovasiya menecmenti. Dərs vəsaiti. Bakı, Təfəkkür, 2004.134 səh.

2. A.H.Tağıyev, Q.Ə. Səfərov. İnnovasiya layihələrinin menecmenti. Bakı, Təknür, 2013. 271 səh.

3. Пространственные факторы инновационной модернизации экономики: Материалы Всероссийской научно-практической конференцмм 25-26 июня 2013 г. ИПРЭ РАН. – СПб.: ГУАП, 2013. 352 стр.

4. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron səhifəsi.

Xülasə

Məhəmməd Ələddin oğlu Əhmədov

Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının baş müəllimi

Azərbaycanda innovasiya yönümlü iqtisadiyyatın inkişaf istiqamətləri

Məqalə Azərbaycanda innovasiya yönümlü iqtisadiyyatın inkişaf istiqamətlərinin öyrənilməsinə həsr olunmuşdur. Burada, həmçinin problemin həm nəzəri, həm də praktiki məsələləri nəzərdən keçirilir. Sonda innovasiya yönümlü iqtisadiyyatın inkişafının təmin edilməsi məqsədi ilə əsas nəticələr formalaşdırılmışdır.

***Açar sözlər**: innovasiya, rəqabət, sənaye, bazar, innovasiya göstəriciləri*

Summary

M.A. Ahmadov

Sumqait State University, teacher of Economic Department

Development directions of innovations-oriented economy in Azerbaijan

The article focuses on studying trends in innovation-oriented economy in Azerbaijan. Here both theoretical and practical issues of the problem are considered. Finally, key findings have been formulated to ensure the development of innovation-oriented economics.

***Key words**: innovation, competition, industry, market, results of innovation*

Məltəm MƏMMƏDOVA

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

memmedova.meltem@inbox.ru

Azərbaycanda arxeoloji irs nümunələrinin öyrənilmə tarixi

The history of archaeological heritage samples study in Azerbaijan

История изучения образцов археологического наследия в Азербайджане

Xülasə: Məqalədə Azərbaycan ərazisində arxeoloji irs nümunələrinin öyrənilməsi və mühim istiqamətləri öz əksini tapmışdır. İlk arxeoloji ekspedisiyalardan əldə edilən arxeoloji artefaktların təsnifatına qısaca nəzər salınmışdır. Turizmin yeni sahəsi olan arxeoloji turizm bu istiqamətdə önəm kəsb edir. Buna dair xeyli sayda layihələr hazırlanıb həyata keçirilir. Azərbaycanın qədim dövr tarixinin yalnız arxeoloji qazıntılarla öyrənilməsini və gənc nəslin

vətənpərvərlik ruhunda tərbiyəsində abidələrimizin mühüm rolunu nəzərə alsaq, belə əlaqələrin yaradılmasını dövrün tələbi kimi qəbul etmiş olarıq.

Açar sözlər: Azərbaycanın arxeoloji tarixi, arxeoloji irs, arxeoloji qazıntı, abidə, turizm.

Abstract: The article presents the history and major trends in the study of archeological heritage patterns in Azerbaijan. The classification of archaeological artifacts derived from the first archeological expeditions is briefly considered.Archeological tourism, a new area of tourism, is of great importance in this regard. Numerous projects are being prepared and implemented. Taking into account the ancient history of Azerbaijan as archaeological excavations and the role of our monuments in the patriotic spirit of the younger generation, the establishment of such relations is a requirement of the time.

Key words: Archaeological history of Azerbaijan, archeological heritage, archaeological excavations, monument, tourism.

Резюме: В статье представлены история и важные направления изучения образцов археологического наследия в Азербайджане. Кратко рассматривается классификация археологических артефактов, полученных из первых археологических экспедиций. В этом отношении большое значение имеет археологический туризм, новая область туризма. Подготавливаются и реализуются многочисленные проекты. Принимая во внимание древнюю историю Азербайджана как археологические раскопки и роль наших памятников в воспитании в патриотическом духе молодого поколения, установление таких отношений является требованием времени.

Ключевые слова: археологическая история Азербайджана, археологическое наследие, археологические раскопки, памятник, туризм.

Arxeoloji irsə istər quruda, istərsə də su altında tikililər, qurğular, bina ansamblları, istifadə olunmuş yerlər, daşınar obyektlər, digər növ abidələr, eləcə də onları əhatə edən məkan daxildir. Bura istər qədim yaşayış məskənləri, yaxud urbanizasiya prosesinin mərhələlərini əks etdirən şəhər xarabalıqları olsun, istərsə də müxtəlif tipli qəbirlər, qəbirüstü abidələr, kurqanlar və s. daxildir. Azərbaycanın bu irsi təqdim etməyə çox gözəl imkanları var: «Azərbaycan xalqı dünya mədəniyyətinə böyük töhfələr verib. Bu töhfə maddi-mədəniyyət baxımından öz əksini arxeoloji abidələrdə saxlayıb. İnkişaf etmiş ölkələrdə arxeoturizm çoxdan diqqət mərkəzindədir. Bu baxımdan sevindirici haldır ki, son vaxtlar Azərbaycanda da bu istiqamətdə işlər görülür». Müasir dövrdə arxeoloji irs anlayışı mədəni irs anlayışı

ilə eyniləşdirilir. Milli mədəni irsə muzey, incəsənət, teatr, kitabxana, əlyazma, arxiv, folklor, arxeologiya, etnoqrafiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri və tarix-mədəniyyət qoruqları aiddir. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2013-cü il tarixli 828 nömrəli Fərmanına əsasən "Daşınmaz mədəni irs nümunələrinin bərpası, konservasiyası, təmiri, rekonstruksiyası, ərazilərinin abadlaşdırılması" Fərmanı təsdiq olunmuşdur. Mədəni irs nümunələrinin bərpası aşağıdakı üsullarla həyata keçirilir: mədəni sərvətlərə bərpa mühafizə dərəcəsinin verilməsi; bərpa işlərinin həyata keçirilməsi məqsədi ilə Milli Mədəniyyət Əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlərin müvəqqəti ixrac edilməsidir. Uzun illər mütəxəssislər ayrı-ayrı ölkələrdəki abidələr və tarixi yerlərin qorunması işinin koordinasiyası, yerlərin konservasiyası ilə müəyyən qərarlar vermək istəyirdilər. Ona görə də bu sahədə beynəlxalq ictimaiyyətin istəyinə uyğun qurum yaradılmışdır. Başlıca istək isə mədəni irsin qorunmasıdır. Bu o deməkdir ki, mədəni irs mədəniyyətin yaradılmasında iştirak edən bütün insanlara aiddir. Cəmiyyətdə iştirak həm də mədəni irsə sevgidir. Dünyada cəmiyyətlər öz mədəni irs hüquqlarına iddia edir: irs necə olmalı və ondan necə istifadə olunmalıdır. Azərbaycanda elmi-praktiki cəhətdən mövzunun araşdırılması və yenidən gündəmdə olması vacib faktorlardan hesab edilir. Bu gün dünya miqyasında Azərbaycanın tarixi-memarlıq abidələri UNESKOnun mədəni irs siyahısına daxil edilmişsə və İCOMOS təşkilatı tərəfindən qorunur, yüksək qiymətləndirilirsə bu o deməkdir ki, Azərbaycan artıq bu sahədə öz sözünü demişdir və sübut etmişdir. Lakin tədqiqatlarımın nəticəsində belə qənaətə gəldim ki, bir az daha səy göstərilərsə ümumiyyətlə bərpa və konservasiya problemləri yaranmaz.

"Arxeologiya – insan tarixini maddi mənbələr əsasında, özünəməxsus səciyyəvi üsullarla öyrənən elmdir"[3,s.21]. Arxeologiya yunan sözü olub hərfi tərcümədə "qədim dövr haqqında elm" deməkdir. Azərbaycanda arxeoloji irs nümunələrinin öyrənilməsi tarixi xarakterik olaraq: 1. XX əsrin əvvəllərinə qədərki dövr. 2. 1918-1945-ci illər. 3. 1946-1991-ci illər. 4. XX əsrin sonu - XXI əsrin ilk illərini əhatə edir.

Azərbaycanda arxeoloji abidələrinin tədqiqi XIX əsrin 30-50 ci illərində başlamışdır. İlk vaxtlar arxeoloji abidələrdə Azərbaycanda olan rus və alman mənşəli həvəskar araşdırıcılar qazıntılar aparmışlar. Onların əldə etdiyi zəngin maddi-mədəniyyət nümunələri Azərbaycanın arxeoloji abidələrinə və qədim mədəniyyətinə marağın artmasına səbəb olmuşdur. 1923-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö

Cəmiyyətinin və Azərbaycan arxeoloji komitəsinin təşkil olunması milli arxeoloq kadrların yetişdirilməsində mühüm addım olmuşdur. 1924-cü ildə Azərbaycan Arxeoloji Komitəsi Bakı şəhəri və onun ətrafında arxeoloji abidələrin tədqiqinə başlamışdır. Axtarış zamanı aşkara çıxarılan arxeoloji abidələr qədim dövrlərdən başlamış son orta əsrlərədək Azərbaycan tarixini əsaslı şəkildə vədərindən işıqlandırmaq imkanı verir. Şübhə yoxdur ki, azərbaycanşünaslığın bir çox mühüm problemlərinin həlli birbaş arxeoloji axtarışlarla bağlıdır [2,s.5]. "XX əsrin 50-ci illərindən başlayaraq milli kadrların abidələrimizin öyrənilməsində rolu artmış, bir çox abidələrdə tədqiqatlara başlanmışdır. Azərbaycanın arxeoloji abidələrinin öyrənilməsində İ.M.Cəfərzadə, S.M.Qazıyev, D.Şərifov, Ö.Ş.İsmizadə, Q.M.Aslanov, Ə.K.Ələkbərov, İ.H.Nərimanov, O.H.Həbibullayev, R.M.Vahidov, Q.M.Əhmədov, C.Ə.Xəlilov, V.H.Əliyev, M.M.Hüseynov, Q.S.İsmayılov, İ.A.Babayev, A.B.Nuriyev, F.R.Mahmudov, H.F.Cəfərov, H.Ciddi, R.B.Göyüşov, F.L.Osmanov, F.M.Muradova, C.N.Rüstəmov, F.V.Qədirov, Ə.Q.Cəfərov, M.M.Mansurov, Q.Q.Aslanov, F.A.İbrahimov, Q.P.Kəsəmənli, və digər tədqiqatçıların mühüm xidmətləri olmuşdur [6, s.1]. Onların rəhbərliyilə Azərbaycan arxeoloqlarının yeni nəsli yetişmişdir.

1953-cü ildə S.N.Zamyatin və M.M.Hüseynovun rəhbərliyilə təşkil edilən kəşfiyyat xarakterli tədqiqatlar zamanı Qazax rayonunun Daşsalahlı kəndində, Damcılı mağarasında Paleolit düşərgəsi aşkar olunmuşdur. Sonrakı illərdə aparılan araşdırmalar yeni abidələrin aşkar olunması ilə nəticələnmişdir. Bu abidələr arasında 1960-cı ildə aşkar olunan Azıx mağarasının olduqca böyük əhəmiyyəti olmuşdur. Məmmədəli Hüseynovun Azərbaycan ərazisində apardığı arxeoloji tədqiqat işləri nəticəsində respublikamızın ərazisində Paleolit dövrünün mövcud olması elmi əsaslarla sübuta yetirilmişdir. Halbuki 1953-cü ilədək ölkəmizin ərazisində Paleolit dövrünə aid arxeoloji abidələrin olmadığı altında çoxtəbəqəli Azıx paleolit düşərgəsində aparılmış elmi tədqiqat işlərinə yüksək qiymət verirlər. 1981-1983-cü illərdə Parisin "İnsan" muzeyində "Avropanın ilk sakinləri" adlı sərgi təşkil edilmiş və orada Azıx və Tağlar paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqları nümayiş etdirilmişdi [8,s.53]. M.Hüseynovun 1953-cü ildən başlayaraq apardığı arxeoloji tədqiqat işləri nəticəsində Damcılı, Daşsalahlı və dünya şöhrətli Azıx və Tağlar paleolit düşərgələri kəşf olunmuşdur. Dünya arxeoloqları M.Hüseynovun rəhbərliyi 1960-cı ildə Azıx mağarasında başlanan araşdırmalar 1974-cü ilədək davam etdirilmiş, Azərbaycanın qədim daş dövrünü öyrənmək üçün olduqca əhəmiyyətli olan maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. 1968-ci ildə Aşel dövrü təbəqəsindən azıxantroqun alt çənə parçası, 1974-cü ildə isə insan

fəaliyyətinin erkən mərhələsinə aid olan, Olduvay mədəniyyəti ilə müəyyən ümumi xüsusiyyətlərə malik olan Quruçay mədəniyyəti aşkar olunmuşdur. Quruçay dərəsi istehsal alətləri hazırlamaq üçün zəngin xammal mənbəyi olmuşdur. Burada kvars, kvarsit, çaxmaqdaşı, bazalt, xalsedon, felzit, yaşma və s. minerallar vardır. Azıx mağarası karst mənşəli olub, əsasən son Ağcagil-Abşeron dövrlərində əmələ gəlmişdir. Mağaranın uzunluğu 600 m-dən çoxdur. Ümumi sahəsi 8000 m^2 yaxındır. Mağara olduqca hündür (20-25 m), salonlardan və içərisi torpaqla dolmuş keçid yollarından ibarətdir.Mağarada 10 arxeoloji təbəqə müəyyən olunmuşdur. Çöküntünün ümumi qalınlığı 14 metrdir [3, s.34]. Azıx paleolit düşərgəsinin VII-X təbəqələrindən tapılmış əmək alətlərinin hazırlanma texnikası və tipologiyasının özünəməxsus cəhətləri nəzərə alınıb, yeni qeydə alınmış tapıntılara quruçay arxeoloji mədəniyyəti adı verilmişdir. 1963-1986 cı illərdə Qarabağın quruçay vadisində yerləşən Tağlar paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı 8 mindən artıq daş məmulatı və 600 mindən çox ovlanmış heyvan sümükləri tapılmışdır. Qafqaz və Yaxın Şərq ərazisində Tağlar paleolit düşərgəsi yeganə abidədir ki, burada əmək alətlərinin uzunmüddətli inkişaf tarixini və yeni-yeni əmək alətlərinin meydana gəlmə xüsusiyyətlərini tədqiq etmək olur. Eyni zamanda Tağlar düşərgəsində aparılan arxeoloji tədqiqatlar respublikamızın ərazisində mustye mədəniyyətinin özünəməxsus xüsusiyyətləri olduğunu göstərdi. Bununla da Azərbaycanın ilk insan məskənlərindən biri olması təsdiq olunur.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da qazıntının stratiqrafik kəsiyində aşel mustye ilə əvəz olunmuşdur. Mustye təbəqəsi öyrənilərkən buradan iki mindən çox daş məmulatı və külli miqdarda müxtəlif heyvan sümükləri aşkar olunmuşdur. Təbəqədən son aşel tipli əl çapacaqları ilə birlikdə dişli mustye xarakterli əmək alətləri də tapılmışdır. Mağarada arxeoloji qazıntı işləri 1986-cı ilədək davam etdirilmişdir.

Arxeoloji qazıntı işləri fasilələrlə (1985-ci ilədək) M.Hüseynovun rəhbərliyi ilə aparılmışdır. Arxeoloji qazıntı işləri sonradan Ə.Cəfərova həvalə edilmişdir. Mağara əhəng daşlarından təbii yolla əmələ gəlmişdir. Tağlar Mustye düşərgəsinin çöküntülərində altı mədəni təbəqə qeydə alınmışdır. Mustye mədəniyyəti ilk dəfə Fransanın Le Mustye mağarasından aşkar edilmiş maddi mədəniyyət qalıqları əsasında müəyyən olunduğuna görə, həmin yerin adı ilə adlandırılmışdır. Mustye mədəniyyəti daş dövrünün mərhələlərindən biri olub, olduqca uzun bir inkişaf mərhələsi keçmişdir. Arxeoloji ədəbiyyatlarda 13 mustye mədəniyyətinə orta paleolit də deyilir. Bu mədəniyyət 100 min il bundan əvvəl başlanmış və 30-33 min il bundan əvvəl qurtarmışdır. Bu dövrün əsas əmək alətləri itiuclu və qaşov tipli

alətlər olmuşdur[10,s.12]. Mağaranın I təbəqəsindən eneolit, tunc və orta əsrlər dövrünə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Mağaranın II təbəqəsi və bütün aşağı təbəqələr Mustye mədəniyyəti dövrünə aid edilmişdir. Mağaradan levallua və Mustye itiucluları, qaşov tipli alətlər, nüvələr, istehsal tullantıları və fauna qalıqları tapılmışdır. Aşkar olunmuş əmək alətlərinin əksəriyyəti çaxmaq daşından hazırlanmışdır. Alətlər olduqca zərif olub, bir neçə işlək ağıza malikdirlər. Buradan tapılmış əmək alətləri Tağlar tipli alətlər adı ilə elm aləmində tanınır. Tapıntılara əsaslanaraq belə bir fikir irəli sürülür ki, insanlar burada yalnız ovçuluqla məşğul olmuşlar. Daş məmulatının hazırlanmasında istifadə olunan xammalın tərkibi göstərir ki, Mustye insanlarının həyat tərzində və daş işləmə texnikasında xeyli dəyişikliklər olmuşdur. Bu dövrdə piramidal nukleuslardan, levallua itiuclarından və nazik bıçaqşəkilli lövhələrdən istifadə edilmişdir [13,s.16]. Mustye dövrünün buradakı mövcudluğu 120 min ildən – 35 min ilə qədərki dövrü əhatə edir. Maraqlıdır ki, Azıx paleolit düşərgəsinin üçüncü təbəqəsinin daş alətləri içərisində də bir neçə ədəd Tağlar tipli əmək alətləri qeydə alınmışdır. Abidədən əldə olunan heyvan sümükləri göstərir ki, Mustye mədəniyyəti dövründə də qədim insanların əsas fəaliyyəti ovçuluqla bağlı olmuşdur. Abidənin ən maraqlı tapıntılarından biri də çox sayda ocaq laylarının qeydə alınmasıdır.

1983-cü ildə Naxçıvan ərazisində M.M.Hüseynov rəhbərliyi ilə aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində Şərur rayonunun Tənənəm kəndi yaxınlığında Qazma dərəsində mağara qeydə alınmışdır. Mağaraya Qazma adı verilmişdir. Tənənəm kəndindən 3 km cənub-şərqdə yerləşən bu mağara tunel formalı olub, karst mağarasıdır. Qazma mağarasında aparılan arxeoloji qazıntılarda dörd mədəni təbəqə qeydə alınmışdır. Mağaranın I təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı orta əsrlər, tunc və eneolit dövrlərinə aid gil qab qırıqları aşkar olunmuşdur. II təbəqədən isə bir ədəd mezolit-eneolit dövrünə aid daş alət tapılmışdır. Düşərgənin III təbəqəsindən çoxlu sayda fauna qalıqları ilə birlikdə daş dövrünə aid 8 ədəd əmək aləti qeydə alınmışdır. 1987-1990-cı illərdə Qazma Mustye düşərgəsində Ə.Cəfərovun rəhbərliyi ilə arxeoloji qazıntı işləri davam etdirilir və nəticədə zəngin maddi mədəniyyət nümunələri aşkar olunur. Qazma düşərgəsinin əmək alətləri əsasən qaşov tipli alətlərdən və itiuclulardan ibarətdir. Qazma mağarasındakı tədqiqatlar xüsusilə dəyərli elmi nəticələr vermişdir [7,s.10]. Əmək alətləri dəvəgözü və çaxmaqdaşından hazırlanmışdır. Mağarada 1987-1990 cı illərdə aparılan arxeoloji qazıntılar zamanı altı mədəni təbəqə qeydə alınmışdır. Mağaradan tapılan sümük qalıqları göstərir ki, Mustye mədəniyyəti dövründə Qazma sakinlərinin həyatında ovçuluq xüsusi yer tutmuşdur.

Ümumiyyətlə, XX əsrin ilk onilliklərində Azərbaycanın bəzi orta əsr abidələrində kəşfiyyat xarakterli tədqiqatlar aparılmış, orta əsr şəhərləri və yaşayış yerləri haqqında bir neçə əsər işıq üzü görmüşdür. Keçən əsrin ilk illərində Xaraba-Gilan şəhər yerinə səfər edən Y.Lalayan burada kəşfiyyat xarakterli tədqiqat aparıb şəhər xarabalıqlarının təsvirlərindən ibarət albom tərtib etmişdir. 1913-cü ildə Qafqaz Tarix-Arxeologiya İnstitutunun Xaraba Gilanda qazıntıda aşkar edilən parça qalıqları Tiflisə- Qafqaz muzeyinə aparılmışdı [5,s.101]. 1913-cü ilin dekabrında Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsinin üzvü SV.Ter-Avetisyan Xaraba-Gilan şəhər xarabalıqlarında ilk arxeoloji qazıntıları aparmışdır. Abidənin topoqrafiyasını müşahidə edən S.V.Ter Avetisyan onun təxmini planını tərtib etmiş, şəhər yerinin səkkiz sahəsində kiçik qazıntılar aparmış, əldə etdiyi materialları, eləcə də üzərində ərəb əlifbası ilə kitabə həkk edilmiş, çəkisi 1280 kq olan ağ mərmərdən iki məzar daşını Qafqaz muzeyinə təhvil vermişdi. Bir neçə gün ərzində tələsik aparılan qazıntıların metodik və elmi səviyyəsi tənqidə dözmür. Belə ki, qazıntı sahələrinin heç birində mədəni təbəqə xam torpağa qədər qazılmamış, təbəqə yatımının stratiqrafiyası müəyyənləşdirilməmiş, qazıntının nəticələri elmi baxımdan yetərincə şərh edilməmişdi. 1914-cü ilin mayında Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz bölməsində S.V.Ter-Avetisyan Xaraba-Gilan şəhər xarabalıqlarında aparılmış qazıntıların nəticələri haqqında məruzə etmişdir.

1953-cü ildən başlayaraq Azərbaycan Respublikası ərazisində Daş dövrü üzrə aparılan elmi tədqiqatlar zamanı Qazax, Tovuz, Füzuli, Şuşa, Lerik, Masallı, Şərur, Kəlbəcər və Yardımlı rayonlarında maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Həmin maddi mədəniyyət nümunələri əsasında Azərbaycanın qədim sivilizasiya mərkəzlərindən biri olması, ibtidai insanların burada 2-2,5 milyon il bundan əvvəllərdən başlayaraq məskunlaşması və bütün inkişaf mərhələlərindən keçdiyi elmi əsaslarla sübuta yetirilmişdir. Azərbaycan Respublikası ərazisində qeydə alınmış Quruçay, Aşel, Mustye, üst Paleolit, Mezolit və Neolit arxeoloji mədədniyyətləri xalqımızın etnogenez problemini yeni baxımdan müasir biliklər əsasında tədqiq etməyə şərait yaratmışdır. 1956-1958-ci illərdə aparılmış arxeoloji qazıntıların nəticələri haqqında A.A.İessenin məlumatları və hesabatları çap olunmuşdur [6,s.21]. Arxeoloji kəşfiyyat və tədqiqat işləri nəticəsində Paleolit, Mezolit, Neolit, Eneolit, Tunc, Dəmir, Antik və Orta əsrlərə aid çoxtəbəqəli abidələr qeydə alınmış və tədqiq edilməyə başlanmışdır [1,s.3]. Tapılmış arxeoloji materiallar xalqımızın tarixən bu ərazidə yaşayan qəbilə və tayfaların inkişafı nəticəsində formalaşdığını göstərir. Çünki, bütün arxeoloji mədəniyyətlərdə varislik, qohumluq və oxşarlıq xüsusiyyətləri müəyyən edilmişdir.

XX əsrin son onilliyində və XXI əsrin ilk illərində mütəxəssislər əvvəllər aparılmış çöl tədqiqatlarının nəticəsində toplanmış arxeoloji materialların təhlili və ümumiləşdirilməsinə diqqəti artırdılar. Bunun yekunu olaraq bir neçə monoqrafik tədqiqat əsəri işıq üzü gördü. İlk növbədə Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayonlarının arxeoloji abidələrinin külliyyatının tərtib olunub çap edilməsi təqdirəlayiqdir. Azərbaycan Respublikasının ayrı-ayrı bölgələrinin orta əsr arxeoloji abidələrinə həsr olunmuş monoqrafik əsərlər yazıldı [9,s.92]. XX yüzillikdə ayrı-ayrı şəhərlərin arxeoloji qazıntılarından toplanmış materialların sistemləşdirilməsi, yazılı mənbə cəlb edilməklə, çoxplanlı tədqiqinin nəticəsi olaraq bir neçə tarixi-arxeoloji monoqrafik tədqiqat əsəri işıq üzü gördü. B.İ.İbrahimovun Kiran şəhərinə, A.B.Nuriyev və Ə.H.Babayevin, Q.Ə.Hacıyevin Bərdə şəhərinə F.Ə.Abbasovanın Şabran şəhərinə, K.F.İbrahimovun Bakı şəhərinə, Kudryavtsevin Dərbənd şəhərinə həsr olunmuş monoqrafiyaları nəşr edildi. Ərdəbil şəhərində aparılmış qazıntıların nəticələrini H.Ş.Şiran, Ultan qalasında aparılan tədqiqatların hesabatını K.Əlizadə kitab şəklində çap etdirdi. Arxeoloji materiallar əsasında 30 orta əsr sənətkarlığının ayrı-ayrı sahələrinin, o cümlədən metalişləmə, dulusçuluq sənətlərinin araşdırılmasına həsr edilmiş monoqrafiyalar işıq üzü gördü. Əziz Novruzlu arxeoloji materiallar əsasında son orta əsr Azərbaycan sənətkarlığının araşdırıldığı monoqrafiyasını çap etdirdi. Arxeoloji materiallar əsasında orta əsr şəhərlərinin su təchizatı məsələləri Etibar Qasımovun monoqrafiyasında hərtərəfli araşdırıldı, yerli hidromühəndislərin yüksək peşəkarlığı çoxsaylı dəlillərlə təsdiqləndi. Orta əsr silahlarına dair S.Əhmədov və E.Cəfərovanın birgə tədqiqatları son illərin uğurlu tədqiqatı hesab oluna bilər. Müəlliflər arxeoloji qazıntılardan tapılmış silah nümunələrini toplayaraq sistemləşdirmiş, onların tipoloji təsnifatını vermişdir. B.Ə.Rəcəbovanın monoqrafiyasında isə arxeoloji qazıntılardan əldə olunmuş orta əsr bəzəkləri sistemləşdirilərək tipoloji təsnifatı verilmiş, onların hazırlanma texnologiyasından bəhs edilmişdir. Təbiət elmlərində tətbiq olunan metodlardan istifadə metallurgiya və şüşə istehsalı texnologiyasının öyrənilməsində əhəmiyyətli olmuşdur [4,s.39]. Orta əsr abidələrindən aşkarlanmış metal məmulatın spektral-kimyəvi analiz metodlarla tədqiqi yerli metallurgiyanın bir çox səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa imkan vermişdir.

Son illərdə Azərbaycan ərazisində olan paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarının elmi tədqiqi beynəlxalq xarakter almışdır. Çünki paleolit düşərgələrindən əldə olunmuş arxeoloji, paleontoloji və paleoantropoloji tapıntılar bəşər sivilizasiyasının tarixi inkişafını öyrənmək üçün mühüm elmi əhəmiyyətə malikdir. Ona görə də 2001-2005 ci illərdə Azərbaycan, Fransa, İtaliya,

İspaniya, Hollandiya, Rusiya və Gürcüstan alimləri beynəlxalq İNTAS-2000 adlı proqram hazırlamış və onun elmi tədqiqini başa çatdırmışdır. Ə.Q.Cəfərovun Avropa alimləri ilə birgə apardığı kompleks elmi tədqiqatlar nəticəsində "Azıx düşərgəsində qeydə alınmış Quruçay arxeoloji mədəniyyətinin 2-2,5 milyon il bundan əvvəl başlaması arxeoloji faktlarla sübuta yetirilmişdir [1,s.109]. Eyni zamanda Azıx mağarasının III təbəqəsindən müəyyən edilmiş Mustye mədəniyyətinin Yaxın Şərq və Qafqazda 12 min il bundan əvvəl başlanması və digər Mustye düşərgələrindən qədim olması məlum olmuşdur. Hazırda Azərbaycanın Daş dövrü düşərgələrində aparılan elmi tədqiqatlar nəticəsində 10-dan artıq mağara düşərgələri və 20 yerüstü abidələr qeydə alınıb tədqiq olunmuşdur. Bu gün də davam edən arxeoloji tədqiqat işləri yeni-yeni düşərgələrin aşkar olunmasına səbəb olur.

1930-cu illərin ortalarında Azərbaycanın arxeoloji, etnoqrafik, dilçilik, numizmatik, memarlıq və incəsənət tarixi baxımından öyrənilməsi sahəsi də xeyli genişləndi. Bu illərdə 80-dən çox elmi ekspedisiya təşkil edildi. Elmi axtarışlar zamanı 60-a qədər yeni abidə aşkar edildi. Aparılan tədqiqat işlərinin nəticələri bu dövrdə nəşr edilməyə başlayan «Azərbaycan tarixinə dair mənbələrin icmalı» adlı topluda çap edilirdi. Respublikanın arxeoloji cəhətdən öyrənilməsi işində SSRİ EA Arxeologiya İnstitutu və Azərbaycan EA Tarix İnstitutunun 1953-cü ildə A.A.İessenin rəhbərliyi altında təşkil edilmiş birgəekspedisiyası mühümdür [2,s.16]. İkinci Dünya müharibəsindən sonra Azərbaycanın arxeoloji baxımdan öyrənilməsinin coğrafi ərazisi xeyli genişləndi. 1945-ci ildə təsis edilən Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu Azərbaycanın arxeoloji cəhətdən tədqiq edilməsi işini bərpa edib, onu daha da canlandırdı. Bununla da respublikanın kompleks arxeoloji tədqiqi başlandı. Mingəçevir SES-nin tikintisi ilə əlaqədar Kür çayı sahilində aparılan arxeoloji tədqiqatlar bu qədim diyarın sirrini açdı.Arxeoloqlar hesab edirlər ki, turizm keçmişə baxışları və bilikləri təşviq edir [11,s.68].Turizmin yeni sahəsi olan arxeoloji turizm bu istiqamətdə önəm kəsb edir. Buna dair xeyli sayda layihələr hazırlanıb həyata keçirilir.Istər qədim yaşayış məskənləri, yaxud urbanizasiya prosesinin mərhələlərini əks etdirən şəhər xarabalıqları olsun, istərsə də müxtəlif tipli qəbirlər, qəbirüstü abidələr, kurqanlar və s. Bu baxımdan Azərbaycanın təqdim etməyə çox gözəl imkanları var [13,s.231]. Bu layihələrin gerçəkləşməsi ilk növbədə iqtisadiyyatımıza xeyli gəlir gətirəcək və arxeologiya elminin iqtisadiyyata tətbiqi imkanlarını artıracaq. İkincisi, turist marağına səbəb olacaq arxeoloji abidələrimiz dünyada tanınacaq və bu da Azərbaycan xalqının qədim maddi mədəniyyətə malik bir xalq olmasını təsdiqləyəcək. Üçüncüsü, arxeoloji-tarixi və memarlıq abidələrimizin bir çoxu məhv olmaq təhlükəsindən qurtaracaq və turizm

əhəmiyyətli status alacaq. Dördüncüsü, elektron xəritə vasitəsilə müxtəlif turist marşrutları ilə maraqlanan və qədim abidələrə maraq göstərən yeni turist potensialı yaranacaq.

Hazırda Azərbaycanda arxeoloji və memarlıq abidələrinin öyrənilməsi inkişaf etməkdədir. Bir çox bölgələrimizdə arxeoloji kəşfiyyat işlərinin həyata keşirilməsi bu və ya digər baxımdan dövlətimiz,tariximiz,xalqımız və milli mənsubiyyətimiz baxımından önəmli rol oynayır. Ağsuda, Qəbələdə, Şəmkirdə, Naxçıvan Muxtar Respublikasının ərazisində geniş miqyaslı arxeoloji qazıntı və kəşfiyyatların aparılması bu mövqedən önəmlidir.

Qəbələdə 1926-cı ildən başlayaraq arxeoloji tədqiqatlar aparılır. 1959-cu ildən etibarən isə orada stasionar ekspedisiya işləyir. Bu isə o deməkdir ki, uzun illər ərzində Qəbələnin tarixinə dair çox zəngin arxeoloji material toplanıb.Alimlərin fikrincə bura tarixdə böyük qüdrətli dövlətə məxsus olub ki, torpağın altındakı sirli aləm hələ çox mətləbləri üzə çıxaracaq [12, s.56]. Son 80 il ərzində orada aparılmış geniş miqyaslı arxeoloji qazıntılar zamanı əldə olunmuş çox zəngin maddi mədəniyyət kolleksiyası Azərbaycanda şəhər mədəniyyəti tarixinin dərindən və hərtərəfli öyrənilməsi üçün misilsiz əhəmiyyətə malikdir. Qəbələ şəhəri Qala, Səlbir və Çaqqallı adı ilə bəlli olan üç əsas hissədən ibarətdir. Qaraçay və Qoçalan çayları arasında Çaqqallı (ərazisi 50 ha-dır) adı ilə tanınan sahədə aparılmış tədqiqatlar nəticəsində e. ə IV əsrdən başlayaraq eramızın I əsrinin sonlarınadək orada intensiv şəhər həyatı olduğu sübuta yetirilmişdir. Şəhərin Səlbir adlanan hissəsində (ərazisi təqribən 13 hektardır) I-X əsrlərə, Qalada (ərazisi təqribən 12 hektardır) isə I-XVII əsrlərə aid bir neçə metr qalınlığında zəngin mədəni təbəqə olduğu müəyyən edilmişdir. Göründüyü kimi, Çaqqallıda şəhər həyatı kəsildikdən sonra Səlbir və Qalada həyat başlanıb. X əsrdən etibarən isə şəhərin ancaq Qala hissəsində həyat davam edib. Qəbələnin qala divarları özünün möhtəşəmliyi ilə Azərbaycanın digər orta əsr şəhərlərinin müdafiə sistemindən xeyli fərqlənir. Səlbirin divarları əsasən Sasani dövrü arxitekturası üçün xarakterik olan çiy kərpicdən və yonulmuş çay daşından istifadə olunmaqla inşa edilib. Orada qala divarlarının xarakterini və dövrünü öyrənmək məqsədilə 1967-ci ildə tanınmış arxeoloq S.Qazıyev tərəfindən tədqiqatlar aparılıb. 1990-cı ildən bəri dayandırılmış arxeoloji qazıntılar 2005-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə dəstəyiilə yenidən başladı.

Qədim Şəmkir şəhərinin xarabalıqları XIX əsrdən başlayaraq tədqiqatçıların diqqətini cəlb etsə də, son illərədək bu abidədə sistemli, ardıcıl arxeoloji tədqiqatlar aparılmamışdır. 2006-cı ildə Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu

abidədə məqsədyönlü, sistemli tədqiqatlara başlamış, 2007-ci ildə Regionların İnkişafı İctimai Birliyinin maliyyə yardımı ilə geniş qazıntılar aparmağa nail olmuşdur. 2007-ci ildə orta əsr Şəmkir şəhərinin xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı XVIII-XIX əsrlərdə şəhərin Narınqala hissəsinin istifadə olunmasını təsdiq edən külli miqdarda maddi mədəniyyət nümunəsi əldə olunmuşdur. Narınqalanın Şərq divarının tədqiqi zamanı III qazıntı sahəsində, xüsusilə 16-21 saylı kvadratlarda XVIII-XIX əsrlərə aid qalın, bəzi yerlərdə qalınlığı 2-2,5 m. çatan töküntü, tullantı qatının varlığı müəyyən olunmuşdur. 2006-cı ildə Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu abidədə məqsədyönlü, sistemli tədqiqatlara başlamış, 2007-ci ildə Regionların İnkişafı İctimai Birliyinin maliyyə yardımı ilə geniş qazıntılar aparmağa nail olmuşdur [14,s.24]. Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində çox maraqlı maddi mədəniyyət qalıqları aşkar edilmişdi. Bunların içərisində 2007-ci ilin qazıntıları zamanı tapılan numizmatik materiallar ekspedisiyanın rəhbəri T.M.Dostiyev tərəfindən təyin edilmək üçün bizə təqdim olunmuşdur. Məlum olduğu kimi hər hansı bir tarixi abidənin dəqiq xronoloji çərçivəsini təyin etməyin ən etibarlı mənbəyi sikkə materialıdır. Buna görə də adı çəkilən qazıntılardan tapılan pullar xüsusi əhəmiyyətə malikdir. Şəmkirin strateji mövqeyi bütün tarixi dönəmlərdə, həmçinin, orta əsrlərdə buranın xarici işğalçıların hücum, döyüş mövqeyinə çevrilməsinə gətirib çıxarmışdı. Bu baxımdan türk-Bizans münasibətlərinin həlli zamanı, ərəb və monqol istilalarında bir çox tarixi mənbələrdə Şəmkirin nə qədər vacib bir məkan olduğu dəfələrlə xüsusi olaraq vurğulanmışdır. Digər tərəfdən, bu yerlərin maddi nemətlərlə bolluğu, təbii gözəlliyi, memarlıq abidələri, insanları haqqında da müəyyən qədər məlumatlar vardır. Qazıntılar zamanı aşkarlanan çoxsaylı metal pasalar, tullantılar metalişləmə sənətinin, xüsusilə dəmirçılıyin mövcudluğuna dəlalət edən faktik materiallardır [15,s.104]. Ticarət yollarının kəsişdiyi yerdə yerləşən Şəmkir həm də ayrı-ayrı zamanlarda iqtisadi yüksəliş dövrünü yaşamışdı. Şəmkirdə aparılan arxeoloji qazıntılar zamanı tapılan sikkələr bu şəhərin ticarət əlaqələrinin və pul işinin mövcudluğunu, Azərbaycan şəhərləri arasında xüsusi bir mövqedə olması faktını təsdiqləyir. Şəmkirdən tapılan pullar həm yerüstü materialların arasında, həm də mədəni təbəqə yatımında aşkar edilmişdi.

Bu gün arxeologiya elmi, xüsusilə də arxeologiyanın son nailiyyətləri nəzərə alınmaqla respublikanın təhsil sistemi ilə sıx əlaqələrin qurulması ən mühüm işlərdən biridir. Azərbaycanın qədim dövr tarixinin yalnız arxeoloji qazıntılarla öyrənilməsini və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində abidələrimizin mühüm rola malik olduğunu nəzərə alsaq, belə əlaqələrin yaradılması dövrün tələbidir.

Bölgələrdə arxeoloji bazaların inşa edilməsi də tədqiqatların daha səmərəli aparılmasına imkan yaratmış olardı. Qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət qalıqları həmin bazalarda müvəqqəti olaraq saxlanılmaqla yanaşı, kameral işlərin aparılması və hesabatların hazırlanması da həyata keçirilə bilər.

Məqalənin nəticə hissəsi bəhs olunan arxeoloji irsin qədimdən müasir zamanadək araşdırılması və tətqiqi tarixindən əldə olunanan lazimi informasiyalardan ibarətdir. Abidələrin tədqiqi və istifadəsi üçün, ilk növbədə, onların mühafizəsi yüksək səviyyədə təmin edilməlidir. Bu gün Azərbaycan sürətlə inkişaf edən bir ölkədir. Eyni zamanda, bu inkişaf özünü elmin müxtəlif sahələrində əyani şəkildə göstərir. Məhz dövlət qayğısı sayəsində Azərbaycan arxeologiya elmi region ölkələri ilə müqayisədə bu sahədə ön sıraya çıxmışdır. 10 aprel 1998-ci il tarixli "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanunun icrası ilə əlaqədar ölkə Prezidentinin 13 iyun 1998-ci il tarixli sərəncamı ilə abidələrin mühafizəsi işi Mədəniyyət və Turizm Nazirliyinə tapşırılıb. Lakin nazirliyin yalnız bir şöbəsinin – "Mədəni irs" şöbəsinin bu böyük problemin öhdəsindən gələcəyini və minlərlə abidənin mühafizəsini təşkil edəcəyini düşünmək düzgün olmazdı. Abidələrin mühafizəsi həm də ümumxalq işidir. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsində göstərilmişdir ki, "Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur". Dünya mədəni irsinin (WHC) məşvərətçi orqanı İCOMOSdur. Bu qurum beynəlxalq qeyri-hökumət təşkilatıdır. Onun fəaliyyəti dünya abidələrinin, mədəni irsin və tarixi yerlərin konservasiyasına, müdafiəsinə həsr olunub. Eyni zamanda qurum elmi üsullarla irsin qorunması metodologiyası, nəzəriyyəsinin yaradılması, yayılması və tətbiqi ilə məşğul olur. İCOMOS bu sahədə dünyada yeganə qlobal qeyri-hökumət təşkilatıdır. “Azərbaycan müstəqillik əldə etdikdən sonra bu təşkilata üzv olub. Müəyyən səbəblərdən iki-üç il bu komitə ilə əlaqə sadəcə kağız üzərində qalıb. Sonradan Azərbaycan bu təşkilatın rəhbərləri ilə görüşərək bu yolda əməkdaşlığı gücləndirib, yeni layihələrə qoşulub. Layihələrə prezident İlham Əliyev şəxsən özü nəzarət edib. Dövlətin dəstəyi nəticəsində Azərbaycan İCOMOS arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyub”. Abidələr və Tarixi Yerlər günü üzrə Beynəlxalq Şuranın təklifi və BMT-nin Elm, Təhsil və Mədəniyyət Təşkilatının Baş Assambleyasının tövsiyələri əsasında hər il aprelin 18-də bütün dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər günü kimi qeyd olunur. Qeyd edim ki, müasir dövrdə arxeoloji irs obyektlərinin bərpa və konservasiya problemləri yalnız bununla kifayətlənməməlidir.

Ədəbiyyat siyahısı:

1. AZERBAYCAN ARXEOLOGIYASI 2008 CILD: 11 SAY: 1-2 S.136.
2. YEDDI CILDDƏ. I CILD (ƏN QƏDIMDƏN - B.E. III ƏSRI). BAKI. "ELM". 2007. 520 SƏH. + 40 SƏH. ILLÜSTRASIYA.
3. AVŞAROVA I.N., PIRQULIYEVA Q.Ə. QAFQAZ ARXEOLOGIYASI. DƏRSLIK. BAKI: «BAKI UNIVERSITETI» NƏŞRIYYATI, 2010, 248 S.
4. AZƏRBAYCAN ARXEOLOGIYASI CILD: 14 SAY: 2 ,2011.S.143.
5. AZƏRBAYCAN ARXEOLOGIYASI CILD: 16 SAY: 2 ,2012.S.143.
6. AZƏRBAYCAN ARXEOLOGIYASI. ALTI CILDDƏ, VI CILD. BAKI,"ŞƏRQ-QƏRB", 2008, 632 SƏH.
7. BAXŞƏLIYEV V., QULIYEVA F. NAXÇIVANIN TARIXI ABIDƏLƏRI. BAKI: NURLAN, 2017, 212 S.
8. AZƏRBAYCAN ARXEOLOGIYASI. ALTI CILDDƏ, I CILD. BAKI, "ŞƏRQ-QƏRB", 2008, 448 SƏH.
9. AZƏRBAYCAN ARXEOLOGIYASI CILD: 14 SAY: 1, 2011. S.231.
10. QURUÇAY DƏRƏSINDƏ AZƏRBAYCAN DÖVLƏT NƏŞRIYYATI BAKI – 1990, S.60.
11. MƏHYƏDDIN QIZI Ş., "QƏBƏLƏ QAFQAZIN INCISI", BAKI, "OĞUZ ELI", 2009.
12. VƏLI BAXŞƏLI OĞLU BAXŞƏLIYEV. AZƏRBAYCAN ARXEOLOGIYASI (ALI MƏKTƏB TƏLƏBƏLƏRI ÜÇÜN VƏSAIT). –BAKI: ELM, 2007, 239 S.
13. BIRINCI RESPUBLIKA ELMI-PRAKTIK KONFRANSIN MATERIALLARI 28-29 NOYABR 2007, ŞƏMKIR, BAKI-2008, 496 S.
14. AZƏRBAYCAN ARXEOLOGIYASI CILD: 12 SAY: 2 BAKI-2009. S.143.

Azərbaycan Dövlət İqtisad Universitetinin "Menecment" kafedrasının dosenti i.e.n. Mirzəyev Zakir İlyas

Mirzəli Mədinə Asəf

Bələdiyyə maliyyəsinin formalaşmasında beynəlxalq təcrübədən istifadə imkanları

Açar sözlər: Bələdiyyə, yerli özünüidarəetmə, əmək haqqı, maliyyə, idarəetmə.

Azərbaycanda bələdiyyələr qeyri-hökümət təşkilatı və birpilləli olduğundan, onların büdcə məsələsi fərqli yollarla həll edilir və etiraf etmək lazımdır ki,hər bir dövlətin öz idarəetmə prinsipləri olduğundan bu sahədə dünya təcrübəsindən istifadə edilərkən onun inkişaf tarixi və ənənələri də nəzərə alınmalıdır.

Bələdiyyə maliyyəsinin fomalaşmasında beynəlxalq təcrübədən istifadə imkanları nəzərə alınan zaman zəruri şərt kimi bələdiyyə maliyyəsinin iqtisadi əsasları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyələrin istehsal,xidmət və digər iqtisadi fəaliyyət sahələri təhlil olunmalıdır. Bundan başqa bələdiyyələr sahəsində həyata keçirilən islahatlarda beynəlxalq təcrübənin rolu ilə yanaşı onun

xüsusi əhəmiyyətini də qeyd etmək lazımdır. İslahatlarla əlaqədar aparılan mülahizələrdə müxtəlif modellərin tərəfdarları mövcuddur.Bəzi mütəxəssislər Türkiyə modelinə daha çox üstünlük verirlər. Başqa bir qrup Şərqi Avropa və Pribaltika modelini irəli sürür,digər bir qrup isə Rusiya və Gürcüstan təcrübəsini əsas götürürlər. Eyni zamanda ABŞ və Qərb modellərinə də istinad edib qanunlarla bağlı öz variantlarını hazırlayır və ictimai həyatda fəal iştirak edirlər (16).

Yerli özünüidarəetmə ilə əlaqədar müxtəlif model və fikirlər olsa da bu sahədə tarixi təcrübəyə malik və mərhələni keçmiş olan ABŞ və Qərb ölkələrinin idarəetmə ənənələrinin öz yeri və üstünlükləri vardır.

Yerli özünüidaəetmənin ingilis-sakson modelinə malik olan ölkələrdə inzibati himayə orqanlarının olmaması,yerli özünü idarəetmədə digər üsullardan,o cümlədən, iqtisadi vasitələrindən istifadə edilməsinə ehtiyac artır.(17).

Dünya təcrübəsində yerli özünüidarəetmə sisteminin ingilis-sakson modelinə əsasən, dövlət yerli büdcənin müstəqilliyinə zəmanət versə də, onun öhdəliklərinə məsuliyyət daşımır. Dünya dövlətləri arasında ən geniş yayılan fransız-türkiyə modelinin təcrübəsindən istifadə hazırki dövrdə daha əhəmiyyətli hesab olunur. Fransız modelində inzibati nəzarətin mövcudluğu və dövlət marağına uyğun yerli problemlərin həlli istiqamətinin müəyyənləşdirilməsi müsbət rol oynayır. Maliyyə ilə əlaqədar hakimiyyətin yerli bələdiyyələrə nəzarət qaydası auditorlar tərəfindən hayata keçirilir, auditorların namizədliyini isə yerli orqanlar irəli sürür. Bunların fəaliyyət dairəsinin əsas istiqaməti isə sosial ehtiyyaclara ayrılmış pul vəsatilərinin xərclənməsinin qanuniliyinə nəzarət etməyə istiqamətlənir.

Fransada bələdiyyələrin əsas maliyyə mənbəyi Mərkəzi hakimiyyət tərəfindən verilən birləşdirilmiş qrantlar hesab olunur.Birləşdirilmiş qrant 2 hissədən ibarətdir: birdəfəlik qrant və bərabərləşdirci qrant.

Birdəfəlik qrant, əsasən, əmək haqlarından gələn gəlirlərdən toplanan vergilərə əsaslanır. Bərabərləşdirici qrant isə yerli vergi orqanlarına əsaslanır. Eyni zamanda birbaşa yerli vergilər də mövcuddur, buraya – torpaq vergisi,tikililərə görə, yaşayış yerinə görə və məşğulluq növünə görə də vergilər mövcudur.

Almaniyanın bələdiyyə sistemində,əsasən, qarışıq təşkilati quruluşa xas olan prinsiplər tətbiq edilir. Ərazi baxımından yerli hakimiyyəti 3 pilləyə bölmək olar: dairələr, müstəqil şəhərlər və bələdiyyələr.

Bələdiyyələrin maliyyə imkanları daxil olduqları dairənin siyasətində öz əksini tapmalıdır. Dairə öz maliyyə yardımları ilə bələdiyyələrə kömək etməklə yerli problemlərin həllinə yardım etməlidir.

Bələdiyyələr müəyyən hallarda maliyyə müstəqilliyinə malikdir,ancaq yerli maliyyələşmə sistemi əyalət qanunu əsasında formalaşmalıdır. Alman maliyyə sisteminin spesifikliyi yerli vergiqoyma səviyyəsinin aşağı olması ilə xarakterizə olunur. Dairələr əyalət hesabına maliyyələşir. Yerli bələdiyyə orqanlarının büdcə gəlirlərinin əhəmiyyətli hissəsini dövlət büdcəsindən ayrılan dotasiyalar təşkil edir. İnkişaf etmiş ölkələrdə yerli vergilər büdcənin 30 %-ni təşkil edir. Əsas maliyyə mənbələri peşə vergisi, gəlir vergisi, əmək haqqından tutulan vergi, həm də əyalət hakimiyyəti tərəfindən müəyyənləşdirilən vergi hesab olunur. Digər vergilər vergi daxilolmalarının 1,5 %-ni təşkil edir. Peşə vergisi gəlir əldə etmək məqsədilə həyata keçirilən fəaliyyətdən tutulur. Əmək haqqı vergisi və gəlir vergisi icmaya qalır. Ümumiyyətlə, bu 3 vergi növü icmanin yerli büdcəsinin vergi daxilolmalarının 85 %-ni təşkil edir.Ticarət vergisi bütün kommersiya müəssisələrindən alnır, burda tutumun həcmi ticarət gəlirinin və kapitalının həcmindən asılı olur.

Torpaq vergisi federal hökümət tərəfindən deyil,əyalət hökümәti tərəfindən müəyyənləşdirilir və mülkiyyətin bütün növlərinə aiddir. Bu verginin 2 növü mövcuddur:

- Kənd təsərrüfatı və yerli müəssisələrdən;
- Daşınmaz əmlakdan.

Əyalət hakimiyyəti ticarət və torpaq vergisini müəyyən etsə də icmanın onlara əmsal dəyişikliyi etmə müstəqilliyini üzərində saxlayır. Əyalətlərin və hökümətin yardımları icmanın gəlir mənbələrindən xüsusi çəkisinə görə ikinci yeri tutur. Maliyyə transfertlərin çox hissəsi hər il gəlirlərin bölüşdürülməsi haqda əyalət qanunları çərçivəsində həyata keçrilir. Federasiya əyalətlərin ümumi iqtisadi balansının pozulması məqsədilə investisiya layihəsində iştirak etməklə 3 funksiyani yerinə yetirir: fiskal,tarazlaşdırma,məhsuldar qüvvələrin yerdəyişməsi və yerləşməsinin optimal strukturunun planlaşması. Əyalət və federal yardımlar ümumi və məqsədli ola bilərlər.

Maliyyə qanunvericiliyi yerli büdcələrə münasibətdə büdcədki kəsirin kreditlə ödənilməsinə imkan vermir. İcmalar yalnız müəyyən həddə qədər borc götürməyə icazə verilir ki,bu da öz növbəsində büdcə gəlirləri hesabına götürülmüş borcu müddət ərzində ödəyə bilsin. İcmanın müəyyən edilmiş həcmdə borcu varsa, ona əlavə borc götürməyə icazə verilmir.

Yaponiyada yerli özünüidaəetmə sistemi iki səviyyədən ibarətdir: **prefektura və bələdiyyə**. Bələdiyyə maliyyə sistemi üç səviyyədən ibarətdir: dövlət, prefektura və bələdiyyə.Yerli büdcələrin 50% - ə qədərini yerli özünüidaəetmə orqanları öz mənbələri hesabına formalaşdırırlar. Bu mənbələrə bələdiyyə və prefekturaların

topladığı mədaxil vergisi, əmlak vergisi, digər vergi və rüsmlar, bələdiyyə mülkiyyətindən və bələdiyyə şirkətlərindən gələn vəsaitlər daxildir. Bu vəsaitlərdən istifadəyə görə yerli özünüidaəetmə orqanları dövlət qarşısında hesabat vermilər, hesabat yerli icmalara təqdim olunur.

Yaponiyada yerli özünüidaəetmə orqanlarının büdcələrinin ikinci mənbəyini dövlət transfertləri təşkil edir. Transfertlərin 5 növü mövcuddur:subsidiyalar, öhdəliklər, əlavə dotasiyalar (büdcə kəsirinin örtülməsi üçün), həvalə olunmuş səlahiyyət transfetləri və ümumi transfertlər. Trasnfertlərin strukturundan aydın olur ki, büdcələrarası münasibətlərdə məqsədli maliyyələşdirilmələr üstünlük təşkil edir.

Bələdiyyə orqanları yalnız xüsusi proqramların maliyyələşdirilməsinə ayrılmış vəsaitlərdən istifadəyə görə hökumət qarşısında hesabat verirlər. Bu növ sistem yerli özünüidaəetmə orqanlarının gəlir bazalarını genişləndirməklə, büdcə prosesinə dövlət təsirini də özündə əks etdirir.

Yaponiyada yerli orqanlar bəzi məsələlərin həlli üçün bələdiyyə birlikləri yaradırlar.Bu birliklərə şəhərlər, kəndlər, qəsəbələr daxil ola bilər. Birliyin öz orqanları təşkil edilir – şura (bələdiyyə şuralarının üzvlərindən ibarət olur) və rəhbər. Birliyin büdcəsi bələdiyyələrin vəsaiti hesabına və dövlət prefektura büdcələrindən olan dotasiyalar hesabına formalaşdırılır.

İsveç yerli idarəetmə qurumları Assosasiyası ən qədim bələdiyyə birliklərindən biri sayıla bilər.Yerli idarəetmə qurumları Assosasiyası öz maliyyə bazasını üzvlük haqları,məsləhət xidmətlərinin göstərilməsi və təhsil proqramlarının həyata keçirilməsi yolu ilə formalaşdırır. 2000-ci ildə Assosasiyanın maliyyə ehtiyatları 360 mln. İsveç kronuna bərabər idi.

ABŞ-da bələdiyyə Assosasiyaları, əsasən, ştatlar üzrə formalaşdırılıb. Hər bir ştatda ümumi bələdiyyətər Assosasiyası fəaliyyət göstərir. Ştatların daxilində çoxsaylı Assosasiyalar da mövcuddur.Bu qurumlar bütünlükdə şəhərlərin problemləri ilə əlqədar işləri, eyni zamanda paytaxt məsəslələr ilə məşğul olur.

Türkiyə yerli özünüidarəetmə orqanlarının büdcələrinin müstəqil gəlir mənbələri ilə yanaşı, konkret fəaliyyət sahələri də vardır. Bura ətraf mühitin abadlığı, şəhərsalma, su kanalizasiya, yol, küçə, bulvar, park və s. Sosial obyektlərin saxlanması,ərazinin sanitar vəziyyəti,satılan qida məhsullarına nəzarəti, yanğınsöndürmə xidməti, sosial vəzifələr, qoca və kimsəsizlərin müdafiəsi, nəqliyyat məsələləri və sair aiddir.

Türkiyədə dövlət gəlirlərindən bələdiyyələrə ayrılan pay yerli büdcə gəlirlərinin 50 %-dən çoxunu təşkil edir və onun gəlirlərinin əsas hissəsi yerli vergilər hesabına formalaşır.

Bələdiyyələrin büdcəsinin əsas gəlir mənbələri “Yerli vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının qanununda öz əksini tapmış və eyni zamanada yerli vergi və ödənişlərin hesablama qaydası, vergilərin müəyyən edilməsi və ləğvi, vergi və ödənişlərə dair qanunvericiliyin pozulmasına görə məsuliyyət məsələləri geniş şərh olunmuşdur.(18)

Hal-hazırda bələdiyyələrin dövlətdən aldığı maliyyə yardımlarının həcmi getdikcə genişlənir. Beynəlxalq təcrübədə büdcələrarası tansfertlərin əsas növlərindən biri kimi paylı vergilər nəzərdə tutulur. Əsas mahiyyət odur ki,mərkəzi hökümət bir sıra dövlət vergilərindən qanunvericilikə müəyyən olunmuş normativə uyğun olaraq, bələdiyyələrə ayırmalar edir. Bunun sayəsində bələdiyyələr öz ərazisində sahibkarlığın inkişfına,vergi bazasının dəqiq müəyyən olunmasına öz töhvəsini verir. Çünki,vergilərin həcminin artması ilə yerli büdcələrə ayırmalar da arta bilir.

Gəlirlərin strukturuna gəldikdə isə bəzi ölkələrdə yerli özünüidarəetmə orqanlarının vergi daxilolmaları onların ümumi gəlirlərinin 50 %dən çoxunu təşkil edir və yalnız ABŞ-ın bəzi bələdiyyələrində 80-90 % həddində ola bilir. Bələdiyyə orqanları müstəqil şəkildə yeni vergilər təyin edə bilməzlər.

Mümkün ola biləcək vergilər dövlət tərəfindən təyin olunur və dövlət tərəfindən hər bir vergi növü üzrə vergi bazası qeyd olunur. Bələdiyə yalnız nəzəri baxımdan mümkün olan vergi növü ilə vergi dərəcələrini müəyyənləşdirmək hüququna malik olurlar.

Məlumdur ki, yerli büdcələrin ən vacib mənbələrindən biri kimi vergi gəlirləri olsa da, yeganə mənbə hesab olunmur. Digər bir vacib mənbə dövlət dotasiyaları və subvensiylarıdır. Dövlət dotasiyaları və subvensiyaları, vəsaitlərin yenidən bölüşdürülməsi və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin tənzimlənməsi vəzifəsini yerinə yetirir. Dotasiyaların həcmi fiskal potensialdan, əhalinin sayından və göstəricilərin ölkə üzrə orta qiymətinə nisbətindən asılı olur. Orta hesabla yerli büdcələrə dövlət subsidiyaları onların gəlirlərinin 10-50%-ni (bəzi hallarda 80 % -ə qədər) təşkil edir.

Təəsüflə qeyd etmək lazımdır ki, bələdiyyələr dotasiya şəklində aldıqları yardımların xərclənməsində öz gəlirlərinə nisbətən israfçılığa yol verirlər. Dotasiyaların bələdiyyələr arasında ədalətli bölüşdürülməsində hələ də yaxşı nəticələr əldə olunmayıb. Bu sahədə maraq doğuran fikirlərdən biri Heller-Pekman təklifidir. ABŞ-da tətbiq edilmək üçün irəli sürülən təklifin mahiyyəti ştatlardan yığılan gəlir vergisinin 10%-ni xüsusi bir fonda toplamaqdan ibarətdir. Toplanan vəsaitlər sonradan əhali sayı nisbətinə görə ştatlar arasında bölünür.

Yerli büdcələrin xərc hissələri məqsədli təyinatına görə kapital qoyuluşlarına, cari xərcələr və borc öhdəliklərinin ləğvi üzrə xərclərə ayrılır. Xərclər, əsasən, mədəniyyət, təhsil, sosial təminat, səhiyyə, kommunal və digər xidmətlərə yolların tikintisi və saxlanması, ekoloji və inzibati xərclərə ayrılır.

Bələdiyyələrin vergi toplanmasının dünya təcrübəsində geniş yayılan bir neçə əsas metodu mövcuddur. Buraya sərhədsiz vergiqoyma səlahiyyətinin verilməsi metodunu aid etmək olar. Lakin bu model nəzəri çərçivədən kənara çıxmayaraq təcübədə özünə yer tapa bilməmişdir.

Digər bir metod vergi mənbələrinin paylaşdırılmasıdır. "Ayırma sistemi" kimi də adlandırılan bu metodun əsası vergilərin mərkəzi və yerli özünüidarəetmələr arasında paylaşdırılmasıdır. Bu fikrin banisi XIX əsrdə Prussiyanın maliyyə naziri olmuş Von Miqeldir. "Ortaq fondlar" adlandırılan bu üsulda vergilər bir idarə tərəfindən müəyyən olunur və yığılır, daha sonra vergilərdən müəyyən kretiteriyalar üzrə yerli özünüidarəetmələrə pay ayrılır. Üstünlüyü isə ikili vergitutmanın olmamasıdır.

Başqa bir metod "yüzdə birlər" metodudur ki, bunun da əsas xüsusiyyəti yerli özünüidarələrə vergi ilə bağlı əlavə bir vergi artırmaq səlahiyyətinin verilməsidir. Əlavə ediləcək verginin həcmini müəyyən edən bələdiyyələdirsə, bunların toplanması mərkəzi hakimiyyət orqanları üzərinə düşür.

ABŞ-ın iqtisadiyyatında fəaliyyət göstərən korporasiyalarla ortaq xüsusiyyətlərə malik bələdiyyə korporasiyalarının hüquqi baxımdan idarə olunması bələdiyələr tərəfindən idarə edilir. Onların əmlaka malik olmaq ,onu almaq və satmaq, ayrıca şəxsləri və təşkilatları məhkəmə qaydasında təqib etmək,yaxud məhkəmədə öz hərəkətlərinə görə cavab vermək, pul vəsaitləri saxlamaq və istiqrazlar vermək,sazişlər bağlamaq və s. hüquqları vardır. Bələdiyyələrin korporasiya hüquqları olmayan qraflıq idarəetmə orqanlarından başlıca fərqi bundadır.(16)

"Yerli Demokratiyaya Dəstək" QHT Koalisiyasının "2009-cü ildə Azərbaycan bələdiyyələrinin vəziyətinə dair" hesabatında qeyd edilir ki,bələdiyələr real olaraq yalnız bir neçə mənbədən gəlir əldə edə bilirlər. Əldə olunan gəlirlərin cəmi isə nəzərdə tutulmuş səlahiyyətlərinin minimum səviyyədə belə həyata keçirilmələri üçün yetərli deyil.

"Yerli Demokratiyaya Dəstək" QHT Koalisiyasının hesabatında qeyd edilən məlumata əsasən, 2009-cu ildə ölkə üzrə bələdiyyələrin fiziki şəxslərdən torpaq vergisinin ümumi həcmi 6,872 milyon manat, fiziki şəxslərdən əmlak vergisinin həcmi isə təqibən 1,666 milyon manat olub ki, bu da hər iki gəlir mənbəyi üzrə əldə

edilmiş vəsaitin yerli gəlirlərin ümumi həcminin 25,7 və 6,2 faizini təşkil etdiyini göstərir.Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi və yerli lisenziyalar üzrə icra faizləri isə sıfır olub. Qeyri-vergi gəlirləri üzrə üstün çəkini bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən daxil olan gəlirlər təşkil edib. Bunun ümumi yerli büdcə gəlirlərində xüsusi çəkisi 40% -ə yaxın, mütləq həcmi isə 10,6 milyon manata bərabər olmuşdur.

Azərbaycanda fiziki və hüquqi şəxslərin,beynəlxalq təşkilatların maliyyə yardımları və qrantlarının ümumi həcmi 2009-cu il üçün 2 milyon manat, dövlət büdcəsindən verilən dotasiya və subsensiyaların ümumi həcmi isə 3,35 milyon manat olmuşdur.

Ümumilikdə, bələdiyyə gəlirlərinin ümumi həcmi dövlət büdcəsinin 0,25 faizindən belə az olub. AFR-də 19.75, Hollandiyda 61,35, İngiltərədə 28,06, Türkiyədə 12,97, Polşada 33,4, Esstoniyada 12, Ukraynada isə 10,5 faizdir.

Fiziki şəxslərdən torpaq vergisi,bələdiyyə əmlakının və torpağının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər bütün bələdiyyə gəlirlərinin böyük hissəsini (65.3) təşkil edir. Lakin, digər gəlir mənbələri haqqında bu fikirləri söyləmək mümkün deyil. Praktikada digər vergi və son illərin müqayisəsi göstərir ki, bələdiyyələrə dövlət büdcəsindən ayrılan dotasiyanın həcmi də qanedici deyildir. İnfilyasiyanın və iqtisadi böhranın davam etməsinə baxmayaraq, 2012-ci ildə bələdiyyələrə ayrılan dotasiyanın məbləği 2008-ci ildəkindən fərqlənməyib. Beləliklə, dotasiyanın məbləğinin müəyyənləşdirilməsində əsas göstərici nəzərdə tutulduğu halda, praktikada buna əməl edilmir və dotasiyanın bələdiyyələrə hansı meyar və şərtlə ayrılması prinsiplərində dəqiqlik nəzərə çarpmır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının vergi məcəlləsi. Bakı 2010, 352s.
2. Azərbaycan Respublikasının Vergilər nazirliyinin materialları, 2000-2010-cu illər
3. Azərbaycan Respublikasının iqtisadiyyatı və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondun hesabatları, Bakı 2002-2010 illər.
4. Azərbaycanın statistik göstəriciləri 2009, Bakı 2010, 170s.
5. Azərbaycan Respublikasının 2007-2010-cu illər Dövlət büdcəsi zərfi.
6. Allahverdiyev D.İ.Büdcə - vergi siyasəti və iqtisadi təhlükəsizlik, Bakı 2002, 170s.
7. “Azərbaycan bələdiyyə sistemi”jurnalı, Bakı 2002.
8. “Büdcə sistemi haqqında “ AR Qanunu, Bakı 2002.
9. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı Ədliyyə Nazirliyinin illik məruzəsi, Bakı 2008, 14s.

10. “Bələdiyyə maliyyəsinin əsasları haqqında” 07.12.1999-cu il tarixli, №772-İQ saylı AR Qanunu.
11. Bələdiyyələrdə subvensiya layihələrinin hazırlanması üzrə bələdçi, Bakı 2015, 154s.
12. Cəbiyev R.M Azərbaycanda bazar infrastrukturunun formalaşdırılması və inkişafı, Bakı 2000, 236s.
13. H.S.Həsənov, İri sahibkarlıq strukturları, Bakı 2007, 275s.
14. Xankişiyev B.A. Büdcə prosesi və büdcə təsnifatı. Bakı 2002, 69s.
15. Nuriyev Ə.X.Regional siyasət və idarəetmə, Bakı 2004, 345s.
16. Zeynalov Z.Z, Hüseynov S.M., dövlət və bələdiyyə maliyyəsinin porblemləri, Bakı 2006, 432s.
17. Торгачев В.Н формы и методы территориального управление в США и Канаде. М.Наука, 1987-254с.
18. Органы местного самоуправления в зарубежных странах, сравнительные исследование, А.И.Черкасов. М.1996, 215с.

Xülasə

Məqalədə bələdiyyələrin vergi toplanmasının dünya təcrübəsində geniş yayılan bir neçə əsas metodu göstərilir. Bələdiyyələrin büdcəsinin əsas gəlir mənbələri “Yerli vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının qanununda öz əksini tapmış və eyni zamanada yerli vergi və ödənişlərin hesablama qaydası, vergilərin müəyyən edilməsi və ləğvi, vergi və ödənişlərə dair qanunvericiliyin pozulmasına görə məsuliyyət məsələləri geniş şərh olunmuşdur.

Summury

The article provides some basic methods of the tax collected by municipalities of widespread in the world. The main sources of income tax and accounting rules to identify and eliminate liability for breach of the legislation on taxes and payment of "Local taxes and duties" law of the Republic of Azerbaijan on the budget of municipalities reflects the same time, tax payments, and local issues, widely commented.

Pərvin MİKAYILOVA
Azərbaycan Turizm və Menecment Universiteti
gurbanli.ap@gmail.com

Azərbaycanın regionlarında turfirmalarin fəaliyyəti
Activities of tour operators in the regions of Azerbaijan
Деятельность турфирм в регионах Азербайджана

Xülasə:Məqalədə Azərbaycan Respublikası Dövlət Statistika İdarəsinin verdiyi məlumatlar əsasında Azərbaycanın regionlarında turfirmalarin (turoperatorlar və turagentliklərin) fəaliyyəti araşdırılmışdır. Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən turfirmaların kəmiyyət göstəriciləri analiz edilir, regionlarda turizm biznesinin inkişaf istiqamətlərinin xüsusiyyətləri tədqiq edilir.
Açar sözlər: Turoperator, turagentlik, turizm sektoru, Azərbaycan regionları, turist blankı, turizm biznesi.

Резюме:В статье на основе данных Государственного Комитета Статистики Азербайджанской Республики рассматривается деятельность турфирм (туропе-раторов и турагентств) в регионах Азербайджана. Проводится количественный анализ деятельности турфирм в различных регионах Азербайджана, исследуется особенности направлений развития туристического бизнеса в регионах республики.
Ключевые слова: Туроператор, турагентство, туристический сектор, регионы Азербайджана, туристический бланк, туристический бизнес.

Abstract: The article considers the activities of tour operators (tour operators and tour agencies) in the regions of Azerbaijan on the basis of the information provided by the State Statistical Committee of the Republic of Azerbaijan. A quantitative analysis of the activity of travel agencies in various regions of Azerbaijan is carried out, the features of the directions of development of tourism business in the regions of the republic are investigated.
Key Words: Touroperator, travel agency, tourism sector, regions of Azerbaijan, travel form, tourism business.

Azərbaycan Respublikasının iqtisadi potensialının 50%-dən çoxu regionlardadır, həmçinin əmək qabiliyyəti əhalinin də 47%-i kənd təsərrüfatı və aqrar sahə ilə məşğul olur. Turizmin inkişafı potensialının 50%-i regionlarda olan siyasətlə

bağlıdır.(5,174). Bütün bunlar ölkəmizdə regionlarda turizmin inkişafı üçün kifayət qədər imkanlar yaradır.


Ölkəmizdə turizm agentliklərinin fəaliyyəti geniş yayılsa da, formalaşmış turoperatorlar kiçik olmaqla yeni yaranmağa başlayır. Ölkəmizdə turizm xidmətlari üçün lisenziya alan 243 şirkətdən yalnız 58-i turizm fəaliyyəti ilə məşğul olur (4,74). Bunların da əksəriyyəti xarici turizm üzrə ixtisaslaşmışdır. Ölkədə fəaliyyət göstərən turizm şirkətlərinin turoperator fəaliyyəti zəif təşkil olunmuşdur. Belə ki, turizm şirkətləri xaricə səfərləri əməkdaşlıq etdiyi ölkənin turizm firmasının agenti kimi çıxış edərək satışını təşkil edir. Azərbaycanda formalaşan turoperatorların əksəriyyəti Bakı şəhərində cəmlənmişdir. Bölgələrdə bir neçə turoperator fəaliyyət göstərir ki, bunların da əksəriyyəti Bakıda olduğu kimi xaricə yönəldilmiş turizm və ya ölkə daxilində biznes turların təşkilinə daha çox diqqət yetirirlər. Yerli turoperatorların xidmətlərinin çeşidi da azdır və əsasən formalaşmış turların satışından ibarətdir. Əsasən bölgələrdə yerləşən iri istirahət mərkəzlərinin Bakıda nümayəndəlikləri fəaliyyət göstərir ki, bunların da çox hissəsi turoperator funksiyası yerinə yetirir. Yəni, formalaşmış turların, bölgədə fəaliyyət göstərən istirahət müəssisəsinin xidmətlərinin satılmasından ibarət olur. Bakıda fəaliyyət göstərən bölgələrdəki turizm mərkəzlərinin nümayəndəlikləri reklam, informasiya, bələdçi xidmətləri da göstərir.

Quba, Şəki, Xaçmaz, Gəncə, Naxçıvan, Lənkəranda turagentliklər mövcuddur ki, bunlar da yerli turizm obyektləri va rekreasiya potensialının təbliği ilə məşğul olur, mövcud istirahət müəssisələri haqqında reklam informasiya məlumatları da verir. Azərbaycanda turagent fəaliyyətinin təkmilləşdirilməsinə ehtiyac vardır. Belə ki, turagentliklərin xidmət səviyyəsinin yüksəldilməsi, onların bölgələri daha çox əhatə etməsi, yerli və xarici turoperatorla əlaqələrin genişləndirilməsi məqsədəuyğun olardı. Turagentliklərin formalaşmış turməhsul haqqında geniş informasiyasının, həmçinin yerləşmə müəssisələrinin xidmətləri haqqında məlumatlarının olması vacibdir.

Lakin son on ilə nəzər salsaq görərik ki, turizm sektorunun və sahibkarlığın inkişafı üçün görülən tədbirlər ("Sahibkarlığın inkişaf Proqramı", "Kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı", "Sahibkarlığa dəstək Milli Fondu" və s.) nəticəsində turizm şirkətlarinin sayı hər il bir az daha artmışdır.

Şəkil 1.

2008-2016-cü illər ərzində turizm müəssisələrinin inkişaf dinamikası.



Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika İdarəsinin 2008-2016-ci illər üzrə statistik göstəriciləri əsasında müəllif tərəfindan tərtib edilmişdir.

Yuxarıda göstərilən diaqramı təhlil etmiş olsaq görərik ki, 2008-2010-cu illər turizm müəssisələrinin sayındakı durğunluğu istisna etsək hər il artım müşahidə olunur. Belə ki, 2006-cı ilə nisbətən 2015-ci ildə turizm müəssisələrinda 100%-dən çox artım olmuşdur. Turfirmaların sayının belə artması onların fəaliyyət sahələrinin genişlənməsinə, ölkəyə turist axınının çoxalmasına öz tövhəsini verir.

Turizm şirkətlərinin inkişaf dinamikasından danışarkən dövlət qeydiyyatından keçməyən törəmə şirkətlərin də fəaliyyətini vurğulamaq lazımdır. Belə ki, Azərbaycanda turizm bazarında mövsüm dövründə bir çox turizm şirkətlərinin törəmələri yaranır. Bu törəmə şirkətlər istehlakçılara hər növ turizm xidməti göstərirlər. Lakin satılan turizm məhsulu və xidmətlərin qarşılığında dövlətə heç bir vergi ödənilmir. Mövsüm başa çatdıqdan sonra isə bu törəmə şirkətlərin fəaliyyəti dayandırılır. Ümumilikdə törəmə şirkətlərin fəaliyyət dövrü 3-4 aydan ibarət olur. Onların fəaliyyətinin dayanması isə heç də təsadüfü hal deyil. Çünki, real bazarda fəaliyyət göstərən, çox sayda istehlakçı sayına malik olan turizm şirkətləri belə aralıq

va qış mövsümündə çox az sayda istehlakçıya xidmət göstərir, istehsal xərclərini yalnız qarşılaya bilirlər. Belə olan halda yeni açılmış törəmə şirkətlərin belə mövsümlərdə demək olar ki, heç bir satış edə bilməyəcəyi üçün onların fəaliyyəti əhəmiyyətsizdir və əsas turizm şirkətinə əlavə xərclərdən başqa heç bir qazanc gətirmir. Yəni demək olar ki, törəmə şirkətlərin fəaliyyətə nə vaxt başlaması və bu fəaliyyətlərini nə vaxt bitirmələri bağlı olduqları əsas şirkət tərəfindən müəyyən olunur.

Bir fakta da xüsusi diqqət yetirmək istərdik. Regionlarda yerləşən turoperatorların kəmiyyət cəhətdən çox az olması və fəaliyyətlərinin dar çərçivədə olmasının nəticəsidir ki, respublikanın ən mühüm biznes saytlarından olan Biznesinfo.az-da haqqında məlumat göstərilən 253 turagentlik və turoperatların hamısı Bakıda yerləşir. Yəni respublikanın bizneslə bağlı internet saytlarında bölgələrdə yerləşmiş turfirmalar haqqında, demək olar ki, məlumat yoxdur.

Regionlarda turizm firmalarının kəmiyyət cəhətdən azlığı onların fəaliyyətinin nəticələri ilə də aydınlaşdırmaq mümkündür. Belə ki, ölkə ərazisində səyahət etmək üçün xidmət göstərilmiş Azərbaycan vətəndaşlarının bölgələr üzrə sayına nəzər salsaq,məlum olur ki, 2016-cı ildə xidmət göstərilmiş 9546 nəfərdən 7465-i Bakı, 1788-i Naxçıvan Muxtar Respublikasının payına düşdüyü halda yalnız 204 nəfər turist regionlarda (Abşeron, Gəncə-Qazax, Şəki-Şirvan, Lənkəran-Astara) xidmət blankı almışdır. Bu rəqəm xidmət göstərilənlərin 1%-dən xeyli aşağıdır (3,60).

Turizm yollayış blanklarının satışında nəticələr də elə də fərqli deyildir. Ölkə üzrə 2016-cı ildə əhaliyə satılmış 36978 turist yollayış blanklarının 32800-ü Bakıda, 3644-ü Naxçıvanda, yalnız 536 ədədi regionlarda satılmışdır. Təsadüfü deyildir ki, satılmış turizm yollayış blanklarının ölkə üzrə ümumi dəyərinin (33466.5 min manat) 80%-dən çoxu (26583 min manat) Bakının payına düşür (3,61).

Naxçıvan Muxtar Respublikasında satılmış turist yollayış blanklarının 2016-cı ildə dəyəri 6692 min manat olduğu halda Azərbaycanın digər bütün regionlarında satılmış turist yollayış blanklarının ümumi dəyəri yalnız 200 min manat olmuşdur. Bir çox regionlarda son ildə ümumiyyətlə turizm yollayış blankının satışı reallaşmamışdır (3,61).

Respublika Dövlət Statistika İdarəsinin məlumatlarından aydın olur ki son illərdə (2011-2016-cı illər) Azərbaycan ərazisində səyahət etmək üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə turizm yollayışı blankların satışı olmamışdır. Bütün belə əməliyyatlar yalnız Bakı şəhərində həyata keçirilmişdir.

Regionlarda turfirmaların azlığı, onların fəaliyyət dairəsinin həddindən artıq dar çərçivədə olması, faktiki olaraq ölkə turizm bazarında çox zəif təmsil olunmaları son

illərdə respublika vətəndaşlarını ölkə daxilində və xarici ölkələrə səyahət etmək üçün satılmış turizm yollayışı blanklarının sayını isə göstərən aşağıdakı cədvəldən də əyani şəkildə görünür.

Cədvəl 1.

(Ölkə daxilində və xarici ölkələrdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışı blanklarının iqtisadi rayonlar üzrə satışı)

İqtisadi rayonlar	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**
Ölkə daxilində						
Ölkə üzrə cəmi:	4045	5121	7078	6990	4695	5842
Bakı şəhəri	2661	3577	5561	5434	3119	4211
Abşeron iqtisadi rayonu	94	201	94	90	54	11
Aran iqtisadi rayonu	9	33	44	56	72	165
Naxçıvan Muxtar Respublikası	1281	1310	1379	1410	1450	1455
İqtisadi rayonlar	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**
Xarici ölkələrdə						
Ölkə üzrə cəmi:	34254	52378	53771	54900	38002	24368
Bakı şəhəri	32462	50350	51549	52653	35584	21821
Abşeron iqtisadi rayonu			30	30		
Gəncə-Qazax iqtisadi rayonu			48	60	232	331
Aran iqtisadi rayonu			38	12	9	27
Naxçıvan Muxtar Respublikası	1792	2028	2106	2145	2177	2189

Regionlarda turfirmaların fəaliyyətinin təhlili (Azərbaycan Respublikası Dövlət Statistika İdarəsinin verdiyi məlumatlar əsasında) göstərir ki, respublikada Bakıdan kənarda yalnız Gəncə, Yevlax, Mingəçevir, Şirvan və Sumqayıt şəhərlərində turfirmalar fəaliyyət göstərir.

ƏDƏBİYYAT SİYAHISI:

1.Azərbaycan Respublikasında 2010 – 2014 – cü illərdə turizmin inkişafına dair dövlət proqramı- https://azertag.az/xeber

2. Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası

3. Azərbaycan Respublikasinin Dövlət Statistika Komitəsi. Azərbaycanda

turizm. Bakı: 2015, 220 s.

4. Abadov M.K. Azərbaycan turizmi və onun inkişaf problemləri . Bakı: “Şərq-Qərb” nəşriyyatı evi, 2014, 248 s.

5. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: "İqtisad Universiteti” nəşriyyatı, 2011, 494 s.

6. Hüseyn A. Turizmin inkişafi: dünya praktikasi və Azərbaycan realliqlari. Bakı: Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı, 3, 2015

7. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı:

8. Turizmin əsasları: Ali məktəb üçün dərslik / dosent B.Ə.Bilalov və dosent Ç.G.Gülalıyevin redaktəsi ilə. Bakı: “QHT Nəşriyyatı”, 2015, 496 s.

Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti və maliyyə problemləri

Qalib Səlim oğlu Qənbərov

Azərbaycan Turizm və Menecment Universiteti, Magistr tələbəsi

ganbarovgalib@gmail.com

Respublikamızda sahibkarlığın inkişaf etməsi reallaşdırılan islahatların uğurlu nəticəsidir. Reallaşdırılmış tədbirlər nəticəsində iqtisadiyyat və onun əsas tərkib hissəsi olan sahibkarlığın inkişafı müsbət amillərdə özünü göstərməkdə davam edirdi. Ötən illərlə müqayisə etdiyimiz zaman ÜDM həcminin artdığını görərik. Ölkədə biznesə başlamaq mərhələlərini sadələşdirmək, mühitin yaxşılaşdırılması, sağlam rəqabət amilinin yüksəldilməsi, sahibkarlığın maarifləndirilməsi, dövlət dəstəyinin artırılması və sahibkarlıq qanunvericiliyinin daha da inkişaf etməsi nəticəsində ÜDM həcmi artmışdır.

Cədvəl 1

ÜDM-nın artım dinamikası

İllər göstəricilər	2010	2011	2012	2013	2014	2015	2016

ÜDM-nin həcmi, manatla	38005,7	34578,7	41574,7	50069,1	539950,0	57708,2	590000
Artım % -lə	10,8	9,3	5,0	0,1	2,2	5,8	2,8

Mənbə:Azərbaycanda İnformasiya Cəmiyyəti, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi,

Ölkə ərazisində sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sağlam rəqabət, prosedurların sadələşdirilməsi, sahibkarlığın maarifləndirilməsi və bundan başqa digər geniş tədbirlərin həyata keçirilməsi ÜDM-da özəl sektorun payını 85% çatdırmışdır. Özəl sektorun payına illər üzrə nəzər salsaq: 2010 – 81,2%, 2011 – 81,7%, 2012 – 82,5%, 2013 – 83%, 2014 – 85%, 2015 – 79,5% artımlar olmuşdur. Sənayə, mehmanxana, aqrar, nəqliyyat, tikinti və rabitə kimi sahələrdə 70-99% dərəcəsi qeyri dövlət bölməsinin payına düşür. Məşğulluğun bir çox hissəsi özəl sektorlar tərəfindən təmin edilir. [1]

Göründüyü kimi ölkə ərazisində fəaliyyət göstərən müəssisələrin 80% kiçik müəssisələrdən ibarətdir. Onların əsas hissəsini ticarət, tikinti, kənd təsərrüfatı bölmələri tutur. Kiçik müəssisələrin iqtisadi rayon üzrə bölgüsünə baxdığımız zaman Bakı, Abşeron, Aran, Gəncə - Qazax, Lənkəran, Quba - Xaçmaz bölgələrində müəssisələrin fəaliyyəti yüksək faiz göstəricisinə malikdir. Fiziki şəxslərin artım dinamikasına 2006 - 2017 - ci il aralığına nəzər salsaq sürətlə artdığını görərik. Fiziki şəxslərə regionlar üzrə nəzər salaq:

Cədvəl 2.

Fiziki şəxslərin regionlar üzrə sayı

	01.01.2016 – cı il vəziyyətinə fiziki şəxslərin sayı	Ümumi saya görə faizlə
Cəmi	454997	100
Bakı	158472	34,8
Abşeron iqtisadi rayonu	21230	4,7
Gəncə-Qazax iqtisadi rayonu	56641	12,4
Şəki-Zaqatala iqtisadi rayonu	28445	6,3
Lənkəran iqtisadi rayonu	34141	7,5
Quba-Xaçmaz iqtisadi rayonu	25149	5,5
Araniqtisadi rayonu	89781	19,7

Yuxarı qarabağ iqtisadi rayonu	10918	2,4
Kəlbəcər Laçın iqtisadi rayonu	2072	0,5
Dağlıq Şirvan iqtisadi rayonu	13083	2,9
Naxçıvan iqtisadi rayonu	15065	3,3

Mənbə: http://www.stat.gov.az/source/finance/

Ötən illər ərzində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı olduqca artmışdır. Fiziki şəxslərin 82% kişilər, 18% qadınlar təşkil edir.[2]

2016-ci ildə qeydiyyatdan keçmiş 7879 sahibkardan 211 dövlətin payına, 6956-sı xüsusi mülkiyyətin payına, xarici investisiyaların payına 568-i, birgə müəssisələrin payına 138-i, bələdiyyə mülkiyyətinə isə 6-sı aid edilmişdir.

2016-ci il tarixinə kimi qeydiyyata alınmış 86010 hüquqi şəxsdən dövlət mülkiyyətinə 9087-si, 68642 xüsusi mülkiyyətə, bələdiyyə mülkiyyətinə 1758-i, 4922 xarici investisiyaya, birgə müəssisələrə isə 1601-i aid olmuşdur. Dövlət qeydiyyatından keçmiş xarici investisiyalara isə ilk növbədə Türkiyə (34%),Rusiya (7%), Böyük Britaniya (9%), İran (6%), Amerika (4%), Almaniya (2%) təşkil etmişdir.

Bazar münasibətləri çərçivəsində kiçik sahibkarlığın inkişafı davam etməkdədir. Onun inkişafı kiçik sahibkarlığa əsaslanan qanun çərçivəsində aparılır. Kiçik müəssisələrin sayı ildən ilə artmaqdadır. Buna cədvəl formasında nəzər salaq:

Cədvəl 2.5.

Kiçik müəssisələrin dinamikası

İllər	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**
Kiçik müəssisələrin sayı	**59553**	**65986**	**73776**	**77225**	**60223**	**62899**	**69219**	**71245**

Mənbə: http://sahibkarol.biz/gen/html/azl/virtual_tehsil/virtual_tedris-1.*htm*

Məlum olduğu kimi ölkə fəaliyyətinin 80%-ni kiçik müəssisələr təşkil edir. Onların əsasını ticarət, kənd təsərrüfatı və digər xidmət sahələrini aid etmək olar. Kiçik müəssisələri iqtisadi rayonlar üzrə böldüyümüz zaman Abşeron, Bakı ərazisinə daha çox pay düşür. Ardıcıllığa fikr versək Aran, Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran fəaliyyət göstərirlər. [3]

Maliyyə resurslarının bölüşdürülməsində maliyyə bazarının rolu inkar edilməzdir. Beləliklə, maliyyə bazarının köməyi ilə maliyyə resursları bölüşdürülərək səfərbər edilir.

Komersiya bankları xüsusi vəsaitlərini pul bazarında öz borc öhdəliklərini sataraq fikrləri öz üzərinə cəmləyə bilir. Bu vəsaitlər bazarda satış yolu vasitəsilə əldə edilir. Onların cəlb edilməsi fikri ancaq banklara məxsus olur və çox vaxt belə əməliyyatları böyük banklar reallaşdırır. Passıvlərini formalaşdırmaq üçün komersiya bankları istiqraz, səhm, sertifikat və beləliklə vekselin emisiyasından istifadə edir. Komersiya bankları emissiya etməklə əlavə kapital cəlb edir, bu da öz növbəsindı fəaliyyətini reallaşdırmaq üçün əsas mənbədir.

Komersiya banklarının passivləri əsasən iki hissədən ibarət olur: [4]

- Şəxsi (xüsusi);
- Cəlb olunmuş.

Birincinin tərkibinə digər fondlar, səhimdar kapital, ehtiyat, bölüşdürülməmiş mənfət daxildir. Bankdan alınmış borc vəsaitləri cəlb olunmuş vəsaitlərə daxil edilir. Bu borclara əsasən depozit, kredit, müştərilərin cari və hesablaşma hesablarında olan vəsait daxil edilir.

Sertifikat maliyyə sənədi olub, məbləğin təhvil verildiyini təsdiq edir. Depozit hüquqi şəxs tərəfindən əldə olunan vasitə kimi hesab edilir. Depozıt sertıfikatlarının aşağıdakı formaları mövcuddur:

- tələb olunanadək depozit bankdan istənilən zaman tələb olunub götürülə biləndir;
- depozitlərin müddətli növləri banklardan müəyyən edilmiş zamanda götürülə biləndir.

Qiymətli kağızların digər növü olan əmanət sertifikatları isə yalnız fiziki şəxslər əldə edə bilir. Əmanət sertifikatı - müəyyən məbləğin əmanət qoyulması və bununla yanaşı bank tərəfindən həmin vəsaitin reallaşdırılmasını yazılı sürətdə təsdiq edən sənəddir. Bu sənəd sahibinə və ya hüquqi varisinə təyin olunmuş müddətdə əmanətləri, hesablanmış faizi geri əldə etmək hüququ var.

Qeyd etdiyimiz əmanət sertifikatlarının və depozit emisiyası prosesi, ödənilməsi, dövriyyəsi ümumiyyətlə iqtisadi mahiyyətcə eynidir. Bu eynilik və eyni zamanda ümumi xüsusiyyətlər çoxdur. Belə ki, həm əmanət sertifikatı, həm də depozit emitent sertifikatı əldə edən şəxsdən vəsaitin alınmasını yazılı sürətdə təsdiq edən sənəddir. Qeyd olunan xüsusiyyətlərlə yanaşı, eyni zamanda özünə məxsus olan xüsusiyyətləri də mövcuddur.

Yuxarıda qeyd etdiklərimizə əsaslanaraq, əhalinin əmanətləri iqtisadiyyatın qısa və ya uzunmüddətli kreditləşməsində zəruri əhəmiyyət kəsb edir. Əhalinin əmanətlərinin ölkə iqtisadiyyatında yerini müəyyən etmək üçün, ilk öncə banklar tərəfindən həyata keçirilən aktiv əməliyyatlardakı payını gözdən keçirmək kifayət edər.

Dünya üzrə maliyyələşmənin iki fərqli modeli mövcuddur. Bu modellərdən ilki - Market-oriented (bazara əsaslanan maliyyələşmə sistemidir). Bu sistem QKB-dan, investisiya banklarından qiymətli kağız ixrac edərək maliyyələşmə saxlamaqdadır. Digər model isə ingilis-amerikan ölkələrində yayılmışdır. [5, s.318]

II model - Bank oriented maliyyələşmə ehtiyacının əksər hissəsi banklar tərəfindən ödəməkdədir. Bu sistemə əsasən banklar təkcə kredit şəklinə əsaslanmır, eyni zamanda sənaye və ticarət sektoruna nəzarət edirlər. Bu sistem Almaniyanı əhatə etməkdədir. I model - bu model Türkiyə ölkələrində geniş yayılıb ki, burada əhaliyə səhm satmaq istəyən ölkələrə güzəştlər tətbiq olunur.

Xarici ölkələrə nəzər salsaq görərik ki, kiçik sahibkarlığa böyük əhəmiyyət verilir və onun inkişafı üçün dövlət əlindən gələni edir. Avropa ölkələrində ÜDM-nın 60%-i, kiçik sahibkarlığın isə 68%i müəssisələrin payına düşür. ABŞ-da kiçik sahibkarlıq ilə məşğul olan müəssisələrdə ÜDM 40%-i hesablanır. Eyni mənzərə , Böyük Britaniya, Yaponiya, Çin və başqa ölkələrdə müşahıdə olunur. Azərbaycanda isə kiçik sahıbkarlığın ınkışafı dünya səviyyəsindən demək olar ki, gerı qalır.[6, s. 38]

Azərbaycanda kiçik sahibkarlığın xüsusi çəkisi, faizlə

Göstəricilər	**2005-ci il**	**2010-cu il**	**2014-cü il**
İqtisadiyyatda məşğul olan əhalinin sayı	1,8	2,1	2,5
ÜDM	5,2	4,2	4,3
Orta aylıq əmək haqqı	49,8	62,4	78,3

Mənbə: Azərbaycanın statistik göstəriciləri 2015, Bakı, 2015, s.38, 39, 124 və 125-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Son illər ərzində Azərbaycanda sənaye sürətlə inkişaf etmişdir ki, texnoparklar, biznes inkubatorları yaradılmışdır. Klasterlərin tərkibində kiçik sahibkarlığın mövcud olması sürətlə inkişafına səbəb ola bilər. [7, s.320]

Bankların birinci funksiyası vəsaitlərin toplanmasıdır. Unutmaq olmaz ki, müxtəlif investisiya fondları, sənaye şirkətləri investisiya məqsədinə əsaslanaraq vəsaitlər toplayır. Analoji funksiyasından fərqli olaraq, subyektlər pul vəsaitlərini öz şəxsi məqsədlərini reallaşdırmaq üçün toplayırlar. Dünya təcrübələrinə nəzər salsaq görərik ki, bank tərəfindən toplanılma qaydasına görə vəsait iki formada qruplaşdırılır: qeyri-depozit və depozit vəsait. Belə əməliyyatlara həm hüquqi, həm də fiziki şəxslər cəlb edilə bilər. Cəlb edilmiş məbləği kapitalın səviyəsindən asılı olur. Ona görə ki, kapital bankın yaradılması və sonrakı dövrlərdəki fəaliyyətinin əsasını təşkil edir. Bu isə vəsaitin limitini müəyyən etməyə kömək edir.

Qeyd etdiyimiz kimi, bütün ölkə sistemində pul dövriyyəsi banklardan keçir. Bank sistemi vasitəsilə vəsaitlərini bir subyektdən digərinə axını baş verir. Maliyyə vasitəçiləri, vəsaitlərin cəlb edilməsi və bölüşdürülməsi zamanı xərclərin artmasına gətirib çıxarır. Vəsaitin birbaşa hərəkətini reallaşdırmağı nəzərdə tutan QKB əsasən daha səmərəli hesab edilir. Hal-hazırda bazar iqtisadiyyatı üçün maliyyə bazarı iqtisadiyatın mərkəzi hesab edilir. İqtisadi proseslərin idarəsi, xidmət göstərilməsi və iştirakçıları tənzimləyən mürəkkəb strukturdur.

Bütöv il ərzində üzrə bazar qiymətli kağızların təkrar və ilkin buraxılışlarının bazarıdır. İlkin bazarda baş verən bütöv proseslər informasiyanın açıqlanması üzrə xidmət göstərməlidir. Bazar şəraitində emitent tərəfindən qiymətli kağızın səfərbər olunması həyata keçirilir. Vəsaitin həcmi, eyni zamanda emitentin işgüzar nüfuzu fəaliyyətin necə həyata keçirilməsindən birbaşa asılıdır. Buna görə də qiymətli kağızların buraxılışının və ya yerləşdirilməsinin həyata keçirilməsi işlərinə nüfuzlu banklar, İlin bazar qiymətli kağızların ilkin və təkrar buraxılışlarının bazarıdır. Burada qiymətli kağızların ilkin investorlar arasında yerləşdirilməsi baş verir. İlkin bazarın ən vacib cəhəti sərbəst pul vəsaitlərinin qoyuluşu məqsədiylə qiymətli kağızların növlərinin əsaslandırılmış seçımını etməyə kömək edən ınformasıyanın investorlar üçün bütövlüklə açıqlanmasıdır. Belə ki, ilkin bazarrarda baş verən hər bir proses informasiyanın açıqlanması məqsədi üçün xidmət etməlidir: emisiya prospektinin hazırlanması, onun qeydiyyatdan keçməsi və içindəki informasiyanın tamlığı nöqteyi nəzərdən prospektin dövlət orqanları tərəfindən yoxlanılması və s. İlk bazar şəraitində qiymətli kağızın emitenti tərəfindən maliyyə resurslarının səfərbər olunması baş verir. Cəlb edilən vəsaitin həcmi, emitentin sonrakı işgüzar nüfuzu ikin yerləşdirmə şərtlərinin necə yerinə yetirilməsindən bir başa asılıdır. Buna görə də emitent üçün qiymətli kağızların ilkin buraxılışının və daha sonrakı mərhələlərininin təmin edilməsi fəaliyyəti ilə nüfuzlu banklar, ixtisaslaşmış şirkət,

investisiya bankları, həmçinin ixtisaslaşdırılmış fondlar məşğul olur. Beləliklə, qiymətli kağızın yerləşdirilməsi mərhələləri sürətlənir və asanlaşır.

İkinci bazarın digər ən mühüm cəhətlərindən biri likvidliyidi. Günümüzdə ikinci bazarın iki forması məlumdur: birjadan kənar bə birja bazarı. Fond birjasında yığımlar səfərbər edilir və bu vaxt onların kapital qoyuluşuna uzunmüddətli çevirməsinə şərait yaradır. Qiymətli kağızların tələb olunan likvidliyini fond birjası təmin edir və uzunmüddətli maliyələşməni qısamüddət ərzində təmin edilməsinə şərait verir. Digər funksiyaya isə qiymətli kağızın qiymətləndirilməsi, məzənə bulletenlərində dərc edilməsi və eyni zamanda qeydiyatdan keçirilməsi aid edilir. Yenidən bölüşdürmə funksiyası həyata keçirilən zaman kapitalın yenidən qiymətləndirilməsi reallaşır. Yalnız səhmləri yüksək qiymətləndirilən firmalar istehsalın genişləndirilməsi şəraitinə malikdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1.Novruzov N.A.,Hüseynov X.Ə.,Maliyyə(dərslik).Bakı,"Kooperasiya" nəşriyyatı,2007.

2.Azərbaycanın statistik göstəriciləri 2016, Bakı, 2015, s.124-125.

3.Elmi-red. Muradov Ş.M. "Azərbaycanda sahibkarlığın inkişafının bazar mexanizmi", Bakı, Elm-2008

4.Ş.Axundov, M. Axundov "İqtisadiyyat: sahibkarlıq, bazarmünasibətləri, marketinqvə səmərəlilik". Elmi-kütləviməlumatkitabı.Bakı, Azərnəşr- 1992.

5.R.F.İskəndərov., R.F.Sadıqov., Ayşad Rafiq oğlu. Qiymətli kağızlar, banklar.Dərs vəsaiti. Bakı, "Bakı Biznes Universiteti" nəşriyyatı., 2014- 318s

6.Azərbaycanın statistik göstəriciləri 2015, Bakı, 2015, s.38, 39, 124 və 125-in məlumatları əsasında tərtib edilmişdir.

7.Abbasov "Maliyyə biznesi" dərs kitabı, Bakı., "UNEC", 2014ci il, 320s.

8.http://www.stat.gov.az/source/finance/ - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron səhifəsi.

9.http://sahibkarol.biz/gen/html/azl/virtual_tehsil/virtual_tedris-1.*htm*

Xülasə

Qalib Səlim oğlu Qənbərov

Azərbaycan Turizm və Menecment Universiteti, Magistr tələbəsi

Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti və maliyyə problemləri

Müasir zamanda sahibkarlığın inkişafı üçün zəruri olan istiqamətlərdən biri maliyyələşməsidir. Respublikamızda sahibkarlıqla bağlı əsas problemlərdən biri ondan ibarətdir ki, fəaliyyətə başlayan sahibkar kifayət qədər maliyyə vəsaitinə malik olmur. Dünya praktikasına əsaslansaq bu problemlər müxtəlif yollarla öz həllini tapır. Yüksək dərəcədə maliyyə resurslarına malik olan banklar, dövlət, investisiya fondları yeni fəaliyyətə başlayan sahibkara öz fəaliyyətində kömək göstərməlidir. Sahibkarlara bu tipdə yardım göstərilməsi sərmayəçilərə görə müsbət amil yüksək həddə mənfəət əldə etmək, dövlət üçün isə müsbət amil bu layihələrin işsizlik probleminin həll olunmasına kömək göstərməsidir.

Açar sözlər: *"Azərbaycanda sahibkarlıq fəaliyyəti", "Sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti","Sahibkarlığın inkişaf etdirilməsi"*

Summary

G.S.Ganbarov

Azerbaijan Tourism and Managemant University, Master

Güler QULİYEVA

Azərbaycan Turizm və Menecment Universiteti

guler. quliyeva.93@mail.ru

Topdan və pərakəndə ticarət sferasında istehlakçı davranışının idarə edilməsi

Management of consumer behavior in the wholesale and retail trade

Управление потребительским поведением в оптовой и розничной торговле

Xülasə:Məqalədə, müəllif qeyd edir ki, istehlakçı davranışının öyrənilməsi ilə firmalar kimin alıcı olduğunu, necə aldığını, nə vaxt aldığını, harada aldığını və məhz nəyə görə aldığını aydınlaşdırmağı çalışırlar.

Beləliklə, marketinq ehtiyacların ödənilməsi üçün azad ticarəti (mübadiləni) qanuniləşdirən , həmçinin bu mübadilənin aparılması üsullarına da malik olub (və ya təklif edib) və eyni zamanda azad mübadilənin ümumi normativ-metodoloji bazası kimi (və ya mübadilə fəlsəfəsi) çıxış edən konsepsiyadır.
Açar sözlər: marketinq, istehlakçı, təklif, azad mübadilə, rəqabət.

Резюме: В статье автор отмечает, что, изучая поведение потребителей, компании пытаются выяснить, кто покупает, как они покупают, когда, где и как они в данном случае поступают.

Таким образом, маркетинг легализует (или предлагает) свободную торговлю (обмен) для нужд рынка (или предложение), а также общую нормативно-методологическую основу на основе концепции свободного обмена.
Ключевые слова: маркетинг, потребитель, предложение, свободный обмен, конкуренция.

Summary: In the article, the author notes that by studying the behavior of consumers, companies are trying to figure out who buys, how they buy, when, where and how they act in this case.

Thus, marketing legalizes (or offers) free trade (exchange) for the needs of the market (or offer), as well as a general regulatory and methodological basis based on the concept of free exchange.
Keywords: marketing, consumer, offer, free exchange, competition.

İstehlakçı davranışının öyrənilməsi ilə firmalar kimin alıcı olduğunu, necə aldığını, nə vaxt aldığını, harada aldığını və məhz nəyə görə aldığını aydınlaşdırmağı çalışırlar. İstehlakçı davranışının öyrənilməsi sırf marketinq nəzəriyyəsi və praktikası baxımından yeni problem olsa da, elm tarixin-də bu məsələnin araşdırılması ilk dəfə hələ 18-ci əsrin əvvəllərinə gedib çıxır. Marketinqdə isə 20-ci əsrin ortalarından etibarən bu məsələ aktuallaşmışdır. Bunun əsas səbəbi isə həmin dövrlərdən başlayaraq alıcı davranışlarında yaranan yeni dəyişikliklər idi ki, bunlar da özünü alıcının məhsul alışına ənənəvi “nə taparamsa, onu da alaram” deyil, yeni “nə istəyirəmsə, onu alaram” prinsipi ilə yanaşmasında özünü göstərirdi. Artıq o dövrdən indiyədək istehlakçı davranışlarında artıq təbii tələbatın deyil, arzu və istəklər əsasında formalaşan süni tələbatın rolu artmış və bu səbəbdən də bu gün alıcı davranışını anlamaq daha mürəkkəb olmuşdur [1].

Deməli, istehlakçı davranışının tədqiqi istənilən bazar subyektinin ən başılca vəzfələrindən biri hesab edilir. Praktik təcrübə göstərir ki, məhsul istehsalçıları (satıcılar) gündəlik ticarət münasibətləri çərçivəsində öz istehlakçılarını dərindən başa düşmək, onların arzu və istəklərini qarşılamaq üçün birmənalı olaraq onların bazar davranışlarını müəyyənləşdirmək məcburiyyətində olurlar. Lakin firmaların təsərrüfat fəaliyyətinin genişliyi və bazarların müxtəlifliyi marketinq alətlərindən istifadə edən əksər istifadəçiləri öz müştəriləri ilə birbaşa təmas yaratmağa imkan vermir. Odur ki, təsrrüfat rəhbərləi birmənalı olaraq daha çox vaxt və maliyyə vəsaitləri sərf edərək istehlakçıların bazar davranışlarını tədqiq etməyə çalışırlar.

Aqressiv rəqabət mühitinə tab gətirmək üçün təsərrüfat subyektləri vacib hesab edilən başlıca suala cavab axtarırlar: istehlakçılar marketinqin müxtəlif cəlbedici vasitələrinin tətbiqinə necə reaksiya verirlər.

Təbii ki, ticarət əməliyyatlarının aparılması zamanı insanların istehlakçı rolunda çıxış etmələrinin bir proses olaraq araşdırılması seçilmiş tədqiqat işinin aktuallığını əsaslandırır.

Azərbaycanda istehlakçı davranışlarının öyrənilməsində alıcı davranış modellərindən istifadə edilmir. Bu səbəbdən də bu modellərin tətbiqi xüsusiyyətlərindən danışmaq mümkün deyil. Amma alıcı davranışının öyrənilməsi məqsədilə davranış modelləri çərçivəsində aparılan bir çox araşdırmalar vardır ki, Azərbaycan reallıqları üçün alıcı davranışlarının öyrənilməsində əhəmiyyət daşıya bilər. Belə araşdırmaların əsas metodologiyasına və araşdırmalar zamanı əldə edilən nəticələrə uyğun olaraq alıcı davranışını öyrənmək üçün aşağıdakı tədqiqat üsulunu təklif edirik [2].

Fərz edək ki, araşdırma ticarət mərkəzində alış-veriş edən 364 nəfər (bu say statistik üsulla müəyyən edilmişdir) alıcı üzərində aparılmışdır. Bu alıcılar əsasən şampun, sabun, diş məcunu, kosmetik mallar və s. bu kimi təmizlik və gigiyenik məhsulların istehlakçıları olmuşdur. Aylıq alış-veriş edən istehlakçıların ortalama sayı 7000 nəfər müəyyən edilmiş və bu qədər istehlakçı arasından statistik seçmə üsulu ilə aşağıdakı göstəricilərə əsasən alıcıların seçmə sayı (tədqiqata cəlb edilən alıcı sayı) müəyyənləşdirilmişdir (Cədvəl 1).

Cədvəl 1.

Araşdırmada istifadə edilən əsas göstəricilər

Düsturdakı əsas göstəricilər	**Göstəricilərin qiymətləri**
N – baş məcmunun element sayı	7000 nəfər
P və Q – alternativ əlamətlər	P = 0,5 və Q = 0,5
t-nin cədvəl qiyməti	T = 1,96, yəni 95 % etibarlılıqla

Seçmənin orta xətası	H = 0,5 (delta ilə də işarə edilir)

Seçmənin zəruri həcmini hesablamaq üçün düstur

$$n_p = \frac{t^2 pqN}{\Delta^2_x N + t^2 pq^2}$$

Düsturun nəticələrinə görə cavab 364,223 alınmışdır. Sonra seçilən respondentlərə davranış modellərinin əsas davranış amilləri haqqında suallar ümvanlanmışdır.

Həm də, fərz edək ki, araşdırmada iştirak edən respondentlər haqqında aşağıdakı məlumatlar məlumdur:

Cədvəl 2.

Araşdırmaya qatılan respondentlərin demoqrafik (cins) göstəriciləri

İstehlakçının cinsi	**Mütləq və nisbi çəkiləri**
Kişi	185 (nisbi çəki 51 %)
Qadın	179 (nisbi çəki 49 %)
Cəmi	364 (100 %)

Cədvəl 3.

Z.Freydin “psixoanaliz” modeli üzrə araşdırmanin nəticələri

Sual: *Bir məhsul alarkən verdiyiniz qərara hansı amil daha çox təsir edir?*		
Amil	Mütləq say	Nisbi çəki
Rəng	41	11
İy	86	24
Marka-brend	192	53
Mövqeləndirmə-qab	45	12
Cəmi	364	100

Əvvəla bu da qeyd edilməlidir ki, istehlakçı davranışını öyrənmək üçün bu üsuldan əlavə digər üsullar da vardır ki, onların hər birinin də bir sıra zəif çatışmayan yönləri vardır. Marketinqdə istifadə edilən əsas davranış modelləri üzrə

respondentlərə ünvanlanan suallar və alınan nəticələr davranışın öyrənilməsi üçün etalon kimi çıxış edə bilər və belə bir araşdırmanı ölkəmizdə də aparmaq olar.

Davranışı öyrənən marketoloqların əsas görməli olduğu işlərdən biri də əhalinin sosial təbəqələri və onların xüsusiyyətləri haqqında məlumatlı olmaqdır. Məsələn, Azərbaycanda əhalini ən ali, ali, orta ali, kasib, orta kasib,en kasib sosial qruplar ayırmaq olar. Cəmiyyət uzvlərinin sosial təbəqələrə ayrılması marketoloq-lara istehlakçı davranışını muəyyənlədirməyə imkan verir.

İqtisadi ədəbiyyatlarda göstərildiyi kimi, marketinq bu və ya digər dərəcədə bazara aidiyyatı olan insan fəaliyyətidir. Marketinq insan ehtiyaclarının və tələbat-larının ödənilməsi məqsədi ilə mübadilənin baş verməsi üçün bazarla aparılan işdir.

Tanınmış marketoloq-alim F.Kotler marketinqi həm sosial proses, həm də idarəetmə prosesi (bu halda marketinq əmtəə satmaq sənəti kimi xarakterizə olunur) kimi dəyərləndirir və ona aşağıdakı kimi tərif verir: "marketinq ayrı-ayrı şəxslərin və şəxslər qrupunun məhsul və istehlak dəyərləri yaratmaqla və onların qarışılıqlı mübadiləsi vasitəsilə özlərinin ehtiyaclarının və tələbatlarının ödənil-məsi üzrə sosial və idarəetmə prosesidir".

Marketinqin geniş yayılmasına və tətbiq edilməsinə baxmayaraq onun bütün mütəxəssislər tərəfindən qəbul edilmiş vahid tərifi mövcud deyildir (hətta eyni müəlliflər müxtəlif dövrlərdə marketinqə müxtəlif təriflər vermişdir).İqtisadi ədəbiyyatlarda marketinqin 2000-dək tərifi mövcuddur. Bu təriflərdə marketinqin bu və ya digər tərəfi (istehsal, məhsul, satış, istehlakçı, sosial amillər və.s.) əsas götürülür və səhv olaraq ümumi marketinq anlayışı ilə eyniləşdirilir. Bu səbəbdən bəzən marketinq haqqında yalnış fikir və təsəvvürlərə rast gəlinir. Marketinqə bu cür natamam tərif verərkən, həmçinin ümumi məntiq qanunları da pozulur. Məntiq elmindən də məlumdur ki, "tərif verən məfhumla (anlayışla) tərif verilən məfhum (anlayış) ekvivalent olmalıdır". Yəni tərif əhatəli (terminin nəzərdə tutduğu pred-meti tam əhatə etməli) və qapalı (terminin nəzərdə tutduğu predmetdən əlavə pred-metləri əhatə etməməli) olmalıdır. Burada marketinqin predmetinin düzgün müəy-yənləşdirilməsi əsas məsələdir.Məhz bundan sonra həmin predmeti tam əhatə etməyən və ya bu terminin (marketinqin) nəzərdə tutduğu predmetdən əlavə predmetləri əhatə edən tərifi məntiqi cəhətdən səhv tərif adlandırmaq olar [3].

Məlumdur ki, hər bir anlayış (və ya məfhum) müəyyən bir predmet haqqında informasiya verir və bu səbəbdən də anlayışın hansı predmeti təmsil etməsi şərti (etibari) xarakter daşıyır. Buna görə də, qədim yunan alimlərinin də dediyi kimi "terminlərə görə mübahisə etməzlər,razılığa gələrlər" fikrinə əməl etməmək,mənasız mübahisələrə, uzun-uzadı müzakirələrə və nəticədə elmi səhvlərə yol açmışdır.

Qeyd etmək lazımdır ki, marketinq termini öz daşıdığı leksik məna etibarı ilə geniş predmeti əhatə edir. Marketinq termini "cavan" olsa da, onun yerinə yetirdiyi funksiyalar və bu funksiyaların icraçıları hər bir zaman olmuşdur. Marketinq hər zaman mübadilə (bazar) fəlsəfəsi kimi çıxış etmişdir və bu səbəbdən də marketinqi mübadilə (satış) və ya bazar konsepsiyası adlandırırlar.

Marketinq barədə yalnış fikirlərdən ən geniş yayılmışı marketinqin satışla eyniləşdirilməsidir. Marketinq, əlbəttə ki, təkcə satış deyil, o, firmanın (müəssisə və ya istənilən iqtisadi subyektin) mübadilə nəticəsində öz məqsədinə çatmaq (mənfəət və ya fayda əldə etmək) üçün yerinə yetirməli olduğu vəzifənin istehlakçıların tələbatlarının ödənilməsi olduğunu mütləq vurğulayan və bu vəzifənin yerinə yetirilməsinə yardımçı olan bütün işləri-satış da daxil olmaqla istehlakçıların tələbatlarının aşkarlanması və dolğun ödənilməsini əhatə edən, praktiki tətbiq prosesində satışa (mübadiləyə) normativ-metodoloji yanaşmalara (yəni istehlakçı tələbatları hansı yanaşma əsasında və necə ödənilməlidir) da malik olan konsepsiyadır. Marketinq ehtiyacların ödənilməsi üçün azad ticarəti (mübadiləni) qanuniləşdirən (və ya təklif edən), həmçinin bu mübadilənin aparılması üsullarına da malik olub (və ya təklif edib) və eyni zamanda azad mübadilənin ümumi normativ-metodoloji bazası kimi (və ya mübadilə fəlsəfəsi) çıxış edən konsepsiyadır.

Ədəbiyyat siyahısı:

1. İ.Z.Seyfullayev. "Marketinq", dərs vəsaiti, Bakı-2011.
2. A.T.Məmmədov. "Marketinqin əsasları", dərslik, Bakı-2007.
3. F.Kotler."Marketinq menecment".(Rus dilindən tərcümə edən T.İ.İmanov, E.N.Quliyev və X.M.Məmmədyarov), Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2008.

Quluzadə Sabir Bədrəddin oğlu

ATMU-nun müəllimi

Sa.quluzade066@gmail.com

AZƏRBAYCANIN EMAL MÜƏSSİSƏLƏRİNDƏ VALYUTA RİSKLƏRİNİN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə:Məqalədə, müəllif qeyd edir ki, dünya bazarlarında fəaliyyət göstərən və bir neçə valyutadan istifadə edən şirkətlərin mənfəətliliyi valyuta məzənnəsinin fluktuasiyalarına daha.həssasdır.

Beləliklə, şərh olunan Azərbaycanın emal sənayesində istehsalın tempinin azalması ilk baxışdan narahatlıq doğurmayan təbii hal kimi, hətta ölkəmizin doyma həddinə çatma halı kimi dəyərləndirilə bilər.
Açar sözlər: iqtisadi sistem, mənfəət, idxal, ixrac, milli valyuta.

Резюме:В статье, автор отмечает, что рентабельность компаний, работающих на мировых рынках и использующих несколько валют, более чувствительна к колебаниям обменного валютного курса.

Таким образом, снижение производства в перерабатывающей промышленности Азербайджана можно рассматривать как естественное явление, которое на первый взгляд не вызывает беспокойства и может даже рассматриваться как высокое достижение уровня нашей страны.
Ключевые слова: экономическая система, прибыль, импорт, экспорт, национальная валюта.

Summary: In the article, the author notes that the profitability of companies operating in world markets and using several currencies is more sensitive to fluctuations in the exchange rate.

Thus, the decline in production in the processing industry of Azerbaijan can be considered as a natural phenomenon, which at first glance does not cause concern and can even be regarded as a high achievement of the level of our country.
Key words: economic system, profit, import, export, national currency.

Dünya iqtisadi sisteminin artan qloballaşması şəraitində bütün milli iqtisadiyyatlar biznesin gəlirliliyi səviyyəsinin dəyişkənliyinə məruz qalır ki, bu məsələdə də milli valyutanın digər aparıcı valyutalara nəzərən məzənnələrinin dəyişməsi mühüm rol oynayır. Sözsüz ki, xarici iqtisadi əlaqələri olmayan şirkətlər bu təsirə daha az məruz qalır. Lakin bu proses dolayısı ilə də olsa, belə şirkətlərin də mənfəətini azalda bilər. Məsələn, milli valyutanın davamlı möhkəmlənməsi ölkəyə idxalı təşviq etməklə daxildə rəqabəti gücləndirə bilər ki, bu da milli şirkətlərin bazarın müəyyən seqmentinin itirmələrinə səbəb ola bilər [1].

Sözsüz ki, dünya bazarlarında fəaliyyət göstərən və bir neçə valyutadan istifadə edən şirkətlərin mənfəətliliyi valyuta məzənnəsinin fluktuasiyalarına daha həssasdır.

Potensial itkilərin valyuta riski transmilli şirkətlər üçün çox önəmlidir, çünki valyuta gəlirləri şirkətin ümumən maliyyə təsərrüfat göstəricilərinə, o cümlədən, onun həm vətəndə, həm də xarici ölkədə vergi ödənişlərinin məbləğinə əhəmiyyətli təsir göstərir [7]. Bununla əlaqədar olaraq beynəlxalq iqtisadi əməliyyatlarla məşğul olan şirkətlər valyuta risklərinin idarə olunmasının xüsusi üsullarından fəal istifadə edirlər. Təbii ki, şirkətin, onun fəaliyyət göstərdiyi ölkənin və bazarların xüsusiyyətlərindən asılı olaraq istifadə olunan metodlar da dəyişir. Bunlar arasında aşağıdakılar xüsusi əhəmiyyət kəsb edir:

- idxal və ixracın nisbəti;
- şirkətin xarici ticarət əməliyyatlarının xarici bazarlardakı digər əməliyyatlarda payı;
- xaricdə istehsal əməliyyatlarının mövcudluğu;
- beynəlxalq istehsal əməliyyatlarının beynəlxalq təchizat mənbələrindən və şirkətin xaricdə satışlarından asılılığı [2].

Beynəlxalq iqtisadi fəaliyyətlə məşğul olan müxtəlif şirkətlər bu xüsusiyyətlərə malik olub-olmamasından asılı olaraq əsas diqqətini ya valyuta məzənnəsinin dəyişməsinin pul axınına təsirində, ya da balans hesablarının bir valyutadan digərinə keçidində cəmləşdirir, ən təcrübəli və uğurlu şirkətlər isə bu hər iki yanaşmanı kombinə edir [6].

2015-ci ildə Azərbaycanda baş vermiş milli valyutanın kəskin devalvasiyası Azərbaycan şirkətlərinin bu hadisəyə hazır olmadıqlarını göstərdi. Bu dövrdə ölkəyə valyuta gəlirlərində və ÜDM-də ciddi azalmalar neftin qiymətinin kəskin azalması ilə izah olunsa da, bilavasitə postdevalvasiya illərində qeyri-neft ixracı, bəzi seqmentlərdə isə hətta istehsal artmaq əvəzinə azalmışdır. Məsələn, 2014-cü illə müqayisədə 2016-cı ildə marqarinin idxaldan asılılıq səviyyəsi 0,7%-dən 0,9%-dək, meyvə və tərəvəz şirələrinin 19,8%-dən 20,3%-dək, yağlılığı 6 faizdən çox olan süd və qaymağın 3,7%-dən 4,7%-dək, şirinləşdirilmiş mineral və qazlı suların 11,4%-dən 18,6%-dək, ümumən bütün növ mal-qara və quş ətinin 8,1%-dən 12,1%-dək, o cümlədən quş əti və ət məhsullarının 2,1%-dən 20,9%-dək artmışdır [9].


Bundan başqa, demək olar ki, bütün emal məhsullarının istehsalçı qiymətlərində artım baş vermişdir.

Aydındır ki, bu ilk növbədə Azərbaycan şirkətlərinin valyuta məzənnəsi riskinin idarə olunmasında zəifliyinin nəticəsidir. Buna görə də Azərbaycanın emaledici sənayesi timsalında valyuta riskləri üzrə tədqiqatın aparılması xüsusi önəm kəsb edir [5].

Digər tərəfdən yuxarıda qeyd olunan bəzi məhsullar üzrə istehsal və ixracın azalması kimi devalvasiyaya zidd fenomenlərin başqa səbəbləri vardır ki, onların izah xüsusi tədqiqat tələb edir.Azərbaycanda 2015-ci ildə baş vermiş milli valyutanın iki dəfə sıçrayışlı devalvasiyasının (şəkil 1) iqtisadi böhran vəziyyəti yaratması ölkənin karbohidrogen resurslarından asılılığını əyani şəkildə sübut etdi və qeyri-neft sektorunun inkişafı məsələsini kəskin şəkildə gündəmə gətirdi. Eyni zamanda devalvasiyanın bir şirkətə deyil, ümumən emal sənayesinə təsirinin qiymətləndirilməsi, sözsüz ki, xüsusi maraq kəsb edir [8].

Şəkil 1.

Azərbaycan manatının ABŞ dollarına nəzərən məzənnəsinin dinamikası



Holland sindromuna xas olan əlamətlərin uzun illər boyu Azərbaycanda gerçəkləşməsi, o cümlədən emal sənayesinə mənfi təsirinin sahə səviyyəsində öyrənilməsi bütöv bir sahənin valyuta risklərinə həssaslığını qiymətləndirməyə imkan verir ki, belə bir qiymətləndirmə metodikasının işlənib hazırlanması və onun aprobasiya nümunəsi Azərbaycan üçün prioritet sahələrin seçilməsində bir alət kimi istifadə oluna bilər [3].


Biz valyuta məzənnəsinin kəskin sıçrayışı nəticəsində milli emal sənayesi üçün səciyyəvi olan mühüm bir problemi hədəf götürmüşük. İş burasındadır ki, məlum nəzəri fakta görə manatın devalvasiyası Azərbaycanın ixracının artmasına, idxalınınsa azalmasına səbəb olmalı idi. Lakin aşağıda göstərildiyi kimi, bu gözlənti özünü doğrultmadı. Ən mühümü isə emal sənaye məhsullarının ixracında azalmalar baş verdi. Bununla əlaqədar biz bu bölmədə bu gözlənilməz faktın səbəblərini araşdırmaq üçün “emal sənayesində idxal olunan xammalından asılılıq” hipotezini irəli sürərək, onu yoxlamağa çalışırıq [4].

Yuxarıda qeyd etdiyimiz konkretliyi təmin etmək üçün və qeyd olunan hipotezi araşdırmaq məqsədilə biz bu fəsildə tədqiqat obyekti olaraq süd emalı sənayesini seçmişik və bu sahə üçün mühüm xammal olan süd tozunun xarici ölkələrdən idxal olunması faktının valyuta risklərinə təsirini araşdırırıq.

Beləliklə, 2015-ci il fevralın 21-də dolların məzənnəsinin 34,6% artımından sonra emal sənayesində yanvar-iyun aylarında istehsalın artım tempi gözlənildiyi kimi yanvar-mart aylarındakı 4%-lə müqayisədə 4,5dəfə artaraq 18-19% təşkil etmişdir (şəkil 2). Lakin sonrakı dinamika bunun bu göstərici üçün maksimal həddolduğunu aşkarlayır – sonrakı dövrlərdə istehsalın artım tempi sürətlə azalaraq 2016-cı ilin avqust ayında 2015-ci ilin yanvar-mart göstəricisindən də aşağı düşərək sıfıra yaxınlaşmışdır.

Şəkil 2.

Emal sənayesində illik artım tempi və emal sənayesinə verilmiş kreditlər



Bu fenomeni dərk etmək zəruridir.

Əvvəla, qeyd olunması zəruridir ki, sıfır həddinə düşən istehsal deyil, istehsalın artım tempidir və bu, əslində təbii hal ola bilər – bu hal iqtisadi nəzəriyyədə verimliyin azalması qanunu (law of diminishing marginal returns) kimi məlumdur. Başqa sözlə, bunu verimliyin doyması kimi adlandırmaq olar ki, bunun da məğzi ondan ibarətdir ki, hər əlavə qoyulan investisiyanın verimliliyi get-gedə azalır. Makrosəviyyədə bu qanunun ən gözəl təzahürü müxtəlif inkişaf səviyyələrinə malik olan ölkələrdə ÜDM-in (yada salaq ki, ÜDM məhz ölkədəki istehsal səviyyəsini əks etdirən aqreqat göstəricidir ki, bu da mikrosəviyyədə müəssisələrin istehsalının məcmusudur) artım tempinin müxtəlif olmasıdır. Həqiqətən, adambaşına ÜDM-də yüksək səviyyələrə çatmış inkişaf etmiş Şimali Amerika, Avropa və Yaponiya kimi ölkələrdə ÜDM-in artım tempi 2-4% səviyyəsində olduğu halda, Çin, Hindistan, Türkiyə, Braziliya və digər sürətli iqtisadi artım ölkələrində bu göstərici bəzi hallarda ikirəqəmli həddə çatır [9].

Beləliklə, yuxarıda şərh olunan Azərbaycanın emal sənayesində istehsalın tempinin azalması ilk baxışdan narahatlıq doğurmayan təbii hal kimi, hətta ölkəmizin doyma həddinə çatma halı kimi dəyərləndirilə bilər.

Ədəbiyyat siyahısı:

1. Kərimov X. Manatın məzənnəsinin inflyasiyaya ötürücülük qabiliyyəti. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N1, s. 119-132
2. Qasımov A., Kərimov X. Mübadilə məzənnəsinin real sektorun sahələrinə təsiri. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N1, s. 133-143
3. Əlirzayeva T. İnkişaf edən ölkələrdə məzənnə rejimləri və Azərbaycan təcrübəsi. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N2, s. 45-61
4. Ələsgərov A., ƏlirzayevaT. Məzənnə rejimləri və onların seçim meyarları // İqtisadiyyat və Audit jurnalı, 2007, N 11(65)
5. Həsənov T. Məzənnə riskinin hesablanması: Riskə Məruz Dəyər yanaşması. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2013, N2, s. 114-129
6. Zülfüqarov A., Yusıfzadə İ., Məmmədova A. Məzənnə rıskının rıskə məruz dəyər əsasında ölçülməsi. // Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2014, N1
7. Əlıyev N., Qasımov A., Adıgözəlov Ş. İdxal və ixracın tələb və məzənnə elastikliyi. Mərkəzi Bank və İqtisadiyyat jurnalı, 2014, N2
8. Alexander C. Financial Risk Management and Analysis. - Wiley, 1996 - 186 c.
9. www.stat.gov.az

i.e.n dos Əzizov Ramis Nahməd oğlu

Azərbaycan Dövlət İqtisad Universiteti

email:nahmedoglu@mail.ru

Azərbaycanda davamli iqtisadi inkişafin yeni istiqamətləri

Açar sözlər: islahat siyasəti, milli iqtisadiyyat, biznes mühiti, rəqabət qabiliyyətli ölkə, özəl sektor

Key words: reform policy, national economy, business environment, competitive country, private sector

Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmışdır. Nəticədə geniş sahibkarlar təbəqəsi formalaşmış, ölkənin sosial-iqtisadi inkişafında

özəl sektorun rolu daha da artmış və ümumdünya iqtisadi sisteminə inteqrasiya sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır.

Azərbaycan dünyada iqtisadi artım tempinə görə ön sıralarda qərar tutmuşdur. Uğurla həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlər hesabına infrastruktur modernləşdirilmiş, qeyri–neft iqtisadiyyatı inkişaf etdirilmiş, sosial rifah yaxşılaşdırılmışdir.Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuşdur.

Dövlət idarəetməsi dövlətin sosial-siyasi funksiyası olub, ictimai həyatın bütün sferalarının tənzimlənməsində, davamlı inkişafın, rifah və məmnunluq səviyyəsinin təmin olunmasında, peşəkar və səmərəli dövlət qulluğunun formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Genezisinə görə spesifik fəaliyyət növü olan idarəetmə tələbatların və fəaliyyət formalarının uzlaşdırılması vasitəsilə inkişaf proseslərinin tənziminə yönələn xüsusi sosial funksiya kimi hər dövrün öz obyektiv zərurətindən irəli gələn modellər və metodlar əsasında həyata keçirilir.

İslahat siyasətinin başlıca məqsədləri iqtisadiyyatın gələcək inkişafı və dirçəlişi, bazar iqtisadiyyatı sisteminin bərqərar olması və normal fəaliyyəti üçün təməl şərtlərinin yaradılması hesab edilmişdir. Bununla yanaşı konkret məqsədlər aşağıdakılar elan edildi:

- İqtisadiyyatın liberallaşdırılması, xüsusi mülkiyyətçilər təbəqəsinin və azad sahibkarlığın inkişaf etdirilməsi;

- İstehsalın səmərəliliyinin və milli gəlirin artımının həlledici amili kimi mülkiyyətin səmərəli strukturunun yaradılması;

- İqtisadiyyatın strukturunun yenidən qurulması, inhisarsızlaşdırılma və rəqabət mühitinin formalaşdırılması zəminində iqtisadi səmərəliliyin yüksəldilməsi;

- Müəssisələrə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi;

- Əhlinin həyat səviyyəsinin və sosial rifahının yaxşılaşdırılması.

Son 15 ildə bütün sahələrdə böyük uğurlar qazanılmış, Azərbaycanın maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması, sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması Azərbaycanın dünyada nüfuzunun daha da artmasına, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsinə, əhalinin həyat səviyyəsinin davamlı olaraq yaxşılaşdırılmasına səbəb olmuşdur. Ölkə bölgələrinin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir.

Davamlı iqtisadi islahatlar çərçivəsində bu siyasət qlobal iqtisadi çağırışlara uyğun müasir konseptual yanaşmalarla daha da təkmilləşdirilmiş, strateji məqsədlərə uyğun sərbəst bazar münasibətlərinin və özünüinkişaf qabiliyyətinə malik sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması təmin edilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri-neft sahələrinin və bütövlükdə regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.
Bununla əlaqədar olaraq, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş, habelə həmin istiqamətlərə müvafiq olaraq inkişaf planlarının işlənilməsini təmin etmək üçün müvafiq Işçi qrupu yaradılmışdır.

Həmin Sərəncama əsasən, Işçi qrupu yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələrini hazırlamışdır. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir.

Davos İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görməsi sübut edir ki, iqtisadi islahatlar bəhrəsini verir və 2018-c il sürətli iqtisadi inkişaf ili olacaq. Qısa müddət ərzində ölkədə aqroparkların yaradılmasına 1 milyard manatdan çox vəsait ayrılıb. Azərbaycanda ümumilikdə 1,2 milyard manat məbləğində 38 aqropark yaradılıb. 12 rayonda 14 heyvandarlıq kompleksinin və 17 rayonda 24 taxıl təsərrüfatının tikintisi üzrə işlər davam edir.

Sahibkarlığı inkişaf etdirmək, əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaları cəlb etmək, qeyri-neft sektorunun inkişafına nail olmaq bu mərhələdə həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmış, özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında rolu daha da artmışdır. Azərbaycanda sahibkarlığa, xüsusilə də kiçik və orta sahibkarlığa göstərilən dövlət dəstəyi daxili və xarici sərmayələrin cəlb edilməsinə geniş imkanlar yaradıb. "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2016-cı il tarixli Sərəncamından sonra isə bu sahədə işlər daha da sürətləndirilib. Qısa müddət ərzində ölkədə rəqabət prinsiplərinə əsaslanacaq əlverişli biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi ilə bağlı kompleks tədbirlər həyata keçirilib.

Bundan əlavə regional enerji əməkdaşlığı məsələsi artıq ön plandadır. Bu sahədə İƏT Regional Elektrik Bazarının yaradılması kimi indiyədək bir sıra müsbət nailiyyətlər əldə edilib. Davamlı enerji layihələrinin təşəbbüsü və həyata keçirilməsi vasitəsilə Azərbaycan özünü etibarlı enerji təchizatçısı kimi tanıdıb və Asiya və Avropa arasında mühüm körpüyə çevrilib. Bu gün Azərbaycan Avropada ən böyük infrastruktur və enerji layihələrindən biri olan Cənubi Qaz Dəhlizi (CQD) və onun Xəzər hövzəsindən Avropaya karbohidrogen nəqlini nəzərdə tutan digər 2 əsas hissələrinin – Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəmərinin (TAP) əsas təşəbbüskarlarındandır. Bu enerji layihələrinin reallaşdırılması enerji mənbələrinin diversifikasiyasını, eyni zamanda regionda və kənarda nəqliyyat və enerji təchizatının təhlükəsizliyini artıracaq.

Beləliklə, demokratik dəyərlərə əsaslanan yeni ictimai münasibətlər sistemində müasir modellərdən bəhrələnməklə yanaşı, milli-tarixi dövlətçilik ənənələrinə, milli idarəçilik təliminə və maraqlara uyğun formalaşdırılan yeni idarəetmə modeli xalqa xidmətin, şəffaf və səmərəli idarəetmənin konseptual əsaslarını yaratmağa istiqamətlənmişdir. İslahatların mühüm konseptual innovasiyası mütərəqqi modellərin müsbət cəhətlərini siyasi varisliklə, milli maraqlarla uyğunlaşdırılmaq və tətbiq etmək vətəndaşa yönümlü modern idarəetmə modelinin formalaşdırılmasında ifadə olunur. Respublikamızda yeni inkişaf mərhələsinin mühüm təminat şərti kimi təsbit olunan səmərəli dövlət idarəetməsinin qurulmasına yönələn dövlət siyasətinin mərkəzində vətəndaş durur, onun məmnunluğu dövlət xidmətlərinin keyfiyyət və asanlığının əsas göstəricisi hesab olunur, şəffaflığın təminatı, kadr potensialının zənginləşdirilməsi ictimai həyatın bütün sahələrinin dinamik inkişafı ilə eyni ahəngdə uğurla davam etdirilir

Summary

The study focuses on the policy of reforms in Azerbaijan. The adopted programs and their economic results are considered. The influence of international projects on the economy of the country was also studied.

İstifadə edilmiş ədəbiyyat

1. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi”

3. www.president.az Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı

4. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası

5. www.stat.gov.az Dövlət Statistika komitəsinin rəsmi saytı

Texnoloji innovasiyalar və onların Azərbaycan iqtisadiyyatına tətbiqi

İqtisad üzrə fəlsəfə doktoru, dosent Rəşad Akif oğlu Səfərov

Azərbaycan Dövlət İqtisad Universiteti

safarov_rashad@mail.ru

İnkişaf etmiş ölkələrin təcrübəsində iqtisadi inkişafın prioritetlərindən biri kimi innovasiyalardan istifadə çıxış edir. İnnovasiyalardan istifadə iqtisadi inkişafı sürətləndirdiyi üçün onların iqtisadiyyata tətbiqi dövlətin innovasiya siyasətinin əsas tərkib hissələrindəndir. Ölkəmizdə dayanıqlı inkişafa nail olunması da məhz iqtisadi, idarəetmə, istehsal və digər sahələrdə innovasiyalardan o, cümlədən texnoloji innovasiyalardan istifadəni olduqca vacib edir.

Azərbaycanda innovasiyalı iqtisadi inkişafın bəzi istiqamətləri və tərkibi "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiysında öz əksini tapmışdır. Konsepsiyada bildirilir ki, ölkədə innovativ iqtisadiyyatın yaradılması məqsədi ilə elm və istehsal arasındakı əlaqələr gücləndiriləcək, innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirləri reallaşdırılacaq və müvafiq qanunvericilik bazası yaradılacaqdır.

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiysında Azərbaycanda milli innovasiya sisiteminin yaradılması, iqtisadiyyatın texnoloji innovasiya əsasında müasirləşdirilməsi innovasiya fəaliyyətinin əsas məqsədinə yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatlarda texnoloji innovasiya haqqında müxtəlif baxışlar mövcuddur. Texnoloji innovasiya - əmək məhsuldarlığının artırılmasına, enerjiyə, xammala və başqa ehtiyatlara qənaət edilməsinə yönəldilmiş istehsal prosesidir və öz növbəsində firmanın gəlirinin artmasına, təhlükəsizlik texnikasının yeniləşdirilməsinə, ətraf mühitin müdafiəsi üçün tədbir keçirilməsinə, firmadaxili informasiya sistemindən effektli istifadə edilməsinə imkan verir [1, 11].

İnnovasiya sahəsində Rusiyalı tədqiqatçılardan N.D.Kondratyev ilk dəfə olaraq yeni texnologiyalardan, istehsal amillərinin yeni kombinasiyalarından və s. istifadə etməklə yeni məhsulun yaradılması ilə bağlı olan ictimai istehsalın dalğavari xarakterini göstərmiş onu beş mərhələyə bölmüşdür [2, 210].

Digər Rusiyalı tədqiqatçı S.Y.Qlazev "Texnoloji yığım" konsepsiyasını işləyib hazırlamış və beş texnoloji yığım müəyyənləşdirmişdir. Texnoloji yığım – texnoloji qrupların cəmidir, bir – biri ilə əlaqəlidir və məqsədin həyata keçirilməsini təmin edir [3, 10].

Hazırda sənayecə inkişaf etmiş ölkələr innovasiyaların müxtəlif növlərinin yaradılması və istehsala tətbiqi kimi novatorluq fəaliyyətinə malikdirlər. Bu da onu deməyə imkan verir ki, artıq dünya V texnoloji yığım mərhələsindədir.

Praktik olaraq ölkə səyanesi də yeni texnoloji dövrün tələblərindən səmərəli istifadə etmək inmkanı qazanmışdır. Məlumdur ki, son onilliklərdə inkişaf etmiş sənaye ölkələrin iqtisadi inkişafının əsasını məhz texnoloji innovasiyalar təşkil edir. Buradan da aydın olur ki, istənilən iqtisadi dövrün, iqtisadi inkişafın arxasında innovasiya dayanır.

İnnovasiya tədqiqatçılarından A.E.Mindeli və V.P.Zavaruxin qeyd edirlər ki, XXI əsr hər bir ölkənin texnoloji təhlükəsizliyi elmi – texniki potensialla, hər şeydən əvvəl fundamental elmin səviyyəsi, kadrların ixtisası və innovasiya potensialı ilə müəyyən olunacaqdır [4, 55]

Bu baxımdan hər bir ölkənin iqtisadi inkişafının səciyyəvi xüsusiyyəti yeni texnologiya və idarəçilik üsullarının ölkədə tətbiqi ilə innovasiya potensialının artırılmasına nail olunmasıdır.

İnnovasiya proseslərinin aktuallığı onların yalnız iqtisadi məzmunu ilə deyil, ümummilli əhəmiyyəti ilə də izah olunur. Bununla belə klassik bazar münasibətləri şəraitində rəqabətin üstünlük təşkil etdiyi bir şəraitdə elm və texnikanın müasir nailiyyətlərinin innovasiya potensialı hökumətin müdaxiləsi olmadan tam istifadə oluna bilməz.

İnnovasiya potensialı anlayışı alimlərin tədqiqatlarında araşdırılsa da onun inkişafına diqqət XX əsrin 80-ci illərindən başlayaraq artırılmışdır.

Bu baxımdan iqtisadi ədəbiyyatlarada innovasiya potensialı anlayışına yanaşma birmənalı deyildir. İqtisadi potensialın tərkib hissəsi kimi innovasiya potensialı – məhsuldar qüvvələrin və istehsal münasibətlərinin qarşılıqlı əlaqəsinin mürrəkəb mexanizmi ilə müəyyən edilir. Bu baxımdan innovasiya potensialı bir tərəfdən, innovasiya fəliyyətinin həyata keçirilməsi üçün lazım olan müxtəlif ehtiyyatların məcmusudur; digər tərəfdən isə təkrar istehsal prosesində innovasiya fəaliyyətinin həyata keçirilməsinə müştərək innovsiya qabiliyyətinin formalaşdırılması üçün müxtəlif təsərrüfat fəaliyyəti subyektlərinin iqtisadi münasibətlərinin sistemidir.

İnnovasiya potensialı innovasiya fəaliyyəti və innovasiya aktivliyi vasitəsilə reallaşdırılır [5, 9]. Bu baxımdan Respublikamızda fəaliyyət göstərən işgüzar təşkilatların innovasiya fəaliyyətinin öyrənilməsi, ölkəmizin iqtisadi inkişafında yeni texnologiyalırın tətbiqi səviyyəsini, həmçinin innovasiya potensialında

texnoloji innovasiyaların mövcud vəziyyətini müəyyən etməyə imkan verərər. Bu məqsədlə xaricdə və ölkəmizdə texnoloji innovasiyalardan istifadə imkanlarına diqqət yetirmək lazımdır.

Onu da qeyd etmək lazımdır ki, xarici təxrübədə menecmentin təşkilati hüquqi formalarının innovasiya potensialı müəyyən dərəcədə ümummilli m
məhsulda elmi-tədqiqat işlərinə çəkilən xərclərin maliyyələşdirilməsi ilə müəyyənləşdirilir. Bu pay qabaqcıl sənaye ölkələrində 3%-ə qədər təşkil edir [3, 12].

İnnovasiyalarən maliyyələşdirilməsi zamanı dövlət tərəfindən ayrılan xərclərə gəldikdə isə inkişaf etmiş ölkələrin təcrübəsində bu vəsait elmi-texniki tərəqqiyə ayrılan bütün xərclərin 20-50%-ni əhatə edir və bu zaman fundamental tədqiqatlar üçün bu pay 70% və bundan artıq təşkil edir.

Ümummilli investisiya layihələrinin həyata keçirilməsində və maliyyələşdirilməsində inkişaf etmiş ölkələrin tutduğu yerə diqqət yetirsək Böyük Britaniya digər ölkələri geridə qoymuşdur (cədvəl 1).

Belə ki, sənayecə inkişaf etmiş ölkələrdən innovasiya layihələrinin dövlət tərəfindən maliyyələşdirilməsində Böyük Britaniya 52,1 faiz, İtaliya, ABŞ, Fransa, Kanada 40 faizdnən yuxarı, Almaniya 37,1 faiz, Yaponiya isə 19,6 faizə malik olmuşdur. Dövlət tərəfindən maliyyələşdirilən layihələrin ABŞ-da və Yaponiyada 10 faizi, Böyük britaniya, Almaniyada və Kanadada 20 faizə qədəri, Fransa və İtaliyada isə 20 faizdən çoxu dövlət müəssisələri tərəfindən həyata keçirilmişdir [6, 156-157].

Cədvəl 1.

Ümummilli investisiya layihələrinin həyata keçirilməsində və maliyyələşdiriməsində dövlətin tutuduğu yer, %-lə

№	Ölkələr	Maliyyələşmə	Dövlət müəssisələrində həyata keçirilən

1	ABŞ	47,1	10,0
2	Yaponiya	19,6	10,0
3	Almaniya	37,1	15,2
4	Fransa	45.7	20,2
5	Böyük Britaniya	52,1	13,8
6	İtaliya	49,9	21,5
7	Kanada	42.6	18.1

Science and engineering Indicators-1996.-National Science Boord.- Washington

ABŞ-da elmi tədqiqatların maliyyələşdirilməsinin tərkibində büdcə vəsaitlərini əsas alanlar həm dövlət elmi-tədqiqat mərkəzləri, həm də xüsusi firmalardır (cədvəl 2). 1995-ci ildə ABŞ-da elmi tədqiqatların büdcədən maliyyələşdirilməsinə 60,7 milyard dollar vəsait ayrılmışdır. Bu maliyyələşmə 1975-ci ilə nisbətən 42,6 milyard dollar artırılmışdır. Büdcədən maliyyələşmənin tərkibində ən çox vəsait xüsusi sektora 22,1 milyard dollar, yəni 36,4 faiz ayrılmışdır, sonrakı yerlərdə isə federal hökumət 16,7 milyard dollar, yəni 27,5 faiz, universitetlər 13 milyard dollar, yəni 21,5 faiz federal universitetlər mərkəzi 5,3 milyard dollar, yəni 8,7 faiz, digərləri isə 3,6 milyard dollar, yəni 5,9 faiz paya malik olmuşdur [6, 104-107].

Cədvəl 2.

ABŞ-da elmi tədqiqatların büdcədən maliyyələşdirilməsinin tərkibi

Maliyyələşdirmənin tərkibi	1975-ci il		1995-ci il	
	Milyard dollar	%	Milyard dollar	%
Fedral elmi büdcə, cəmi	18,1	100,0	60,7	100,0
Onlardan labaratoriyaya daxil olanlar: Federal hökümət	5,4	29,9	16,7	27,5

Xüsusi sektor	8,6	47,5	22.1	36,4
Universitetlər	2,3	12.7	13,0	21,5
Federal universitetlər mərkəzi digərləri	1,0	5,5	5,3	8,7
	0,8	4,4	3,6	5,9

Science and engineering Indicators-1996.-National Science Boord.- Washington

Azərbaycanda texnoloji innovasiyaların maliyyələşdirilməsin tərkibini müəyyənləşdirmək və bu dinamikanın inkişaf etmiş ölkələrin təcrübəsi ilə müqayisə etmək üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına diqqət yetirək (Cədvəl 3). Azərbaycan sənayesində fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyaların maliyyələşdirilməsi statistik göstəricilərdə öz əksini tapmışdır. Belə ki, 2013-2016-cı illərdə bütün sənaye üzrə texnoloji innovasiyalara 98,5 milyon manat xərc çəkilmişdir. Bu maliyyələşmənin tərkibində müəssisələrin öz vəsaiti hesabına çəkilən xərclər 82,6 milyon manat, dövlət büdcəsi hesabına çəkilən xərclər 551,2 min manat, xarici investisiyalar hesabına çəkilən xərclər 11,8 milyon manat və sair vəsaitlər hesabına çəkilən xərclər isə 3,6 milyon manat olmuşdur. Cədvəl 3-dən göründüyü kimi ölkəmizdə texnoloji innovsiyaların maliyyələşdirilməsi müəssisələrin öz vəsaiti hesabına və xarici investisiyalar hesabına həyata keçirilmişdir. 2013-2016-cı illərdə müəssisələrin öz vəsaiti hesabına texnoloji innovasiyalara 82,6 milyon manat xərc çəkilmişdir ki, bu da bütün səyaye üzrə innovasiyalara çəkilən xərclərin 83,8%-ni təşkil etmişdir. 2013-2016-cı illərdə bütün sənaye üzrə texnoloji innovasiyalara çəkilən xərclərdə dövlət büdcəsi xərcləri 0,6%, xarici investisiya xərcləri 12%, sair xərclər isə 3,6% paya malik olmuşdur.

Cədvəl 3.

Azərbaycanda fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat

	2013	2014	2015	2016	2013-2016-cı illərdə cəmi:
Bütün sənaye	**13877**	**21534**	**35179**	**27929**	**98519**
müəssisələrin öz vəsaiti hesabına	12377	21133	34779	14287	82576
dövlət büdcəsi	551,2	-	-	-	551,2
xarici investisiyalar	-	-	-	11808	11808
sair	949,1	400,6	399,9	1834	3583,6

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Statistik təhlil onu göstəriri ki, inkişaf etmiş ölkələrin təcrübəsində olduğu kimi Azərbaycanda da texnoloji innovasiyalara çəkilən xərclərin dinamikasında müsbət dəyişikliklər müşahidə olunmaqdadır. ABŞ-dan fərqli olaraq Azərbaycanda texnoloji innovasiyaların maliyyələşdirilməsində müəssisələrin öz vəsaiti xüsusilə diqqət mərkəzindədir. Bu isə öz növbəsində büdcə vəsaitləri hesabına texnoloji innovasiyalara çəkilən xərclərin tərkibində dövlətin rolunu aktuallaşdırır. Ümumilikdə, təhlil onu göstərir ki, Azərbaycanda texnoloji innovasiyalar aşağıdakı maliyyə mənbələrinin vəsaitlər hesabına həyata keçirilir (7, 94-95):

1. Müəssisələrin öz vəsaitləri
2. Dövlət büdcəsi vəsaitləri
3. Xarici investisiyalar

Ədəbiyyat siyahısı

1. В.Г.Медынский, Л.Г.Скамай. «Инновационный предпринимательство». Москва 2002
2. Н.Д. Кондратьев. Проблемы экономической динамики. Москва Экономика, 1984

3. H.M.Авсянников. «Инновационный менеджмент». Москва, Издательство Университета Дружбы Народов, 2002
4. A.E. Миндели., В.П.Заварухин. Международное аспекты Российской инновационной политики «Мировая экономика и международное отношения» №5, 2001
5. A.D.Hüseynova. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: Elm və təhsil, 2013, 386 s.
6. Science and engineering Indicators-1996.-National Science Boord.-Washington,
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları. Azərbaycan sənayesi, statistik məcmuə 2017

XÜLASƏ

Konfrans materialında bazar münasibətləri şəraitində iqtisadi inkişafın prioritetlərindən biri kimi texnoloji innovasiyalar və onların Azərbaycan iqtisadiyyatına tətbiqi əks etdirilmişdir. İnnovasiyalardan istifadə iqtisadi inkişafı sürətləndirdiyi üçün onların iqtisadiyyata tətbiqi dövlətin innovasiya siyasətinin əsas tərkib hissələrindəndir. Ölkəmizdə dayanıqlı inkişafa nail olunması da məhz iqtisadi, idarəetmə, istehsal və digər sahələrdə innovasiyalardan o, cümlədən texnoloji innovasiyalardan istifadəni olduqca vacib edir.

Baxdığımız konteksdə ölkə iqtisadiyyatının prioriteti kimi işgüzar təşkilatlarda innovasiyalardan istifadəyə maragın artırılması ilə texnoloji innovasiyaların iqtisadiyyata tətbiqinin sürətləndirilməsidir.

SUMMARY

The conference material reflects technological innovations and their application to the Azerbaijani economy as one of the priorities of economic development in the context of market relations. Because innovation has accelerated economic development, their application to the economy is one of the main components of the state's innovation policy. The achievent of SD in our country

makes innovation usage extremely important in economical, management, manufacturing and other areas, including technological innovations.

In the context we see as the priority of the country's economy is the acceleration of application of technological innovations to the economy by raising the interest in innovations in business organization.

Açar sözlər

İnnovasiya, idarəetmə, texnoloji innovasiyalar, innovasiya potensialı, innovasiyaların maliyyələşməsi

Səfərov Rəşad Akif oğlu

Azərbaycan Dövlət İqtisad Universitetinin "Menecment" kafedrasının müəllimi

Dosent İqtisad üzrə fəlsəfə doktoru

Rəsmiyyə Varış qızı Şirinova

AMEA-nın İqtisadiyyat İnstitutunun

"İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsinin böyük elmi işçisi

e-mail: res.qedirova@mail.ru

AQRAR SEKTORDA TƏSƏRRÜFAT FORMALARININ FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ

İqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq və iqtisadi inkişafın kənd yerlərində daha çox yayılmasını təmin etmək və bunun üçün lazımı tədbirlər görməkdi. Ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqlarını təmin etmək və lazımı şərait yaratmaq lazımdır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində həyata keçirilən dövlət tədbirləri ilə yanaşı, ərzaq məhsullarının istehsalçıları, emalçılar, ərzaq məhsullarının ticarəti ilə məşğul olan təsərrüfat subyektlərinin üzərinə də böyük məsuliyyət düşür. İstehlakçılar və istehsalçılar öz fəaliyyətlərində qida məhsullarinin təhlükəsizliyini əsas tutmalı, sağlam ərzaq məhsullarının çatdırılmasını təmin etməlidilər.

Əhalinin yerli, ekoloji təmiz, yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi, yeni nəslin sağlamlığı dövlətçilik prinsiplərinin əsas qayələrindənbiridir. Bütün bunlar kənd təsərrüfatında yeni münasibətlər yaratmaq, müxtəlif təsərrüfat

formalarının yaradılmasını gücləndirmək, sahibkarlığı inkişaf etdirmək istiqamətində əsas və həlledici addım hesab olunur.

Ölkəmizdə təsərrüfatçılıq formalarının fəaliyyətinin inkişafı sahəsində ardıcıl həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatın bu sahəsinin inkişafı üzrə qarşıya qoyulmuş əsas vəzifənin - ərzaq təyinatlı məhsullarla özünü təminetmə səviyyəsinin yüksəldilməsində dövlətin son illərdə qayğısı göz qabağındadı. Buda son nəticədə təsərrüfat fəaliyyətinin inkişafina təkan verir, istehlakının çoxalmasına şərait yaradir.

İrəliləyişlər qarşıda duran problemlərin həlli əsas ərzaq məhsulları ilə tam özünü təminetməyə nail olunması ilə bitmir. Yaranan təsərrüfatların genişlənməsinə iş yerlərinin açılmasına fermerlərin aqrar sahədə əlaqələrinə gətirıb çıxarır.

Milli ərzaq təhlükəsizliyi baxımından xüsusi önəmi olan bəzi məhsullar, ilk növbədə taxıl məhsulları ilə özünütəminetmə səviyyəsi zəruri tələblərdən aşağı olaraq qalmaqdadır. Bunun üçün də taxıl istehsalçılarının (fermer təsərrüfatları,ailə təsərrüfatları və s.) Milli İqtisadiyyatın inkişafında və ölkənin ərzaq məhsulları ilə təmın olunmasında əvəzsiz yeri olduqları haqqında elmi seminarlarda iştirak etmələrinə cəlb etmək və bu seminarları təşkil etmək lazimdır.

Prioritet istiqamətlər üzrə həyata keçirilən tədbirlər müvafiq sahələrdə nisbətən yüksək artım templərinə gətirib çıxarıb, bəzi mühüm məhsulların daxili istehsalına nail olunub.

İstiqamətlər üzrə təmin olunan artım miqyasları bütün hallarda müvafiq məhsullara əhalinin dinamik olaraq yüksələn tələblərinə uyğun gəlir. Bunun nəticəsində bəzi məhsullar üzrə özünütəminetmə səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi (süd və süd məhsulları, ət və ət məhsulları, konservləşdirilmiş istər tərəvəz istər meyvə) idxalın qarşısı nisbətən alınmışdır. Bu istiqamətdə proseslərin davam etməsi milli ərzaq təhlükəsizliyi göstəricilərinin qənaətbəxş olmasını göstərir.Ərzaq təhlükəsizliyinə nail olma təkcə dövlət qayğısı ilə bitməməli ayri- ayri sahələrin investisiya qoyuluşunu da tələb edir.

Məsələn ət və ət məhsulları, süd və süd məhsullar, meyvə tərəvəz istehsalçıları yerli təsərrüfatlarla müştərək işlər görməlidir. Buda fermerlərdə stimul yaradar, istehsal etdikləri məhsulların yerindəcə alıcısı ilə müqavilələr imzalayar.

Sahələrdə artımın stabilləşməsi və sürətləndirilməsi dövlət siyasəti çərçivəsində və ASK-ləri ilə yerinə yetirilər.Aqrar islahatların əsasları haqqında, Torpaq islahatı haqqında Qanunların və digər normativ-hüquqi aktların icrasını çətinləşdirən mövcud ziddiyyətli məqamlar, boşluqlar, formallıqlar aradan qaldırılmalı, real vəziyyətə uyğunlaşdırılmaqla yenidən işlənilməlidir. Bununla belə,

Taxıl haqqında, Üzümçülük və Şərabçılıq haqqında, Pambıq haqqında qanunların, habelə elmi əsaslandırılmış və sosial ədalətə təminat verən digər qanunverici aktların hazırlanması nəzərdə tutulur.

Müasir mərhələdə ölkəmizdə aqrar sahənin dünya iqtisadiyyatına inteqrasiyasının ardıcıl surətdə genişləndirilməsi prosesinin getdiyini söyləmək mümkündür. Təzə halda və ilkin emaldan keçmiş əkinçilik və heyvandarlıq məhsullarının ixracının dəyər ifadəsində həcminin kənd təsərrüfatının ümumi məhsulunda xüsusi çəkisi post islahat dövründə ardıcıl surətdə yüksəlmişdir. Başqa sözlə, aqrar sahədə açıq iqtisadiyyat çərçivəsində qloballaşma meyillərinin genişlənməsi tələblərinə uyğun inkişaf xətti reallaşdırılmaqdadır.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda qoyulmuş hədəflərə çatmağın zəruri şərtinə çevrilər.

Kənd təsərrüfatının ümumi inkişafında zəruri stabilliyin təmin edilməsi və həllini tapması vacibdir. Əhalinin ərzaq məhsulları ilə etibarlı təmin edilməsi strategiyasının davamlı reallaşdırılması yolunda görülən işlər öz əksini tapmaqdadır. Bu baxımdan həmin problemin həlli də təsərrüfat formalarının inkişafının strateji vəzifələri sırasında özünə yer alır.

Təsərrüfat formalarının inkişafında digər mühüm meyl kənd təsərrüfatının qlobal iqtisadiyyata inteqrasiyası istiqamətində irəliləyişlərin baş verməsi ilə səciyyəvidir. İstehsal sahələri üzrə aqrar istehsalın ixrac potensiyalı inkişaf etdirilmişdir. Kənd təsərrüfatı məhsulları və sahənin məhsullarının emalından alınan ərzaq məhsulları və içkilərin ixracının dəyər ifadəsində həcmi post islahat dövründə sürətlə çoxalmışdır. 2000-2012-ci illər ərzində bu göstərici 9.2 dəfə artmışdır. İqtisadiyyatın qeyri-neft sektoruna aid məhsulların ixracının ümumi həcmində aqrar –sənaye məhsullarının yüksəlmişdir.İxracın ümumi sürətli artımı fonunda ayrı-ayrı məhsullar üzrə fərqli dinamika müşahidə edilir. Istər xammal istər emal olunmuş məhsulların son illərdə ixracı dəfələrlə artmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və istehsal infrastrukturunun mövcudluğu iqtisadiyyat üçün xarakterikdir. Kənd təsərrüfatında iqtisadi inkişafın dəstəklənməsi üçün ayrı-ayrı iqtisadi sahələrin və onların infrastrukturlarının kompleks şəkildə inkişafı təmin olunmaqdadır. Nəzərə almaq lazımdır ki, Azərbaycanın iqtisadi rayonlarında istehsal infrastrukturunun inkişaf imkanlarının ciddi tərəddüdü regional xüsusiyyətlərlə bağlıdır.

Kənd təsərrüfatı istehsalçılarının qismən vergilərdən azad edilməsi, torpaq vergisinin sadələşdirilməsi və azaldılması məqsədyönlü və ədalətli islahatların aparılması, düzgün maliyyə-kredit və investisiya siyasəti ilk növbədə kənd adamlarının işlə təmin edilmələrinə bu isə kəndin sosial dirçəlişinin əsasının qoyulmasına şərait yaradacaqdır.

Kəndlərdə yol, rabitə, elektrikləşmə, qazlaşdırma, istirahət və sağlamlıq obyektlərinin tikintisi və yenidən təşkil edilməsi ilə əlaqədar Beynəlxalq maliyyə qurumlarının da iştirakı təmin edilməklə layihələrin hazırlanmışdır və həyata keçirilməkdədir. Kənd təsərrüfatı istehsalçılarına və onların ailə üzvlərinə dövlət büdcəsi hesabına güzəştli tibbi xidmət və pulsuz orta təhsil təminatının verilməsi, kəndlərdə xalçaçılıq, dulusçuluq, digər xalq sənəti sahələrinin dirçəldilməsi istiqamətində tədbirlərin hazırlanıb həyata keçirilməsi vacibdir.

Bölgələrində fəaliyyət göstərən istehsal sahələrinin inkişafına uyğun olaraq yeni təsərrüfat formaları mövcuddur. Burada iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı təşkil edir. İqlim və torpaq şəraitinin əlverişli olması bu iqtisadi rayonlarda bitkiçilik və heyvandarlıq məhsullarının yetişdirilməsi və məhsuldarlığının artırılmasına öz təsirini göstərmişdir. Nəqliyyat, coğrafi mövqe sahələrin inkişaf etdirilməsində mühüm yer tutur. Son vaxtlar inkişaf etmiş nəqliyyat infrastrukturunun mövcudluğu kənd təsərrüfatı məhsullarının xarici ölkələrə daşınmasını sürətləndirmiş, nəticədə bölgə əhalisinin ümumi iqtisadi vəziyyətini xeyli yaxşılaşdırmışdır.

Təsərrüfat formalarının inkişaf etdirilməsi, emal sənayesinin müxtəlif sahələrinin inkişafına səbəb olmuşdur. İqtisadi rayonun mərkəzindən keçən yollar şəbəkəsi ölkənin ayrı-ayrı iqtisadi rayonlarını bir-biri ilə əlaqələndirir. Bazar iqtisadiyyatına keçid dövründə yaranmış olan çətinliklər ucbatından üzüm və pambıq istehsalı bir qədər azalmış, aparılan sistemli tədbirlər hesabına heyvandarlıq məhsulları, taxıl və bostan-tərəvəz məhsulları istehsalı artmışdır.

Yeni təsərrüfatçılıq formalarının inkişafına göstərilən dövlət himayəsi son illərdə kənd təsərrüfatı məhsullarının istehsalının inkişafına öz təsirini göstərir:

- sahələrə maliyyə vəsaitinin ayrılması mexanizminin təkmilləşdirilməsi investisiyaların fəal cəlb edilməsi, bununla bərabər həmin ərazilərdə yeni texnikanın, müasir texnologiyaların geniş tətbiqi;

- regionlarda mövcud olan aqrar sənaye sahələrinin günün tələblərinə uyğun yenidən qurulması və istehsal gücünün artırılması;

- regionlarda müasir tipli elektrik stansiyaların, yolların, kommunikasiya xətlərinin və digər infrastruktur obyektlərinin inşası, yenidən qurulması və inkişafı layihələrinin həyata keçirilməsi.

Regionlarda istehsal infrastrukturunun mövcud problemlərinin aradan qaldırılması və «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» çərçivəsində nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi, 2009-2013-cü illər üzrə müvafiq proqramın icrası ölkənin iqtisadi inkişafında, əhalinin məşğulluğunun artırılması və rifah halının yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi Dövlət proqramı çərçivəsində həyata keçirilir. İstər daxili, istərsə də xarici bazarın orqanik məhsullara tələbatını nəzərə alsaq, həm sahibkarların həm dövlətin qarşısında duran mühüm vəzifələrdən biridirki, istehsal amilini gücləndirsinlər.

Dövlət kənd təsərrüfatı istehsalçılarının istehsal infrastrukturunun inkişafina kömək məqsədi ilə vergi siyasəti, dotasiya, subsidiyaların təkmillşdirilməsini irəli sürməli və tezləşdirməlidir. Bu da kənd təsərrüfatı istehsalçılarının stimullaşdırar və yeni təsərrüfat formalarının yaradılmasına zərurət yaradar. Şəhərə axının qarşısı alınar kəndlərdə və rayonlarda iş yerlərinin sayı artar və ixtisasli kadrlara tələbat artar. İstər ali, istərsə orta ixtisas sahibləri işlə təmin olunmuş olar.

Təsərrüfat subyektlərinin bir-biri ilə rəqabət aparmaması, fəaliyyətlərində ümumi maraqların formalaşmaması, ümumilikdə, aqrar sahədə kooperasiya tipli istehsal münasibətlərinin inkişafını da ləngidib. Əslində, belə bir vəziyyət fərdi təsərrüfatçılıq prinsipləri əsasında fəaliyyət göstərilməsini labüd edirdi.

Kooperasiya hərəkatını ləngidən bu səbəblər, eyni zamanda, kənd təsərrüfatı istehsalının ixtisaslaşması, infrastrukturun təmərküzləşməsi, istehsalçıların maliyyələşməsi, sahələrarası inteqrasiya və digər proseslərə də mənfi təsir göstərir. Müasir şəraitdə dövlətimizin aqrar sahəyə göstərdiyi dəstəyi nəzərə alaraq, deyə bilərik ki, ixrac potensialının artması, daxili istehlak bazarının təmin olunması və digər məsələlərin həlli kooperasiyaların yaradılmasına, birləşməyə və nəticədə milli aqrar sahənin rəqabət qabiliyyətinin artmasına gətirib çıxaracaq.

Bundan başqa, ixrac potensialının artırılması, ilk növbədə, böyük həcmdə məhsul istehsalını tələb edir. Təbii ki, belə şəraitdə kiçik fermer təsərrüfatları xarici istehsalçılarla rəqabətdə tab gətirə bilməzlər və buna görə də onların birləşməsi labüddür".

Göründüyü kimi, bu gün kooperasiya tipli təsərrüfat formalarının yaradılması qaçılmaz prosesdir. Bunun üçün səmərəli iqtisadi mexanizmlər dizaynı qurulmalıdır

ki, fermerlər kooperativ hərəkata qoşulmazdan qabaq fayda əldə edəcəyinə əmin olsunlar. Bu barədə danışan müsahibimiz kənd təsərrüfatı kooperativlərinin yaranmasının çoxpilləli proses olduğunu diqqətə çatdıraraq deyib: "Xarici təcrübə və tədqiqatlarımız göstərir ki, əvvəlcə aqrar sahədə torpaq mülkiyyəti əsasında kənd təsərrüfatı istehsal kooperativləri yaranmalıdır. Bu, istehsalın artmasına gətirib çıxarar. İstehlak kooperasiyası isə emal və satış prosesini əhatə edərək, bütünlükdə, aqrar istehsalın sabitliyini təmin edir.

İkinci mərhələdə kənd təsərrüfatı kooperativləri təkcə aqrar sektor təmsilçiləri ilə yox, digər sahələrdə fəaliyyət göstərən müəssisələrlə də korporativ əlaqələr yaradır. Daha sonra isə regional səviyyəyə çataraq, sahə assosiasiyaları və ittifaqlar təsis olunur, beynəlxalq assosiasiyalara daxil olmaq mərhələsi başlayır.

Kooperasiya prinsiplərinə əsaslanan iri təsərrüfat üstünlüklərə malik olması ilə bərabər (subsidiyaların alınması, kreditlər və investisiyaların cəlb edilməsi, istehsal-emal-satış tsiklin tam qurulması, aqrotexniki xərclərin azalması, toxum, cins mal-qara və texnikanın satın alınması və s.), istehsalçılara çoxsaylı risklərin təsir dərəcələrinin azalmasına da imkan verəcək. Belə ki, kənd təsərrüfatı və ərzaq məhsullarının satış qiymətlərində aqrar istehsalçıların xüsusi çəkisi yüksələcək və nəticədə onların gəlir səviyyəsi artacaq.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)
2. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"
3. Ə.H.Hacıyev Aqrar sənaye kompleksinin iqtisadiyyatı. Bakı 2006
4. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi (6 DEKABR 2016)

Xülasə

Qeyri-neft sektoru kimi aqrar sahədə mövcud təsərrüfat formalarının fəaliyyətində idarəetmə marketinq istehsal satış və xidmətlə bağlı ciddi problemlər olduğundan hesab edirikki, onların fəaliyyətinin təhlili və qiymətləndirilməsi olduqca vacibdir.

Aqrar sahə üzrə dövlət tərəfindən ayrılan maliyyə vəsaitlərinin xarakterində və yeni təsərrüfatların idarə edilməsi prosesi üzrə mütərəqqi təkliflər irəli sürülmüşdür. Milli iqtisadiyyatın dayanıqlı inkişafına nail olunmasında aqrar sahə üzrə yeni təsərrüfat formalarının rolunu və fəaliyyətini əsaslandırmaq.

Yeni təsərrüfat formalarının iqtisadi potensialını müəyyən etmək, fəaliyyətlərinin mövcud vəziyyətini araşdırmaq, idarə etmə və istehsal istiqamətli təkliflər irəli sürməkdən ibarətdir. Məqalədə ümumiləşdirmə müqayisəli yanaşma quruplaşdırma və statistik metodlardan istifadə edilmişdir.

Açar sözlər: aqrar sahə, yeni təsərrüfatçılıq, ərzaq təhlükəsizliyi, bazar, artım, məhsul, istehsal.

Summary

Existing forms of management of production management, marketing, sales and service, analysis and evaluation of their activities due to serious problems associated with the account of the non-oil sector in the agricultural sector as edirikki is important.

Funds allocated by state for new business management in the agricultural sector and the nature of the process of progressive proposals have been made. Of the national economy for sustainable development of new forms of management in the agricultural sector, the role and activity to justify.

New forms of management of economic potential, activity of the study is to put forward proposals in the direction to the current situation, management and production.

Key words: agrarianfield, foodsecurity, production, products, growth, neweconomy, markets.

Salman Süleymanov

Azərbaycan Turizm və Menecment Universitetinin magistrı

salman_s90@mail.ru

“Pullman Hotels and Resorts”un inkişaf tarixi və fəaliyyət istiqamətləri

History and activities of " Pullman Hotels and Resorts "

История и деятельность "Pullman Hotels and Resorts "

Xülasə: Məqalədə Pullman otelin yaransı, inkişaf tarixi, “Accor Hotels” şəbəkəsində rolu, dünya üzrə ərazi təşkili, əsas istehlakçı bazası, müştərilərlə münasibətləri, bu sahədə mövcud strategiyası öz əksini tapmışdır.
Açar sözlər: Pullman, “Accor Hotels”, resorts, işgüzar, brend otel, istirahət-sağlamlıq, SPA.

Article: The article covers the history of Pullman Hotel, the history of its development, its role in the Accor Hotels network, global organization of the world, its main consumer base, customer relationships and the existing strategy in this area.
Keywords: Pullman, "Accor Hotels", resorts, business, brand hotel, recreational-health, SPA.

Резюме: В статье рассматривается история Pullman Hotel, история его развития, его роль в сети глобальной организации мира Accor Hotels, его основная потребительская база, взаимоотношения с клиентами и существующая стратегия в этой области.
Ключевые слова: Пулман, «Гостиницы Аккор», курорты, деловой, бренд-отель, рекреационно-оздоровительный, СПА.

Pullman Hotels and Resorts, “Accor Hotels” şirkətinə məxsus lüks bir beynəlxalq otel markasıdır. Pullman, Avropanın, Afrika, Orta Şərq, Asiya və Latın Amerikasında 33 ölkədə 117-dən çox otel və istirahət mərkəzinə malikdir.

Bu gün Avropanın aparıcı operatoru və bazar lideri olan Accor, “Pullman” brendi ilə işgüzar turistlərə yeni davranış istiqaməti və özünəməxsus mövqeyi ilə çıxış edir. Accor, orta və iqtisadi istehsal seqmentində ənənəvi olaraq iştirak edir və markaların portfelini yenidən qiymətləndirərək yüksək səviyyəli otellər arasında öz nüfuzunu və əhatə dairəsini genişləndirir [10].

Pullman adı bu brendin yaradıcısı Corc Pullman adı ilə bağlıdır. Pullman ABŞ-da ilk yuxu qatarlarının açılması və dəmir yolçuları üçün yüksək keyfiyyətli xidmətlərin inkişafı ilə məşhurdur. Belçikalı George Nagelmakers 1867-1868-ci illərdə ABŞ-a getdi və Avropada Pullmanın ekvivalentini, Beynəlxalq Vaqon-Yataq Assosiasiyasını (BVYA) yaratmaq planı ilə geri döndü. Sürətlə inkişaf edən dəmir yolu şəbəkələri, dəmir yolu sənayesi ilə yanaşı mehmanxana tikintisi və idarə edilməsinə sərmayə qoyulmasına gətirib çıxardı.

1894-cü ildə BVYA, Bordo və Marsel Terminus Hotel, İstanbuldakı Pera Sarayı, Ostenddə Hotel de la Plage və Pekin Grand Hôtel des Wagons-Lits də daxil olmaqla, dünyanın müxtəlif yerlərində artan mehmanxanaları idarə etmək üçün Beynəlxalq Grand Hotel şirkərini yaratdı. 30 il sonra BVYA, yüksək səviyyəli

istirahət üçün Avropada Pullman vaqonlarını təqdim etdi. Pullman qısa vaxt ərzində o qədər məşhur oldu ki, ən yaxşı BVYA otelləri Pullman Hotelsə çevrildi.

1990-cı ilin iyun ayında Accor Hotels BVYA-da müəyyən qədər payı almışdır. 1991-ci ildə BVYA-ın tam satın alınmasından sonra, AccorHotels bütün Pullman otellərini 1993-cü ildə Sofitel Hotels-a çevirmiş və bu, Pullman markasının bazar daxil olmasına səbəb olmuşdur. 2007-ci ildə AccorHotels, biznes səyahətçilərinə xidmət etmək üçün Prestijli Pullman otel markasını canlandırdı.

Yaxın Şərqdə yerləşən Pullman mehmanxanalarının birincisi 24-mərtəbəli Pullman Dubai Mall (Emirates) ticarət mərkəzidir. 2010-cu ildə açılmışdır. Həmin bölgədə Pullmanın dördüncü əmlakı, "Pullman Dubai Jumeirah Lakes Towers"dır ki, açılışı 2015-ci ildə olmuşdur [2].

2012-ci ildən Pullman Hotels İndoneziyada 5 il ərzində 12 yeni mehmanxanalarının açılışını etdi, Böyük Britaniyada (Pullman London St Pancras) və Vyetnamda ilk otellərini açdı və bununla da Çin ən böyük bazarı oldu. 2013-ci ilə kimi "Pullman Hotels", yarısı Asiya-Sakit Okean bölgəsində olan 79 otelini fəaliyyətə başlatdı [3].

2013-cü ildə "Pullman Hotels" yeni bir vizual şəxsiyyət, bədii, kulinariya və vizual təcrübəyə əsaslanan yeni bir strategiya və yeni bir şüar qəbul etdi. Həmçinin "Pullman Hotels" işçi heyəti üçün yeni uniformalarını, yeni mətbəx konsepsiyasını, yeni dizayn interyerlərini və müasir texnologiyalarını tətbiq etməyə başladı.

Accor Hotels həmçinin 2020-ci ilə qədər "Pullman Hotels və Resorts" brendi adı altında 150 otel açmaq planında olduğunu bildirmişdir. Bundan əlavə 2014-cü ildə "Accor Hotels" qrupu, Asiya-Sakit okean portfelini iki dəfə artırmaqla bölgədə 47 yeni Pullman otelini açmaq niyyətində olduğunu açıqladı ki, bunlardan 38-i Çində nəzərdə tutulmuşdur. Eyni ildə 338 nəfərlik "Pullman Shanghai South" oteli də açıldı ki, bu da Çində 15-ci, Asiya-Sakit okean bölgəsində 45-ci Pullman oldu [10].

2015-ci ildə Sofitel Mayami Airport oteli Pullman otelinə çevrilərək Şimali Amerikada ilk Pullman mülkiyyəti oldu. 2015-ci ilin sonuna qədər 95 Pullman oteli açıldı.

Pullman otelləri sürətli inkişafı təmin etmək və bazarda rəqabətə davamlığın artırmaq üçün bir sıra istehlakçı təyinatlə planlaşdırma siyasəti aparır. İstehlakçı əlaqələrinin menecmenti əlbəttə ki, müasir marketinq üçün ən vacib anlayışdır. Otel üçün təmas nöqtəsinə sifariş, qeydiyyat və oteldən çıxış, daimi qonaq proqramları, otaq xidməti, biznes xidməti, camaşırxana, restoran və barlar aiddir. "Pullman Hotels and Resorts" otellər şəbəkəsində şəxsi fərdli xüsusi təması diqqət yetirilir. Qonaqla təmasda olan işçi qonağa öz adı ilə müraciət etməlidir[4].

“Pullman Hotels and Resorts” otellər şəbəkəsi tərəfindən müştəri məmuniyyətinə yönəldilən sorğuların təhlilin hər il aparır. Bu təhlilər əsasında müştərilərin təklif və yeniliklərə reaksiyası öyrənilir.

“Pullman Hotels and Resorts” otellərində beynəlxalq işgüzar tədbirlərin və istirahət turizminin inkişafın aşağıdakı kimi qruplaşdırmaq olar:

-Dövlət tədbirləri ilə bağlı keçirilən işgüzar görüşlərin təşkilatçısı kimi iştirak etmək. “Pullman Hotels and Resorts” otellər şəbəkəsinin əsasən şəhər mərkəzlərində yerləşməsi (otellərin 73,5%) işgüzar tədbirlrdə dövlət və yerli icra orqanları ilə əməkdaşlığı tələb edir. Onlar müştərilərinə daha çox kompleks xidmətlər təklif etməyə çalışırlar. Onlar konfransın yüksək təşkili üçün müasir avadanlıqlarla təmin olunmasına çalışır, eyni zamanda müxtəlif turizm xidmətləridə təklif edirlər[8].

-İstirahət-sağlamlıq tədbirlərinin keçirilməsində fəallıq. “Pullman Hotels and Resorts” otellərinin demək olar ki, hamısı “resort” təyinatlı tədbirlərinin əsas təşkilatçılarından və ya partnyor tərəf kimi çıxış edirlər. Ölkələr üzrə müxtəlif kütləvi istirahət və turizm tədbirləri ilə bağlı olan 2000-dən çox belə tədbirlərin “Pullman Hotels and Resorts” otelində keçirir ki, bu da daha çox müştəri cəlb etməyə imkan verir.

-Beynəlxalq mədəni tədbirlərin keçirilməsi. “Pullman Hotels and Resorts” otelləri fəaliyyət göstərdiyi olkələrdə beynəlxlaq mədəni tədbilrərin əsas təşkilatçısı olmasa da, il ərzində 200-dən çox belə kütləvi tədbirlərdə stsandart nömrələrdə xüsusi qiymət siyasəti aparmaqla onun dəstəkçisinə cevrilir. Mədəni tədbirlərin keçirilməsi otellərin daha çox iştirakını təmin etmiş olur. Bu tədbirlər işgüzar dairələr tərəfindən daha çox planlaşdırldığına görə brend otellərin fəaliyyəti bu sahədə fəallığı müşahidə edilir.

Bu baxımdan “Pullman Hotels and Resorts” otellər şəbəkəsində strateji planlaşdırmada nəzərə alınan amillərə aiddir[9]:

-Məhsul strategiyasının hazırlanması. Şəbəkənin fəaliyyət göstərdiyi bütün ölkələrdə brendin tanıtdılmasına xidmət etməkdən ibarətdir.

-İmic siyasəti üzrə strateji planlaşdırmanın aparılması. “Four Seasons” otellər şəbəkəsində imic siyasəti daha çox marketinq tədqiqatlarına və müştəri məmuniyyətinə istiqamətlənir.

-Əlavə dəyər yaratmaq imkanlarının aparılması. Bu məhsulun bazarda satış imkanlarının genişləndilməsi ilə yanaşı, brendin xidmətlərinin daha çox dəyər qazanmasına yönəldilir.

-Bazarda brendin məhsulları üzrə strateji marketinqin qurulması. “Pullman Hotels and Resorts” otellər şəbəkəsində strateji marketinq bazar yönümlü olsa da,

yeni istehlakçı kütləsinə istiqamətlənən xidmətlərin təklif olunması da üstünlük təşkil edir.

-Hədəf müştəri kütləsinə istiqamətlənən strateji marketinqin qurulması. “Pullman Hotels and Resorts” otellər şəbəkəsində daimi müştəri kütləsinə istiqamətlənən xüsusi xidmətlər təklif olunsa da, hədəf müştəri kütləsi üçün həmişə yeniliklər təqdim edir.

-Qiymət strategiyasının qurulması. “Pullman Hotels and Resorts” otellər şəbəkəsində qiymət strategiyası fəaliyyət göstərdiyi ölkənin adambaşına düşən milli gəlirinə və əmək haqqı fonduna uyğun qurur.

“Pullman Hotels and Resorts” otellərində paylanma strategiyası ölkələr, daimi müştərilər və hədəf müştərilər üçün seçilir. Burada qiymətlərin formalaşması, xidmətlər dəsti və s. nəzərə alınır. Paket turlar üzrə təklif edildikədə paylanma strategiyası ümumi prinsiplərə əsaslanır və standart nömrələr təklif olunur. Işgüzar və istirahət təyinatlı olduqda təkif olunan xidmətlər təklif edilir. Müxtəlif kütləvi tədbirlərlə bağlı olduqda isə endirimlər tətbiq etmiş olur. Bu da ancaq otlin təşkilatçı qismində çıxış etdiyi dövrdə tətbiq olunur.

Öncədən planlaşdırılmış satışın və gəlir istəklərinin olmaması və bəzi satış kanallarında limitlərin peyda olduqda, qonaqpərvərlikdə çalışan menecerlər bir gün əvvəl ayrı paylama kanalı tapır və şirkətin üstünlüyünü və satış gücünü artırmaq üçün bu kanalda davam etdirir.

“Pullman Hotels and Resorts” otellər şəbəkəsi qiymət strategiyası. Əksər qonaqpərvərlik planları qiymətlənməyə az diqqət ayırırlar. Otellər nömrələri aşağı qiymətə qruplara verirlər ki, “Pullman Hotels and Resorts” otellər şəbəkəsində bu 29 oteldən az olmamalıdır. Bu qəbahət olsa belə otelin finans və maliyyə departamentlərindən cavabdeh olan menecer bunu gəlir əldə etmək məqsədilə edir. Bu zaman otelin nömrələri boş qalmır. Bu əməliyyatları yerinə yetirmək üçün gəlirlər və yığım şöbəsi lazım olan nömrələri lazım olan qonaqlara satır. Əgər şöbə nə qədər baha qiymətə otelin nömrəsini satarsa, şöbənin işçiləri əlavə pul qazanırlar.

“Pullman Hotels and Resorts” otellərində boş qalan lüks və ya delüks otaqların müştəriərin az olduğu vaxtlarda qiymətindən hətta iki dəfə aşağı müddətindən asılı olaraq müştərilərə təklif olunur. Bu da otelin çevik qiymət siyasəti ilə uyğun gəlir.

Misal üçün, satış şöbəsinin topdan tur satanlarla və əlaqələndirici müştərilərlə vasitəçilik etmək və işləmək hüququ var. Hər iki müştəri onlara edilən güzəştləri soruşacaqlar. Çox sayda nömrənin, aviabiletlərə, nəqliyyat xidmətlərinə və ya gəmi səyahətlərinə edilən güzəştlər həmişə gəlir və qiymətləri tənzimləyən departamentlər arasında qaçılmaz problemlər yaradır. Marketinq və satış planları əsas bazar

seqmentlərindən öncə təyin olunmuş və gəlir layihələndirməsiz inkişaf etdirmək səmərə verməyəcək. Əgər öncə təyin olunmuş və gəlir layihələri gəlir və qiymətləri tənzimləyən şöbə tərəfindən daxil olmasa, ziddiyyət artacaq. Ziddiyyətin artmaması üçün qonaqpərvərlikdə ən əsas və gərəkli sayılan şöbələr arasında əlaqələr, bir-biriləri ilə baş verən hadisələri, məlumatları paylaşmaq lazımdır.

Ümumilikdə il ərzində "Pullman Hotels and Resorts" otel şəbəkəsindəı gecələyənlərin sayı dinamik olaraq artmaqdadır. 2010-cu ildə bu rəqəm 367,6 min nəfər olmuşdursa, 2017-cı ildə 776,5 min nəfəri keçmişdir. Həmcinin otelin restoranlarinda (outlet) - ortalama hər saat 200 nəfərdən çox müştəri gəlir. Otelin həmcinin SPA müştəriləri və laundry xidmətlərindən istifadə edənlərin sayı il ərzində 75 min nəfərdən çoxdur. Otel şəbəkəsində olan kütləvi tədbirlərdə il ərzində 50 mindən çox adam iştirak edir. Göründüyü kimi beynəlxlaq şəbəkə otelin düzgün marketinq və menecment siyasəti turistlərin daha çox cəlb olunmasına imkan vermişdir [7].

"Pullman Hotels and Resorts" otellər şəbəkəsində gecələmələrin sayı dimamik olaraq artmışdır ki, bu da orta hesabla hər il 5-8% artıma nail olmuşdur. Ümumilikdə gecələmələrin sayının 700 minə yaxın olması, digər beynəlxalq şəbəkə otellərlə rəqabət aparmasına imkan vermişdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Jacques Neher (24 July 1990)."Accor Is Gambling on U.S. Motels". Nytimes.com. Retrieved 30 September 2017, 124 p
2. "New Hotel Opening: Pullman Dubai Jumeirah Lakes Towers Opens Doors". Zawya.com. 20 January 2015. Retrieved 30 September 2017, 237 p.
3. "Accor to open 12 Pullman hotels in 5 years". Thejakartapost.com. 20 January 2012. Retrieved 30 September 2017, 167 p.
4. "Accor opens first Pullman Hotel in the UK at London St Pancras". Hospitalitynet.org. 14 September 2012. Retrieved 30 September 2017, 173 p
5. "Accor continues expansion in Asia Pacific with the Debut of Pullman in Vietnam". Traveldailynews.asia.5 December 2012. Retrieved 30 September 2017, 56 p.
6. "China becomes Pullman's number-one market worldwide with the opening of its 14th hotel". Hospitalitynet.org. 3 September 2012. Retrieved 30 September 2017, 67 p.

7. "Accor Unveils Global Repositioning Strategy For Pullman Hotels & Resorts". Hospitalitynet.org. 28 May 2013. Retrieved 30 September 2017, 47 p.
8. Peter Ruddick (29 May 2013). "Accor targets 150 Pullman Hotels & Resorts by 2020 following global repositioning". Bighospitality.co.uk. Retrieved 30 September 2017, 268 p.
9. "Pullman to open 47 hotels in Asia Pacific by 2018". *Businesstraveller.com. 20 March 2014*. Retrieved 30 September 2017*, 79 p.*
10. "Accor Group : Pullman announces the opening of the Pullman Shanghai South". *Tourmag.com. 10 March 2014*. Retrieved 30 September 2017, 83 p.
11. "AccorHotels Introduces Pullman Miami Airport, North America's First Pullman Address". *Hotel-online.com. 6 November 2015*. Retrieved 30 September 2017*, 73 p.*
12. http://www. Accor opens first Pullman Hotel.com/pdfs/.../2017
13. http://www.WTO- barometr.com-2017

Azərbaycan Turizm və Menecment Universiteti
Doktorant: Şadiyyə M.Amanova (shadi.mailgizi@mail.ru)

Azərbaycan bank sektorunun müasir vəziyyəti və inkişaf istiqamətləri

Azərbaycan Respublikasında son on ildə neft gəlirlərinin artması ölkənin qeyri-neft sektorunda zəruri islahatların həyata keçirilməsinə səbəb olmuş, bu amil maliyyə bazarlarının fəallaşması baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Belə ki, müşahidə olunan iqtisadi inkişaf iqtisadiyyatın digər sektorları ilə yanaşı, maliyyə-xidmət sektoruna da öz təsirini göstərmişdir. Xüsusilə də, keçən müddət ərzində ölkədə səmərəli maliyyə sisteminin yaradılması və bu sahədə zəruri islahatların aparılması maliyyə bazarlarının inkişafı baxımından yeni mərhələ açmışdır. Həmçinin, son on il ərzində maliyyə bazarlarının tənzimlənməsi üzrə hüquqi-normativ və metodoloji bazanın təkmilləşdirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Belə təkmilləşmənin ən mühüm cəhətlərindən biri də mövcud sahədə beynəlxalq təcrübənin tətbiqi ilə bağlı vacib addımlar atılması olmuşdur. Eyni zamanda, maliyyə bazarlarının müxtəlif sahələrində müasir və innovativ əməliyyat sistemlərinin tətbiqinə də xüsusi diqqət yetirilmişdir. Ölkədə son on ildə bank kreditləşməsi üzrə orta illik artım səviyyəsi 30%-ə yaxın olmuşdur.

Maliyyə bazarlarının rentabelliyinin və kapitallaşma səviyyəsinin artırılması da bu dövr ərzində davam etdirilmiş, məcmu kapitala dair tələblər sərtləşdirilmişdir.

Dünya bazarında neft məhsullarının qiymətlərində baş verən kəskin ucuzlaşma halları ölkənin digər sahələri kimi maliyyə bazarlarına, əsasən də bank sektoruna öz mənfi təsirini göstərmişdir. Belə ki, bu yönümlü gəlirlərin azalması nəticəsində ölkəyə daxil olan xarici valyuta axınları kəskin azalmış, milli valyutanın dəyəri aşağı düşmüşdür. Milli valyuta bazarında vəziyyətin sabitləşdirilməsi, tədiyyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlılığının təmin edilməsi məqsədilə iki devalvasiya prosesi baş vermişdir. Lakin, bu vəziyyət maliyyə-bank sektorunda bir çox çətinliklər yaratmışdır. Belə ki, depozit və kredit portfelinin dollarlaşması və maliyyə vəsaitlərinin bank sistemindən kənarlaşması kimi neqativ meyillər özünü göstərmişdir. Nəticədə, ölkədə iqtisadi artımın zəifləməsi ilə yanaşı, həm də bank sektorunda fəallıq kifayət qədər aşağı düşmüşdür.

Makroiqtisadi qeyri-müəyyənlik, xarici valyutada volatillik, ölkədə maliyyə sabitliyini təmin etmək üçün tədricən sərt maliyyə tədbirlərinin aparılması, nisbətən yüksək vergi dərəcələri vasitəsilə əhalinin məcmu tələblərini məhdudlaşdırmaq və s. digər bu kimi yaranmış neqativ amilləri aradan qaldırmaq üçün Mərkəzi Bank və digər maliyyə qurumları tərəfindən tədbirlər həyata keçirilməkdədir. Həyata keçirilən strateji iqtisadi islahatların nəticəsi maliyyə sabitliyi ilə yanaşı, bankların sağlamlaşması, maliyyələşməsi və investisiya cəlbinə müsbət töhvəsini verməkdədir.

Azərbaycanda bank sektorunun inkişafında müəyyən irəliləyişlər baş versə də, lakin bu sahənin fəaliyyətini xarakterizə edən göstəricilər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə kifayət qədər aşağı səviyyədədir. Belə ki, müaviq göstəricilərə bank aktivlərinin həcminin ÜDM-ə nisbəti, iqtisadiyyatın kreditəşmə səviyyəsi, yəni verilmiş kreditlərin ÜDM-ə nisbətini, iqtisadiyyatın monetizasiya səviyyəsini şamil etmək olar.

Ölkənin bank sektorunda mövcud mühüm məsələlərdən biri də bank sektoru üzrə aktivlərin strukturu üzrə konsentrasiya riskinin yüksək olmasıdır . Bankların məcmu aktivləri üzrə əsas payı verilmiş kreditlər təşkil edir ki, bu da aktivlərin diversifikasiya imkanlarını məhdudlaşdırır.

Bank sektoru üzrə kredit artımı dinamikası maliyyə sabitliyini təmin edir, bu genişlənmə hesabına aktivlərin artmasının iqtisadiyyata müsbət təsiri mövcuddur. Belə ki, kreditləşmə hesabına aktivlərin artımı bank sektorunun iqtisadiyyatın diversifikasiyasındakı rolunu artırır və həm də resursların iqtisadiyyatda yenidən

paylanmasına təsir edir. Lakin, makroiqtisadi faktorların Azərbaycana təsiri qaçılmaz olduğundan kreditlərin geri ödənilməsində pisləşmələr aktivlərin azalması və keyfiyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Aktivlərin strukturunda vaxtı keçmiş kreditlərin xüsusi çəkisinin son illərdə daha da artması və kredit protfelinin keyfiyyət problemi bank aktivlərinin yüksəlməsinə mənfi təsir göstərmişdir.

Bank sektorunun inkişafına təsir edən digər mühüm amil aktivlərin strukturunda investisiyaların, yəni bankların qiymətli kağızlarla əməliyyatlarının çəkisinin kifayət qədər az (5-7%) olması ilə bağlıdır. Qeyd etmək lazımdır ki, məcmu aktivlərin ÜDM nisbəti baxımından MDB məkanında bu göstərici üzrə yüksək paya malik olan Qazaxstan və Rusiyada bankların qiymətli kağızlarla əməliyyatları Azərbaycanın bank sistemi ilə müqayisədə dəfələrlə yüksəkdir. Belə ki, son dövrdə Qazaxıstanda 6,5 milyard ABŞ dolları, Rusiyada isə 150 milyard ABŞ dollarından artıq qiymətli kağızlar tədavüldə olmuşdur. Nəticə olaraq, Qazaxıstan və Rusiyada bank sektorunda aktivlərin investisiya hesabına formalaşması 10-15% və 24-30% səviyyəsində olmuşdur.

Həmçinin, ölkənin bank xidmət sektoru üzrə inkişafına təsir edən aşağıda qeyd olunan amillər, bankların rəqabətliliyi və gəlirliyinə təsir edir.

- Bank xidmətləri bazarında məhsul və xidmət çeşidliyinin məhdudluğu;
- Mövcud xidmətlər üzrə tətbiq olunan xidmət haqqlarının müştəri seqmenti üzrə qənaətbəxş səviyyədə olmaması;

Banklararası rəqabətin gücləndirilməsində məhsul və xidmətlərin genişləndirilməsi, tətbiq olunan tariflərin münasibliyi və xidmət səviyyəsinin qənaətbəxşliyi mühüm rol oynayır.

Hazırda ölkə banklarının kapitallaşma səviyyəsi onların iqtisadiyyatda geniş fəaliyyətinə imkan yaratmır. Məhz bu baxımdan da Mərkəzi Bank banklar qarşısında məcmu kapitalın müasir şəraitdə yarana biləcək risklər və gözlənilməz itkiləri kompensasiya edə biləcək səviyyədə olması tələbini ciddi şəkildə qarşıya qoymuşdur. Xüsusilə də, belə kapitallaşma səviyyəsi yüksək olan banklar böhran dövründə daha dayanıqlı olmaqla, öz fəaliyyətini davam etdirmək qabiliyyətində olurlar. Həmçinin, nəzarət orqanı tərəfindən bankların təhlükəsiz fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş iqtisadi prudensial normativlərə əməl etməsi düzgün davranış, idarəetmə və nəzarət üsulu olmaqla iqtisadiyyata öz töhvəsini verir. Aparılmış iqtisadi islahatlar maliyyə-bank sisteminin yeni inkişaf dövrünə adaptasiyasını, maliyyə dayanıqlığının möhkəmləndirilməsini, rəqəmsal bankçılığın

və İT təhlükəsizliyin təkmilləşdirilməsi və inkişafını tələb edir. Bütün bu və digər araşdırmalar deməyə əsas verir ki, ölkənin bank sektorunun əsaslı şəkildə təkmilləşdirlməsinə zərurət vardır. Formalaşacaq yeni bank sektoru beynəlxalq standartların müasir tələblərinə cavab verməli və sağlam rəqabət qabilyyətinə malik olmalıdır. Aşağıda qeyd olunan, həyata keçiriləcək tədbirlər ölkədə bank sektorunun təkmilləşməsinə səbəb olmaqla, həm də müvafiq inkişaf istiqamətlərini təmin edəcəkdir:

- Maliyyə xidmətləri bazarının müxtəlif seqmentlərinin dayanıqlı və davamlı inkişafının təmin olunması;
- Bank nəzarəti sisteminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması;
- Bank sektorunun maliyyə-fond bazarlarında fəallığının yüksəlməsi;
- Bank sektorunun real sektor üçün cəlbediciliyinin artırılması;
- Bank xidmətləri çeşidinin və keyfiyyətinin genişləndirilməsi;
- Beynəlxalq maliyyə institutları ilə qarşılıqlı əlaqə sisteminin yaradılması.

Ədəbiyyat

1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası Bakı, 2012.
2. “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”. Bakı, 2016.
3. Abdullayev Ş.Ə. Bankların resursları və onların idarə olunması. Bakı, Caşıoğlu, 2008.
4. Y.Ə.Məmmədov. Azərbaycan Respublikasında fond bazarının formalaşması və inkişaf istiqamətləri. Bakı, “Avropa” nəşriyyatı, 2016.
5. https://www.cbar.az
6. https://www.stat.gov.az

Şükür IBRAHIMLI

Azərbaycan Turizm və Menecment Universiteti

sukur.hero@gmail.com

Azərbaycanda bələdçiliyin ümumi vəziyyəti

The overall situation of the guide in Azerbaijan

Общая ситуация руководства в Азербайджане

Xülasə: 1907-ci ildə Rusiya turist cəmiyyətinin (RTC) tərkibində «Rusiya üzrə ekskursiya» təşkilatı yaradılması, SSRİ-də, o cümlədən Azərbaycanda turizmlə bağlı addımlardan biri olmuşdur. Məqalədə 1958-ci ildə yaradılmış Beynəlxalq gənclər turizm bürosu "Sputnik" haqqında da yer verilmişdir. Ölkəyə gələn turistlərin sayı artdıqca onlarla işləyəcək yüksək ixtisaslı kadrların - peşəkar bələdçi-tərcüməçilər və bələdçi-təlimatçılara tələbatın artdığını nəzərə alsaq, bu baxımdan turizm sahəsində problemlərin mövcud olduğu barədə məlumatlar öz əksini tapmışdır. Məhz sözügedən kadrların peşəkarlığı, dünyagörüşü, mükəmməl biliyi, insanlarla ünsiyyət qurmaq bacarığı nəticə etibarilə turizm məhsulunun keyfiyyətinə təsir edir. Azərbaycan Turizm Şirkətləri Assosiasiyası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Turizm İnstitutu (ATİ) ilə birlikdə bələdçi kurslarının açılması ilə bağlı xüsusi layihələr hazırlayır. Bu gün Azərbaycanda turizmin aktiv sahələrdən birinə çevrildiyi və yeni səviyyəyə çıxdığı bir zamanda, bələdçilərin və ekskursiya rəhbərlərinin peşəkarlığı vacibdir. Azərbaycan dünya tarixində böyük etnik mədəniyyət sayılır və onun qonaqlara savadlı təqdimi ölkənin imicinin yüksəldilməsi üzrə işin vacib hissələrindən biridir.

Açar sözlər: RTC", turizm, bələdçi, 'Sputnik", kadr, AzTA

Abstract: Establishment of the "Russia Excursion" organization within the Russian Tourist Society (RTC) in 1907 was one of the steps taken in the USSR, including tourism in Azerbaijan. The article also includes the International Youth Tourism Bureau "Sputnik", established in 1958. Given the increasing demand for qualified cadres - professional guide-translators and trainers, as the number of tourists arriving in the country increases, information on tourism problems is present in this respect. The professionalism, the outlook, the perfect knowledge, and the ability to communicate with the people, ultimately affect the quality of the tourism product. The Association of Tourism Companies of Azerbaijan together with the Ministry of Culture and Tourism and Azerbaijan Tourism Institute (ATI) develops special projects related to the opening of the guide courses. At present, when tourism is one of the most active areas in Azerbaijan, and at a new level, professionalism of guides and excursion managers is important. Azerbaijan is considered to be a great ethnic culture in the history of the world and its well-educated guests are one of the most important part of the work on raising the country's image.

Key words: RTC", tourism, guide, 'Sputnik", staff, AzTA.

Резюме: Одним из шагов, предпринятых в СССР, в том числе туризма в Азербайджане, стало создание в 1907 году организации «Русская экскурсия» в Российском туристском обществе (РТК). В эту статью также входит Международное бюро молодежного туризма «Спутник», созданное в 1958 году. Учитывая растущий спрос на квалифицированные кадры - профессиональных гидов-переводчиков и тренеров, по мере увеличения числа туристов, прибывающих в страну, в этом отношении присутствует информация о проблемах туризма. Профессионализм, мировоззрение, совершенное знание и способность общаться с людьми в конечном итоге влияют на качество туристического продукта. Ассоциация туристических компаний Азербайджана совместно с Министерством культуры и туризма и Институтом туризма Азербайджана (ATI) разрабатывают специальные проекты, связанные с открытием учебных курсов. В настоящее время, когда туризм является одним из самых активных и быстро растущих отраслей в Азербайджане, то тогда очень важно профессионализм гидов и экскурсоводов. Азербайджан считается великой этнической культурой в истории мира, а его качественное представление для гостей-одна из важнейших частей работы по повышению имиджа страны.

Ключевые слова: “РОТ”, “Спутник”, кадры, Ассоциация туризма Азербайджана (AzTA).

XIX əsrdən məktəblərdə, ali təhsil ocaqlannda, səyahətlərdə ekskursiya təlimin bir formasr kimi istifadə olunur. Elmi-coğrafi ölkəşünaslıq haqda məlumatlar toplamaq üçün ekskursiyalar təşkil edilir.

Turizmin əsas məqsədi, ekskursiya və səyahətlər vasitəsilə əhalini maariftəndirmək idi.

İnkişaf etmiş ölkələrdə, artıq ekskursiyalar səyahətin əsas hissəsi olub məqsədli səciyyə daşıyır və bu da gəzmək, öyrənmək, tanış olmaq kimi ekskursiya turizminin yaranmasına səbəb olmuşdur.

Azərbaycanda turizm sektoru sürətlə inkişaf etməkdədir. Ölkəmiz artıq dünya turistləri üçün cəlbedici məkana çevrilir. Bunun arxasında isə son illər respublikamızda aparılan iqtisadi islahatlar, turizm sahəsində güclü infrastrukturun yaradılması yönündə görülən işlər dayanır. Məhz bu fəaliyyətin nəticəsidir ki, ildən-ilə ölkəyə gələn turistlərin sayında əhəmiyyətli artım müşahidə olunur.

Lakin inkişafda olan hər bir sahədə olduğu kimi, turizmdə də problemlər mövcuddur. Ölkəyə gələn turistlərin sayı artdıqca onlarla işləyəcək yüksək ixtisaslı kadrların - peşəkar bələdçi-tərcüməçilər və bələdçi-təlimatçılara tələbatın artdığını nəzərə alsaq, bu baxımdan turizm sahəsində problemlərin mövcud olduğunu xüsusilə qeyd etmək lazımdır. Məhz sözügedən kadrların peşəkarlığı, dünyagörüşü, mükəmməl biliyi, insanlarla ünsiyyət qurmaq bacarığı nəticə etibarilə turizm məhsulunun keyfiyyətinə təsir edir.

Turizmin inkişaf etdiyi ölkələrdə bu fakta xüsusi önəm verilir. Bələdçilərin fəaliyyəti bir neçə qurum tərəfindən tənzimlənir və müvafiq idarənin icazəsi olmadan hər hansı turizm müəssisəsi bələdçi xidmətindən istifadə edə bilmir. Üstəlik, bələdçiliklə məşğul olmaq istəyən şəxsin mütləq lisenziyası olmalıdır. Ukraynada və Rusiyada turizm bələdçilərinin lisenziyasız fəaliyyətinə görə cərimələr nəzərdə tutulur. İtaliyada isə belə sənədi olmayan bələdçinin xidmətindən istifadə edən turistin hətta özünü də cərimə edirlər.

Bir çox ölkələrdə bu işə turizm təhsili verən müəssisələr və həmin ölkələrdə fəaliyyət göstərən turizm şirkətləri assosiasiyaları məsuldur. Maraqlıdır, bəs Azərbaycanda vəziyyət necədir? Öncə qeyd edək ki, ölkəmizdə bələdçi-tərcüməçilərin sayı barmaqla sayılacaq qədər azdır. Əksər turizm şirkətlərinin rəhbərləri də bu baxımdan çətinliklərlə qarşılaşırlar.

Sovetlər dönəmində xarici turistlərlə işləyən "İnturist" sistemində 90-a yaxın, daxili turizmlə məşğul olan Bakı Səyahətlər və Ekskursiyalar Bürosunda 150, gənclərin səyahətini təşkil edən "Sputnik"də isə 20-yə yaxın bələdçi, bələdçi-tərcüməçi və bələdçi-təlimatçı fəaliyyət göstərib. Bu insanlar müxtəlif ali məktəbləri qurtarsalar da, onlar müxtəlif seçim turlarından qalib çıxaraq, ən azı altı aylıq xüsusi hazırlıq keçdikdən sonra təcrübəli bələdçilərin nəzarəti ilə işə başlayırdılar. 90-cı illərin əvvəlində, bir çox sahələrdə olduğu kimi, turizm sahəsində də yaşanan böhran, ölkəyə gələn turistlərin sayının kəskin azalması ilə əlaqədar həmin peşəkar kadrların bir hissəsi ölkəni tərk etdi, digərləri isə turizmdən uzaq sahələrdə çalışmağa başladı. Nəticədə Azərbaycan turizmi bu sarıdan ciddi kadr çatışmazlığı ilə üzləşdi. Bu gün xarici, eləcə də daxili turistlərlə işləyən peşəkar bələdçilərin sayı çox azdır. (36)

Mütəxəsslərin fikrincə, bələdçi hazırlığına differensial yanaşma olmalıdır: Məsələn, macəra turizmi üzrə bələdçi velosiped sürməyi, aşpazlıq etməyi, həkimliyi bacarmalı, piyada səyahət üçün bələdçi fiziki hazırlıqılı şəxs, eləcə də maraqlı həmsöhbət olmalıdır.

Ötən əsrin 70-80-ci illərində respublikamızda ekskursiyaya çıxan bələdçilərə Bakı Səyahətlər və Ekskursiyalar Bürosu tərəfindən icazə verilirdi. Bələdçi-

tərcüməçilərin hazırlanmasına bu qurumun tərkibində fəaliyyət göstərən Metodiki Şura cavabdeh idi. Büronun 150-yə yaxın bələdçisi vardı ki, onlardan yalnız 30-u idarənin işçisi idi. Qalanları isə ştatdankənar işləyirdi. Onlar bu peşəni sevən adamlar idilər və asudə vaxtlarında müəyyən marşrutlar üzrə bələdçilik edirdilər.

Bələdçinin turistə verdiyi məlumatlar, ilk növbədə, Milli Elmlər Akademiyasının müvafiq institutlarının rəyi əsasında hazırlanmalıdır. Bu qurum müəyyənləşdirməlidir ki, bələdçi ölkəyə gələn qonağa nəyi deyə bilər, nəyi yox. Hər xarici dil bilən şəxsdən bələdçi olmaz. Bu işin mütəxəssisi olmağın şərtləri var.

Yeri gəlmişkən, indiyədək Azərbaycan dilində bələdçinin məlumat kitabı nəşr olunmayıb. Belə vəsaitlərə rus dilində çox rast gəlmək olar. Azərbaycan dilində ümumilikdə isə bu sahəyə dair cəmi 2-3 ədəd kitab var.

Bu gün Azərbaycanda turizmin aktiv sahələrdən birinə çevrildiyi və yeni səviyyəyə çıxdığı bir zamanda, bələdçilərin və ekskursiya rəhbərlərinin peşəkarlığı məsələsi həyati vacib önəm qazanır. Axı ölkənin təqdimatı, onun görməli yerlərinin, tarixinin, mədəniyyətinin və dəyərlərinin tanıdılması missiyası onların öhdəsinə düşür. Azərbaycan dünya tarixində böyük etnik mədəniyyət sayılır və onun qonaqlara savadlı təqdimi ölkənin imicinin yüksəldilməsi üzrə işin vacib hissələrindən biridir.

Turizm və Menecment İnstitutunun yanında bələdçi ixtisası üzrə üçayılıq kurslar təşkil edilir. Bu kursları keçmiş müdavimlər imtahan verirlər və səriştələrinin səviyyəsi meyarı kimi sertifikat alırlar. Amma gerçəklikdə qeyri-peşəkar bələdçidən sığorta olunmaq elə də sadə iş deyil. Sertifikatı olmayan bələdçilərin fəaliyyəti qanunsuz sayılsa da, indiyə kimi ixtisassız və ya sertifikasız xidmətə görə hər hansısa məsuliyyəti nəzərdə tutan qanun qəbul edilməyib.

Azərbaycanın turizm üçün cəlbediciliyi mümkün olan hər yerdə bəyan edilir. Amma indi turizm agentliklərinin əksəriyyəti xarici turizmə, yəni bizim turistlərin xaricə getməsinə istiqamətləniblər. Daxili turlar əsasən yerli istehlakçıya hesablanıb, ingilis dilində Azərbaycan rayonlarının gözəlliyini vəsf edən buklet və ya flayer tapmaq çox çətindir.

2006-cı ildə Turizm İnstitutu fəaliyyətə başlayanda qarşıya qoyulan məqsədlərdən biri də bələdçi sahəsində olan boşluğu aradan qaldırmaq idi. Azərbaycan Turizm İnstitutunda tərcümə fakültəsində təhsil alan tələbələrdən gələcəyin bələdçiləri hazırlanır. Bu peşəyə özünü həsr etmək istəyən insanlar üçün xüsusi kurslar fəaliyyət göstərir. İstənilən şəxs həmin kurslarda iştirak edə bilər". Gələn qonaqlara ölkənin tanıdılmasında mühüm amillərdən biri bələdçinin keyfiyyətli xidmət göstərməsidir. Bələdçi məlumatları turistlərə kifayət qədər yaxşı

çatdırmasa, onun fəaliyyəti artıq qonaqların ölkəmiz haqda müsbət düşüncələrinin yaranmasına səbəb olmayacaq. Azərbaycanda bir çox hallarda xüsusi peşəkarlar yox, ayrı-ayrı otellərin işçiləri məcburən bələdçilik edir. Ümumiyyətlə, turizm sahəsində konkret olaraq işçilər ixtisaslaşdırılmalıdır. Konkret işçilər olmalıdır ki, bu sahəni inkişaf etdirsinlər. Otel işçiləri yox, xüsusi peşəkar bələdçilər turistlərlə maraqlanmalıdırlar. Bu kimi məsələlər artıq ortaya qoyulmalı və məsələnin həlli üçün addımlar atılmalıdır. Ölkədə turizm inkişaf etdikcə bu məsələlər artıq geniş vüsət aldığından, həlli yolları axtarılır. İnşallah, gələcək dönəmdə nəticələr də görəcəyik. Məsələn, əvvəllər Turizm İnstitutu yox idi. Onda vəziyyət daha acınacaqlı idi. Son illərdə Turizm İnstitutu yaradılıb və zamanla bu məsələlər öz həllini tapacaq. Hazırda, qismən də olsa, turizm sahəsində problemlər həll olunmağa başlayıb. Amma hələ də xidmət keyfiyyətli səviyyədə deyil.

Ümumiyyətlə, xarici ölkələrdə bütün istiqamətlərə uyğun kurs mərkəzləri var. Eləcə də turizm işçilərinin yetişdirilməsi üçün. Təəssüflər olsun ki, bizdə elə kurs mərkəzləri yoxdur. Yaxşı olar ki, bu təcrübə Azərbaycanda da tətbiq olunsun. Sırf otelçiliklə bağlı, bələdçilik və s. xidmətlər bu cür kurslarda təlim edilə bilər. Bizdə bir çox hallarda yeni-yeni otelləri peşəkar şəkildə idarə etmək üçün, xidmətləri həyata keçirmək üçün insanlar xarici ölkələrə üz tutur, orda təcrübə keçib bura qayıdırlar. Xaricdə təşkil olunan kurslar Azərbaycanda da təşkil olunsa, artıq bizdə də tələblərə cavab verən bələdçilər yetişə bilər. Yaxın gələcəkdə dövlət tərəfindən atılan addımlar sayəsində bu sahədə ciddi irəliləyişlər müşahidə olunacaq. İnkar eləmək olmaz ki, bizdə də tələblərə cavab verən peşəkar bələdçilər var. Amma onlar çox az saydadır. Bu sahədə kadr çatışmazlığı həm də onunla bağlıdır ki, həm turizm şirkətləri, həm də otellər bələdçilərə o qədər az məvacib verir ki, insanlar bu işdən uzaq düşür. Yəni əmək haqqının az olması ölkədə peşəkar bələdçilərin sayca az olmasının səbəblərindən ən mühümüdür. Düzdür, son dövrlərdə əmək haqlarının qaldırılması üçün dövlət tərəfindən müəyyən addımlar atılır. Ona görə də, gələcəkdə bu problemin də öz həllini tapacağı gözlənir.

Beləliklə, ilk növbədə xüsusi kurs mərkəzlərinin yaradılması, ikinci məsələ olaraq isə əmək haqlarının qaldırılması təklif edilir. Bələdçinin peşəkar fəaliyyəti lazımi şəkildə qiymətləndirilməlidir. İnsanları bu işə stimullaşdırmaq lazımdır. Mədəniyyət Və Turizm Nazirliyinin nəzdində yaradılmış Turizm assosiasiyasının rəhbərliyi ilə ölkədə bu kursların yaradılması nəzərdə tutulub. Kadr çatışmazlığının aradan qaldırılması üçün addımlar atılır və yaxın gələcəkdə nəticə əldə olunacağı gözlənir.

Ədəbiyyat siyahısı:

1. Ağakərimov M. M. *Ekskursiya və ekskursiya rəhbəri*. Bakı, Oskar NPM, 2006. 175 s.
2. Azərbaycan: Bələdçi kitabı /Redaksiya heyəti: Rafael Hümbətov və b. Bakı: 2003. 256 s.
3. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Bakı, Mütercim, 2004. 312 s.
4. Turizmin əsasları: dərslik / müəllif kollektivi; dosent B.Ə.Bilalov və dosent Ç.G.Gülalıyevin redaktəsi ilə. Bakı, " QHT Nəşriyyatı", 2015. 496 s.
5. Azərbaycan turizm və menecment universiteti: http://atmu.edu.az/

Şirin Nadirov (magistr)

Azərbaycan Turizm və
Menecment Universiteti

Nadirovsirin1@gmail.com

İranın turizm imkanları və inkişaf istiqamətləri

Iranian tourism opportunities and development trends

Туристические возможности и направления развития Ирана

Xülasə:İranda turizm baxımından maraqlı və cəlbedici, tarixi, dini və təbiət baxımından zəngin ölkələrdən biridir. Lakin turizm sahəsinə diqqətsizlik üzündən İslam Respublikası indiyədək dünya turizm bazarında nailiyyət əldə edə bilməyib. Ölkədə lazımi qədər dünya standartlarına cavab verən hotel, qonaq evləri və restoranların olmaması İranın turizmini inkişaf etdirməyə mane olan amillərdən biridir. Ölkənin 20 illik inkişaf proqramı (2025-ci ilədək) ilə turizm sənayesini

inkişaf etdirmək və İrana gələn turistlərin sayını ildə 20 milyon nəfərədək artırmaq planlaşdırılır. Bu hədəfə çatmaq üçün önəmli məsələlərdən biri də ölkədə hotellərin sayının artırılması və yeni hotellərin tikintisidir.2025-ci ilədək hotellərin sayının 3 dəfə artırılması planlaşdırılır.

Açar sözlər:İran, turizm, turist, İranın inkişaf istiqamətləri, İranın turizm problemləri, Tehran, Kiş adası, turistik yerlər.

Abstract: Iran is a interesting and charming in terms of tourism ,rich country in terms of history religion and nature. But lack of attention to the tourism industry Islamic Republic doesn't gain any achievement in the world tourism industry so far. In the country there are not enough hotels, guest houses and restaurants that meet with the world standards is the one of the main factor that prevent the development of tourism in Iran. With the 20 years development program of Iran (by 2025) planning to develop tourism industry and increase number of tourists by 20 million in a year that coming to the country. The important issue to reach this goal is to increase number of hotels and to build new hotels. By 2025 planning to enhance the number of hotels 3 times.


Key words: Iran, tourism, tourist, Iran's development trends, Iranian tourism problems, Tehran, tourist places, Kish island.

Giriş:İranda turizm baxımından maraqlı və cəlbedici yerlərin olduğuna heç şübhə yoxdur. Turizm sahəsində İranın ən böyük sərvəti bu ölkənin tarixidir. Bir neçə min illik tarixi olan İran mədəniyyəti və sivilizasiyasından elə böyük bir miras qalmışdır ki, yalnız maddi konstruksiyası olan nümunələrin sayı bir milyon iki yüz minə çatır. Bundan başqa, İtaliya səyahətçisi Marko Polonun yolu üzərindəki tarixi karvansaralar, gözəl məscidlər, Persepol xarabalıqlarında Təxti-Cəmşid kompleksi və misilsiz sarayları İranınturizm baxımından görməli yerləri adlandırmaq olar [3].

İranda turizm sahəsinə diqqətsizlik üzündən bu ölkə indiyədək dünya turizm bazarında uğur qazana bilməyib. İran turizm sahəsinin inkişafı üçün bir sıra problemləri həll etməlidir. Ölkədə lazımi qədər dünya standartlarına cavab verən hotel, qonaq evləri və restoranların olmaması İranın turizmini inkişaf etdirməyə mane olan amillərdən biridir.

Ölkənin 20 illik inkişaf proqramı (2025-ci ilədək) ilə turizm sənayesini inkişaf etdirmək və İrana gələn turistlərin sayını ildə indiki 5 milyon nəfərdən 20 milyon nəfərədək artırmaq planlaşdırılır. Bu hədəfə çatmaq üçün önəmli məsələlərdən biri də ölkədə hotellərin sayının artırılması və yeni hotellərin tikintisidir. İranda hazırda

1100 hotel var ki, onlardan 130-u 4 və 5 ulduzludur. 2025-ci ilədək hotellərin sayının 3 dəfə artırılması planlaşdırılır [3].



Şəkil 1: 1995-2016 cı illər ərzində İrana gəlmiş turistlərin qrafiki

İstinad:World Tourism Organization, Yearbook of Tourism Statistics, Compendium of Tourism Statistics and data files.

Turizmin inkişafına mane olan digər amil kimi bu ölkədə daxili və xarici turistlər üçün düzgün və dolğun turizm proqramının olmamasını da göstərmək olar. İranda turizm sahəsində unudulan məsələlərdən biri də digər ölkələrdə daha çox diqqət mərkəzində olan tur təşkilatçılarının təlimidir. Səfərin proqramlaşdırılması, təkliflər, hotellərdə yerləşdirmə, qarşılanma, yola salınma və s. bu kimi məsələlər digər ölkələrdə kitab, mətbuat, film və başqa vasitələrlə öyrədilir, İranda isə bu sahədə, belə demək mümkünsə, proqramsızlıqdır, lazımi təlimlər yoxdur. Əlbəttə, bunun inkişafı üçün son illər müsbət addımlar atılıb, lakin bu da kifayət etmir.

İranda turizmin inkişafının əsas problemlərindən biri də xarici ölkələrdə İslam Respublikası haqqında mənfi imicin formalaşması, İranda insan haqlarının pozulması iddiaları və turistlər üçün "təhlükə"nin olması kimi informasiyaların mətbuatda geniş yer almasıdır. İrana bir dəfə gedən şəxs bu ölkədə mövcud olan sabitlik və təhlükəsizliyin şahidi ola bilər."Guardian" qəzeti bir müddət öncə dünyanın 20 ən təhlükəsiz ölkəsinin adını açıqlamışdı ki, İran həmin siyahıda 17-ci idi.

İran İslam Respublikasının paytaxtını əhatə edən Tehran şəhəri siyasi, ictimai, iqtisadi və mədəni baxımdan çox böyük əhəmiyyətə malikdir. Bu göllər müvafiq su idman yarışlarının keçirilməsi və əyləncələrin təşkili üçün çox münasibdir. İrandakı ən böyük xizək arenaları Tehranın şimalındakı həmişə qış fəslinin hökm sürdüyü

hündür dağların ətəyində yerləşir. Bu şəhərin səfalı bağları və yaylaqları isə şəhərin şimalında və Ləvasanat, Taleqan və "Rudbar-e Qəsran"-da yerləşir. İranda olan muzey və hotellərin əksər hissəsi Tehranda yerləşir. Tehran şəhəri sənaye və ticarət baxımından çox yüksək səviyyədə inkişaf etmişdir. Bu şəhər iqtisadi cəhətdən İranın ən inkişaf etmiş, siyasi baxımdan isə ən əhəmiyyətli məntəqəsidir [4].

İranın ikinci iri şəhəri Məşəddir. Rəzavi Xorasan şəhərinin inzibati mərkəzidir. Şərq iqtisadi rayonunun ən böyük şəhəri, iqtisadi, siyasi və mədəni mərkəzidir. Məşhəd ərəbcə "müqqədəs şəxsin şəhid olduğu yer" mənasını bildirir. Belə bayramlarda şəhərin əhalisi təqribən 2 dəfə artır. Məşhədmemarlıq abidələri ilə zəngin bir yerdir. Burada Gövhərşad məscidi, Şah məscidi, Nadir şahın məqbərəsi və onun at üstündə tuncdan heykəli var. Qədim Tus şəhərinin xarabalığı Məşhəddən 25 km aralıdır. X əsrə aid körpü, Firdovsinin qəbri və s. qalmışdır [5].

Zəncan şəhəri turizm sənayesinin inkişafı və turistlərin cəlb olunması sahəsində böyük imkanlara malikdir. Qədim və çox qiymətli saraylar, qiymətli memarlıq üslubuna malik ziyarətgahlar və tarixi və dini binalar bu diqqətəlayiq mirasın yalnız bir hissəsidir. Bu şəhərdə mövcud olan binaların bəziləri (YUNESKO təşkilatının abidələr siyahısına salınmış böyük və tarixi Sultaniyyə binası kimi)1-ci dərəcəli turizm əhəmiyyətinə və dünya şöhrətinə malikdir. Ən böyük və dəbdəbəli islami binalardan biri olan Sultaniyyə binası Zəncan şəhərinin şərqində yerləşir.


Kiş adasının dəniz turizminin inkişafı üçün vacib yerlərdən biridir. Sahilin dərinliyinin az olması və suyun şəffaflığı səbəbindən dənizin dibi bir neçə metr dərinliyədək aydın görünür və sanki təbii bir akvariumdur.

Qumluq sahil, əyləncə məqsədli xizəksürmə, adanın ətrafına sahilboyu dolanan avtomobil yolu, 70 km-ə yaxın uzunluğu olan velotrek (burada gecədən xeyli keçənədək əyləncəli xizəksürmə idmanı ilə məşğul olurlar), velosiped kirayə stansiyaları, müxtəlif idman meydançaları: futbol, tennis, hovuz, voleybol, basketbol, şahmat, eskvaş (divar tennisi) olan olimpiya idman kompleksi, habelə bilyard və boulinq kimi idman növləri kompleksi qonaqların ləzzət aldığı məkanlardandır. Çoxlu sayda ahu və quşların təbii mühitdə yaşadığı sahil parkı, quşlar parkı, ahular parkı və Kiş vəhşi heyvanlar parkı, delfin parkı və delfinlərin gözəl oyunları qonaqları cəlb edir.

Yeraltı suvarma kanalının tarixi 2500 il əvvələ gedib çıxır. Bu kanal ada sakinlərini içməli su sarıdan təmin edirdi, lakin hazırda 10 000 kv. metr sahəsi olan heyrətamiz bir yeraltı şəhərə çevrilmişdir. Yunan gəmisi də Kiş adasının turistləri cəlb edən məkanlarından biridir. Adanın yerli ağacları təbii, buranın cəzbedici və

gözəl xəzinəsidir. Lur ağacı və ya müqəddəs əncir adanın ən məşhur ağacıdır. Bu növ ağaclar adanın cənub rayonlarında bitir. Lur ağacı bir neçə yüz il ömür sürə bilir.

Nəticə: İranın rəsmi statistikasına nəzər saldıqda aydın olur ki, turistlər bu ölkəyə əsasən ziyarət, müalicə, tarixi abidələr və təbiət mənzərələrini görmək və daha çox ticarət məqsədi ilə səfər edirlər. Turistlər daha çox Xorasan Rəzəvi (Məşhəd), İlam, Qərbi Azərbaycan, Ərdəbil, Şərqi Azərbaycan, Tehran, Xuzistan, Sistan və Bəluçistan və Gilan əyalətlərinə səfər edirlər. İrana səfərlər isə əsasən İraq, Azərbaycan, Türkiyə, Əfqanıstan, Pakistan, Türkmənistan, Səudiyyə Ərəbistan, Küveyt, Hindistan və Bəhreyn kimi ölkələrdən həyata keçirilir.




Şəkil 2:XARİCİ ZİYARƏTÇİLƏR GƏLƏN XARİCİ TURİSTLƏR

İstinad:TRAVEL & TOURISM ECONOMIC IMPACT 2017 IRAN

2016-cı ildə İranın turizm sənayesi birbaşa 559 min (ümumi məşğulluğun 2,2%) nəfəri işlə təmin etdi. 2027-ci ilə qədər sənayenin 670 min iş yeri meydana gətirəcəyi proqnozlaşdırılır [2].

Bura mehmanxana, səyahət agentlikləri, aviaşirkətlər və digər sərnişin daşımaları (şəhərətrafı xidmətlər istisna olmaqla) daxildir. Həmçinin, turistlərin birbaşa dəstəkləndiyi restoran və istirahət sahələri də daxildir.



Şəkil 3: Iranda Səfər və Turizmdə Kapital İnvestisiyası

İstinad:TRAVEL & TOURISM ECONOMIC IMPACT 2017 IRAN

İranda, səyahət və turizm kapital investisiyasını 2016-ci ildə 107,315 mlrd-nı cəlb etmişdir. Bu 2017-ci ildə 6.3% artmışdır,önümüzdəki on il ərzində 5,2% -daha artaraq 2027-ci ildə 191,392.0 mlrd olması gözlənilir[6].

Turistlərin 81%-iİranı öncədən tanıdıqları üçün, 14,5 %-i turizm turları ilə, 4 %-i peyk televiziyalarının təbliğatı vasitəsilə, 0,5 %-i isə İrandan kənarda təşkil olunmuş sərgilər vasitəsilə tanış olaraq İrana səfər edirlər.Proqnozlara görə, 21-ci əsrdə dünya üzrə turizm sənayesinin maliyyə dövriyyəsi artacaq və növbəti illər ərzində ən azı 2 trilyon dollara çatacaq. Turizm sahəsində geniş potensiala malik ölkələrdə maliyyə dövriyyəsinin bu məbləğin bir faizi həcmində olacağını nəzərə alsaq, bu, 20 milyard dollar gəlir deməkdir. Bu isə İran iqtisadiyyatı kimi iqtisadi sistemlər üçün göydəndüşmə bir fürsətdir və həmin vəsaitin əldə olunması digər iqtisadi sahələrə də təsir edə bilər.

Ədəbiyyat siyahısı

1. World Tourism Organization, Yearbook of Tourism Statistics, Compendium of Tourism Statistics and data files © 2018 The World Bank Group
2. TRAVEL & TOURISM ECONOMIC IMPACT 2017 March 2017, pp. 5.
3. https://az.trend.az/azerbaijan/society/2328884.html(25.04.2018)
4. http://baku.mfa.ir/index.aspx?siteid=439&pageid=25086(25.04.2018) / İranda turizm
5. https://az.wikipedia.org/wiki/Məşhəd(25.04.2018)

6. http://www.tehrantimes.com/news/412375/WTTC-sees-Iran-s-intl-tourist-arrivals-to-rise-by-11-6-in-2017 (25.04.2018) WTTC sees Iran's intl. tourist arrivals to rise by 11.6% in 2017

AZERBAYCAN TURİZMİNİN GELİŞİMİ

Taleh AGHAZADA
Öğretmeni Azerbaycan Turizm ve Yönetim Üniversitesi

taleh.aghazada@gmail.com

Turizm dünya üzerinde önemli etkisi olan bir hizmet sektörüdür ve hızla gelişmektedir. Tüm dünya üzerinde hizmet ticaretinin % 30'unu turizm sektörü oluşturmaktadır. Turizm diğer hizmetlerle iç içe olduğu için onun ülke ekonomisi üzerinde katkısı tam olarak hesaplanamamaktadır. Fakat karşılaştığımız literatürlerdende anlaşıldığı gibi ülke ekonomisinde turizmin katkı payı büyüktür.

Turizmin ülke ekonomisinde payı her geçen gün artmaktadır. Bununla beraber her geçen gün turizm harcamaları da artmaktadır. Buna örnek olarak yeni yapıtların yapılmasıyla beraber, eğitimlerin verilmesi, organizasyonların hazırlanması ve bu tarz faaliyetlerin hayata geçirilmesini gösterebiliriz.

Azerbaycan Cumhuriyeti'de son yıllarda özellikle 2006'dan yani Turizm Gelişim Programı Devlet tarafından onaylandıktan sonra bu tarz faaliyetler üzerinde çalışmaya başlamış ve bir çoğunu başarıyla sonuçlandırmıştır.

Gelecek yıllar içinde de bu programa dahil olan bir çok faaliyetler yapılması planlanmaktadır. Bu çalışmada bu faaliyetlerin ülke ekonomisinin kalkınmasında ne tür katkılar sağladığı ve yapılan faaliyetler tartışılacaktır.

Anahtar Kelimeler: Azerbaycan'da Turizm, Azerbaycan'ın Turizm Potansiyeli, Azerbaycan'da Turizm Organizasyonları, Turizm Gelirleri, Kalkınma

SUMMARY

THE DEVELOPMENT OF TOURISM IN AZERBAIJAN

Tourism is a service sector that has a significant impact on the world and developing rapidly. Over 30 % of service trades worldwide constitute the tourism

sector. Tourism sector is related to various large and small service sector, so it’s contribution to a country’s economy cannot be calculated fully. But, as we know from the literature we are comparing, the contribution of tourism in the country's economy is great.

The share of tourism in the country's economy is increasing day by day. However, tourism expenditures are increasing more and more every day. For example, we can see the development, the construction of new buildings and monuments, increasing number of studies about tourism, and new organizations in Azerbaijan.

Azerbaijan in recent years, especially since the approval of the State Tourism Development Program, in 2006, began to work on such activities and successfully concluded a majority.

In future, a lot of activities planned in this program. In this case, it will be discussed how these activities contributed to economy of country and about activities.

Keywords: Azerbaijan Tourism, Tourism Potential of Azerbaijan, Tourism activities in Azerbaijan, Tourism Revenues, Economic Development

Turizm, boş zaman ve tasarrufun nasıl kullanılacağıyla ilgili ekonomik bir kararla başlar ve ülke ekonomileri üzerinde çok büyük etkiye sahiptir. Az gelişmiş ülkelerde turizm, ekonomik açıdan çok yararlı bir sektör olup, kalkınma için gereken döviz girdisini sağlayarak ülkedeki ekonomik sorunların ortadan kaldırılmasında önemli rol oynamaktadır. Bu bağlamda turizm, gelişmekte olan ülkelerin ekonomik kalkınmalarını gerçekleştirebilmek için gerekli olan döviz girdisini sağlama, yeni gelir yaratma ve istihdam olanaklarını artırma özelliği ile bir çok ülkede öncelikli sektör haline gelmiştir.

Azerbaycan turizm potansiyeli (doğa, tarihi zenginlikleri, deniz, modern) oldukça yüksek olan bir ülkedir. Büyük turizm potansiyeline sahip olan Azerbaycan’da bunun etkisi ekonomi üzerinde az da olsa hissedilmektedir. Yapılan büyük yatırımlar sonucunda böyle neticelerin elde edilmesi beklentileri karşılamaktadır. Lakin Azerbaycan hükümeti turizmi yalnızca bir kazanç ve ya gelir getiren sektör olarak görmemeli, bunun yanı sıra küreselleşme olgusunun en önemli araçlarından biri olarak ele almalıdır. Ülkede yapılan organizasyon ve tanıtımlar sonucu her geçen yıl gelen turist sayısı artış göstermektedir.

Turizm diğer sektörlere göre fiyatlandırmada daha bağımsız olan bir sektördür. Yani, herhangi bir ihraç edilen ürün dünya piyasasında mevcut rakiplere göre

kıyaslanarak veya mevcut şartlara göre piyasalara sunulmaktadır. Ancak turizm kendi sınırları içerisinde daha çok döviz getirisi sağlamak açısından kaliteye göre fiyat aralığı belirleyebilen bir sektördür. Ülke içine giren bu döviz girdileri ilk önce bölgesel kalkınma için etkiler yaratır, sonra ise ülke genelinde yayılmaya başlar.

Turizm gelirlerin dengeli dağılımını sağlayan bir sektördür. Yani, gelişmiş ülkelerin vatandaşları az gelişmiş ülkelere seyahat etmekle o ülkelerde yaptığı harcamalarla oranın gelişimini sağlamaktadır. Bundan başka turizm bir hizmet sektörü olduğu için gelirler toplum kesimleri arasında düzenli olarak paylaşılmaktadır.

Turizm devlet gelirleri için önemli bir artış sağlamaktadır. Bu devletin yürüttüğü vergi siyasetine göre değişebilir. Devlet bir işletmeden turizm faaliyetlerinden elde edilen gelirlerden vergi, sosyal sigorta primlerinden vergi, işletme vergisi gibi direkt vergi almaktadır. Vize ücretleri, lisanslar, liman vergisi, gümrük vergisi, iç tüketim harcamaları, haberleşme ve ulaştırmadan sağlanan gelirler, su ve temizlik harçları, satış ve pul gelirleri vb. gelirler direkt gelirlerin dışında turizmden sağlanan devlet gelirleri içinde sayılabilir.

Devletler bu gelirleri alabilmek için bazı harcamalar da yapmaktadır. Devletin, turizmi teşvik etmek için yaptığı harcamaları aşağıdaki gibi sıralayabiliriz:

- vergi muafiyetleri
- yatırım indirimleri
- vergi iadeleri
- kredi ve sübvansiyonlar
- altyapı harcamaları
- idari harcamalar vb.

2015 verilerine göre GSMH'sı 167,8 milyar dolar, kişi başına düşen geliri: 17.745 dolar, okur yazar oranı % 98, ortalama ömür ise 75,2 yıl olan Azerbaycan ülkesinin idari yapısı ile sosyo-ekonomik göstergeleri aşağıda yer almaktadır.

Tablo 3.1 Genel Bilgiler (2016)

Ülke Adı	Azerbaycan
Başkenti	Bakü
Yönetim Biçimi	Cumhuriyet
Resmi Dili	Azerbaycan Türkçesi
Dini	İslam
Para Birimi	Manat
Ortalama Döviz Kuru (23.12.2016) Bir ABD Doları karşılığı.	1.75 Manat (AZN)

Yüzölçümü (km^2)	86.600
Nüfus (2016)	9.800.700
Yıllık Nüfus Artışı (%)	1,1
Nüfus Yoğunluğu (km^2/kişi) (2009-cu	105.8
Türkiye ile Saat Farkı	Azerbaycan 1 saat ileri
Özerk cumhuriyetler	Nahçivan 5502 km^2 Nüfus 43 bin
Büyük Şehirler	Gence, Sumgayıt, Lenkeran, Mingeçevir, Şeki, Kuba, Şirvan

Kaynak: https://tr.wikipedia.org/wiki/Azerbaycan (erişim tarihi:03.11.2016)

Tablo 3.1'de Azerbaycan ile ilgili genel bilgilere yer verilmektedir. Buna göre ülkenin başkenti Bakü'dür. Cumhuriyet ile yönetilen ülkede Azerbaycan Türkçesi konuşulmaktadır. Para birimi manattır ve 1,75 manat 1 ABD dolarına karşılık gelmektedir. Ülkenin yüzölçümü 86.600 km^2 ve nüfusu 9.800.700'dür. Buna göre ülkede ortalama olarak km^2'ye 1058 kişi düşmektedir. Azerbaycan'da Nahçivan bir özerk cumhuriyet olarak yer almaktadır. Gence, Sumgayıt, Lenkeran, Mingeçevir, Şeki, Kuba ve Şirvan büyük şehirler olarak sıralanmaktadır.

Tablo 3.2 Sosyal Göstergeler (2015-2016)

Ortalama Ömür	75,2
Kadın	77,6
Erkek	72,7
Okuma Yazma oranı (%)	98
Yüksek Öğretim Okul Sayısı	51
Yüksek Öğretimdeki Öğrenci Sayısı	168.041
Hastane Sayısı	559
Doktor sayısı	32.500
Gelen Turist Sayısı (bin)	974.0
Giden Turist Sayısı (milyon)	1.92
Eğitim Harcamaları (Milyon manat)	113.2
Sağlık Harcamaları / GSMH(%)	32.7
Karayolu Uzunluğu(km)	19.016
Demiryolu Uzunluğu (km)	2.446
Asgari Ücret (2016 itibarıyla)	136 (manat)

Kaynak: http://www.stat.gov.az/ (erişim tarihi:03.11.2016)

Tablo 3.2'de Azerbaycan'ın sosyal göstergelerine yer verilmektedir. Buna göre ülkede ortalama ömür 75,2 yaş, kadınlarda 77,6 yaş, erkeklerde ise 72,7 yaştır. Ülkede okuma yazma oran % 98'dir. Yükseköğretim okul sayısı 51,

yükseköğretimdeki öğrenci sayısı ise 168.041 kişi olmaktadır. Ülkenin eğitim harcamaları 113.2 milyon manattır. Ülkenin sağlık sektörünün durumuna göre hastane sayısı 559, tüm alanlara göre doktor sayısı 32.500 kişi, toplam sağlık hizmetleri harcamaları ise GSMH'ın % 32.7'ni kapsamaktadır. Karayolu uzunluğu 19.016 km, demiryolu uzunluğu ise 2.446 km'dir. Azerbaycan'da 2016 verilerine göre asgari ücret 136 manattır.

Tablo 3.3 Ekonomik Göstergeler (2015-2016)

GSMH (Milyar $)	167.843
Büyüme hızı (%)	10
Kişi Başına Milli Gelir ($)	17.745
Enflasyon Oranı (%)	10.2
İşgücü (Faal Nüfus milyon kişi)	4,915
İşsiz Sayısı (bin kişi)	243.7
Dış Ticaret (Milyon $) İhracat İthalat	 11.424,5 9.221,4
Diş ticaret hacmi (Milyon $) (2015)	20.645,9

Kaynak: http://www.stat.gov.az/ (erişim tarihi:03.11.2016)

Tablo 3.3'de Azerbaycan'ın ekonomik göstergeleri verilmiştir. 2015 verilerine göre Azerbaycan GSMH'sı 167.843 milyar ABD doları, kişi başına düşen milli gelir ise 17.745 ABD doları olarak hesaplanmıştır. Ülkedeki enflasyon oranı 10,2; büyüme hızı ise % 10 olarak belirlenmiştir. Azerbaycan'da faal işgücü 4,915 milyon kişi, işsiz sayısı ise 243 bin kişi olarak hesaplanmıştır. Dış ticaret hacmi 20,6 milyon ABD doları, ihracat hacmi 11,4 milyon dolar, ithalat hacmi ise 9,2milyon dolar olarak hesaplanmıştır.

Azerbaycan zengin doğal kaynakları, tarım için elverişli toprak örtüsü, Asya ve Avrupa arasında önemli coğrafi konumu, çalışmaya hevesli halkı ve tüm bu gibi faktörler sonucunda eski çağlardan bu yana ekonomisinde önemli gelişim kat etmiştir. Bu imkanlar XIX. yüzyılda petrol hasılatıyla daha da genişlemiş ve gelişim süreci daha da hızlanmıştır.

Bildiğimiz üzere Azerbaycan bağımsızlık döneminden bu yana çok hızlı gelişmiş, ekonomik olarak yükselmiştir. Bütçe gelirleri artarken insanların da sosyal refah seviyesi de yükselmiştir. İhracat sanayisi hesabına hızlı gelişim sağlayan Azerbaycan sonradan diğer sektörlerin de gelişimine etki göstererek onları da geliştirmiştir. Azerbaycan'ın senelere göre sosyal ve ekonomik gelişimi aşağıdaki tablolarda gösterilmiştir.

Tablo 3.4 Azerbaycan'ın Sosyal-Ekonomik Göstergeleri (milyon manat)

	2000	2005	2010	2015
GSMH	4.718,1	12.522,5	42.465,0	54.352,1
Sanayi Üretimi	3.639,5	9.308,8	27.978,2	26.369,0
Tarım, hayvancılık ve balıkçılık ürünleri	758,9	1.137,9	2.344,6	3.385,3
Lojistik sektöründe yük taşıma, bin ton	105,005	160,976	222,638	249,592
Ulaştırma (karayolu, deniz, hava, demiryolu) bin kişi	871,484	1.000,278	1.387,308	1.891,905
Yabancı Ticari İşlemler ABD Doları	2.917,3	8.558,4	33.160,7	20.645,9
İhracat	1.745,2	4.347,2	26.560,1	11.424,5
İthalat	1.172,1	4.211,2	6.600,6	9.221,4
Kişi başına düşen gelirler, manat	508,9	962,2	2.866,1	17.500
İşsiz sayı, kişi	43.739	56.343	38.966	24.370

Kaynak: http://www.stat.gov.az/ - Azerbaycan Cumhuriyeti Devlet İstatistik Kurulu (erişim tarihi:03.11.2016)

Tablo 3.4'de Azerbaycan sosyal ekomomik göstergelerinin bir kısmı gösterilmiştir. Tabloda beş yıl aralıklarla olan veriler yer almaktadır. Tablodaki rakamlardan gördüğümüz gibi Azerbaycan her sene GSMH'da artış sağlayarak diğer sektörleri de geliştirmiştir. Ancak son 2015 senesinde yabancı ticari işlemler azalmış, önceki senelere göre ülke gelirleri azalmıştır. Buna sebep dünya piyasasındaki petrol fiyatlarının düşüşü ve kriz olarak nitelendirebilmektedir. Tablodan çıkarılabilecek genel sonuç Azerbaycan daha petrol sektöründen bağımsızlığını tam olarak gerçekleştirememiştir. İşsiz sayısı yıllara göre azalmıştır. Kişi başına düşen gelirler artmıştır.

Tablo 3.5 Devlet bütçesinin Gelir ve Harcamaları (milyon manat)

	2005	2007	2011	2013	2015
Gelirler Toplam milyon manat	**2.055,2**	**6.006,6**	**15.700,7**	**19.496,3**	**17.498,0**

Bireysel şahıslardan alınan vergi	317,4	588,6	715,7	859,7	982,5
Kurumsal vergi	355,4	2.457,7	2.134,0	2.374,8	2.211,1
Toprak Vergisi	15,3	27,1	35,3	33,1	48,7
Emlak Vergisi	40,4	72,3	103,9	125,1	148,2
Katma Değer Vergisi (KDV)	599,9	1.179,2	2.222,7	2.710,0	3.454,7
Tekel Vergisi	141,0	402,9	480,2	593,3	647,8
Maden Vergisi	53,5	123,2	129,8	121,5	116,1
Yabancı Faaliyete göre Vergiler	205,2	293,2	433,1	675,2	934,5
Diğer Vergiler	28,1	68,6	140,6	161,5	247,7
Diğer Gelirler	299,0	793,8	9.305,4	11.842,1	8.706,7
Harcamalar Toplam milyon manat	**2.140,7**	**6.086,2**	**15.396,2**	**19.143,5**	**17.784,5**

Kaynak: http://www.stat.gov.az/ - Azerbaycan Cumhuriyeti Devlet İstatistik Kurulu (erişim tarihi: 03.11.2016)

Tablo 3.5'de Azerbaycan'ın devlet bütçesinin gelir ve harcamaları rakamlarla gösterilmiştir. Yukarıda olduğu gibi ülke gelirleri her geçen sene artmıştır. 2015 senesinde ise azalma göstermiştir. Bunun sebebi yukarıda belirttiğimiz gibi petrol fiyatlarındaki düşüş ve kriz olmuştur. Tablolara göre gelirlerin artmasına uygun olarak harcamalar ve vergiler de artmıştır.

Azerbaycan'a gelen turizm akınını karşılamak için bölgelerde ve başkent Bakü'de konaklama tesisleri sayıları artmaktadır. 2015 sayılarına göre Azerbaycan'da 536 konaklama tesisi yerli ve yabancı turistlere hizmet vermektedir.

Tablo 3.6 Azerbaycan'da Konaklama İşletmeleri ve Yatak Kapasitesi

	2008	2009	2010	2011	2012	2013	2014	2015
Konaklama tesisi sayısı	370	-	-	508	514	530	535	536
Oda sayısı	12.789	13.964	14.158	14.815	15.898	16.559	17.363	17.953
Yatak sayısı	28.286	30.571	30.793	31.979	32.834	33.951	35.652	37.278
Sezonda kullanılan oda sayısı 1 ay	7.908	8.151	9.015	9.148	10.148	10.661	11.045	11.646

Sezonda kullanılan yatak sayısı 1 ay	17.428	16.860	18.722	18.746	19.152	20.100	21.181	22.739
Lüks oda sayısı	1.994	2.286	2.445	2.645	2.627	2.509	2.419	2.476
Üst sınıf oda sayısı	6.066	6.700	5.825	5.974	6.429	6.266	6.970	7.068
Standart oda sayısı	4.729	4.978	5.888	6.196	6.842	7.784	7.974	8.409

Kaynak: http://www.stat.gov.az/ - Azerbaycan Cumhuriyeti Devlet İstatistik Kurulu (erişim tarihi: 03.11.2016)

Tablo 3.6'da verildiği üzere her geçen sene Azerbaycan'da konaklama tesisleri artmaktadır. Özellikle 2006 yılından itibaren konaklama tesisleri ve yatak kapasitesinde hızlı artış görülmüştür. Konaklama işletmeleri Bakü'nün yanı sıra diğer bölgelerde de inşa edilmiştir. Bunun da Azerbaycan'da bölgesel kalkınmanın hızlanmasına önemli etkisi olmuştur. Örneğin, Kabala, İsmayıllı, Naftalan ve Şeki bölgesinde zincir oteller kendi şebekelerini kurmuş bunun sonucu bölgesel altyapı daha da iyileşmiştir. Tablodaki sayılardan da yıllar itibariyle artış anlaşılabilir.

Tablo 3.7 Azerbaycan'da Seyahat Acentesi ve Tur Operatörlüğü Hizmeti Veren İşletmeler ve Çalışan Kişi Sayısı

	2001	2002	2006	2007	2010	2013	2014	2015
Sektörde çalışanların sayısı	127	319	779	1.115	1.418	1.729	1.794	1.586
Turizm faaliyeti	18	39	96	117	126	197	218	243

Kaynak: http://www.stat.gov.az/ - Azerbaycan Cumhuriyeti Devlet İstatistik Kurulu (erişim tarihi: 03.11.2016)

Tablo 3.8 Konaklama Tesislerinde Çalışan Kişi Sayısı

	2002	2005	2008	2011	2013	2015
Konaklama tesislerinde çalışan	1.956	4.092	5.616	6.198	8.259	8.364
Konaklama tesislerinde	715	1957	3323	3616	5526	5670

Kaynak: http://www.stat.gov.az/ - Azerbaycan Cumhuriyeti Devlet İstatistik Kurulu (erişim tarihi: 03.11.2016)

Tablo 3.7 ve Tablo 3.8'deki verilere göre yıllar içinde turizmde istihdam seviyesi artmıştır. İstihdam seviyesinin artışı yeni iş yerlerinin açılması ile açıklanabilir ve gelir paylaşımı doğru planlanmışsa, insanların refah seviyesi de artmış olacaktır. Bu sektöre kalifiye eleman almak için ilk senelerde yabancı ülkelerin yardımına başvurulsa da şu an bu sektörde eğitim seviyesi üst sıralardadır. Eğitimin arttırılması, bölge halkının kültür düzeyinin iyileşmesine yol açmış ve bölgenin kalkınmasıyla sonuçlanmıştır.

Tablo 3.9 Uluslararası Turist Varışları (bin kişi)

	2003	2007	2011	2014	2015
Gelen yabancılar (toplam)	1038.	1332.	2239.	2297.	2006.
Karayolu	651.9	814.3	792.2	748.9	660.0
Demiryolu	163.0	211.9	372.8	293.4	230.7
Havayolu	216.9	297.2	795.5	1089.	968.9
Denizyolu	6.2	9.3	19.9	16.1	32.1
Yabancı ülkelere giden	1474.	1631.	3550.	4244.	4095.
Karayolu	926.1	987.9	1239.	1358.	1302.
Demiryolu	211.4	265.3	578.7	380.1	352.2
Havayolu	325.8	360.8	1285.	2245.	2151.
Denizyolu	11.4	17.3	39.0	29.7	53.2

Kaynak: http://www.stat.gov.az/ - Azerbaycan Cumhuriyeti Devlet İstatistik Kurulu (erişim tarihi: 03.11.2016)

Tablo 3.9'da görüldüğü üzere Azerbaycan'da turizm sektörünün altyapısını oluşturmak için yatırımlar yapılmış, turist hareketleri için yollar inşa edilmiştir. Bakü'den Rusya, İran ve Gürcistan sınırlarına ve yurtiçi diğer bölgelere kaliteli ve çok şeritli otoban ve karayolları yapılmış ve geliştirilmiştir. Bakü-Moskova, Bakü-Tiflis demiryolları müşterilere hizmet vermektedir. 7 Şubat 2007 tarihinde imzalanan antlaşmaya göre Bakü-Tiflis-Kars demiryolu hizmetleri gelecek senelerde hizmete açılacaktır.

Demiryolları ve karayollarının yanı sıra Azerbaycan'da şuan da altı havaalanı faaliyet göstermektedir. Bu havaalanlarında turistler için yeni terminaller yapılmıştır.

İpek Yolu'nun eski önemini geri kazanması Azerbaycan'ı Avrupa'yla Asya'nın ortak geçiş noktası haline getirmiştir. Hazar Denizi de transit olarak kullanılmaya başlanmıştır. 2015 yılında kullanılmaya başlayan İpek Yolu projesi Azerbaycan'da yeni deniz kanunları ve vergileri çıkarmaya ortam yaratmıştır. Bu proje sayesinde Azerbaycan'ının tanınırlığı daha da artacak, turizm seferleri de hızını arttıracaktır.

Sonuç olarak, Azerbaycan elindeki olanakları iyi şekilde değerlendirecek ve potansiyeli kullanarak turizm sektörünü ülke ekonomisinde önemli katkı payı olan bir sektör haline getirecektir.

KAYNAKÇA

1. ADİK (2016) Azerbaycan Devlet İstatistik Komitesi. (http://www.stat.gov.az/). Bakü.

2. Devlet Planlama Teşkilatı (2007) Dokuzuncu Kalkınma Planı (2007-2013)-Turizm Özel
3. Kozak, N. (2008). Genel Turizm Bilgisi. Eskişehir: T.C. Anadolu Üniversitesi Yayını
4. Tuyluoğlu, T. (2003). Türkiye'de Turizm Eğitiminin Niteliği. Yayımlanmamış Yüksek
5. Lisans Tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Halkla İlişkiler ve Tanıtım Bölümü, Ankara.

Vüsalə Mirsəməd qızı Abbasova
AMEA İqtisadiyyat İnstitutunun elmi işçisi
e-mail: shobe5252@mail.ru

KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Kənd təsərrüfatının tənzimlənməsi üzrə məqsəd və prinsiplərin müəyyənliyi

Nəzərə almaq lazımdır ki, kənd təssərüfatında istehsalın davamlı inkişafı ilə yanaşı həmçinin kənd yerlərində yeni iş yerlərinin yaradılması strateji yol xəritəsinin əsas hədəflərindən biridir. Belə ki, 2020-ci il üçün hədəflərin orta müddətli dövr üçün reallaşması nəticəsində 20 mindən daha çox yeni iş yerlərinin yaradılması gözlənilir [1].

Kənd təsərrüfatının dövlət tənzimlənməsi bu sahəyə dövlət dəstəyi çərçivəsində həyata keçirilməli və özlüyündə sistemli olaraq prinsipləri, vəzifələri və s. birləşdirməlidir. Kənd təsərrüfatının inkişafına ÜTT-nin Azərbaycan üçün üzvlük qaydaları və dünya ərzaq bazrının konyukturası nəzərə alınmaqla müxtəlif səviyyəli idarəetmə və tənzimlənmə tədbirlərini xüsusi vurgulayaraq hesab edirik ki, respublikamızda məqsədin effektiv inkişaf və sabitləşmə olması aşağıdakı prinsip-vəzifələri ehtiva etməlidir. Təqdim etdiyimiz şəkildə nəzərdə tutulan prinsip və funksiyalar məcmu halda verilmişdir (bax şəkil 1)

Kənd təsərrüfatının dövlət tənzimləməsi


<table>
<tr><td colspan="5">ÜTT-nin üzvlük qaydaları və dünya ərzaq bazrının tələbləri nəzərə alınmaqala müxtəlif səviyyəli idarəetmə və dövlət tənzimlənməsi.</td></tr>
<tr><td colspan="5">Məqsəd: kənd təsərrüfatının effektiv inkişafı və stabilləşmə</td></tr>
<tr><td colspan="5">Prinsipləri:</td></tr>
<tr><td colspan="2">• İlk növbədə milli, dövlət və ümumi ictimai maraqların nəzərə alınması;
• Müasir iqtisadi şəraitə uyğunluq;
• Kənd təsərrüfatı fəaliyyətinin bütün subyektlərinə bərabər şərtlərin yaradılması;
• Aqrar münasibətlərin tənzimlənməsi sahəsində qanunvericilik tələblərinə əməl olunma;</td><td colspan="3">• Tənzimləmə fəaliyyətinin kompleks xarakteri;
• Kənd təsərrüfatının dövlət tənzimlənmə sisteminin reallaşdırılması nəticəsində yüksək iqtisadi, ekoloji, sosial effektlərin əldə olunmasına istiqamətlənmə;
• Sistemin elmi baxımdan əsaslandırılması və praktiki əhəmiyyəti;</td></tr>
<tr><td colspan="5">Funksiyaları:</td></tr>
<tr><td colspan="2">• Sahə maraqlarının dəstəklənməsi;
• Kənd təsərrüfatının inkişaf strategiyası və proqramının işlənməsi və reallaşması;
• Istehsal həcminin və çeşidlərinin tənzimlənməsi;
• İnzibati dəstək;
• Sahədaxili balansın formalaşdırılması;
• Maliyyə dəstəyi, sığortalanma;</td><td colspan="3">• Kadrlarla təminat, onların kəndlərdə möhkəmlənməsi üçün şəraitin yaradılması;
• Daxili bazarın qorunması, daxili rəqabətin inkişafı;
• Bazarda tarazlığın dəstəklənməsi;
• Aqrar elmin inkişafı, qabaqcıl texnologiyaların tətbiqi;</td></tr>
<tr><td colspan="2">Qanunverici xüsusiyyətli tədbirlər
(qanunlar, əmrlər, təlimatlar, sərəncamlar)</td><td>İnzibatı xüsusiyyətli tədbirlər
(qaydalar, tövsiyələr, icazə)</td><td colspan="2">İqtisadi xüsusiyyətli tədbirlər
(maliyyə, vergi, kredit,qiymət siyasətləri)</td></tr>
<tr><td colspan="5">Mexanizmlər:</td></tr>
<tr><td>Təşkilati-inzibati mexanizm</td><td>Sosial istiqamətli dəstək mexanizmi</td><td>Maliyyə-büdcə dəstək mexanizmi</td><td>Innovasiyalı inkişaf mexanizmi</td><td>Xarici ticarət münasibətlərinin tənzimləmə mexanizmi</td></tr>
</table>

Alətlər: (Vasitələr)
Vergi sistemi, kredit sistemi, lizinq, qiymət, sığortalanma sistemi, himayədarlıq, kvota sistemi, dotasiya sistemi, xərclərin kompensasiyası və subsidiyalaşma, aqrar bazarda alqı-satqı və əmtəə müdaxiləsi

Mənbə: [2].

Kənd təsərrüfatına dövlət dəstəyi üzrə müəyyən olunmuş altsistemlər.

Şəkil 2. [3, s.60]



Qeyd etdik ki, tənzimlənmə dövlət dəstəyi çərçivəsində həyata keçirilməli və reallaşdırılmalıdır. Ümumi halda bunun yerinə yetirilməsi üçün müxtəlif altsistemlər lazımdır. Altsistemləri aşağdakı kimi qruplaşdırmaq olar (bax şəkil 2).

Təqdim olunmuş şəkildən aydın görsənir ki, dövlət köməyinin əsas istiqamətlərindən biri, və olkəmiz üçün daha aktual olanı kənd təsərrüfatı məhsullarının qiymət səviyyəsinin dəstəklənməsidir. Məlumdur ki, istənilən

iqtisadi prosesin bir səmərəlilik göstəricisi hesablanılır və ümumi halda bu cür müəyyənləşir:

Səmərəlilik=Nəticə/İstifadə olunmuş resurslar

Aqrar sahə üçün qeyd olunan səmərəliliyin hesablanması məqsədi ilə biz M_c-cari il ərzində kənd təsərrüfatı məhsulundan əldə olunan ümumi mənfəət göstəricisini seçməyi təklif edirik. Resurs timsalında isə kənd təsərrüfatının dövlət dəstəyi ümumi (məcmu) göstəricisindən istifadə olunması təklif olunur (DDÜG).

Dövlət dəstəyinin ümumi göstəricisi və onun hesablanması metodikası

DDÜG-nın hesablanması üçün ÜTT-nin əsas metodik göstəricisi ümumi dəstək tədbiri-AMS təklif olunur. Burada P_d- istehsalçının daxili qiymətləri, P_b-dünya qiymətləri, Q-məhsul satışının həcmi, S-subsidiyalar (“sarı zənbilə aid olan), T-vergilər (şəkil 3). Göstərici üzrə sadələşdirilmış hesablamalarda dünya qiymətləri nəzərə alınmır.

Şəkil 3.

AMS kənd təsərrüfatının dəstəklənməsinin ümumi (məcmu) tədbirlərinin hesablanması metodikası.

$AMS = (P_d - P_b) \cdot Q + S - T$

Pd-Pb-ni P ilə əvəz edək. P-kənd təsərrüfatı məhsulunun reallaşdırma qiymətidir.

↓

$AMS^1 = P \cdot Q + S - T$

P·Q-nü V(məhsul satışından əldə olunan gəlir) ilə əvəz

$AMS^2 = V + S - T$

V-T-ni (məhsul satışından əldə olunan mənfəət) Pr ilə əvəz edək

$AMS^3 = Pr + S$

$AMS^{sadələşdirilmiş} = DDÜG = M_f + M$

M_f-məhsul satışından əldə olunan mənfəət, M-bütün səviyyələrdə büdcədən maliyyələşdirmə

Mənbə: [3, s.62]

Kənd təsərrüfatında dövlət dəstəyinin məcmu göstəricisi DDÜG –(dövlət dəstəyinin ümumi göstəricisi) kənd təsərrüfatı məhsullarının ümumi mənfəətinin məbləği kimi hesablanır (dövlət dəstəyi istisna olmaqla). Keçmiş il üzrə alınan mənfəət M_k və MY_{cari} yerli icra hakimiyyətinin və bələdiyyələrin büdcələrindən maliyyələşdirməsi məqsədə müvafiqdir.

Hesablamalar əslində dövlət dəsəyinin kənd təsərrüfatı üçün nə dərəcədə effektli olmasını üzə çıxarmalıdır. Bu baxımdan kənd təsərrüfatında dövlət dəstəyinin effektivlik əmsalının ($E_{ə}$) hesablanması aşağıdakı düsturda təqdim edilmişdir. Nəzərə almaq lazımdır ki, bu hesablama ən yaxşı halda keçen və cari il üzrə hesablanması təklif olunur. Burada keçən il üzrə dedikdə məhsul satışından əldə olunan mənfəətin cari il üzrə büdcədən maliyyələşdirmə resurslarını təşkil etməsi nəzərdə tutlmuşdur. Onlar cari il üzrə kənd təsərrüfatı istehsalına yönəlir. Alınan məbləğ kənd təsərrüfatının cari il üzrə ümumi dövlət dəstəyinin yol verilə bilən səvviyəsini təşkil edir:

$$E_ə=M_{cari}/ DDÜG$$

və ya $$E_ə=M_{cari}/(M_k+MY_{cari})$$

[5]

Təqdim olunan hesablama metodikası fikrimizcə ən mütərəqqi hesab olunmalıdır. Belə ki, dövlət dəstəyinin effektivliyini ayrı-ayrı kənd təsərrüfatı məhsulları üzrə və ya sahə üzrə müəyyənləşdirmək mümkün olur. Bura ölkənin ümumi kənd təsərrüfatı, eləcə də iqtisadi rayonun kənd təsərrüfatı sahəsi daxil edilir. Onun vasitəsilə il ərzində kənd təsərrüfatının dövlət dəstəklənməsinin imkan verilən səviyyəsi müəyyənləşdirilir. Eyni zamanda dövlət dəstəyi nəzərə alınmaqla kənd təsərrüfatı təşkilatlarinin ümumi iqtisadi effektivliyi də müəyyənləşə bilər. Daha doğrusu metodika kənd təsərrüfatı üzrə dövlət dəstəyinin istifadəsinin effektivliyinin kəmiyyət və keyfiyyət qiymətləndirilməsini müəyyənləşdirəcəkdir.

Kənd təsərrüfatı təşkilatlarının effektivlik işinin qiymətləndirilməsində modifikasiya olunmuş Harrinqton şkalasından istifadə təklif olunur.


Harrinqton şkalasının tərkibində dərəcələrə ayrılması və ona uyğun rəqəm göstəriciləri təsvir olunur. Bu rəqəmlərin mahiyyəti böyük göstəricilər üzrə statistik analizlər əsasında müəyyənləşir. Bu zaman şkala unversal tətbiqə malik olur. Müvafiq modifikasiyalar müxtəlif xarakterli göstəricilərin qiymətləndirilməsində də istifadə oluna bilər. Qiymətləndirmə baxımından onu qeyd edə bilərik ki, kənd təsərrüfatı təşkilatlarının işinin iqtisadi effektivliyini müəyyənləşdirmək mümkün olacaqdır [4, s.29].

Dövlət dəstəyinin köməyi nəzərə alınmaqla kənd təsərrüfatı təşkilatlarının işinin effektivliyinin qiymətləndirilməsinə əsasən deyə bilərik ki, onların işi effektiv və ya qeyri effektivdir. Qiymətləndirmə həmçinin dövlət dəstəyi mexanizmində baş verən nöqsanları da üzə çıxarmağa imkan verəcəkdir.

Qeyd olunanları nəzərə alaraq hesab edirk ki, ümumi halda kənd təsərrüfatına dövlət dəstəyi mexanizmi sığorta sistemi də nəzərə alınmaqla aşağıdakı sxem-blokda təklif oluna bilər (bax sxem 1).

İqtisadi rayonlar üzrə kənd təsərrüfatının dövlət dəstəyi mexanizmi.

Sxem 1. [4, s.30]



ÜTT-nin tələbləri çərçivəsində

ÜTT-nin tələblər çərçivəsində

Rayon (yerli) büdcəsindən

Dövlət büdcəsindən

maliyyələşdirmə

maliyyələşdirmə

Sxemdə göstərilən dövlət dəstəyi mexanizminin əsasını məcburi sığorta sistemi və kənd təssərrüfatı təşkilatlarının işinin səmərəliliyinin daimi monitorinqi təşkil edir.

Məlumdur ki, kənd təsərrüfatı istehsalı yüksək risk səviyyəsinə malikdir. Xüsusilə bu bitkiçilik məhsulunda hava iqlim şəraitinin təsiri ilə bilavasitə bağlıdır. Bunları nəzərə alaraq kənd təsərrüfatı üçün dövlət dəstəyinin əsas istiqamətlərindən biri kimi sığortanın təkmilləşdirilməsi seçilir. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun

olaraq bu isiqamətdə müvafiq metodika, sığorta dəyərinin və kənd təsərrüfatı məhsullarının itki həcminin müəyyən olunması mümkündür. Bu baxımdan məhsulun sığorta dəyərini növündən aslı olaraq aşağıdakı kimi müəyyənləşdirə bilərik:

1) İstehsalçılar üçün orta qiymətin müəyyən olunması kənd təsərrüfatı məhsullarının növləri üzrə əsasən bitkiçilik məhsullarına uyğun gəlir;
2) Cari il ərzində konkret kənd təsərtüfatı məhsulları növləri üzrə əkin sahələrinin həcmi əsas götürülür;
3) Kənd təsərrüfatı məhsulları növləri üzrə əkin sahələrinə uyğun öncəki 5 il ərzində orta məhsuldarlıq hesablanır.

NƏTİCƏ

Fikrimizcə, orta qiymətlərdən istifadə etmək bir sıra hallarda effektli olmaya bilər. Belə ki, qiymətlərin reallaşdırılması bir sıra amillərdən asılıdır. İnflasiya, tələb və təklif, xərclər, dünya bazar qiyməti (il ərzində

əhəmiyyətli dərəcədə dəyişə bilər). Bu halda mövcud metodika kənd təsərrüfatı məhsul istehsalçılarının maliyyə itkilərini nəzərə almır. Bu nöqsanları aradan qaldırmaq üçün biz il üzrə təminatlı qiymətdən istifadəni təklif edirik.

$$Q=M\cdot(100+N)\%, \quad [3]$$

Q-sığorta ili üzrə zəmanətli qiymətdir; M-konkret kənd təsərrüfatı üzrə bitkiçilik məhsul növlərinin orta maya dəyəri, N-kənd təsərrüfatının rentabellik normasıdır. Hesablamalar onu deməyə əsas vermişdir ki, sığorta sistemi daha təkmil formada təqdim edilməli, bir sıra obyektlərdə kənd təsərrüfatı texnikası da daxil olmaqla sığortalanmalıdır. Bu bitkiçilik məhsullarının istehsalı üçün çox vacibdir və dövlət dəstəyinin təkmilləşmə mexanizmi dövlət tərəfindən istifadə üçün ayrılmış maliyyə vəsaitlərinin səmərəli istifadəsinə imkan verəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi. Bakı-2016

2. А.Сагайдак Опыт государственного регулирования в сельском хозяйстве США // АПК: экономика, управление. 2002. № 2. С.22.

3. С.Данкверт, В.Лавровский Государственная поддержка агропроизводства в Канаде //АПК: экономика, управление. — 2004. № 3. С.57-62.

4. И.А.Минаков, В.А.Кувшинов Эффективность и особенности государственной поддержки сельского хозяйства региона // Экономика сельскохозяйственных и перерабатывающих предприятий. — 2010. — № 8. — С. 28–30.

5. А.А.Ремезков Государственное регулирование экономики АПК/ А.А.Ремезков [Электронный ресурс]. - 2008. - Режим доступа: http://ej. kubagro.ru/get. asp? id=142&t=1

XÜLASƏ

Kənd təsərrüfatinin inkişafina dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi

Təqdim olunan məqalədə aqrar sahənin inkişafı üçün dövlət tənzimlənməsi mexanizmlərinin əsas vəzifələri öyrənilibdir. Birinci vəzifə kimi kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsi əsas götürülmüşdür. Qiymət tənzimlənməsindən çıxış edərək həmçinin dövlət dəstəyinin alt sistemləri də sxematik olaraq verilmişdir. Nəticə çıxarılmışdır ki, sahədə risk səviyyəsinin yüksək olduğunu nəzərə alaraq sığorta dəyərinin müəyyən olunmasında müxtəlif hesablama metodikası həyata keçirilməlidir. Həmçinin kənd

təsərrüfatı məhsullarının dəyərinin müəyyən olunmasında orta qiymət amilindən istifadə olunması məqsədəuyğun deyildir.

Açar sözlər - inkişaf, iqtisadiyyat, tənzimləmə, metodika, qiymət, faktor

SUMMARY

The improvement of state support for development of agricultural

In presented article main purposes of state regulation mechanism for development of agrarian sector are studied. As a first purpose - price regulation of agrarian products were chosen in article. In article as a schematic sub - system of state support by price regulation are given as well. In result analysis defined that for definition of insurance cost must be realized different calculation methods. Also in article showed that for usage " middle price" factor on definition cost of agricultural products didn't accessible.

Key words - development, economy, regulation, method, price, factor

AZƏRBAYCAN MİLLİ KULİNARİYASININ TURİZM İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİRİ.

i.ü.f.d., baş müəllim Vüsal Rza oğlu Rzayev
müəllim (ADAU dissertant) Nuran Miraqil oğlu Hüseynli
magistrant, Ülfət Şakur qızı Məmmədova
Lənkəran Dövlət Universiteti
vusal.rzayev.82@inbox.ru
uhebibli@mail.ru

Müstəqiliyinin bərpasından sonra ölkəmizdə türizm sənayesinin inkişafı dövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan

Respublikası Prezidentinin 16 mart 2016 –cı il tarixli 1897 nömrəli sərancamı ilə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Stratejik Yol Xəritəsi" də 2020 –ci ilə qədər stratejik baxış, 2025 –ci ilə qədər və ondan sonrakı dövrü əhatə edən uzunmüddətli stratejik yol xəritəsi turizmin ölkəmiz üçün əhəmiyyətli bir sahə olduğunu göstərməkdədir.[1] Son illərin statistik göstəricilərinə görə, turizm Azərbaycanda daim inkişaf edən sektorlardan biri olmuşdur. Belə ki, son 5 ildə Azərbaycanda turizm sektorunda xidmət göstərən sahibkarlıq subyektlərinin və turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında müvafiq olaraq 4,5 və 8,5 faiz ortaillik sabit artım müşahidə edilmişdir. Bunun məntiqi nəticəsi kimi 2016 -cı illə müqayisədə 2017 –ci ildə Azərbaycana gələn xarici vətəndaşların sayı 20% artaraq 2 milyon 691 min 998 nəfər olub. [3] Bu da ölkədə turizm potensialının artım tempini özündə əks etdirir.

Ölkə iqtisadiyyatının gələcək inkişafı ilə bağlı mövcüd turizm potensiyalının beynəlxalq aləmdə tanıtımı, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrasturukturunun yaradılması və inkişaf etdirilməsi ilə bağlı elmi tədqiqat işlərinin aparılması hazırda ən aktual məsələlərdən biridir. Bu sahələrdən biri də milli kulinariya ilə bağlıdır. Azərbaycan mətbəxi öz tarixi kökləri və özünəməxsusluğu ilə həm regionun xüsusiyyətlərini özündə birləşdirir, həm də çoxçeşidliyi ilə fərqlənir. Ölkəmizin zəngin mətbəx mədəniyyətini onun dadlı xörəklərindən, ətirli içkilərindən və gözəl meyvələrindən daha üstün olan bir amil səciyyələndirir. Azərbaycanlıların mətbəx fəlsəfəsinin əsasında yüksək qonaqpərvərlik durur. Bütün bunlar isə Azərbaycanda mətbəx turizminin potensialından xəbər verir.

Qidalanma bioloji varlıq olan olan insanın həyatında özünəməxsus yer tutur. Turistin getdiyi məkanda özünün fizioloji ehtiyaclarının ödəməsi, o cümlədən qidalanması turizmdə ayrıca bir sahə olaraq

inkişaf etməyə başlamışdır. Dünyada qida müəssisələrinin vahid qəbul edilmiş təsnifatı yoxdur. Lakin bir çox ölkələrdə kütləvi xidmət gösətərən qida müəssisələri tipləri vardır. Qida müəssisələri xidmətin səviyyəsinə, mətbəxinə, təqdim edilən yeməklərin çeşidinə, iş rejiminə, yerlərin sayına, müştərilərə xidmətinə görə bir neçə kateqoriyalara bölünməkdədir. Bunlar arasında xidmət zamanı çətin hazırlanan çeşidli yeməklərin, qəlyanaltı, qənnadı, içkilərin, desert, meyvə və sairlərin geniş seçiminə malik ictimai iaşə müəssisəsi olan restoranlar daha geniş yayılıb. Eyni zamanda "Fast Food", "McDonalds", "Burger King", "Pizza Hut" kimi sürətli qida müəssisələri də artıq ölkələrinin milli brendləri halına gəlmişlər. [2] Lakin Azərbaycanın qida sənayesinin inkişafı və turizm iqtisadiyyatının formalaşmasına təsir edə biləcək milli kulinariyası onu digər ölkələrdən bir addım önə çıxarır. Belə ki, qədim tarixi kökü olan Azərbaycan xalqının milli kulinar zənginliyi turizmdə yeni formalaşmağa başlayan "mətbəx turizmi" bölməsinin inkişafına təkan

verəcəkdir. Azərbaycanda müvafiq icra hakimiyyəti orqanlarının dəstəyi ilə, bir çox turizm bölgələrinə təşkil olunan “Kulinariya turları” mövzunu aktuallığını bir daha göstərməkdədir.

Azərbaycanın milli mətbəxinin zəngin çeşidinin qədim tarixi kökləri vardır. 1562 -ci ildə Azərbaycana gələn ingilis səyyahı Antoni Cenkinson Şamaxıda Şirvan bəylərbəyi Abdulla xan Ustaclının qonağı olarkən nahar yeməyinin çeşidlərinə heyrətlənmişdi. O yazırdı: "Nahar vaxtı gəlib çatdıqda döşəməyə süfrələr salındı və müxtəlif yeməklər gətirildi, yeməklər çeşidinə görə sıra ilə düzülmüşdü. Mən apardığım sayıma görə 140 növ yemək verilmişdi. Onları yığışdırdıqdan sonra yeni süfrələr salınıb, meyvələrdən başqa qonaqlıq yeməklərindən ibarət 150 növ bulud gətirdilər, beləliklə, iki dəfəyə 290 yemək növü verilmişdi". [4] Digər tarixi mənbələrdən birində Osmanlı səyyahı Evliya Çələbi xatırladır ki, "burada 12 imamın adı ilə bağlı 12 aşpazxanada minlərcə adam işləyirdi". Bunları o çörəkçi, yuxa salan, şatır, aşçı, piti

bişirənlər, kababçı, çayçı, halvaçı, qənnadıçı, şərbətdar və s. deyə qeyd edir. Xörəklərin və məmulatların həmin qruplarının adları ilə mütəxəssislər bu gün də bizim kütləvi iaşə müəssisələrində çalışırlar. Əməyin belə daxili bölgüsü və onun inkişafı eyniadlı xörəklərin say artımına səbəb olmuşdur. [7]

Milli kulinariya tarixi qədim və zəngin olan ölkəmizdə, qastronomik turizmin inkişafı ilə bağlı bu gündə müxtəlif tədbirlər keçirilir. Məsələn, 15 mart 2017 ci ildə ölkəmizdə ilk dəfə olaraq "Plov festifalı" keçirilmişdir. Festifalda Qarabağ, Şirvan, Qazax-Gəncə, Quba-Xaçmaz, Lənkəran, Bakı və digər regionların "Şah plov","Səbziplov", "Şüyüd plov", "Fisincan plov", "Boranı plov", "Müntəncəm plov" və digərləri daxil olmaqla 20-ə yaxın növdə plov nümayiş edilib. Ümumilikdə isə, milli kulinariyanın şahı sayılan plovunun 200 –dən artıq növü vardır. [6] Dövlət tərəfindən qeyri – maddi mədəni irsimizin qorunması, onun təbliği istiqamətində mütəmadi işlər görülməkdədir. Belə ki, 2016 –cı ildə Lavaş, 2017 –ci

ildə isə Dolma YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınmışdır. [5] Bu da milli yeməklərimizin digər dövlətlər tərəfindən özünükləşdirməsinin qarşısının alınmasına xidmət edir.

Dünyada milli mətbəxə əsaslanan bir çox restoranlar mövcuddur. Onların arasında daha məhşurlarına fransız, italyan, çin, türk, hind, yapon mətbəxlərini misal gətirmək olar. Adətən turistlər getdikləri ölkənin mətbəxi ilə tanış olmağa meyilli olurlar. Hətta yuxarıda qeyd edildiyi kimi, bəzi turistlərin səyahətlərinin əsas məqsədi qastronomik turda iştirak etməkdir. [6] Milli kulinarıyamızın zənginliyi ölkəmzin turizm potensialının artırılmasına və iqtisadi gəlirlərin artmasına da öz töhvəsini verə bilər.

Cədvəl 1.

2013 – 2017 –ci illərdə səfərlərin məqsədinə görə yerləşdirilmiş turistlərin sayı.

Göstəricilər / İllər	2013	2014	2015	2016
Səfərlərin məqsədinə görə yerləşdirilmiş turistlərin sayı (nəfər)	666348.0	672345.0	838145.0	1122068
İstirahət, əyləncə (nəfər)	226464.0	237506.0	256285.0	565738
İşgüzar səfər (nəfər)	232796.0	206234.0	275896.0	258299
Müalicə (nəfər)	45060.0	70981.0	68896.0	11450
Digər turizm məqsədilə (nəfər)	42617.0	35922.0	37282.0	33814
Sair məqsəd ilə gələnlər (nəfər)	119411.0	121702.0	199786.0	252767

Rəsmi statistikaya görə (cədvəl - 1.) 2013 – 2017 – ci illərdə səfərlərin məqsədinə görə yerləşdirilmiş

turistlərin əksəriyyəti əyləncə xarakterli turizm növünü seçmişlər. Daha sonrakı yerlərdə isə, işgüzar və müalicə turizmi məqsədi ilə gələnlər tutur. Digər turizm məqsədi ilə gələnlərin sayı isə, 2013 –cü ildə 42617 nəfər olsa da, 2016 –cı ildə 8803 nəfər azalaraq 33814 nəfər təşkil etmişdir. Lakin 2017 –ci ildə bu göstərici iki dəfə artaraq 75619 nəfər təşkil etmişdir. Digər turizm məqsədlərını görə gələn turistlər isə əsasən ölkədə keçirilən festival və qastronomik turlara görə formalaşmaqdadır. [3]

Cədvəl 2.

2017 –ci ildə Azərbaycana gələn əcnəbilərin və vətandaşlığı
olmayan şəxslərin səfərlərinin məqsədlərinin
bölgüsü. (min nəfər)

Göstəricilər / İllər	

Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sayı	2
o cümlədən səfərlərin məqsədləri üzrə:	
turizm məqsədilə	2
istirahət, əyləncə turizmi	
işgüzar turizm	
müalicə turizmi	
dini turizm	
digər turizm məqsədilə	
digər məqsədlə	

Eyni zamanda 2017 –ci ildə ölkəmizə gələn əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan turistlərin səfərlərinin məqsədi üzrə bölgüdə digər turizm məqsədi ilə gələnlərin sayının getdikcə artığı müşahidə olunmaqdadır. Ölkəyə gələn 2969.7 min nəfərin 716.5 min nəfəri ölkədə keçirilən müxtəlif tipli festifallar və qastronomik turlar məqsədi ilə gəldiyi müşahidə olunmaqdadır. [3] Təbiidir ki, zəngin potensiala sahib

Azərbaycan milli mətbəxinin təbliği sayəsində qastronomik turların sayı artırıla və yüksək iqtisadi gəlirlilik əldə edilə bilər.

Cədvəl 3.

2013 – 2017 –ci illərdə Azərbaycanda iaşə dövriyyəsinin ümumi göstəriciləri.

Göstəricilər / İllər	**2013**	**2014**	**2015**
İaşə dövriyyəsinin ümumi həcmi, milyon manatla	**800,1**	**956,0**	**1 111,20**
İaşə dövriyyəsindən milyon manatla:			
dövlət mülkiyyəti	13,8	14,8	15,2
qeyri-dövlət mülkiyyəti	786,3	941,2	1 096,00
İaşə dövriyyəsinin, əvvəlki ilə nisbətən fiziki həcm indeksləri, faizlə	116,0	118,2	114,0

İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı, vahid	**11043**	**13 846**	**15 645**
İaşə obyektlərində oturacaq yerlərinin sayı, min yer	**378,9**	**503, 6**	**575,7**

Qastronomik turizm fəaliyyətinin iqtisadi səmərəliliyini ölçmək üçün illər üzrə iaşə dövriyyələrinin analizi də çox əhəmiyyətlidir. Belə ki, iaşə dövriyyəsi - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, milli xörəklər, yarımfabrikatlar, həmçinin aşbazlıq emalından keçməmiş digər əmtəllərin satışını da özündə əks etdirir.

2013 – cü ildə ölkə üzrə iaşə dövriyyəsinin ümumi həcmi 800,1 milyon manat təşkil edirdisə, digər illərin müvafiq dövrü ilə artış göstərərək 2017 –ci ildə 1401,8 milyon manat təşkil etməkdədir. Bu göstərici iaşə fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı və iaşə obyektlərində oturacaq yerlərinin sayında da

artımı özündə əks etdirir. [3] Bu da təbii olaraq ölkədə artan turizm potensialı ilə birbaşa bağlıdır.

Ümumiyyətlə isə, Azərbayan mətbəxi dünyanın ən qədim, zəngin və dadlı mətbəxlərindən biridir. "Azərbaycan mətbəxi" - təkcə xörəklər, onların hazırlanma texnologiyasının üsulları deyil, həm də maddi mədəniyyətin əsas hissəsidir. Azərbaycan mətbəxi - mətbəx mədəniyyətini, onun tarixini, fəlsəfəsini, süfrə psixologiyasını, adətləri, fiziologiyanı, gigiyenanı, kimyanı, avadanlığı, etikanı, estetikanı, poeziyanı və mətbəxin sair aspektlərini, eləcə də Azərbaycan xalqının tarixən ətraf mühitlə tam harmoniyada yaşadığı ərazilərdə yaratdığı praktik vərdişləri özündə ahəngdar şəkildə birləşdirir. [7] Bu mətbəxin inkişaf etdirilməsi və milli mətbəx brendlərimizin formalaşdırılaraq dünyaya tanıdılması iqtisadi gəlirliyimizin artmasına birbaşa öz töhfəsini verəcəkdir.

Ədəbiyyat siyahısı:

1. **“Azərbaycan Respublikasında iştisaslaşmış turizm sənayesinin inkişafına dair stratejik yol xəritəsi”,** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. B.Bilalov, Ç.Gülalıyev, **Turizmin Əsasları,** Ali məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik, Bakı – 2005, səh. 288
3. https://www.stat.gov.az/source/tourism/
4. http://regionplus.az/az/articles/view/2775
5. http://www.mct.gov.az/az/umumi-xeberler/medeniyyet-ve-turizm-nazirliyinin-2017-ci-ilin-yekunlarina-hesr-olunmus-kollegiya-iclasi-kecirildi
6. http://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2017/03/15/bakida-plov-festivali-kecirilib-692239
7. http://mct.gov.az/az/azerbaycan-metbexi

Xülasə

Azərbayan mətbəxi dünyanın ən qədim, zəngin və dadlı mətbəxlərindən biridir. "Azərbaycan mətbəxi" - təkcə xörəklər, onların hazırlanma texnologiyasının üsulları deyil, həm də maddi mədəniyyətin əsas hissəsidir. Azərbaycan mətbəxi - mətbəx mədəniyyətini, onun tarixini, fəlsəfəsini, süfrə psixologiyasını, adətləri, fiziologiyanı, gigiyenanı, kimyanı, avadanlığı, etikanı, estetikanı, poeziyanı və mətbəxin sair aspektlərini, eləcə də Azərbaycan xalqının tarixən ətraf mühitlə tam harmoniyada yaşadığı ərazilərdə yaratdığı praktik vərdişləri özündə ahəngdar şəkildə birləşdirir. Bu mətbəxin inkişaf etdirilməsi və milli mətbəx brendlərimizin formalaşdırılaraq dünyaya tanıdılması iqtisadi gəlirliyimizin artmasına birbaşa öz töhfəsini verəcəkdir. Məqalədə Azərbaycan mətbəxinin tarixi, onun müasir dövrdəki inkişafı və turizm iqtisadiyyatının inkişafına təsirləri təhlil edilmişdir.

Summary

Azerbaijani cuisine is one of the oldest, rich and delicious cuisine in the world. "Azerbaijani cuisine" - is not only the dish, but also the techniques of their preparation, as well as the main part of material culture. Azerbaijani cuisine consistenly combines of culinary culture, its history, philosophy, table psychology, habits, physiology, hygiene, chemistry, equipment, ethics, aesthetics, poetry and other aspects of cuisine, as well as the practical habits of the Azerbaijani people in the areas where they live in full harmony with the environment historically way. Developing this cuisine and introducing our world-class brands to the world will contribute directly to the growth of our economic well-being. The article analyzes the history of Azerbaijani cuisine, its modern development and the impact on the development of tourism economy.

Açar sözlər: turizm, milli kulinariya, qastronomik turizm, iqtisadi inkişaf, turizm iqtisadiyyatı.

Key words: tourism, national culinary, gastronomik tourism, economic development, tourism economy.

AZƏRBAYCAN MİLLİ KULİNARİYASININ TURİZM İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİRİ.

i.ü.f.d., baş müəllim Vüsal Rza oğlu Rzayev
müəllim (ADAU dissertant) Nuran Miraqil oğlu Hüseynli
magistrant, Ülfət Şakur qızı Məmmədova
Lənkəran Dövlət Universiteti
vusal.rzayev.82@inbox.ru
uhebibli@mail.ru

Müstəqiliyinin bərpasından sonra ölkəmizdə türizm sənayesinin inkişafı dövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016 –cı il tarixli 1897 nömrəli sərancamı ilə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Stratejik Yol Xəritəsi" də 2020 –ci ilə qədər stratejik baxış, 2025 –ci ilə qədər və ondan sonrakı dövrü əhatə edən uzunmüddətli stratejik yol xəritəsi turizmin ölkəmiz üçün əhəmiyyətli bir sahə olduğunu göstərməkdədir.[1] Son illərin statistik göstəricilərinə görə, turizm Azərbaycanda daim inkişaf edən sektorlardan biri olmuşdur. Belə ki, son 5 ildə Azərbaycanda turizm sektorunda xidmət göstərən sahibkarlıq subyektlərinin və turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında müvafiq olaraq 4,5 və 8,5 faiz ortaillik sabit artım müşahidə edilmişdir. Bunun məntiqi nəticəsi kimi 2016 -cı illə müqayisədə 2017 –ci ildə Azərbaycana gələn xarici vətəndaşların sayı

20% artaraq 2 milyon 691 min 998 nəfər olub. [3] Bu da ölkədə turizm potensialının artım tempini özündə əks etdirir.

Ölkə iqtisadiyyatının gələcək inkişafı ilə bağlı mövcüd turizm potensiyalının beynəlxalq aləmdə tanıtımı, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrasturukturunun yaradılması və inkişaf etdirilməsi ilə bağlı elmi tədqiqat işlərinin aparılması hazırda ən aktual məsələlərdən biridir. Bu sahələrdən biri də milli kulinariya ilə bağlıdır. Azərbaycan mətbəxi öz tarixi kökləri və özünəməxsusluğu ilə həm regionun xüsusiyyətlərini özündə birləşdirir, həm də çoxçeşidliyi ilə fərqlənir. Ölkəmizin zəngin mətbəx mədəniyyətini onun dadlı xörəklərindən, ətirli içkilərindən və gözəl meyvələrindən daha üstün olan bir amil səciyyələndirir. Azərbaycanlıların mətbəx fəlsəfəsinin əsasında yüksək qonaqpərvərlik durur. Bütün bunlar isə Azərbaycanda mətbəx turizminin potensialından xəbər verir.

Qidalanma bioloji varlıq olan olan insanın həyatında özünəməxsus yer tutur. Turistin getdiyi məkanda özünün fizioloji ehtiyaclarının ödəməsi, o cümlədən qidalanması turizmdə ayrıca bir sahə olaraq inkişaf etməyə başlamışdır. Dünyada qida müəssisələrinin vahid qəbul edilmiş təsnifatı yoxdur. Lakin bir çox ölkələrdə kütləvi xidmət gösətərən qida müəssisələri tipləri vardır. Qida müəssisələri xidmətin səviyyəsinə, mətbəxinə, təqdim edilən yeməklərin çeşidinə, iş rejiminə, yerlərin sayına, müştərilərə xidmətinə görə bir neçə kateqoriyalara bölünməkdədir. Bunlar arasında xidmət zamanı çətin hazırlanan çeşidli yeməklərin, qəlyanaltı, qənnadı, içkilərin, desert, meyvə və sairlərin geniş seçiminə malik ictimai iaşə müəssisəsi olan restoranlar daha geniş yayılıb. Eyni zamanda “Fast Food”, “McDonalds”, “Burger King”, “Pizza Hut” kimi sürətli qida müəssisələri də artıq ölkələrinin milli brendləri halına gəlmişlər. [2] Lakin Azərbaycanın qida sənayesinin inkişafı və turizm iqtisadiyyatının formalaşmasına təsir edə biləcək milli

kulinariyası onu digər ölkələrdən bir addım önə çıxarır. Belə ki, qədim tarixi kökü olan Azərbaycan xalqının milli kulinar zənginliyi turizmdə yeni formalaşmağa başlayan “mətbəx turizmi” bölməsinin inkişafına təkan verəcəkdir. Azərbaycanda müvafiq icra hakimiyyəti orqanlarının dəstəyi ilə, bir çox turizm bölgələrinə təşkil olunan “Kulinariya turları” mövzunu aktuallığını bir daha göstərməkdədir.

Azərbaycanın milli mətbəxinin zəngin çeşidinin qədim tarixi kökləri vardır. 1562 -ci ildə Azərbaycana gələn ingilis səyyahı Antoni Cenkinson Şamaxıda Şirvan bəylərbəyi Abdulla xan Ustaclının qonağı olarkən nahar yeməyinin çeşidlərinə heyrətlənmişdi. O yazırdı: "Nahar vaxtı gəlib çatdıqda döşəməyə süfrələr salındı və müxtəlif yeməklər gətirildi, yeməklər çeşidinə görə sıra ilə düzülmüşdü. Mən apardığım sayıma görə 140 növ yemək verilmişdi. Onları yığışdırdıqdan sonra yeni süfrələr salınıb, meyvələrdən başqa qonaqlıq yeməklərindən ibarət 150 növ bulud gətirdilər, beləliklə, iki dəfəyə 290 yemək növü

verilmişdi". [4] Digər tarixi mənbələrdən birində Osmanlı səyyahı Evliya Çələbi xatırladır ki, "burada 12 imamın adı ilə bağlı 12 aşpazxanada minlərcə adam işləyirdi". Bunları o çörəkçi, yuxa salan, şatır, aşçı, piti bişirənlər, kababçı, çayçı, halvaçı, qənnadıçı, şərbətdar və s. deyə qeyd edir. Xörəklərin və məmulatların həmin qruplarının adları ilə mütəxəssislər bu gün də bizim kütləvi iaşə müəssisələrində çalışırlar. Əməyin belə daxili bölgüsü və onun inkişafı eyniadlı xörəklərin say artımına səbəb olmuşdur. [7]

Milli kulinariya tarixi qədim və zəngin olan ölkəmizdə, qastronomik turizmin inkişafı ilə bağlı bu gündə müxtəlif tədbirlər keçirilir. Məsələn, 15 mart 2017 ci ildə ölkəmizdə ilk dəfə olaraq "Plov festifalı" keçirilmişdir. Festifalda Qarabağ, Şirvan, Qazax-Gəncə, Quba-Xaçmaz, Lənkəran, Bakı və digər regionların "Şah plov","Səbziplov", "Şüyüd plov", "Fisincan plov", "Boranı plov", "Müntəncəm plov" və digərləri daxil olmaqla 20-ə yaxın növdə plov nümayiş edilib. Ümumilikdə isə, milli kulinariyanın şahı sayılan

plovunun 200 –dən artıq növü vardır. [6] Dövlət tərəfindən qeyri – maddi mədəni irsimizin qorunması, onun təbliği istiqamətində mütəmadi işlər görülməkdədir. Belə ki, 2016 –cı ildə Lavaş, 2017 –ci ildə isə Dolma YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınmışdır. [5] Bu da milli yeməklərimizin digər dövlətlər tərəfindən özünükləşdirməsinin qarşısının alınmasına xidmət edir.

Dünyada milli mətbəxə əsaslanan bir çox restoranlar mövcuddur. Onların arasında daha məhşurlarına fransız, italyan, çin, türk, hind, yapon mətbəxlərini misal gətirmək olar. Adətən turistlər getdikləri ölkənin mətbəxi ilə tanış olmağa meyilli olurlar. Hətta yuxarıda qeyd edildiyi kimi, bəzi turistlərin səyahətlərinin əsas məqsədi qastronomik turda iştirak etməkdir. [6] Milli kulinarıyamızın zənginliyi ölkəmzin turizm potensialının artırılmasına və iqtisadi gəlirlərin artmasına da öz töhvəsini verə bilər.

Cədvəl 1.

2013 – 2017 –ci illərdə səfərlərin məqsədinə görə yerləşdirilmiş turistlərin sayı.

Göstəricilər / İllər	**2013**	**2014**	**2015**	**2016**
Səfərlərin məqsədinə görə yerləşdirilmiş turistlərin sayı (nəfər)	666348.0	672345.0	838145.0	1122068
İstirahət, əyləncə (nəfər)	226464.0	237506.0	256285.0	565738
İşgüzar səfər (nəfər)	232796.0	206234.0	275896.0	258299
Müalicə (nəfər)	45060.0	70981.0	68896.0	11450
Digər turizm məqsədilə (nəfər)	42617.0	35922.0	37282.0	33814
Sair məqsəd ilə gələnlər (nəfər)	119411.0	121702.0	199786.0	252767

Rəsmi statistikaya görə (cədvəl - 1.) 2013 – 2017 –ci illərdə səfərlərin məqsədinə görə yerləşdirilmiş turistlərin əksəriyyəti əyləncə xarakterli turizm növünü seçmişlər. Daha sonrakı yerlərdə isə, işgüzar və müalicə turizmi məqsədi ilə gələnlər tutur. Digər turizm məqsədi ilə gələnlərin sayı isə, 2013 –cü ildə 42617 nəfər olsa da, 2016 –cı ildə 8803 nəfər azalaraq 33814 nəfər təşkil etmişdir. Lakin 2017 –ci ildə bu göstərici iki dəfə artaraq 75619 nəfər təşkil etmişdir. Digər turizm məqsədlərinı görə gələn turistlər isə əsasən ölkədə keçirilən festival və qastronomik turlara görə formalaşmaqdadır. [3]

Cədvəl 2.

2017 –ci ildə Azərbaycana gələn əcnəbilərin və vətandaşlığı
olmayan şəxslərin səfərlərinin məqsədlərinin
bölgüsü. (min nəfər)

Göstəricilər / İllər	
Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sayı	2
o cümlədən səfərlərin məqsədləri üzrə:	
turizm məqsədilə	2
istirahət, əyləncə turizmi	
işgüzar turizm	
müalicə turizmi	
dini turizm	
digər turizm məqsədilə	
digər məqsədlə	

Eyni zamanda 2017 –ci ildə ölkəmizə gələn əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan turistlərin səfərlərinin məqsədi üzrə bölgüdə digər turizm məqsədi ilə gələnlərin sayının getdikcə artığı müşahidə olunmaqdadır. Ölkəyə gələn 2969.7 min nəfərin 716.5 min nəfəri ölkədə keçirilən müxtəlif tipli festifallar və qastronomik turlar məqsədi ilə gəldiyi müşahidə

olunmaqdadır. [3] Təbiidir ki, zəngin potensiala sahib Azərbaycan milli mətbəxinin təbliği sayəsində qastronomik turların sayı artırıla və yüksək iqtisadi gəlirlilik əldə edilə bilər.

Cədvəl 3.

2013 – 2017 –ci illərdə Azərbaycanda iaşə dövriyyəsinin ümumi göstəriciləri.

Göstəricilər / İllər	**2013**	**2014**	**2015**
İaşə dövriyyəsinin ümumi həcmi, milyon manatla	**800,1**	**956,0**	**1 111,20**
İaşə dövriyyəsindən milyon manatla:			
dövlət mülkiyyəti	13,8	14,8	15,2
qeyri-dövlət mülkiyyəti	786,3	941,2	1 096,00
İaşə dövriyyəsinin, əvvəlki ilə nisbətən fiziki həcm indeksləri, faizlə	116,0	118,2	114,0

İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı, vahid	**11043**	**13 846**	**15 645**
İaşə obyektlərində oturacaq yerlərinin sayı, min yer	**378,9**	**503, 6**	**575,7**

Qastronomik turizm fəaliyyətinin iqtisadi səmərəliliyini ölçmək üçün illər üzrə iaşə dövriyyələrinin analizi də çox əhəmiyyətlidir. Belə ki, iaşə dövriyyəsi - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, milli xörəklər, yarımfabrikatlar, həmçinin aşbazlıq emalından keçməmiş digər əmtəllərin satışını da özündə əks etdirir.

2013 – cü ildə ölkə üzrə iaşə dövriyyəsinin ümumi həcmi 800,1 milyon manat təşkil edirdisə, digər illərin müvafiq dövrü ilə artış göstərərək 2017 –ci ildə 1401,8 milyon manat təşkil etməkdədir. Bu göstərici iaşə fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı və iaşə obyektlərində oturacaq yerlərinin sayında da

artımı özündə əks etdirir. [3] Bu da təbii olaraq ölkədə artan turizm potensialı ilə birbaşa bağlıdır.

Ümumiyyətlə isə, Azərbayan mətbəxi dünyanın ən qədim, zəngin və dadlı mətbəxlərindən biridir. "Azərbaycan mətbəxi" - təkcə xörəklər, onların hazırlanma texnologiyasının üsulları deyil, həm də maddi mədəniyyətin əsas hissəsidir. Azərbaycan mətbəxi - mətbəx mədəniyyətini, onun tarixini, fəlsəfəsini, süfrə psixologiyasını, adətləri, fiziologiyanı, gigiyenanı, kimyanı, avadanlığı, etikanı, estetikanı, poeziyanı və mətbəxin sair aspektlərini, eləcə də Azərbaycan xalqının tarixən ətraf mühitlə tam harmoniyada yaşadığı ərazilərdə yaratdığı praktik vərdişləri özündə ahəngdar şəkildə birləşdirir. [7] Bu mətbəxin inkişaf etdirilməsi və milli mətbəx brendlərimizin formalaşdırılaraq dünyaya tanıdılması iqtisadi gəlirliyimizin artmasına birbaşa öz töhfəsini verəcəkdir.

Ədəbiyyat siyahısı:

1. **“Azərbaycan Respublikasında iştisaslaşmış turizm sənayesinin inkişafına dair stratejik yol xəritəsi”,** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. B.Bilalov, Ç.Gülalıyev, **Turizmin Əsasları,** Ali məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik, Bakı – 2005, səh. 288
3. https://www.stat.gov.az/source/tourism/
4. http://regionplus.az/az/articles/view/2775
5. http://www.mct.gov.az/az/umumi-xeberler/medeniyyet-ve-turizm-nazirliyinin-2017-ci-ilin-yekunlarina-hesr-olunmus-kollegiya-iclasi-kecirildi
6. http://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2017/03/15/bakida-plov-festivali-kecirilib-692239
7. http://mct.gov.az/az/azerbaycan-metbexi

Xülasə

Azərbayan mətbəxi dünyanın ən qədim, zəngin və dadlı mətbəxlərindən biridir. "Azərbaycan mətbəxi" - təkcə xörəklər, onların hazırlanma texnologiyasının üsulları deyil, həm də maddi mədəniyyətin əsas hissəsidir. Azərbaycan mətbəxi - mətbəx mədəniyyətini, onun tarixini, fəlsəfəsini, süfrə psixologiyasını, adətləri, fiziologiyanı, gigiyenanı, kimyanı, avadanlığı, etikanı, estetikanı, poeziyanı və mətbəxin sair aspektlərini, eləcə də Azərbaycan xalqının tarixən ətraf mühitlə tam harmoniyada yaşadığı ərazilərdə yaratdığı praktik vərdişləri özündə ahəngdar şəkildə birləşdirir. Bu mətbəxin inkişaf etdirilməsi və milli mətbəx brendlərimizin formalaşdırılaraq dünyaya tanıdılması iqtisadi gəlirliyimizin artmasına birbaşa öz töhfəsini verəcəkdir. Məqalədə Azərbaycan mətbəxinin tarixi, onun müasir dövrdəki inkişafı və turizm iqtisadiyyatının inkişafına təsirləri təhlil edilmişdir.

Summary

Azerbaijani cuisine is one of the oldest, rich and delicious cuisine in the world. "Azerbaijani cuisine" - is not only the dish, but also the techniques of their preparation, as well as the main part of material culture. Azerbaijani cuisine consistenly combines of culinary culture, its history, philosophy, table psychology, habits, physiology, hygiene, chemistry, equipment, ethics, aesthetics, poetry and other aspects of cuisine, as well as the practical habits of the Azerbaijani people in the areas where they live in full harmony with the environment historically way. Developing this cuisine and introducing our world-class brands to the world will contribute directly to the growth of our economic well-being. The article analyzes the history of Azerbaijani cuisine, its modern development and the impact on the development of tourism economy.

Açar sözlər: turizm, milli kulinariya, qastronomik turizm, iqtisadi inkişaf, turizm iqtisadiyyatı.

Key words: tourism, national culinary, gastronomik tourism, economic development, tourism economy.

Ülkər SADIQOVA

Azərbaycan Turizm və Menecment universiteti

u.sadiqova@atmu.edu.az

Azərbaycanda mədəniyyət sferasının idarəolunmasının iqtisadi əsasları

Экономическая основа управления культурной сферой в Азербайджане

Economic bases of cultural fields management in Azerbaijan

Xülasə: Mədəniyyət – sosial-iqtisadi inkişafın müvəfəqiyyətliliyini təyin edən başlıca amillərdən

biridir və Azərbaycanda dayanıqlı inkişaf şəraitində mədəniyyət sferasına aparıcı mexanizm kimi baxmaq lazımdır.

Mədəniyyət anlayışı çoxşaxəlidir. İqtisadi nəticələrə təsir göstərmək iqtidarında olan mədəniyyətin tərkib hissələri böyük əhəmiyyətə malikdir. Birincisi, bu, kreativlik, yaxud insanın yeni ideyaların, nəzəriyyələrin yaradıcısı, qurucusu qismində çıxış etmək qabiliyyətidir. İkincisi, bu əmək fəaliyyətinə olan bir motivasiyadır. Bu mənada maddi aktivlər və cəlb edilən investisiyalar bir tərəfdən, mədəniyyət sahələri - digər tərəfdən bir-birini tamamlayaraq effektiv dayanıqlı iqtisadiyyatın ilkin şərtlərini təmin edən bir vəhdət əmələ gətirmiş olur.

Bütün ölkələrdə mədəniyyətə olan münasibətlərin dəyişilməsi, onu müasir iqtisadiyyatın gəlirli sahəsinə çevrilməsi cəhdləri, uzun əsrlər ərzində toplanmış və yaradılan mədəni sərvətini öyrənmək, qiymətləndirmək və istifadə etmək, habelə onu daha fəal surətdə iqtisadi dövriyyəyə daxil etmək səyləri nəzərə çarpır. İctimai

dəyişikliklər tempinin yüksəldiyi bir şəraitdə mədəniyyətin oynadığı rol artır ki, bunu da son illərdə Azərbaycanda əyani surətdə görmək mümkündür. Mədəniyyət iqtisadiyyatında hazırki dövrə olan vəziyyət həmin sferanın təznimlənməsinə dair yeni innovativ yanaşmaların tətbiqini tələb edir.

Açar sözlər: mədəniyyət,dayanıqlı inkişaf,iqtisadiyyat, dövlət siyasətinin prinsipləri.

Резюме:Культура–это один из главных факторов, определяющих успешность социально-экономического развития. Поэтому сфере культуры в решении задачи устойчивого развития Азербайджана отводиться одна из ведущих ролей. Понятие культуры многогранно. Большое значение имеют те ее составляющие, которые могут влиять на экономические результаты. Во-первых, это креативность, или способность человека быть творцом, созидателем новых идей, теорий. Во-вторых, это мотивация к добросовестному и ответственному труду. В этом смысле

материальные активы и сопутствующие им инвестиции с одной стороны, и соответствующие им институты и тип культуры,- с другой, дополняют друг друга, образуя тот сплав, который и обеспечивает предпосылки эффективной устойчивой экономики.

Во всех странах отмечается изменение отношения к культуре, стремление превратить ее в доходную сферу современной экономики, изучить, оценить и использовать экономический потенциал накопленного и создаваемого культурного богатства, более активно включить его в экономический оборот. Сложившееся к настоящему времени положение в экономике культуры требует инновационных подходов к регулированию этой сферы.

Ключевые слова: культура, устойчивое развитие, экономика, принципы государственной политики

Abstract: Culture is one of the key factors determining the success of socio-economic

development, and one of the leading roles in the cultural fields should be settled in addressing sustainable development issues in Azerbaijan.

The concept of culture is comprehensive. Its component parts which are capable of influencing economic outcomes are of great importance. First, it is creativity or ability to act as the founder and creator of new ideas and theories. Secondly, this is a motivation for labor activity. In this sense, tangible assets and their accompanying investments form the basis on the one hand, and on the one hand, the institutions and culture that are relevant to them, and on the other hand, ensuring the preconditions for effective sustained economy by completing each other.

There are significant changes in recent times around the world, about the role of culture in the economic development process, on what mechanisms provide the necessary flow of material resources to the

sphere of culture, and how culture brands become necessary resources for the development of states .

Attempts to change relations in culture, attempts to transform it into the lucrative sphere of the modern economy, to study, to evaluate and use the cultural wealth accumulated over the centuries, as well as to make it more active in the economic circulation are noticeable.

Key words: culture, sustainable development, economy, principles of state policy.

Azərbaycan Respublikası – zəngin mədəni irsə malik olan bir ölkədir. Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasəti ümumi dövlət siyasətinin tərkib hissəsidir. Dövlət quruculuğu, iqtisadiyyat və sosial sahələrdə həyata keçirilən köklü islahatlar mədəni proseslərin məzmununa və dinamikasına da bilavasitə təsir göstərmişdir. Azərbaycanın sosial və iqtisadi sahələrdə uğurları,

beynəlxalq aləmdə daim artan nüfuzu ölkə vətəndaşlarının Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş mədəni hüquqlarının həyata keçirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Azərbaycan Respublikasında hər kəsin mədəniyyət sahəsində hüquq və azadlıqları, beynəlxalq hüququn prinsip və normaları rəhbər tutulmaqla təmin edilir. Şərqlə Qərbin, böyük sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın Şərqin dəyərlərini, zəngin mədəniyyətini müasir dövrümüzdə yüksək inkişafa nail olmuş Qərbin texnologiyası, ümumbəşəri demokratik dəyərləri ilə uzlaşdırmaqla, bu dəyərlərdən qidalanmaqla yüksək inkişafa nail olduğunu qeyd etmək olar. Həqiqətən də, Azərbaycan müxtəlif mədəniyyətlərin qovşağında olduğuna görə xalqımız öz yolunu seçərkən Şərqlə Qərbin qarşılıqlı münasibətlərini nəzərə almalı idi. Tarixən keçdiyimiz yol və coğrafi vəziyyətimiz bunu zəruri edir. Azərbaycan mədəniyyətinin təbiəti elədir ki, o hər zaman dünya mədəniyyətinə açıq olub. Bu bir tərəfdən

Şərq mədəniyyəti ilə çox bağlıdır, digər tərəfdən isə Qərb mədəni dəyərlərini özündə cəmləyir. Xüsusilə son əsrlərdə Azərbaycan mədəniyyəti çox mükəmməl bir şəkildə Avropa mədəniyyətini özündə əks etdirə bilib. Azərbaycanın dünya mədəniyyətinə inteqrasiyasında kifayət qədər güclü tarixi təcrübəsi var. Amma respublikamız müstəqillik qazandıqdan sonra bu məsələlər həm elmi-nəzəri baxımdan təhlil olunur, həm də bizim dövlətin siyasətində xüsusi bir yer tutur. Bu mədəniyyətlə bağlı qanunlarda da öz əksini tapır. Biz dövlət olaraq milli mədəniyyətimizin dünya mədəniyyəti ilə sıx əlaqəsinin olduğunu etiraf edirik. Bu, sadəcə, dekorativ bir müddəa şəkildə bəyan edilmir, biz bunu beynəlxalq təşkilatlarla – UNESCO, Avropa İttifaqı, Avropa Şurası ilə əməkdaşlıq şəraitində, həyata keçirdiyimiz ev sahibliyi etdiyimiz beynəlxalq layihələr, tədbirlərlə sübut edirik [9,s.45].

Mədəniyyət – sosial-iqtisadi inkişafın müvəfəqiyyətliliyini təyin edən başlıca amillərdən biri kimi respublikanın dayanıqlı inkişaf məsələlərinin həlli

zamanı aparıcı rolla malikdir. Mədəni siyasət bu gün ölkə Prezidentinin dövlət fəaliyyətində prioritet istiqamətlərdən biridir. Dövlət səviyyəsində mədəniyyətə atributiv yanaşma dəyişib və ona hazırda sosial və iqtisadi sabitliyin səmərəli mexanizmi, daxili siyasətdə milli mənsubiyyətin qarantı kimi baxılır. Bu cür yanaşma ölkənin xarici siyasətində imicin formalaşması prosesində mədəni siyasəti əvəzedilməz alət edir. Dünyada mövcud olan tendensiyalar onu düşünməyə imkan verir ki, dünya ölkələrinin praktikalarında mədəni mexanizmlərin effektiv istifadəsinin aktuallığı yaxın perspektivdə yalnız artıma doğru dəyişəcək. Mədəniyyət anlayışının insanlar tərəfindən təkcə incəsənət kimi deyil, eyni zamanda iqtisadi göstərici kimi qavranılmasını təmin etmək son dərəcə vacibdir. Müasir dövrdə dünya siyasətində və beynəlxalq münasibətlər sistemində mədəniyyət faktorunun əhəmiyyəti, ümumdünya iqtisadi-siyasi proseslərə, dövlətlərarası münasibətlərə təsiri getdikcə artır. Dünyanın ən görkəmli alimlərinin mədəniyyət

haqqında fikirlərindən aydın olur ki, mədəniyyət olduqca mürəkkəb bir hadisədir. Bu gün mədəniyyət anlayışının 3 əsas meyarını göstərmək olar. Birincisi, o, şəxsiyyətin azad özünüreallaşdınlması sahəsi, onun yaradıcılıq fəaliyyətinin təzahürü kimi başa düşülür. İkincisi, o, təbii və sosial reallığa mənəvi qiymətverici münasibət, meyarıdır. Üçüncüsü, mədəniyyət - insan tərəfindən süni şəkildə yaradılmış yeni təbii-ictimai varlıqdır [4,s.36].

Azərbaycanın ərazisində yerləşən mədəniyyət abidələrinin müxtəlifliyini qiymətləndirmək çox çətindir. Lakin mədəniyyət sferası – bu, sadəcə olaraq keçmişin abidələri demək deyil. Müasir dünyada mədəniyyət sahəsi sürətlə inkişaf edir, informasiya texnologiyaların geniş miqyasda yayıldığı və iqtisadiyyatın qeyri-maddi sektorunun əhəmiyyətinin artdığı bir zamanda "mədəni rifah" və "mədəniyyət sahəsində xidmətlər sferası" kimi anlayışlar geniş yayılmağa başlamışdır.

Mədəniyyət sahəsində həyata keçirilən bəzi fəaliyyət növləri əhəmiyyətli dərəcədə iqtisadi mənfəət gətirmək iqtidarındadır, odur ki, son zamanlar mədəniyyət sahəsi get-gedə daha çox ölkənin ümumi sosial-iqtisadi inkişaf səviyyəsi ilə sıx bağlılıqda olan iqtisadiyyatın mühüm sektoru qismində dəyərləndirilir.

Azərbaycanda, mədəniyyətin iqtisadi inkişaf prosesində rolu haqqında, hansı mexanizmlər tərəfindən mədəniyyət sferasına maddi resursların zəruri axınının təmin edilməsi haqqında, eləcə də mədəniyyət brendlərinin dövlətlərin inkişafı üçün lazımi resurslara necə çevrildiyi haqqında mövcud olmuş təsəvvürlər əhəmiyyətli dərəcədə dəyişikliklərə məruz qalmaqdadır. Bütün ölkələrdə mədəniyyətə olan münasibətlərin dəyişilməsi, onu müasir iqtisadiyyatın gəlirli sahəsinə çevrilməsi cəhdləri, uzun əsrlər ərzində toplanmış və yaradılan mədəni sərvətini öyrənmək, qiymətləndirmək və istifadə etmək, habelə onu daha fəal surətdə iqtisadi dövriyyəyə daxil etmək səyləri nəzərə çarpır.

Mədəniyyət iqtisadiyyatında hazırki dövrə olan

vəziyyət həmin sferanın təznimlənməsinə dair yeni innovativ yanaşmaların istifadəsini tələb edir. Mədəniyyət sferası birbaşa və dolayı dövlət tənzimlənməsinə məruz qaldığı səbəbindən dövlətin qarşısında dayanan əsas və başlıca vəzifə mədəni mirasın qorunub saxlanılmasına, eləcə də mədəniyyət nemətlərinin geniş təkrar istehsalına hədəflənmiş və yaranmış şəraitlərə uyğun olan Azərbaycanın mədəniyyət sferasının dayanıqlı inkişaf modelinin formalaşdırılmasından ibarətdir. Mədəniyyət sferasında mövcud tendensiyaların aradan qaldırılması məqsədilə bazar yönümlü tədbirlər kompleksinə səmtləşən mədəniyyət siyasətinin modernləşdirilməsinin reallaşdırılması gərəkdir.

Azərbaycanda Mədəniyyət siyasətinin təminatı aşağıdakı istiqamətlərdə həyata keçirilir:
Qanunvericilik təminatı; Müəlliflik hüququ; Mədəniyyətin maliyyələşməsi; Mədəniyyət sahəsində təhsil, treninqlər və tədqiqatlar; Beynəlxalq münasibətlər; Əhalinin mədəni həyatda iştirakı;

Mədəni və təbii irs; Muzeylər; Kitabxanalar; Ənənəvi incəsənət; İfaçılıq sənəti – yaradıcılığın dəstəklənməsi; Mədəniyyət industriyaları; Avropa ekspertlərindən ibarət müstəqil qrupun məruzəsi (Mədəniyyət və sabit inkişaf; Azərbaycanda mədəniyyət strategiyalarının inkişafı; Nəticə və beynəlxalq əməkdaşlıq məsələləri; Mədəniyyət və özünəməxsusluq: milli, regional və azlıqlar səviyyəsində perspektivlər və cari vəziyyət); Mədəniyyət sahəsində Qanunvericilik və Mədəniyyət Siyasətinin İnkişafi [3,s.42].


Mədəniyyət siyasəti ən başlıca mədəniyyət sahəsinin keyfiyyətinin yüksəldilməsinə istiqamətlənib ki, onların sıralanması mədəniyyət prioritelərin üzə çıxarılmasının əsasını təşkil edir və bunun üçün respublikanın müasir mədəniyyət siyasətinin əsasını təşkil etməli olan prinsiplər ifadə olunur. Həmin prinsiplər dövlətin mədəniyyət siyasətinin təşkilinə və həyata keçirilməsinə dair dünya birliyində qəbul olunmuş yanaşmalara uyğundur. Müəyyən olunmuş

prinsiplərin həyata kecirilməsində, mövcüd sahədə fəaliyyətin səmərəliliyinin artırılmasında və resursların rasional istifadə olunmasında kompleks yanaşmanın rolu danılmazdır.

Ölkədə baş verən makromədəni proseslərin nəzərə alaraq həmin prinsiplər əsasında Azərbaycanın Mədəniyyət siyasətində yeni strategiyalar formalaşdırmaq mümkündür.

Şəkil 1.

Mədəniyyət siyasətinin effektivliyini müəyyənləşdirən prinsiplər



Mədəniyyət sferası özünə xas iqtisadi potensiala malikdir və ölkə iqtisadiyyatına ciddi, get-gedə daha da güclənən töhfə verməkdədir: investisiyalar üçün cəlbedici sferadır, təhsil, turizm, kütləvi-informasiya vasitələrin, əyləncə industriyasının inkişaf mənbəyi qismində çıxış edir. Bundan əlavə, mədəniyyət iqtisadiyyata dolayı təsir göstərmək kimi xüsusiyyətə malikdir və iqtisadi institutların söykəndiyi cəmiyyətin müəyyən baza dəyərlərini akumulyasiya və translyasiya

edir: reklam, korporativ mədəniyyətin formalaşdırılması, işçi heyəti ilə davranış və sair. Mədəniyyətə dair xalq təsərrüfatının bir sahəsinə olduğu kimi sərgilənən bu cür yanaşma insan kapitalının iqtisadi artımın və milli rəqabətqabiliyyətliliyin aparıcı amilinə çevrilməsinə səmtləşmiş respublika inkişafının müasir mərhələsinin tələblərinə uyğun bir şəkildə mədəniyyət iqtisadiyyatının islah edilməsinin konkret vəzifələrinin və yollarının dəyərləndirilməsinə daha əsaslı və mükəmməl surətdə yanaşmağa imkan yaradır. Mədəniyyət iqtisadi nəticələrə müxtəlif istiqamətlər üzrə təsir göstərə bilər. Mədəniyyət iqtisadi effektivliyə qrup üçün ümumi olan dəyərlər vasitəsilə təsir göstərə bilər ki, təşkilatların və cəmiyyətin maraqlarının qorunmasında şəffaflıq, ədalətlilik, məsuliyyətlilik və qarşılıqlı hörmət prinsiplərinə, komanda fəaliyyətini, bilik və təcrübəni böluşmək mədəniyyətinə, görülən bütün işlərdə qrup imicinə uyğun davranmağa, fəaliyyətdə sosial və ictimai maraqların qorumanmasına

əsaslanmalıdır. Əgər mədəni dəyərlər daha effektiv qərarların qəbulunu, daha sürətli və müxtəlif innovasiyaların, habelə baş verən dəyişikliklərə daha yaxşı uyğunlaşdırılan davranışın keçiricilərinə çevrilirsə, onda qrupun iqtisadi məhsuldarlığı və dinamizmi, çox güman ki, daha yüksək maliyyə nəticələrində yaxud daha yüksək artım templərində öz əksini tapacaqdır.

Mədəniyyət sferasının maliyyələşməsinə və istifadə olunan vasitələrin effektivliyinin yüksəldilməsinə yönəlmiş müəyyən tədbirlər kompleksi həyata kecirmək olar ki onlar arasında:

- Regional səviyyədə sosial cəhətdən əhəmiyyətli olan tədbirlərin reallaşdırılması məqsədi ilə kommersiya təşkilatlarının resurs potensialının cəlb olunması;
- Xarici mənbələrdən maliyyələşən beynəlxalq layihə və proqramlarında

iştirak üçün dəstək olmaq.

- Mədəni-əxlaq dəyərlərinin rolunun artması;
- Müasir informasiya texnologiyalarının tətbiqini gücləndirilməsi
- Mədəni həyatın sosial bazasının genişləndirilməsi;
- Mədəniyyət bazarına uyğunlaşmanın çətinliklərini aradan qaldırmaq;
- Mədəniyyət xidmətlərinin keyfiyyətinin yüksək olmasını təmin etmək.
- Əhalinin mədəni həyat keyfiyyətinin yüksəldilməsi və mədəni tədbirlərin düzgün təbliqi;
- Mədəniyyət işçilərinin peşə nüfuzunun yüksəldilməsinin zərurəti.

Lazımi hüquqi baza olmadan mədəniyyətin qorunub saxlanılması və dinamik surətdə təkmilləşdirilməsi mümkünsüzdür. Müstəqilliyə

qovuşmuş ölkədə mədəniyyətin inkişafı, tərəqqisi üçün atılan bir sıra addımlar bu sahədəki işlərin başlanğıcı kimi dəyərləndirilməlidir. Xüsusilə, mədəniyyətin statusunun müəyyənləşdirilməsində Azərbaycan dövlətinin hüquqi-normativ sənədlərində aparılan yenidənqurma buna əyani sübutdur. Azərbaycan Demokratik Respublikasının ali qanunu olan Konstitusiya (1995, 12 noyabr), Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu (1998), Tarix və Mədəniyyət abidələrinin Qorunması haqqında Azərbaycan Respublikasının Qanunu (1998), Muzey işi haqqında Qanunu (1992), Təhsil Qanunu ölkədə mədəniyyətin yeni ideologiya, yeni humanist prinsiplər əsasında mədəniyyətin tərəqqisinə geniş yol açmış oldu. Bunlar isə milli müstəqil mədəni siyasətin formalaşması üçün ən zəruri və vacib amilidir. Dünya mədəniyyət təcrübəsi sübut edir ki, mədəni siyasətin başlıca mahiyyətini, cəmiyyətin daha möhkəm inkişafını təmin etmək, həyat şəraitinin keyfiyyət göstəricilərinin yüksəldilməsi təşkil edir [7,s.83]. Bu

qanunlar tarixi və mədəniyyət abidələrinin mühafizəsi, öyrənilməsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir. Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə uyğun olaraq, tarixi və mədəniyyət abidələrinin qorunması hər bir vətəndaşının vəzifəsidir. Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə uyğun olaraq, hazırki Qanunla və Azərbaycan Respublikası tərəfindən tanınmış dövlətlərarası sazişlərlə ziddiyyətlərin meyana gəlməsi təqdirdə göstərilmiş beynəlxalq sazişlər tətbiq olunur. 24 mart 2000-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının "Muzeylər haqqında" qanunu Azərbaycan Respublikasında muzeylərin fəaliyyətinin təşkilati-hüquqi, iqtisadi əsaslarını təyin edir və bununla bağlı münasibətləri tənzimləyir.

Bununla yanaşı, mədəniyyətin hələ müəyyən sektorların müasir qanunvericiliyə ehtiyacı vardır. Son zamanlar qəbul olunmuş qanunlarda - Azərbaycan

Mədəniyyət konsepsiyası və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında mədəniyyət sferasının inkişafını müsbət tərəfə yönəltməyə imkan verir. Azərbaycanın son illərdə nüfüzlü beynəlxalq lahiyələrə qoşulması Avropa ittifaqı şərq tərəfdaşlığı programı cərcivəsində fəal iştirak etməsi, Azərbaycanda incəsənət əsərlərimizin, mədəniyyət obyektlərinin YUNESKO-nun Ümumdünya irs siyahısına daxil edilməsi müsbət qiymətləndirmək olar.

Mədəniyyət sferasının inkişafı proseslərinin təhlili zamanı görünür ki planlı iqtisadiyyatda bazar iqtisadiyyatına keçidi dövründə ayrı-ayı sektorlar müxtəlif istiqamətlərdə təkamül etmişdir. Əgər kitabxanaların, klubların, kinoteatrların və digər mədəniyyət-istirahət müəssisələrin sayı azalıbsa, teatrların, muzeylərin, mədəniyyət və istirahət parklarının ümumi sayı dinamikada artmışdır. 2018-ci ilin əvvəlinə olan vəziyyətə görə Azərbaycan Respublikasında mədəniyyət sahəsi 1703 büdcə

mədəniyyət təşlkilatını ehtiva edir. Aparılan əsaslı islahatlar mədəniyyət sahəsində ardıcıl inkişafın təməlini qoyub. Azərbaycan Prezidentinin sərəncamı ilə "2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın qəbul edilməsi uğurlu inkişafa və nailiyyətlərə zəmin yaratmışdır. Son illər həyata keçirilmiş böyük investisiya proqramları çərçivəsində paytaxtda və regionlarda bir sıra mədəniyyət mərkəzləri, teatr binaları, konsert-tamaşa salonları, rəsm qalereyaları tikilib istifadəyə verilmiş, habelə mövcud obyektlərin müasir standartlara uyğun təmiri, maddi-texniki bazasının gücləndirilməsi, muzey fondlarının komplektləşdirilməsi və ekspozisiyalarının zənginləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Bütün bunlar Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasına güclü stimul vermişdir. Milli-mənəvi dəyərlərimizdən olan və Azərbaycanın möhtəşəm abidələri - Qobustan Milli Tarixi-Bədii Qoruğu və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, muğam, Azərbaycan aşıq sənəti, Novruz, Azərbaycan

xalça toxuculuğu, Qarabağ atı ilə oynanılan çovqan oyunu, kəlağayı, Lahıc misgərlik sənəti və s. UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Azərbaycan Respublikası keçid dövrü adlanan tarixi mərhələdə, Mədəniyyət Nazirliyi mədəniyyət siyasətini son onilliklərdə əksər Avropa ölkələrinin qabaqcıl təcrübəsinə əsaslanaraq, bu ölkələrdə rəhbər tutulan əsas prinsiplər nəzərə alınaraq, ölkəmizin milli maraqlarına uyğun olub-olmamadığı müəyyən edərək hazırlayır və Azərbaycanın mədəniyyət siyasətinin üç əsas prioritet istiqamətləri müəyyənləşdirilmişdir: 1.Mədəni və tarixi irsin qorunması (burada mədəniyyət təsisatlarının bütün infrastrukturu özündə əks etdirir); 2.Yaradıcılığın himayə edilməsi; 3.Mədəniyyətin insan inkişafı amili kimi dərk edilməsi və qəbul olunmasının gücləndirilməsi[7,s.84]. Bu prioritetləri reallışdırmaq üçün yaradılan və bu işə cəlb olunan təsisatların məqsəd və fəaliyyət sahələri müəyyən olunur ki bunlar arasında alternativ maliyyə mənbələrinin axtarışı, mədəniyyət sahəsində effektiv menecmentin təşkili, mədəni inkişaf

strategiyalarının işlənib hazırlanması, xeyriyyəçi mədəniyyət fondunun təsis edilməsi, mədəniyyətin idarəolunmasında desentralizasiya və dekonsentralizasiyası, qeyri-hökümət təşkilatları və digər vətənaş cəmiyyəti təşkilatları ilə partnyorluq əlaqələrinin qurulması,gənclər siyasətinin işlənilməsi.

Respublikada mədəniyyət industriyası sürətlə inkişaf edir, bu sahə insanlara məşğulluq, gəlirlər təmin edən, habelə mədəniyyət müxtəlifliyini inkişaf etdirən güclü bir sfera kimi dəyərləndirilir. Əyləncə məkanı da dinamik surətdə inkşaf edir: tematik parklar, sağlamlıq klubları, akvaparklar, oyun əyləncələri seqmenti, atraksionlar kompleksi.Bu dövrdə respublikada ədəbi-bədii prosesin inkişafına diqqət artırılmış, yaradıcılıq ittifaqlarının və müəssisələrinin fəaliyyətinin təkmilləşməsinə, bədii yaradıcılıq üçün mədəniyyət xadimlərinə əlverişli şərait yaradılmasına daim qayğı göstərilmişdir. Bu gün mədəniyyət, siyasət və iqtisadiyyatla birlikdə Azərbaycanın xarici siyasət fəaliyyəti mexanizmini müəyyən edən klassik amillər

triadasını təşkil edir. Xarici siyasətdə mədəniyyətin xüsusi çəkisinin durmadan artması, xarici mədəniyyət siyasətinin məqsəd və vəzifələrinin, forma və istiqamətlərinin, prioritet və mexanizmlərinin öz əksini tapa biləcəyi kompleks konsepsiya yaratmağı tələb edir. Azərbaycan Respublikasının əsaslı surətdə yüksəldiyi dövrdə Azərbaycan mədəniyyətində də böyük müvəffəqiyyətlər qazanılmışdır. Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, heykəltəraşlar, teatr və kino xadimləri, incəsənətin bütün növlərinin nümayəndələri respublikanın böyük nailiyyətlərinə layiqincə kömək göstərmiş, bir çox mühüm əsərlər yaratmış, xalqımızın mədəni səviyyəsini yeni nailiyyətlərlə zənginləşdirmişlər. Milli mədəniyyətin inkişafı, xüsusilə də onun dünya mədəniyyətinə inteqrasiyası istiqamətində respublikamızda görülən işlər göstərir ki, biz daxil olduğumuz beynəlxalq mədəniyyət qurumlarında təkcə öz mədəniyyətimizi təbliğ etməklə, yaxud dünya mədəniyyətinin Azərbaycanda təbliği ilə məşğul olmuruq. Eyni zamanda biz dünya

mədəniyyətinin yaranmasında və inkişafında yaxından iştirak edirik. Xüsusilə həm maddi, həm də qeyri-maddi irsin dünyaya təqdim olunmasında əvvəllərdə başlanan işlər son zamanlarda da uğurla davam etdirilməkdədir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası, (2004). Bakı: Qanun.
2. «Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi»,(2016). Azərbaycanda təhsil elm və mədəniyyət.
3. Abbasov, N.(2008) "Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri". Bakı:Təknur.
4. Aslanova, R. (2004). Qloballaşma və mədəni müxtəliflik. Bakı Elm.
5. Əliyev, A, Quliyev, A. (2005) Sosial sferanın iqtisadiyyatının və metodologiyasının əsasları. Bakı: «Adiloğlu» nəşriyyatı.

6. Məmmədova, S, K. (2001). Mədəniyyətşünaslıq. Bakı, “Kooperasiya” nəşriyyatı.
7. Manafova,M, J, Əfəndiyeva.N,T, Mədəniyyət tarixi və nəzəriyyəsi (2010). Sabah nəşriyyatı.
8. Rəhmanov, F.P, Məmmədov, E.F. Azərbaycan mədəniyyət sferasının inkişafı problemləri (2010). “Əmək və sosial problemlər”(elmi əsərlər toplusu), №1(6),
9. Şükürov A. K. Kulturoloqiya dərslik. B. 1998 27. B.: Çaşıoğlu, 235 s.

Aqro-emal müəssisələrində strateji menecmentin formalaşması

və inkişafı məsələləri.

i.f.d. Vüqar Bəhram oğlu Kərimli

AMEA İqtisadiyyat İnstitutunun

böyük elmi işçisi

kerimli.vugar79@gmail.com

Xülasə

Məqalədə müasir dövrdə aqro-emal müəssisələrində strateji menecmentin formalaşması və inkişafı məsələləri araşdırılır**.** Eyni zamanda, strateji menecmentin öyrənilməsi üzrə məqalədə əsas istiqamətlər müəyyən edilir və ölkənin aqrar sahəsi üçün tətbiqi nəzərdən keçirilir.

Açar sözlər: aqro-emal müəssisələri, aqrar sahə, menecment, strategiya, strateji menecment .

Məlum olduğu kimi, müasir dövrdə aqrar sahənin davamlı inkişafı ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Belə ki, son illərdə Azərbaycanın sürətli iqtisadi inkişafı

fonunda ölkədə aqrar sahənin daha geniş şəkildə dəstəklənməsi siyasəti həyata keçirilir. Aqrar sahənin intensiv inkişafı və bu əsasda ölkənin etibarlı ərzaq təhlükəsizliyinə nail olunması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə iqtisadiyyatının şaxələndirilməsi strategiyasının prioritet istiqamətlərindən birini təşkil edir. Dövlət başçısı kənd təsərrüfatında artım tempinin təmin olunmasını və bu istiqamətdə müasir dövrün tələblərinə cavab verən səmərəli tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyevin cari il 12 yanvar tarixli müvafiq Sərəncamı ilə 2015-ci ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan olunması respublikamızda aqrar sektorun inkişafına güclü siyasi iradə nümayiş etdirilməsinin daha bir təsdiqidir.

Beləliklə, ölkəmizdə aqrar sektorun müasir inkişaf mərhələsində qarşıya kənd təsərrüfatında yeni keyfiyyət dəyişikliyinə nail olunması ilə bağlı hədəflər qoyulmuşdur. Dövlət başçısının "Kənd təsərrüfatı və

ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 16 yanvar 2014-cü il tarixli Sərəncamı və "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 16 aprel 2014-cü il tarixli Fərmanı kənd təsərrüfatında müasir dünya çağırışları nəzərə alınmaqla müəyyənləşdirilən hədəflərə çatılması üçün idarəetmənin və institusional strukturun təkmilləşdirilməsinə, innovativ dəyişikliklərin həyata keçirilməsinə möhkəm hüquqi təminat yaradır **[1, s.3].**

İqtisadçı alim Vüsal Qasımlı isə hesab edir ki, aqrar sahənin kadr potensialı haqqında danışarkən, bu sahə üzrə ciddi kadr çatışmazlığı olduğunu vurğulamaq bir o qədər də obyektiv olmaz. Respublikada aqrar sahə üzrə ali və orta ixtisas təhsili almış kifayət qədər mütəxəssislər mövcuddur. Lakin bu məsələ ilə əlaqədar problem ondadır ki, ixtisaslaşdırma metodologiyası və kadr potensialının idarəedilməsi sistemi müasir tələblərə uyğun deyildir. Kadr potensialı kadra olan

tələbat əsasında formalaşmalıdır. Ümumiyyətlə, aqrar sahə üzrə kadr hazırlığının müasirləşdirilməsi məsələsinə baxarkən iki aspekti diqqət mərkəzində saxlamaq gərəkdir. Bu məsələ bir tərəfdən təhsil sistemi ilə əlaqədardırsa, digər tərəfdən aqrar sektorda həyata keçirilən əsaslı islahatlarla — qloballaşmadan doğan yeni tələblərlə, dünya iqtisadi sisteminə inteqrasiya proseslərilə və s. bağlıdr. Aqrar sektorda həyata keçirilən islahatlar bu sahəyə kadr tələbatını müəyyən etməli, müvafiq rəqabət mühiti formalaşdırmalı və kadrların hazırlanması prosesinə oz təsirini göstərməlidir. İstehsal münasibətlərinin modernləşdirilməsi, beynəlxalq bazara inteqrasiya, qanunvericilik və normativ-texniki bazanın beynəlxalq standartlara uyğunlaşdırılması istər-istəməz müasir biliklərə yiyələnmiş kadrlara tələbat yaradacaqdır **[2, s.141].**

Müasir şəraitdə aqrar sahədə strateji menecmentin düzgün təçkili - onun dayanıqlı inkişafında mühüm rol oynayır. Müşahidələr göstərir ki,

aqrar sahə qurumlarında strateji menecment tərtib edilərkən, bazarlara əmtəələrin çıxarılması prosesi xüsusi təşkil edilmiş marketinq xidmətinə tapşırmalıdırlar. Belə ki, həmin strategiyanın təşkili səviyyəsi müəyyən edilərkən, təsərrüfat qurumlarının intensivlik səviyyəsi aşağıdakı göstəricilərin 3-5 illik orta səviyyəsinə əsasən hesablanır.

- müəssənin sərancamında olan vəsaitlərin orta məbləğlərinə görə;
- əsas vəsaitlərin miqdarı və onların aktivlərdə xüsusi çəkisi, o cümlədən onların aktiv hissəsindəki xüsusi çəkiləri;
- əsas vəsaitlərin yeyilmə dərəcəsi və onların yeniləşdirmə dərəcəsi;
- dövriyyə aktivlərinin məbləği və onların ümumi balansdakı miqdarda xüsusi çəkisi;
- dövriyyə və qeyri dövriyyə aktivlərinin nisbətləri;
- maddi ehtiyatların kəmiyyətləri və onların əldə edilən gəlirlər məbləğinin çəkisi;

- debitor borcları və onların gəlirlər məbləğində xüsusi çəkisi;

- gecikdirilmiş debitor borclarının xüsusi çəkisi və sığortası işlənən həmin müəssisənin aktivlərində onların xüsusi çəkisi.

Tədqiqat aparılan müəssisənin sərəncamında olan real məbləğin artırılması, infilyasiya amilini nəzərə almaqla müəssisənin rentabelliliyinin yüksəldilməsinə dəlalət edir. Əksinə onun aşağı düşməsinə və istehsalının yeyilmə dərəcəsinə görə əsas vəsaitlərin vəziyyətinin müəssisədə necə olduğu haqqında qəti qərara gəlmək olar və müəssisənin texniki vəziyyəti haqqında qəti fikir söyləmək mümkündür.

Bu baxımdan əsas fondlar və dövriyyə vəsaitlərinin arasındakı optimal nisbətlərin olduqca mühüm əhəmiyyəti vardır. Strateji menecmentin işlənilməsində bu nisbətlər saxlanılmalı və əks tədbirdə isə düşünülməlidir ki, müəssisələrin istehsal güclərindən tam istiafadə edilə bilməyəcək və belə ir halda müəssisə və təsərrüfatların planlaşdırılan dövr

üzrə iqtisad göstəriciləri pisləşə bilər. Qaçırılmamalıdır iş, istehsal ehtiyvatlarının arasındakı optimal nisbətlərin olması, debitor borcların ixtisar edilməsi və onların dövriyyədəki məbləğlərində xüsusi çəkisinin aşağı salınması kapitalın dövriyyəsinin sürətlənməsinə səbəb olur. Tədqiqat aparılan müəsisənin gəlirliliyi yüksəlir.

Strateji menecmentin işlənilməsində hansı coğrafi regionda kooperativin (iri fermer təsərrüfatının) fəaliyyət göstərməsi rəhbərlik tərəfindən nəzərdən qaçırılmamalı və bazar məhsulları çıxarılmasını həyata keçirirkən həmin əmtəələrin keyfiyyətliliyinə xüsusi diqqət ayrılmalıdır ki, onlar alıcı – istehlakçılar tərəfindən daha çox cəlb edilsin. Bununla yanaşı kooperativlər iri fermer təsərrüfatları özfəaliyyətlərində istehsal fəaliyyətlərini uğurlu davam etdirmələri üçün kənar istehsala yönəldilmiş təsərrüfatlara inteqrasiya əlaqələrinə girməlidirlər.

Hər bir kooperativ və iri fermer təsərrüfatı rəhbəri kommersiya fəaliyyətində bazarlarda daha çox seqmentə yiyələnmək üçün istehsal fəaliyyətində

innovasiyalar tətbiqinə, yeni texnika və texnologiyadan istifadəyə, uğurlu istehsal fəaliyyəti və kommersiya fəaliyyəti üçün başqa təşkilatlarla müqavilələr bağlamalı, öz idarəçilik fəaliyyətlərində menecerləri informasiya və kompüter texnologiyasından geniş istifadəyə cəlb etməlidirlər**.[3,s.200]**

Kooperativlər və iri kənd təsərrüfatları birlikləri hər hansı kommersiya fəaliyyətində fəaliyyət məqsədinə uyğun mənfəət əldə olunmasını və bu mənfəəti uyğun məqsədə yönəldərək strateji idarə etmə fəaliyyətinin illik uğurlu icrasını tamamlamalıdırlar. Strateji menecmentin mahiyyətini tədqiqi etdikdə ən birinci növbədə strategiya sözü seçimini aydınlaşdırmaq qarşıda durur. Belə ki, strategiya dedikdə müəssisənin fəaliyyətinin məcmu əhatəli hərəkət xətti-konsepsiyası anlaşılır, başqa sözlə ümumi hərəkət proqramı olub qarşıya qoyulmuş məqsədə nail olunması üçün öz resursların səmərəli bölgüsünə aid edilir.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. **Yeni Azərbaycan qəzeti, 30 sentyabr 2015 – ci il**
2. **Qasımlı V.Ə. İqtisadi modernizasiya.Bakı: 2014, 312 s.**
3. **Alıyev İ.H.”Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi”.Bakı-2003.315s**

Ph.D in Economics V.B.Kerimli

Strategic management and application and development in aqricultural sector.

Summary

The article studied the ways of the modern era of the strategic management and development of the agricultural sector to meet the requirements for the application of the principles of the new administration are being investigated. At the same time, the article on the study of strategic management in key areas are identified and reviewed the implementation of the country's agricultural sector.

Key words: agrarian, management, strategy, strategic management.

Turizmin inkişafında innovasiya əsas faktorlardan bir kimi

I.e.d., prof. Şahbazov Kamil Ağazaman oğlu

İ.f.d., dos. Nəsibov Vüqar Nizami oğlu

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Menecment kafedrası
vuqar.nasibov@bk.ru

Açar sözlər: Turizm, innovasiya, turizm məhsulu, turizm sektoru.

Son illərdə beynəlxalq turizm dünya iqtisadiyyatında əsas yerlərdən birini tutur. Turizm sənayesinin həcminin artması dünya iqtisadiyyatının yüksəlməsində əsas faktorlardan biridir. O cümlədən turizm bir çox ölkələrdə əhalinin əsas məşğulluq sahəsi sayılır. Birləşmiş Millətlər Təşkilatının tərkibində olan Dünya Turizm Təşkilatının 2017 –ci il məlumatına əsasən dünya səviyyəsində turizmin illik artım tempi 7% təşkil edir. Bu məlumata əsasən son illər turizm sahəsində yüksək artım tempi bütün dünya dövlətlərində müşahidə olunmuşdur. Ən yüksək templi artım Amerika, İsveç, Çernoqoriya, Kuba və Çin kimi dövlətlərdə olmuşdur. Səyahətlərə və turizmə daha çox

vəsait xərcləyən insanlar isə sənayecə inkişaf etmiş ölkələrin əhalisi olmuşdur. Belə ölkələrə ABŞ, Almaniya, Fransa və Böyük Britaniyanı aid etmək olar.

Dünya Ticarət Təşkilatının məlumatına əsasən turizm dünya sənayesində birinci yeri tutur. İstehlakçı xərclərinin 10 %- ni turistlərin xərclədiyi məbləğ təşkil edir.

Birləşmiş Millətlər Təşkilatının tərkibində olan Dünya Turizm Təşkilatının məlumatına əsasən keçən il dünyada turistlərin sayı 900 milyon nəfər olmuşdur. Verilmiş proqnozlara görə isə 2020-ci ildə turist səfərləri edəcək insanların sayı 1,6 milyard nəfər olacaq.

Rusiyada isə xarici dövlətlərə turist səfərləri edən insanların xərcləri 2017-ci ildə 2016-cı ilə nisbətən 22,1% artmışdır və 22,3 milyard Abş dolları həcminə çatmışdır.

Dünya iqtisadiyyatında turizmin payının artması ilə əlaqədar Dünya İqtisadi Forum (World Economic Forum) adlanan beynəlxalq müstəqil təşkilatı müxtəlif

ölkələrdə turizmin inkişafı və turizm sektorunun payının artması üçün əsas stimullar müəyyən etmişdir.

Turizmin inkişafına təsir edən əsas faktorlara aşağıdakılar aid edilmişdir:

- Ölkədəki siyasət;
- Qanunvericilik və tənzimləmə;
- Ətraf mühitin qorunması;
- Təhlükəsizlik;
- Səhiyyənin inkişaf səviyyəsi;
- Ölkənin iqtisadiyyatinda turizmin tutduğu yer;
- Aiva, dəmiryolu, avtomobil və digər nəqliyyat növlərinin inkişaf səviyyəsi;
- Turizm infrastrkturunun inkişaf səviyyəsi;
- Turizm sektorunun rəqabətqabiliyyətlilik səviyyəsi;
- Ölkənin təbii və insan resurslarının səviyyəsi;
- Mədəni resurslar.

Qeyd etmək lazımdır ki, bizim fikrimizcə, dünya iqtisadiyyatında turizm sektorunun daimi inkişaf tempi bu sahədə ənənəvi xidmətlərin göstərilməsi hesabına

deyil, innovativ məhsulların işlənib hazırlanması və tətbiqi nəticəsində durmadan artacaqdır.

Müasir dövrdə dünyanın əksər ölkələrində müxtəlif gəlirli insanlara hesablanmış geniş turizm xidmətləri təklif edən yüzlərcə turizm firmaları fəaliyyət göstərir. Turizm bazarında belə firmalar arasında daima kəskin rəqabət mövcuddur. Bu rəqabət mubarizəsində ənənəvi xidmətlərlə yanaşı, yeni xidmət və əmtəələr təklif edən firmalar qalib gəlirlər. Çünki, yalnız yeni xidmət və əmtəələr təklif etməklə müasir insanları cəlb etmək və gəlirləri artırmaq mümkündür.

Deməli, müasir dövrdə turizm sektorunun inkişafı üçün innovasiyalar tətbiq etmək vacibdir.

Məlumdur ki, innovasiyalar tətbiqinə, xarakterinə, istiqamətinə, qəbul olunması xüsusiyətinə və digər əlamətlərinə görə biri-birindən fərqlənirlər. Cəmiyyətdə yeni yaranmış tələbatların maddi cəhətdən reallaşdırılmasına zərurət yarandıqda, innovasiyaya tələbat formalaşır.

Innovasiyalar iqtisadiyyatın bütün sektorlarında müsbət dəyişikliklərin həyata keçirilməsinin başlıca faktorudur. Onların tətbiqi bütün fəaliyyət sferalarında böyük rol oynayır. Innovasiyaların tətbiqi yeni fəaliyyət növünün yaranmasına və məhsul istehsalında yeni texnologiyaların istifadəsinə imkan yaradır.

Turizm biznesi sahəsində tətbiq olunan innovasiyaları iki qrupa bölmək olar:

1. Turizm məhsulunun mahiyyətini dəyişmədən, onun ayri-ayri parametrlərinin yaxşılaşdırılmasına gətirib çıxaran yeniliklər.
2. Təmamilə yeni turizm məhsulun yaranmasına səbəb olan yeniliklər.

Qeyd etmək lazımdır ki, yeni turizm məhsulunun yaranmasına səbəb olan innovasiyaları işləyib hazırlamaq üçün bu sahə üzrə olan alimlər və menecerlər birgə işləməlidirlər. Belə ki, alimlər tədqiqat proqramları əsasında bazarın, elm və texnikanın tələblərinə cavab verən innovasiyaları işləyib hazırlaya bilirlər. Menecerlər isə bu innovasiyaları kompaniyanın

fəaliyyətində düzgün tətbiq edirlər. Menecer və alimlərin birgə fəaliyyəti nəticəsində innovasiya prosesinin hər mərhələsinə uyğun kompaniyanın qarşısına qoyduğu elmi-tədqiqat və kommersiya məqsədlərinə nail olmaq mümkündür.

Innovasiyaların tətbiqi turizm sahəsinin inkişaf etməsi üçün yeni məhsul, xidmət və ideyaların yaranmasına şərait yaradır. Belə ki, yeni texnologiyalar turizmin xarakter və strukturunu dəyişir, ənənəvi standart turizm xidmətlərini təklif etməklə yanaşı, fərdi yaranmış tələbləri də ödəməyə imkan verir. Yeni turizm xidmətləri əsasən turistlərin fərdi təklifləri əsasında formalaşır. Qeyd etmək lazımdır ki, turizmin inkişafı və innovasiyaların bu sahəyə tətbiqi işində yaşlı nəslin rolu çox böyükdür. Bu dünya səviyyəsində turistlərin ümumi həcmində yaşlı nəslin sayının çox olması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, turizmdə innovasiyalar bilavasitə investisiyalarla bağlıdır. Bizim fikrimizcə, əsas innovasiyalar turizmin təşkilati məsələlərinə yönəldilməlidir. Çünki, təşkilati dəyişikliklərin

innovativ potensialı birbaşa menecment və idarəetmə üslubunda əks olunur. Daha sonra bütünlüklə turizm sahəsində öz əksini tapır.

O cümlədən, bütün sahələrdə olduğu kimi, turizm sahəsində də innovasiyaların tətbiqinə mənfi təsir edən bəzi faktorlar mövcuddur. Buna görə də Azərbaycanda bir çox turizm şirkətləri innovasiyaların aktiv tətbiqinə risk etmirlər. Turizmdə innovasiyaların tətbiqinə mənfi təsir edən faktorlara aşağıdakıları aid etmək olar:

- Rəqabətin zəif olması. Buna görə də əksər turizm şirkətləri ənənəvi xidmətlər təklif etməkdə davam edirlər;
- İdarəetmənin forma, metod və təşkilində çatışmamazlıqların olması;
- Korporativ mədəniyyətin səviyyəsinin aşağı olması;
- Dövlət tərəfindən səbəbsiz yoxlamaların çox olması innovasiyaların tətbiqinə marağı azaldır;
- Bir çox turizm şirkətləri yenilik etməkdənsə, mövcud strukturu, idarəetmə sistemini və iş

metodlarını qoruyub saxlamağa üstünlük verirlər.

Bizim fikrimizcə, müasir dövrdə Azərbaycanda mövcud olan bazar iqtisadiyyatı turizmin inkişafında innovativ fəaliyyəti avtomatik tənzimləməyə qadir deyil. Buna görə də respublikamızda innovativ fəaliyyəti tənzimləmək üçün dövləti rolu və innovasiya siyasətinin həyata keçirilməsi çox vacibdir. Belə ki, dövlət turizm sektorunda subyektlərin fəaliyyət göstərməsi və onlar arasında innovativ aktivliyin artması üçün xüsusi tədbirlər işləyib hazırlamalı və həyata keçirməlidir. Belə tədbirlərə aşağıdakıları şamil etmək olar:

1. Fəaliyyətində innovasiyaları aktiv tətbiq edən turizm şirkətlərinə xüsusi vergi və maliyyə güzəştlərinin tətbiq edilməsi;
2. Turizm sektorunun inkişafı üçün yerli və xarici kapitalı cəlb etmək məqsədilə xüsusi müsbət innovativ mühitin yaradılması və s.

Turizm iqtisadiyyatın elə bir sahəsidir ki, burada kompüter texnologiyalarının tətbiqi yüksək fayda gətirir. Kompüter texnologiyaları əsasən bütün nəqliyyat vasitələrinə olan biletlərin və mehmanxana nömrələrinin bron edilməsində böyük əhəmiyyət kəsb edir. Əksər mehmanxanaların internetdə xüsusi saytları mövbcuddur və bunların köməyilə müştəri mehmanxana barədə informasiya əldə edir. Əlavə zənglərə və poçt göndərişlərinə ehtiyac qalmır.

Belə ki, hər bir ölkə turizm sahəsinin inkişafında özünə məxsus xüsusiyyətlərə malik olmasına baxmayaraq, bütün ölkələr müəyyən faktorlardan asılıdlrlar. Bu faktorlara aşağıdakıları aid etmək olar:

- Təklif olunan turizm xidmətinin keyfiyyəti;
- Ənənəvi turizm infrastrukturunun inkişaf səviyyəsi;
- Ölkədəki nəqliyyat infrastrukturunun inkişaf səviyyəsi;
- Təhlükəsizlik səviyyəsi və s.

Bütün yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, turizm sahəsinin inkişafında dövlətin həyata keçirdiyi siyasət turizmin proqnozlaşdırılması və planlaşdırılmasını, bu sahəyə maliyyə dəstəyi və xarici bazarlara milli turizm məhsulunun yeridilməsini nəzərdə tutmalıdır. Ölkəmizdə həyata keçirilən innovasiya siyasəti isə turizm sahəsində innovativ fəaliyyətin aktivliyinin yüksəldilməsinə yönəldilməlidir. Belə ki, əlavə resursların istifadəsinə imkan yaradılması innovativ fəaliyyəti aktivləşdirir.

Turizm sahəsindəki sahibkarlıq fəaliyyəti bir çox özəl xüsusiyyətlərə malikdir. Belə ki, turizm yeni təəssüratların və təcrübənin yaranmasına, dünya görüşünün artmasına, gündəlik qayğılardan azad olmağa, insanlar arasında yeni münasibətlərin yaranmasına xidmət edir. Bütün bunlar turizm sahəsinə innovasiyaların qoyulmasını stimullaşdırır.

Aparılmış tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, yeni texnologiya və metodlara vaxtında reaksiya verilməsi turizm şirkətlərinin gəlirlərini artırmaqla

yanaşı, onların bazarda mövcud olması və inkişaf etməsində vacib bir məsələdir. Dünya ölkələrində gedən siyasi, sosial və maliyyə inteqrasiyası ilə yanaşı innovasiyaların tətbiqi dünya iqtisadiyyatının bütün sahələrinin, o cümlədən turizmin inkişafına səbəb olacaqdır.

Ədəbiyyat

1. Htt:/ iww,tour,sebasropol.,ua/news.
2. Spending On Native Advertising Is Soaring As Marketers And Digital Media Publishers Realize The Benefits (Elektron resurs).
3. Study: Article or Ad? When It Comes to Native, No One Knows (Elektron resurs).
4. The native advertising playbook (Elektron resurs).
5. Thee cost of ad blocking PageFair and Adobe 2015 Ad Blocking Report (Elektron resurs).

Xülasə

Məqalədə turizm sahəsində inkişafın əsas amillərindən biri kimi innovasiya məsələlərindən söhbət açılır. Belə ki, turizm iqtisadiyyatın elə bir sektorudur ki, burada innovasiyaların tətbiqi yüksək səviyyədə gəlir gətirir. Məqalədə həmçinin turizm biznesi sahəsində tətbiq olunan innovasiya növləri də göstərilmişdir.

Abstract

The article discusses questions of innovation as one of the main factors of development in tourism. However, tourism is one of the areas of economics, where application of innovations results in higher returns. Also, innovation types in area of tourism business are presented.

JEL Classification Codes: L 83, 331.5, 658.5

Azərbaycanda pensiya təminatı sisteminin effektiv idarəetmə problemləri

Köçərli Yalçın Ənvər oğlu, Köçərli Leyla Rais qızı

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

"Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi"

kafedrasının müəllimləri

E-mail: yalcinkocharli4@gmail.com

İqtisadiyyatda islahatların daha da ciddi aparılması, real iqtisadiyyata vəsaitlərin yönəldilməsi, məşğulluğun təmin edilməsi, insanların sosial müdafiəsinə, sosial reabilitasiyasına, həm də sosial problemlərin qarşısının alınmasına xüsusi diqqət yetirilməsi təkmilləşdirilməsi zəruri olan əsas vəzifələrdəndir. Konsepsiyaya uyğun olaraq biznes mühitinin, rəqabət qanunvericiliyi və siyasətinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilməsi, investorların hüquqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsinə əlverişli zəmin yaratmışdır. Qanunların davamlı və ədalətli tətbiqi

və hüququn aliliyinin işlək sisteminin formalaşdırılması daima diqqət mərkəzində saxlanılır [1, səh.14]. Rəqabət qabiliyyətinin inkişaf mərhələlərinə bölünməsi iqtisadiyyatın necə inkişaf etdiyini, milli iqtisadiyyatın qarşısında hansı spesifik problemlərin qoyulduğunu göstərməyə imkan verir.

Pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm və əsas istiqamətlərindən biridir. Pensiya təminatı sisteminin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması zəruriliyi bu sahədə bu gün də yeni çağırışlara cavab verən islahatların davam etdirilməsini şərtləndirir. Azərbaycanda pensiya təminatı modelinin beynəlxalq təcrübədə əldə olunmuş qabaqcıl təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi zərurəti ölkəmizdə bazar iqtisadiyyatına keçidin uğurla başa çatdırılması və yeni reallıqlar müstəvisində vətəndaşların pensiya təminatının daha yetkin mexanizmlər vasitəsilə həyata keçirilməsinə imkan verən sistemin yaradılması ilə bağlıdır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qarşıya

qoyulmuş hədəflər bütövlükdə sosial sahədə, o cümlədən vətəndaşların pensiya təminatı sahəsində ölkəmizin əldə olunmuş nailiyyətlərə söykənməklə yeni perspektivlərin effektiv idarəetməyə cəlb edilməsinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun dəyişikliklər strategiyasının həyata keçirilməsinə zəmin yaradır. Pensiya latın sözü olub hərfi mənası "ödəmə" deməkdir. Lakin bildiyimiz kimi, bütün ödəmələr pensiya ola bilməz. Yalnız müəyyən hüquqi formada həyata keçirilən ödəmələr pensiya hesab oluna bilər. Pensiya - vətəndaşlara qocaldıqda, əmək qabiliyyətini tam yaxud qismən itirdikdə, ailə başçısını itirdikdə, həmçinin, müəyyən əmək fəaliyyəti sahələrində təyin olunmuş iş stajina çatdıqdan sonra ayba-ay verilən zəmanətli pul ödənişidir. İşçilər və onların ailələri, yuxarıda göstərilən sığorta halları baş verdikdə, sahibkarların və işçilərin ödəmələri hesabına pensiya fondlarından maddi təminat alırlar.

Planetin sosial və professional strukturunda vətəndaşların məşğulliyyəti, onların sinfi və əmək bölgüsü əsas şərtlərdəndir. Kadrların stasus yüksəlişinin təminatı

istiqamətində mühüm addım olaraq gəlirlər sferasında islahatları dərinləşdirmək vacib amillərdən sayılır. Bu isə o deməkdir ki, əməyin ödəniş sistemi daim təkmilləşməli, onun ölçü və miqyası real insani yaşayışla dolğun adekvatlıq təşkil etməlidir [3,səh.101].

Pensiya təminatına yönəldilmiş sosial sığorta ehtiyatlarının həcmi demoqrafik, iqtisadi və hüquqi amillərlə müəyyənləşdirilir.

Demoqrafik amillərə orta ömrün uzunluğunun artımı və onunla bağlı əhalinin qocalması prosesi aiddir.

İqtisadi amillərə əmək haqqının və pensiya təminatının nisbətinin müəyyənləşdirilməsi, onun minimal səviyyəsi, normativdən artıq əmək stajina, xüsusi əmək şəraitinə görə əlavə ödəmələr şəklində həvəsləndirmə elementlərinin istifadəsi və s. aiddir.

Hüquqi amillərə pensiya sığortası və təminatı sahəsində milli qanunvericiliyin xüsusiyyətləri aiddir.

Respublikamızda pensiya təminatı "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının 1993-cü il yanvar ayının 1-dən qüvvədə olan (sonrakı

dəyişikliklərlə birlikdə) Qanunu ilə nizama salınır. Azərbaycan Respublikasının vətəndaşlarına qanunla müəyyən edilmiş müvafiq yaş həddinə çatdıqda, əmək qabiliyyətini tam və ya qismən itirdikdə, həmçinin ailə başçısını itirdikdə maddi təminata zəmanət verərək, vahid dövlət pensiya sisteminə müvafiq olaraq pensiya təyin edilir. Qanunla ictimai-faydalı əməklə məşğul olan müxtəlif kateqoriyalı işçilər pensiya təminatının bərabər norma və şərtləri ilə təmin olunurlar [5,səh.2]. Qüvvədə olan qanunla vətəndaşlara aşağıdakı növ pensiyalar təyin edilir:

1) əmək pensiyaları - yaşa görə (qocalığa görə), əlilliyə görə, ailə başçısını itirdiyinə görə, uzun müddət xidmətə görə verilən pensiyalardır.

2) sosial pensiyalar - əmək pensiyasına hüququ olmayan vətəndaşlara verilir.

Sosial təminatın bir növü kimi yaşa görə əmək pensiyaları digər ödəmələrdən fərqlənən bir sıra xüsusiyyətlərə malikdir. Bu növ pensiyalar ömürlük təyin edilir. Əmək pensiyası "Əmək pensiyaları haqqında"

Qanunla nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığortaolunanın onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əmək haqqı və digər gəlirlərin, yaxud sığortaolunanın ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədi ilə vətəndaşlara aylıq pul ödənişidir. Azərbaycanın sosial-iqtisadi inkişafının sürətlənməsi strategiyası daha çox perspektiv istiqamət olub, əsası müasir idarəetmə tədbirlərinin özünün əsaslandırılması və köklü struktur islahatlarla bağlıdır. Belə islahatların sahələr üzrə proqnozu daxili tələbatın ödənilməsində milli resursların dövriyyəyə cəlb edilməsi və ixracata daha da üstünlük verilməsindən ibarətdir [2, səh.228].

Azərbaycanda əmək pensiyaları ödənilmiş məcburi sosial sığorta haqlarına əsasən təyin olunur. Bu isə pensiya məbləğini sosial sığorta haqlarının vaxtında ödənilməsindən birbaşa asılı edir. Ödənilmiş sosial sığorta haqlarının fərdi uçotunun aparılması məqsədilə, DSMF hər bir sığortaolunanı fərdi uçot sistemində uçota alaraq onun

üçün unikal sosial sığorta nömrəsi olan fərdi şəxsi hesab açır. Həmin hesabda sığorta olunanın gələcək pensiya təminatı hüququnun realaşması üçün tələb olunan məlumatlar toplanır. Bu zaman sığortaolunanın DSMF-da uçota alındığını və onun üçün fərdi şəxsi hesabın açıldığını təsdiqləyən hüquqi sənəd –sosial sığorta şəhadətnaməsi rəsmiləşdirilir.

Pensiya təminatı sahəsində beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, bir çox ölkələrdə məcburi sosial sığorta sistemi ilə yanaşı, könüllü pensiya sığortası da inkişaf etdirilir ki, bu da əhalinin əlavə pensiya təminatında mühüm rol oynayır. Beynəlxalq təcrübədə pensiyaların maliyyələşdirilməsi həmrəylik, yığım, habelə bu modellərin birləşməsindən ibarət pensiya sistemləri əsasında həyata keçirilir. Həmrəylik sistemi hazırda işləyənlərin əsas etibarı ilə ödədikləri sosial sığorta haqqı hesabına yaşlı nəslin pensiyalarının maliyyələşdirilməsini nəzərdə tutur. Bundan fərqli olaraq, yığım sistemində hazırda işləyənlərin icbari, yaxud könüllü qaydada ödədikləri sosial sığorta haqqı cari pensiya xərclərinə sərf

olunmur və əlavə gəlir əldə etmək məqsədi ilə müxtəlif investisiya proqramlarına yönəldilərək idarə olunur. Qabaqcıl ölkələrdə bu maliyyələşmə modellərinin müxtəlif nisbət və formada birləşməsinə əsaslanan pensiya təminatı sistemləri daha geniş yayılmışdır. Əksər hallarda icbari qaydada tətbiq edilən və əsasən həmrəylik prinsipi üzrə maliyyələşdirilən dövlət pensiya təminatı sistemlərinə əlavə olaraq yığım maliyyələşmə modeli əsasında fəaliyyət göstərən pensiya təminatı sistemlərindən istifadə olunur.

Dünya təsərrüfatında yaranan yeni qaydaların məqsəd və prinsipləri, həmçinin strukturu dövlətlərin ümumi razılaşmaları əsasında müəyyənləşir. Qloballaşma şəraitində iqtisadi münasibətlərlə əlaqəli hüquqi normaların ahəngdarlaşmasının xüsusi əhəmiyyəti vardır. Belə ki, məhz bu normalardakı fərqlilik dünya iqtisadiyyatının inkişafı yolunda əngələ çevrilir [4, səh.396].

Qlobal maliyyə böhranı şəraitində vəsaitlərin dəyərsizləşməsi ilə bağlı üzləşilən ciddi problemlər bir tərəfdən həmrəylik modellərinin gücləndirilməsi, digər tərəfdən isə yığım pensiya təminatı sxemlərində vətəndaşların iştirakının məcburi qaydadan daha çox könüllülük əsasında həyata keçirilməsinə üstünlük verilməsi meyllərini gücləndirmişdir. Bir çox qabaqcıl ölkələrin təcrübəsində həmrəylik prinsipi əsasında qurulmuş dövlət pensiya təminatı sistemlərinin təkmilləşdirilməsi başlıca olaraq sığorta prinsiplərinin tətbiqinin genişləndirilməsi yolu ilə həyata keçirilir. Dövlət pensiya təminatında sığorta prinsiplərinin gücləndirilməsi toplanan pensiya öhdəlikləri ilə yığılan maliyyə vəsaitlərinin balanslaşdırılmış tarazlığının təmin edilməsini, həmçinin bu sistemlərin iştirakçılarına münasibətdə aktuar ədalətliliyin (hər bir iştirakçının ödədiyi sosial sığorta haqlarının onun alacağı pensiya məbləğinə mütənasib olmasının) gözlənilməsini nəzərdə tutan islahat tədbirləri ilə bağlıdır. Beynəlxalq təcrübə göstərir ki, yalnız məcburi dövlət sosial sığortasına

əsaslanan sistemin tətbiqi ilə yüksək pensiya məbləğinə nail olunması xeyli çətindir. Məcburi dövlət sığortası ilə yanaşı, könüllü sığortanın tətbiqi layiqli pensiya məbləğinə şərait yaradır. Könüllü sosial sığortanın tətbiqi özəl pensiya fondlarının yaradılmasını zəruri edir ki, bu da pensiya sistemləri ilə maliyyə bazarları arasında qarşılıqlı əlaqənin təmin edilməsini şərtləndirir [8].

Pensiya təminatı sisteminin islahatının əsas vəzifələri aşağıdakılardır:

1. pensiya təminatı sisteminin fəaliyyətində sığorta prinsiplərinin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə toplanılan sığorta vəsaitləri arasında balanslaşdırma mexanizmlərinin formalaşdırılması;

2. pensiya təminatı sistemində təyin olunan pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin təmin edilməsi, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktuar təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması;

3. sığorta prinsiplərinə uyğun olmayan ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, o

cümlədən bir sıra öhdəliklərin dövlət öhdəliyi kimi fərqləndirilməsi;

4. əmək pensiyalarının könüllü yığım komponentinin real praktikada tətbiqi və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsi.

Pensiya təminatı sistemində 2017-ci il iyulun 1-dən qüvvəyə minən dəyişikliklər ölkədə vətəndaşların sığorta-pensiya sistemində daha fəal iştirakını təşviq edir. Dəyişikliyə eyni zamanda, kişilər və qadınlar üçün pensiya yaşının 65-ə qaldırılmasını da misal göstərmək olar. Qeyd edək ki, bu müddət mərhələli şəkildə tətbiq olunacaq. Kişilər üçün nəzərdə tutulan 63 yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılacaq. Yəni, hər il 6 ay (yarım il) müddət pensiya yaşının üstünə gələcək.

Bunu aşağıdakı cədvəldən də aydın görmək olar.

Kişilər və qadınlar üçün pensiya yaşının 65-ə çatdırılmasının mərhələlər üzrə tətbiq olunması

Dövr	Kişilər üzrə pensiya yaşı	Qadınlar üzrə pensiya yaşı
iyul 2017 – 30 iyun 2018	63 il 6 ay	60 il 6 ay
iyul 2018 – 30 iyun 2019	64 il	61 il
iyul 2019 – 30 iyun 2020	64 il 6 ay	61 il 6 ay
iyul 2020 – 30 iyun 2021	65 il	62 il
iyul 2021 – 30 iyun 2022	65 il	62 il 6 ay
iyul 2022 – 30 iyun 2023	65 il	63 il

iyul 2023 – 30 iyun 2024	65 il	63 il 6 ay
iyul 2024 – 30 iyun 2025	65 il	64 il
iyul 2025 – 30 iyun 2026	65 il	64 il 6 ay
iyul 2026 və sonra	65 il	65 il

Cədvəldən göründüyü kimi, 2017-2021-ci illərdə kişilərin, 2017-2027-ci illərdə isə qadınların pensiya yaşı hər il 6 ay olmaqla artırılıb 65-ə çatdırılacaq. Qeyd edək ki, kimsə işləyə-işləyə bu yaşa çata biləcəksə, həmən pensiya almaq hüququ əldə edə bilməyəcək. Bu, asılı olacaq onun Pensiya Fondunda toplanan pensiya kapitalının məbləğindən. Qanuna minimal pensiya məbləği elementi daxil edilir. İşlədiyi dövrdə Fonda onun üçün ödənilən sosial sığorta haqqının 85 faizini təşkil edəcək bu kapitalı böləcəklər 144 aya – yəni 12 ilə. Əgər alınan məbləğ indi 110 manat olan minimum pensiya məbləğindən az olacaqsa, adam pensiya ala bilməyəcək.

Məcbur olacaq ki, işləməyə davam etsin ki, minimum pensiyanı ala bilsin. Yəni 65 yaş o adamlar üçündür ki, yüksək maaş və qanuni əmək müqaviləsi ilə işləyib, özünə yaxşı pensiya kapitalı yığa biləcək. Lakin kimsə əmək müqaviləsi olmadan işləyirsə və yaxud aldığı əmək haqqının cüzi bir hissəsini rəsmiləşdirirsə, məhz onlar 65 yaşdan sonra da uzun müddət işləməli olacaqlar.

Azərbaycan dövlətinin pensiya təminatı sistemi qocalığa, əlilliyə və ailə başçısını itirməyə görə təminatları nəzərdə tutur və bu ödənişlərin məcburi sosial sığorta vasitəsilə gerçəkləşdirilməsi mexanizmlərinə istinad edir. Qanunvericiliyə görə, əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda və işləmədikdə, o, yaşa görə sosial müavinət almaq hüququna malikdir. Eləcə də həmin şəxslər ünvanlı dövlət sosial yardım proqramına müraciət edə bilərlər.

Başqa bir məsələni də qeyd edək ki, 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək

pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası hüququ var. Beləliklə, pensiyanın hesablanması zamanı vətəndaşın almalı olduğu pensiyanın məbləği minimal pensiya məbləğini keçirsə, o zaman iş stajından asılı olmayaraq ona pensiya təyin ediləcək. Əks halda iş stajına baxılacaq. İşçinin 25 illik iş stajı varsa, ona minimal pensiya təyin olunacaq. Yəni, 25 il işləyən və aylıq sosial ödənişlər edən hər bir vətəndaş əmək və xidmət müqaviləsi ilə çalışmasından asılı olmayaraq və hesabındakı vəsaitin məbləğinə baxmayaraq, pensiya ala biləcək. 65 yaşa çatmış hər bir təqaüdçü minimum 12-13 il pensiya almaq hüququna malik olacaqdır.

Yeni dəyişikliklərə əsasən, pensiyada olmaq yaşı orta hesabla 12 il nəzərdə tutulduğundan və minimum pensiya məbləği 110 manat (2017-ci il, 1 iyul tarixindən əmək pensiyasının minimum məbləği 110 manat müəyyən

olunub) olduğundan tələb edilən minimum yığım məbləği aşağıdakı kimi də hesablanır:

12 il *x* 12 ay *x* 110 manat = 144 *x* 110 manat = 15840 manat.

Deməli, əmək pensiyasını alınması üçün 15840 manat yığım tələb edilir.

Göründüyü kimi pensiya təyinatının bilavasitə toplanmış sığorta kapitalı ilə uzlaşdırılması nəticəsində əvvəllər tətbiq olunan 12 illik staj tələbi aradan qaldırılıb. Misal üçün adam var ki, 5 il yüksək maaşla yaxşı ödəmə ödəyib. Ancaq pensiyaya çıxmaq üçün 12 illik stajı olmadığı üçün pensiyaya çıxa bilmir. Lakin artıq 12 illik staj müddətinin ləğv olunması həmin adama 12 illik stajı olmasa da onun sığorta haqqı ödəmə məbləğinin ümumi həcmini 144-ə bölləndə 110 manat edirsə, pensiya ala bilər. Beləliklə, əgər sığorta kapitalı minimum pensiya məbləği qədər pensiya təyin olunmasına imkan verirsə, pensiyaçıya münasibətdə artıq heç bir staj tələbi qoyulmur. Alternativ

olaraq isə onun minimum pensiya təminatı almaq üçün 25 il stajı olmalıdır. İşləyən pensiyaçılara hər 72 aydan bir fərdi hesablarında yığılmış vəsaitlərdən istifadə edərək pensiyalarını artırmaq imkanı da verilib. Pensiya qanunvericiliyinə edilmiş son dəyişikliklər nəticəsində, fərdi uçot sistemində "açıq hesab" prinsipi tətbiq olunub. Bu o deməkdir ki, fərdi uçot sistemində fərdi şəxsi hesabı açılmış hər bir şəxsə bu hesabındakı pensiya kapitalını artırmaq üçün əlavə imkanlar yaradılıb.

Dəyişikliklərin ən maraqlı tərəfi budur ki, pensiyaya çıxmaq hüququ verən minimum pensiya məbləği hər il inflyasiya səviyyəsinə uyğun olaraq indeksləşdiriləcək – yəni artırılacaq. Bu il 110 manatdırsa, gələn il azı 5-6 manat artacaq. Yəni bu proses rəsmi elan olunan inflyasiya səviyyəsinə uyğun gedəcək.

Güzəştli şərtlərlə əmək pensiyası hüququnda da yeniliklər var: dövlət qulluqçuları, hərbi qulluqçular, prokurorlar və digər kateqoriyalar üzrə staj ili qaldırılır.

Əlilliyə görə pensiyalar, orqanizmin funksiyalarının pozulması ilə əlaqədar səhhətin pisləşməsi zamanı əmək

qabiliyyətinin tam və ya qismən itirildiyi aşağıdakı hallarda təyin edilir: a) əmək zədəsi və ya peşə xəstəliyi; b) ümumi xəstəlik (o cümlədən işlə əlaqədar olmayan zədə); c) müddətli hərbi və ya alternativ xidmət vəzifələrini yerinə yetirərkən yaralanma, kontuziya, zədələnmə və ya cəbhədə olmaqla əlaqədar xəstələnmə, həmçinin müddətli hərbi xidmət və alternativ xidmət zamanı xəstələnmə.

Sosial pensiyalar - əmək qabiliyyəti olmayan vətəndaşların qanunla müəyyən şərtlər əsasında sosial pensiya almaq hüququ vardır. Sosial pensiyalar - əmək qabiliyyətini itirmiş vətəndaşlara, onların sığorta pensiyası hüququ olmadıqda verilir. Sosial pensiyaların həcmi, alanların kateqoriyaları üzrə, yaşa görə minimal pensiyanın müəyyən faizi ilə təyin edilir. Sosial pensiyaların mövcudluğu, bütün vətəndaşları dövlət sosial sığortası ilə əhatə etmək, əmək stajından asılı olmayaraq, onlara maddi rifahın minimal səviyyəsinə zəmanət vermək imkanlarını yaradır.

Sosial pensiyalar aşağıdakı əmək qabiliyyəti olmayan işləməyən vətəndaşlara onların əmək pensiyası almaq hüququ olmadıqda təyin edilir və ödənilir:

1. ümumi xəstəlik nəticəsində I, II və III qrup əlillərə;
2. 65 yaşına çatmış kişilərə, 60 yaşına çatmış qadınlara;
3. 55 yaşına çatmış, 3 və daha çox uşaq doğub 8 yaşınadək tərbiyə etmiş analara;
4. uşaqlıqdan əlil olanların 55 yaşına çatmış analarına, onlar həmin uşaqları 8 yaşınadək tərbiyə etmişlərsə;
5. ailə başçısını itirmiş uşaqlara;
6. vəfat etmiş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə qulluq edən və işləməyən valideynlərdən birinə və ya ərə (arvada), yaxud babaya, nənəyə, qardaşa, bacıya yaşından və əmək qabiliyyətindən asılı olmayaraq.

Sosial pensiya əmək pensiyası almaq hüququ olmayan I, II və III qrup uşaqlıqdan əlillərə və eləcə də 16 yaşına çatmamış əlil uşaqlara da təyin olunur.

Sosial pensiyalar aşağıdakı məbləğdə təyin edilir:

1. I qrup əlillərə, II qrup uşaqlıqdan əlillərə, eləcə də 16 yaşına çatmamış əlil uşaqlara - yaşa görə minimum pensiyanın 100 faizi məbləğində;
2. II qrup əlillərə (uşaqlıqdan əlillərdən başqa), ailə başçısını itirmiş uşaqlara, habelə 90-cı maddənin üçüncü, dördüncü və beşinci abzaslarında nəzərdə tutulmuş şəxslərə - yaşa görə minimum pensiyanın 80 faizi məbləğində;
3. III qrup əlillərə - yaşa görə minimum pensiyanın 50 faizi məbləğində.

Sosial pensiyalara əlavələr 16 yaşına çatmamış əlil uşaqlara və I qrup uşaqlıqdan və ümumi səbəbdən əlillərə qulluq üçün onlara təyin olunmuş sosial pensiyanın 50 faizi məbləğində əlavə verilir [7].

Azərbaycan üzrə 2019-cu ilin sonuna əmək pensiyaçılarının sayının **1 294 min** nəfər olacağı

proqnozlaşdırılır. 2018-ci ilin proqnozu üzrə əmək pensiyaçılarının sayı **1 301 800** nəfər olub. Bunun 58,3 faizi yaşa görə, 30,8 faizi əlilliyə görə, 10,9 faizi isə ailə başçısını itirməyə görə pensiya alanlardır. Yaşa görə pensiya alanların sayında azalma müşahidə olunur, pensiya yaşının artırılması buna təsir edib.

Göstəricilərdə əmək pensiyaçılarının yaşayış minimumunun gələn il **149** manat olacağı nəzərdə tutulub ki, bu da 2017-ci il üzrə müvafiq göstəricidən **18.8** manat və ya 14.4 faiz, 2018-ci il üzrə müvafiq göstəricidən (**144** manat) **5** manat və ya 3.5 faiz çoxdur.

Artıq 2019-cu il üçün pensiyaların orta məbləği açıqlanıb. 2019-cu ildə pensiyaların orta məbləğinin 240 manat civarında olması proqnozlaşdırılır ki, bu da 2018-ci il üzrə müvafiq göstəricidən **14.2** manat və ya 6,3 faiz artım deməkdir. Yaşa görə pensiyalar isə 273 manat səviyyəsində nəzərdə tutulur [6].

Ayrı-ayrı ölkələrin dövlətçilik təcrübəsində dövlət quruculuğu prosesləri ilə paralel sosial müdafiə siyasətinin həyata keçirilməsi nadir hallarda özünü göstərib və əksər ölkələrdə əhalinin mövcud sosial durumundan asılı olmayaraq, ilk növbədə dövlətin qurulması mərhələsi başa çatdıqdan sonra sosial rifah məsələsinin həllinə başlanılıb. Perspektiv dövr üçün nəzərdə tutulan tədbirlərin icrası pensiya təminatı sistemində qeyd etdiyimiz nəticələrə nail olmağa imkan verə biləcək amillər kimi qiymətləndirilə bilər:

❖ təyin olunan pensiya məbləği ilə ödənilən sığorta haqqının məbləğinin uyğunluq təşkil etməsi;

❖ pensiya təminatı sisteminin yığım potensialının güclənməsi;

❖ pensiya təminatı sistemi ilə bağlı qanunvericilikdə sığortaya dair prinsiplərin təkmilləşdirilməsi;

❖ sosial sığorta haqqı normativinin strukturunun təkmilləşdirilməsi;

❖ əmək resurslarının vahid reyestrinin aparılması;

❖ məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayınanların sayının azalması;

❖ pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktual təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması;

❖ pensiya təminatı sisteminin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığına nail olunması.

Ədəbiyyat siyahısı

1.“Azərbaycan 2020: Gələcəyə baxış.” İnkişaf konsepsiyası. Bakı-2012, 39 səh.

2.Əlirzayev Ə.Q., Əlirzayev E.Ə. Azərbaycanın sosial-iqtisadi problemləri, konseptual yanaşma, maliyyə-büdcə və sahələrarası proqnozlaşdırma mexanizmləri”. Bakı-2012, 583 səh.

3.Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, Elm, 2006. 509 səh.

4.Köçərli Y.Ə., Köçərli L.R. Turizmin strateji hədəfləri: realliq və perspektivlər. Avrasiya Universiteti. III Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu. 25-27 May 2016-cı il.

5.“Vətəndaşların pensiya təminatı haqqında” Azərbaycan Respublikasının Qanunu.

6.AZƏRTAC. Bakı, 08.11.2018

7.www.president.az – Azərbaycan Respublikası Prezidentinin internet səhifəsi.

8. www.pensionsystems.com

Azərbaycanda pensiya təminatı sisteminin effektiv idarəetmə problemləri

Köçərli Yalçın Ənvər oğlu, Köçərli Leyla Rais qızı

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

X Ü L A S Ə

Tədqiqatın əsas məqsədi Azərbaycanda pensiya təminatı sisteminin effektiv idarəetmə problemlərinin təkmilləşdirilməsi istiqamətində əməli tədbirlərin təmin edilməsi və makrosəviyyədə bu sistemin dayanıqlı idarəetmə tədbirlərin həyata keçirilməsidir. Məqalədə qloballaşma prosesləri nəticəsində işçi qüvvəsinin mobilliyinin güclənməsi, məşğulluq baxımından sahələr arasında sağlam rəqabətin kəskinləşməsi, daha professional elmi cəhətdən təkmilləşdirilmiş pensiya standartlarının formalaşdırılması və yayılması problemləri sistemli təhlil olunmuşdur. Tədqiqat zamanı perspektiv dövr üçün nəzərdə tutulan tədbirlərin icrası məqsədilə pensiya təminatı sistemində qeyd etdiyimiz nəticələrə nail olmağa imkan verə biləcək amillər qiymətləndirilmişdir.

Effective management problems of pension system in Azerbaijan

Azerbaijan State University of Economics(UNEC)

Yalchin A. Kocharli, Leyla R. Kocharli

S U M M A R Y

The main objective of the study to ensure sustainable management of this system is to implement measures aimed at improving effective management of the pension system in Azerbaijan, practical measures, and at the macro-level problems. As a result of increasing mobility of labor, employment terms of deterioration of standards, the formation and distribution problems were analyzed scientifically improved pension system more professional, healthy competition among area of articles in the process of globalization. During the research the prospects for the implementation of the

measures provided for in order to achieve the above-mentioned factors are appreciated the results of the pension provision system in the period.

Açar sözlər: pensiya təminatı sistemi, sosial sığorta, məşğulluq problemləri, əmək resursları, davamlı inkişaf, qloballaşma.

Key words: pension system, social insurance, the employment problems, human resources, sustainable development, globalization.

Köçərli Yalçın Ənvər oğlu
Azərbaycan Dövlət İqtisad Universitetinin "Qiyabi təhsil" şöbəsinin müdiri,
"Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi"
kafedrasının baş müəllimi

Köçərli Leyla Rais qızı
Azərbaycan Dövlət İqtisad Universiteti

"Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi"
kafedrasının müəllimi

Mob: 050 3702227
070 3702227

DAVAMLI İNKİŞAFDA VƏ İDARƏETMƏDƏ SOSİAL TƏRƏFDAŞLIQ

Zeynəddin Müsənnif oğlu Şabanov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
kafedra müdiri, fəls.ü.f.d., dos.

Davamlı İnkişaf cəmiyyətin davamlı, dayanıqlı, fasiləsiz, sabit, uzunmüddətli inkişafının təmin olunması kimi başa düşülür. Davamlı İnkişaf bəşəriyyətin ən müasir, mütərəqqi, gələcək nəsillərin tələblərini ödəyən, onların imkanlarını məhdudlaşdırmayan [1, s.72], insan potensialı və kapitalını,

yeni biliklərin səfərbər olunmasını əsas şərt kimi qəbul edən, ətraf mühitin mühafizəsini və yaxşılaşdırılmasını nəzərdə tutan inkişaf yoludur.

BMT-nin 1992-ci ildə Braziliyanın Rio-de Janeyro şəhərində «Ətraf mühit və Davamlı İnkişaf» üzrə keçirilən Beynəlxalq konfransında «Rio-92» konfransının Baş Katibi Maris Stronq çox ciddi və təşviş doğuran bəyanatla çıxış etdi: «Ya bütün dünya xilas olacaq, ya da bütün sivilizasiya məhv olacaqdır». Həmin konfransın iştirakçıları hamılıqla bəyan etdilər ki, təbiət-cəmiyyət münasibətlərində hazırda mövcud olan antoqonizm və şiddətli qarşıdurmaların yaratdığı qlobal problemlərin aradan qaldırılması üçün bütün dövlətlər bu bəşəri və planetar əhəmiyyətli məsələnin həllinə çalışmalıdır. Konfransın iştirakçıları cəmiyyət-təbiət sistemindəki gərginliyin qlobal xarakter daşıdığını və bu problemin bir, yaxud bir neçə ölkə çərçivəsində həllinin qeyri-mümkün olduğunu bir mənalı surətdə qəbul etdilər. 2000-ci ilin sentyabr ayında BMT-nin təşəbbüsü ilə Nyu-York şəhərində keçirilən

«Minilliyin Forumu»nda isə dünyanın 147 ölkəsinin dövlət və hökumət rəhbərləri «Minilliyin Bəyannaməsi»ini qəbul etdilər. Bu bəyannamədə 2015-ci ilə qədər dünya ölkələri üçün Minilliyin İnkişaf Məqsədləri (MİM) müəyyən edilmişdi. Bəyannamənin əsas məqsədi insanların həyat şəraitinin nəzərə çarpacaq dərəcədə yaxşılaşdırılması sahəsində görüləcək qlobal tədbirlərin həyata keçirilmələrindən ibarət olmuşdur.

Davamlı İnkişaf elmi ədəbiyyatlarda müxtəlif səpkilərdə şərh olunmasına baxmayaraq, onun əsas mahiyyətini çağdaş nəsillərin tələblərini ödəməyə qadir olan və gələcək nəsillərin tələbatlarının ödənilməsinə mane olmayan iqtisadi inkişaf təşkil edir. Bu tələblər isə yalnız ətraf mühitin qorunması, təbii sərvətlərdən və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi, yeni texnologiyaların yaradılması və onların istehsalatda geniş tətbiq olunması zəminində həyata keçirilə bilər. Bunun üçün isə insan potensialının inkişafı, müvafiq bilik və bacarıqlara istinad olunması, hər bir şəxs üçün əlverişli sosial-iqtisadi mühitin yaradılması əsas şərtlər

hesab olunur. Göründüyü kimi, Davamlı İnkişafa yalnız insan inkişafının əsas atributlarının ödənilməsi zəminində nail oluna bilər. Bu zaman həyatda, cəmiyyətdə mövcud olan bütün vasitələr yalnız bir amala – ali varlıq olan insanın həyat tərzinin yaxşılaşması, onun tələbatlarının ödənilməsi, gələcək nəsillərin maraqlarının nəzərə alınması və onların payına toxunulmaması istiqamətinə yönəldilməlidir [2, s.263].

2010-cu il noyabrın 4-də BMT İP-nın növbəti İnsan İnkişafı Hesabatının Bakıda təqdimat mərasimi keçirildi. Azərbaycan Prezidenti Administrasiyasının BMT İP-nın "Millətlərin həqiqi sərvəti: İnsan İnkişafına aparan yollar" devizi altında birgə təşkil eydikləri təqdimat mərasimində hökumətin, nüfuzlu beynəlxalq təşkilatların, diplomatik korpusların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak etmişlər. BMT İP-nın rezident əlaqələndiricisi – nümayəndəsi Fikrət Akçura Azərbaycanda İnsan İnkişafı İndeksinin dinamik inkişafını xüsusilə vurğulamış və çox yüksək qiymətləndirmişdir: "İnsan inkişafı indeksinin orta illik

tempinə görə Azərbaycan keçmiş Sovet İttifaqı ölkələri arasında son 10 il ərzində aparıcı dövlət olmuşdur. Azərbaycan bu istiqamətdə hətta dünya üzrə qabaqcıl sayılan iki dövləti Çin və Hindistanı da arxada qoymağa müvəffəq olmuşdur. İnsan İnkişafı İndeksinin irəliləməsində ən çox nailiyyət əldə etmiş dövlətlər sırasında Çin və Koreya Respublikası kimi tanınmış "iqtisadi inkişaf möcüzələri" ilə yanaşı, gənc dövlət olan Azərbaycanın da adı vardır. Hesabatın əhatə etdiyi 169 ölkə arasında son 5 il (2005-2010) ərzində Azərbaycan İnsan İnkişafı sahəsində ən sürətli irəliləyişə nail olmuşdur. 2005-ci ildə 101-ci yerdə olan Azərbaycan 2010-cu ildə artıq 67-ci yerdə mövqe tutmuşdur ki, bu da çox böyük bir nailiyyətdir. Bu il Azərbaycan "orta insan inkişafı" qrupu ölkələrini tərk edərək, Braziliya, Türkiyə və Malayziya kimi "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil olmuşdur. Bu film ölkənin son illərdə qazandığı nailiyyətlərindən və inkişafından bəhs edən çox önəmli əyani vasitə kimi yüksək qiymətləndirildi. Davamlı İnsan İnkişafı konsepsiyası

prinsiplərinin həyata keçirilməsi Azərbaycan üçün, bir qayda olaraq, həmişə prioritet sayılıb.

Davamlı inkişafın əsas məqsədlərindən biri də cəmiyyətdə sosial sülhü qorumaq, sosial dialoqu dəstəkləmək, insanların layiqli əmək şəraitində işləməsini təmin etmək, işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsi üçün ədalətli qanunların qəbul edilməsini istiqamətləndirməkdir. Bunun üçün sosial tərəfdaşlığın subyektləri olan həmkarlar ittifaqları və işəgötürənlər arasında razılaşma, konsensusun olması əsas şərtdir.

Qeyd etmək zəruridir ki, davamlı inkişafda sosial əmək münasibətlərini tənzimləyən sosial tərəfdaşlıq işçilərin, işəgötürənlərin, sahibkarların, müxtəlif sosial qrupların, təbəqələrin, siniflərin, onların ictimai birliklərinin, hakimiyyət, yerli özünüidarəçilik orqanlarının maraqlarının müqavilələr, anlaşmalar, sosial-iqtisadi inkişafın ən mühüm istiqamətləri üzrə konsensusun əldə olunması əsasında uzlaşdırılmasını və müdafiəsini təmin edən sivil ictimai münasibətlər

sistemidir.

Sosial əmək münasibətlərinin tənzimlənməsi bir neçə mərhələdən keçmişdir. Birinci mərhələ monopartist mərhələ adlanır ki, bu mərhələdə sahibkar külli-ixtiyar sahibi olmaqla əmək münasibətlərinin bütün şərtlərini diktə edirdi, işçinin isə heç bir hüququ yox idi, özbaşınalıq hökm sürürdü. Monoloqa uyğun gələn monopartist mərhələ uzun müddət davam etmişdir. İşçilərin mütəşəkkil olması, həmkarlar ittifaqlarının fəaliyyətə başlaması, işçilərin öz hüquqlarının tələb etməsi və şərtlərini irəli sürməsi ilə sosial əmək münasibətlərində yeni – bipartist mərhələ başladı. Bu mərhələdə işəgötürənlərlə işçilər arasında sosial dialoqa əsaslanan yeni mərhələ hər iki tərəfin maraqlarını nəzərə almağa başladı. Sosial əmək münasibətlərində üçüncü subyektin – dövlətin də iştirakının zəruriliyi önlənməkdədir. Tripartist adlanan mərhələnin iştirakçıları sosial poliloq şəraitində əmək münasibətlərini tənzimləyirlər. Artıq elmdə yeni mərhələnin imkanları geniş müzakirə olunmaqdadır. Belə ki,

polipartizm adlanan bu mərhələdə müasir dövrdə ailələrin, müxtəlif ictimai birliklərin, qeyri-kommersiya təşkilatlarının da əmək münasibətlərindəki rolu inkar-olunmazdır.

Sosial tərəfdaşlığın mahiyyəti ictimai meydanda üç qüvvə - dövlət strukturları, kommersiya müəssisələri və qeyri-kommersiya müəssisələri arasında konstruktiv qarşılıqlı fəaliyyətin yaradılmasıdır. Sosial tərəfdaşlıq – problem üzrə insan həmrəyliyi və bölüşdürülmüş məsuliyyətə əsaslanan sosial fəaliyyətdir. Ən ümumi şəkildə belə demək olar ki, sosial tərəfdaşlıq o zaman yaranır ki, üç sektorun nümayəndələri birgə işləməyə başlayırlar, çünki bunun hər bir qrup və bütövlükdə cəmiyyət üçün sərfəli olduğunu dərk edirlər.

Sosial tərəfdaşlığın əsas məqsədi –davamlı inkişafın təmin olunması istiqamətində sosial anlaşmanın əldə olunmasıdır. Dövləti, sahibkarları və xalqı əsas məqsədlərin ətrafında birləşdirən sosial tərəfdaşlığın mexanizmi məhz belədir: cəmiyyətə münasibətdə dövlət sosial qarantiyalar üzrə şüurlu öhdəçilik götürür

ki, bunun da əvəzində hakimiyyətin legitimliyini və ictimai dəstək əldə edir, - sahibkarlara münasibətdə dövlət mülkiyyət hüququ qarantiyalarını, əlverişli sahibkarlıq mühitini, biznesin xarici aləmdə dəstəklənməsini təmin edir və qarşılığında milli kapitalın dəstəyinə, dövlət tərəfindən müəyyənləşdirilmiş qaydalara ciddi riayət olunmasına nail olur; - cəmiyyət və kapital arasında balans bu prinsip üzrə qurulur: sahibkarların sosial məsuliyyətli davranışının qarşılığında onun maraqlarına, məqsəd və hərəkətlərinə ictimai dəstək verilir.

Sosial tərəfdaşlığın yaranması həm də iqtisadi, sosial-siyasi, hüquqi və ideoloji amillərlə və obyektiv səbəblərlə izah olunur:

- *İqtisadi səbəblər* XVIII-XIX əsrlərin astanasında minlərlə fəhlənin işlədiyi iri sənaye müəssisələrinin yüksəlişi ilə bağlı idi.

- *Sosial-siyasi səbəblər* muzdlu işçilərin nümayəndələri kimi həmkarlar ittifaqlarının yaranması, burjua inqilabları, demokratik üsuli idarəyə malik olan yeni

dövlət tiplərinin yaranması, XIX əsrin sonu XX əsrin əvvəllərindəki sinfi mübarizə, sosialist inqilabı ilə bağlı idi.

- *Siyasi-hüquqi səbəblər* dövlətlərin əmək münasibətərinə fəal müdaxiləsi, BƏT-in yaradılması və beynəlxalq əmək normalarının inkişafı ilə bağlı idi.

- *İdeoloji səbəblər* xalqın mədəni səviyyəsinin yüksəlməsi, geniş kütlələr tərəfindən birlik və qarşılıqlı asılılığın dərki ilə bağlı idi. Sosial tərəfdaşlıq sisteminin formalaşması İkinci dünya müharibəsindən sonra, sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrində fəhlə və həmkarlar hərəkatının real qüvvəyə çevrildiyi vaxtdan başlayır. Bir çox Avropa ölkələrində dövlətin fəal rolu ilə milli-iqtisadi şuralar və sahibkarlar, həmkarlar və dövlət birliklərinin nümayəndəlikləri yaradılmağa başladı. Belə ki, İtaliyada - Milli əmək iqtisadiyyatı şurası, Belçikada -Mərkəzi iqtisadi şura, Fransa və İngiltərədə - İqitsadi və sosial şura yaradıldı. Hazırda ən fəal sosial tərəfdaşlıq - Almaniyada, Avstriyada, İsveçdə, az dərəcədə isə ABŞ, İtaliya,

Yunanıstan, Portuqaliyada inkişaf etmişdir. Sosial tərəfdaşlıq ideologiyasının inkişafına çox güclü stimulu həm də elmi-texniki inqilab vermişdir.

Müasirləşən cəmiyyətdə sosial tərəfdaşlığın inkişafının əsas problemləri hüquqi bazanın qeyri-mükəmməlliyi, siyasi mədəniyyətin aşağı səviyyəsi, işəgötürənlərin təşkilati strukturlarının ləng formalaşması, sosial-əmək münasibətlərinin kollektiv-əmək tənzimlənməsi sisteminin yetəri qədər inkişaf etməməsidir. Nəticədə yüksək məhsuldar əmək motivasiyası aşağı düşür, bağlanan kollektiv müqavilələrə formal yanaşılır. Sosial tərəfdaşlığın ümumi inkişaf strategiyası qarşılıqlı məsuliyyət, yüksək məhsuldar əməyin stimullaşdırılması, tərəflərin davranışında düzlük, həmrəylik kimi aparıcı prinsiplərə əsaslanmalıdır[3, s. 194]. Bu zaman davamlı inkişafa və vətəndaş sülhünə nail olmaq olar.

Dünya təcrübəsində özünün o işəgötürənlər strukturu doğruldub ki, onlar təşkilatın həm sahəvi, həm də ərazi prinsiplərini nəzərdə tutmuşlar. Bu strukturlar

hakimiyyət orqanları ilə sosial-əmək tənzimlənməsi istiqamələrinin geniş spektrini nəzərdə tutan sazişlər bağlayırlar. Göstərilən sazişlər çərçivəsində müəssisələrin sosial proqramları işlənib hazırlanır ki, bu da işçilərin konkret sosial problemlərinin həllinə prinsipial yanaşma mövqeyindən onların bir qədər standartlar əsasında sosial-əmək münasibətlərinin kollektiv-müqavilə tənzimlənməsinin ümumdövlət, regional və yerli sistemləri formalaşdırılır.

Davamlı inkişafın dayaqlarından olan sosial tərəfdaşlıq sistemi əmək şəraitinin yaxşılaşdırmaqla bərabər, həm də cəmiyyətdəki münaqişəlilik səviyyəsinin aşağı enməsinə, danışıq proseslərinin konstruktiv məcraya yönəldilməsinə, tətil hərəkatının kəskinliyinini azaldılmasına kömək edir [4, s.374].

Davamlı inkişafa nail olmaq və sosial əmək münasibətlərini tənzimləmək üçün Avropada üçtərəfli sosial tərəfdaşlıq orqanları hələ ötən əsrdən fəaliyyətə başlayıb və böyük uğurlar əldə edib. Belə ki, Belçikada-1948-ci il, AFR-da -1952-ci il, Avstriyada -1957-ci il,

Fransa -1958-ci illərdə artıq sosial tərəfdaşlıq orqanları formalaşmışdı. Üçtərəfli orqanlar Çexiyada, Slovakiyada, Yunanıstanda, Macarıstanda, İtaliyada, Niderlandda, Bolqarıstanda və Polşada da yaradılmışdır. 2016-cı ilin sentyabrın 30-da Azərbaycan hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında əməkdaşlıq çərçivəsində "2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın qəbul edilməsi və Azərbaycanda Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın yaradılması ilə əlaqədar razılaşma əldə edilib. Razılaşmanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, BƏT, BMT İnkişaf Proqramının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK), Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK), aidiyyəti hökumət və qeyri-hökumət qurumlarının nümayəndələri dəstəkləyib.

Məlumdur ki, sosial tərəfdaşlığın tərəfləri işçilər və nümayəndələri şəxsində işəgötürənlərdir. Digər bir tərəfi də dövlətdir ki, o da işəgötürən və ictimai

maraqların daşıyıcısı kimi çıxış edir. Özünün sonuncu rolunda dövlət tərəfdaşların birgə fəaliyyət koordinasiyası funksiyasını həyata keçirir [5, s.137].

Sosial tərəfdaşlıq orqanları razılaşdırma komissiyalarıdır. Bu kollektiv danışıqların aparılması və müqavilələrləin (anlaşmaların) hazırlanması, eləcə də müxtəlif səviyyələrdə onların icrasına nəzarət üçün nəzərdə tutulmuş "arbitraj" orqanıdır**.** Razılaşdırma komissiyaları (üçtərəfli komissiya) paritet əsaslarla tərəflərin müvafiq səlahiyyətlər verilmiş nümayəndələrinin razılığı ilə yaradılır.

Üçtərəfli komissiyanın məqsədi sosial yönümlü iqisadi islahatların keçirilməsinə dəstək və demokratik sosial qaydanın əsası kimi vətəndaş anlaşmasının təmin olunmasıdır. Üçtərəfli komissiya sosial tərəfdaşlığın subyektləri arasında sosial-əmək münasibətlərinin iştirakçılarının maraqlarının müdafiə olunması ilə münaqişə qarşıdurmasının qarşısının alınması və həlli üzrə konstruktiv dialoqun, daha doğrusu poliloqun təsirli alətidir.

Üçtərəfli komissiyanın məqsədlərindən biri də ondan ibarətdir ki, heç bir qanun layihəsi üçtərəfli komissiya ilə öncədən razılaşdırılmadan qəbul edilməsin. Kollektiv danışıqların aparılması və tripartizm çərçivəsində müvafiq sazişlərin hazırlanması, tərəfləri maraqlandıran məsələlər üzrə müntəzəm məsləhətləşmələrin aparılması və informasiya mübadiləsi, birgə qərarların (sənədlərin) qəbulu sosial tərəfdaşlıq subyektlərinin maraqları və mənfəətinin reallaşdırılmasında balansı təmin etməyə yönəldilmişdir.

Sosial tərəfdaşlıq mexanizminin əsas elementi kollektiv danışıqlardır. İşçilər və işəgötürənlər adından kollektiv danıışıqların aparılması hüququ onların nümayəndələrinə verilmişdir. Əgər danışıqların təşəbbüskarı həmkarlar ittifaqıdırsa, onda işəgötürənlər, onların dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanı birlikləri (ittifaqlar, assosiasiyalar) danışıqlar aparmağa borcludur.

Bizim ölkəmizdə sosial tərəfdaşlıq kollektiv müqavilələr və tərəfdaşlıq sazişləri vasitəsilə həyata keçirilir. Kollektiv müqavilə - bu, təşkilatda sosial-əmək münasibətlərini tənzimləyən hüquqi aktdır. Bir qayda olaraq bu sənəd maliyyə imkanlarından çıxış edərək qanunvericilik və sazişlərlə müəyyən edilmiş qüvvədə olan norma və müddəalarla müqayisədə daha güzəştli əmək, sosial-iqtisadi şərtləri və qarantiyalar müəyyən edir[5,s. 247].

Sosial tərəfdaşlıq sazişlərinin əhəmiyyəti ondadır ki, onlar işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına, onun ödənişinin yüksədilməsinə; əməyin mühafizəsinin təmin olunmasına; işçilərə sosial-məişət xidmətinin yaxşılaşırılmasına; işçilərin əmək hüquqlarının qarantiyalarının qanunvericilik minimumunun qaldırılmasına yönəldiliblər.

Nəhayət, qeyd edək ki, sosial tərəfdaşlıq cəmiyyətdə davamlı inkişafa nail olmaq üçün tərəflər arasında konsensusa, vətəndaş sülhünün forma-laşmasına, müxtəlif qruplar və təbəqələr arasında

qarşılıqlı münasibətlərdə gərginliyin azalmasına, cəmiyyətdə sosial poliloqun təşəkkülü və möhkəmlənməsinə, bütün səviyyələrdə hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanlarının birliyinə doğru yönəlmiş sivil bir ideologiyadır.

İstifadə olunmuş ədəbiyyat

1. S.Hüseynov, Ə.Əsgərov. Davamlı İnsan İnkişafı.Bakı,2009
2. Alıyev İ., Hüseynov S., Əsədov A. Milli iqtisadiyyat modernləşmə və Davamlı İnkişaf. Bakı, 2012
3.Qaraşov H.T. Həmkarlar ittifaqı hərəkatının əsasları. Bakı, Avropa, 2015
4. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Bakı, Elm və təhsil, 2010
5. Домнич А.М. Перспективы развития социального партнерства. М.: АТИСО, 2003

XÜLASƏ
DAVAMLI İNKİŞAFDA VƏ İDARƏETMƏDƏ SOSİAL TƏRƏFDAŞLIQ

Zeynəddin Şabanov

Məqalədə sosial tərəfdaşlığın cəmiyyətdə davamlı inkişafa nail olmaq üçün tərəflər arasında konsensusa, vətəndaş sülhünün formalaşmasına, müxtəlif qruplar və təbəqələr arasında qarşılıqlı münasibətlərdə gərginliyin azalmasına, cəmiyyətdə sosial poliloqun təşəkkülü və möhkəmlənməsinə, bütün səviyyələrdə hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanlarının birliyinə doğru yönəlmiş

sivil bir əmkdaşlıq olduğu bildirilir. Hazırda Azəbaycanda sosial əmək münasibətlərinin tənzim-lənməsində sosial tərəfdaşlıq orqanlarının yaradılması işi aparılır. Bu zaman qabaqcıl dövlətlərin təcrübəsindən geniş istifadə olunur.

Açar sözlər: davamlı inkişaf, sosial tərəfdaşlıq, əmək münasibətləri, kollektiv müqavilə, sosial sülh, dialoq

SUMMARY

Zeynaddin Shabanov

Sosial support in sustainable devolopment and govering

In the article noted that social support is aimed to achieve a sustainable devolopment in a society, decreasing tensity in mutual relations between sides, devolopment of social polilog and its strenghening, oriented towards unity of power instututions and local self govering bodies it represents a civil support.

At present in Azerbaijan a work is carried out on creation of social support organs for regulation of labor relations. At this time on experience of the advanced countries is widely used.

Keywords: sustainable devolopment, social support, labor relations, collective contract(agreement), social peace, dialog

Гюльнара БАГИРОВА
Гянджинский Государственный Университет
gulnare1986g@mail.com
Зиба РЗАЕВА
Гянджинский Государственный Университет
elnura_israfilova@mail.ru

РАЗВИТИЕ МОЛОДЕЖНОГО ИННОВАЦИОННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА
GƏNCLƏRİN İNNOVATİV SAHİBKARLİĞİNİN İNKİŞAFI
DEVELOPMENT OF YOUTH INNOVATIVE ENTREPRENEURSHIP

Xülasə: İnnovativ sahibkarlıq baxımından texniki və texnoloji yeniliklərin yaradılması və kommersiya məqsədli istifadə edilməsi prosesidir. Bir qayda olaraq, biznes, yeni bazar yaratmaq və yeni ehtiyacları təmin etməyə imkan verən məhsullarda və ya xidmətlərdə yeniliklərə əsaslanır. İnnovasiya sahibkarlıq üçün xüsusi vasitədir. Buna görə investisiya təşəbbüskarlığı problemi bu gün olduqca aktualdır, çünki bu fəaliyyət növü tək Azərbaycan üçün deyil, eyni zamanda dünya iqtisadiyyatı üçün də mühüm addımdır.
Açar sözlər: innovasiya, iqtisadi inkişaf, sahibkarlıq, gənclərin innovasiya sektoru.

Ключевые слова: инновации, экономическое развитие, предпринимательство, молодежный инновационный сектор.

Abstarct: Under the innovative entrepreneurship is the process of creating and commercial use of technical and technological innovations. As a rule, business is based on innovation in products or services, which allows creating a new market and meeting new needs. Innovation serves as a specific tool for entrepreneurship. Therefore, the problem of investment entrepreneurship is quite relevant today, because this type of activity is a step forward not only for Azerbaijan, but also for the world economy as a whole.

Keywords: innovations, economic development, entrepreneurship, youth innovation sector.

В связи с переходом к модели "открытой" экономики, в рамках которой отечественные

товаропроизводители вынуждены конкурировать с высококачественной импортной продукцией не только на внешнем, но и на внутреннем рынке, основной экономической проблемой становится проблема конкурентоспособности. Ключевым, стратегическим фактором обеспечения конкурентоспособности, значение которого неуклонно возрастает, является технологическое перевооружение отечественной промышленности. Поэтому инновационный вариант экономического развития не имеет альтернатив.

Интенсивность инновационной деятельности во многом определяет уровень экономического развития. Анализ развития экономики показывает, что наиболее прибыльными в настоящее время стали предприятия и отрасли в целом, которые ориентированы на производство высокотехнологичных товаров, таких как

компьютеры и полупроводники, лекарственные средства и медицинское оборудование, средства связи и системы коммуникаций. Освоение высоких технологий в промышленности и выпуск новой наукоемкой продукции являются ключевыми факторами устойчивого экономического роста для большинства индустриально развитых стран мира.

Поэтому проблема инвестиционного предпринимательства сегодня достаточно актуальна, ведь данный вид деятельности является шагом вперед не только для российской, но и для мировой экономики в целом.

Эффективность современной научно-технической политики большинства экономически развитых стран определяется не только выбором основных приоритетов к инновационной сфере, но и, как правило, формированием гибкого механизма малого предпринимательства, способного преодолеть в процессе своей деятельности

организационно-экономические недостатки ведомственного монополизма, который оказывает негативное влияние на развитие инновационного процесса. Инновации служат специфическим инструментом предпринимательства, причем не инновации сами по себе, а направленный организованный поиск новшеств, постоянная нацеленность на них предпринимательских структур. П. Дракер отмечает, что "предпринимателей отличает инновационный тип мышления. Инновационность — особый инструмент предпринимательства" [1, с. 90].

Значительную роль играют малые инновационные предприятия в странах с развитой рыночной экономикой в развитии научно-технического потенциала этих стран. Основная часть этого потенциала сосредоточена на крупных компаниях, но при этом малые и средние фирмы практически всегда опережают их по части

коммерциализации результатов научно-исследовательских и опытно-конструкторских работ по широкому кругу товаров.

Таким образом, задача предпринимателя-новатора—реформировать и революционизировать способ производства путем внедрения изобретений, а в более общем смысле — через использование новых технологических возможностей для производства принципиально новых товаров или производства старых товаров новыми методами, благодаря открытию нового источника сырья или нового рынка готовой продукции — вплоть до реорганизации прежней и создания новой отрасли экономики.

Инновационное предпринимательство — это особый новаторский процесс создания чего-то нового, процесс хозяйствования, в основе которого лежит постоянный поиск новых возможностей, ориентация на инновации. Оно связано с

готовностью предпринимателя брать на себя весь риск по осуществлению нового проекта или улучшению существующего, а также возникающие при этом финансовую, моральную и социальную ответственность. В общем плане инновационное предпринимательство можно определить как общественный технический экономический процесс, приводящий к созданию лучших по своим свойствам товаров (продукции, услуг) и технологий путем практического использования нововведений [2, с. 111].

Будущее сферы инноваций, интенсивность ее развития во многом определяет молодежный инновационный сектор. На сегодняшний день существует огромная пропасть между моментом старта компании, получившей субсидию, и приходом этой компании в венчурный фонд с готовым инновационным бизнес-проектом. Необходимо финансирование именно на этой

промежуточной стадии, так как значительное число перспективных предприятий гибнет именно в этот период.

В условиях кризиса необходим креативный мозговой штурм. В условиях кризиса грамотно проводимая инновационная политика становится гарантом стабильного развития страны [3, с. 200].

Самой большой трудностью на пути инновационных проектов в Азербайджане часто является сложность привлечения инвестора именно на ранней стадии (отсутствие венчурного капитала). Статистика говорит о том, что молодые ученые покидают инновационную деятельность, предпочитая заниматься торговлей.

Развитие молодежного инновационного сектора во многом зависит от активной позиции региональных властей. Как следствие, развитие молодежных инноваций проходит неравномерно и носит точечный характер [4, с. 69]. Низкая

инновационная активность обусловлена фундаментальной проблемой азербайджанского образования: азербайджанские вузы научились готовить бизнес-кадры, но не предпринимателей. Как следствие, бизнесмены, они же управленческие кадры для крупных предприятий, есть, но предпринимателей, способных рисковать и начать свое дело, нет. Еще одна глобальная ошибка в том, что государство стимулирует предложение, а не спрос на инновации. Но если обеспечить спрос на инновации, то бизнес сам обеспечит предложение.

Азербайджану нужна агрессивная инновационная политика государства, направленная на создание полной инновационной инфраструктуры, которая позволит успешно функционировать инновационным предприятиям и создаст благоприятные условия для венчурного инвестирования. Реализация инновационной политики потребует ускорения реструктуризации

предприятий, необходимой для успешной работы в условиях рыночной экономики, а также стимулирования их деятельности по повышению эффективности производства. Необходима правовая база для повышения эффективности управления объектами федеральной собственности и государственными пакетами акций, обеспечивающая при этом соблюдение государственных интересов в инновационном развитии, расширение возможностей государства по управлению находящимися в его собственности предприятиями. В сфере малого предпринимательства деятельность государства должна быть направлена на активизацию использования возможностей малого предпринимательства в ускорении процессов реструктуризации отраслей и реформирования предприятий в тех отраслях, где идет процесс развития кооперационного взаимодействия крупного производства с малыми предприятиями.

Это позволит оживить инновационную деятельность малых предприятий и обеспечить положительную динамику по таким показателям как занятость населения, объем продукции и услуг, инвестиции в основной капитал малых предприятий, что в результате повлияет на увеличение выпуска отечественной инновационной продукции.

Список литературы:

1. Власов А. Высокие технологии России: в ожидании венчурных инвестиций // Cnews. Аналитика, 24 октября 2012 г.

2. В.Г. Медынский, Л.Г. Шаршукова. Инновационное предпринимательство: учебное пособие. М.: ИНФРА - М, 2007.

3. Экономика предприятия/Под ред. Горфинкеля В.Я., Швандара В.А. - М., Банки и биржи, 2004

4. Инновационный менеджмент/Под ред. Ильенковой С.Д. - М., Банки и биржи, ЮНИТИ, 2003

5. Мотовилов О.В. Источники капитала для финансирования нововведений. - СПб, СПбГУ, 2004

Yerli özünüidarəetmə orqanlarında insan resurslarının idarə edilməsinin effektiv təşkili

Zülfiyyə Əkbər qızı Sadıqova
Müəllim/doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti [UNEC]
Zulfiyya.sadigova@unec.edu.az

Dünyada baş verən yeniliklər bələdiyyələrin xalqa göstərdikləri xidmətlərin əhatə dairəsinə də öz təsirini göstərmişdir. Bələdiyyələr yeniliklərə uyğun fəaliyyət göstərmək üçün insan resurslarının idarə edilməsinin yeni strategiyalarını tətbiq etməlidir.

Bələdiyyələrin fəaliyyətinə istiqamət verən həmin yeniliklərdən ən əsası qloballaşmadır. Qloballaşma insanların, informasiyaların, əmtəə və kapitalın dünya miqyasında öz yerini maneəsiz dəyişmə prosesi olub, intensiv iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin, informasiya inqilabının nəticəsidir. Ümumiyyətlə qloballaşmanın əsas səbəbi kimi müasir informasiya və kommunikasiya texnologiyaların yaranması, inkişafı xüsusi qeyd edilir. Qloballaşma nəticəsində artıq dövlət xidmətlərinin və paralel olaraq bələdiyyə xidmətlərin elektronlaşması vətəndaşa yeni mövqe gətirmişdir. Müştəriləşən vətəndaşlar eynilə istehlakçılar kimi, bələdiyyə xidmətlərinin keyfiyyətinə diqqət edərək, şəxsi ehtiyac və tələbatlarına uyğun olaraq səsvermədə iştirak edirlər.

Bələdiyyələrdə strateji insan resursları idarəetməsini zəruri edən digər vacib yenilik dövlət idarəetməsində ümumi keyfiyyət idarəetməsinin tətbiqidir. Ümumi keyfiyyət idarəetməsini tətbiq edən hər bir müəssisə onun prinsipləri və xüsusiyyətlərini

nəzərə almalıdır. Ümumi keyfiyyət idarəetməsinin başlıca prinsipləri bunlardır: müştəri məmnuniyyəti, liderlik, əməkdaşların iştirakının təmin edilməsi, rəhbər və işçilərin bağlılığının təmin edilməsidir. Keyfiyyətin Kompleks idarə edilməsinin sadaladığımız prinsipləri, xüsusiyyətləri özəl sektorda formalaşmışdır. Özəl sektorun isə yerli özünüidarəetmə orqanlarından fərqli olaraq son məqsədləri daha çox mənfəət əldə etməkdir. Yerli özünüidarəetmə orqanlarının isə son məqsədi yerli əhalinin tələbatlarına uyğun xidmət göstərmək və yenidən seçilməkdir. Yerli özünüidarəetmə orqanları üçün məhsuldar xidmət göstərmək vacib əhəmiyyət daşıyır [6,səh.562]. Bu baxımdan yerli özünüidarəetmə orqanlarının da ümumi keyfiyyət idarə olunması fəlsəfəsini mənimsəmələri məqsəduyğun hesab olunur.

Yerli özünüidarəetmə orqanları xidmət etdikləri bölgədə yaşayan əhaliyə bir çox sahədə ən yaxın formada xidmət verən qurumlardır. Xalqa düzgün, operativ, keyfiyyətli və səmərəli xidmət göstərilməsi bələdiyyələrdə fəaliyyət göstərən insan resurslarının

peşəkarlığından birbaşa asılıdır. Bu səbəblə də bələdiyyələrdə insan resurslarının düzgün idarə edilməsi olduqca vacib bir problem olaraq qarşımıza çıxır. Bələdiyyələrdə insan resurslarının idarə edilməsi strategiyasının düzgün formalaşdırılması üçün ilk öncə insan resursları anlayışına və onun təməl funksiyalarına nəzər yetirək.

İnsan resurslarının idarə olunmasının funksiyaları, insan resurslarının və daloyısıyla müəssisənin səmərəliliyini artırmağa istiqamətlənmiş fəaliyyətlərin məcmusudur. İnsan resurslarının idarə olunması təşkilatın strukturuna və alınan qərarlara təsir edir. Bir işçinin, müəssisəyə qatılmasından, işdən ayrılmasına qədər keçdiyi mərhələlərdə qarşılaşdığı insan resursları əməliyyatlarına insan resurslarının funksiyaları deyilir. İnsan resurslarının idarə olunmasının təməl funksiyalarından biri kadr seçimidir. Bələdiyyələrin keyfiyyətli fəaliyyət göstərmək üçün yüksək ixtisaslı insan resurslarına ehtiyac vardır. Kadrların seçimində bir sıra xüsusiyyətlərə diqqət

edilməlidir. Kadr seçimində namizədlərin daimi inkişafa açıq olması, təşkilati davranış formasını mənimsəməsi və qrup şəklində fəaliyyətin əhəmiyyətini dərk etməsi kimi keyfiyyətlərinə diqqət edilməsi məqsədəuyğundur. Ehtiyaca uyğun olmayan kadr işə götürmək yetərsiz nəticə, qəbul edilməyən davranışlar [işə gecikmək və işə gəlməmək], kadrlar arasında anlaşılmazlıq, mənəvi məmnunsuzluq, lazımsız yerə işçi qüvvəsi dəyişimi [işdən çıxarılmalar və istehfaların artması] kimi problemlərlə nəticələnir [3,səh. 85]. Müəssisədə lazımi sayda kadr olmadıqda isə işçilər hədsiz çalışma, stress altında olma, küskünlük, işin tələblərini yerinə yetirə bilməmək kimi problemlərlə qarşılaşacaqlar. Müəssisədə kadr artıqlığı olduqda isə hədsiz əmək haqqı ödəmələri nəticəsində maliyyə resurslarının israfı ilə nəticələnir [2,səh. 89].

İnsan resurslarının idarə edilməsinin digər funksiyası iş təhlilidir. Keyfiyyətli fəaliyyət göstərmək üçün xalq dilində ifadə olunan “adama uyğun iş yox, işə uyğun adam götürmək” prinsipinə uyğunlaşmanın ilk

şərti “necə işçilərə ehtiyac olduğunun” tam və düzgün təyin olunmasıdır [7,səh.129]. İnsan resurslarının idarə edilməsi zamanı diqqət edilməli olan digər funksiya, işin ölçülməsidir. İşin ölçülməsi yüksək ixtisaslı bir işçinin müəyyən bir işi müəyyən bir işləmə sürətilə yerinə yetirməsi üçün lazım olan vaxtı təyin etmək məqsədilə formalaşdırılmış üsulların icra edilməsidir [5,səh.205]. İşin xarakteristikasının müəyyən olunması insan resurslarının idarə edilməsinin növbəti vacib funksiyasıdır. İş xarakteristikası hər iş üçün həyata keçiriləcək analizin əsaslı və sistematik formada xülasəsindən hazırlanır. Hazırlanan xarakteristikaların hamı tərəfindən başa düşülən olması üçün, qurulan cümlələr nə çox ümumi nə də çox dar olmalıdır. İş xarakteristikasında mövcud olan ifadələr əlavə fikrə ehtiyac olmadan hər kəsin eyni mənanı başa düşə biləcəyi şəkildə olmalıdır [10,səh.157]. İnsan resurslarının idarə olunması baxımından mühüm funksiyalardan biri də karyera planlamasıdır. Karyera, fərdin iş həyatı boyunca hər hansı bir iş sahəsində

irəliləməsi, təcrübə və bacarıq əldə etməsidir. Karyera planlaması isə bir çalışanın sahib olduğu elm, bacarıq, qabiliyyəti əsasında karyera hədəflərinə çatacaq yolun müəyyənləşdirərək təşkilat içərisindəki irəliləməsinin və yüksəldilməsinin planlanmasıdır. Karyera planlama, çalışan insanların karyera hədəflərinin seçilməsi və bu hədəfləri əldə etmə yolları prosesini əhatə edir [40,s.86]. Karyera planlamanın müəssisənin bugünki və gələcəkdəki insan resursları ehtiyaclarının vaxtında təyini və qarşılanması, müəssisə daxilindəki karyera yolları və fürsətlərindən müəssisə və fərdin daha yaxşı məlumatlanması, işə götürmə, inkişafetdirmə, təhsilləndirmə kimi insan resursları fəaliyyətlərindən tam şəkildə yararlanılması, işçilərdə müəssisəyə aid olma hissinin və bağlılığın artması, işçilərin motivasiyasının yüksəldilməsi kimi faydaları vardır [8,səh.159]. Nəticələrin dəyərləndirilməsi və nəticələr əsasında idarəetmə də effektiv insan resurslarının idarə edilməsi üçün vacib funksiyalardandır. Nəticə dəyərləndirilməsi, müəssisə, iş və insan arasında

meydana gələn səbəb-nəticə münasibətlərinin bütövlükdə dəyərləndirilməsidir. Nəticə dəyərləndirmənin məqsədi müəssisənin hədəfləri ilə fərdin hədəflərini cəmləşdirərək fərdin yaratdığı dəyərləri bu ortaq hədəflər əsasında istiqamətləndirmək və bu dəyəri mükafatlandırmaqdır [1,səh.158]. Bütün sahələrdə olduğu kimi motivasiya, insan resurslarının effektiv təşkili və idarə edilməsi üçün vacib funksiya olaraq qarşımıza çıxır. Psixoloji bir anlayış olan motivasiya haqqında müxtəlif fikirlər vardır. Məsələn, Koçelin fikrincə motivasiyanı, insanların müəyyən məqsədi gərçəkləşdirmək üçün öz arzu və istəkləri ilə hərəkət etmələri şəklində ifadə etmək olar. Robbinin fikrincə isə motivasiya, fərdin bir hədəfi gərçəkləşdirmək üçün cəhdi, istiqamətlənməsi və təkidini ifadə edən bir prosesdir [9,səh.5]. İşçiləri motivasiya edən səbəblər fərqlidir. Bu səbəblə də motivasiya üsullarından istifadə edərkən fərdlərarası fərqliliklər nəzərə alınmalıdır. Unutmaq olmaz ki, ağıllı insanları motivasiya edən pul yox, təqdir olunmaqdır.

İşçilərin inkişafı üçün həyata keçirilən təhsil və inkişaf proqramları insan resurslarının idarə edilməsinin müasir tələblərə uyğun funksiyasıdır. İnsan resurslarının daimi inkişafı məqsədli proqramların təşkili bir tərəfdən məmnunluqlarını təmin edərkən digər tərəfdən də təşkilata bağlılıqlarını artırır, inkişaf edən texnologiyaya uyğunlaşmalarını təmin edir,yeni sistemlərin tətbiqini asanlaşdırır. Müəssisənin uğurlu fəaliyyəti üçün insan resurslarının idarə edilməsinin ünsiyyət funksiyasının tətbiqi mühüm əhəmiyyət daşıyır. Ünsiyyət haqında, məlumat alış-verişidir, vericidən alıcıya ötürülən məlumat və ya xəbər prosesidir, məlumat, fikir, düşüncə və davranışların "resurs"dan "hədəf"ə doğru ötürülməsidir kimi fikirlər irəli sürülmüşdür [48]. Qarşılıqlı sağlam ünsiyyət idarəedici və işçi münasibətlərini inkişaf etdirəcək, əhval-ruhiyyəni yüksəldəcək, dedi-qodunu əngəlləyəcək, anlaşılmazlıq və güvənsizliyi aradan götürəcək, kadr problemlərini sürətlə həll edəcək, iş həyatının məhsuldar olmasını təmin edəcəkdir.

Bütün dünya ölkələrində xalqa göstərilən xidmətlər mərkəzi və yerli özünüidarəetmə orqanları vasitəsilə yerinə yetirilir. Yerli özünüidarəetmənin hansı pillələrdən ibarət olması, vəzifələri, gəlirləri və xərclərinin həcminin müəyyən olunmasına aid olduğu ölkənin iqtisadi vəziyyəti, sosial və siyasi sistemi təsir göstərir. Buna müvafiq olaraq, dünyanın hər bir ölkəsində yerli özünüidarəetmə orqanlarının yerinə yetirdikləri xidmətlər əhatə dairəsinə, tələblərinə və digər xüsusiyyətlərinə görə bir-birilərindən fərqlənirlər. Bütün bu fərqliliklərə baxmayaraq əsas bir ortaq nöqtə vardır ki, bu yerli özünüidarəetmə orqanlarının xalqa ən yaxın qurum olması və demokratiyanın ən vacib atributlarından biri olmasıdır. Bu baxımdan dünyanın qabaqcıl ölkələrində yerli özünüidarəetmə orqanlarının mənimsədikləri insan resurslarının idarə edilməsi təcrübəsinin araşdırılması məqsədə müvafiqdir.

ABŞ-da dövlət orqanlarının məqsəd və hədəflərinin daha dəqiq şəkildə müəyyən edilməsi, resurslardan daha səmərəli formada istifadə olunması,

insan resurslarının performansının artırılmasına istiqamətlənən strateji planlaşdırmanın həyata keçirilməsi kimi məsələlərə 1990-cı ilin əvvəllərindən daha çox diqqət edilməyə başlanmışdır. 1990-cı illərdə prezident köməkçisi Al Gorenin rəhbərlik etdiyi komitə tərəfindən, dövlət orqanlarında kargüzarlıq xərclərinin azaldılması, müştəri mərkəzli fəaliyyətin mənimsənilməsi və lazımsız struktur bölmələrin azaldılması vasitəsilə işçi heyətə vəzifələr vermək üçün hesabat hazırlanmışdır. Həmin hesabatın əsas başlıqları belədir:

- ✓ Kargüzarlıq xərclərinin azaldılması – bunun üçün əyalət və yerli özünüidarəetmə orqanlarını gücləndirmək, bürokratik əngəlləri aradan qaldırmaq atılmalı olan addımlar sırasındadır.
- ✓ Müştəri mərkəzli fəaliyyət – bildiyimiz kimi, dövlət orqanlarının yerinə yetirdiyi xidmətlərin icrasına özəl müəssisələr maraqlı deyil. Ancaq dünyada baş verən yeniliklər dövlət orqanlarının da fəaliyyətinin dəyişilməsinə təsir etmişdir. Artıq dövlət müəssisələri

də öz müəssisələr kimi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, maya dəyərinin aşağı salınması və məhsuldarlığın artırılması məsələlərinə diqqət etməlidirlər. Bu səbəblə də xidmətin istehlakçısı olan müştərilərin ön plana gəlməsi vacib amildir.

✓ Nəticə əldə etmək üçün işçilərə səlahiyyət vermək – mərkəzi, əyalət və yerli özünüidarəetmə orqanlarında göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi üçün idarəetmə anlayışının mahiyyətinin dəyişməsi mütləqdir. Bu dəyişikliyin başlıcası məhz səlahiyyətlərin bölüşdürülməsidir. Səlahiyyətlərin bölüşdürülməsi üçün vacib olan şərtlər sırasında bunlar qeyd olunmuşdur: qərarvermə səlahiyyətinin yerli miqyasda həyata keçirilməsi, yerli özünüidarəetmə orqanlarında çalışan şəxslərin nəticələrdən birbaşa məsul olması, işçi heyətin lazımi vəsaitlərlə təmin olunması, iş həyatının keyfiyyətini yüksəldəcək tədbirlərin alınması, rəhbər-işçi münasibətində birlik, ortaqlıq düşüncəsinin yaradılması, keyfiyyət mədəniyyətini mənimsəmiş liderlərin yetişdirilməsi.

ABŞ-da mərkəzi dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının yeni təşkili üçün iki əsas hədəf vardır. Bunlardan birincisi daha yaxşı xidmət edən dövlət, ikincisi isə daha az maliyyədən istifadədir. Hazırlanan bu hesabatla atılan addımlar gələcək dövrdə digər ölkələrin dövlət idarəetmə strategiyaları üçün nümunə rolunu oynamışdır.

Avropa İttifaqı ölkələri arasında Fransa dövlət xidmətlərinin yerli özünüidarəetmə orqanlarına həvalə edildiyi və demokratiyanın ən yaxşı tətbiq edildiyi ölkələr sırasındadır. 1989-cu ildə Fransanın baş naziri M. Rocord dövlət xidmətlərində missiyalarının dəyişdiyini və yeni missiyanın: "xidmətlərdə bərabərlik, ədalət və ictimai maraqları əhatə edəcək formada təkmilləşdirmək" olduğunu ifadə etmişdi. Fransa 1989-cu ildən etibarən dövlət oranlarının idarə edilməsində yeni üsullar tətbiq etmiş və dövlət xidmətlərini mümkün olduğu qədər yerli özünüidarəetmə orqanlarının səlahiyyətinə vermişdir.

İngiltərə yerli özünüidarəetmə orqanlarında həm insan resurslarının idarə edilməsi həm də strateji insan resurslarının idarə edilməsini tətbiq edən ilk ölkələrdən biridir. İngiltərədə həyata keçirilən insan resurslarının idarə edilməsinin nəzərə çarpan ən vacib iki xüsusiyyəti bunlardır: əmək haqqı sistemi və işçilərin idarəetmədə iştirakının təmin edilməsi. İngiltərə işdən məmnunluq səviyyəsini artırmağı hədəfləyən bu yanaşmanı ən effektiv şəkildə tətbiq edən ölkələrdən biridir. Əmək haqqı sistemində ədalət və bərabərliyi ön plana çəkərək işçi heyətin fəaliyyətinə uyğun olaraq mükafat alması və vəzifəsinin artırılması təmin edilmişdir. Bununla bərabər rəhbər və işçilərin fəaliyyətində məqsəd birliyi və işçilərin fikirlərini rahat ifadə edə biləcəkləri mühit yaradılmışdır. Qeyd olunanların sayəsində yeni ideyaların yaranmasına infrastruktur hazırlanarkən digər tərəfdən işçilərdə aidolma duyğusunu artıraraq təşkilat mədəniyyətinin formalaşmasına tohfə verilmişdir.

Yuxarıda qeyd olunan ölkələrin təcrübələri digər ölkələr üçün nümunə rolunu oynayır. Nəzərə alsaq ki, Azərbaycanda yerli özünüidarəetmə orqanları yeni qurumlardır, effektiv fəaliyyət, mövcud və gələcəkdə yarana biləcək problemlərin aradan qaldırılması üçün dünya təcrübəsinə müraciət edilməlidir. Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə Türkiyənin 19, Latviyanın 9 və digər ölkələrin 7 bələdiyyəsi ilə respublikamızın bələdiyyələri arasında qarşılıqlı əməkdaşlığa dair protokollar imzalanmış və dostluq əlaqələri qurulmuşdur [4]. Atılan uğurlu addımlarla bərabər yerli özünüidarəetmə orqanlarında bir sıra sahələrdə yeniliklər həyata keçirilməli, hüquqi bazada dəyişiklik edilməli və xüsusilə məhsuldar fəaliyyət üçün vacib amil olan insan resurslarının təkmilləşdirilməsi istiqamətində islahatlar həyata keçirilməlidir. Azərbaycanda bələdiyyələrdə insan resurslarının fəaliyyəti araşdırıldıqda həll edilməli bir sıra problemlər olduğu qarşımıza çıxır.

Bələdiyyələrin effektiv fəaliyyət göstərməsinə təsir edən başlıca amil kadr potensialıdır. Azərbaycanda yerli özünüidarəetmə sistemində on beş mindən artıq seçkili üzv və buna paralel olaraq on beş mindən bir qədər artıq bələdiyyə qulluqçusu xidmət edir. Yerli özünüidarəetmə orqanlarının cari insan resursları bələdiyyələrin mövcudluq səbəbinə uyğun fəaliyyət göstərməsinə imkan vermir. Tədqiqatçılar məhz Azərbaycanda yerli özünüidarəetmə orqanlarının fəaliyyət təkmilləşdirilməsi üçün səlahiyyət və maliyyə məsələlərini daha çox araşdırırlar. Ancaq qeyd etməliyəm ki, bu problemlər həll edilsə belə kadrların peşəkarlığının aşağı olması nəticəsində əhaliyə keyfiyyətsiz, tələblərə uyğun olmayan xidmət göstəriləcək.

Yerli özünüidarəetmə orqanlarında çalışan şəxslərin peşəkar olmaması, bələdiyyələrin qəbul etdiyi qərarların icrasına nəzarətin qənaətbəxş olmaması, bələdiyyələrin fəaliyyətinin təkmilləşməsinə mane olan başlıca səbəblərdir. Yerli özünüidarəetmə orqanlarının

inkişafına təsir edən başlıca amil kadr potensialıdır. Dövlət xidmətlərinin məhsuldarlığının və keyfiyyətinin artırılması da bu xidməti yerinə yetirəcək işçi heyətinin hansı nəzəri və təcrübi biliklərə sahib olması vacib rol oynayır. Vətəndaşların daimi və sürətli dəyişən tələb və ehtiyaclarının yerinə yetirilməsi üçün bu xidməti icra edən kadrlar müasir təhsilli, yeni texnologiyalardan istifadə edə bilən olmalıdır. İnsan resurslarının idarə edilməsində təhsil anlayışı iki mənada işlənir – xidmətdən öncə və xidmətdaxili. Xidmətdən əvvəlki təhsil dedikdə, müvafiq peşə ixtisasının tədrisi həyata keçirən təhsil müəssisəsində mənimsənilən təhsil nəzərdə tutulur. Xidmətdaxili təhsil isə işçilərin çalışdıqları müəssisə də özlərini inkişaf etdirə biləcəkləri, yenidən təhsil, ixtisasartırma və peşəyə müvafiq təlimlər və s. cəlb olunması nəzərdə tutulur. Azərbaycanda bələdiyyəyə kadr hazırlanması üçün bir sıra özəl və dövlət ali təhsil müəssislərində "Dövlət və bələdiyyə idarəetməsi" ixtisası mövcuddur ki, bu sırada Azərbaycan Dövlət İqtisad Universitet, Azərbaycan

Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Mühəndislik Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Texnologiya Universiteti [Gəncə], Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Biznes Universiteti, Naxçıvan Dövlət Universiteti və Gəncə Dövlət Universitetini qeyd edə bilərik. Ancaq sözügedən universitetlərin məzunları mövcud problemlər səbəbilə bələdiyyələrdə karyera üçün maraqlı deyillər.

Azərbaycanda bələdiyyələrdə xidmətdaxili təhsil problem olaraq qalır. Bu problemi aradan qaldırmaq üçün bələdiyyələr hansı təlimlərə ehtiyac olduğunu müəyyənləşdirmək üçün mexanizm hazırlamalıdırlar. Yerli özünüidarəetmə kadrlarının ixtisaslarının artırılması və yenidən hazırlığı barəsində milli strategiya hazırlanmalı, regional miqyasda da təlim və tədrislə məşğul olan mərkəz yaradılmalıdır.

Dünyanın qabaqcıl ölkələrinin və Azərbaycanın yerli özünüidarəetmə orqanlarında insan resurslarının

idarə edilmnəsinin tədqiqinə əsasən müasir yerli özünüidarəetmə orqanlarının insan resurslarının edilməsi strategiyalarının formalaşdırmaq üçün aşağıdakılar həyata keçirilməlidir:

1. Kadr sistemi karyera əsaslı olmalı;
2. Kadrların işə götürülməsi və vəzifələrinin artırılmasında şəffaflıq prinsipinə istinad edilməlidir;
3. Yerli özünüidarəetmə orqanlarında çalışan hər bir kadra xidmət daxili təhsil verən mərkəz yaradılmalıdır;
4. Universitetlərdə yerli özünüidarəetmə ixtisası açılmalı və bələdiyyələrdə işə başlıca olaraq həmin ixtisasın məzunları cəlb olunmalıdır;
5. Kadrlar ilə xalq arasında bütövlük və həmrəylik ideyası formalaşdırılmalıdır;
6. Yerli özünüidarəetmə orqanlarının effektivlik və səmərəliliyini artırmaq, iş şəraitini yaxşılaşdırmaq üzrə işçi və rəhbərliyin nümayəndələrinin də iştirak edəcəyi "İdarəetməni təkmilləşdirmə qaydaları" hazırlanmalıdır.

Azərbaycanda bələdiyyələrin effektiv fəaliyyətindən danışmaq üçün hələ tez olmasına baxmayaraq dövlət yerli özünüidarəetmənin təkmilləşdirilməsi üçün islahatlar həyata keçirməyə davam edir.

Xülasə

Yerli özünüidarəetmə orqanları xidmət etdikləri bölgədə yaşayan əhaliyə bir çox sahədə ən yaxın formada xidmət verən qurumlardır. Xalqa düzgün, operativ, keyfiyyətli və səmərəli xidmət göstərilməsi bələdiyyələrdə fəaliyyət göstərən insan resurslarının peşəkarlığından birbaşa asılıdır. Bu tədqiqatda bələdiyyələrin strateji insan resurslarının idarə edilməsinə keçidlərini zəruri edən səbəblər, dünyanın qabaqcıl ölkələrində yerli özünüidarəetmə orqanlarında insan resurslarının idarə edilməsi təcrübəsi, həmin təcrübə ilə müqayisə də Azərbaycan bələdiyyələrində insan resurslarının idarə edilməsinin mövcud problemləri və həlli yolları araşdırılmışdır.

Açar sözlər: yerli özünüidarəetmə, bələdiyyə, insan resursları, qloballaşma

Development of human resources management strategy in local self-governance organizations.

Summary

Local self-governance organizations are the closest service providers in many areas in the territory where they serve. Proper, operative, quality, and efficient public service depends directly on the professionalism of human resources in municipalities. This study focuses on the reasons why municipalities should be transitioning to strategic human resources management, human resource management practices in local self-governance bodies in the world's leading countries, and the current problems and solutions of human resources management in Azerbaijani municipalities.

Key words: local self-governance, municipalities, human resources, globalization

İstinad olunan ədəbiyyat siyahısı

1. Akif Helvacı: "Performans Yönetimi Sürecinde, Performas Değerlendirme", **Eğitim bilimleri jurnalı**, Ankara Üniversitesi Nəşri, cilt: 35, sayı: 1-2, 2002, ss. 155-169
2. Ceylan, Ramazan, Taşçı, Deniz və digərləri: **Örgütlerde İnsan Kaynakları Yönetimi**, 1-ci nəşr, Eskişehir, Anadolu Üniversitesi Nəşri, 2013
3. Emel Erdoğdu: **İnsan Kaynakları Yönetiminde Personel Seçimi ve Psixoteknik Testlerin Önemi**, Ankara, y.y., 2013
4. http://belediyye.info/new/details/azerbaycan-belediyyelerinin-17-illik-fealiyyeti-----noqsanlar,-ugurlar-ve-prespektivler--2062.htm
5. Hüdaverdi Bircan, İskender Gülsever: "İş Ölçümü Tekniklerinden Zaman Etüdü Üzerine Bir Uygulama", **İktisadi ve idari bilimler jurnalı**, Cumhuriyyet Üniversitesi Nəşri, cilt: 6, sayı: 2, 2005, ss. 199-219

6. İhsan Özeroğlu: “Yerel Yönetimlerde Toplam Kalite Yönetimi” ,**Tarih okulu dergisi**, sayı: XXI, 2015, ss 539-581
7. Mustafa Çelikten: “Neden İş Analizi Yapılmalı?”, **Sosyal bilimler enstitüsü jurnalı**, cilt 1,sayı 18, 2005, ss 127–135
8. Özlem Uzun, Cavide Uyargil və digərləri: **Performans ve Kariyer Yönetimi**, Eskişehir, Anadou Üniversitesi Nəşri, 2011
9. Sevgi Taşdemir: **Motivasyon Kavramına Genel Bir Bakış Motivasyon Araçları ve Bilgi Teknolojileri ve İletişim Kurumu Ölçeğinde Bir Model Önerisi**, Ankara, Bilgi teknoloji ve iletişim kurumu Nəşri, 2013
10. Tonus, Zümrüt, Ceylan, Ramazan və digərləri: **İnsan Kaynakları Yönetimi**, 1-ci nəşr, Eskişehir, Anadolu Üniversitesi Nəşri, 2013

Azərbaycanda turizm marketinqinin və ölkəmizin turizm imkanlarının tanıdılmasının mövcud problemləri

Leyla ATAKİŞİYEVA

Azərbaycan Turizm və Menecment Universiteti

l.atakishiyeva@atmu.edu.az

Xülasə: Məqalədə müəllif göstərir ki, tədqiqatın aparılmasında əsas məqsəd Azərbaycan Respublikasında turizmi imkanlarının tanıdılmasında mövcud olan problemlər, mövcud vəziyyət və çıxış yollarının müəyyən edilməsindən ibarətdir. Bu mövzunu tədqiq etməkdə, öyrənməkdə məqsəd Azərbaycanın turizminin tanıdılması və turizm marketinq strategiyasının inkişafı üçün turizmin potensial imkanlarından maksimum dərəcədə istifadə edərək ölkə vətəndaşları üçün yüksək səviyyəli,

müasir turizm xidmətlərinin göstərilməsi yollarının müəyyən edilməsindən ibarətdir.

Beləliklə, digər məqsəd isə bu mövzunu tədqiq etməklə insanları məlumatlandırmaq və turizm imkanlarının tanıdılması mövzususunun Azərbaycan Respublikası üçün aktual mövzu olduğunu bir daha vurğulamaqdan ibarətdir**.**

Açar sözlər: turizm, marketinq, mehmanxana, destinasiya, informasiya və kommunikasiya texnologiyaları.

Abstract: The major goal in this research is consists of identifying the existing problems the existing situation in advertisement of tourism opportunities of the Azerbaijan Republic, as well as identifying solutions to them. The major goal in studying this topic is to identify the ways of giving qualitative and modern tourism services by utilizing potential opportunities of tourism at maximum level in

order to advertisement and development of tourism marketing strategies.

The other goal in studying this topic is to raise awareness of people and to underline the urgency of the topic of advertisement of tourism opportunities for Azerbaijan.

Key words: tourism, marketing, hotel, destination, information and communication technologies.

Резюме: В статье автор утверждает, что основная цель исследования - выявить существующие проблемы в развитии туристических возможностей в Азербайджанской Республике, которые определяют текущую ситуацию и пути разрешения. Целью данного исследования является определение способов предоставления высококачественных, современных туристических услуг для граждан страны, а также использование потенциала туризма

для максимизации стратегии продвижения туризма в Азербайджане.

Таким образом, главная цель - подчеркнуть вопрос информирования населения и введения туристических возможностей для Азербайджанской Республики путем изучения туристского сектора.

Ключевые слова: туризм, маркетинг, гостиница, дестинация, информационно - коммуникационные технологии.

Son illər Azərbaycanda həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafına, makroiqtisadi göstəricilərin davamlı artımına səbəb olub. Bu nailiyyətlərin əldə edilməsində turizm sənayesinin də müəyyən payı var. Azərbaycanın coğrafi təbiəti, tarixi, iqlimi, abidələri, mətbəxi, xalqımızın zəngin mədəniyyəti və digər amillər turistlərin Azərbaycana səfər etməsinə yol

açmışdır. Unikal coğrafi, geosiyasi və iqlim xüsusiyyətlərinə malik ölkə kimi, turizm bölgəsi kimi təbiəti-landşaftın rəngarəngliyi, iqlimin saflığı, mineral suları və qumlu dəniz sahilləri ilə zəngin olan bölgələrə turistlər daha çox üstünlük verirlər.

Turizm sahəsindəki ən böyük layihələri sırasında "Şahdağ" qış-yay turizm kompleksinin tikintisindəki əsas iş infrastrukturun yaradılmasından ibarətdir. Artıq bu kompleksin fəaliyyətini təmin etməyə qadir olan infrastruktur tamamlanmış, pilot layihə, avadanlığı sınaqdan keçirilmişdir. Hazırda qış üçün xizək idman növü ilə maraqlananlar kompleksin fəaliyyətindən istifadə edirlər.[1]

Azərbaycanda turizm sahəsi ilə bağlı BMT-nin İnkişaf Proqramının layihəsi çərçivəsində 4 beynəlxalq, 3 yerli tədqiqatı, Regional Turizm İnformasiya Mərkəzinin heyəti üçün 6 təlimi, turizm sahəsinin işçiləri üçün bir sıra təlimat kitabçalarının nəşrini həyata keçirmişdir. Bu isə artıq xaricilərin ölkəmizə diqqətinin, axınının

artdığını göstərir. Cədvəl 1.dən də göründüyü kimi bir çox iqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu və gecələmələrin sayında artım var.

Cədvəl 1.

İqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu və gecələmələrin sayı

İqtisadi rayon	Birdəfəlik tutum, yer		Gecələmələrin sayı, adam-yer	
	2015	2016	2015	2016
Abşeron	1351	821	13662	15344
Gəncə - Qazax	3006	2911	155.079	113943
Quba –Xaçmaz	9691	9572	54441	62 730
Şəki – Zaqatala	2583	4469	51064	334.704
Lənkəran	2751	2984	51064	36011

Aran	2068	2099	54441	62730
Yuxarı Qarabağ	30	30	634	520
Dağlıq Şirvan	1571	1688	22449	25233

Verilən göstəricilərə əsasən Azərbaycanın iqtisadi rayonlar üzrə turizm xəritəsini müəyyənləşdirdikdə məlum olur ki, ölkənin şimal-şərqində - Bakı-Xaçmaz turizm marşrutunun üstündə yerləşən Quba-Xaçmaz iqtisadi rayonu və Bakı-Abşeron və Şəki-Zaqatala turizm bölgələri arasında yerləşən Şamaxı-Qəbələ bölgəsi digərlərinə nisbətən daha çox sırf turizm bölgəsi kimi tanınır. Aparılan təhlillər göstərir ki, bu bölgələrin sırf turizm bölgəsi kimi tanınmasında Nabranda və Qəbələdə yerləşən beynəlxalq əhəmiyyətli turizm mərkəzlərinin, Şamaxıda Astrofizika Rəsədxanasının və dağ-turizm bazasının yaradılmasının, İsmayıllıda qədim qalaların, Lahıc

Dövlət Tarix-Mədəniyyət Qoruğunun da böyük əhəmiyyəti var.

Qəbələnin demək olar hər il 10-dan artıq yerli və beynəlxalq əhəmiyyətli iqtisadi və mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi rayona işgüzar səfərə və istirahətə gələnlərin sayının artmasına səbəb olmuşdur. Statistikay görə, 2015-ci ildə Qəbələyə 7653 turist, 2016-cı ildə isə 300335 turist səfər edib.

Hazırda rayonda irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyətdədir. Qəbələdə müasir standartlara cavab verən turizm obyektlərinin sayı ötən illərə nisbətən artıb. Həmin turizm mərkəzlərində yüksək səviyyədə restoran və hotel xidmətlərinin, eləcə də, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, görməli yerlərə və tarixi abidələrə səyahət və s. xidmətlərin göstərilməsi üçün geniş imkanlar yaradılıb.

Azərbaycana turist səfərlərinin bu sayda olmasında Qəbələdə yerləşən beynəlxalq əhəmiyyətli turizm mərkəzlərinin, Şamaxıda Astrofizika

Rəsədxanasının və dağ-turizm bazasının yaradılmasının, İsmayıllıda qədim qalaların, Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun da böyük əhəmiyyəti var. Bu yay turizm mövsümündə istirahət mərkəzlərində xidmətlərə görə qiymətlər ötən illə müqayisədə xeyli aşağı enmişdir.

Onu da qeyd edək ki, müstəqilliyimizin bizə verdiyi imkanlar nəticəsində Bakıda yeni beşulduzlu hotellər, mehmanxana istifadəyə verilib. Ölkə Prezidenti İlham Əliyevin turizmin inkişaf etdirilməsi ilə bağlı məlum sərəncamları bu sahənin inkişafını daha da sürətləndirib. Statistik rəqəmlərə istinad etsək görərik ki, 2005-ci il Azərbaycana xaricdən 12821 min turist gəlmişdir. Bu göstəricilərə əsasən 10 il ərzind 12.1% artım olmuşdur. Bütün bunlar Azərbaycana gələcək turistlərin sayının artmasına və ölkəmizin turist ölkəsi kimi beynəlxalq miqyasda yer qazanmasına səbəb olur.

İsmayıllı, daxili, habelə, xarici turistləri təkcə əsrarəngiz təbiəti, gözəl flora və faunası ilə yox, həm də qədim və orta əsrlərə dair çoxsaylı tarixi və mədəniyyət abidələri ilə də cəlb edir. Hazırda rayonda dövlət qeydiyyatında olan 238 abidə var. Bu abidələrin 108-i qədim yaşayış məskəni olan Lahıc qəsəbəsindədir. 2010-cu ildə İsmayıllıda daha 55 abidə aşkarlanıb ki, onların siyahısı qeydiyyat üçün Mədəniyyət və Turizm Nazirliyinə göndərilib. Bu abidələrdən 2-si qazıntı zamanı təsadüfən tapılan və eramızdan əvvəlki minilliyə aid edilən Pirdinar və Şəbiyan kəndlərinin ərazilərindəki qədim yaşayış məskənləridir. Son illər rayonda turizmin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Bir çox otellərin inşası ölkəmizə gələn axının yüksək səviyyədə təminatına əsas verən şərtlərdəndir. Yayın ilk ayında artıq Xaçmaz, Qəbələ, İsmayıllı, Şamaxı, Quba, Masallı kimi istirahət zonalarında istirahət edənlərin sayının artması Azərbaycan

turizminə olan diqqətin göstəricisini ortaya qoydu. Tamamlanmış infrastruktur layihələrin, o cümlədən, Bakı-Şamaxı və Bakı-Xaçmaz yolu turist axınına müsbət təsirinin də qeyd etməliyik.[1]

"Turizm ili"ndə turist axını çox olan rayonlarda "Bu Vətən bizimdir" adlı turist düşərgələrinin təşkil edilməsi, Azərbaycanın "Əfsanələr paytaxtı" Şabranda, "Folklor paytaxtı" Lənkəranda və "Sənətkarlıq paytaxtı" İsmayıllıda milli dəyərlərin təbliği məqsədi ilə tədbirin keçirilməsi, eləcə də, Naxçıvan Muxtar Respublikasında mövcud olan türbələrin YUNESKO-nun Mədəni İrs Siyahısına daxil edilməsinə dair sənədlərin hazırlanması və s. Azərbaycanın geniş məkanda tanılmasına təsirini göstərməkdədir.

Məlumdur ki, bu gün Azərbaycanda turizm bazarı açıq, rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur.

Bu göstəricilər Azərbaycanın yaxın gələcəkdə dünyanın ən məşhur turizm ölkəsinə çeviriləcəyindən xəbər verir. Bunun nəticəsində bu il ölkəmiz turizm sahəsində bir sıra ölkələrlə əməkdaşlıq əlaqələrini genişləndirəcək. Hazırda Azərbaycanda dünyanın 20-dən çox ölkəsi ilə turizm sahəsində əməkdaşlıq haqqında saziş layihələri hazırlanıb. Azərbaycanın turizm imkanlarının körfəz ölkələri, həmçinin, Küveyt dövlətində tanıdılması məqsədilə Küveytin "Dnata" turizm şirkəti ilə Mədəniyyət və Turizm Nazirliyi arasında anlaşma memorandumunun imzalanması istiqamətində müvafiq işlər aparılır.

Müasir dövrdə ölkəmizdə turizminin tanıdılması istiqamətində bir sıra işlər görülür amma bunlar kifayət etmir. Buna səbəblərindən bir neçəsini vurğulamaq vacibdir.

Birincisi, əsas məsələlərdən biri ondan ibarətdir ki, keçən əsrin 80-ci illərinin sonunda 90-cı illərinin əvvəllərində Azərbaycanın siyasi, iqtisadi və sosial

həyatında baş verən proseslər turizm kompleksinin təşkili, idarəedilməsi, maliyyələşdirilməsi, insanların istirahətinin, müalicəsinin və sağlamlaşdırılmasının təşkili, kadr təminatı sahəsinə təsirsiz ötüşməmiş, nəticədə mərkəzləşdirilmiş turizm kompleksinin və sanatoriya-kurort xidmətlərinin ümumdövlət sisteminin ahəngdar fəaliyyəti pozulmuşdur. Bunun nəticəsi olaraq da bir neçə illər turizminin tanıdılması istiqamətində görülən işlər nəticəsiz qalmışdır.

Hal-hazırda turizm sistemində digər problemlər də mövcuddur, xidmətin, qidalanma səviyyəsinin, maddi-texniki təchizatın yaxşılaşdırılmasına ciddi ehtiyac var. Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı əsasında 2011-ci il "Turizm ili" elan olunmuşdur. Bu sənəd ölkəmizin önəmli sahələrdən biri olan turizmə diqqətin daha da artmasına gətirib çıxaracaq. Dövlət rəhbəri tərəfindən bu addımın atılması turizm sektoru üçün bir avans kimi qiymətləndirilib. Bir il müddətində turizm sahəsində

atılacaq addımlar həm Dövlət Proqramının icrasına, həm də turizm sənayesinin inkişafına müsbət təsirini göstərəcək.

Eyni zamanda AR-ın müharibə vəziyyətində olması turizm xidmətlərdən istifadə etmək üçün gələcək turistlərin təhlükəsizliyi baxımdan ciddi narahatlıq doğurur ki, bu da öz növbəsində tanıdılmanın yüksək səviyyədə həyata keçirilməsi üçün problemlər yaradır və Azərbaycan torpaqlarının 20%-nin ermənilərin işğalı altında olması, bu ərazilərdə mövcud olan potensial Azərbaycan turizmi imkanlarının tanıdılmasını və istifadəsini mümkünsüz edir.

Yuxarıda göstərildiyi kimi, ən vacib problemlərdən biri də məhz mövcud infrastrukturun müasir standartlara cavab verməməsidir. Bildiyimiz kimi, turizmdə infrastruktur hər hansı bir turizm obyektinin tanıdılmasında çox önəmli faktorlardan biridir.

Turizminin tanıdılması və reklam edilməsi yolunda ən vacib problemlərdən biri də turizm sahəsinə xarici və yerli investisiya axını mexanizminin olmamasıdır. Təbii ki, əgər azad sahibkarlar bu işdə maraqlı olsalar, o zaman onlar tanıtım işlərini daha yüksək səviyyədə təşkil edəcəklər ki, çox sayda yollayışların satışına nail olsunlar və xeyir qazansınlar. Amma bu problem də hələ ki, öz həlli yolunu tapmamışdır. [10, səh 135]

Digər problem isə ondan ibarətdir ki, tələbat yüksək olan mövsümdə verilən reklam çarxları və digər tanıtım vasitələri çoxluq təşkil edir, amma tələbat aşağı olan mövsümə gəldikdə isə bu tanıtma işlərində kəskin azalma hiss olunur ki, bu da turizminin tanıdılması üçün təsirsiz ötüşmür və bugünlərdə aktual problem olaraq qalmaqdadır.

Hər bir problemin həlli yolu olduğu kimi, bu problemlərin də həll edilməsi üçün bir sıra alternativlər vardır. Qısaca olaraq onlara nəzər yetirək.

Birincisi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (I mərhələ 2004-2008/ II mərhələ 2009-2013/ III mərhələ 2014-2018-ci illər)" və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2009-cu il 6 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın əsas məqsədləri Azərbaycanda kurortların, müalicə-sağlamlıq və istirahət ocaqlarının inkişaf etdirilməsindən, onların fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə və tələblər əsasında təşkil olunmasından, ölkə ərazisində mövcud təbii müalicə ehtiyatlarından səmərəli istifadənin təmin edilməsindən ibarətdir. [1]

Sanatoriyalar, istirahət müəssisələri və turizm bazarlarının 2006-cı il göstəricilərinə baxsaq görərik ki, 13 istirahət evləri və pansionatlarda təklif olunan

yer sayı 1119 olmuşdursa bu göstərici 2011-ci ildə 1578 yer olmuşdur. [səh 306]

Buradan aydın görmək mümkündür ki, Dövlət Proqramında beynəlxalq turizm xidmətləri bazarına çıxışın təmin edilməsi üçün reklam-marketinq və digər işlərin həyata keçirilməsi, o cümlədən, turizm sahəsində özəl sektorun fəaliyyətinin dəstəklənməsi, turizm sahəsinin zəruri infrastrukturla, ilk növbədə elektrik enerjisi, qaz, istilik və içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması, turizm obyektlərinin yerləşdiyi bölgələrə gedən yolların əsaslı təmir edilməsi, turizm müəssisələri üçün yüksək ixtisaslı kadrların hazırlanması, mövcud mütəxəssislərin ixtisasının artırılması, turizm fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi kimi prioritet məsələlər öz əksini tapmışdır. [3]

Buradan belə nəticəyə gəlmək olar ki, qəbul olunmuş Dövlət Proqramları çox mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda qeyd etmək lazımdır ki, turizm komplekslərin büdcədən maliyyələşməsi hesabına genişlənməsi onların qısa zamanda daha çox müvəffəqiyyət əldə etməsi, uğur qazanması və inkişafı üçün problemin həlli yolu ola bilər.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək ölkə turizmini daha da irəliyə aparacaq bir neçə tədbiri sadalamaq məqsədəuyğun olardı.

Bir çox materialları araşdırdıqdan, bir çox destinasiyaların təcrübəsinə nəzər saldıqdan sonra əminliklə deyə bilərik ki, hər hansı bir yerin turizm destinasiyası kimi uğur qazanmasının ən birinci şərti onun bazarda xüsusi mövqeləndirilməsidir. Bu mövqe rəqiblər üzərində rəqabət üstünlüyü qazanmağa xidmət edən faktorlardan biridir. Turizm destinasiyasi turistləri cəlb edə bilmək üçün turistlərə qonşularına və

ümumiyyətlə rəqiblərinə nisbətdə hansı əlavə dəyərləri verdiyini göstərməlidir.

Məhz bu xüsusiyyət reklam prosesi ndə xüsusilə vurğulanmalı və obraz olaraq onun potensial turistlərin beynində qalması təmin olunmalıdır.

Bir çox destinasiyalar etdiyi kimi TWITTER, FACEBOOK və s. kimi internet portallarından daha geniş istifadə Azərbaycanın daha da böyük göstəricilərə nail olmasına gətirib çıxaracaqdır.

Ölkəyə gələn turistlərin demoqrafik göstəriciləri diqqətlə öyrənilməli və məlumat bazası yaradılmalıdır. Bu reklam prosesinin, qiymət strategiyasının inkişaf etdirilməsi zamanı destinasiya marketinq təşkilatlarına böyük imkanlar yaradacaqdır.

Azərbaycan haqda mövcud olan mənfi rəylər ölkəmizə turist axını ləngidən ən böyük faktorlardandır. Bu mübarizə aparılmalı ən başlıca məsələdir. Lakin bu problemlərlə mübarizə apararkən,

Kolumbiyanın krizis menecmentinə əsaslanaraq yalnız doğru və obyektiv məlumatlar verilməlidir.

Türkiyənin də istifadə etdiyi kimi müxtəlif bazarlarda müxtəlif reklam çarxlarının nümayişi həm rekamın effektivliyini həm də turist sayını artıracaqdır. Çünki müxtəlif ölkələrdə yaşayan potensial turistlərin gözləntiləri, istək və ehtiyacları müxtəllifdir. Buna ümumilikdə müxtəlif hədəf kütlələrinin müəyyənləşdirilməsi də deyə bilərik. [9, səh 21]

Vasitəçilərin info-turlar və s. vasitələrlə stimullaşdırılması bugünki vəziyyətdə həyata keçirilməsi vacib olan məsələlərdəndir.

Azərbaycan xaricindəki bazarlarda potensial turistlər arasında diqqətli araşdırmaya böyük ehiyac vardır. Məhz araşdırma nəticəsində insanların ölkəmiz haqda düşüncələrini öyrənmək, onları analiz etmək və beynəlxalq turizm bazarında marketinq strategiyasını bunun əsasında qurmaq daha uğurlu və effektiv nəticələrə gətirib çıxaracaqdır.

Bu tədqiqatda həyata keçirdiyim araşdırmaların nəticəsində belə bir qərar gəldim ki, Azərbaycanın turizmini təbliğ etmək üçün indiyə qədər çox iş görülmüşdür, lakin hələ də görülməli çox iş vardır. Öyrəndiyim digər mühüm məsələ isə turizmdə mümkün olmayan heç nəyin olmamasıdır. Professional və təcrübəli turizm mütəxəssisləri hər hansı bir yeri turizm destinasiyasına çevirə bilmək bacarığına malikdirlər. Azərbaycanı isə onun bütün təbii gözəllikləri, qədim tarixi və adət-ənənəsi, qonaqpərvəriyi ilə uğurlu destinasiyaya çevrilməsi çox zövqlü və sonu mütləq uğurlu olacaq işdir [11].

Bir çox destinasiyalar çox çətin vəziyyətlərdən uğurlu çıxış yolları tapmışlar. Burada vacib məsələ bütün güclərin bir araya gətirilməsidir.

Bir çox ölkələrin turizm təşviqat proqramları ilə tanış olduqda onları hamısında bir xüsusiyyət diqqəti cəlb edir. Bu da reklam edilən yerin özünəməxsusuluğunun vurğulanmasıdır. Hindistan bunu orada yaşayan milli

azlıqların unikal həyat tərzi və adət-ənənlərini təbliğ etməklə, Türkiyə regionlarının hərəsi üçün xüsusi reklam çarxlarının hazırlanması ilə həyata keçirir.

Bu turistlərin cəlb edilməsində başlıca faktordur. Çünki, hara səyahət edəcəkləri ilə bağlı qərar qəbul etmə mərhələsinə olan turistin beynində Azərbaycanla bağlı müəyyən dəqiq mesaj və yaxud obraz olmalıdır. Bu ilki təşviqat çarxı qədim və unikal sənət növümüz olan xalçaçılığı uğurla vurğulamışdır. istirahət məqsədilə gələn turistlərin sayındakı yüngül atrış göstərir ki, təbiətimizin daha geniş təbliğinə ehtiyac var.

ƏDƏBİYYAT SİYAHISI:

1. "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"6 fevral 2009-cu il.

2. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" 6 aprel 2010-cu il.
3. Armstronq H.B, Kotler F. Marketinq. İlk Addım, 7-ci nəşr, Bakı:"Azərbaycan marketinq cəmiyyəti", 2006, 582 s.
4. Aktaş A.; Turizm İşletmeciliği Ve Yönetimi, Detay Yayıncılık, Antalya, 2002.
5. Artun, Halk Kültürünün Uluslararası İlişkilerde Ülkelerin Tanıtımına Katkısı, 2003.
6. Avcıkurt, C. ,Turizmde Tanıtma ve Satış Geliştirme, V Ulusal Pazarlama Kongresi, 2005.
7. Çeken H., Ateşoğlu L., Dalgın T., Karadağ L., Elektronik Sosyal Bilimler Dergisi, Turizm Talebine Bağlı Olarak Uluslar Arası Turizm Hareketlerindeki Gelişmeler, Güz- 2008 C.7 S.26, 2008.
8. Hacıoğlu N., Turizm Pazarlaması, Uludağ Üniversitesi Güçlendirme Vakfı Yayınları, Balıkesir, 2000.

9. İçöz O. , Turizm İşletmelerinde Pazarlama, Turhan Kitabevi Yayınları, İzmir, 2001.
10. Rızaoğlu B. , Turizmde Tanıtma, Detay Yayıncılık, Ankara, 2004.
11. Sarı Y.; Kozak M., "Turizm Pazarlamasına İnternetin Etkisi: Destinasyon Web Siteleri için Bir Model Önerisi", Akdeniz Üniversitesi İ.İ.B.F. Dergisi, 2005.